SEVİNDİK NƏSİBOĞLU

-64442

# MÖHTƏŞƏM ZƏFƏRİN NİŞANƏSİ

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI-2021

**Redaktor:** Əli Rza Xələfli,
şair, yazıçı-publisist

Sevindik Nəsiboğlu. **MÖHTƏŞƏM ZƏFƏRİN NİŞANƏSİ.** "Bakı Mətbəəsi" ASC. Bakı-2021. səh. 708

*Məktəbli şair-publisist, olduqca zəhmətkeş yazar Sevindik Nəsiboğlu "Möhtəşəm Zəfərin nişanəsi" adlı kitabı ilə oxucularla sayca 5-ci dəfə görüşür. Müəllifin "Dünyamsan Azərbaycan" və "Hərdən uçmaq istəyirəm" adlı şeir kitabları 2018-ci ildə, "Ulu Naxçıvanım" adlı nəsr və "Konüllərə yol gəzirəm" adlı şeir kitabları isə 2020-ci ildə nəşr edilmişdir. Bu kitabların hər biri müəllifin kimliyini görmək, onun daxili aləmini tədqiq etmək üçün kifayət edəcək gücdədir. 700-dən çox səhifədə qərar tutmuş "Möhtəşəm Zəfərin nişanəsi" adlı kitabın əsas mövzusunu 1-ci Qarabağ müharibəsi, atəşkəs dövründə, 2016-cı ilin aprel və 2020-ci ilin Tovuz döyüşləri, nəhayət, 44 günlük Vətən müharibəsi zamanı canlarını qurban vermiş şəhidlərimiz, sağlamlığını itirmiş qazilərimiz, müharibə iştirakçıları haqqında həssaslıq, vətənpərvərlik, kədər içərisində qürur və sevinclə qələmə alınmış, Vətən oğullarının qısa, lakin olduqca mənalı və qürurverici həyat və döyüş yollarından bəhs edən publisistik məqalələr, məqalə-şeirlər, şeirlər, düşmən tapdağından azad edilmiş şəhər, qəsəbə və kəndlərimizə, şanlı ordumuza, türkçülüyə, qəhrəmanlığa həsr edilmiş zəfər ətirli şeirlər, anım tədbirlərində çıxışlar, eləcə də 1992-2020-ci illərdə Vətən uğrunda canlarını fəda etmiş qəhrəman Azərbaycan oğulları haqqında müəllif tərəfindən yaradılmış Vikipediya səhifələri təşkil etmişdir. Belə ki, ümumilikdə, 76 şəhid, 2 qazi və 2 müharibə iştirakçısı haqqında məqalə və şeir, azad edilmiş ərazilərimiz və vətənpərvərlik mövzusunda 40-dək şeir və 365 Vikipediya səhifəsi kitabda yer almışdır. Kitabı 400-dən çox Vətən oğulları –şəhidlərimiz, qazilərimiz və müharibə iştirakçıları haqqında ensiklopedik toplu kimi də qəbul etmək olar. Kitabda yer almış bir çox yazılar müəllifin redaksiya heyətinin üzvü və ən gənc müxbiri olduğu "Kredo" qəzetində, "Afia.az" saytında və digər xəbər saytlarında dərc edilmişdir.*

*Vətənini, millətini, torpağını, müzəffər ordusunu, Vətən fədailərini sevən hər bir şəxs üçün bu kitabın maraqla qarşılanacağına Möhtəşəm Zəfərimiz kimi inanırıq.*

030
-----------------qrifli nəşr
28102021

© Sevindik Nəsiboğlu





*Arzu edirəm ki, sizinlə birlikdə yenidən Şuşaya gedək. İnanıram ki, biz gedəcəyik. Buna inanın. Şuşa təkcə şuşalılar üçün deyil, hər bir azərbaycanlı üçün əziz bir anlayışdır, deyə bilərəm ki, Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Ona görə də Şuşa təkcə yaşayış məkanı deyildir. Şuşa bizim milli rəmzimizdir, mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma tək Şuşa yox, Laçın dağları da əzizdir. Laçın Azərbaycanın ən yüksək dağları, gözəl, səfalı meşələri, bulaqları, çayları olan bir diyarımızdır. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, məkan, bağ-bağat, gözəl yer, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o yüksək dağları, çeşmələri, İstisuyu - biz onlarsız heç vaxt yaşaya bilmərik. Heç vaxt Azərbaycanı bu gözəl guşələrsiz təsəvvür edə bilmərik. Mən bu yerlərin adlarını çəkirəm, təbiəti haqqında danışıram. Məhz bu təbiətdə, o yerlərdə Azərbaycan xalqını yaşadan böyük adamlar, sizlər Azərbaycanın əziz insanlarısınız. Ona görə mən bu əziz bayram günü məhz sizinlə olmağı özüm üçün ən xoşbəxt bir hadisə hesab edirəm.*

*Bu gün Novruz bayramını bir yerdə keçiririk. Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə gələcəyəm Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır. Mən buna inanıram və bu inamla yaşayıram, bu inamla işləyirəm və bu inamla da Azərbaycan xalqına rəhbərlik edirəm.*

***Ümummilli lider Heydər Əliyevin Novruz bayramı çıxışından***



*Əziz həmvətənlər, Anım Günündə bütün şəhidlərimizin xatirəsi qarşısında, Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin ruhu qarşısında bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirəm. Onların yaxınlarına, qohumlarına deyirəm ki, mən demişdim, onların qanı yerdə qalmayacaq və qalmadı. Biz onların qanını aldıq!*

*Mən demişdim ki, biz onların qisasını döyüş meydanında alacağıq, belə də oldu. Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib.*

*Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik. O torpaqlara artıq həyat qayıdır, insanlar qayıdır. Bu qayıdışı ən qısa müddət ərzində təmin etmək bu gün bizim başlıca vəzifəmizdir. Öz müraciətimi Qələbəmizin ayrılmaz hissəsi olan sözlərlə tamamlamaq istəyirəm: Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!*

***Ali Baş Komandan, cənab İlham Əliyevin***
***Anım Günü çıxışından***

## MÖHTƏŞƏM ZƏFƏRİN NİŞANƏSİ,
## yaxud şəhidlik yolunda solmayan çiçəklər

Sevindik Nəsiboğlunu hələ gənc də adlandırmaq olmaz. O hələ yeniyetmədir. Yaşın 14-cü ilini addımlayır. Əlbəttə, onun günümüzəcən yazdığı, yaratdığı ədəbi fəaliyyətinin barı-bəhəri olan kitabları ilə müqayisədə bu yaş təəccüb doğura bilər. Amma təbiətdə möcüzələr olduğu kimi cəmiyyətdə də ağlımızın, düşüncəmizin az qala qəbul edə bilmədiyi qeyri-adiliklər var. Sevindik Nəsiboğlu 4 kitabın müəllifidir. Bu kitabların hər biri onun kimliyini görmək üçün bəs edəcək gücdədir. "Dünyamsan Azərbaycan", "Hərdən uçmaq istəyirəm", "Könüllərə yol gəzirəm" poetik kitabları və nəhayət, "Ulu Naxçıvanım" ədəbi-tarixi-publisistik əsəri onun təkcə ədəbi mühitdə yox, həm də jurnalistikada dəqiq yerini göstərdi. Onu da deyim ki, Sevindik Nəsiboğlu Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. Bizim "Kredo"da redaksiya heyətinin üzvü kimi də ədəbi jurnalistik fəaliyyətindən başqa fəal ictimai iş də aparır. Artıq iki ildən çoxdur ki, o, istisnasız olaraq qəzetin dərc olunan bütün saylarında çox maraqlı yazıları ilə çıxış edir. Bu yeniyetmə müəllifin sosial şəbəkədəki fəallığını da desək, onda, qeyri-adiliyi heç bir təəccüb doğurmaz.

Dünyada belə fenomenlər olub. Çox kiçik yaşlarından tanınan rəssamlar, musiqiçilər, hətta riyaziyyatçılar belə var ki, dünya mənəvi irsində öz payları ilə əbədi yaşayırlar.

Sevindik Nəsiboğlunun qeyri-adiliyinə təəccüblənənlər üçün bir fakt da əlavə edim. Bizim kəndimizdən həm də qohumumuz olan iki uşaq elə Sevindik yaşda Amerika universitetlərinin tələbələridir. Doğrudur, onlar riyaziyyat sahəsində parlayırlar. Amerikada yayımlanan verilişlərdə bu yeniyetmələrin təxəyyül, ədəbi-publisistik özünüifadə imkanları kifayət qədər görünür. Bir qədər obrazlı desək, biz öz əjdahamızla nə üçün fəxr etməyək?!

44 günlük müharibənin zəfəri, əlbəttə, birinci növbədə ordumuzun və möhtəşəm siyasi iradə və hərbi rəhbərlik gücü göstərən Ali Baş Komandanımızın qələbəsidir. Söz yox ki, bu müharibədə xalqımız da səfərbər olmuşdu. Böyük birlik Qarabağın azadlığı naminə öz gücünü göstərirdi. Sadə zəhmət adamlarından tutmuş söz-sənət adamlarına qədər hər kəs bu müharibədə iştirak edirdi. Bu bir il Sevindik Nəsiboğlunun yazdıqlarını, yaratdıqlarını gözdən keçirdikcə qəlbim qürur hissi ilə döyünür. 700 səhifədən çox kitabın müəllifi S.Nəsiboğlu, əgər belə demək mümkünsə, müharibənin gündəliyini yazdı. Onun iti və diqqətli nəzərləri sanki göy üzündən od tutub yanan bütün Qarabağı izləyirdi. Onun iti nəzərlərindən heç nə yayınmırdı. Ordumuz qələbəyə doğru irəlilədikcə Sevindik Nəsiboğlu da öz sözü ilə ordumuzu müşayiət edirdi.

Bu müharibə həm də Azərbaycan xalqının yetirdiyi oğulların, ordumuzun igid əsgərlərinin necə vətənsevər olduqlarını da dünyaya nümayiş etdirdi. Ali Baş Komandanın çıxışlarında qeyd etdiyi kimi Azərbaycan əsgərləri ölümün üstünə yeriyirdi və elə bu da düşməni vahiməyə salırdı. Ölümə gedən oğullar şəhidlik şərbəti içdikcə ölməzliklərini qazanırdılar, əbədiyyət axtarırdılar. Əslində elə S.Nəsiboğlunun da məramı, məqsədi budur ki, öz yazıları ilə bu qəhrəmanların adlarını əbədiləşdirsin, onlara əbədiyaşarlıq bəxş etsin.

Beləliklə, S.Nəsiboğlunun "Möhtəşəm zəfərin nişanəsi" kitabı zəfər yolunun xronikası, müharibənin gündəliyi və qələbəyə möhtəşəm zəfər tağı kimi araya-ərsəyə gəldi.

Onun yeniyetmə qəlbindəki hələ uşaqlıqdan ayrılmayan duyğularının sözə çevrilən rəngləri vətən sevgisinin solmayan çiçəkləri kimi səhifələrə yığıldı.

Sevindik Nəsiboğlu doğru olaraq ədəbi müharibə gündəliyini Tovuz döyüşlərindən başlayır.

Müəllifin ürək çırpıntılarını elə ilk səhifələrdəncə hiss edirik. Hər söz canlı varlıq kimi müəllifin daxili "mən"inin səsi kimi üzə çıxır.

Oxucu diqqətini Sevindik Nəsiboğlunun düşüncə axarına yönəltmək istərdim: "O günləri heç vaxt unuda bilmərəm. Dünənki yox, indiki kimi xatırlayıram. 12 iyul gecə vaxtı atəşkəsin pozulmasından xəbər tutdum. İlk şəhidlərimizin olduğu andan dərindən kədərləndim. Ertəsi gün bütün televiziyalar və sosial şəbəkələr Tovuz döyüşləri barədə xəbər yaymağa başladı. İlk şəhidlərimizin dəfnlərindən olan görüntülər ürəyimi parçaladı. Sonra isə dayımoğlu Saleh Həsənovun Tovuzun Dondar Quşçu kəndində artileriyada şəhid İlqar Mirzəyevin komandanlığı altında qızğın döyüşlərdə iştirak etdiyini eşitdim. Bütün əsgərlərimizin sağ-salamat bu döyüşlərdən qələbə ilə çıxmasını Allahdan arzu elədim. Ertəsi gün alacağımız məlumatdan isə xəbərsiz idik. Bu xəbər Azərbaycan xalqının yenidən oyanışına təkan verəcəkdi. 14 iyul günü, tarixə çevrilən o gün General-mayor Polad Həşimov şəhidliyə yüksəldi! 30 il generalı şəhid olmayan bir ölkəni bu xəbər necə dərindən sarsıdırsa, bizi də sarsıtdı. Eşitdiklərimizə inana bilmədik. Həmin gün neçə-neçə qəhrəmanlarımızı şəhid verdik. 15 iyul gününün səssizliyini 16 iyul günü əsgər Nazim İsmayılovun Tovuz döyüşlərində sonuncu şəhid olması xəbəri pozdu. Bu xəbər bizə "Bəsdir!" demək üçünkifayətidi. Döyüşlər səngidi, yara isə sağalmadı. Qisas alovunda yanan odlar ölkəsinin mərd oğulları, istefada, ehtiyatda olan zabitlər, əsgərlər Qarabağ uğrunda səfərbər oldular! "O gün olsun ki" sözü tarixə qovuşacaqdı, müharibə gözlənilirdi!". İlk baxışdan mətn duyğulanmalardan ibarətdir, amma müəllifin yüksək həyəcanla, faktları mənalandıra-mənalandıra düşüncənin dərinliklərinə irəliləməsi göstərir ki, yazı oxucuya təkcə təəssürat bəxş etmir, həm də onu məlumatlandırır. Hər bir faktın özü elə təsir əhatəsi yaradır ki, müharibənin miqyası, ordumuzun əzmi və həm də müharibənin dəhşətləri haqqında məlumat ala bilirik. Elə təkcə bir ifadəni diqqətə çəkirəm: "30 ildə generalı şəhid olmayan vətən" düşüncəsi nələrdən xəbər vermir? Yəni müəllif demək istəyir ki, daha nəyisə gözləməyin yeri yoxdur. Əqidələrin, amalların, düşüncələrin səfərbər olunma zamanıdır. Bəli, general Polad Həşimovun həyəcanlı notlarla yaradılan obrazı artıq Qarabağ uğrunda mübarizənin yeni mərhələyə daxil olmasından xəbər verir.

Sevindik Nəsiboğlunun döyüş mühitini təsvir edərkən sükutla, səssizliklə gurultuları, müharibə zəlzələsini qarşılaşdırması həm də onun nə qədər müşahidə ehtiyatına sahib olduğunu göstərir.

Müəllifin düşüncələri axın kimi gəlir. Sanki mənbəyini dağlardakı gurultulu yağışdan alan sel mənzərəsi elə bu düşüncələrlə görünür. Yəni bu qarşısıalınmaz bir axındır. Maraqlıdır ki, sözün, fikrin, düşüncənin zəncirvari əlaqə ilə axını gözlərimizin önündə qarşısıalınmaz hücum axınını təsəvvür etməyə imkan verir. Müəllif kitabın ilk səhifələrində elə bu ovqatla irəliləyir: "21 sentyabr günü şəhid olan Elşən Məmmədovun qisas günü artıq hazır idi. Təlimə gedən çağırışçılar bir neçə gün sonra zəfər tarixini yazmağa başladılar! Gün Zəfər günü idi! Həyat tamamilə dəyişirdi! Şəhidlər verilirdi, ancaq qisası alınan və qisas alan Şəhidlər! Və sonra bu yol Şuşadan da keçdi! Şuşada Zəfər bayrağını dalğalandırdı! Bütün şəhidlərimizin ruhu şad oldu! Ali Baş Komandan Tovuz döyüşlərində Şəhid olan hərbçilərimizi "Hərbi xidmətlərə görə", "İgidliyə görə", "Vətən uğrunda" medalları ilə və "Milli Qəhrəman" fəxri adı ilə təltif etdi".Fəxri adları, təltifləri yada salan müəllif sanki gələcək oxucusunun diqqətinə çatdırır; bu təltiflər müharibədə döyüşən əsgər və zabitlərin əsas məqsədi deyil. Onların əsas məqsədi uzun müddət azğın düşmən tapdağında qalmış vətən torpağını canı, qanı bahasına azad etmək idi.Ali Baş Komandan özünün iti nəzərləri ilə döyüşü, müharibənin gedişatını, zəfər yürüşünə başlanğıcı çox diqqətlə izləyir və bu izləmənin nəticəsini qəhrəmanların hünərlərini təsdiq edən fəxri adlarda, təltiflərdə görürük və onu da görürük ki, o necə həssaslıqla qəhrəman generala üz tutur, xitab edir: "Cənab General, rahat uyu! Səndən sonra qisasının eşqiylə şəhid olanlar qisasını aldılar! Sən ruhunla azad etdiyin Şuşada Zəfər bayrağını da öz ruhunla dalğalandırmısan! O bayraqəbədiyaşarın nişanəsidir". Şeir kimi oxunan, nəğmə kimi ötən sətirlər göstərir ki, onun ruhu necə səfərbər olub. Onun varlığı başdan-başa döyüş əzminə köklənib. Təsəvvüründə, xəyalında canlandırdığı odlu səhnələri, qanlı çarpışmaları artıq kifayət qədər zəngin olan söz ehtiyatı ilə süsləyir.

Sevindik Nəsiboğlunun "Möhtəşəm zəfərin nişanəsi" kitabını şərti olaraq 3 bölməyə ayırmaq olar. Doğrudur, bu kitab məzmunu, mahiyyəti, ideyası ilə bütövdür. Heç bir bölgüyə tabe olmur. İstər şəhidlərin yaşam yolu haqqında qısa xronikal qeydlər, istər geniş publisistik yazılar və istərsə də şeirlər mahiyyəti etibarı ilə bir müstəvidə görünür.

Sevindik Nəsiboğlunun kitaba toplanmış əsərlərinin qəhrəmanları da müəllifdən aldıqları sevgi payı ilə fərqlənmir. Çünki müəllif üçün vətən torpağına qanı axmış hər bir oğulun adı əzizdir, qanı müqəddəsdir. Bu qəhrəmanların döyüş yolunun Suqovuşanda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Ağoğlanda (Hadrut)... harada bitməsindən asılı olmayaraqonların qəhrəmanlığı ölçüyəgəlməzdir.

Sevindik Nəsiboğlu tərənnüm etdiyi hər bir qəhrəmanla Qarabağı qarış-qarış gəzir, onlarla birgə savaş yolu keçir. Hətta qəhrəmanlarına dəyən güllənin ağrısı onun canını da oda bələyir. Varlığında gözəgörünməz güllər açılır. O, bu gülləri düşmən güllələrinə sipər edir. Onların ölümsüzlük yolunu dastana çevirir, yazıya gətirir.

S.Nəsiboğlunun yazı yolunu bütövlükdə 44 günlük savaş yolu yeni çalarlar, yeni rənglərlə zənginləşdirmişdir. Onun çılğın, yanğılı publisistikasını bir çox hallarda şeirlərdən ayırmaq olmur. Ayrı-ayrı parçalar o qədər poetik əhval kəsb edir ki, nə vaxt mahiyyətin şeirə çevrildiyini oxucu hiss etmir. Yazılar bir-birinin davamı kimi oxunur, elə buna görə də Sevindik Nəsiboğlunun bu kitabını bütövlükdə bir nəğmə kimi də qavramaq olar.

Əlbəttə, Sevindik Nəsiboğlunun bu zəfər ruhu ilə oxunan nəğmələri Laçın, Kəlbəcər, Ağdam və Şuşa motivləri ilə zirvəyə çatır.

Müəllif hansı yazını hansı formada yazacağını qabaqcadan düşünmür. Sadəcə obrazı tanıyır, obrazı görür. Onu ruhuna, varlığına çəkir. Bundan sonra onun varlığından hansı səs gəlirsə, həmin səsi olduğu kimi yazıya alır. Ona görə də bütün mətn boyu (kitab boyu) yazılar təbii şəkildə növbələnir. Bəzi yerlərdə müəyyən qədər poetik forma alır, bəzi yer-

lərdə düşüncələr öz axarı ilə çağlayır: "Kimdir keçilməz cığırlardan keçən, Kimdir şəhadət şərbətini içən, Kimdir döyüşlərdə həm öndə gedən, Kimdir nurlu zəfəri mümkün edən, Kimdir düşmənindən qisasın alan, Düşmənin canına vəlvələ salan, Kimdir mümkünsüzü mümkün eyləyib, Şuşada zəfər bayrağın ucaldan, Üçrəngli bayrağı dalğalandıran?". Bu mətnin yalnız ruhunu qavrayırıq. Onun poetik biçimdə, yaxud publisistik fonda görünüşü bizim üçün fərq etmir. Əsas odur ki, müəllif varlığından gələn səsi olduğu kimi yazıya gətirir.

Kitabda müəllifin özünün "Zəfər nəfəsli, zəfər qoxulu şeirlər və poemalar" adı ilə təqdim etdiyi silsilə yazılar əslində Sevindik Nəsiboğlunun ruh etibarı ilə şair olduğunu təsdiq edir. Çünki bu bölməyə daxil etdiyi şeirlər və poemalar, süjetli poetik parçalar müharibənin ən qızğın olaylarından təsirlənən müəllifin həyəcan hayqırışları kimi üzə çıxır. Bütün hallarda yazdığı, yaratdığı nə varsa hamısı təbii hisslərin nəticəsi kimi görünür. Ali Baş Komandanın dilindən oxunan, ancaq bir şəhid övladının nəğməsi kimi duyulan şeiri biz həm də müəllifin özünün ata gözündə gördüyü şəhidlərə öygüsü kimi qavrayırıq:

*Bu sözü çatdıranda,*
*Dilim bayram eylədi.*
*Sözüm elə güllədi,*
*Düşmən başına dəydi.*
*Şuşamız azad oldu!*
*Ata, ruhun şad oldu!*

*Sevincdən sığmıram mən,*
*Şuşaya, Xankəndiyə.*
*İndi biz dərs veririk,*
*Vandal ermənilərə!*
*Şuşamız azad oldu!*
*Ata, ruhun şad oldu!*

Həssas, tələbkar, eyni zamanda, mütəxəssis oxucuların diqqətinə çatdırmaq istərdim ki, müəllif 14-cü yaşa yenicə qədəm qoymuş yeniyetmədir. Mətni düşüncədə təhlilə çəkərkən bu amil mütləq nəzərə alınmalıdır. Çünki gələcəyin sahibi bu günün uşaqlarıdır, gəncləridir. Onların kamil sənətkar gücünü biz hələ gələcəkdə görəcəyik.

Sevindik Nəsiboğlunun istər şeirləri olsun, istərsə də publisistik qeydləri – bu kitabda əhatə olunmuş bütün yazılarında müəllifin xəritə üzərində yeri görünür. Şuşanın adı çəkilirsə, Şuşadadır, Xankəndinin adı çəkilirsə, Xankəndindədir. Bir sözlə, harada savaş varsa, özü də oradadır. Ən başlıcası, Sevindik Nəsiboğlu düşmənə qarşı sərtdir, qəzəblidir, hətta bir çox məqamlarda erməni vandallarına nifrəti ilə savaş elan edir. Onun od-alovla, xüsusi həyəcanla yazdığı misralarda qəhrəmanın yenilməzliyi görünür. Özünün kövrək düşüncələri ilə müəllif müzəffər komandanın yanında dayanır. Və demək, həm də şəhid övladının yanında dayanır. Onunla doğmalığı, canbir qəlb olmağı özünə şərəf bilir:

*Mane olammazdılar,*
*Orda durammazdılar, ...*





*Qazdıqları quyuda,*
*Özləri də azdılar.*
*Şuşamız azad oldu!*
*Ata, ruhun şad oldu!".*

Bəli, hətta uca, qürurlu, mənəvi dünyası ilə Ali Baş Komandanın dili ilə vandallara ibrət dərsi keçir, onlara bildirir ki, sizin düşdüyünüz quyunu özünüz qazmısınız. Bu quyu indi sizin məzarınız olacaq.

Ümumiyyətlə, kitab boyu ən ağır məqamları yazanda belə Sevindik Nəsiboğlu qürurundan enmir. Öz sözünün içindən özü boya-boy görünür, qürurlu görünür, ötkəm görünür. Bu mahiyyət də əslində təkcə onun özünün daxili-mənəvi gücünün göstəricisi deyil, o həm də mənsub olduğu xalqın, sahibi olduğu vətənin göstəricisidir:

*Dünyanın Azərləri,*
*Yığıbdır ərənləri.*
*Dönürlər Şuşamıza,*
*Qeyd edirlər zəfəri.*
*Şuşamız azad oldu!*
*Ata, ruhun şad oldu!*

*Bu gözəl zəfər ilə,*
*Bildirdik ki, ölməyib.*
*Bu yurdun ərənləri,*
*Riad və Albertləri.*
*Şuşamız azad oldu!*
*Ata, ruhun şad oldu!*

Bu müharibədə döyüşən ordunun 3 min nəfərə qədər itkisi oldu. Doğru olaraq Sevindik Nəsiboğlu hər əsgəri bir ordu gücündə görür. Hər şəhidi bir əfsanəvi qəhrəman kimi tərənnüm edir. Onun yazılarında bu qəhrəmanların hər biri xalqın bədənindən qopmuş bir parça kimi görünür.Müəllif bu ağrını yaşayır,ancaq ağrılar altında əzilmir, qəhrəmandan-qəhrəmana keçdikcə sanki yeni əzm alır, güc götürür. Ona görə də bütün kitab boyu onlarca qəhrəmanın adları sadalanır, içimizdəki yanğı alovlanır, ancaq biz döyüşən ordunun qüdrətini və gücünü gördüyümüz üçün qürurlanırıq, başımızı daha da uca tuturuq.

Sevindik Nəsiboğlunun bu kitabı yalnız ədəbi-publisistik əsər kimi qavranıla bilməz. Bu kitab həm də zəngin məlumat mənbəyidir, zəngin müharibə xronikasının yığıldığı ensiklopedik topludur.

Bircə onu deyim ki, müəllif əsgərləri fərdiləşdirir, onların adlarını, ünvanlarını göstərir, döyüş yollarına işıq tutur. Nəhayət, bu adların bütöv fonunda Azərbaycan ordusunu dünyanın təqdir etdiyi güc və qüvvət rəmzi kimi göstərə bilir. Eləcə də işğaldan azad olunan rayonları, hətta öz azadlığına qovuşmuş kəndləri belə sadalayır. Hər kəndin, hər ərazinin özünə uyğun epitetlər tapır, forma seçir. Şəhid edilmiş, yağmalanmış, xarabazarlığa çevrilmiş kəndlər dəhşətli kino lentləri kimi gözlərimizin önündən keçir.

Doğrusu, kitabdan həmin hissələri oxuduqca qəlbim həyəcan hissi ilə döyünürdü. Cəbrayılın azad edilmiş tarixi yurd yerlərinin adlarını da sözə çəkilmiş sıraların içində görmək

məni nə qədər həyəcanlandırdı. Elə başqa oxucuların da bu kitabın vərəqlərini çevirdikcə hansı hissləri keçirəcəyini bəri başdan təsəvvür edə bilirəm.

Mənə elə gəlir ki, belə kitabların yazılması yaddaş üçün əvəzsiz iksirdir. Vaxt gələcək, Zəfər müharibəsinin tarixi yüz illiklərin fonunda qeyd olunacaq. Ola bilsin ki, hansı zamandasa insanlar bu müharibəni bir əfsanə kimi yada salacaqlar, bir nağıl kimi danışacaqlar. Ancaq bu kitab həmin andaca canlanacaq, yaddaşının üzərini toz basmış insanların gözü önündə qalxacaq və hər kəsə diktə edəcək ki, bu tarix əsası olmayan əfsanə deyil, yaşanmış həqiqətdir. Deməli, bu kitab həm də yaddaşımızın qaraçuxası kimi gələcəkdə, hətta uzaq gələcəkdə xalqımızın yaddaş keşikçisi olacaq.

Səhifələr çevrilir, adlar sıralanır, igid oğulların şəkilləri sətirlərdən səssiz, sakit baxışlarla oxucunu izləyir. Hətta səhifəni oxumayan, yazının nə demək olduğunu bilən hər kəs bu səhifələr üzərində qədərindən artıq anlarla dayanacaq, adlarla danışacaq, şəkillərlə dilləşəcək,aldığı təəssüratı kitabın özünün mahiyyəti kimi varlığına yığacaq.

Bizim söz-sənət sahibi olan klassiklərdən biri deyirdi ki, qələmin müqəddəs vəzifəsi xalqa xidmət etməkdir. Bu qeyri-adi kitabın müəllifi də öz yaradıcılığı ilə bir daha xalqa xidmət manifestini elan edir, bütün gücü ilə xalqa mənəvi xidməti özünün əbədi borcu olacağını təsdiqləyir.

Mən bilərəkdən canını xalqına qurban vermiş igid oğulların adlarını bir daha sadalamadım. Hansı adınsa ümumi sıradan qıraqda qalacağından ehtiyatlandım. Zənnimcə, müəllif də, oxucu da məni başa düşər.

İlkin kompüter variantını vərəqləyib axıra çıxıram. Hər səhifəni ağır dağ kimi aşırıram. Və bu səhifələri yaradan müəllifin hansı hissləri keçirdiyini təsəvvür etməyə çalışıram. Hər qəhrəman oğulun, vətən şəhidinin obrazını düşməndən geri alınmış müqəddəs torpaqlarımızın bir parçası kimi görürəm.

Kitab sona çatır. Və sanki Laçında, Kəlbəcərdə... zirvələrdə dayanıb vətən sərhədlərinə baxıram. Şuşadan üzü bəri vətənin sevinən, gülən çöllərinə baxıram. Azad olunmuş torpaqları seyr edirəm və hiss edirəm ki, tək deyiləm.

Necə tək ola bilərəm? Bu möhtəşəm yaradıcılıq örnəyini, "Möhtəşəm zəfərin nişanəsi"ni yaradan müəllifin özünü də yanımda görürəm.

...və hətta onu da görürəm ki, təkcə biz ikimiz də deyilik. Bizimlə birgə Şuşa dağlarına söykənib vətəni seyr edən canını vətən naminə qurban vermiş oğullar da elə bizimlə birgədir.

... Sevindik Nəsiboğlunun böyük zəhmət və eyni zamanda vətənə sevginin şəhidlik yolunda solmayan çiçəklərdən yaratdığı çələng özünün təravətini, qoxusunu, ətrini əbədi qoruyacaq.

***Əli Rza XƏLƏFLİ,***

"Kredo" qəzetinin baş redaktoru, şair, publisist,
Beynəlxalq Rəsul Rza mükafatı laureatı
19.10.2021





## TOVUZ DÖYÜŞLƏRİNDƏN ŞANLI ZƏFƏRƏ

*(Şanlı Tovuz döyüşlərinin ildönümünə həsr edilir)*




12 iyul Böyük Zəfərimizə yol açan Tovuz döyüşlərinin ildönümüdür.

O günləri heç vaxt unuda bilmərəm. Dünənki yox, indiki kimi xatırlayıram. 12 iyul gecə vaxtı atəşkəsin pozulmasından xəbər tutdum. İlk Şəhidlərimizin olduğu andan dərindən kədərləndim. Ertəsi gün bütün televiziyalar və sosial şəbəkələr Tovuz döyüşləri barədə xəbər yaymağa başladı. İlk Şəhidlərimizin dəfnlərindən olan görüntülər ürəyimi parçaladı. Sonra isə dayımoğlu Saleh Həsənovun Tovuzun Dondar Quşçu kəndində artilleriyada Şəhid İlqar Mirzəyevin komandanlığı altında qızğın döyüşlərdə iştirak etdiyini eşitdim. Bütün əsgərlərimizin sağ-salamat bu döyüşlərdən qələbə ilə çıxmasını Allahdan arzu elədim. Ertəsi gün alacağımız məlumatdan isə xəbərsiz idik. Bu xəbər Azərbaycan xalqının yenidən oyanışına təkan verəcəkdi. 14 iyul günü, tarixə çevrilən o gün General-mayor Polad Həşimov Şəhidliyə yüksəldi! 30 il generalı Şəhid olmayan bir ölkəni bu xəbər necə dərindən sarsıdırdısa, bizi də sarsıtdı. Eşitdiklərimizə inana bilmədik. Həmin gün neçə-neçə Qəhrəmanlarımızı Şəhid verdik. 15 iyul gününün səssizliyini 16 iyul günü pozdu. 16 iyul günü əsgər Nazim İsmayılov Tovuz döyüşlərinin son Şəhidi olaraq Şəhadətə yüksəldi. Bu xəbər bizə "Bəsdir!" deməyə bəs idi. Döyüşlər səngidi, yara isə sağalmadı. Qisas alovunda yanan odlar ölkəsinin mərd oğulları, istefada, ehtiyatda olan zabitlər, əsgərlər Qarabağ uğrunda səfərbər oldular! "O gün olsun ki" sözü tarixə qovuşacaqdı. Müharibə gözlənilirdi!

21 sentyabr günü Şəhid olan Elşən Məmmədovun qisas günü artıq hazır idi. Təlimə gedən çağırışçılar bir neçə gün sonra Zəfər Tarixini yazmağa başladılar! Gün Zəfər günü idi! Həyat tamamilə dəyişirdi! Şəhidlər verilirdi, ancaq qisası alınan və qisas alan Şəhidlər! Və sonra bu yol Şuşadan da keçdi! Şuşada Zəfər Bayrağını dalğalandırdı!

Bütün Şəhidlərimizin ruhu şad oldu! Ali Baş Komandan Tovuz döyüşlərində Şəhid olan hərbçilərimizi "Hərbi xidmətlərə görə", "İgidliyə görə", "Vətən uğrunda" medalları ilə və "Milli Qəhrəman" fəxri adı ilə təltif etdi.

Cənab General, rahat uyu! Səndən sonra qisasının eşqiylə Şəhid olanlar qisasını aldılar! Sən Ruhunla azad etdiyin Şuşada Zəfər Bayrağını da öz ruhunla dalğalandırmısan! O bayraq qisasının mirasıdır!

12.07.2021
"Kredo" qəzeti, 28.07.2021

## ANMALIYIQ ŞƏHİDLƏRİ




***1.Abşeron rayonu Novxanı qəsəbəsində şəhid generalımız Polad Həşimovun xatirəsinə inşa edilmiş abidəni ziyarət edərkən.***

*Necə deyək biz bu sözü:*
*"Danmalıyıq Şəhidləri"?*
*Onlar bizim üçün gedib,*
*Anmalıyıq Şəhidləri!*








**2. Şəkildə ictimai fəal Elçin Quliyev, Yeganə Hüseynova, Lider TV-nin "Çıxış yolu" verilişinin aparıcısı Nuranə Gülər abidəni ziyarət edərkən.**

Mən 23 avqust 2020-ci ildə "Çıxış Yolu" verilişinin aparıcısı Nuranə xanım Gülərin dəvəti ilə və Hüquq Müdafiə Bürosunun direktoru, «Çıxış Yolu» sosial layihəsinin eksperti Elçin Quliyevin şəxsi təşəbbüsü ilə Novxanıda inşa etdirdiyi şəhid Polad Həşimovun adına ucaldılmış abidənin açılışında iştirak etdim. Orada xalqımızın bir qrup ziyalıları iştirak edirdilər. Onlardan Oqtay Əliyev, Rafiq Rüstəmov, Sudeyf Fərhadov, Mehriban Paşayeva, Vəfa Rzayeva, İradə Əlili, Xanım Bağırlı, Günay Ağamalı, Ceyran Bəhlulova, İradə Polad, Aytən Əsgərova, Yeganə Hüseynova və başqalarının adın çəkə bilərəm.

Mən hörmətli Elçin müəllimdən soruşdum ki, bu təşəbbüs sizdə necə yarandı? O isə belə cavab verdi: "Tovuzda baş verən döyüşləri eşitdim. Fikirləşdim ki, şəhidlərimiz üçün mən nə edə bilərəm?.

Daxilimdən belə bir hiss keçdi ki, öz evimin yaxınlığında, öz küçəmizdə belə bir abidəni inşa etdirim və qəti qərar qəbul etməklə abidənin inşa olunmasına başladım. Eyni zamanda bu barədə dostlarıma dedim. Sağ olsunlar dəstək oldular, bu abidəni inşa eləyib başa çatdırdıq".

Abidənin açılışı günü həm də Azərbaycanımızın dilbər guşələrindən olan Füzuli və

Cəbrayıl rayonlarının işğal günü idi. Orada çıxış edənlər Füzulimizlə Cəbrayılımızın işğalından da danışdılar və xatırlama oldu.

Şəhid generalımız Polad Həşimovun abidəsinin önündə dayanıb Tovuz istiqamətində gedən döyüşlər zamanı təsirlənərək şanlı Azərbaycanımızın keşiyində mərdliklə dayanan əsgərlərimizə yazdığım "Azərbaycan Əsgəri" və şəhidlərimizə həsr etdiyim "Vətən Qəhrəmanları" adlı şeirlərimi söylədim. Şəhidimin abidəsində onun sifətinə baxdım. Məni həm fərəh, həm də kədər... bürüdü.Kaş səni sağlığında tanıyaydım, İgidim!

Söhbətimiz zamanı hörmətli Nuranə xanım mənə arzuladı ki, sən Naxçıvana getdin və səfər təəssüratlarınla əlaqədar "Ulu Naxçıvanım" adlı kitab yazdın. O gün olsun ki, Qarabağımız azad olsun. Sən də oraya səfər edib "Ulu Şuşam" adlı kitab yazasan. Nuranə xanımın arzusuna Amin deyirəm.Uca Allahım bizə tezliklə Qarabağı görməyi qismət eləsin!

Bu görüşdən çox məmnun qaldım, çünki tədbirdə yeni-yeni şəxsləri tanımaq imkanı əldə etdim. Onlardan biri də Rafiq müəllim Rüstəmov idi. Belə ki, Rafiq müəllim yeni nəsil xanəndələri yetişdirmiş sənətkarlarımızdandır. Söhbətimiz zamanı bildim ki, o, İngiltərədə Avropa Parlamentinin nəzarətində olan tədbirlərdə iştirak edib. Orada tar alətini ifa edib.Bu məlumatı Rafiq müəllimdən eşitməyimə və onunla tanışlığıma çox şad oldum. Rafiq müəllimə "Ulu Naxçıvanım" adlı kitabımı hədiyyə etdim. O, hədiyyəni böyük sevinclə qəbul edərək mənə dəyərini sözlə ifadə edə bilmədiyim bu sözləri dedi:

-Mənə neçə-neçə hədiyyələr verilib, lakin bu hədiyyələrdən ən əzizi sənin mənə verdiyin bu kitab hədiyyəsi oldu.

Bir gənc yazar kimi çox sevindim və Rafiq müəllimə dərin təşəkkürümü bildirdim.

Sonra tarixçi Oqtay Ərgünəşlə tanış oldum. O, mənə "Zəng" və "Heydər Əliyev və Azərbaycanın Milli Qəhrəmanları: Müqəddəs amal" adlı iki kitabını hədiyyə etdi. Çox sevindim. Oqtay müəllim mənə dedi ki, bu kitabı oxu və təəssüratlarını başqaları ilə də bölüş. Sənə 7-ci sinif "Qarabağ tarixi" dərsliyimi verəcəyəm. (Özü də, heç 7-ci sinfə keçəcəyimi bilmədən deyirdi.) Milli Qəhrəmanlarla bağlı olan kitabımda 2016-cı ildən başlayaraq yeni Milli Qəhrəman olan igidlərimiz barədə məlumat yoxdur. İnşəAllah, Polad Həşimov və digər Şəhidlərimizə Milli Qəhrəman adı veriləndə, onların adını da kitaba əlavə edəcəyəm. Mən dəyərli fikirlərinə və hədiyyələrinə görə Oqtay müəllimə də dərin minnətdarlığımı bildirdim.

Tovuz istiqamətində gedən döyüşlərdə qəhrəmancasına həlak olmuş Şəhidlərimizin 40 mərasiminə və general Polad Həşimovun abidəsini ziyarətə həsr olunmuş tədbirə məni də dəvət etdiklərinə görə Nuranə xanım Gülərə və Elçin müəllim Quliyevə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. Onlar böyük vətənpərvərlik göstərərək amalı uğrunda şəhidlik zirvəsinə ucalmış Generalımızın xatirəsini əbədiləşdirdilər, qoy Şəhid Generalımızın cənnətdə olan ruhu və dərgahında olduğu Uca Allah onlardan razı olsun! Amin!

*23.08.2020.*





## AZADLIĞIN SİMVOLU – ZƏFƏR TAĞI

*("Kredo" qəzetinin baş redaktoru, şair-publisist hörmətli Əli Rza müəllim Xələflinin "Zəfər tağı" sorğusuna açıq məktubum)*

Əziz Əli Rza müəllim!

Siz məndən "Kredo" qəzetinin budəfəki sayında Sizin dəyərli və ürəkdən birbaşa böyük qələbə qoxusu ilə kağıza hopdurulmuş sözlərinizlə yazdığınız "Zəfər tağı" məqaləsini oxumağımı və ona hətta "5 cümləlik belə olsa" məqalə yazmağımı xahiş etmişdiniz. İnanın ki, mən bu mövzuya bir kitab yazaram. Bəlkə də, sonra yazacağam. Ancaq, istəsəm də, duyğularımı sona qədər sıxsam da, mən bu mövzuya 1-2 səhifəlik, 5 cümləlik məqalə yaza bilməzdim. İstər-istəməz ürəyimdən gələn söz bahar yağışının damlaları kimi tökülərdi, bu yağışı kəsə bilməzdim.

Mən qarabağlı deyiləm, mən lənkəranlı deyiləm, mən qubalı da deyiləm, mən heç bir regionlu deyiləm. Mən vətəni bütöv Azərbaycan olan oğuz türküyəm! Və fəxr edirəm ki, Azərbaycanlıyam! Azərəm, türkəm, türk elindənəm! Birincisi bununla, sonra başqa xüsusiyyətlərimlə fəxr edirəm. Fəxr edirəm ki, azərəm və türkəm! Nəyə görə bununla fəxr edirəm? Çünki, türklər - dünyanın ən ədalətli, mətanətli, rəhmli, igid millətidirlər! Onlar zalım üçün Allahın qırmancı olublar, ədalətsizliyə qarşı mübarizə aparıblar. Onlar zalımın qorxduğu insanlar olublar. Zalım insanları kəmərlə boğan vaxt qapı açılsa və ora türk girsə, həmin zalım türkün nərildəməsini görməsin, eşitməsin deyə öz boğazım özü kəndirə keçirərdi. Türk qurd olur, qurd balası da qurd olur, onun basdığı hər torpaq nurla boyanmış bir yurd olur. Türklər pis yola düşənlərin ardı-arası kəsilməyən İslandiyaya dünyanın bir araya gəlsə də paylaya bilməyəcəyi ədaləti payladılar. Türklər Afrikada işgəncələrdən özünə ölüm diləyən, səhrada yanıb külə dönən hər bir afrikalını nura boyadılar. Məkkə əsrlərlə türklərin olub, Türklər dünyanı Məkkənin ədalətinə, Məkkənin nuruna maqnit kimi çəkdilər. Onlar İslamın dayağına, müsəlmanların pənahına çevrildilər. Bəs onlar bunları ediblərsə, nə qazanıblar? Ay qazanıblar, ulduz qazanıblar, alqış qazanıblar, Allahın vəhyini qazanıblar, Məhəmməd Peyğəmbərin (s. ə. s) təriflərini qazanıblar. Bunlarla birgə əsas nə qazanıblar? ZƏFƏR! Zəfəri qazana biliblər.

Mən saya-saya bitirə bilmədiyim yurdumun xarakteri-xüsusiyyətlərindən sonra heç mənfur, qaniçən, insan deməyə dilim gəlməyən ermənıyə keçid edə də bilmirəm. Çünki, erməni deyəndə bütün pisliklər yada düşür. Bizim yolumuz Əli yoludur. Doğruluq yoludur, düzlük yoludur. Nur yoludur, inam yoludur, işıq yoludur. Qan qırmızısına boyanıb İslam yaşılına axan yoldur. Bu yol gözəlliklərlə dolu, doğru bir yoldur. Doğruluğun maqniti bizi öz üzərinə çəkir, cəzb edir. Doğruluğun sehri qəlbimizi işıqlandırır, nurlandırır. Doğruluq bizə hər dəfə yaxşı şeylər gətirir. Ən əsası ZƏFƏR gətirir! ZƏFƏR!

Bəs onların yolu? Onların yolu faşistlərin yoludur, onların yolu yezidlərin yoludur, onların yolu (üzr istəyirəm ifadəmə görə) heç özlərinin törədiyi donuzların yolu belə deyil. Donuzların kirlətdiyi yoldan da kirli bir yoldur. Bu yol tez bir zamanda ləğv ediləcək, məhv olunacaq bir yoldur. Həmin kirli, paslı, xəbis, dünyanın ən pis yolu, heç amal və məfkurənin yolu belə sayılmayacaq yol bir yerdə başa çatacaq, dayandırılacaq.

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Həmin yol meşələrlə, çöllərlə əvəz olunacaq. Düzlərlə, düzənliklərlə, ərənliklərlə, ənginliklərlə əvəz olunacaq. Həmin yol haraya baxacaq? Təbii ki, ZƏFƏRƏ! Zəfər yoluna baxacaq!

Həmin üfunətə çevrilmiş yer düşmən tapdağında olan qara bəxtli Qarabağ idi. İndi Qarabağ əvvəlki tozlu, dumanlı, yerlə-yeksan olunmuş, yağı tapdağında olduğundan bizdən uzaq düşmüş, lakin hər an qəlblərimizdə məskən salmış "qanlı Qarabağ" olmayacaq. Qarabağda hər yer abad olacaq. Ağlayan gözlər güləcək, haray çəkən dillər nəğmələr söyləyəcək. Həmin gün yaxındadır və belə bir gün olasıdır. Olacaq da. Olmalıdır. Axı, biz türkük. Teomanın türkü. Tonyukukun türkü. Alpərtonqanın türkü. Tomrisin türkü. Ərtoğrulun türkü. Osmanın türkü. Orxanın türkü. Mehmetin türkü. Səlimin türkü. Mustafa Kamalın türkü. Ulu Heydərin türkü. Rəcəb Tayyipin türkü. İlhamın türkü. Zəfərin türkü! Allahın türkü! Tanrının türkü! Tanrısının yar və köməkçisi olduğu türkü!

Əzizim Əli Rza müəllim, indi qayıdaq Zəfər tağına, Zəfər tağlarının harada olacağı sualınıza. Zəfər tağları Qarabağın ən gözəl, ən səfalı, ən abad yerində olacaq. Zəfər tağları deyirəm. Çünki, zəfər tağı bir yerdə olmayacaq. Çoxlu yerlərdə olacaq. Bu zəfər tağları çox yerdə var. Türkiyənin hər qarışında olduğu kimi bu zəfər tağları Qarabağda da hər qarış torpaqda olacaq. Çünki düşmən tapdağından azad olunmuş və Ali Baş Komandanımızın rəhbərliyi altında müzəffər ordumuz tərəfindən İnşəAllah yaxın vaxtlarda tam azad olunacaq Qarabağımızın hər qarış torpağı bizim üçün əzizdir, doğmadır, müqəddəsdir və zəfər salnaməsidir.

Bir şərh vermək istərdim: 2010-ci illərdə artıq atasını-babasını belə tanımayan və tanımaq istəməyən ermənipərəst terrorçular sözdə İslam dinini yaymaq adı ilə Suriyada və İraqda öz iyrənc əməllərindən əl çəkmədilər. Onlar Suriyada hücuma keçirdilərsə, Hələbdə də hücuma keçirdilər. Orada ən çox bir yer atəşə məruz qalırdı. Bu müqəddəs yer Suriyanın Hələb şəhərində olan, ancaq Türkiyəyə aid anklav-ekslav yer olan, türklərin və bütün dünyanın ədalət yayanı və türklərin ən böyük ədalət imperiyasının qurucusunun ulu babası Ərtoğrul Qazinin atası Süleyman Şahın türbəsi idi. Həmin yer 1920-ci ilə qədər Osmanlı İmperiyasının tərkibinə daxil idi. Məkrli düşmənlər müqavilələrlə oranı Osmanlıdan, Türkiyədən ayırmaq istəyirdilər. Lakin, türklər bunu istəməzdi. İstəməzdi ki, Süleyman şahın, o Böyüyün, o Ulunun məzarı intizarda qalsın və nəvələrindən narazı qalsın. Ona görə də, müqavilələrdən birində tələb edilirdi ki,həmin yer Suriyada yerləşməyinə baxmayaraq Türkiyənin torpağı hesab edilsin. Bu təklif güc-bəla ilə qəbul edildi. Süleyman Şah Türbəsi Türkiyə torpağı hesab edilirdi. 2010-cu illərə qədər şad-xürrəm olan bu ulunun ulu ruhu, dərgahı yenə özünübilməz, əsilsiz-nəsilsiz qəsbkarlar tərəfindən hücuma məruz qaldı. Neçə illər boyu davam edən bu vandal hücumlar artıq türklərin səbir kasasını daşdırırdı. Türkümün qəhrəman oğlu çox hörmətli Rəcəb Tayyib Ərdoğan özü demişkən qardaşı – İlham Əliyev kimi, bilirdi ki, nə zaman, harada nə edəcək. Ona görə də, əmr etdi və Süleyman Şahın "ruhu"nun azad olunması əməliyyatına başlandı. Süleyman Şah türbəsi partladılsa da, ulu şahın və alp-ərənlərinin nəşi xilas edildi, türbə başqa yerdə yenidən tikildi və orada yenidən Türk bayrağı dalğalandı! Salam Türkün bayrağına! Əli Rza müəllim! Məgər zəfər tağlarının şahı indiki dövrdə bu deyilmi?





Biz də belə zəfər tağları tikəcəyik. Hər yerdə tikəcəyik. Şuşa qalasında, Xankəndinin mərkəzində, Qubadlının, Zəngilanın, Xudafərinin, Kəlbəcərin, Laçının, Xocavəndin və digər yerlərin sinəsində, köksündə tikəcəyik zəfər tağlarımızı... Şuşa qalasında indi "asta qaçan namərddir" deyənlərin, "İti qovan"la "iti qovan kimi" qovduğumuz mənfur düşmənlərimizin bir vaxtlar lovğalanaraq yallı getdiyi, iyrənc ayaqları ilə murdarladığı , murdarlardan təmizlədiyimiz o müqəddəs yerlərdə tonqallar qalanacaq. Oğuz eli salam verəcək, öpüşəcək, görüşəcək, "Hoydu, igidlərim, hoydu" deyib düşmənləri hoydu-hoyduya qoyacaq, düşmənləri tonqalda çartlayan kimi çartladacaqlar və yallı gedəcəklər. O yallı heykələ dönəcək və Türk qardaşlığının zəfərinin tağına çevriləcək. Necə ki, "Dədə Qorqud" filmində sonda bu yurdun hər insanı, hər igidi dağlara, qayalara çevrilməklə heykəlləşmiş, tağlaşmışdı.

Yəqin ki, vəfat edib Allaha qovuşduğu yerdə ana babam Saleh Həsənovun (2 oktyabr 1992-ci ildə Xocavənd işğal olunanda vəfat etmişdir) cismi yenidən canlanacaq, çinar kimi başını yuxarı qaldırıb nəfəs alacaq, havasını udacaq və Allaha şükür deyəcək! Və o, bir daha ölməyəcək, onun da cismi heykələ dönəcək və mənim zəfər tağlarımdan birinə çevriləcək.

Bizim zəfər tağlarımızdan bir neçəsi tikilib. Bu tağlar müzəffər ordumuz tərəfindən Zəngilanda, Xudafərində, Qubadlıda və işğaldan azad edilən hər qarış torpağımızda əsgərlərimiz tərəfindən qaldırılan üçrəngli bayrağımın dalğalandığı hər yerdə tikilib və tikiləcəkdir. O qaldırılan bayrağın yanındakı hər qaya, hər daş, ağac, kol-kos özü də zəfər tağıdır. Bizim zəfərimizin tağı-tağları!

Açığını deyim ki, mən həmişə bir həsrəti də qəlbimdə daşımışam. Kıbrısın həsrətini. Ora yağıdan müstəqilliyini qazanıb, lakin, yağı min oyun edib, iti qoyun edib, həmin dövləti separatçı adlandırıb. Biz də qondarma "Artsax"a görə həmin dövləti tanıya bilməmişik. 2004-cü ildə Azərbaycanda bununla bağlı "Uzaq yaşıl ada" filmi çəkilib. Yəqin ki, Qarabağ işğaldan azad olunandan sonra biz Kıbrısın müstəqilliyini tanıyacağıq və Qarabağın möhtəşəm dağ zirvəsində Kıbrısın, Türkiyənin və Azərbaycanın bayraqlarını dalğalandıracağıq. Daşlar üzərində oyma üsulu ilə bir söz yazacağıq: "SALAM TÜRKÜN BAYRAĞINA!" Bu da yenə bizim zəfərimizin tağlarından biri olacaq!

Bəli, Əli Rza müəllim! Zəfər tağları çox olacaq! Qarabağ işğaldan azad edildikdən sonra!

Qarabağ Azərbaycandır! Qarabağ Türkün Vətənidir!

*(Sözümü eşitdiyim bir nəğmənin bəndi və həmin bəndə yazdığım nəzirə ilə bitirirəm)*

Bənd:

*Ədalətin qılıncı, igidliyin yurduyuq,*
*Zalımların Yavuzu, cəsarətin qurduyuq,*
*Şəfəq danı sökür və gecələr günə dönür,*
*İştə Türklər gəlir və qarı düşmənlər ölür!*

*Ağ saqqallı qocalar çağırdı çox alpları,*
*Ən kutlu dualarla taxdıq türk papaqları,*

*At üstündə alplarım qızıl alma izində,*
*Üç qitə yetmiş ölkə Dirilişin peşində!*

Yuxarıdakı iki bənd şeirə nəzirəm:

*Kıbrısıq, hunuq, qazax, qırğız, türkmən, urduyuq,*
*İti qovan kimi bir düşmən qovan orduyuq.*
*Yallı gedən düşmənin qaladığı od sönür,*
*İndi Türklər gəlir və qarı düşmənlər ölür!*
*Göyün türkü çağırır türkeldə Alpərəni,*
*Məğlub hala salmışıq, qovuruq düşmənləri.*
*At üstündə əsgərim Qarabağın izində,*
*Şahlanışın izində, quruluşun izində!*
*Sən bizimsən, sən bizim, durduqca bədəndə can,*
*Yaşa, yaşa, Qarabağlı ey Şanlı Azərbaycan!*

***P.S. Hörmətli Əli Rza müəllim! Mənim ürəyimdən keçir ki, Xankəndinin mərkəzindən baxdıqda Şuşanın ən uca görünən yerində Ulu Öndərimizin yadigarı, Ali Baş Komandan, Türk dünyasının qəhrəmanı hörmətli Cənab İlham Əliyevin heykəli ucaldılmalıdır, heykəl ya qızıldan olmalı, ya da qızılı rəngə boyanmalıdır ki, aşağıdan baxanların Günəşə baxan kimi gözləri qamaşsın. Düşünürəm ki, bu, bəlkə də, zəfər tağlarımızdan ən yaxşılarından biri olardı.***

*30.10.2020*
*"Kredo" qəzeti, 06.12.2020*

## BÖYÜK, MÜQƏDDƏS ZƏFƏRİN ASTANASINDA...



*"Kredo" qəzetinin baş redaktoru, şair-publisist hörmətli Əli Rza müəllim Xələfliyə təbrik-məktub*

Salam, Əli Rza müəllim!

*Xələflimizdən sonra biz Üzü Qarabağa,*
*Yağılardan qoymarıq iz Üzü Qarabağa,*
*Xələflidən də keçən o Qurtuluş Yolunda,*
*Dəstəklər verirsiniz siz Üzü Qarabağa!*
*Hər sözdə də deyirsiz siz: "Üzü Qarabağa!"*

Mən artıq 3 ildir ki, Sizi daha yaxından və daha yaxşı tanıyıram və çox sevinirəm ki, nə yaxşı ki tanıyıram. Sizin yazıçılıq fəaliyyətiniz, dinamik iş rejiminiz məni həmişə heyrətə qərq edib. Siz həmişə mənim üçün ilham mənbəyi olmusunuz. Sizin şeir-





ləriniz məni və milyonlarla vətənsevərlərimizi qələbəyə səsləyən vətən harayı olub. Sizin şeirləriniz mənim üçün türkçülüyün marşına çevrilib. Son günlərdə Sizin "Üzü Qarabağa" adlı şeiriniz dilimdən düşməyib. Çünki, elə bil bu şeirdən ilhamlanıb biz də Üzü Qarabağa gedirik və getməkdəyik.

"Kredo" qəzetində – universitetində (mən onu Əli Rza Xələfli Universiteti adlandırardım) 1 ildir ki, tələbə olmağımla Sizi daha da yaxından tanımaq şansını əldə etmişəm. Bu universitetdə tanış olduğum yeni, necə deyərlər, təzə-tər əsərlər məni valeh edib və həmişə belə demişəm: "Belə yazılar "Kredo"ya yaraşır". Sizin kitabxananızı da görmüşəm. Hətta, Sizin icazənizlə oradan kitablar da götürmüşəm. Birini şərh də etmişəm. Bir sözlə, Siz hərtərəfli söz Liderisiniz! Sizin yazılarınız bir ədəbiyyat nəslinin ilham mənbəyidir.

Bu günlərdə, bu Böyük Zəfərin astanasında olduğumuz günlərdə mən həmişə həsrətində olduğumuz Qarabağımıza daha da yaxınlaşmışam. Bunun sevinc hissini yaşaya bilmişəm və buna görə çox sevincliyəm. Son saylarda "Kredo"da Sizin uçmağa qanadınızın olmadığı daha da yüksələn qələbə əzmli, qələbə nəfəsli yazılarınızdan bəllidir. Bu, məni çox sevindirir.

Cəbrayıl şəhərinin işğaldan azad edilməsi münasibətilə mən Sizə zəng etmiş və Sizinlə söhbət etmişdim. O zaman sevincinizin həddi-hüdudu yox idi. Həmin vaxt günün axşamçağı idi. O qədər sevincli idiniz ki, elə bil bu zəngimə Xələfli kəndində, dünyaya göz açdığınız öz ata ocağınızda cavab verirdiniz. Bu sevincli anlarınız məni o qədər əfsunlamışdı ki, dəstəyi asmaq istəmədim. Lakin, bu, lazım idi.

Həmin andan Azərbaycanımızın mənfur düşmən tapdağında olan bütün torpaqları ilə bərabər rəşadətli ordumuz tərəfindən dünyaya göz açdığınız Xələfli kəndinin və Xocavənd rayonunun Muğanlı kəndinin (hərbi xidmət zamanı gənc yaşlarında vəfat etmiş, şəkillərindən tanıdığım, üzünü görmədiyim dayım Mübariz Saleh oğlu Həsənovun məzarı oradadır, məqsədim həmin dayımın məzarını ziyarət edib oradan bir ovuc torpaq götürüb Xocavənd rayonunun Muğanlı kəndi işğal olunan gün vəfat etmiş ana babam Həsənov Saleh Sadıq oğlunun, eləcə də vətənimizin ərazi bütövlüyü, polis orqanlarında çalışdığı müddətdə isə ömrünü haqq, ədalət və qanunlarımızın aliliyi yolunda fəda etmiş, eyni həsrətlə ana babamın yanında, atasının yanında Ağcabədi rayonunun Kürdlər kənd qəbiristanlığında dəfn olunmuş dayım Mütalib Həsənovun ruhu rahat olsun deyə onların məzarının üzərinə səpməkdən ibarətdir) azad olunmasını gözlədim. Hər dəfə Sizin hədiyyə etdiyiniz Azərbaycan Respublikasının xəritəsi qarşısında dayanıb həm Xocavənd rayonunun Muğanlı kəndinə, həm də Cəbrayıl rayonunun Xələfli kəndinə baxırdım. Fikirləşirdim ki, görəsən Şanlı Ordumuz həmin yerlərə yaxındırmı?

Axırıncı dəfə isə Cəbrayıl rayonunun Qumlaq kəndi işğaldan azad olunandan sonra xəritədə Qumlaq və Xələfliyə diqqət etdim. Orada fikrim məni çaşdırdı. Görəsən, Xələfli azad olunubmu? O vaxtdan bu ana qədər fikrim məni rahat buraxmırdı. Soruşmağa isə utanırdım. Bəyəm Ali Baş Komandanımızın rəhbərliyi altında Rəşadətli Ordumuz tərəfindən can, qan bahasına Azərbaycanımızın düşmən tapdağından azad edilən hər qarışı Xələfli, Muğanlı deyilmi? Yenə də... Xələfli elə bil bir qız idi, nazlı-qəmzəli, özünü, yanağını göstərməkdən həyalanan Azərbaycan gözəli. Ona görə də, bir az da səbirlə



gözləyəsi olduq. Lakin...

O gözlənilən gün gəldi, çatdı! 23 oktyabr 2020-ci il, Xələfli kəndinin mənfur düşmən tapdağından qurtuluş günü! Xələflili Azərbaycanın qurtuluşu günü! Ürəklərin bir olması, sevinməsi, gülməsi günü gəldi çatdı! Xudafərində və Zəngilanda Azərbaycan bayrağının sancılmasından sonra gəldi çatdı! O taylı-bu taylı olmayan bir Azərbaycanın birləşməsi Zəfərindən sonra gəldi çatdı! Və həmin gün Azərbaycanın Qurtuluş Savaşının, Böyük Qələbəsinin astanasında, Zəfərinin astanasında gəldi çatdı Xələfli! O günü düz 30 il gözləyən, səbir edən yurddaşların səbir kasasının daşdığı anda gəldi çatdı Xələfli! Onu həsrətlə uzun illər gözləyən yurddaşların həsrətinə son qoymaq üçün gəlib çatdı. Özü də yolunu gözləyən balasının həsrətinə son qoymaq üçün dayanmadan, birnəfəsə qaçan Ana kimi gəldi Xələfli!

Həmin an "Xələfli" sözünü diktor deyərkən qulaqlarıma inana bilmədim. Xələfli kəndi işğaldan azad edilmişdi! Gözlədiyimiz gün gəlib çatmışdı! Bu, mənim üçün əladan da əla, sözlə ifadə olunmayacaq dərəcədə möhtəşəm bir xəbər idi! Bu sözü yazan hər yazıçının cümləsinin sonu nida olmalı idi, özü də atəşli, odlu-alovlu bir nida işarəsi, necə ki, Ali Baş Komandanımız demişdi: "Qarabağ Azərbaycandır və nida işarəsi"!!!

O sözü təkcə mən, təkcə Siz eşitmirdiniz, o sözü Qurbanidən başlamış bütün ziyalılar eşidirdi. O sözü dağlar, daşlar bir-birinə deyirdi. O sözü Araz cənubuna çatdırırdı. O sözü dinləyən hər bir insanın qulağı dərman tapırdı, ruhu dincəlirdi. Və ən əsası, o sözü eşidənlərdən biri də Zal baba idi! Zal baba! Ruhu rahatlığını tapan Zal baba! Əzizli və Əziz Zal baba! O sözü eşidərkən o, az qala yerindən durub Sizi bağrına basmaq, öpmək istəyirdi kim bilir... Yerindən durub əvvəlcə Allaha şükür edib sonra ruhunu Xələfliyə aparmaq istəyirdi kim bilir... O, yerindən durub bütün Xələflidəki ruhlarını çağırmaq istəyirdi kim bilir... Bəlkə də, bundan başqa heç nə istəməzdi. Çünki, onun üçün ən gözəl xəbər elə bu idi...

Allah ona rəhmət etsin! Yeri nurla dolsun, ruhu şad olub, dünyanın axırına qədər də ruhu şad olaraq qalsın! Amin!

Hörmətli Əli Rza müəllim! Mən Səməd Behrəngi barədə xatirə toplusu toplayıb "Kredo" qəzetində dərc etdirərkən Siz bir xatirə yada salmışdınız. Bu, bir gənclik xatirəsi idi. Səməd Behrənginin ölüm günü Siz hadisə yerində ürəyi çırpınan və matəm saxlayan kəndliləri görürdünüz. Onlar bu günə qədər matəmi saxlamışdılar. İndi isə Səməd Behrəngi də dirilib, Dirili Qurbani kimi. O da daha matəm saxlamır. Xüsusilə də, Xələfli ilə birgə Xudafərinə görə, Ağbənd qəsəbəsinə görə... Həmd olsun və Şükür





olsun Allaha!

Bu gözəl Qurtuluş Günü münasibətilə Sizi və xalqımızı səmimi qəlbdən, necə deyərlər, sidq-ürəkdən təbrik edirəm! Sizə belə ağır dərdlərin bir də rast gəlməməsini arzulayıram! Elə ancaq belə gözəl xəbərlər eşidəsiniz! Qulaqlarınız belə gözəl xəbərlərlə dərman tapsın...

Mən Sizə ikinci dəfə bu gözəl bayram üçün zəng edəndə, yəqin ki, Sizin telefonunuzda zənglər bir-birinə qarışmışdı. Bu dəfə artıq Siz dərdsiz-ələmsiz danışırdınız. Belə deyim, Xələfli erməni vandallarından, Sizin ürəyiniz isə dünyanın ən böyük dərdindən- həsrətdən azad olmuşdu... Siz bundan sonra könül quşunu Xələfliyə uçuracaqsınız və bundan sonra ancaq həsrət körpüsünə yox, Qələbə körpüsünə şeirlər yazacaqsınız...

Və bir sözü də burada vurğulayıb təbrik məktubumu bitirirəm. "Əli Rza Xələfli-65" adlı kitabda dostlarınızdan biri Sizinlə əlaqəli belə demişdir:

"Əli Rza Xələfli Xudafərin körpüsünü gəzib, orada ürəkdən "oxqay" deyəcək!"

İndi həmin vaxt gəlib çatıb, Əli Rza müəllim! Yəqin ki, bundan sonra Xələflinin işğal gününü qeyd etməyəcəksiniz, ona bir acı xatirə kimi baxacaqsınız. Bundan sonra Siz Xələflinin qurtuluş gününü-23 oktyabrı qeyd edəcəksiniz! Onilliklər Zəfərlərlə başladı, Səfər bizdən, Zəfər Allahdandır! Allaha Şükür! Ulu yaradan Ali Baş Komandanımızı, Müzəffər ordumuzu, əsgər, çavuş, gizir və zabitlərimizi qorusun, müqəddəs torpaqlarımız uğrunda canını fəda etmiş şəhidlərimizə rəhmət eləsin, yaralılarımıza şəfa versin. Amin, Amin, min Amin!

Sizin kimi ürəyi çırpınmasa da, Sizinlə birlikdə ürəyi çırpınan

*Sevindik Nəsiboğlu*
*23.10.2020*

## MƏNİM ATAM DÜNYANIN ƏN YAXŞI ATASIDIR...

*Şəhid polkovnik-leytenant, Vətən Müharibəsi Qəhrəmanı Anar Vaqif oğlu Əliyev haqqında məqalə və onun qızı Nigar Əliyeva ilə müsahibə.*

*(28.08.1980-ci il Kəlbəcər rayonu, Boyaqlı kəndi-21.10.2020-ci il Xocavənd rayonu Tuğ kəndi)*



Bir Qəhrəman var... Hələ işğal olunmadığı zaman Qarabağın hər qarışından ayrı düşməyə məcbur olan... Sonda yanan evini görüb ulu əcdadının ruhunu bədənində qonaq edən Qəhrəman... O gündən ulu əcdadının ruhu nə deyirsə, o cür davranan Qəhrəman... O yanmış evinin söndürülməsi, o intiqam alovunun isə daha da alovlanması üçün ömrünün düz 20 ilini yazıb-oxuyan, çalışan, yuxusuz gecələr yaşayan Qəhrəman... Son-

da Ulu Əcdadının ruhunu hələki şad edə bilmədiyini duyub intiqam alovunu daha da kükrədən Qəhrəman... Vətən müharibəsinin onsuz keçən hər günündə hiddətindən ürəyi partlamaq həddinə çatan Qəhrəman... Vətən Müharibəsində 10 gün vuruşub, son damla qanını Şuşanın ilk azad edilmiş qarış torpağında axıdan Qəhrəman... Bu Qəhrəman 2907 ŞƏHİDİMİZDƏN BİRİ, Əsrlərlə dillərdən düşməyəcək Vətən Müharibəsinin Qəhrəmanı, Şəhid polkovnik-leytenant Anar Əliyevdir...

Anar Əliyev 28 avqust 1980-ci ildə Kəlbəcər rayonunun Boyaqlı kəndində müəllim ailəsində dünyaya göz açmışdır. Atası Vaqif Əliyev və anası Səkinə xanım Azərbaycan Xarici Dillər İnstitutunu bitirmişdilər, hər ikisi məktəbdə müəllim işləyirdilər. Anar Əliyevin soyu, nəsli Kəlbəcərin ilk sakinlərindən olan el arasmda "Kalvavəllər" kimi tanınan Kərbəlayi Vəlinin nəslinə qədər uzanıb gedir. O, Kərbəlayi Vəlinin tayfasından olan Kərbəlayi Əlinin yadıcası, Məşədi İsmayılın kötücəsi, Əlinin nəticəsi, Vaqif Əliyevin ikinci oğlu idi.

Anar valideynlərinin iş yeri ilə əlaqədar olaraq keçmiş DQMV-nin Ağdərə rayonunun Həsənqaya sovetliyinin Levonarx kəndinə köçməklə orada yaşamış və 1986-cı ildə burada yerləşən rusdilli Levonarx kənd məktəbinin birinci sinfinə daxil olmuş, 1988-ci ilə qədər burada təhsil almışdır. 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı, Qarabağla bağlı ərazi iddiaları və dinc sakinlərə edilən hücumlar nəticəsində Qarabağ müharibəsi başlamış, bu zaman Anar Əliyevin ailəsi hücumlardan başlayan deportasiyalar nəticəsində Tərtər rayonunun Bəyimsarov kəndinə köçmüşdür. Anar Əliyev 1993-cü ilə qədər Tərtər rayonunun Bəyimsarov kəndində təhsil almış, 1993-cü ildə Şəmkir rayonunun Çaykənd kənd tam orta məktəbində təhsilini davam etdirmiş, 1995-ci ilə, yəni 9-cu sinfə qədər bu məktəbdə təhsil almış, 1995-ci ildə 9-cu sinifdə oxuyarkən Cəmşid Naxçıvanski adına hərbi liseyə imtahanla qəbul olmuşdur. O, 1997-ci ilə qədər bu liseydə təhsil almış, 1997-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə qəbul olmuş, 2001-ci ildə ali hərbi məktəbi "qoşun kəşfiyyatı" ixtisası üzrə bitirmişdir.

Gənc Anar həmin il Silahlı Qüvvələrin Təlim Tədris Mərkəzində zabit ixtisas kursunun dinləyicisi olmuş, 2001-ci ildə ali hərbi təhsilini başa vuraraq Müdafiə Nazirliyinin 25.08.2001 tarixli əmrinə əsasən ona "leytenant" hərbi rütbəsi verilmiş, 2002-ci ildə dinləyici kursunu bitirərək Müdafiə Nazirliyinin əmrinə əsasən "N" saylı hərbi hissəyə xidmətə göndərilmişdir. O, 4 sentyabr 2002-ci ildən 1 may 2004-cü ilədək "N" saylı hərbi hissənin xüsusi təyinatlı tağım komandiri vəzifəsində çalışmışdır. Müdafiə Nazirliyinin 04.09.2003-cü il tarixli əmrinə əsasən Anar Əliyevə "baş leytenant" hərbi rütbəsi verilmişdir. O, 1 may 2004-cü ildən 20 dekabr 2006-cı ilədək "N" saylı hərbi hissənin xüsusi təyinatlı qrup komandiri, 20 dekabr 2006-cı ildən 12 aprel 2007-ci ilədək bölük komandiri vəzifəsində çalışmışdır. Müdafiə Nazirliyinin 15 dekabr 2007-ci il tarixli əmrinə əsasən Anar Əliyevə "kapitan" hərbi rütbəsi verilmişdir.

Anar Əliyev 12 aprel 2007-ci ildən 26 yanvar 2008-ci ilədək "N" saylı hərbi hissənin taborunda bölük komandiri, 26 yanvar 2008-ci ildən 15 iyun 2009-cu ilədək xüsusi təyinatlı dəstə komandirinin müavini vəzifəsində çalışmış, 15 iyun 2009-cu ildə isə xüsusi təyinatlı dəstə komandiri vəzifəsinə qədər yüksəlmişdir.

Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətinə, öz xidməti vəzifələrini və hərbi hissənin qarşısında qoyulmuş tapşırıqları layiqincə yerinə yetirərkən fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.06.2011-ci il tarixli Sərəncamına əsasən Anar Əliyev "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.





2014-cü ildə ikiillik Hərbi Akademiyanı bitirən Anar Əliyev Müdafiə Nazirliyinin əmrinə əsasən Naxçıvan MR-in Hərbi Komandanlığmm sərəncamına göndərilmişdir. Anar Əliyevin qüsursuz xidməti rəhbərlik tərəfindən vaxtında qiymətləndirilmişdir. Belə ki, 26.06.2008 tarixli əmrə əsasən o, qüsursuz xidmətinin 10 illiyinə görə 3-cü dərəcəli, 2011-ci ildə isə 2-ci dərəcəli qüsursuz xidmətə görə medalları ilə təltif edilmiş, həmçinin "USTA" məharət dərəcəsi almışdır.

Anar Əliyevin arzusu təlimlərdə əldə etdiyi təcrübələrdən kəşfiyyata aid dərslik kitabı yazmaq idi.

Onun iştirak etdiyi hərbi təlimlər 2003-2019-cu illəri əhatə edir. 3-21 noyabr 2003-cü ildə Türkiyə Respublikasında "təməl paraşüt" kursunda, 2005-ci ildə Macarıstanda "ingilis dili" kursunda, 9 yanvar-17 fevral 2006-cı ildə Çexiyada "sülhməramlı əməliyyatlar üçün təlimatçı" kursunda, 17 yanvar-2 fevral 2007-ci ildə İsveçrə Respublikasında "qış dağ" kursunda, 2009-cu ildə Rumıniyada "hərbi əməkdaşlıq və təcrübə mübadiləsi" kursunda, yenə də həmin ildə Türkiyədə keçirilən "sərbəst paraşüt" kurslarında, 18 yanvar-12 fevral 2010-cu ildə Sloveniyada "təkmilləşdirilmiş qış-dağ" kursunda, 7 may-13 may 2010-cu ildə İordaniya Krallığında baş tutan "SOFEX-2010 " hərbi sərgisində iştirak etmişdir.

Anar Əliyevin son təlimi 2019-cu ilin avqustunda başlayan və 2020-ci ilin yanvar ayına qədər davam edən beş aylıq Pakistan İslam Respublikasında keçirilən hərbi kurslar olmuşdur. 2020-ci ilin yanvarında kursları müvəffəqiyyətlə keçdikdən sonra Müdafiə Nazirliyinin müvafiq əmrinə əsasən Anar Əliyev əvvəlcə Hərbi Hissə Komandirinin müavini, sonra isə Hərbi Hissə Komandiri vəzifəsinə yüksəlmiş, bu illər ərzində əvvəlcə mayor, sonra isə polkovnik-leytenant rütbəsi almışdır.

2018-cı il mayın 20-dən 27-nə qədər olan müddətdə Azərbaycan və Ermənistan arasında Naxçıvanın Günnüt kəndinin erməni işğalından azad edilməsi uğrunda döyüşlər baş vermişdi. Bu döyüşlər Azərbaycan-Ermənistan münaqişəsi tarixinə "Günnüt əməliyyatı" kimi yazılmışdır. Anar Əliyev bu azadetmə əməliyyatları zamanı Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun təcrübəli zabiti idi və özü bu döyüşlərdə yaxından iştirak edirdi. 7 gün davam edən bu döyüşlər və Əlahiddə Ümumqoşun Ordusunun əks-həmləsi nəticəsində Şərur rayonunun Günnüt kəndi, "Ağbulaq" yüksəkliyi, Qızılqaya və Qaraqaya dağ silsiləsi erməni işğalçılarından azad olunub, Dərələyəz mahalının Arpa kəndi isə Azərbaycan ordusunun atəş nəzarəti altına keçirilib. Anar Əliyevin bu döyüşlərdəki igidliyi, şücaəti onun sağlığında da unudulmamış, əvəzsiz xidməti medallar, fəxri fərmanlar və təşəkkürnamələr ilə dəyərləndirilmiş, cəsur döyüşçümüz sağlığında NAXÇIVAN XTQ ƏFSANƏSİ olmağa haqq qazanmışdı.

2020-ci il sentyabrın 27-də səhər saat 06:00 radələrində Ermənistan Silahlı Qüvvələrinin bölmələri tərəfindən genişmiqyaslı təxribat törədilmiş və cəbhəboyu ərazilərdə yerləşən Azərbaycan Ordusunun mövqeləri və yaşayış məntəqələri iriçaplı silahlar,

minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutulmuş, nəticədə ölənlər və yaralananlar olmuşdur. Bu barədə məlumat Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bildiriləndən sonra Ermənistan Silahlı Qüvvələri tərəfindən törədilən genişmiqyaslı təxribatın qarşısını almaq məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin Komandanlığı tərəfindən cəbhəboyu ərazilərdə əks-hücum əməliyyatlarının başlaması barədə əmr verilmişdir.

27 sentyabr 2020-ci ildən başlanan Vətən müharibəsində Anar Əliyev Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun xüsusi təyinatlı briqada komandiri kimi briqadasının bir hissəsi ilə iştirak etmiş, müharibənin Füzuli, Cəbrayıl, Zəngilan və Xocavənd cəbhəsində gedən döyüşlər zamanı fərqlənmiş, 10 gündən çox Xocavənd rayonu ərazisində davam edən döyüşlərin nəticəsi olaraq strateji əhəmiyyətə malik olan Hadrut qəsəbəsi işğaldan azad edilmişdir. Onun da rəhbərliyi altında gedən döyüşlər və komandirliyini etdiyi xüsusi təyinatlı briqadanın fərqlənməsi nəticəsində 14 oktyabr 2020-ci il tarixində Füzuli rayonunun Qaradağlı, Xatınbulaq, Qarakollu və Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Qırmızıqaya, Təkə, Tağaser kəndləri, 15 oktyabr 2020-ci il tarixində Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Ciraquz kəndləri, 16 oktyabr 2020-ci il tarixində Xocavənd rayonunun Ağbulaq, Axullu və Xırmancıq kəndləri Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir.

Anar Əliyevin son döyüşü Şuşaya gedən yolda olan kəndlərin, xüsusilə də, Xocavəndin Tuğ kəndinin azad olunması uğrunda gedən döyüşlər olmuş, 21 oktyabr 2020-ci ildə Tuğ kəndi və Şuşaya gedən yoldakı strateji yüksəkliklər uğrunda gedən döyüşlər zamanı düşmən tərəfindən açılan atəş nəticəsində o, qəhrəmancasına şəhid olmuşdur. Döyüş yoldaşlarının dediklərinə görə, o, qəfildən gözündən vurulmuş, yaralı komandir çənə söykənmiş, ona ilkin tibbi yardım edilmiş, yaralı gözünə iynə vurulmuş, başı sarınmış, lakin nəinki yaralı Anar Əliyev, hətta onu müalicə edən həkim belə düşmən tərəfindən atəşə tutulmuş və yaralanmışdır. Döyüş bölgəsində bədənindən yaralı, zəhmindən, qüdrətindən, qüvvətindən və zəkasından yaralanmayan komandirin müavininə son sözü və son əmri bu olur: "Komandirliyi öz üzərinə götür! Bizi Şuşa yoluna aparan strateji təpəni qövsvari əhatə edin! Aralı-aralı dayanın ki, düşmən çoxluğunuzdan xəbərdar olsun! Döyüşü davam etdirin! Təslim olmayın! Təpəni verməyin!" Anar Əliyev cismində daşıdığı əcdadlarının ulu ruhunun çıxmaq istədiyini, onun ruhunu da aparmaq istədiyini hiss edirdi. Ona görə çox keçmədi ki, o, dilinə kəlmeyi-şəhadət gətirərək Şəhidlik Zirvəsinə yüksəldi... Şuşanın ilk qarışında Şəhadətə yüksələn Qəhrəman olaraq Vətən Müharibəsində əldə edilmiş nailiyyətlərdə böyük rol oynadı, ad qazandı. 23 oktyabr 2020-ci il tarixində onun mübarək nəşi mühasirədən çıxarılaraq Füzulidə yerləşən diaqnostika mərkəzinə, 24 oktyabrda isə diaqnostika mərkəzindən doğulmadığı, lakin, boya-başa çatdığı Tərtər rayonunun Bəyimsarov kəndinə son vida mərasimi üçün gətirilmiş, son vida mərasimindən 1 gün sonra, 25 oktyabr 2020-ci ildə izdihamla, Müdafiə Nazirliyinin təşkil etdiyi yaylım atəşləri və Azərbaycan Respublikasının dövlət himninin sədaları altında II Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Anar Əliyev hələ sağlığında "CBC" TV-yə xüsusi təyinatlıların təlimi barədə müsahibə vermişdir. Onun həlak olması xəbəri rus saytlarında belə verilmiş, Şəhidlərin siyahısı müəyyən olunduqdan sonra Anar Əliyev barədə müsahibələr, xəbərlər, məqalələr hazırlanmış, yayılmış, dərc edilmişdir. Həmçinin, 30 mart 2021-ci ildə Anar Əliyevin şəxsi əşyaları, materialları Sənədli Mənbələr Fondunun müdiri Esmira Rəhimova vasitəsilə Milli Azərbaycan Tarixi Muzeyinə təhvil verilmişdir.





2021-ci ilin aprel ayında tanınmış hərbi cərrah, hərbi həkim, Qarabağ müharibəsi veteranı, yazıçı Əli İsmayılov Anar Əliyevə həsr olunan "İgid ölər, adı qalar" kitabını yazmış, kitab "Qanun" nəşriyyatında çap edilmişdir.

Millət vəkili Qənirə Paşayeva Anar Əliyevin atası Vaqif Əliyevlə görüşmüş, Anar Əliyevin xatirəsi bir daha yad edilmişdir.

2 aprel 2021-ci ildə Asan Xidmətin təşkil etdiyi, Aprel döyüşlərinin 5 illiyinə həsr olunmuş "Zəfərdən zəfərə" tədbiri videokonfrans şəklində keçirilmişdir. Tədbirdə bir çox şəhid ailəsinin üzvləri kimi Anar Əliyevin həyat yoldaşı Vüsalə Əliyeva da iştirak və çıxış etmişdir.



Şəhidimizin təsəvvürümüzdən qısa olan və mənalı keçən ömür kitabının icmalını vərəqlədikdən sonra gəlin Qəhrəmanımızı bir də qızı Nigar Əliyevanın təsəvvürü ilə tanıyaq... Jurnalistlər Birliyinin üzvü olmağım barədə vəsiqəni aldıqdan sonra götürdüyüm ilk müsahibəylə bağlı şəraiti yaratdığına görə qəhrəman Şəhidimizin qız yadigarı Nigar Əliyevaya və Şəhidimizin ailə üzvlərinə minnətdarlığımı bildirirəm...

**Sual**: *İlk öncə şəhid qızı kimi tanışlıq üçün özünüzdən bəhs etməyinizi xahiş edirəm.*

**Cavab:** Mən, Əliyeva Nigar Şəhid polkovnik - leytenant, Vətən Müharibəsi Qəhrəmanı Anar Əliyevin qızıyam. Orta məktəbin 8-ci sinfində oxuyuram.

**Sual:** *Atanızın hərbçi olmasını nə vaxt başa düşdünüz və həmin vaxt hansı hisslər keçirdiniz?*

**Cavab:** Ağlım kəsəndən atamın hərbçi olduğunu bilirdim. Hərbçi qızı olduğum üçün həmişə atamla, onun peşəsi ilə fəxr etmişəm. Çünki,başqa hərbçilər kimi atam da tək bizi qorumurdu, düşünmürdü, o vətənin, xalqın müdafiəsini düşünürdü, bütün Azərbaycanı qoruyurdu, bu millətin, ərazilərimizin təhlükəsizliyini düşünürdü, bunun üçün çalışırdı.

**Sual:** *Atanız, Azərbaycanımızın Şəhidi sizə nələri tövsiyə edirdi və sizə vətənpərvərlik hissini necə aşılayırdı?*

**Cavab:** Atam Allaha, İslam dininə bağlı biri idi. Şəhidliyin müqəddəs və şərəfli bir yol olduğunu bilirdi. Atam heç vaxt erməniyə əsir düşmək istəməzdi, ona görə də son nəfəsinə kimi vuruşaraq şəhidliyi seçdi. Bizə həmişə deyirdi ki, Vətənə layiq, doğru, ədalətli insan kimi xidmət eləyin.

**Sual:** *Atanızın xasiyyəti necə idi, onun xasiyyətindən, xarakterindən nələri özünüz üçün həyat yolu kimi seçmisiniz?*

**Cavab:** Atam sadə, səmimi, mehriban, qayğıkeş, ədalətli, mərhəmətli, xeyirxah, gülərüz bir insan idi. Mənim atam dünyanın ən gözəl atasıdır...

**Sual:** *Atanız öz peşəsi, xidməti ilə əlaqədar Sizə və ya ailənizə nələri isə danışırdımı?*

**Cavab:** Əsla! O, əsl kəşfiyyatçı idi. Onun bütün hərbi fəaliyyəti hərbi sirr olduğu üçün bizə öz işi barədə nə isə deməzdi, bunları bildiyimiz üçün biz də soruşmazdıq.

**Sual:** *Vətən müharibəsində atanızın da döyüşlərdə öndə olduğundan nə vaxt və necə xəbər tutdunuz, həmin anda hansı hisslər keçirdiniz?*

**Cavab:** Atam bizimlə 3-4 dəfə telefonla əlaqə saxladı. Mənimlə danışanda "ananın sözünə bax, dərslərinə fikir ver, özünüzə yaxşı baxın" dedi. Onda onun qanlı döyüşlərdə olduğunu bildim, atamla qürur duydum, onu və Azərbaycan əsgərini qoruması üçün Allaha dua etdim.

**Sual:** *Atanızla son görüş və ya telefon əlaqəniz barədə danışa bilərsinizmi?*

**Cavab:** Atam 11 oktyabr 2020-ci ildə Naxçıvandan müharibəyə gedəndə gəlib bizlə görüşdü, amma demədi hara gedir, dedi ki, axşama qayıdacaq. Telefonla zəng edəndə bildik ki, müharibəyə gedir. Atama çox inanırdım. Bilirdim ki, ona düşmənin gücü çatmaz, ancaq o, özü düşməni məhv edər. Ona görə rahat idim.

**Sual:** *Atanızı bir ata, bir insan, bir azərbaycanlı və vətən şəhidi kimi necə xatırlayırsınız?*

**Cavab:** Əvvəldə dediyim kimi, mənim atam dünyanın ən gözəl atasıdır. O, Vətən uğrunda can verən, damarlarında azəri türkünün qanı axan əsl Azərbaycanlı idi.

**Sual:** *Vətən müharibəsinin başlamasından, şəhidlərimizin canı, qazilərimizin sağlamlığı bahasına, əsgər və zabitlərimizin şücaəti sayəsində 44 günlük Vətən müharibəmizin düşmən üzərində qələbəmizlə bitməsindən, yerinə yetən qisas hissindən Şəhid qızı kimi hansı hisslər keçirməyiniz barədə nə deyə bilərsiniz?*

**Cavab:** Biz hamımız 10 noyabrda gecə yatmadıq. Zəfəri həm göz yaşları, həm də sevinclə qarşıladıq. Atamın qələbəylə qayıtmasını istərdim... Sevindim ki, onun qisası alındı, onun Vətəni azaddır.

**Sual:** *Şəhidimizə sağlığında verdiyiniz vədləriniz barədə arzularınızı dinləmək xoş olardı. Məncə bu bütün şəhidlərimizin övladları üçün həyat devizi, şüarı ola bilər.*

**Cavab:** Atam mənim rus-ingilis dilini bilməyimi istəyirdi. Atam deyirdi ki, qız uşağı ya həkim, ya müəllimə olar. Mən də atamın arzularını yerinə yetirəcəyəm. Ən əsası kim oluramsa olum, Anar Əliyevin qızı kimi olmalıyam. Hansı peşədə oluramsa olum, Vətənimə, xalqıma, dövlətimə, Atama layiqli olmalıyam.

Cismən yanımızda olmasa da, ruhən həmişə bizimlədi. O, bizi qoruyan mələyimizdi. Ruhun şad olsun, Ata!

***P.S. Vətən müharibəsi qəhrəmanı şəhid Anar Əliyevin Ailəsi ilə əlaqə saxlayaraq məlumat almış və Vikipediya səhifəsini zənginləşdirmişəm. Yuxarıda qeyd etdiyim məlumatlar da həmin səhifədən götürülmüşdür.***

*Müsahibəni aldı: Sevindik Nəsiboğlu.*
*02 avqust 2021-ci il*
*"Kredo" qəzeti*
*18 avqust 2021-ci il*





## ZƏFƏR YOLUNU AÇMAQ ÜÇÜN ŞƏHİD OLAN QƏHRƏMAN



*İlk pilot şəhid, Dövlət Sərhəd Xidmətinin əməkdaşı, mayor Abbas Rza oğlu Qasımovun nurlu xatirəsinə (17 mart 1986-cı il Ermənistan SSR-nin Masis rayonu, Rəhimabad kəndi – 27 sentyabr 2020-ci il Füzuli rayonu)*

27 sentyabr günü... Həmin gün Azərbaycanın uzun illər məcburən yatırdılmış şiri oyandı. Özü də nərə çəkərək, nərəsi ilə bütün dünyanı titrədərək oyandı. Həmin gün keçən hər anı bizi hiddətləndirən, istəməsək də yaşadığımız tariximizə çevrilmiş o 200 ilin ən qürurverici, ən xoş günü idi. 200 il ərzində xalq belə bir gün yaşamamışdı. Həmin gündən sonra xalq 200 il yaşamadığı günləri yaşayacaqdı. Təbii ki, ən yaxşı mənada. Çünki 2020-ci il 27 sentyabr günündən başlayaraq bir xalq bütün sədləri sökdü, dağıtdı, qəfəsdən çıxdı, sinə dolusu nəfəs aldı, qılıncını əlində sıxdıqca sıxdı və ən böyük Zəfərinin başlanğıcını əldə etdi. O Zəfər ki, 200 ildə bu zəfərin ən xırdasından xırdasını belə qazana bilməmişdi. İtirə-itirə getmişdik biz torpaqlarımızı, igidlərimizi, qəhrəmanlarımızı, sərkərdələrimizi... Hətta bu illər içində elə bir il var idi ki, paytaxtımız belə itirilmək təhlükəsi altında idi. Əldən gedə bilərdi, gedirdi belə... Ancaq Azərbaycanın sonralar yetişdirdiyi şirlər, nəhənglər buna imkan vermədilər. Azərbaycan öz yarasını tam sağalda bilməsə də, yaralı vəziyyətdə dirçələ bildi. Xalq 27 sentyabr gününə 200 illik tarixdə hazırlıqlı idi, elə dövlət də öz yenidən bərpasından başlayaraq bu tarixə hazırlaşırdı. Vətənin igid oğul və qızları 27 sentyabr günü uzun illər gedilməsini gözlədikləri müqəddəs Zəfər yolunun ilk addımlarını şərəflə, qürurla atırdılar.

Haqqında söz açacağım bu igid vətən fədailərindən biri mən deyərdim ki, öz ömrünü elə Azərbaycanımız kimi yaşayıb. Son anında yox, hər anında vətəni kimi olub. Necə ki, Azərbaycanımızın başı əzəldən ən ağır bəlalar görüb, lakin öz övladlarından təskinlik tapırdı, bu qəhrəmanımız da elə vətəni kimi başı bəlalı olub. O, dünyaya göz açdığı yurdunu görmək arzusu ilə yaşasa da, həyatının son anına qədər bu arzu onun ürəyində qaldı. Uşaq vaxtlarından dərd-sər içərisində çırpındı, ata dərdi, torpaq dərdi... Oğulları ilə təskinlik tapardı vətəni kimi... Ancaq heç özü də bilməzdi ki, nə vaxtsa vətən sevgisinə görə öz uşaqlarını da yetim qoyacaqdı... Fələyin işinə baxın ki, Rza kişi övladı Abbasını 6 yaşında atasız qoyduğu kimi, Abbas da atasının adını daşıyan bala Rzasını 6 yaşında atasız qoyacaqdı...

Bu qəhrəmanım ilk pilot şəhid mayor Abbas Rza oğlu Qasımovdur.

Abbas Qasımov 17 mart 1986-cı ildə terrorçu qonşularımızın əlimizdən aldığı, həsrət qaldığımız Zəngibasar (Masis) rayonunun Rəhimabad kəndində dünyaya göz açıb. Abbas həmin illərdə bu ailənin son sevinci idi... Çünki fələk istəyirdi ki, Abbasın gəlişi ilə bu ailə sonuncu dəfə sevinsin, şadlansın...

Bacısından iki il sonra doğulub Abbas... Pünhanə xanımla əlaqə saxladım... O, nə qədər nikbin şəkildə yazmağa çalışsa da, daxilindəki duyğularını gizlədə bilmirdi... Mən onu anlayırdım, onun dərdi çox ağır idi. Deyirdi ki: ***"Həyatımda bir körpə yaşda ata itirdim, bir də 37 yaşımda... Soruşsanız, hansı çətindir, deyərəm ki, qardaş dağı dözülməzdir... Allah heç bir bacıya qardaş tabutunu qarşılamağı qismət etməsin... Çox çətin imiş Şəhid bacısı olmaq. Təsəvvür et ki, bir daha qardaşını qucaqlaya bilmirsən... Nə deməkdir axı, Abbas qardaşım? Allah qismətiməmi yazıb, həm atanın, həm qardaşın qəbrini qucaqlamaq? Bir düşün, necə çətindir... Bacılar qardaş deyib qucaqlayanda mən gecələr onun üçün göz yaşı tökürəm... "***

2 il boyunca Abbasla birlikdə sevinən ailə heç narahat olmadı, dərd çəkmədi... Bu illərdə Abbas ailənin sevincinə çevrildi. Rza kişinin ailəsi, yaxınları Abbasdan dualarını əskik etmədilər. Onların Abbasın gələcəyinə böyük inamları vardı.

Fələk, axır ki, öz oyununu qurdu və başlatdı... Həmin illərdə daxilindəki kinini, paxıllığını, naqisliyini yavaş-yavaş üzə çıxaran mənfur ermənilər gözləmədiyimiz bir anda bizi öz yurdumuzdan qovdular... Onda qara təqvim 1988-ci ilin noyabr ayını göstərirdi... Terrorçu ünsürlərlə böyük xalq arasındakı qarşıdurma həmin illərdə təzə-təzə baş qaldırırdı. Qərbi Azərbaycanın hər yerində deportasiyalar başlayırdı. İnsanlar zorla ev-eşiklərindən, yurd-yuvalarından qovulur, xüsusilə, azərbaycanlıların çoxluq təşkil etdiyi ərazilərdə deportasiyalar daha sərt olur, ermənilərin xain planları get-gedə gerçəkləşirdi.

Növbə gəlib Abbasın ailəsinə də çatdı... Körpə gözlərdəki gülüş bir anda yox oldu... Analar çarəsiz qaldı, ataların beli büküldü... Abbas dünyanın ən böyük ağrısını körpə canında güclə daşımağa başladı... O, bu yurdu bir daha görə bilməyəcəkdi. Görmədiyi, xəyalına belə gətirmədiyi ən pis günləri başlayırdı Abbasın...

Cani, qaniçən erməni cəlladları növbəti ev kimi Qasımovların evinə soxuldular. Abbasın gözləri ermənin yırtıcı, vəhşi heyvan kimi simalarını görəndə bir az qorxdu... Həmişə gülüb-sevinən Abbas həsrətlə qarşı-qarşıya olmağın ilk dəqiqələrini yaşadığına görə, bəlkə də, ilk dəfə ağladı... Ana Abbasın göz yaşlarına dözə bilmədi... Axı, Abbas hələ uşaq idi... Bu dərdə uşaq necə dözsün? Axı, onun qəlbi daşdan deyil, bapbalaca bir ət parçası olan körpə uşaq ürəyidir... Ana uşağı qucağına alsa da, onu sakitləşdirə bilmirdi. Ata da uşağın ağlamasına yanıb-yaxılırdı. Rza kişi özünü saxlaya bilmədi:

– Sizin heç imanınız yoxdur? Görmürsünüz, körpə uşaq necə ağlayır?

Ata hələ sözünü tamamlamamış erməni cəlladlarından biri onu itələdi. Sonra ermənicə danışdı, qəhqəhə çəkərək güldü. Vəhşi kobudluğu ilə evdəkiləri necə evdən çıxartdısa, ailənin evlərini sonuncu dəfə görməyə belə macalları olmadı.

Bir ev arxalarında qalırdı onların... O ev ki, bir ailə orada kəndlə sevinib, kəndlə gülürdü. O ev ki, həmişə xeyirxahların, sədaqətlilərin evi olmuşdu. O ailədən heç kəsə zərər gəlməzdi. Düşmənlərə amansız idilər, axı, heç onların düşmənləri də yox idi. Onlar düşmən qazana bilməzdilər.

Erməni vəhşiləri onları evdən çıxardandan sonra dərhal od vurub evi əşyalarla birlikdə yandırdılar... Daş üstə daş qoymadılar... Abbasın qışqırıb dəli kimi ağlamasından heç evə baxmağa da macalı yox idi Kifayət ananın. Heç baxa da bilmirdi əvvəl min bir





əzab-əziyyətlə qurduğu, indi isə bir anın içərisində zalımlar tərəfindən od vurularaq yandırılan yuvasına... Bir ailə, bir oba, bir millət, bir vətən dünya boyda dərdlə birlikdə Qərbi Azərbaycandan Şimali Azərbaycana doğru yol aldı... Heç ürəyimdən gəlmir Azərbaycanı şimaliyə, cənubiyə, qərbiyə ayıram... Onu ayıran düşmənlər olub... Üzü qara olsun düşmənlərin...

Binəqədi rayonunda məskunlaşan Qasımovlar ailəsinin başçısı Rza kişi heç dözə bilmirdi bu istəmədiyi köçə... O torpaqlar onun canı, qanı idi... Hətta onu ömür boyu səssiz-sədasız otağın küncünə saxlasalar belə öz doğma torpağında olduğu üçün səsini çıxartmazdı. Ürəyini orada qoyub getmişdi Rza kişi... Bir daha orada olmamaq duyğusu ilə qarşı-qarşıya qalmaq... Düşünmək belə əzab idi, dərd idi.

Həmin illərdə Azərbaycanda Azadlıq Hərəkatı başlamışdı. İnsanlar küçələrə, meydanlara axışıb azadlıq istəyirdilər. Lenindən Lenində heç vaxt olmayan haqq, hüquq, ədalət istəyirdilər. Rza kişinin də bundan xəbəri var idi. Buna görə, bir az elə bil ümidlənirdi. Fikirləşirdi ki, bu hərəkatın bir nəticəsi olar. Azərbaycan müstəqilləşər, güclənər. Ancaq qarşıdurmalardan başını qaldırmağa vaxtı olmayan millətin bir hissəsi də Qarabağda şəhadətə doğru irəliləyirdi...

Yurduna qayıdacağına köməkliyi dəyəcəyinə ümid bağladığı üçün Rza kişi qərara aldı ki, özü də bu hərəkatda iştirak etsin. Səhərisi günü qardaşı ilə birlikdə hərəkata qoşulmağa getməyə hazırlaşan Rza kişini oğlu Abbas gördü. Abbas təəccüblə atasına baxaraq soruşdu:

– *Ata, hara gedirsən?*

– *Küçəyə çıxıram, oğul. Meydan hərəkatının olduğu yerə.*

– *Orada neyləyirlər, ata?*

– *Camaat küçəyə axışıb, iynə atsan, yerə düşməz adam əlindən. Hamı haqqını istəyir. Oğul, bəlkə, nəsə dəyişdi, yenə obamıza-elimizə qayıtdıq.*

Abbas bu sözü eşitcək elə bil oyandı:

– *Nə? Onda mən də gedirəm.*

Rza kişi razılıq üçün həyat yoldaşına baxdı, həyat yoldaşı da baxışları ilə razılıq verdi. O, bilirdi ki, atası Abbası kütlənin arasında itirməz, ayaq altda qoymaz. Abbas sevinə-sevinə atasının çiynində oturdu. Əmisi ilə birgə küçələrlə axışan insan selinə qarışıb azadlıq, haqq-ədalət axtarışına başladılar.

Rza kişigil insanların küçədə çox olduğu vaxtda çölə çıxmışdılar. Hamı küçədə idi. İnsanlar "Azadlıq! Azadlıq!" deyə-deyə bağırırdılar. Neçələri az qala ayaq altda qalırdı, neçələri istidən yansalar belə elə bağırırdı ki, az qala səsi batırdı. İnsanlar sanki, evləri imiş kimi meydandan ayrılmırdı.

Onlar Leninsiz Meydanda insanların ən bol olduğu yerdə idilər. Rza kişi Abbası yuxarıya qaldırır, Abbas tünlükdə qalxan əlləri görür, söyləyən dillərin səsini eşidirdi. Onun gördükləri əsl həqiqət idi. İnsan kütləsi arasından eşidilən səslər qulaqları batırsa da, deyilən söz qulağa məlhəm olurdu: "Azadlıq! Azadlıq! Azadlıq! Qarabağ bizimdir! Qarabağı verməik! Yurdumuzu verməik!". Bu insan selinin arasında doğulduğu torpağı işğal olmasa da, yenə də yurddaş bilib yurddaşının səsinə səs verənlər, yurd-yuva həsrətindən Abbas kimi ürəyi yaralı olan uşaqlar da var idi.

Abbas insan selindən yayılan səslərin uğultusundan elə bil yavaş-yavaş yuxudan oyanırdı, dirçəlirdi. Onun da elə bil daxilində söz tayası yığılmışdı. Daxilindəki qaçqınlığın acısı bu söz topasını onun ürəyindən qovurdu. Bu söz ürəkdən dilə tərəf qovulur, dildə qaçqın kimi yaşayırdı. Sonda isə dildən çıxaraq elə bil öz dədə-baba yurduna qayıdırdı. Nəhayət, birdən Abbas özünü saxlaya bilməyib bərkdən qışqırdı:

– *Qalabağ bizimdir! Qalabağ bizimdir! Qalabağ bizimdir!*

O, "r" hərfini tələffüz edə bilməyəcək qədər balaca idi. Ancaq bu sözü deyəcək qədər öz Vətənini, yurdunu sevən insan kimi böyümüşdü.

Abbas yenə də dözə bilmədi və var gücü ilə yenə qışqırdı:

– *Qalabağ Azərbaycanındır!*

Bir anda ətrafda olanlar hamısı qeyri-ixtiyari dönüb Abbasa baxdılar. Abbas atasının çiynində olduğu üçün hündürdə idi. İnsanlar onu görür, ondan güc alıb daha çox bağırırdılar. Eyni zamanda Abbas əhatədə olanlar tərəfindən əldən-ələ gəzdi, heç tanımadığı yurddaşların əllərini gördü, bəzisi dözə bilmir, onu bağrına basırdı. Tez bir zamanda insan selinə başçılıq edən rəhbər də Abbası gördü. İşarə verdi ki, onu bura gətirin.

Rza kişi sevincindən qardaşını qucaqlayıb bağrına basırdı. Abbas insanların başları üzərindən əlləri ilə bir-birinə ötürməsi yolu ilə rəhbərin əlinə doğru irəlilədi. Nəhayət, o, rəhbərə yetişdi, rəhbər inamlı nəzərlərlə ona baxdı və onu bağrına basdı. Sonra isə başı üzərinə qaldırdı. Ona dedi ki, yenə dediyi sözləri hayqırsın. Abbas bir daha hayqırdı:

– *Qalabağ bizimdir! Qalabağ Azərbaycanındır!..*

Rəhbər dedi:

– *Həmvətənlərim, yaxşı baxın, bizim gələcəyimiz belə etibarlı, inamlı, mərd və cəsur əllərdə olacaq, eşq olsun belə övladlar yetirən xalqa!*

Rəhbərin sözü tamamlanan kimi yenə insan seli onun sözünü təkrarladı və səs dalğası Xəzərin dalğalarını təlatümə gətirdi.

O an Abbas üçün unudulmaz an idi. Abbas bu anı özünün də son anına qədər unutmayacaqdı. O andan bəri Abbas özünü vətən, torpaq, azadlıq yoluna həsr etdi. İstədi ki, Azadlıq yolunun ayrıcı Zəfər yolu olsun!

İndi Abbasın həyat kitabının həqiqət olan bu səhifəsi yalnız bir şəkildə yaşayır...

5 il Vətən, torpaq həsrəti ilə yaşadı Qasımovlar ailəsi... Elə bil 5 il onları həbsdə saxlayırdılar... Hələ Abbası demirəm... O, heç də özünü ağlı təzə kəsməyə başlamış uşaq kimi aparmırdı. O, elə bil əvvəlcədən bilirdi ki, burada doğulmayıb, öz doğulduğu torpağı, doğma yurdu var, oradan qovulub... Bu dərdlə böyüyürdü O... Məktəb yaşına çatırdı.

Abbas tədricən hiss edirdi ki, atası heç özündə deyil. Özünü yaxşı göstərməyə çalışsa da, ürəyi yaman ağrıyır. Atasının bu halına o da yanırdı. Gününü onunla keçirməyə çalışırdı, ancaq yenə də hiss edirdi ki, atasının canı ağrıyır. Heç nəyi yox idi onun. Ancaq sağalmaz bir xəstəliyi var idi. Yurd, Torpaq, Ev, Vətən həsrəti.

Abbas ümid istəyirdi, ancaq bu ümid atasında yox idi. Bir neçə dəfə məktəbə gedəcəyindən danışırdı, atasına bununla təskinlik vermək istəyirdi. Abbasın məktəbə getməsi, həqiqətən, Rza kişi üçün təskinlik idi. Bilirdi ki, Abbas məktəbə gedənə qədər yaşayacaq. Dərdlə, əzabla da olsa, yaşamağa çalışacaq...

Abbas məktəbə gedən gün heç sevincli deyildi. Çünki atasını görməmişdi. Heç məktəbə də atası aparmamışdı onu. Bu barədə əvvəldən də heç nə deməmişdi. Ona görə də nə qədər onu sevindirməyə çalışsalar da, o sevinmirdi. Anası Abbasa baxıb daxilində köks ötürürdü. Çünki uşağı gerçəkləri bilmirdi. Hamı sevinərkən Abbas qəm içində idi. Tək diləyi dərs bitəndən sonra atasını görməsi, atasının onu qucaqlaması idi.





Olmadı... Fələk balaca Abbası aldatdı... Abbas dərsdən qayıdanda atasının cismini yox, tabutunu qucaqlamalı oldu... Abbasın xəyalları qaranlığın dibinə qədər enmişdi. Həyatının ən pis anı idi bu an. Atası uzun sürən həsrət xəstəliyindən, ümidsizlik xəstəliyindən rəhmətə getmişdi. .

Bundan sonra Abbasın tək diləyi bu anı bir də yaşamamaq idi. Anasını da belə itirmək istəmirdi...

Həmişə sabaha inanan, yurduna qayıtmaq ümidi ilə, həsrətə son vermək ümidi ilə səbirlə dözüb gözləyən Abbas öz yurdunun tarixini tamam-kamal bilmək üçün can atdı məktəbə. Anası da ona demişdi ki, atanın tək vəsiyyəti sənin böyüyüb layiqli vətən övladı olmağındır.

Abbas 1993-2003-cü ildə F. İsgəndərov adına Binəqədi rayon 157 nömrəli tam orta məktəbdə təhsil alır. Bu illərdə o, qüsursuz xidmət edən bir əsgər kimi məktəbdə nizam-intizamlı olur və dərslərini mükəmməl oxuyurdu. Anası deyir ki, o, heç vaxt istəməzdi ki, onun barəsində kimsə tərəfindən mənə şikayət gəlsin. Abbas bunu öz mənliyinə sığışdırmazdı. Anası onun üçün əzəldən bəri həm ana, həm də ata olmuşdu. Anasının sözləri Abbas üçün atasının vəsiyyəti idi, o, bunu çox yaxşı bilirdi. Nümunəvi şagird kimi həmişə sinif yoldaşlarından seçilirdi. Hər dəfə tarix dərsini oxuduqca Abbasın ürəyi elə bil yanar odda bişirdi. Bu bişən ürək gələcəkdə tarixin qisasını alan bir cəngavər ürəyi olmalı idi, gələcəkdə qılınc olmaq üçün oda verilən dağ çəkdirilən bir dəmir kimi... Onun dəmirçi kimi sahibi elə bu kitablar idi. Bu kitablar ona öz yurdunu, öz tarixini, Azərbaycanın əzəldən bəri nə zülmlər çəkdiyini öyrədirdi. Abbas bəzən oxuduqlarına dözə bilmir, ürəyini sıxıb göz yaşı çıxarırdı... Əl pəncəsi yumruq olana kimi sıxıldıqca sıxılırdı. Ancaq hələ də qisas vaxtı gəlib yetişməmişdi. Yurdumuzdan, yuvamızdan ayrı idik... Abbas istəyirdi ki, qisas günündə qisasçı kimi o da bir pay sahibi olsun. Çəkilən hər qisasa çatdıran yolda onun da qabar-qabar olan alının izinin olmasını istəyirdi o... Abbas qisas istəyirdi. Ürəyini sıxıb çıxartdığı sözlər bunu söyləyirdi.



Elə ona görə də Abbas daha dözə bilmədi və orta məktəbi bitirən kimi, 2003-cü ildə gələcək həyat yolu kimi hərbi məktəbi seçdi. O vaxtkı Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasına qəbul olur. Abbas yurd həsrəti ilə çırpınan ürəyinin səsini dinləyərək bu addımı atmışdı. Ancaq özünü bu oda atdığı kimi bu oddan çıxa bilməyəcəyini də bilən Abbas yenə də həyatının ən düz addımını atdığına əmin idi. Həqiqətən də, o, düz addım atmışdı. Elə atasının vəsiyyətlərindən ən ümdəsi də bu idi. Rza kişi ömrünün son anlarında son ümidini Abbasa bağlamışdı. Ürəyinə dammışdı ki, bu qisas anı Abbasa da çatacaq. Abbas qisasa yaxınlaşdıran yolda inamla irəliləyəcəkdi

və irəliləyirdi. Orta məktəbdə necə oxuyurdusa, ali məktəbdə də elə oxuyurdu. Bir səhvi belə olmadan orta məktəbdəki tendensiyasını davam etdirirdi. Onun fikrincə, bir səhv məfkurəyə xəyanət idi. O, ali məktəbdə də yoldaşları arasında nümunəvi idi.

2007-ci ildə Akademiyanı böyük müvəffəqiyyətlə bitirən Abbas həyatının ən xoş günlərini yaşayırdı. Çünki bundan sonra yol ancaq qisasa doğru uzanırdı. Qisasa qovuşduran, çatdıran yol. Abbas artıq bu yolun yolçusu idi! O, artıq şərəfli bir zabit, hərbi qulluqçu idi! Bundan sonrası ancaq bu yolda yerimək, o anın gələcəyi üçün dua etmək və o anı daha da yaxınlaşdırmaq idi!



Abbas həmin illərdə öz istəyi ilə Sərhəd Qoşunlarında mərkəzdən ucqar yerlərdə xidmətinə başladı. Qüsursuz xidməti ilk ilində dəyərləndirildi. 2008-ci ildə Abbas Qasımov ilk medalını aldı. Bu, Abbas üçün bir şey ifadə etmirdi. Anasının xatirələrində Abbas belə yaşayır; O, deyirdi ki, mənə medal lazım deyil, ailəmə, Vətənimə yaxşı xidmət, qulluq edim, bu, mənə bəsdir. Xidmət etdiyi illər ərzində o, bir məqsəd, bir amal uğrunda irəliləyir, çalışır, təcrübə qazanırdı. Qarabağ amalı! Torpaq həsrətinə son vermək adlı bir amal! Bu amal müqəddəs idi! Bu amal yolunda o, həmişə sabaha inanırdı. İnamla etdiyi xidmətində hər şeyə diqqətlə yanaşırdı. İş yoldaşlarına qarşı da çox diqqətli, həssas və səmimi idi. Onları bir dost bilirdi. İnanırdı ki, bir gün o gün gələcək və onlar bir olub bir Vətən oğlu kimi düşmən üzərinə şığıyacaqlar. Həmin dostlardan biri də baş leytenant Xalid Həsən oğlu Gözəlov idi. Onlar bir-birlərinə isinişmişdilər. Allah bu iki ailəcanlı, böyüyünə-kiçiyinə qayğı, hörmətlə yanaşan, işində qüsursuz olan, Vətəni üçün, amalı üçün addımlayan hərbçiləri elə bil bir yaratmışdı. Xalid və Abbasın dostluğu əbədi idi. Bu, sonrakı illərdə dostluq yox, qardaşlıq oldu. Abbasın ailəsi Xalidin ailəsini, Xalidin ailəsi Abbasın ailəsini yaxından tanıdı.

2020-ci il... Bu il min illiyin yaddaşından silinməyəcəkdi... Bu il Qisas ili, Zəfər ili, Şəhidlik ili olacaqdı... Ancaq hələ ki, ürəyimizi sıxmaqda idi... Çətin, ağır günlərdə Qasımovlar ailəsinin tək sevinci Abbas idi. O, 26 iyun 2020-ci ildə qüsursuz xidmətinə görə 2-ci dərəcəli medal almışdı. Bu xəbəri eşidən ailə çox sevindi. Abbas üçün ifadəsiz olan bu uğur ailəsi üçün də elə idi. 3 ay sonra Abbasın böyük oğlu, axır ki, məktəb yollarında yeriyəcəkdi. Abbas buna görə çox sevinirdi. Çox istəyərdi ki, günlər tez keçsin, oğlunun məktəbli olmasını görsün, sevinsin... Ancaq günlər tez keçmirdi, elə bununla bir yerdə işlər də artırdı. Ailə günlərlə Abbası görmürdü. Lakin bu dəfə Abbas yeni medal sevinci ilə ailəsinin yanında oldu. Şənlik çox sevinclə keçdi. Bütün dərdlər, kədərlər bir anlıq unuduldu. Abbas öz ailəsini sevindirdiyinə görə sevinirdi. Hər dəfə də deyirdi, bu medal onun üçün əhəmiyyət kəsb etmirdi. Bu, sadəcə, uğur idi. Qələbəyə aparan uğur.





Son vaxtlar ailə üzvləri Abbası bu qədər sevincli görməmişdi. Həm də ailə üzvləri son günlərdə Abbası heç bu qədər də görməmişdi. İşlər çox sürətli də getmirdi, ancaq üst-üstə yığılırdı. Uşaqlar gözlərini Abbasdan çəkə bilmirdilər. Elə bil ilk dəfə görmüşdülər onu. Bəlkə, son dəfə görürdülər? Bu sualın cavabını zalım fələk verdi...

Bizi isti yay günündə qisas alovuna atan, bu alovda bişirən Tovuz döyüşlərindən sonra hərbçilərin, xüsusilə də, Abbasın işi çətinləşirdi. İşin çoxluğundan ailəyə vaxt ayırmaq olmurdu. Abbas Tovuz döyüşündən sonra yaman dəyişmişdi. O, əvvəlki kimi dözümlü Abbas deyildi. Heç nəyə səbir edə bilmirdi. İllərlə gözləmişdi, daha gözləyə bilmirdi. Hər gün Allaha dua edirdi ki, o qisas günü tez gəlsin. Səbirsizlik səbri də, ümidi də boğurdu. Daxilində səbirlə dözümsüzlüyün arasında müharibə gedirdi. Bu müharibənin nəticəsində gerçək müharibənin vaxtı gələcəkdi, gəlməliydi...

Abbas aradabir evdə olanda böyük oğlu ilə söhbətləşirdi. Oğlu ona onun üçün darıxdıqlarını deyirdi. İkinci oğlu hələ çox balaca idi, böyük oğlu məktəbə getməliydi. Oğlu həmişə atasından soruşurdu:

*– Ata, 15 sentyabr mənim yanımda olarsan? Şənlik keçirərik, sevinərik, gülərik.*

*– Niyə də olmayım, oğul? Amma bilirsən də, ata təkcə ailəni müdafiə etmir, bütün xalqı müdafiə edir. İşim çoxdur, vaxt tapsam, gələrəm.*

*– Hələ söz verə bilməzsən?*

*– Nə bilim, oğul. Baxım də. İşimiz yüngülləşsə, vaxtımız qalsa, gələrəm oğul.*

Ata söz verə bilmirdi. Bu sözləri də güc-bəla ilə demişdi. Oğlunu inandırmağa əziyyət çəkirdi. Fikirləşirdi ki, hərbçi işidir, qəfil əmr verilər, hərbi əməliyyatlar başlayar, onda oğluna verdiyi sözə yalan çıxar. Abbas bilirdi ki, yaxın günlər ərzində bu dünya belə qalmayacaq, bu işlər belə getməyəcəkdi... Hər atəşkəs pozulandan sonra bir müharibə başlaya bilərdi... Müharibə tez də qurtarmır axı... Abbas bir yandan Allaha dua edirdi ki, qisas günü tez gəlsin, digər tərəfdən isə dua edirdi ki, oğlunun ilk məktəbə gedişində iştirak edə bilsin.

Abbasın ən böyük qorxusu bu idi ki, özü yaşadıqlarını övladlarına yaşatsın. İstəyirdi ki, övladları ata həsrəti çəkməsin. Anası deyir ki, Abbas uşaqlarına çox dəyər verirdi. Onlara həmişə istədiklərini alırdı. Mənə də deyirdi ki, mən istəmərəm uşaqlarım mənim yaşadığımı yaşasın...

15 sentyabr günü Abbasın işi tərs kimi daha da artırdı. Bu günlərdə Abbas daha çox yəqinləşdirmişdi ki, müharibə qaçılmazdır. Bir gün bu olacaq. Yaxın günlərdə... olacaq. Abbas oğlunu düşünəndə yanıb-yaxılırdı, belə ki, nə oğlunun, nə də özünün istədiyi olmuşdu. Fələk ikisini də ayırmışdı... Evə gələ bilməmiş, oğlunu doyunca görə bilməmişdi...

Həmin günlərdə Abbası sonuncu dəfə görən ailə, sadəcə, bir hissə qapılmışdı. Elə bilirdilər ki, Abbasın işi çoxdur, işi bitəndə istirahət edəcək, evində olacaq, uşaqlarını sevindirəcək, onların hər birinə vaxt ayıracaq... Zalım fələk bir qərinədən çox olan il ərzində Qasımovlar ailəsinə zülm verməkdən usanmır, bezmirdi...

26 sentyabr günü ailə Abbassız neçənci gününü sayırdı, bilmirdi. Ancaq fələk yaman

başqa cür sayırdı. Ailə hər şeydən xəbərsiz idi. Abbas isə bir qərinəlik ömründə eşitmək istədiyi əmri çoxdan eşitmişdi. Səssiz-sədasız anasına zəng vurdu. Ana həsrətə qapılarkən telefona baxdı ki, zəng vuran Abbasdır. Gözünə həyat işığı gəldi... Ancaq bilməzdi ki, bu işığın ömrü bir gündən az olacaq.

Abbasın adını telefonda görən kimi ana zəngə cavab verdi.

*– Salam, ay oğul. Üzünü görək desəm də alınmır, heç olmasa, səsini eşidək. Necəsən, ay oğul? İşlərin necə gedir?*

*– Salam, ay ana. Şükür, yaxşıyıq. Səndən bir söz almaq istəyirəm. Xeyir-dua ver, ana.*

*– Verirəm ey, anan qurban sənə, nə üçün?*

*– Səbəbini sonradan öyrənəcəksən, anam. Sən xeyir-duanı ver və əskik etmə.*

*– Xeyir-duam onsuz da hər an səninlə olub, oğul. Bundan heç şübhən olmasın. Sənə bundan sonra da xeyir-dua verirəm. Hər işində uğurun olsun. Müsəlləh olmusan, müzəffər də olasan, oğul.*

*– Sağ ol, ana. Ya hələlik..., ya da əlvida...*

*– Nə dedin, oğul? – Ana elə bil "eşitmədi".*

Sonra Abbas zəngi dayandırdı... Bu sözlər Abbasın ailəsi ilə yaratdığı son əlaqə idi... Abbası hələ heç kəsin haqqında bir cümlə belə eşitmədiyi gələcək Zəfərli müharibə gözləyirdi...

27 sentyabra keçən gecə və həmin gecənin səhərəyaxını düşmən dayanmaq bilmirdi. Qudurmuş köpək quduğanlığının son həddində idi. Ona əbədi və əzəli bir dərs vermək lazım idi. Bu dərsi ilk verən Abbas kimi Azərbaycan əsgərləri olmalı idi!

Döyüşə ilk kimin atılacağı məlum idi, iki dost, iki iş yoldaşı, iki qardaş: onlar mayor Abbas Qasımov və baş leytenant Xalid Gözəlov idi!

Onlar gələcəyə inamla, ümidlə bir-birlərinə baxırdılar. Onların gözlərindən yeni sabahlı, yeni gələcəkli Azərbaycan və onun şanlı əsgərinin gözündən axan nur yağırdı. Abbasın gözü sevincdən nəmlənirdi, ancaq qəmlənmirdi. O, atasının vəsiyyətini yerinə yetirmək yolunun ilk addımında idi. Bir qərinəni keçən ömründə illərlə "Qarabağ Azərbaycanmdır!" demişdi. Bu sözü sözdən əmələ keçirmək bundan sonra onun işi idi! Zəfər Yolunu ilk çəkən o iki ad idi: Xalid Gözəlov və Abbas Qasımov!

*– Qardaş, bu şanlı Qələbə yolunu ilk addımlamaq bizə həvalə olundu...*

*– Mən bu günü illərlə gözləyirdim, Xalid... Ömrümün hər anı bu gün üçün yaşamışam... Elə bil bu gün mən yenidən doğulmuşam... Ya ilk günüm olacaq, ya da son günüm... Əgər son günümüz olsa da... Bilirsən də, şəhidliyə addımlayan bir əsgərin son sözü nə olur?...*

*– Bilirəm...*

Hər ikisi eyni vaxtda bir ağızdan hayqırdılar: "Vətən sağ olsun!"

Nəhayət, gecəni səhər edən saatlarda hamı şirin yuxuda ikən onlar qanadlı atları ilə ən qanlı döyüşlərə başlamışdılar. Döyüşə atılandan Abbası saxlamaq olmurdu. Dayanmaq bilmirdi. Gözünə bir qərinəyə çatan ömrü gəlirdi... Azadlıq Hərəkatında hayqırdığı vaxtlar... Atasının başdaşını qucaqladığı vaxtlar... Anasının göz yaşına dözən vaxtlar...





O, səma qartalı kimi adını duyurmaq istəyirdi. Səmanın qisas alan qartalı kimi...

*– Bax belə! Bax belə! Ölümünüzü istəyirdiniz! Alın gəldi ölümünüz! Sizi heç yana buraxa bilmərəm! Qaçmaq üçün dabanınıza belə tüpürə bilməyəcəksiniz! – Abbas illərlə gözlədiyi qisas fürsətini əldən vermirdi.*

Hər zərbəsində illər əvvəl erməni cəlladının onun atasını necə itələməsini yadına salırdı. Hər partlatdığı düşmən vertolyotunun içindəki ermənini onun atasını itələyən, soydaşlarını yurd-yuvasından didərgin salıb evlərini odlayan ermənininin nəvəsi, oğlu bilirdi. Ona görə də bacardığı qədər zərbə endirirdi. Üstdə onun düşmənin canına vəlvələ, qorxu salmış vertolyotu, altda onun uçduğu yolla irəliləyən şanlı Azərbaycan ordusu var idi. Onun hər zərbəsindən əvvəl Xalid, sonra isə Azərbaycan əsgərləri güc alırdı. Düşmən üçün Abbasa zərbə endirmək müşkül məsələyə çevrilmişdi. Düşmənə ilk həmlədən həddini bildirən Abbas kimi oğullar idi.

Düşmənlər Abbasın daxilindəki qisasçılıq alovunun bu tezliklə şölələnib onları yandıracağına inana bilmirdilər. Düşmənə qan uddururdu Abbas. O, Şəhid qardaşlarının qisasını almadan gedə bilməzdi bu dünyadan. Hər qisas zərbəsi endirdikcə Abbasın ürəyi bir az sakitlik tapırdı. Çünki inanırdı ki, lazımınca qisas alıb və alacaq. Bundan sonra ya Şəhidlik qalırdı, ya da Qazilik... Abbas bunlardan ikisini düşünürdü. Düşünməsi onun zərbəsinə mane olmurdu. Bu düşüncə onun daxilinə yayıldıqca yayılmağa başlayırdı. Bəlkə, bu düşüncə elə indi həqiqətə çevriləcəkdi?

Çevrildi... Onun olduğu vertolyot düşmənin namərd gülləsinə tuş gəldi. Abbas tez paraşütlə yerə enməyə başladı. Namərdlər bu iki mərdi buraxmadı. Onlar məcburən düşmən tərəfə enirdilər. Ona görə də paraşütlə enən kimi yenə atəş açmağa başladılar. Abbas və Xalid anlayırdı ki, bu, sondur... Ancaq ona sevinirdilər ki, açdıqları yollarda özləri yeriyə bilməsələr də, Azərbaycan əsgərləri yeriyəcəkdi...

*– Abbas...*

*– Xalid... – Onlar gülümsəyərək bir-birlərinə baxırdı.*

*– Biz qisas ala bildik?.. Hə?*

*– Aldıq, qardaşım... Düşmənə qan uddurduq...*

*– Bundan sonrası nədir, hə, qardaşım?*

*– Bundan sonrası əvvələ kəlmeyi-şəhadət, sonrası Şəhadət, ondan sonrası da Cənnətdir...*

Vətən müharibəsinin başladığı ilk dəqiqələrdə bir Azərbaycan eli bu iki mərdi itirdi... Onlar böyük Zəfər yolunu açdılar. Qisasları birinci dəqiqələrdə də alındı... Abbas Qasımov və Xalid Gözəlov Vətən müharibəsinin qisası alınmış ilk şəhidləri oldular! Bu Qəhrəmanlar Azərbaycan əsgərlərinə mayak kimi yol göstərirdilər, yol açırdılar... Bu yolları görmək nə qədər mümkünsüz idisə, göstərmək o qədər mümkünsüz idi. Ancaq müzəffər Azərbaycan əsgərinin bacarmayacağı bir şey yox idi. Onların açdığı yol 8 Noyabr 2020-ci ildə Şuşaya bayrağımızm sancılması ilə əsl Zəfər Yolu oldu... 2 yox, 20 yox, 200 illik yol gələn Zəfər Yolu!.. Ruhları Şəhid olduqları andan Şuşaya boylanan bu iki Qəhrəman böyük Vətən, böyük Zəfər müharibəsinin əsl Qəhrəmanlarıdır!



Nur üzlü Şəhidimizin övladı olan qardaşlarıma səslənirəm ki, onlar həmişə başlarını dik tutsunlar. Çünki Sizə Vətən müharibəsinin ilk Qəhrəmanı, ömrünü Azərbaycan kimi yaşayan Abbas Qasımovun ruhu azad olunmuş torpaqlarımızın səmalarından baxır və həmişə də baxacaq...

Abbas Qasımov yaşayır və ölməzdir! Ruhun şad olsun, Zəfərimizin mayaklarından olan Azərbaycan əsgəri, Qəhrəman Qartal!

*27.03.2021*
*"Kredo" qəzeti, 28.04.2021, 05.05.2021, 19.05.2021*

## ZƏFƏRİN CƏNGAVƏRİ



*Şəhid baş leytenant Cavid Xaliq oğlu Səfərlinin nurlu xatirəsinə həsr olunur. (31 may 1993-cü il İmişli rayonu Əliqulular kəndi-21oktyabr 2020-ci il Xocavənd rayonu Düdükçü kəndi)*

27 sentyabr 2020-ci ildən 10 noyabr 2020-ci ilə qədər davam edən bu Şanlı Vətən Müharibəsi bizə çox mətləbləri öyrətdi. Bizə həyat dərsi, birlik dərsi, Vətən dərsi, Vətən tarixi dərsi keçdi. Bu Şanlı Vətən Müharibəsi Xalqın Qarabağ uğrunda necə bütövləşdiyini, birləşdiyini bizə öyrətdi. Bu Şanlı Vətən Müharibəsi içimizdəki Türk qanını duruldu, Türk ruhunu diriltdi! Bizi böyük bir sınağa çəkdi. Yaxşı gündə də, pis gündə də bir yerdə olmağı, birləşməyi öyrətdi. Türk dünyasının bir gündə necə dirilməyini və öz qardaşlarına, öz bacılarına necə kömək etdiyini öyrətdi. Haqqın nə qədər nurlu, Batilin nə qədər səfil, acgöz və cəhənnəmlik olduğunu öyrətdi. Şanlılığın, Haqlılığın, Türkçülüyün ürəkdəki fəxr hissini, qürur hissini bizə öyrətdi. Bu Vətən Müharibəsi ürəyimizdə qalan son 200 illik cəng ruhunu ayağa qaldırdı! Cəng ruhunu diriltdi! Bu cəng ruhunu kim diriltdi? Dirilişin dəstəkçisi və bə-





dəndə əksi olan Cənab Ali Baş Komandan və onun bir əmri ilə ayağa qalxan Türk dünyası, Türk əreni, Türk alpı diriltdi! Bu diriliş düşmənin gözünə ox kimi batdı! "Qarabağ probleminin hərbi həlli yoxdur" deyənlərin özləri də artıq erməni quldurları kimi yox oldu və tarixin arxivinə atıldı! Quduran düşməni 44 günün içərisində elə səfil etdik ki, başlarını qaldırmaq üçün bundan sonra 44 il yox, bəlkə də neçə 44 illər də bəs etməz.

Bu Vətən Müharibəsi içimizdəki Zəfər duyğusunu ayağa qaldırdı və böyük Allahımızla birlikdə bizim yarımız-köməkçimiz oldu! Qazilərimizin yarasına məlhəm, Şəhidlərimizin Cənnət nuruna, bir də Azərbaycan bayrağına bürünmüş bədənini isə Zəfər ilə birlikdə qucdu! Bu Vətən Müharibəsi bizə çox şey öyrətdi, dostun-düşmənin kim olmasını tanıtdı! Təbii ki, həm də Vətən Müharibəsində iştirak edən minlərlə Qazimizin və 2783 Şəhidimizin sayəsində! Buna görə də Qazilərimizə və Şəhidlərimizə Azərbaycan kimi bir dünyamız boyda daim borcluyuq. Biz Şəhidlərimizi, Qazilərimizi hər an xatırlamalı, onları heç bir vaxt unutmamalı və onların hər birinin Qəhrəmanlıq Dastanını hər birimiz qəlbimizə qızıl hərflərlə yazmalıyıq!

Vətən uğrunda son damla qanına qədər igidliklə döyüşən və Vətəni əməlində də, sözündə də, nərliyində də, ərlik-ərənliyində də qoruyan Vətənin 2783 Şəhidindən biri, "Vətən uğrunda" və "İgidliyə görə" medalı ilə təltif edilmiş Şəhid Baş Leytenant Səfərli Cavid Xaliq oğlunun Qəhrəmanlıq Dastanından bəzi səhifələri yazmağa və bununla da Şəhidim qarşısında ödəyə bilməyəcəyim borcumun cüzi bir hissəsini yerinə yetirməyə çalışacağam! Bunun şəkillərindən mənə baxan, qəlbimi riqqətə gətirən Şəhidimin nurlu çöhrəsi qarşısında azacıq da olsa təsəlli tapmağıma vəsilə olacağına ümid edirəm.

Onu qeyd edim ki, bu gün səfil bir hala saldığımız və İti Qovan Kimi qovduğumuz düşmənin 3 günlük matəminin ilk günüdür. Təbii ki, düşmənin bu matəminə səbəb Qazilərimizin, Şəhidlərimizin, müzəffər Azərbaycan ordusunun, Ali Baş Komandanın və Azərbaycan xalqının Türk gücüdür! Həmin qəhrəman Şəhidlərimizdən biri də Səfərli Cavid Xaliq oğludur!

Şəhid Baş Leytenant Cavid Səfərli 1993-cü ilin 31 may tarixində İmişli rayonunun Əliqulular kəndində nəcib bir ailədə dünyaya göz açmışdır. Cavid Səfərli hər Türk övladı kimi dil açanda ilk dəfə "Ana", "Ana Vətən" deyərək danışmağa başlayıb. Ana Vətən isə ona "Cavidim, vaxt gələcək, Sən düşməndən ən böyük qisası alanlardan biri olacaqsan, hələ böyü, övladım" deyib, doğulduğu gündən Şəhid olduğu anadək ona Ana kimi uğurlar arzulayıb. Cavid doğulduğu gündən Vətəninə sadiq bir övlad olub, onun qoynunda böyüyüb, Vətən uğrunda Şəhid olmaqdan çəkinməyib, əksinə, düşmənini məhv etdikdən sonra özü şəhadətə doğru gedib və sevdiyi məqama ucalıb!

Yenicə ağlı kəsməyə başlayanda valideynləri, babaları, nənələri ona vətən, vətəndaşlıq, Ana vətən, Yurd, dost-düşmən, igidlik, mərdlik barədə öyrədib, Türkçülük. Türklük hissləri aşılayıb, Vətənə sadiqlik öyrədiblər. O, böyüklərin, valideynlərinin nəsihətləri, sevə-sevə dinlədiyi nağıllar və əfsanələr ilə tam Türk oğlu Türk olaraq böyüyüb, böyüdükcə Alpərtunqa Dastanının hər qəhrəmanı Şəhidimizə salam verib.

Artıq 1999-cu ildə Cavidin 6 yaşı tamam olur. O, Rəsul Məmmədov adına İmişli rayonu Əliqulular kənd tam orta məktəbinin 1-ci sinfinə daxil olur. Bundan sonra Qəh-

rəmanımız məktəbə, elmə, biliyin işığına sığınır və onun köməyindən istifadə edərək əsl ağıllı-kamallı, təhsilə maraq göstərən Türk övladı kimi yetişməyə başlayır. 2001-ci ildən Cavid orta təhsilini N. Şirinov adına İmişli şəhər 5 saylı tam orta məktəbində davam etdirir. Həmin vaxt 8 yaşında olan Şəhidimiz burada öz soyunu, kökünü, tarixini dərindən öyrənir. 5-ci sinifdən Azərbaycan tarixini öyrənərək ata-babalarımızın necə güclü, cəsarətli bir alpərən olduqları barədə öyrənən balaca Cavid həmişə öz soy-kökü ilə fəxr edir, qürurlanır. Sonrakı siniflərdə artıq biliyini daha da dərinləşdirən Cavid üzdəniraq düşmənlərin "parçala və hökmranlıq et" siyasəti ilə Azərbaycanı necə parçaladıqlarını da dərindən öyrənir və elə bil ki qəlbi dağlanır. Bundan sonra hər anında o, düşmənlərinə lənət oxuyur və nə vaxtsa düşməndən qisas almaq üçün öz üzərində ciddi-cəhdlə çalışmağa başlayır. Dərsliyinin vətənin düşmənlər tərəfindən zaman-zaman parçalanması barədə bəhs edən hər cümləsi onun sinəsini göynədir, qəlbinin tellərini sızladır. Ulu Nadir Şahlar yetirən torpağın bir anın içində bölünə-bölünə xanlıqlara ayrılmasını ürək yanğısı ilə oxuyur. Gecə-gündüz Şəhidimiz öz soy-kökünün, "Türk" sözünün, uca "Türk" sözünün taleyini araşdırır, biliklərə daha sıx sığınır. Hələ o, anadan olmamışdan bir əsrdə Azərbaycanın ikinci dəfə yenidən müstəqilliyinə qovuşmasına görə çox sevinən yetkin Cavid "şanlı" adıyla quduran qırmızı ordunun Türk azadlığına necə son qoymasını oxuduqca yumruğunu daha da bərk sıxır. Vətənimizin müqəddəs torpaqlarının, meşələrinin,dilbər guşələrinin, Zəngəzurun, İrəvanın verilməsi artıq onun səbir kasasını daşdırır. Və sonda ən yeni tarix... Qarabağın işğal olunması... Neçə il "dost" kimi tanıtdırılan qatı düşmənlərin, vampirlərin Türk nəvələrini əzib keçməsi, Türk yurdunun "erməni şəhəri" edilməsi... Uşaq vaxtı kadrlarına dəfələrlə baxdığı və hər dəfə də yumruğunu sıxa-sıxa dəmir etdiyi Xocalı soyqırımının, o dəhşətli müsibətin kadrları onun gözünün önündən getmir... Düşmənlər tərəfindən vəhşiliklə və ağlasığmaz qəddarlıqla qətlə yetirilmiş qocaların, qadın və uşaqların cəsədlərinin görüntüləri hər gün onun gözünün önündə canlandıqca gündüzü qaranlığa çevrilərdi Cavidin. Hər yatanda yuxusunda imdad diləyən uşaqların, qocaların, qadınların harayını görür, eşidirdi. Həmişə yuxusunda azadlıq, haqq-ədalət üçün əsirlik zəncirlərini qırmağa çalışan əsirlikdə olan neçə-neçə insanları, doğma yurd-yuvasına həsrət qalmış, "Vətən" deyə-deyə dünyasını dəyişmiş qaçqınların harayını, ah-zarını eşidirdi. Artıq yatsa da yuxu da görə bilmirdi Şəhidimiz. Ah-nalələr ona necə ana laylası ola bilərdi axı... ?

Beləcə, illər keçir. İllər Qarabağ həsrəti ilə 1000 il, 1001 il kimi keçir... Külək kimi yox, qasırğa kimi, müsibət kimi keçir... Hər ötən gün Vətən, Qarabağ həsrəti ilə böyüyən yetkin Cavidə dar gəlir. Sanki, öz əlləri ilə Qarabağı düşmənə veribmiş kimi əzab çəkirdi Cavid. Axı torpaqlarımızın mənfur düşmənin murdar tapdağında olmasında onun heç bir günahı yox idi, onda niyə əzab çəkirdi? Yox, o, Qarabağı azad edə bilmədiyinə, onun azadlığına yaxın ola bilmədiyinə görə pis olurdu, əzab çəkirdi. Oxuduğu sinifdə ,bəlkə də, onun qədər Vətən dərdi çəkən yox idi. Tək amalı Azərbaycan bayrağını Qarabağ səmasında dalğalandırmaq, düşmənləri müqəddəs vətən torpağından birdəfəlik qovmaq idi Qəhrəmanımın! Bunun üçün öz canını da qurban edərdi... Canı qurban etmək...

Beləcə, bu düşüncələrlə Cavid rahatlıq tapmır və gələcək həyat yolunun müqəddəs qərarına gəlir: Vətən uğrunda son damla qana qədər döyüşmək və lazım olsa canını da





qurban vermək üçün hərbçi olmaq! O, Türkçülüyü təbliğ edən və hər dəfə də yüksəldən sərkərdə, Azərbaycan zabiti olmaq qərarına gəlir!

Gənc ərənimiz 2007-ci ildə ən böyük arzularından birini gerçəkləşdirərək hərb məktəbinin qapılarını açır. O, sərkərdə əcdadlarımızdan olmuş Cəmşid Naxçıvanskinin adına olan hərbi liseyə daxil olur. Həmin vaxt onun sevincinin həddi-hüdudu yox idi. O, bunun üçün özünü xoşbəxtlərin xoşbəxti hesab edirdi. 2010-cu ildə bu liseyi müvəffəqiyyətlə bitirən Cavid artıq Ana Vətənini qucaraq deyirdi: "Hazır ol, Vətən! Oğlun Qarabağı azad etmək üçün sərkərdəlik məktəbini öyrənir! Sən bir Türk sərkərdəsinin də Anası olacaqsan!" Ana Vətən Onu sevə-sevə qucaqlamış və Ona yenə xeyir-dua verərək tutduğu bu şərəfli yolda uğurlar arzuladı.

Böyük həvəslə və şövqlə çalışan, oxuyan, gecəni gündüzünə qatan gənc Cavid 2010-cu ildə Xalqının Ulu sərkərdə babası olan Ulu Öndər Heydər Əliyevin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbinə daxil oldu. Cavid bu dəfə həm də Ulu Öndərinin ruhu qarşısında vətəninə olan sevgi andını içirdi. O, 10 il əvvəlki andını yenidən içirdisə, 10 il sonra isə vətəni və amalı yolunda Şəhadət Şərbətini içəcəkdi. O, bunu hiss edirdi. Canı ilə, qəlbi ilə hiss edirdi...

Hər dəfə döyüşün yeni-yeni sirlərini öyrənəndə, hərblə, cənglə bağlı məlumatlar oxuyanda Ulu əcdadlarını yada salırdı Cavid. O zaman əcdadlarına baxırdı. Əcdadları isə inamla gülümsəyirdi ki, Cavid ümidləri doğruldacaq, Xalqa nə vaxtsa möhtəşəm Qələbəni gətirənlərdən biri olacaq.

Mübariz İbrahimov şəhadətə qovuşarkən O, AAHM-də oxuyurdu. Bu zaman O, daha da qürurlanır, fəxr edirdi. Gənc Cavid sinəsini qabağa verir və yumruğunu sıxaraq deyirdi: "Qisasını alacağam, Mübariz qardaş! Sənə söz verirəm! Bu Xalqın və Sənin qisasını mənfur düşməndən biz gənclər alacağıq! Mütləq alacağıq!". Geriyə durmaq onun şəninə yaraşmazdı. Cavid sözünü demişdisə, mütləq əməlində sübut edəcəkdi. Etdi də...

Əfsanələrdəki Simurq quşu kimi küllərindən doğan və Vətən üçün çırpınan Cavid 2014-cü ildə AAHM-i bitirir. Bu zaman Avqust hadisələri onun köksünü daha da qabardır. Bununla, O, vaxtının gəldiyini, Zəfərin yaxında olduğunu yəqinləşdirir və beynində dolanan tək fikri, dilinin tək cümləsini səsləndirir: "Vaxtı gəlir! Gəlməlidir!" O, Şəhidlərinə Allahdan bir daha Rəhmət diləyir və and içirdi ki, hamısının qisasını alacaq. Onun ən əsas qayələrindən biri bu idi. O, hər türk övladı kimi deyirdi: "Sizin qisasınızı almasam, qılıncım bədənimə göy girsin, qızıl çıxsın! Sizin qisasınızı almaq mənə borc olsun!"

Bunu hər yerdə deyirdi: hər ocaqda, evində, toyda-düyündə, yasda, hər yerdə deyirdi Cavid. Hətta bir vaxtlar televiziyada da demişdi. Belə ki, 2014-cü ildə həmin vaxtlar fəaliyyət göstərən ANS telekanalı Onunla reportaj hazırlamışdı. Boylu-buxunlu, hərbçi paltarı ilə də, öz siması və əməli ilə də qürurlu görünən yaraşıqlı bir tələbə... O, həmin reportajda əlini ruhuna, qəlbinə sıxaraq canından, qanından gələn sözləri qan damlası kimi axıdaraq öz ruhundakıları deyirdi: "Vətənimi, Xalqımı son damla qanıma qədər qorumaq üçün 2007-ci ildə sənədlərimi orduya verdim. Allaha şükür ki, 7 il oxudum, dözdüm, içimdəki Vətəni qorumaq hissi dözdü... Təbii ki, bu 7 ildə bu hiss mənimlə oldu, böyüdü... " AAHM-ni təzəcə bitirən Səfərli Cavid əsl Türk sərkərdəsi kimi bu

sözləri demişdi... Bununla da özünü tam hazır etmişdi cəngə, hərbə...

Hələ hərbin sirlərini öyrənərkən gənc Cavid özünü qisas hissinə tam hazır edirdi... Dişini sona qədər Bozqurd kimi, Aslan kimi qıcayırdı ki, vaxtı gəlsin və düşməndən qisasını alsın... O, sosial şəbəkədə etdiyi paylaşımlardan birində öz dastanının ön sözünü özü belə yazmışdı:

***"İnşəAllah qisasımızı alacağam... Hər gün içimdə daha çox böyüyür bu qisas hissi... Analarımızın-atalarımızın göz yaşlarına dözə bilmirəm artıq... O illərdə yaşamasam da, ancaq hər kadrlara baxanda ,sanki, yaşamış kimi oluram... Çünki onlar da bizim analarımız, bacılarımız və qardaşlarımızdır... Gör neçə insanların gözləri yaşlı qalıb... Hər gün də bu hal təkrar olur... Biz bu qanı yerdə qoymamalıyıq! Milli qeyrətimizi daima yaşatmalıyıq qəlbimizdə! Və bunu da gənc nəsillərimizə, uşaqlarımıza, qızlarımıza-oğullarımıza daima aşılamalıyıq! Qisas və milli qeyrət hissinin xalqımızın qəlbində ölməsinə imkan verməməliyik! Hər gün əzab çəkməliyik ki, torpağımızın altında biz uşaq olanda bizi qoruyan əmilərimiz-qardaşlarımız olub... Onlar bizə görə canlarını qurban veriblər, biz də o qanı yerdə qoymamaq üçün çalışmalıyıq! Tək bu gün 20 Yanvarı yadınıza salmayın, hər gün yadınızda, qəlbinizdə yaşamalıdır! Qarda, boranda, soyuqda yadınıza düşməlidir! Əsas da keçmişimizi unutmamalıyıq! Hər 20 Yanvar metrosuna düşəndə yadınıza düşməsin, hər gün olsun qəlbinizdə! Allah Rəhmət Etsin! Amin!"***

Cavid o gün də hər vaxtkı kimi ürəyini sonuna qədər sıxmış, ruhunu kəlmələrə köçürtmüşdü. Lakin bununla da rahatlıq tapmırdı. Hər gün qisas hissi ilə alovlamrdı... Şəhidlərimizi yada salanda hər gün qisaslarının alınmadığına görə təəssüflənirdi... Hər gün tək sözü qisas idi... Hər gün tək sözü Türkün intiqamı idi! Hər gün tək sözü Qarabağ idi! Düşmənlərə qan uddurmaq üçün xilaskar simurq quşu kimi Qarabağa uçmaq istəyirdi Cavid... Ancaq vaxt yaxınlaşsa da, hələ tam məqam çatmamışdı... Vaxt nazlanırdı, gəlib çatmırdı, Cavid isə hər keçən gündə özünü qəfəsə salınmış quş, günahsız olaraq Şuşa həbsxanasına salınmış bir məhbus kimi hiss edirdi. Elə bil, həmin həbsxanada bir qəfəs də var idi. Bu qəfəsdə simurq quşu saxlanırdı. Həmin simurq quşu O idi! Küllərindən doğub Azad Şuşaya uçmaq istəyirdi! Qarabağı azad edib qisas almaq istəyirdi! Düşmənə ən böyük şilləni, Türkün şilləsini vurmaq istəyirdi! Hər gün, hər saat, hər an hərbçi dostlarına düşmənə qarşı qisas hissini aşılayırdı Cavid... Hər dəfə ulu əcdadlarının ruhunun, həm də sevimli ata babası olan Babalı kişinin gəncliyində qarış-qarış gəzdiyi, alaçıqlar qurduğu yaylaqların, buz bulaqların, yaşıl yamacların düşmən tapdağında qalmasından narahat olduğunu hiss edirdi Cavid... Fikirləşirdi ki, gözəlliyi ilə heyran edən həmin yaylaqların azad edilməsi xəbərini Babalı babaya çatdıraraq bu şad xəbərlə hətta babasından muştuluq da alacaqdı...

Dediyi kimi, hər il 20 Yanvar olanda Şəhidlərini yada salmırdı, bütün gün, hər an, hər dəqiqə Şəhidləri onun yaddaşında idi, onların xatirələrini beyninə, qəlbinə lehimləmişdi Cavid... Ruhu Şəhidlər Xiyabanında məskən salmışdı Onun... Qəhrəmanlıq Dastanının minlərlə səhifələrinin birində, 20 Yanvar Şəhidlərinin Şəhadətinin 25-ci ildönümündə əcdadı ulu Babək dədə kimi Qisas ruhu ilə böyüyən Cavid yazır ki:

***"20 Yanvar 1990-cı il. Bu gün Azərbaycan xalqının matəm günü deyil, bu gün Xalqımızın öz Azadlığı uğrunda savaşdığı gündür... Çünki heç bir xalq, heç bir vətəndaş özünü könüllü olaraq tankın altına atmaz, güllənin qarşısına keçməz. Babəyin bir sözü var: "40 il boyunduruq altında yaşamaqdansa, 1 gün azad yaşamaq yaxşıdır!". Məhz bu gün bizim Azad yaşamağımız 25 il bundan qabaq özünü Millətı üçün, xalqı üçün qurban verən İlham kimi oğullar, Salatın kimi qadınların sayəsindədir. Onlar bizim üçün öz həyatlarını qurban verdilər. Qorxmadılar! Öz qeyrətini və öz namusunu üstün tutaraq Şəhid oldular! Gənc nəslimizə, yəni, bizə örnək oldular... Allah hamısına Rəhmət Eləsin! Qəbirləri nurla dolsun!"***





O, öldürülən, güllələbaran edilən uşaqların da qisasını alacağına söz vermişdi:

***"Zamanın bütün yaraların dərmanı olduğu böyük bir yalandır. Zaman öldürülmüş bir uşağın yaralarını sağalda bilməz... "***

Cavid 1 yanvar 2014-cü ildə sosial şəbəkələrdə bir yazı da paylaşmışdı. 1 yanvar 2014-cü il... Yeni İl bayramı... Ancaq onun üçün bu gün bayram deyildi. O, hamı kimi sevinmək əvəzinə Şəhidini paylaşmışdı... Şəhid dostu, qardaşından ayırmadığı sirdaşı Kənanı O, bu sözlərlə anmışdı:

***"Bu bayram günündə bütün ailələr sevinir... Yalnız Oğul, Övlad dərdi çəkənlər bu bayram günündə oğlunun keçirdiyi bayramları yada salıb ağlayır... Dərdləri təzələnir... Ürəkləri paramparça olur... Allah Sənə Rəhmət Eləsin, Qardaşım! Həmişə yerin ürəklərimizdədir! Allah valideynlərinə səbir versin!"***

Şəhidimiz Cavid Səfərli öz valideynlərinə, onu böyüdən, boya-başa çatdıran Anasına yüksək hörmət və sevgi ilə yanaşardı... Onu canından çox sevərdi... Hətta döyüşlər başlayandan əvvəllərdə O, Anasına deyərmiş ki, Sən hərbçi anasısan, hər an hər bir xəbərə hazır olmalısan...

Şəhidimiz yazırdı ki:

***"Sən üzülmə Ana, "Bəylik Kostyumu" geyinmək şərt deyil. Şəhidlik də oğluna yaraşar!.. "***

Əslində, Qəhrəmanım birmənalı bəy deyildi, çoxmənalı bəy idi... Xalqı qurtarmaq adı ilə öz künclərinə çəkilən "bəy"lərdən deyildi, hər dəfə öndə olan, tək amalı Vətənin bir, bütöv olması və Qisasın alınması olan bəylərdən idi! O, əcdadı kimi Ərtoğrul bəy idi, Bamsı bəy idi, Osman bəy idi, Xətai idi, Babək idi, Cavanşir idi, Koroğlu idi, Qaçaq Nəbi idi! Onlardan ilham almış, onlardan güc almışdı. Onlardan yoğrulmuş, ağlı kəsəndən insanlığı öyrənmiş, insaniyyət mücəssəməsi olmuşdu! O, Vətəni hər zaman qorumuşdu, bunun üçün dünyaya gəlmişdi! Ona görə də Onun Anası da başda olmaqla bütün Şəhid Analarına səslənirəm, Başınızı dik tutun! Oğlunuz Sizin əyilməyiniz üçün Şəhid olmayıb! Oğlunuz Sizin ümidlərinizi doğrultdu! Əsl Türk sərkərdəsi, əsl Türk qəhrəmanı oldu! Türk sərkərdəsinin, Ərinin, Ərəninin, İgidinin Anası isə öz Qəhrəmanı, Şəhidi düşmən üzərinə gedəndə dayandığı kimi həmişə başını dik tutmalı, qədd-qamətini şah saxlamalıdır.

Artıq özünü əsl Azərbaycan Türkünün sərkərdəsi kimi hiss etməyə başlayan Cavid 2014-cü ildə Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzinə daxil oldu və 2015-ci ildə oranı da müvəffəqiyyətlə bitirdi.

2016-cı ilə nə qalmışdı ki... Bir neçə gün... Artıq Cavid vaxtın daha da yaxınlaşdığı-

nı hiss edirdi. Özünü həmişəkindən daha da çox sevincli hiss edirdi. Bilirdi ki, bu ildə onu böyük uğurlar gözləyir... Bilirdi ki, bu ildə O, ən böyük arzusuna nəfəs qədər yaxın olacaq! Bilirdi ki, bu ildə Onun ruhundan neçə-neçə əcdad, ərən çıxacaq və qutlu, müqəddəs dualarla Onu əsl sərkərdə edəcək! O, bilirdi, bunlar ürəyinə dammışdı...

Və onun üçün artıq daha bir uğurun qazanılması vaxtı gəlmişdi! 2016-cı il ilə birgə Ona uğurlu tapşırıqlardan biri verilmişdi! O, həmin ildə Bakı şəhərində, Müşfiqabad qəsəbəsində yerləşən 4-cü ordu korpusu N saylı motoatıcı briqadasında bölük komandiri kimi fəaliyyətə başlamışdı! O, artıq özünü sərkərdə kimi hiss etmirdi, O, elə əsl Türk sərkərdəsinin özü idi! O, artıq hərbçi komandan idi! Onun mayası da, qayəsi də nur idi! O, bu nur qayəyə bir az da yaxın oldu! Böyük həvəslə işinə başladı!

Hər gününə görə Allaha şükür edən Şəhidimiz duasında "Qisas" sözünü hər kəlmə sonunda təkrar edirdi. O, uca Allahdan istəyirdi ki, Qisas alsın! Şəhidlərin qisasını alsın, qocaların qisasını alsın, qadınların qisasını alsın, bir Vətənin, bir xalqın, bir dünyanın-Türk dünyasının iki əsrlik bir zaman içərisində olan qisasını alsın! Bu dünyanın haqq yarasını sarısın! Bir oğul kimi! Bir övlad kimi! Bir sərkərdə kimi bu Vətən, Torpaq, Haqq, Ədalət, Həqiqət köksündə mənfurların süngüsü ilə açılmış yaranı sarısın!

2016-cı ilin aprel ayı gəlib yetişdi! Artıq Cavidi çətinlərdən çətin, amma nurlardan da nurlu olan bir qayə, bir amal gözləyirdi! Ordumuz qudurğan düşmənə növbəti dərsi verməli idi!

Bu xəbəri ilk dəfə eşidən Cavid bunu valideynlərinə necə çatdıracağını düşünürdü. Lakin bir qədər vaxt keçdikdən sonra bu xəbəri deyəcəyini qərarlaşdırdı. Bilirdi ki, valideynləri bu xəbərə görə necə sevinəcəklər... və valideyn kimi narahat olacaqlar, əslində Cavidi narahat edənlərdən ən başlıcası da valideynlərinin, Babalı babasının ondan narahat olacaqları idi... ancaq nigaran da qalacaqdılar... Özü də çox nigaran qalacaqdılar...

Cavid anasının üzündən öpərək ona çox təskinlik verərək bir az rahatlaşdırdı: "Sən axı sərkərdə anasısan, bundan düz 1000 illər əvvəl ulu sərkərdə Cavanşirin anası Cavahir xatun elçilərin hər bir xəbərini gözləyər, həm də səbirlə dözərmiş... Və oğlu üçün duasını əskik etməzmiş. Sən də duanı əskik etmə, Ana ... Şəhid olsam da, ağlama... Sağ ol, Ana! Çünki vətən yolunda Şəhidlik mənim Ulu yaradandan ən ülvi arzumdur, əgər oğlun ülvi arzusuna çatırsa, Sən ağlamalı yox, sevinməlisən!"

İstəkli balasından bu sözləri eşitdikdən sonra Ana gözündəki axmalı olan damla-damla yaşları axıtmadı... Axıda bilmədi... İstəmədi ki, oğlu ondan nigaran qalsın . Bundan sonra yeni tariximizin Cavahir xatunu olan o Ana, Oğlu son damla qanını da axıtsa, dözəcəkdi... Oğlu ondan nigaran qalmasın deyə dözəcəkdi...

Sevincinin həddi-hüdudu olmayan Cavid içindəki nuru bütövləşdirərək ən müqəddəs dualarla, təkbirlərlə, sədalarla döyüşə atıldı!

"Zəfərə!!! Zəfərə igidlərim, Zəfərə!!!" deyən neçə-neçə əcdadların, ulu babaların nəvələri o vaxt yeni tarix yazır, torpaqları azad edirdilər! O 4 gündə Cavid ilə birgə neçə-neçə ərlər, igidlər, cəsurlar aslan kimi döyüşə atılaraq "ohanyan səddi"ni yarıb-keçdilər! Qəhrəmancasına son damla qanına kimi vuruşub Şəhidlik Zirvəsinə yüksələnlərimiz də oldu, cəng üçün, hərb üçün, Vətən üçün, Zəfər üçün, Qisas üçün canını fəda etməkdən çəkinməyən Qazi döyüşçülərimiz də oldu! Cavid Səfərli də həmin dördgünlük Şanlı





döyüşlərdə var gücü ilə bütün qəhrəmanlığını və hünərini göstərdi! Döyüşlərdən-döyüşlərə atıldı! Döyüşdə neçə-neçə igid qəhrəmanlarımız ilə çiyin-çiyinə vuruşdu! Yenə üzündəki unudulmaz gülüşü ilə düşmənə ölüm güllələri yağdırırdı Şəhidimiz Cavid... Həmin döyüşlərdə Allah onu sona qədər qorudu və O, dördgünlük müharibənin Şanlı Döyüşçüsü olaraq izini yaddaşlarda qalıcı, daimi həkk etməyi bacardı! Azərbaycanın o vaxtlarda Zəfərə bir az da yaxın olması üçün neçə-neçə yüksək rütbəli zabitlər ilə birlikdə bəzi döyüşçüləri qardaşından, bəzi döyüşçüləri hətta, atasından belə ayırmayan mehriban hərbçi, Türk ərəni Cavid Səfərlinin də böyük rolu var idi!. . O, çox fəxr edirdi! Döyüşdən Zəfər ilə döndüyü üçün! Anasını, atasını çox sevindirmiş-bu yolda verdiyi sözündə durmuşdu. Anası onu döyüşlərdən sağ çıxartdığı üçün Allahına sonsuz Şükürlər edirdi! Anasının sevincinin həddi-hüdudu yox idi! Təbii ki, Cavidin də... Cavid qayəsinə yaxınlaşırdı... Bir çox Şəhidlərimizin qisasını o, artıq almışdı! Sırada Qarabağın qisasını, Vətənin qisasını tam almaq var idi!



2017-ci ildə Cavid Səfərlinin böyük sərkərdə olması təsdiq edilir... Ona Baş leytenant rütbəsi verilir! O, bu rütbəni sadəcə, Zəfərə doğru olan yolda verilən kiçik bir mükafat kimi bilirdi. Ona ən böyük mükafatı Allah verəcəkdi! Ən böyük Zəfərlə və Ən şərəfli ölümlə - Şəhidlik ilə! Cavid hər dəfə bunu düşünürdü...

Hər dəfə Cavid düşməninin son nəfərinə kimi məhv etməyi, Zəfəri və sonra isə Şəhadəti, arzusuna qovuşmağı düşünürdü... Gözlərinin önündən bu dəfə Zəfərə qaçan neçə müzəffərlərin – Mübarizlərin, Poladların, Şükürlərin, Muradların, Vüqarların, Raquflarm əksi çəkilmirdi... Nəzərini onlardan yayındıra bilməzdi... Axı onların arasından Şəhid olanları da var idi... Onların qisaslarını mütləq almalı idi Cavid! O, bunun üçün dəfələrlə söz vermişdi! Həmişə verdiyi hərbi andını və kişi sözünü tutan Türk ərəni Cavid bu sözünü də tutacaqdı, o qisası alacaqdı! Mütləq alacaqdı! Qayələrinin ən böyüyü də o idi! Qarabağın işğaldan azad olunması! Cavidin və onun kimi minlərlə ərənlərin Qarabağı azad etməsi!..

Babalı babanın köksünü qürurla qabardan nəvəsi şanlı Baş Leytenant Cavid Səfərli 2018-ci ildə artıq Qusarda yerləşən N saylı hərbi hissədə komandir təyin olunmuşdu. Qusarda da O, tək qayəsini unutmur, bunun üçün səbirsizlənir, günləri saymağa çalışır, lakin illərin keçməyi ilə də barışmır. Bir sərkərdə, bir hərbçi, bir baş leytenant olaraq Cavid Səfərli döyüş tapşırıqlarında hər zaman olduğu kimi, bu illərdə də fərqlənmişdi və rəğbət qazanmışdı. O, nəyə görə rəğbət qazanır, sevilirdi? Çünki O, Vətənpərvər idi.

Çünki Onun ruhu nizam-intizama, Vətənə, haqqa-hüquqa, ən əsası Zəfərə və Qisasa həsr edilmişdi! Çünki O, Vətən uğrunda Şəhid olmaqdan çəkinməmişdi! Çünki O, çox mehriban idi... Üzündə ancaq gülüş, təbəssüm var idi. İçində saxladığı qisasın yaxınlaşmadığının böyük acısına rəğmən, O, bunu büruzə verməzdi... Hər şeyi bir gülüşü ilə gizləyərdi... Bir gün gələcəkdi... O, bütün ruhunu bir gün bədənindən çıxardacaqdı... Ruhu ilə bütün gizlinləri bəlli edəcəkdi... Sirləri açacaqdı... Qarabağa qapıları açacaqdı, onda onun sifətində olan gülüş, səmimiyyət düşmənə qarşı zəhmə, əzəmətə, nifrətə çevrilib iti, sürətli bir ox kimi düşmənin sinəsinə sancılacaqdı! Bundan sonra isə Ona Şəhid deyiləcəkdi! O. Şəhidlik zirvəsinə yüksələcəkdi...

O, bu sözü neçə gün idi ki, ağlında, fikrində gəzdirirdi. "Mənə Şəhid deyiləcək... Mənə Şəhid deyiləcək... Mənə Şəhid deyiləcək... " O, bunu bütün varlığı ilə istəyirdi. Əslində, bu, hamı kimi Onun üçün də həssas mövzu idi... Axı kim anaların ağlamasını, ürəklərin sızlamasını istəyər? Ancaq Vətən hər şeydən öndədir! Əvvəl Vətəndir! Vətənin sızlamağı Turanın sızlamağı deməkdir! Bu, dözülməzdir! Cavid də buna dözməzdi, hətta anasının göz yaşı hesabına olsa belə !..

2020-ci il... Bizə ən böyük Zəfəri yaşadacaq bir il... O, bu ildə daha da çox ümidlənirdi. Ali Baş Komandanın hər çıxışından, müraciətlərindən hiss olunurdu, müqəddəs vətən savaşı artıq yaxındadır ... Ona görə də özünü son günlərdə bu vəziyyətə daha çox hazırlaşdırırdı... Günləri saymağa çalışırdı, lakin o mübarək gün gəlmirdi ki gəlmirdi...

2020-ci ilin iyul ayında onda qisas hissi daha da çox alovlandı, şölələndi... Çünki Aprel döyüşlərində mərdliklə döyüşmüş və böyük qəhrəmanlıq göstərmiş, əsl Azərbaycan sərkərdəsi olan, daim tabeçiliklərindəkilərdən öndə düşmən üzərinə qartal kimi şığıyan general-mayor Polad Həşimov qəhrəmancasına Şəhidlik Zirvəsinə ucalmışdı!. . Bu, bizim üçün, bütün Azərbaycan üçün olduğu kimi Cavid üçün də çox ağır və sarsıdıcı, lakin artıq qisas üçün səbir kasasını doldurub daşdıran, qisasa hayqıran bir xəbər oldu... O, Polad Həşimov ilə qürur duyurdu, lakin Onun Şəhid olması xəbəri hamının ürəyini parçaladığı kimi Cavidin də ürəyini parçalayırdı... Artıq mənfur düşmənin qudurğanlığına O, dözə bilmirdi... Özü də inana bilmirdi ki, neçə il necə dözüb...

Cavid yumruğunu sıxaraq deyirdi: "Bir daha gözləməyəcəyəm, bu il qisas ili olacaq, şəhid və qazilərimizin qisası daha gələn ilə saxlanıla bilməz! Bu il ya Zəfər çalınacaq, Vətən torpaqları düşmən tapdağından qurtarılacaq, ya da başqa yolu yoxdur!"



Şuşada, Xankəndində gün keçdikcə daha da qudurğanlaşan ermənilər barədə xəbərlər eşidəndə Cavid hey qəhərlənirdi. Birdən istəyirdi ki, elə bu saat Mübariz kimi atəşkəsi pozub düşmənin üstünə qartal kimi şığısın! Ancaq vaxt var idi... Vaxtı gəlməliydi! Həm də o, hərbi nizam-intizama bu ötən xidmət illərində həmişə yüksək səviyyədə əməl etmişdi axı...





Cavid hey fikirləşirdi ki, görəsən, Ali Baş Komandan nə vaxt əks- hücum əmrini verəcək, o mübarək gün nə vaxt olacaq? Bu sual onu narahat edirdi. Axı O, and içmişdi ki, bu il ya Zəfər çalınacaq, ya da çalınacaq, başqa yolu yoxdur! Bir Bozqurd Sərkərdəsi kimi nə vaxt döyüşə atılıb Qələbə gətirəcəyini düşünür, vaxtı hesablayırdı... Neçə il əvvəl sosial şəbəkələrdə etdiyi paylaşımlara baxır, qisasa daha da can atırdı...

Son vaxtlar o, özünü də Şəhidlik zirvəsi üçün hazırlayır, dostların, tanışların yanında bu barədə fikirlərini bildirirdi... Belə söhbətlər zamanı onu eşidənlərin içi içini yeyirdi ki, Cavid niyə belə danışır, yoxsa, yenə döyüş olacaq, Cavid Şəhid olmaq istəyir? Lakin vaxtı gələndə vətən üçün canını fəda etmək onun üçün ən ali, şərəfli vəzifə idi, əsl Azərbaycan sərkərdəsi belə də olmalı idi... Cavid kimi..! Və vaxtı gəldi! Döyüşlərə atılmağın, düşmənin üzərinə qartal kimi şığımağın, torpaqlara azadlıq gətirməyin, QİSASI ALMAĞIN, ZƏFƏRİ ÇALMAĞIN VAXTI GƏLDİ!

Cavid döyüşlərə atılmazdan əvvəl anası ilə sağollaşdı... Sözlər bu anda deyilməyə aciz qaldı... Cavid bəlkə də, anasını son dəfə canlı-canlı görürdü... Ana gözündəki yaşları oğluna göstərməmək üçün var gücü ilə çalışırdı. Ancaq ürəyi parçalanırdı... Oğlumu bir də görə bilməyəcəyəm qorxusu ilə sağollaşırdı, bəlkə də, vidalaşırdı Oğlu ilə...

*– Hə, anacan, deyirəm, vaxtı gəldi də!.. – Cavid istəyirdi ki, Anasının üzü gülsün, amma edə bilmədi.*

*– Hə, oğlum, vaxtı gəldi!..*

*– Mən gedirəm, anacan... Arxamca baxıb ağlasan, Zəfər çala bilmərəm, Anam...*

*– Yox, oğlum, heç ağlayaram... Heç istəyərəm ki, övladım məndən nigaran qalsın... ? – Ana gülməyə çalışırdı ki, Oğlu ondan nigaran qalmasın. Amma bacarmırdı. Nə etsin, Ana ürəyidir axı...*

*– Ana, indən belə Şəhid olsam da...*

*– Oğlum... Allah qorusun... – Ana bu kəlməyə dözmədi.*

*– Gözün arxada qalmasın... Mən gedirəm, Cavanşir kimi, Sən də uğurlar arzula, Cavahir xatun kimi... Mən həmişə Səni hərbçi anası kimi görmək istəmişəm, görmüşəm də... Hər şeyə hazır ol... Xəfif küləklə sovrulma... İnşaAllah qayıdaram... Hələ bir toy da edərik! – Lakin Cavid hər şeyə sonuncu dəfə baxırmış kimi baxıb seyr etdi... Elə Anasını da elə baxışlarla süzdü, lakin ona sezdirmədi...*

*– Oğlum, əgər, dilim-ağzım tökülsün... bəs qayıtmasan?. . – Ana bu sualı vermək istəməzdi, amma özündən asılı olmadan bu sözləri dedi.*

*– Qayıtmasam... Vətən sağ olsun!. . Canım Vətənimə fəda olsun!*

Qeyd edim ki, 2020-ci ilin sentyabr ayının əvvəllərində çətin təlimlərdən sonra Cavidə qısamüddətli məzuniyyət verilmiş, o, məzuniyyətini doğma İmişlidə elə doğmaları arasında keçirmiş, məzuniyyət başa çatdıqda isə hər kəslə görüşmüş, bir növ halallaşmışdır. Qəhrəmanımızın şəhid olacağının ona mələikələr vasitəsi ilə agah olunduğu ondan bəlli olur ki, hətta şəhadətə qovuşmazdan təqribən ay yarım əvvəl o, əmisi Aqilin oğlu, hazırda Azərbaycan Tibb Universitetinin 2-ci kurs tələbəsi olan, babasının adını daşıyan Babalı ilə vidalaşarkən "əmioğlu, mən müqəddəs bir yolçuluğa çıxıram, bu yolun şəhadət yolçuluğu da var, əgər mən şəhadətə qovuşsam, qardaşım Şahin sizlərə

əmanətdir, ona əsl qardaşlıq edin, elə edin ki, mənim yoxluğumu hiss etməsin, yəni mən olmayanda sizlər həm də mən olmahsınız" demişdi.

Cavid ən pak duyğuları ilə sonuncu dəfə canlı-canlı Anasına baxdı... Ana öz Oğlunu qucdu, Ona uğurlar arzuladı və "Allah köməkçin, yar və yardımçın olsun!" deyib yola saldı qəhrəmanını, ciyərparasını...

Cavid bir baş leytenant kimi döyüş yoldaşları ilə birlikdə susadığı dirilik və ölməzlik suyunu böyük həvəs və istəklə içirdi... Yəni, döyüşlərə atılır, var gücü ilə qəhrəmancasına vuruşurdu!

27 sentyabr 2020-ci ildən başlayan "Dəmir yumruq" əməliyyatında hər dəfəsində olduğu kimi yumruğu hirsindən sıxmırdı, artıq həmin yumruğu Dəmir yumruq etmişdi Cavid! Dəmir yumruq ilə düşmənin başını əzir, bu yumruğu düşmənin qorxulu röyası edirdi!

Döyüşdə olanda onun əməliyyatlar zamanı çəkilmiş bir çox videoları, şəkilləri var idi. Sərkərdə Cavid özünü əsl Bozqurd kimi hiss edirdi, əslində də elə idi! Silahdan elə istifadə edirdi ki, baxanlar bundan məst olur, bu düşmənə sərt, sərkərdəlikdə mərd olan hərbçiyə uğurlar diləyirdilər!

Artıq Cavid hər döyüş əməliyyatlarında düşmənə olan nifrətini onların üzərinə döyüş meydanında boşaldır, qisas alırdı. Hər bir düşməni məhv edərkən elə bil ki, düşmənlər tərəfindən həmvətənlərimizə qarşı edilən qəddarlıqları görəndə qəlbində yaranmış yaraların üzərinə məlhəm sürülürdü və bundan köksündə, ruhunda ilahi bir rahatlıq hiss edirdi. O, arzuladığı döyüş meydanını, istədiyi Zəfəri görürdü və günbəgün bunu döyüşləri ilə qazanırdı!

Cavid Füzuli və Cəbrayıl şəhərləri, həmin rayonların qəsəbə və kəndləri, Xocavənd rayonunun yaşayış məntəqələri və Hadrut qəsəbəsi uğrunda gedən döyüşlərdə böyük müvəffəqiyyətlər qazanmış, qəhrəmanlıqlar göstərmiş, böyük sərkərdə kimi daim qəlbində sevə-sevə bəslədiyi, yaşatdığı Zəfəri çalmışdı!

Döyüş yoldaşları deyirdi ki, Cavidin başçılıq etdiyi 3 nəfərdən ibarət bölük döyüşlərin birində 23 nəfər erməni əsgərinin qarşısında mərdliklə dayanaraq vuruşurdu və həmin erməni əsgərləri 3 nəfərin qarşısında davam gətirə bilməyib tülkü kimi qaçırdı. Hey, aslanım, hey! Şəhid Baş Leytenant Cavid Səfərli belə igid olub, belə sərkərdə olub! Düşməni iti qovan kimi qovub! O da bir çox döyüş yoldaşları kimi mənfur düşməni ancaq qovub, çünki düşmənlər Cavid kimi igid Azərbaycan əsgərləri ilə üzbəüz döyüşə bilmir, qorxularından qaçırdılar!

Və sonda... Qubadlı uğrunda qızğın döyüşlər gedirdi! Qəhrəmanımı Qubadlıda ən şərəfli, ən müqəddəs ölüm gözləyirdi!

Qubadlıya qədər O, gülə-gülə, sevinə-sevinə addımlayırdı, qəm-qüssədən, kədərdən, yorğunluqdan tam uzaq idi. Elə bil, ruhu göylərdə idi. Elə bil, öz el-obalarında oğrun-oğrun izləyib sevib-seçdiyi, qəlbini ovlamış el gözəlinə anasının, valideynlərinin, əmi-dayılarının iştirakı, sevimli Babalı babasının ağsaqqallığı ilə nişan üzüyü taxmağa gedirdi. Düzdür, Şəhid dostlarına görə özünü bir az kədərli də hiss edirdi, bəlkə də bu Şəhidlik zirvəsinə onlardan gec getdiyinə, bəlkə də onların qisasını tam ala bilməyəcəyini hiss etdiyinə görə idi. Şəhidlərimizə yorulmadan rəhmət oxuyur, qazilərimizə Allahdan şəfa diləyirdi Cavid! O, bir yandan da anasından nigaran idi... Ancaq Qarabağda olduğundan, burada döyüşdüyündən və hər döyüşdən zəfərlə döndüyündən O, xoşbəxtlərin xoşbəxti kimi sayırdı özünü ...





Qubadlının azad edilməsi uğrunda döyüş tapşırıqları veriləndə Cavid çox şeylər haqqında fikirləşirdi... Qubadlıda neçə-neçə igidlər Şəhid olmuşdu... Həsən Qorxmaz, Əliyar Əliyev, Əfqan Hüseynov, Oleq Babak və digərləri... Bu qəhrəmanların adını, onların igidliklərini saymaqla bitməz ki... Az eşitməmişdi Əliyarın qəhrəmanlığını... Az eşitməmişdi Həsən Qorxmazın "Ağla, Qarabağım, ağla" ağılarını... İndi isə o ağıların üstündən xətt çəkmək üçün Qubadlının işğaldan azad, onun səmasında dövr edən əcdad, ulular və şəhidlərin ruhlarını şad etmək məqamı gəlmişdi... Bu şərəfli yol üçün təlimatlanmışdı Cavid və onun tabeçiliyində olan silahdaşları...

Qubadlını azad edib Ulu Ruhları şad edəcəkdilər... Cavid bu döyüş tapşırığını həll edərkən duyğuları bir-birinə qarışmışdı, lakin diqqəti mənfur düşməndə idi... Elə bil, hiss etmişdi ki, son günləri, son anları yaşayır, döyüşür... Vətənin azad edilmiş səmalarına sonuncu dəfə baxırmış kimi baxırdı... Elə bil ürəyinə dammışdı ki, tezliklə Şəhid olacaq...

22 oktyabrda Onunla birlikdə bütün Azərbaycan xalqı, hamımız Azərbaycanın Milli Qəhrəmanı polkovnik Şükür Həmidovu itirdik, yox, Onu Şəhidlik zirvəsinə, Haqqın dərgahına, müqəddəs bir yola yola saldıq... Cavid inana bilmirdi... Azərbaycan Milli Qəhrəmanını itirmişdi... Cavid buna səssiz qala bilməzdi... Ona görə də, içində qalan son qisas hissi ilə birdən düşmənin üstünə şığıdı.

Əvvəlkindən də çox gücünü, bütün qüvvəsini sərf edirdi ki, Qubadlını işğaldan azad etsin və Şükür Həmidovla birgə bütün Şəhidlərin qisasını alıb özü də bundan sonra Şəhid olsun, ruhu onların yanına uçub orada qərarlaşsın!..

Və bu bir gün tamam oldu... Baş Leytenant Cavid Səfərli bu bir günün necə yaxınlaşdığını hiss belə etmədi... Heç bir şey hiss etmədi... Bəlkə də, ən çox yara alan O idi... Bir ağrı belə hiss etmirdi...

Ondan kilometrlərlə uzaqda olan anası qəlbində ağrı, bir sızıltı hiss etdi. Onun da ürəyinə bu sızıltı ilə nə isə damdı... "Ay Allah, nə olar, düşündüyüm olmasın, balama qıyma, Ya rəbb" deyərək ürəyini rahatlaşdırmağa çalışdı...

Artıq gec idi... 23 oktyabr günü Baş Leytenant Cavid Səfərli yanındakı Şəhid nəşlərinə baxıb son sözlərini söylədi:

– *Allahım... Sənə Şükürlər olsun! Mən Şəhid oldum!.. Vətənin uğrunda Şəhidlik də gərək idi... Bu mənim nəsibim oldu... Mən də Şəhid oldum!.. Şükür olsun, Allahım! Zərrə qədər də ağrım-sızım yoxdur!.. Mən Qarabağ uğrunda, Vətən uğrunda Şəhid oldum!.. Vətən Sağ Olsun! Bu sözlərdən sonra o, qırıq-qırıq kəlmeyi-şəhadəti oxudu və...*

23 oktyabr 2020-ci ildə Qubadlı istiqamətində gedən döyüşlərdə Baş Leytenant Cavid Səfərli qəhrəmancasına ən şərəfli ölümə nail olaraq Şəhidlik Zirvəsinə ucaldı! Biz o vaxt şirin-şirin yatarkən, O və əsgərləri bizim rahat olmağımız üçün yatdılar, lakin heç oyanmamaq üçün, əbədi yatıb, əbədiyyətə qovuşmaq üçün... Allah dərgahında yuxunuz şirin olsun, mənim Şəhidlərim. Körpə ana qucağında qayğısız mışıl-mışıl yatdığı kimi, Siz də azad etdiyiniz, Sizi sevə-sevə qoynuna almış Ana Vətən qucağında rahat uyuya-

sınız... Amin!

Cavid Səfərli Şəhid olsa da 17 noyabra qədər onun nəşi tapılmadı... İtkin olaraq axtarıldı. Anası, atası, əmiləri, dayıları, bütün əzizləri min ümidlə Onu axtardılar... Ancaq... Olmadı, Cavid Səfərli sağ tapılmadı...

Cavidin axtarışları davam edirdi. Axtarış zamanı əynində Cavid Səfərlinin isti gödəkçəsi olan bir şəhidimizin nəşi aşkar edildikdə doğmaları elə bildilər ki, bu Cavidin nəşidir. Lakin diqqətlə baxdıqda Cavid olmadığını müəyyənləşdirdilər. Döyüş yoldaşlarının deməsinə görə Cavid həddən artıq səmimi, xeyirxah, qayğıkeş sərkərdə olmuşdur. Qeyd olunanlardan belə qənaətə gəlmək olur ki, ilin payız fəslində, xüsusən də oktyabr ayında dağlıq ərazi olan Qubadlıda havalar, əsasən də, gecələr soyuq olur. Çox güman ki, qayğıkeş sərkərdə öz əsgərinin üşüdüyünü hiss edib, polad bədənli olmasına baxmayaraq soyuq özünə də təsir etsə belə əsgərinin üşüməsini onun qəlbi qəbul etməyib və o, öz isti komandir gödəkçəsini özü və gözü kimi qoruduğu döyüş yoldaşına, tabeçiliyində olan silahdaşına verib.

Axtarışlar davam etdirildi, Qəhrəmanımızın nura boyanmış nəşi Qubadlıda elə döyüşüb şəhadətə qovuşduğu döyüş mövqeyində tapıldı. Oradakı döyüş meydanının görüntülərindən məlum olub ki, Cavid və onun dəstəsi sayca olduqca çox olan düşmənlərə hücum edib, döyüşçüləri ilə birlikdə mərdliklə döyüşüb, özləri ilə götürdükləri bütün döyüş sursatlarından axıra qədər istifadə edib, sonda qəhrəmanlıqla şəhadətə qovuşublar.

17 noyabr 2020-ci ildə Cavidin nəşi dünyaya göz açdığı Əliqulular kənd qəbiristanlığında ulu babalarının uyuduğu torpağa tapşırıldı...

Azərbaycanın ərazi bütövlüyünün bərpası və Qarabağın işğaldan azad olunması uğrunda canından keçdiyi, Şəhid olduğu günə qədər bütün döyüşlərdə qəhrəmanlıq göstərdiyi və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15. 12. 2020-ci il tarixli sərəncamına əsasən Baş Leytenant Səfərli Cavid Xaliq oğlu ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdi. Bundan 3 gün sonra isə Cavid Səfərli Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif edildi. Təbii ki, Şəhidliyindən sonra...




Mən fəxr edirəm ki, Azərbaycanın Cavid Səfərli kimi igid, qəhrəman, mərd, vətənpərvər oğlu olub... Mən Onunla birgə bütün Şəhidlərlə fəxr edirəm!.. Onlar hər zaman bizim qəlbimizdə yaşayacaqlar! Bütün Şəhidlərimizin qisası alınıb, Allaha Şükür!

Biz Qubadlıya gedəcəyik və oranın hər qayasında, daşında, dağında, meşəsində, çayında, bulağında, cığırında Şəhid Baş Leytenant Cavid Səfərlinin izini görüb onu rəhmətlə anacağıq... Hamımız qocalıb bir gün bu dünyadan köç edəcəyik və bəlkə də nə vaxtsa unudulacağıq. Lakin Cavid və Cavid kimi şəhidlərimiz həmişə cavan qalacaq, onların Allah dərgahında olan Ruhları azad etdikləri Vətən torpaqlarının səmalarında dolaşaraq şad yaşayacaq və nəsilbənəsil Azərbaycan xalqı tərəfindən anılacaq, yaşadılacaq! Çünki Şəhidlər ölməzlər, Onlar Əbədiyyətə qovuşurlar!





Allah Bütün Şəhidlərimizə Rəhmət Etsin! Amin!

ONLAR ŞƏHİD OLARKƏN,
AZƏRBAYCAN DEDİLƏR
ÖZ YURDUNA HƏMİŞƏ,
HƏMİŞƏ CAN DEDİLƏR!

VƏTƏNÇÜN CANDAN KEÇƏN,
HEÇ UNUDULMAMALI,
HƏMİŞƏ YAD EDİLİB,
DAİM XATIRLANMALI!

***P.S. Bu məqalə şəhidimizin şəhadətə yüksəlməsi tarixinin dəqiq müəyyən edilmədiyi vaxtda yazılmışdır.***

*20.12.2020*
*"Kredo" qəzeti, 23.12.2020*

## BU YURDUN İGİDİ, BU YURDUN NƏRİ!



*Şəhid Dmitriy Aleksandroviç Solnsevin nurlu xatirəsinə (15 aprel 1995-ci il Bakı şəhəri-25 oktyabr 2020-ci il Qubadlı rayonu)*

***Bu yurdun igidi, bu yurdun nəri,***
***Unutmaz yurdunun dünənlərini.***
***Ali Komandandan alaraq ilham,***
***Deyər: "Bizim üçün yalnız intiqam!"***

*Müəllif*

Azərbaycan – şöhrətli, şanlı ölkə! Milliyyətindən, dinindən, dilindən, irqindən, cinsindən, sosial mənşəyindən, təhsilindən və sair asılı olmayaraq fərq qoymadan hər bir insan üçün qapılarını açan bir ölkə! Qonaqpərvər, zəngin, lakin, belə olduğu üçün də başının üstündən qara buludlar əskilməyən bir ölkə! Bu yurdun başı nə qədər bəlalar çəkib, faciələr, yanğınlar, nahaq tökülən qanlar, talanlar görüb... Bu yurdun başını nə qədər "insan"lar kəsməyə cəhd edib... Lakin, belə çətin vaxtlarda ortaya çıxaraq

"dəstur!" deyib cəngə atılan, Şəhid olub bu yurdun torpağına qatılan nər igidlərimiz irəliyə gedib və hər zaman həmin düşmənlərin başını ilan başı kimi əzib. Düşmənlərə heç macal belə verməyib.

Bu yurdda sadəcə türklər yaşamır. Bu yurdda rus da var, belarus da var... Dinləri fərqli, dilləri fərqli insanlar da var. Bu insanlar da şəksiz və şübhəsiz Azərbaycanlıdırlar, türklər kimi Azərbaycan (mənfur, qaniçən, uşaq qatili, çörəyi dizinin üstündə, nankor ermənilərdən uzaq) onların da doğma vətənidir. Bu ölkədə onların heç birinə fərq qoyulmur. Heç birinə fərqli baxılmır. Bu həmişə təkzibolunmaz faktlarla sübut olunub. Sübutlar çox olsa da, 1941-ci ildən bəri savaşdığımız, lakin kökü kəsilməyən faşistlər, elə faşistlərin yeni, daha da qəddar bir nəsli olan ermənilər belə bir "fakt"ı ortalığa qoyublar ki, guya Azərbaycanda heç bir etnik qrup və azsaylı millətlər birlikdə yaşaya bilməzlər, onlar tez həmin ölkədən qaçarlar. (Belə ki özləri öz qondarma ölkələrindən digər milli azlıqların və etnik qrupların nümayəndələrini işgəncələr və zor tətbiqi yolu ilə qovublar. Atalar misalı bunlar üçün deyilib: "Meymun baxar güzgüyə, adın qoyar özgəyə". ) Bu, lap uşaq başını aldatmaq olardı. Necə? Təbii ki, bu yurdda rusların, yəhudilərin, udilərin, haputluların, çeçenlərin, tatarların, hətta o faşist xislətli bədnam ermənilərin özlərinin nümayəndələrinin belə yaşadığı zamanədə bu fikir uşaq başını aldatmaq olardı.

1918-ci ildə yeni yaradılan 3 müstəqil dövlətin-Azərbaycan, Gürcüstan və Ermənistan Demokratik Respublikalarının parlamentinin tərkibinə nəzər salsaq görərik ki, Azərbaycan və Gürcüstan Respublikalarının parlamentində daşnaksütyunu təmsil edən erməni deputatlar vardır. Belə olan halda sual olunur; Azərbaycanın tarixi torpaqlarında öz respublikasını elan etmiş Ermənistan parlamentində niyə azərbaycanlı və gürcü milliyyətindən olan deputatlar yox idi? Belə ki, ermənilər bugünkü yaşam tərzlərinin bünövrəsini hələ 102 il əvvəl ali orqanlarında qoymuşlar. Bu fakt araşdırılmalı, bu barədə müzakirələr aparılmalıdır.

1988-ci ildən bəri başımızın üstündə dolaşan, vətənimizin müqəddəs torpağını murdar ayaqları ilə tapdalayan bu ikinci, daha qəddar faşist hücumundan qorumaq üçün görün nə qədər rus, ukrain, belorus, yəhudi və digər millətlərdən olan, yurdun, vətənin igidləri könüllü olaraq silaha sarılmaqla qəhrəmancasına vətənlərini müdafiə etməklə Şəhid olublar? Qeyri millətin nümayəndələri olsalar da bu Vətənin oğulları- Viktor Seryoginin, Albert Aqarunovun, Oleq Babakın, Yuri Kovalyovun, Anatoli Davidoviçin, Ruslan Polovinkonun, Sergey Senyuşkinin, Sergey Murtuzəliyevin, İqor Makeyevin, Vasili Əliyevin və digər igidlərimizin, ərlərimizin qəhrəmancasına vətən uğrunda Şəhid olduqlarını danmaq, görməmək elə yalnız o faşistlərin xisləti, düşüncəsi ola bilər. Onların siyahısına 2 nəfər vətən qəhrəmanını da əlavə edə bilərik. Onlardan biri Mixail Slesaryovdur. O da 1999-cu ildə baş verən Qobustan qiyamında qiyamçılara qarşı qəhrəmancasına vuruşmuş və ölümündən sonra Milli Qəhrəman adına layiq görülmüşdür.

İkinci şəxs isə mənim məqaləmin qəhrəmanı Dmitriy Solnsevdir. O, Azərbaycanın hərb tarixinə yazılan Azərbaycanı doğma vətəni bilərək yaşamış minlərlə igidlərimizdən, qəhrəmanlarımızdan biridir. Onlar barədə işlətdiyim cümlələrdə mən "idi" demək istəmirəm. Axı, Şəhidlər ölmür. !

Dmitriy barədə materiallar toplayarkən özüm də çox duyğulandım. O, Azərbaycan





Türkləri ilə etnik qruplar arasında olan son igidlik körpülərindən biridir. Onun barəsində Azərbaycanda həmişə danışılmalıdır, o, həmişə xatırlanmalıdır, heç bir zaman unudulmamalıdır. Belə vətən oğulları haqqında danışarkən "idi" deməcəyəm. Şəhidlər unudulsalar ölərlər, Onlar isə heç bir vaxt unudulmayacaqlar, onları unutsaq vətən bizi bağışlamaz, Onlar daim bizim qəlbimizdə yaşayır və yaşayacaqlar...

Dmitriy Solnsev 1995-ci ildə aprelin 15-də Bakı şəhərində anadan olmuşdur. Ona dost-tanışları "Dima" deyərdilər. Dünyaya gələndən 6 ay sonra dil açmağa başlayan Solnsev 2 yaşında artıq uşaqlarla ünsiyyət qura bilirdi. O, doğulduğu andan hissli, duyğulu bir insan olub və uşaq yaşlarından Vətənin Ana olduğunu, dünyada ən şirinin Vətən olduğunu bilib və Vətənini dünyada heç nəyə dəyişmək fikrində olmayıb, vətənini hər şeydən uca tutub. Hər dəfə Vətəni haqqında şad xəbərlər yayılanda, Vətəni haqqında yaxşı sözlər deyiləndə Dmitriy çox sevinirdi. Vətənini satanlara qarşı onda yüksək kin hissi var idi. O zaman onun yumruğu sonuna qədər sıxılırdı. Bir daha da açılmırdı.

Dövlət Neft və Sənaye Universitetində də oxuyarkən Dmitriy müxtəlif insanlarla əlaqə qurur və ünsiyyətdə olurdu. O, Universitetdə müxtəlif millətlər-rus, ərəb, fars, sudanlı, afrikan və digər millətlərdən və ölkələrdən olan tələbələrlə birlikdə təhsil alırdı. O da həm rus, həm də azərbaycanlı sayılırdı. Rusiya ilə Azərbaycan arasında fərq düşünməyən Dmitriy müqayisə olunmayacaq dərəcədə Vətənini sevdiyindən, ona bağlı olduğundan, Vətəni kədərlənəndə kədərləndiyindən, sevinəndə sevindiyindən bu sahədə digər millətlərin nümayəndələrindən seçilməyi bacarırdı.

2009-cu ilin 30 aprelində onun təhsil aldığı ali təhsil ocağında erməni faşistlərinin "barmağı" ilə dəhşətli terror hadisəsi törədilmişdi. Bu hadisəni bir "azərbaycanlı" etmişdi. Özü də Gürcüstanda yaşayan bir erməni terrorçusundan dəstək və tapşırıq alaraq bunu etmişdi. Həmin "azərbaycanlı" özü heç nə bilmədiyindən zəkalı, vətənsevər, savadlı gənclərimizi qısqanmış, onda tapşırığını icra etdiyi dostunun faşist paxıllığı və kini baş qaldırmış, ona görə də bu qanlı terror aktını törətmiş, neçə-neçə məsum gənclərimizi qətl etmişdi. Nəticədə həmin zəkalı, ziyalı qoca-cavanlarımız bilik yolunda Şəhid olmuşdular. Dmitriy bunları bilirdi və onu da bilirdi ki, qarşısına belə məxluq çıxsa, onun hər zaman boğazını üzəcəkdir.

Universiteti bitirən, bir çox keyfiyyətləri ilə yaşıdlarından fərqlənən Dmitriy son vaxtlar xəbərləri diqqətlə izləyirdi. Çünki, son vaxtların xəbərləri elə də ürəkaçan deyildi. Azərbaycanda yayılan dəhşətli "taclı virus" olan-koronavirus günü-gündən daha da çox can alırdı. Hər dəfə göstərilən xəstələrin üzləri, onların nəfəs almağa can atması, həyat uğrunda döyüşməsi, necə çarpışdığını görməsi ona çox pis təsir edirdi. Axı, o da bu yurddan idi, bu vətənin övladı idi. Hər dəfə TƏBİB brifinq keçirəndə onun da gözləri televizora zillənirdi. Elə bil bu xəstəliyə qarşı döyüşən həmin həkimlərdən biri də o idi. Elə bil brifinqdə olan da o idi. Nə qədər imkanı var kömək etmək istəyirdi xəstələrimizə, həkimlərimizə. Vətənini sevən, ona sadiq və vəfalı olan Dmitriy bu yolda da irəliləməyə və hətta bu dünyadan cismani getməyə də hazır idi.

Ona görə də, koronavirusun ən pik həddə çatdığı dövrlərdə könüllü olaraq TƏBİB-in işçisi oldu və burada xəstələrimizin şəfa tapması üçün hazırlanmış ləvazimatları düzəltməyə çalışırdı. Demək olar ki, hər gün, hər saat bu yolda can qoyur, tər tökürdü.

O, tam səylə və güclə çalışırdı ki, onun saz vəziyyətə gətirdiyi ləvazimatlar işlənsin və xəstələrimizə kömək olsun. Bu işdə o, hər dəfə sağalanların sayına baxanda sevinirdi. Elə bilirdi ki, özü onları sağaldıb. Əslində, elə bilirdi yox, bu, elə doğru idi. Onun saz vəziyyətə gətirdiyi tibbi ləvazimatların işləməsi ağır xəstələri sağaldırdı.

Bu virusun daha çox yayılmasına imkan verməyən Dmitriy hər dəfə maskasını taxır, əlcəyini geyib işləyirdi. Heç kəsə yaxın gəlmirdi. Koronavirusa inanmayan hər hansı bir cahili görən gözü yox idi. Ailəsinə virusun dəhşətləri barədə məlumat göndərirdi ki, həmin məlumatlar ailə üzvləri vasitəsilə koronavirusa inanmayanlara çatsın. İşlədiyi zaman koronavirusu heç nə bilirdi. Onun "gülləsinə" tuş gəlsə də, bu, onun üçün heç nə ifadə etməzdi. Çünki, o, işləyirdi. İşləyən vaxt "mən yoluxuramsa, yoluxum, bu, heç nə ifadə etmir, əsas odur ki, xəstələrimiz sağalsın" fikri ilə mövzulanına yanaşırdı.

20 sentyabr gecəsi də o, məsələlərə belə yanaşırdı. İki cəbhəyə görə də narahat olurdu. Çünki, axı, artıq Tovuz hadisələri də baş vermişdi, mənfur düşmənimiz Tovuz rayonu istiqamətindən vətənimizə təcavüz etmiş, vətən oğullarımız şəhid olmuşdu. Təbii ki, Poladlarımızın Şəhid olması ona qürur da, narahatlıq da verirdi.

Həmin gün o, növbətçi idi. Səhərə qədər işdə olmalı idi. Gözünə yuxu getmirdi. İki cəbhədən başqa heç nə düşünmürdü. Qəlbində nə qədər sözlər, arzular dolanırdı. Bilirdi, öncəgörmə edirdi ki, nə vaxtsa bu olacaq. Və o, əsas o zaman irəli atılacaq. Necə deyərlər, cəngə atılacaq, Şəhid olub bu yurdun torpağına qatılacaq...

Gecə orada qalanlarla söhbət də edirdi...

*– Deyirəm, Vətənin üzərindən qara bulud əskilmir ki, əskilmir. Həm Tovuz hadisələri, həm də koronavirus. Necə deyərlər, həm ermənivirus, həm də koronavirus.*

*– Demə ey, Dmitriy. İşimiz yaman çətinləşib. Mən də ailəmə çox şey demirəm ki, daha da narahat omasınlar. Nə bilirsən, bəlkə, nə isə olacaq? Hər an hazır olaq ey, Dmitri.*

*– Düz deyirsən, həkim. Düz deyirsən. Mənə bax, nə vaxt bu şərəfli iş baş versə, sənə söz verirəm, mən döyüşlərə atılacağam, orada nə qədər düşmən var, hamısını biçəcəyəm. Nə qədər silahları var, qənimət götürəcəyəm. Bilirəm ki, düşmən gülləsinə nə vaxtsa tuş gələcəyəm. Onda İnşəAllah koronavirus bitər. Sən də mənim yaramı sağaldarsan, yaxşımı, həkim?*

*– Sən yaralanmayacaqsan. Sən yaralanası oğlan deyilsən, Dmitriy. Sən bu dünyadan köçəsi oğlan deyilsən. Görmürsən, altı aydır burada işləyirsən, nə qədər tər tökmüsən, sən olmasan, bu tibbi ləvazimatlar saz olub xəstə sağaltmağımıza kömək etməzdi, sən bu altı ayda koronavirusa yoluxmamısan. Çünki, Tanrı sənin bu dünyadan köçməyini istəmir. Sən bu dünyadan köçəsi deyilsən, Dmitriy, köçməyəcəksən.*

*– Deyirsən ki, mən sonsuza qədər qalacağam?*

*– Hə, Dmitriy. Niyə də qalmayasan? Sən Tanrının sevimli, istəkli bəndəsisən. Mən söz verirəm ki, sən Milli Qəhrəman adına layiq görülən gün səni zənglə təbrik edəcəyəm. Bütün həkimlərə səndən danışacağam. Sən də söz ver ki, zəngimə cavab verəcəksən, hə, Dmitriy?*

*– Yaxşı,yaxşı, söz verirəm. Yəqin ki, mən ölməzəm. Heç olmasa, sən belə düşünürsən. Bilmək olmaz, görək ölənəm, yoxsa ölməzəm?*

*– Sən ölməzsən, Dmitriy. Halal olsun sənə, sən iki cəbhənin Milli Qəhrəmanı olacaqsan!*





Həmin günün səhərəyaxını evə gələn Dmitriy heç nə etmədən ürəyindən gələn zümzümələr və marş sədaları ilə səfərbərliyə yollanaraq ikinci cəbhənin də qəhrəmanı olmağa getdi.

1 aya yaxın o, Qubadlıya qədər irəlilədi. Hər zaman fərəhlə, sevinclə, qanadlanıb azad edilmiş səmamızda uçacaq bir şəkildə düşmənlərə qarşı irəliləyirdi. Düşmənləri ürəyindən vuraraq onları özünün dediyi kimi, biçə-biçə gedirdi. Hər dəfə irəliləyəndə Ali Baş Komandanın sözünü dinləyərkən onun ürəyi daha da fərəhlənirdi. Əsgərlərə bərk-bərk tapşırırdı ki,olduqları yer barədə heç bir video çəkib göndərməsinlər, paylaşmasınlar. Telefonla da heç nəyi bildirməsinlər. O, bilirdi ki,mənfur düşmən tülkü kimi pusquçudur. Hər vəziyyətdən məkrli və alçaq niyyəti üçün istədiyi kimi istifadə edə bilər.

Döyüşdən sonra zəfərlə hərbi hissəyə qayıdan Dmitriy gecə vaxtı döyüşçülərinə ön xətdən xəbər verir, vətənə xidmətindən danışırdı və deyirdi: "sağlıq olsun, bundan neçə illər keçsə, nəvələrimə danışmalı yaxşı materialım ola bilər... "

Dmitriy hər gün irəliləyirdi və bundan daha da ruhlanırdı. Heç cür yorulmaq bilmirdi. Birinci cəbhədə də o belə idi. Tək amalı Şuşaya Azərbaycan bayrağının sancılmasını görmək idi. Bunun üçün səylə və tam gücü ilə, var gücü ilə çalışırdı. Hər dəfə də zənglərə cavab verəndə "Qələbəyə az qalıb!" deyirdi.

Dmitriy oktyabrın sonuna yaxın artıq zəfərin daha da yaxınlaşdığını bilirdi. Zəfərdən cuşa gələn ərlər kimi Qubadlının dağlarına, dərələrinə baxırdı və deyirdi: "Bir səni də azad etsəm, Qaçaq Nəbinin üzünə baxa biləcəyəm."

O, dediyim kimi, ağıllı, bilikli, kamil və zəkalı insandı. Qaçaq Nəbidən, Mir Sədi ağadan, Əliyar Əliyevdən, Ələkbər Əliyevdən, Kərəm Mirzəyevdən, Kazımağa Kərimovdan, İrşad Həsənquliyevdən,Həsən Qorxmazdan və digər Qubadlı Şəhidlərindən ilham alaraq oraya yaxınlaşdığını bilən Dmitriy hamıdan gizli, Mübariz kimi də oranı azad edə bilərdi. Lakin, vaxtı gəlməliydi... Və gəldi! Həmin zəfərin vaxtı gəlmişdi! Dmitriy bu dəfə də var gücü ilə düşmən mövqeyində onun başına od ələyirdi. Tətiyi sıxan barmaqları elə bil dərman tapırdı. Xatirələri haçalanmışdı. Hər dəfə tətiyi sıxanda tibbi ləvazimatları necə sazladığı yadına gəlirdi. Hər dəfə düşmənləri biçəndə 2009-cu ildə Azərbaycanın yaşadıqları gözünün qarşısına gəlirdi. Gördüyü hər erməni hrantyan, balayan-malayan, daban yalayan idi... Və həmin balayanları, yalayanları biçməyi o, özünə borc bilirdi. Hər dəfə komandir Şükür Həmidova baxarkən onun gözündəki vüqarı görüb daha da vüqarlanırdı. Şükürün arzusuna çatacağı üçün Şükür edirdi Tanrıya. Kamil və hər dəfə Həzrəti Məhəmmədin eşitdiyi "Oxu!" kəlamına riayət edən Dmitriy hər kitabı oxuyurdu. Şamodan da xəbəri olardı bəlkə. Ona görə də, daha çox döyüşürdü ki, "Şamo" romanını Qubadlıda oxuya bilsin. Qubadlıya baxa-baxa yox, Qubadlının özündə oxusun.

Və həmin günlərdə bir "insanın" cəbhədəki görüntüləri icazəsiz çəkdiyini gördü. Elə bildi ki, həmin "insan" çəkdiklərini sosial şəbəkələrdə paylaşmayacaq.

Lakin, belə olmadı, artıq iş işdən keçmişdi. "İnsancıq" düşmənin dəyirmanına su tökərək videonu paylaşmış, düşmən onların olduğu koordinatları müəyyən etmişdi. Elə həmin vaxt da Allahından, Tanrısından diləyirdi ki, Qubadlıya bayrağı özü sanca bilsin!

Şükürlə birgə sevinsin, gülsün, oynasın. Əliyar və digər şəhid yoldaşlarının ruhu şad olsun və onlara təşəkkür etsin. Qaçaq Nəbi onları qucaqlayıb bağrına basıb bağrından buraxmasın. Vasili Əliyevin ruhu isə sanki bir ata ruhu kimi bayrağı ona əmanət etsin.

Və həmin günlərdən birində Dmitriyə yağı, faşist və qorxaq bir düşmənin gülləsi dəydi. Həmin gülləni atan düşmən çoxdan öldürüləcəyini bilirdi. Ona görə də, bəlkə də hadisə yerindən qaçmış və "şərəf"i olan silahını da atmışdı.

Dmitriy gülləyə tuş gəldi və nərə çəkdi. Qəlbindən bu sözləri keçirtdi:

*"Sən çağırdın, atəş oldum, od oldum,*
*İki cəbhənin qəhrəmanı oldum.*
*Günlərlə bu günün xəyalın qurdum,*
*İndi arzuma çatdım, əziz yurdum!*

Tanrım, məni bağışla! Günahım varsa, məni bağışla! Mən ölməməliydim! Bəlkə də ölmüşəm, ya ölməmişəm, necə sevinirəmsə qələbəyə görə, heç bunu da bilmirəm. Mənə vəhy göndər... Mələklərini mənə göndər, Tanrım!"

Tanrı mələklərini ona göndərdi. Mələklər ona dedilər:

"Sən ölməmisən, Dmitriy Solnsev. Sən ölməyəcəksən. Heç bir zaman da ölməyəcəksən. Buna yol verilməyəcək. Sənin bir günahın da yoxdur. Şeytan səndən qorxub qaçdı. Savabların sayılarkən şeytan başını daşlara vurdu. Xalqın səni unutmayacaq. Yurdun səni unutmayacaq. Elə buna görə də, sən ölümsüzsən, Dmitriy Solnsev! Sorğusuz da cənnətdəsən! İndi isə gəl səni aparaq cənnətə!"

Dmitriy Tanrısını çağırıb mələklər tərəfindən cənnətə aparıldı. İndi o, həmin cənnətdən çıxmayacaq. Heç bir zaman ölməyəcək. Heç bir zaman unudulmayacaq. Onun haqqında danışanlar bunu danışan zaman qəhərlənməyəcək. Onun Şəhidliyi bütün insanlarda ikinci ruh oyadacaq. Dmitrinin ruhu onlara köçəcək. Və indi köçür də.

Mən inanıram ki, Dmitriy Qubadlının işğaldan azad olduğunu bilən zaman gecə vaxtı o günlərini xatırlayır və ruhu daha da şad olur. Və onu da bilirəm ki, onun yoldaşları Şuşaya Azərbaycanımızın üçrəngli bayrağını sancanda o, dirilik suyunda daha da rahatlanacaq. Qohumları Şuşada azad yaşayarkən o, Qubadlıdakı heykəllərin ruhuna da köçəcək.

Dmitrinin ruhu heç bir zaman kədərlənməyəcək. Ruhun dünya yaşadıqca şad olsun, Dmitriy! Tanrı, Allah Sənə Rəhmət etsin! Amin!

*Düşmənlərinin,*
*Gözləri gülməz,*
*Şəhidlər ölməz,*
*Vətən bölünməz!*

*28.10.2020*
*"Kredo" qəzeti, 03.12.2020*





## 1000 İLƏ BƏRABƏR 100 GÜN VƏ YA İKİNCİ "QƏHRƏMANA ELEGİYA"



*Şəhid çavuş Elşən Qulu oğlu Quluzadənin əziz xatirəsinə həsr olunur*
*(20 oktyabr 1998-ci il Füzuli rayonu İkinci Mahmudlu kəndi-21 yanvar 2021-ci il Bakı şəhəri).*

***Bu 100 gün dastanı çox acı sonlu,***
***10 milyon insanın gözləri doldu.***
***Sağalmağın gözlədiyimiz Qazi,***
***Cismani ayrıldı və Şəhid oldu...***
***Sayəndə Qarabağladır millətim,***
***Şad olsun müqəddəs ruhun, Şəhidim!***

*Müəllif*

Bu gün daha bir qəhrəman haqqında növbəti elegiyanı qələmə alıram... Lakin, qəm-kədərimin ölçüsü eyni deyil, indi daha da artıb... Düşmən cənginə mərdliklə sinə gərərək onun xain həmlələrindən cəsurluqla qurtarmış qəhrəmanım kaş ki bu əcəlin cəngindən də qurtulaydı, bütün qazilərimiz kimi onun da görüşünə, ziyarətinə gələn olaydı, ondan müsahibə alaydılar... Kaş ki, o, bu ağrı-acıdan qurtulaydı, ailəsi də kədərin üzünə belə baxmayaydı... Atası qüruruna qürur qataydı, dostları köksünü qabardaydı, anası sevinib oğlunu bağrına basıb özünü xoşbəxtlərin xoşbəxti hesab edəydi... Kaş ki...

Bəs niyə belə olmadı?.. Niyə övladı üçün, ailəsi üçün saçını süpürgə edən, ayağına daş dəyəndə ürəyi sızlayaraq yerindən çıxan bir Ana da övladının bayrağa boyanmış tabutuna baxmaq adlı acı gerçəklə qarşılaşdı? Niyə bir atanın da beli qurudu, büküldü? Niyə bir dost arxasız-köməksiz qaldı... Sözlər üz çevirdi, dillər aciz qaldı, fikirlər rəngini dəyişib qara rəngə boyandı... Bunlar niyə belə oldu?..

Yəqin, İlahidən qisməti belə imiş Şəhidimizin... Yəqin, heç komada deyilmiş, 100 gün içərisində hər an sadəcə ruhu ilə Allahın dərgahında imiş O... 100 gün içərisində Allahıyla danışırmış ki, burada dayana bilmirəm, mənə bayrağa bükülmüş tabut, şəhid dostlarımı da rənginə hopduran qapqara torpaq lazımdır... "Mənə cəngi, döyüşü, hərbi çox gördün, Şəhadəti çox görmə, Allahım!" deyirmiş yəqin keçən hər gündə O. Ailəsi də yəqin təskinlik tapırmış ki, bəlkə də, komaya düşməsində bir xeyir var. Çünki, komada olmasaydı, xəstəxanada olduğu ilk an özünü yerdən-yerə vurardı, döyüşləri davam etdirə bilmədiyinə görə hirsindən dəli kimi olardı, həkimləri cənginə alardı ki, məni tez sağaldıb döyüş yoldaşlarımın yanına qaytarın... Amma, komada olduğundan O, çox sakit idi... Onu tez sağaldıb döyüş yoldaşlarının yanına qaytarmadıqları üçün həkimləri qınaya bilmirdi, danışmırdı, dinmirdi də... Yəqin ki, cənnətdə boşaldacaqdı qəlbindəkiləri...

Bu elegiya-məqalə Zəfər günü də, medalını aldığı gün də komada olmuş, düşdüyü

komanın onun sevinməli olduğu bütün xoş xəbərlərin üstündən qara xətt çəkdiyi bir Şəhidə həsr edilmişdir... Vətən müharibəsinin odlu-alovlu günlərində Füzuli istiqamətində döyüş tapşırığını yerinə yetirərkən ağır yaralanan və döyüşü davam etdirmək istəsə də, aldığı yaranın ölümcül olduğu üçün xəstəxanaya yerləşdirilən, xəstəxanada 100 gün komada qalan və 100-cü gün Şəhid olan çavuş Quluzadə Elşən Qulu oğluna aiddir bu elegiya...

Elşən Quluzadə 1998-ci ildə Füzuli rayonunun İkinci Mahmudlu kəndində dünyaya göz açmışdır. O da Qarabağda doğulan bir çox Şəhidimiz kimi Qarabağın bir hissəsinə uzaqdan həsrətlə baxmağa məcbur olmuşdu. Orta məktəbdə təhsil aldığı vaxtlarda müəllimləri ona Azərbaycanın tarixini dərindən tədris etməklə bərabər, zaman-zaman doğma Qarabağın, xüsusilə də, Füzulinin nə qədər dərd yüklü olmağından danışırdılar... Elşənin bu eşitdikləri onun üçün qisasa hazırlıq təlimi olmuşdu. Bu mövzularda atasından, anasından eşidib-bildikləri də onu daha çox təsirləndirir, əlinin sıxıldıqca sıxılmasına və düşmənin başına zərbə endirməyə hazır olan dəmir yumruğa dönməsinə zəmin hazırlayırdı. Hələ kiçik yaşlarında atası ilə birgə bir tərəfə gedəndə əsgərlərimizi görərkən qürur duyar, köksü qabara-qabara vəzifəsini yerinə yetirən, Vətənə xidmət edən əsgərlərimiz, hərbçilərimizlə fəxr edər, bəzən onlara əsgər salamı da verərdi. Elə hallar olurdu ki, Elşən salam əvəzinə yumruğunu da göstərər, elə bil bununla "vaxt gələcək, bu yumruq kimi birləşib, dəmirə çevrilib, dəmir yumruq olub düşmənin başına enəcəyik, onu məhv edəcəyik, onda mən də sizin sıralarınızla olacağam" demək istəyirdi.

Hərbi forma geyinən hərbçiləri televizorda da seyr etdikcə elə bil Elşən daha da qüvvətlənir, onlardan güc alır və elə bil nə çətinliyi varsa onu bununla həll edirdi. O, bilirdi ki, əsgər varsa vətən var və həmin əsgər vətənini müdafiə etmək üçündür. Yəni qoruyanı varsa, Azərbaycan özü var və həmişə dik durar! Dəmir yumruğunu sıxar və düşmənə deyər ki, əy o boş başını! Beləliklə, Azərbaycan var olar və zəfərdən-zəfərə addımlayar, yeriyər...

Hərdən Elşəni öz daxili dünyası da didirdi. Onu narahat edən qarabaqara fikirlər var idi. Elə bil, Elşən özünü həyatda yox, xəyallarda olduğu kimi sanırdı. Bunu orta məktəbin son siniflərində oxuyanda daha çox hiss etmişdi elə bil O. Çünki, artıq cəzasız qalan düşmənlər özlərini rahat hiss edir, çox rahat gəzə bilir, istədiklərini edirdilər. Havadarları olduğundan onlara heç kəsin sözü yox idi. Belə bir halda, əgər, öndə əngəl varsa, onda işlər təhlükədə olar. Elşənin aləmində əsas xəyal deyildi, xəyalın gerçəkləşməsi idi... Bunu getdikcə gəncləşməkdə olan Elşən öz təfəkkürü ilə çox yaxşı sezirdi və onu da bilirdi ki, onun ən böyük və gerçək olmağa layiq bir arzusu var: Hərbçi olmaq! O, bunu bütün canı, qanı ilə, ürəyi-qəlbi ilə, bütün varlığı ilə istəyirdi və hərbçiliyə gedən yolda olan bütün əngəlləri yox etməyə hazır idi Elşən.

Orta məktəbi bitirdikdən sonra o, başqaları kimi sənədlərini ali məktəbə vermədi. Onun üçün ən uca, ən yüksək ali məktəb vətən sevgisi, vətənin müdafiəsi, torpaqlarımızın düşmən tapdağından azad edilməsi ali məktəbi idi. Ona görə də, bu istəyini həyata keçirmək naminə O, hərbi xidmətə yollandı. İlk gündən özünü rahat hiss edir, darıxmır, sıxılmırdı. Bilirdi ki, çoxdan olmalı olduğu, qəlbən arzuladığı yerdədir. Vətənə xidmət edir, arxaya baxmır, həmişə önə, düşmənə baxırdı. Elşənin əli hər an tətikdə olurdu. O,





o qədər sevirdi ki bu işini, o qədər qoruyurdu ki bu işinin şərəfini... Ona görə də hərbi xidməti bitirdikdən sonra da O,sevdiyi peşəsindən ayrılmamaq üçün müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq Daxili Qoşunlarda yenidən işə düzəldi. Həm asayiş, həm vətəni müdafiə onun ən çox sevdiyi işi idi!

Mancəni üstünlüyə məharətlə dəyişən Elşən adı kimi mehriban, gülərüz, şən idi və etdiyi işlərlə özünü mühitinə də sevdirirdi... İş yoldaşları, əsgərlər, zabitlər ona baxıb onunla fəxr edirdilər. Bilirdilər ki, Elşən Vətənin asayişi və qorunması üçün özünü odla sulayar, suyla yandırar. Elşən dəfələrlə ətrafdakıları özünün bir çox cəhətlərlə başqalarından üstün olduğuna inandırmışdı. Bu, həqiqətən də belə idi.

Vətənə xidmətini davam etdirən və yorulmadan çalışan Elşən 2020-ci ilin iyul ayında düşmən təxribatları nəticəsində baş verən Tovuz döyüşlərindən sonra daha da canlandı, özünü yenidən müdafiə və qisas üçün doğulmuş hesab etdi. Erməni təxribatı zamanı qəhrəman komandir, general-mayor Polad Həşimovun şəhadəti hamı kimi Elşəni də ürəkdən kədərləndirdi, bununla yanaşı onda qisas hissini daha da alovlandırdı və məsuliyyətini artırdı. O, nəinki Füzulini və işğalda olan digər ətraf bölgələri, ümumiyyətlə tam Qarabağı azad görmək istəyirdi. Nə vaxt Ali Baş Komandandan dəmir yumruq əmri gəlsə idi, O, çoxdan bu əmri yerinə yetirməyə, qartal kimi düşmən üzərinə şığımağa hazır idi. Şəhidlərin qisasını almaq, Qarabağı azad edib düşmənlərə böyük dərs vermək Onun ən ali istəyi, arzusu, amalı idi. Bunun üçün O, hər şeyi edərdi.



Uşaq vaxtlarından televizorda da baxırdı düşmənlərin qudurğanlığına, azğınlığına, qəddarlığına, alçaqlığına. Ancaq, düşmənin naqisliyi indi başqa idi. Həmişəkindən daha da qudurmuşdu düşmən. Ağzından köpüklü cəhənnəm odu yağırdı düşmənin. Nağıllarda şər qüvvələrin timsalı olan, ağzından od püskürən əjdaha kimi düşmən istədiyi yeri dağıdır, istədiyi azğın hərəkətləri edir, cəzasız qaldıqca daha da qudurğanlaşırdı. Niyə belə sərbəst idi düşmən? Çünki, havadarlarının kölgəsində olduğundan törətdiyi qəddar cinayətlərə görə ona cəza verilməmişdi, həddi bildirilməmişdi, ona görə bütün dünya qanunlarını ayaq altına atıb tapdalayırdı. Onların cəzası yox idi. Dünyada tək cəza almamış terrorçu insanabənzəməyənlər ermənilər idilər. Elşən artıq dözə bilmirdi, hər bir Vətən oğlu kimi. Düşmənin dərsini tez vermək istəyirdi. Ali Baş Komandan o Əmri verəcəkdi!

Və nəhayətində və məqamında verdi də! Qisas hissi ilə alovlanan Elşənlərin həcmcə kiçik, lakin Vətən boyda olan ürəklərinə bumbuz İsa bulağının suyunu səpdi də! 27 sentyabr 2020-ci ildə Ali Baş Komandan cənab İlham Əliyev Qarabağı azad edəcək, Ulular ruhunu şad edəcək, düşmənin başına zərbə endirəcək, bağrını didəcək və böyük dərs verəcək bir Əmri verdi! Həmin gün düşmənin bir çırtmasıyla yatmış nəhəng durdu, dirildi, dirçəldi və... Zəfərli günlərimizin axını elə ilk anlardan başladı! Elşənimizin və

neçə-neçə vətənsevər Elşənlərimizin müqəddəs qisas arzusunun həyata keçməsi üçün zəmin yaratdı bu Əmr!

Silahlı Qüvvələrin əsgərləri, Hərbi Hava Qüvvələrinin pilotları, könüllü miçmanlarla bərabər Daxili Qoşunların hərbçiləri də Vətən torpağının azad olması üçün gücünü, qüvvəsini bir an olsun belə əsirgəmədilər. Sonralar Şuşa fatehi olacaq Ərənlər o vaxt Zəfər Yolunda ilk addımlarını birgə atırdılar. Elşən də həmin Ərənlərlə bir cərgədə müzəffər addımlarla addımlayırdı bu müqəddəs yolda. Bədəninə nəhəng Türk sərkərdələrinin ruhu dolubmuş kimi düşmənə durmadan zərbələr endirirdi O. Qisas hissi ilə alovlanan Elşən həmin qisası artıq alırdı.



Döyüşün ilk anlarından bu, adi hala çevrilmişdi. Daha çox qisas alsın deyə, daha çox vuruşurdu, bütün gücünü bu işə sərf edirdi, dayanmadan, yorulmadan, nəfəsini belə dərmədən...

***Torpağın hər qarışında,***
***Dalğalanır bayrağımız.***
***Heç darıxma, vaxtı gəldi,***
***Gəlirik, Qarabağımız!***

Bu Zəfər nəğməsi ilə Füzulidən, Cəbrayıldan keçdi Elşən... Şəhidlərimiz üçün doluxsunaraq, qəmginləşərək, Zəfərimizə sevinərək... Sabaha, sabahın Zəfərinə inanaraq, inamla, cəsur addımlarla addımladı Elşən... İnamı ilə gücünə güc qatdı. Gücü heç zaman əksilmədi, o, bu yolda yorulmadı, gümrahlaşdı, gücü daha da artdı. Düşüncəsində, qəlbində Zəfərdən başqa heç nə yox idi onun. Özünü inandırırdı ki, müharibənin düşmən üzərində qələbəmizlə bitdiyi o günü, Zəfər Gününü özü görəcək, ailəsi ilə zəngləşəcək, bu şad xəbəri onlara verməklə təbrikləşəcəklər... Lakin zalım fələyin oyunundan xəbərsiz idi Elşən.

Digər istiqamətlərdə olduğu kimi, Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərə də qorxu, əngəl, manea nədir bilmədən daim irəli atılan Elşən bu dəfə nəsə çətinlik hiss edirdi elə bil. Bütün gücünü sərf edən Elşən düşmənlərə böyük zərbə vuranda daha da yenidən güc alırmış kimi olurdu. Elə bil, fələk adlı bir məfhumu indi hiss edirdi O. Çünki, bu döyüşdə özünü neçə dəfə təhlükələrdən xilas etmişdi, döyüşlərini davam etdirməsi üçün yaralanmasma imkan verməmişdi. Düşmənlər Elşənin çevik olduğunu bir daha görürdülər, ermənilər üçün Elşən önəmli əsgərlərdən biri, onların yuxu kabusu kimi idi. Ona görə də onlar məqsədli olaraq imkan düşəndə daha çox Elşəni və onun dostlarını hədəfə alırdılar.

Bir yerdə deyib-güldüyü döyüş yoldaşlarının ağır döyüşlər zamanı cansız bədənini görürdü Elşən. O zaman bilirdi ki, fələk var. Zalım fələk var. Elşənin ürəyinə dammışdı ki, ya ağır yaralanacaq, ya da Şəhidlik Zirvəsinin fatehlərindən biri olacaq.

Onun ürəyinə necə dammışdı elə də oldu... Füzuli ətrafındakı döyüşlər zamanı Elşən çox ağır yaralandı. Zərbə bir anda onu döyüşdən ayırdı. Heç nə hiss etmirdi O. Qanı gözünün üstündən axdığından o, dünya işığını qan rəngində görürdü. Bir anda bədənini





qan qırmızısı ələ keçirmişdi elə bil. Döyüş yoldaşları onun qırmızıya boyanmış bədənini gördülər və qışqırdılar:

*– Elşən!!! Elşən! Hər tərəfin qan içindədir!*

*– Ay Allah, nə edə bilərik? Döyüşün ən ağır getdiyi yerdə...*

*– Sən aramızdan ayrılası oğlan deyilsən, Elşən... Sənin sərrast atəşlərinlə erməni əsgərləri cəhənnəmə vasil olur. Sağal, Elşən, yenidən sağal, düşmən başına od ələ!*

Döyüş yoldaşları üçün, vətən üçün Elşən yaşamalı idi. Ancaq, Elşən elə bil qırmızıya boyanan gözü ilə onlara baxırdı və deyirdi ki, qoyun elə burada, döyüş meydanında Şəhid olum. Lakin, döyüş yoldaşları onu tez çiyinlərində daşıdılar və gizlicə döyüş meydanından apardılar. Elşənin yarası çox ağır idi və O, çox qan itirmişdi. Lakin, yenə də əl çəkmək istəmirdi səngərindən, döyüş meydanından, doyüş yoldaşlarından. Danışa bilmirdi, ona görə də var gücü ilə qışqırırdı. Onun nərəsi düşmənlərinin qulağını batırırdı. Elşəndən ayrı yemək yeməyən, ayrı su içməyən, ayrı çörək kəsməyən, ayrı düşmən üzərinə şığımayan döyüş yoldaşları onu tam varlıqları ilə dərk edirdilər. Dərindən ah çəkir, qan damlalarına qarşı şəffaf göz yaşı damlalarını işə salırdılar. Səngəri lərzəyə gətirən Elşən indi tərpənə də bilmirdi. Silahını elə bil yapışdırıcı ilə əlinə yapışdıran Elşən indi əlini hiss etmirdi. Elə bil daha bu dünyada yaşamaq istəmirdi. Ona görə idi bu hayqırışları, dəli nərəsi. O, Şəhid olub cənnətə köçmək istəyirdi. Burada dünya ona dar gəlirdi elə bil, istəyirdi ki, ruhu quşa çevrilib vətənin düşməndən azad edilmiş torpaqlarının səmasında cövlan edib azad pərvazlansın...

Ailəsi ondan yaxşı xəbərlər gözləyərkən, sevinə-sevinə bir o yana-bir bu yana gəzərkən bir telefon zəngi onları həyatdan ayırdı elə bil.

*– Alo, kimdir danışan? – Ana böyük ümidlə bir səs gözlədi.*

*– Hərbi tibb qulluqçusuyam... Siz çavuş Elşən Quluzadənin anasısınız?*

*– Hə, həkim, nə olub ki? – Ana həyəcanlandı.*

*– Sizə bu xəbəri vermək istəməzdim, ancaq... Buna məcburam.*

*– Nə olar, həkim, xahiş edirəm, deyin... Elşənimə nə olub? Oğluma nə olub? – Ana son ümidlərlə doluxsunurdu.*

*– Bu gün bir neçə saat əvvəl Füzuli istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən çavuş Elşən Quluzadə ağır yaralanıb. Onu xəstəxanaya yerləşdirmişik. İlkin baxışda görünür ki, vəziyyəti çox ağırdır. Həddindən artıq qan itirib və danışa da bilmir. Tez gəlməyinizi xahiş edirik. – Anadan səs gəlmədi. – Alo... Xanım, məni eşidirsiniz? Alo...*

Ana danışmadı. Hərbi həkim narahat olsa da dəstəyi asmağa məcbur oldu.

Ana sükutunu davam etdirirdi, elə bil nitqi tutulmuşdu. Həyat yoldaşı onun bu halından narahat oldu və tez ayağa qalxaraq həddindən artıq həyəcanla, az qalmış ümidlə ondan soruşdu:

*– Oğlumuza nə olub, xanım? Hərbi həkim nə dedi? Nə olar, tez de, xanım... Nə olub oğlumuza?*

Ana bir anlıq həyat yoldaşının üzünə baxdı. İllər ərzində saçlarını süpürgə edərək birgə böyütdükləri bir ərənin indi hərəkətsiz qalmış halı gözünün önündə canlandı. Bu ağrıacıya dözə bilmədi və yanıqlı haray çəkib birdən yerə yıxıldı. Həyat yoldaşı xanımı tez

tutdu.

*– Xanım, xanım!!! Uşaqlar, ananız huşunu itirdi... Tez kömək edin... Cəld olun... Su gətirin...*

Ananı tez yatağa uzandırdılar. Onun dilindən bir söz eşidə bilməyən ata son qalmış ümidi tükənmiş halda həyəcanla son ümidini gözlədiyi Allahına dualar etdi ki, Elşəninə kömək olsun.

Bir az vaxt keçmiş gözlənilməz xəbərdən huşunu itirmiş ana özünə gəldi və ata onda bildi ki, Elşən ölümcül yara alıb. Oğlunun vəziyyətini öyrənmək üçün onlar tez xəstəxanaya getdilər.

Onlar xəstəxanaya gedən gündən "100 gün" dastanı başlamış oldu...

Valideynlər hövlnak halda xəstəxanaya çatanda gördülər ki, Elşən hərəkətsiz halda uzandırılıb. Onun uzandığı otağa getmək istədilər, lakin həkimlər:

*– Olmaz xanım, oraya girməyin.*

*– Onda bir söz deyin, həkim, oğlumun vəziyyəti necədir?*

*– Gec gəlmisiniz, xanım. Gərək bir az tez gələydiniz. Heç olmasa bilərdiniz ki, gözü görür, az da olsa dərk edir. İndi Elşən çox ağır komadadır. Bu qədər ağır travma almasa idi, bəlkə komaya düşməzdi. Onda sağalması, yenidən döyüşə qatılması, ya da qayıtmayıb evə buraxılması sual altında qalmazdı. İndi sadəcə dua etmək lazımdır, xanım. Dua etmək lazımdır ki, Elşən koma vəziyyətindən çıxsın. Belə olsa bir neçə gündən sonra ayağa qalxmağı möcüzə sayılmaya bilər. Bu günlər ağır günlərdir. Dua edin, bu ağır anlar tez bitsin...*

Həmin gündən sonra hər gün ata-ana, ailə üzvləri xəstəxana dəhlizlərində mürgülədi, Elşənin komadan çıxması xəbərini eşidəcəkləri sevinci ilə diksinib sevinc dəlisi kimi mürgüdən ayıldılar, xəyallarının həqiqət olmadığını bildikdə isə yenidən qəm yüklərini daşımağa məcbur qaldılar. Günün 24 saatını, ayıq olanda da, bir anlıq mürgüləyəndə də onlar bütün vaxtlarım Allaha dua etməklə keçirirdilər. Hətta Ali Baş Komandanın Zəfər xəbərlərini yarımsevincli bir şəkildə oxuyurdular, yəni gözlərinin biri sevinir, gülür, digəri kədərlənir, qan-yaş tökürdü. Buna məhkum idilər elə bil. Gecələr, günlər, həftələr bir-birini əvəz edirdi, ancaq Elşən hələ də komadan ayılmırdı. Əzizləri istəyirdilər ki, Elşən komadan çıxsın, səhhəti yaxşılaşsın, onlar birlikdə hər iki gözləri ilə Zəfərə sevinsinlər, Ali Baş Komandanın xəbərlərini oxusunlar, sevinclərinə sevinc qatsınlar. Xəstəxanada müalicə olunan bir çox qazilər Elşəndən xəbər tutmuşdular. Onlar da dualarını əskik etmirdilər ki, Elşən komadan ayılsın, sağalıb ayağa qalxsın. Ancaq, günlər keçir, ümidlər tükəndikcə, tükənirdi.

Artıq Elşənin bu vəziyyətdə olmasından 1 ay keçmişdi... Ailənin ümidi demək olar ki, azalırdı. Həkim demişdi ki, bir neçə gün keçsə, Elşənin ayağa qalxması möcüzə ola bilər. Dualar çoxaldıqca çoxalırdı, ancaq, Elşənin vəziyyəti də gün getdikcə ağırlaşırdı. Xəstəxanadakılar ailə ilə danışır, söhbətlər edir, bacardıqca onları ovundurmağa çalışır, dönə-dönə deyirdilər ki, qəti ümid kəsmək olmaz. Ancaq, deməsi asan idi axı... Elşənin nələr çəkdiyi bilinmirdi.

8 Noyabrda Azərbaycan Ordusu Şuşamızı azad etdi! Həmin gün böyük Zəfərimizin Günü oldu! Bu gözəl xəbəri Elşənin ailəsi də eşitmişdi. Onlar da ilk dəfə idi ki, uzun vaxtdan sonra sevinirdilər.





Ananın ümidi artmışdı. O, min bir ümidlə Elşənin olduğu otağa doğru addımlamışdı. Həkim ananın hərəkətlərindən şübhələndi.

*– Xanım, Zəfər Gününüz mübarək... Elşən ayağa qalxan gün bizim növbəti zəfərimiz olacaq, bayramımız olacaq...*

*– Həkim, bəlkə... Bir dəfə Elşənin otağına daxil olum, hə? Bəlkə, səsimi eşidə bildi, komadan ayıldı, ana səsi di də...*

*– Nə bilim, xəstələrimin ailəsi bu qaydada yoxlamayıb, daha doğrusu belə ağır komada olan xəstəm olmayıb. Ancaq, yoxlasanız, pis olmazdı məncə də. – Həkim də ümidləndi və icazə verdi.*

Ana həyəcanlanaraq otağın qapısını açdı və içəriyə daxil oldu. Oğlu hərəkətsiz bir şəkildə, heç bir yerini tərpətmədən sakitcə uzanırdı. O, inanırdı və inandırırdı ki, Elşən komadan bu gün ayılacaq. Bu gün ayılmasa da, sabah ya da birigün ayılacaq. Elə bil ürəyinə nə isə yaxşılığa doğru dammışdı, ana ürəyidir axı... Ancaq, bu, hər şeyi dəyişdirə bilər.

Ana sakitcə danışdı:

*– Oğlum... Canım oğlum, gözüm oğlum... Necəsən, qurban olduğum? Neçə gündür səsinin həsrətindəyik, intizarındayıq... Döyüş yoldaşların bizdən xəbər gözləyirlər. Sən rahat olmalısan ki, onlar da güc alsınlar. Bilirsən, sən bura gələli hər şey dəyişib. Ali Baş Komandan hər gün cəbhədən yeni xəbərlər verir ki, Qarabağda daha bir neçə kənd, ya da qəsəbə azad olunub. Elşənim, anan qurban, bu gün Ali Baş Komandan xalqa müraciət edib! Artıq Azərbaycan Zəfəri çalıb, Elşən! Azərbaycan qalibdir! Şuşanı işğaldan azad etmişik! – Çöldən gələn maşınların siqnalının səsləri və sevinc qışqırıq səsləri yüksəlirdi. – Eşidirsən , xalq zəfəri bayram edir, küçələrə axışıb hamı. Elşən, qurban olum, nə olar, səsimə səs ver, nə olar oyan!.. Oyan, bu gün Zəfər Günüdür!.. – bir anlıq sükut oldu. Ananın bayaqdan artmış ümidləri elə bil yavaş-yavaş azalırdı. – Elşən, oyan, balam... Elşən... – Yox, ana fələklə belə danışmamışdı, Elşən ayılmalı idi axı... – Elşən, oğlum!.. – Elşən əvvəlkitək hərəkətsiz idi. Ana ümidini daha da itirməyə başlayırdı, elə bil ümid çırağının şölələri get-gedə daha da sozalırdı. İndicə keçəcək kimi... Elə bil qarşısında oğlunun cansız bədənini görürdü. Dözə bilməyən ana hönkürüb dəlicəsinə ağladı. – Elşən! Oğlum! Aç gözlərini! Gözlərini aç, oğlum! Ananı ağlar qoyma! Oğlum, hamının sevindiyi gündə bizi gözüyaşlı qoyma, oğlum!..*

Vəziyyəti görən həkim pis olsa da istər-istəməz otağa daxil oldu.

*– Sakitləşin, xanım, sakitləşin! Müəllim, xanımı otaqdan aparın.*

*Huşunu bir də itirmək üzrə olan Ananı otaqdan çıxardılar... Ana Zəfər Günündə bir möcüzə istəyərkən, bir daha məğlub oldu fələyə... Fələk onu bir daha aldatdı, vədinə əməl etmədi... Ana indi hətta, elə bilirdi ki, oğlu daha yaşamır, Elşənin canı, ruhu onları atıb, şəhid olmuş döyüş yoldaşlarının yanına gedib...*

Ailə o gün çoxdan arzuladığı Zəfər sevincini istədiyi, arzuladığı kimi yaşaya bilmədi... O anda Elşən də Allahın dərgahına ruhunu hazır edirdi. Yenə də acı çəkməkdə idi. Ancaq, bu acını Şəhadət şərbəti ilə şirinləşdirəcəkdi, onunla əvəz edəcəkdi O... Bunu komadakı ilk günündən bilirdi... Hərəkətsiz qalan canı, bədənindəki ruhu ilə hiss edirdi...

Şuşada şəhid olan Daxili Qoşunların əsgərləri, digər şəhidlərin ruhları artıq Elşənlə

danışır, bayramlaşırdılar. Onu səbrsizliklə gözlədiklərini bildirirdilər...

Çavuş Elşən Quluzadə Ali Baş Komandan tərəfindən "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalı ilə təltif olunanda da komada idi... Ailəsi bu sevinci də Elşənsiz yaşaya bilmədi. Fələk elə bil bu ailəyə qəzəblənmişdi... Bu ailəni oyununun qurbanı etmək istəyirdi... Buna nail də oldu...

21 yanvar 2021-ci ildə Elşənin ruhu bildi ki, artıq gün o gündür... Şəhid döyüşçü dostları onu azad etdikləri torpaqların səmasının ənginliklərində həsrətlə gözləyirdilər... Elşən özü də bunu istəyirdi... Anasının kədərini qürurla yan-yanaşı etmək istəyirdi Elşən... Onu da bilirdi ki, burada hərəkətsiz qalmaq ona heç nə gətirməyəcək... Ona ancaq dərd gətirəcək... Ancaq Şəhidlik ona elegiyalı da olsa bir Qəhrəmanlıq Dastanı yazdıracaq...

Çavuş Elşən Quluzadənin ruhu 21 yanvar 2021-ci ildə komada qalmasının 100-cü günündə müalicə aldığı xəstəxanada bədənindən ayrıldı və şəhid dostlarının ruhuna qovuşdu...

Elşən Quluzadə doğulduğu Füzuli rayonunda dəfn edildi. Acılar sonuncu dəfə zirvəyə qalxdı. Sonra isə azaldı və qürurla əvəz olundu. Artıq ailə bu 100 gün dastanını həm qürurla, həm də kədərlə oxuyacaqdı... Çavuş Elşən Quluzadənin dastanı kədərli olsa da, həm də qürurlu bir dastandır... Bu dastanın sonu Vətən Müharibəsi igidlərinin bəzilərinin dastanı kimi Şəhadətlə sona yetir. Qürurumuzsan, Vüqarımızsan, Şəhidim! Allah bütün Şəhidlərimizə rəhmət eləsin! Amin!

*28.01.2021*

## VƏTƏN TORPAĞINI AZAD EDƏN ƏRƏNLƏR

Əmioğlularım – əsgər Əliyev Elşad Hümbət oğlu və əsgər Piriyev Rəhman Novruzxan oğlunun Vətən müharibəsindəki döyüş yollarına həsr edilmişdir.

***Bu yollardan atan-anan keçibdir,***
***Bu bulağın onlar suyun içibdir,***
***Onlar hər an Qarabağı seçibdir,***
***Düşmən süngüsüylə burdan köçübdür.***
***Düşmənləri hər zaman qır, biç, qardaş,***
***Azadlığın şərbətini iç, qardaş!***

*Müəllifin "Qardaş" şeirindən*

44 günlük böyük Vətən Müharibəsi dastanında neçə-neçə qardaşlarımız, övladlarımız Qazi oldu, neçələri Şəhidlik Zirvəsinə yüksəldi. Şəhidlər üçün bir gözümüz ağladı, Qarabağ üçün bir gözümüz təbəssümlə sevindi, güldü! İllər keçdi ağılları kəsəndən əcdad ərlərinin, ərənlərinin dastanını eşidən və onlar kimi qəhrəman olmaq istəyən neçə-neçə körpələr, uşaqlar, "o deyilən gün bu gündür!" dedi və torpaqları azad edib əcdadları kimi böyük dastan və tarix yazdılar! Onların yazdığı tarixi biz yazarlar Qəhrəmanlıq Dastanlarında yazmalı, bildirməliyik! Onlardan biz ömür boyu danışmalıyıq! Onların qəhrəmanlıqlarına görə ömür boyu fəxr etməli, öyünməliyik!





Çünki Onlar Azərbaycanı 200 ildən sonra yenidən Şahlandırıb, şadlandırıb Zəfəri əldə ediblər! Əcdadları kimi, Şah İsmayıl kimi, Nadir Şah kimi sanki atlarını şahə qaldıraraq Azərbaycan Bayrağını dalğalandırıblar! Onlar hər işğaldan azad olunan bütün ərazilərimizdə Üçrəngli Bayrağı, böyük Türk şairi Bəxtiyar Vahabzadə demişkən, "Qurdbaşlı Bayraq"ı dalğalandırıblar, onun yanında sinəsini qabağa verməkdən böyük bir zövq alıblar, fəxr ediblər! Ən əsası, bizə Zəfəri gətiriblər! Biz onlarla fəxr etməliyik, edirik, edəcəyik də! Bu qürur hissini çox uzun illər yaşayacağıq! 200 illik qanlı tarixə 1000 il də keçsə, yenə də, keçmiş bir yara kimi, qaysağı kimi, lakin sağalmamış, qaysaq tərpənəndə həmişə qan fışqıran və təzə olan bir yara kimi baxacağıq... Ancaq bu Şanlı Zəfəri Türklük, ulu türkçülük var olana qədər xatırlayacağıq, anacağıq, şeirlərimizə, yazılarımıza, dastanlarımıza, nəğmələrimizə, bayatılarımıza ürəkdən gələn ülvi, gözəl sevgimizlə qonaq edəcəyik! Bunu mütləq etməliyik, edirik, edəcəyik! Azərbaycanda, eləcə də türk xalqlarında "Qazi" sözü vətən, torpaq, ərazi bütövlüyü və müstəqillik, azadlıq uğrunda yaralanan ərənlərə, igidlərə, nərlərə aiddir... Qədim Turan elində, qədim Türk dilində "Qazi" sözü döyüşlərdən-döyüşlərə, cənglərdən-cənglərə atılan, ömrünün yarısını busatına (silahına) sarılaraq Vətəninə həsr edən, sonuna qədər irəliləyən və bu şanlı yolda neçə-neçə oxlara, qılınclara, xəncərlərə sinə gərən, bədəninə dağ çəkilsə də, bədənin həmin hissəsini hiss etməyərək amalı, məsləki uğrunda çarpışan Türk ərəninə, Türk alpına, Türk əsgərinə aiddir! Bunu Turanın əcdad çinarı Ərtoğrul Qazı, oğlu Osman Qazi, silahdaşı Əbdürrəhman Qazi və onlardan əsrlər sonra dünyaya göz açan Türk ruhunun dirilişçisi Qazi Mustafa Kamal Paşa Atatürk öz namı ilə, öz ləqəbi ilə, özlüyü ilə, mənliyi ilə dəfələrlə sübut etmişdir! Eyni zamanda türk dünyasının digər cəngavərləri Cavanşir, Babək, Şah İsmayıl Xətai, Qaçaq Nəbi, Həzi Aslanov, Heydər Əliyev, Mübariz İbrahimov və neçə-neçə Heydərlərimiz, Mübarizlərimiz... Ona görə mən Vətən, amal uğrunda çarpışan, barəsində eşitdiyim hər cəsur döyüşçümüzə "Qazi" deyə xitab edəcəyəm. Yəqin ki, sadaladıqlarımdan sonra mənə haqq qazandıracaqsınız. Elşad qazi, Rəhman qazi, Rauf qazi, Əli qazi, Hikmət qazi və daha neçələrinə fəxr edə-edə, qürurlanaraq əcdadlarımızın nəsillərə ərməğan etdiyi 3 şərtdən birini (bunu Şəhid polkovnik Babək Sə-



midli də deyib: "Ya Qalib olaq, Ya Qazi olaq, Ya Şəhid olaq!"), o şərəfli "Qazi" sözünü deyəcəyəm, onlara belə xitab edəcəyəm! Əslində isə qalib ordumuzun qalib qazisi də, qalib şəhidi də, qazi və şəhid olmasa da hazırda da nər kimi əlində silah düşmən qarşısında dayanan hər bir əsgərimizin də başımız üstündə yeri var.

Sözü Turandan yenidən Azərbaycana, Qarabağa qaytarıram... Bu dəfəki Qəhrəmanlıq Dastanlarını yazacağım o Alpərənlər, o Türk əsgərləri, Şanlı Zəfər Sərkərdələri mənim əmioğlularım – Cənab Ali Baş Komandan, möhtərəm Prezidentimiz tərəfindən "Füzulinin azad olunmasına görə" medalına layiq görülmüş MAXE əsgər Əliyev Elşad Hümbət oğlu və "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medallarına layiq görülmüş MAXE əsgər Piriyev Rəhman Novruzxan oğludur!

Əsgər Əliyev Elşad Hümbət oğlu 23 iyul 1982-ci ildə dilbər guşəmiz, Zəfər çırağımız olan Şuşamızın Malıbəyli kəndində dünyaya göz açmışdır. Əslən mənim ata yurdum, Qarabağa baxan gözüm olan Ağcabədi rayonunun Qiyaməddinli (indi Yuxarı Qiyaməddinli) kəndindəndir. O, ağlı kəsəndən bilgəlik, müdriklik, ağsaqqallıq, ağbirçəklik içərisində, onların qiymətli öyüd-nəsihətləri, kəlamları ilə böyüyüb... Fəxr etdiyi, qürur duyduğu insanlarla bir yerdə olub. Kiçik yaşlarından ana-atasının sözləri onun üçün kişiliyin, mənliyin, mərdliyin, ərənliyin qanunu olub!

Təhsili olmasa da zamanının insanları arasında öz ağlı, kamalı, müdrik məsləhətləri və uzaqgörənliyi ilə sayılıb-seçilən Salah babamızın bütün keyfiyyətləri ilə bərabər həm də ciddiliyindən örnək götürən balaca Elşad ağbirçək, üzünurlu Tərlan nənəmizin şirin sözlərindən doymur, onların dizinin dibindən heç kənara çəkilmirdi. Kəndinin, elinin, obasının, yurdunun seyrindən, ağsaqqal-ağbirçəklərinin şirin-dadlı söhbətlərindən, toylarından, şənliklərindən doymurdu Elşad.

Məktəb yaşı çatanda İsmət Qayıbov adına Qiyaməddinli kənd orta məktəbinin 1-ci sinfinə daxil olan balaca Elşad Salah babanın nəvələrindən çalışqanlığı və zəkası ilə hər zaman seçilirdi. Salah baba digər nəvələri kimi onu da çox sevir, əsl kişi kimi, əsl ərən kimi yetişdirirdi. Elşad fəxr edirdi ki, müdrik ağsaqqal babası, ağbirçək nənəsi var.

Lakin 1989-cu ildə, Elşad hələ 1-ci sinifə daxil olarkən onun babası, kəndin sayılıb-seçilən ağsaqqalı, əcdadları kimi müdrik olan Salah baba dünyadan köçür. Elşad bir daha onun səsini eşitməyəcək, onun fəlsəfəsinin dərinliyinə varmayacaqdı. Ancaq Salah babanın sözləri, bayatıları, həyatının mənası, fəlsəfəsi onun həyatında dərin bir iz buraxacaqdı...

Balaca Elşad məktəbdə də, evdə də həmişə bilirdi ki, ilk sevgi Ana Vətəndən başlayır. İlk dərsdən son dərsə qədər Vətənpərvərliyi ilə, Vətənə sevgisi, öz yurduna, torpağına bağlılığı ilə seçilirdi o. Kəndin həmyaşıd sakinləri arasında təkcə müdrik babasına görə tanınmırdı o, onun Vətənpərvərliyini, Vətən üçün hər şeyi edəcəyini, Vətən sevgisini bilən və onu məhz buna görə tanıyan, ondan nümunə götürənlər az deyildi.

Qarabağ mənfur ermənilər tərəfindən işğal olunanda, kədər, hüzn, bəla Azərbaycana ikiəlli dağ çəkəndə, ölkənin başının üstünü qara buludlar kəsdirəndə Elşadın 9 yaşı olardı. O, Qarabağda baş verənləri uşaq zəkası ilə izləyir, onda qaniçən düşmənə qarşı qisas hissi baş qaldırırdı. Uşaqlığı ata babasının yoxluğu ilə hüznlü olan Elşadın bu illəri





də kədərsiz ötüşmürdü. O, bilirdi ki, qara bulud yaxındadır, bir gün həmin qara bulud onların kəndində, məhləsində, nəhayət, evlərində də şimşəklər çaxdıracaq, ölüm mələyini göndərəcək.

Və həmin gün gəlib çatır. 1993-cü ilin iyul ayının 12-si... O zaman Yuxarı Qiyaməddinli kəndi də Ağcabədinin işğal olunmuş ilk kəndi olaraq tarixə düşür... Qadınlar, uşaqlar, qocalar yurd-yuvasından qovulur, didərgin salınırlar... 200-dən çox ev yandırılır, tarla işləri ilə məşğul olan 10 nəfər əliyalın kənd sakini kəndin kənarında ermənilər tərəfindən qəddarlıqla qətlə yetirilir. Ermənilərin Xocavənd rayonunun erməni quldurlarının yuvasına çevirdiyi Qarakənd kəndi istiqamətindən hücum etdiyi həmin vaxt həyətlərindəki mal-qaranı kəndin "Saybalı tayı" adlandırılan otlaq sahəsinə otarmağa aparan balaca Elşad xoş təsadüf nəticəsində sağ qalsa da həmin vaxtdan o anları heç unutmur. Belə ki, kəndə hücum zamanı azyaşlı uşaqları və qocaları, əlsizləri öz avtomaşını ilə kənddən Qarqar çayı istiqamətində çıxarmaq istəyən əmisi Nəsibə rast gəlir və bununla da istəkli və qüdrətli Allahı onu bu dəhşətli ölüm bəlasından xilas edir...

Həmin vaxtdan Elşadın xəyalında ancaq düşmənlərin odlu şeytan gözləri canlanır, eyni zamanda onda düşmənə nifrət, ondan qisas almaq istəyi alovlanırdı... Düşmənlərin od yağdıran gözləri var idisə, Elşadın da o gözləri oymağa bir gün əcdadı Cavanşirə məxsus odlu qılıncı mütləq olacaqdı... Elşad həmin günlərdə bunu düşünürdü...

Lakin hələ tam formalaşmasa da və vahid komandanlıq tərəfindən idarə olunmasa da həmin günlərdə yenə qeyrətli Azərbaycan əsgərləri əks-hücuma keçərək Ağdamı işğal edib ikinci dəfə Qiyaməddinliyə soxulan düşməni kənddən qovdu... Qiyaməddinli kəndində evləri yandırılıb talan edilmiş qocalar, qadınlar, uşaqlar bir xeyli müddətdən sonra öz yurdlarına qayıtdılar... Hələ buna qədər isə kəndin əli silah tutan, lakin silahsız sakinləri kəndə qayıtmış, o çətin vaxtlarda bir an olsun belə öz yurdlarını boş qoymamışdılar. Bəxtə Gün doğdu... Ağ qələmin qara mürəkkəbi, ağ buludun rəqibi birdən müvəqqəti yox oldu...

O zaman Elşad da ailəsi ilə birlikdə öz yurduna, ayaq açıb yeridiyi evlərinə qayıtdı... Onun artıq yenidən məktəbi, evi, eşiyi var idi demək istəyərdim... Düşmən hər yeri yandırmışdı... Qara buludlar, sarı şimşək çaxmışdı elə bil kənddə... Hər yer külə dönmüşdü, dağılmışdı... Ağsaqqalların müdriklik sarayından heç nə qalmamışdı...

Elşad Qiyaməddinlini işğaldan azad edən əsgərləri tanımırdı... Sadəcə kəndə qayıdarkən bir neçəsinin üzünü görmüşdü... Lakin onlara elə duaçı idi ki... Bütün günü onlara dua edirdi... Onları öz idealı bilirdi. Bir gün onlar kimi əsgər olmaq, Qarabağı, o mərdlər yetirən işıqlı, günəşli ana torpağı azad etmək, qonşu Ağdam rayonunun Yusifcanlı, Mərzili kəndlərinə uzaqdan baxmayıb elə ora getmək, öz yurduna-yuvasına qayıdan duaçı insanların üzünə qürurla baxmaq istəyirdi Elşad... Bunun üçün tək yol hərbi sirlərə yiyələnmək, silahlardan istifadə qaydalarını mükəmməl öyrənib zamanında düşmənə qarşı istifadə edib onun başına od ələməklə mənfur düşməni torpaqlarımızdan iti qovan kimi qovmaqdan ibarət idi...

Vaxt gəldi, Elşad orta məktəbi bitirdi və ən ülvi, ən böyük arzusu, istəyi olan hərbi xidmətə, kişilik, ərənlik məktəbinə yollandı.

Burada böyük şərəflə, yorulmadan və sona qədər çalışan, təlimlərdə olan Elşad sözlə

ifadə olunmayacaq dərəcədə gözəl duyğuları yaşayırdı. O, burada özünü əsl ər, əsl nər, Azərbaycan əsgəri kimi hazırlayırdı! Bilirdi ki, bir gün yenə həmin əsgər formasını geyinəcək və düşmənə qarşı sona qədər döyüşəcək! Lazımsa, Qalib olacaq, lazımsa, Qazi olacaq, lazımsa, Şəhid olacaq! Bir sözlə, hərbi xidmətdə, o böyük kişilik məktəbində onun qədər həvəslə, yorulmadan çalışan və gələcək planlarının üstündə duran bəlkə də yox idi. Onun gələcəkdə tək planı var idi: Qarabağı yağıdan, ulu ruhunu narahatlıqdan azad etmək!

Hərbi xidmətini başa vurduqdan, kişilik məktəbini üzüağ, alnı açıq ərlər kimi bitirdikdən sonra Elşad bir müddət Ərazilərin minalardan təmizlənməsi sahəsində ANAMA təşkilatında minaaxtaran kimi çalışdı. Bu işdə də yorulmadan, lakin sona qədər əsgərtək atdığı addımına diqqət edərək, həyatının hər dəqiqəsini diqqətlə yaşayaraq çalışdı, çabaladı, hətta ölümlə vuruşdu, burun-buruna, üz-üzə gəldi. Bu həyat təlimindən də üzüağ çıxdı Elşad!

Bu təşkilatdakı işini də müvəffəqiyyətlə başa vuran Elşadın ürəyi artıq azadlıq istəyən qəfəsdəki simurq quşutək çırpınırdı. Fikirləri üst-üstə düşürdü. Qəlbinin alovu əbədi məşəl ilə daha da şölələnir, paklığı İstisu ilə daha da nurlanır, daha da paklanırdı. Elşad qərar vermək istəyirdi. Qarabağı azad etmək üçün müsəlləh əsgər olmalı, yoxsa rahat, duyğusuz yaşayıb həyatını təhlükəyə atmamalı? Elşad bir anlıq əcdadlarının ruhunu özündə hiss etdi. Hiss etdi ki, sinəsinə dağ çəkirlər, bədənini ox yağışına tuturlar, başını qara bulud kəsdirib, lakin o, hələ də döyüşdən-döyüşə atılmaqdadır. Hissin özü də şərəfli idi. Bunun üçün Elşad tərəddüdsüz və bir də məsələnin üzərində danışmadan qərarını verdi: MAXE əsgər olub, əsl döyüşçü, vətən fədaisi olub Qarabağ üçün döyüşlərə hazırlaşmaq lazımdır!

Elşad bundan sonra MAXE əsgər olaraq, yəni müddətdən artıq xidmət edən hərbi qulluqçu olaraq hər cür əzab-əziyyətə qatlaşmağa hazır idi. Təki vətən torpaqlarını düşmən tapdağından azad etmək üçün cəng olsun, hərb olsun!

Elşadın həyat yolundan yazdığım dastanı burada dayandırıram. İndi isə digər əmioğlumdan – Novruz əmimin qəhrəman ərənindən, əmisinin oğlu Elşadla bir yerdə Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilmiş, sonra isə özü "Xocavəndin işğaldan azad olunmasına görə" və "Cəbrayılın işğaldan azad olunmasına görə" medalları ilə təltif edilmiş MAXE əsgər Piriyev Rəhman Novruzxan oğlundan – onun qəhrəmanlıq dastanından səhifələri sizin üçün vərəqləyəcəyəm!

Əmioğlum Rəhman həm də bir müddət əvvəl barəsində qəhrəmanlıq dastanını yazdığım gizir Rauf qazimizin dayısıdır. Atalar misalında "Oğul dayıya oxşayar" deyilib. Rəhmanın atasının, yəni mərhum əmim Novruzun sənəddə adı Novruzxan, soyadı Piriyevdir. Buna baxmayaraq, ömrünün sonuna qədər dost-tanışları onu Novruz kişi kimi tanıyırdılar. Kaş mən onu görə biləydim deməyəcəyəm... Çünki onun əziz ruhu məni görür... Təkcə məni yox, hamımızı görür, uğurlarımızla fəxr edir, sevinir...

Piriyev Rəhman Novruzxan oğlu 15 noyabr 1990-cı ildə Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində anadan olmuşdur. Yağı düşmənlər hələ onun 2 yaşı təzəcə tamam olanda Qarabağı çapıb-talamış, bir çox şəhər və kəndlərimizi işğal etmişdilər.







Körpə Rəhman bu zaman hər şeydən xəbərsiz idi. Sadəcə, nurlu anasının laylalarını eşidərək mışıl-mışıl yatardı... Bilməzdi ki, bundan sonra gecələr təkcə anasının laylasını yox, həm də düşmən bombalarının, mərmilərinin saçdığı dəhşətli səsləri eşidəcəkdi... Bunu haradan bilərdi heç nəyi bilməyən, hələ dil belə açmayan körpə?

Bu cümləni kağıza köçürərkən xalqımızın igid, nəğməli sinəsində min dastan yatan, şəhidliyə qovuşmazdan əvvəl igid şəhid qardaşı düşməndən qisasını almış, qəbri, yurdu azad olunmuş Həsən Qorxmazın bir sözü yadıma düşdü: "Biz istəyirik ki, bundan sonra körpələr mərmi səsinə oyanmasın. Qoy körpələri anaların laylası oyatsın... "

Lakin düşmən bildiyini etməkdə idi... Körpə Rəhmanın hələ 2 yaşının bitməsinə 4 ay qalmışdı... Həmin günlərdə artıq körpə daha çox ağlamağa başlayırdı... Güllə, mərmi səslərindən onun qulağı tutulurdu. Anası nurlu üzü ilə onu nə qədər məftun etsə də, şirin laylası ilə yatırtmağa çalışsa da, şirin sözləri ilə ovundurmağa çalışsa da, körpənin üzü gülmürdü, ovunmurdu... Çətin günlər, güllələr ananın işini də çətinləşdirirdi, balanın gülüşünü isə dodaqlarında dondururdu... Ana çarəsizcəsinə göz yaşlarını gizləyir, çalışırdı ki, balası onun göz yaşlarını görüb daha da narahat olmasın... Hamar ana səhərlərini kədərlərlə açırdı. Televiziyada hər gün çox Şəhid adı çəkilirdi... Torpaqlar işğal edilirdi... Güllə səsləri kəsilmirdi... Fələk ölümlərə, kədərlə, hər cür dəhşətə sinəsini sipər edən Hamar ananı da bir gün ağladacaqdı...

1993-cü ilin iyul ayında fələk ən böyük dəhşətini, işğal dəhşətini sadəcə bir neçə kəndə, o cümlədən də Qiyaməddinli kəndinə saçdı... Ağcabədinin işğal olunmuş, özü də iki dəfə işğal olunmuş tək kəndi olan Yuxarı Qiyaməddinli kəndi də həmin gün erməni işğalına məruz qaldı... Ana balasının yatdığı otaqdan öz Rəhmanını çıxartdı, qaça-qaça, lakin diqqət edərək sonuncu dəfə evə baxdı və evdən çıxdı... Gözündəki yaşları Araz çayı edib bir kəndə səpələyən Hamar ana və hələ heç nəyi dərk etməyən körpəsi Rəhman insanların ölümünə, evlərin yanmasına, düşmənlərin kirli əllərindən nə pis iş gəlirsə hamısını etməsinə ağlaya-ağlaya şahid olurdu... Rəhman güllə səslərindən elə bil düşmənə nərə çəkirmiş kimi dəlicəsinə qışqırıb ağlayır, Hamar ana isə "anan ölsün, körpə bala, səni tankın-topun altında qoyduğu yerdə... " deyib özünü qınayırdı... Ağlamaqdan gözləri yaş tuluğu olmuşdu... Gözləri şişdikcə şişirdi... Hələ heç kəs Hamar ananı belə gözüyaşlı görməmişdi... Novruz kişi də özünü günahlandırırdı... O, düşünürdü ki, Hamarın gözünün yaşla dolmasına imkan verməməliydi...

Novruz kişinin günahı yox idi... Gün işğal günü idi... Gün qara gün idi... Rəhman o gündən, hələ körpə vaxtından düşmənə böyük kin bəslədi özünün körpə qəlbində... Körpəliyinə ağır zərbə vuran o düşmənlərdən Rəhman mütləq, nə vaxtsa qisas alacaqdı...

İllər keçir, Rəhman böyüyür, orta məktəbə daxil olur. Orta məktəbdə biliyə yiyələnərkən o, öz torpağının, öz millətinin neçə əzablardan, əziyyətlərdən keçdiyinin şahidi olur... Qarabağ əziyyətini ruhunda, canında, qanında hiss edir kiçik Rəhman... Yumruğu daha da sıxılır... Ağdamın qonşu Yusifcanlı, Mərzili kəndlərinə, eləcə də düşmən tapdağında olan digər yerlərimizə uzaqdan həsrətlə baxar, bu, onun qəlbini odlara yaxardı... Söz işğaldan düşəndə canından çox sevdiyi Hamar ana ona 1993-cü ildə yaşadıqları dəhşətlərdən danışır... Rəhman qəzəbindən yumruğunu var gücü ilə düşmən başına vuracaq kimi sıxardı... Dili aciz olur hissindən danışmağa... Ürəyindən tək arzunu, fikrindən tək sözü keçirir: "Qarabağ azad olmalı, qisas alınmalıdır!"

Orta məktəbi bitirən Rəhman sonra hərbi xidmətə, kişilik məktəbinə daxil olur. Burada da öz ülvi arzusundan danışır, bir an belə Qarabağını unutmur, Şəhidlərini unutmur... Acılardan keçən bu yolda sonuna qədər addımlamağı üstün tutur! Artıq Rəhman cəngə həmişəkindən daha çox hazırlaşırdı! Bir əsgər kimi, bir ərən kimi hazırlaşırdı Rəhman!

Əsgər xidmətini başa vurub qayıtdıqdan sonra ona ağır bir itki üz verir... Rəhman acılardan keçən yolda bir sarsıdıcı, əvəzolunmaz acıyla da üzləşməli olur... Atası Novruz kişi 2010-cu ildə qəflətən hələ ahıl ikən, gəzdiyi dağların rəngarəng çiçəklərinin təravəti yanaqlarından silinməmiş, içdiyi bulaqların suyunun saflığı, təmizliyi, gücü, qüvvəsi qollarında ikən 57 yaşında vəfat edir... (Beləcə, mənim də arzularımdan biri – Novruz əmimi görmək arzum namümkün olur – müəllif). Evin qaynar ocağına su çilənir... Ev öz müdrikini, öz ağsaqqalını itirir... Bu acı ilə, bu ağrılı hadisə ilə Rəhman heç bir zaman barışmır... Hətta ata yoxluğuna ana dərdi, yoxluğu əlavə olunanda da...

Ata dərdindən, ana dərdindən özünü tez qocalmış, yaşlı kimi hiss edən, ancaq ondan da qoca olan Qarabağ dərdinin üstündən xətt çəkmək, onu azad etmək üçün özünü də güllələrə sipər etmək istəyən Rəhman daha dözmür və MAXE əsgər olmağa qərar verir...

Və qəhrəman əmioğlanlarımın dastanlarının ən əsas nöqtəsinə gəlib çatmışam... VƏTƏN MÜHARİBƏSİ DASTANINA! İki can bir qəlbin, bir-birini qardaş bilən əmioğlularının talelərini birləşdirən bu DASTANA!

27 sentyabr 2020-ci ildə artıq bütün Azərbaycanlıların dadına çatacaq, qəlblərini rahatladacaq və onlara böyük Zəfəri gətirəcək Zəfər Yolu Ali Baş Komandanımızın sadəcə bir, ancaq Türklük durduqca, yaşadıqca yaşayacaq əmri ilə başlayır!!!

Xalq həm əsgərlərimiz üçün narahat olur, həm də torpaqlarımızın azad olunacağına sevinir... Artıq düşmən üçün çıxış yolu yoxdur... Qarabağ mütləq azad olmalıdır, mütləq azad olacaqdır!

Xalqın Zəfəri qeyd etməyi üçün ilk saatlardan hərbçilərimiz Şəhid olur, Qazi olurdular... Tərəddüd belə etmədən Vətən üçün savaşırdılar... Savaşanlardan biri də Elşad və Rəhman idi!

Bu əks-hücum əməliyyatı qisas almağa görə onlar üçün göydəndüşmə bir şans idi! Allah onların dualarını qəbul etmişdi! Onlar Zəfəri çalanlardan biri olacaqdılar! Onlar son damla qana qədər döyüşəcək və Qisas alacaqdılar!

Bu şansı verdiyinə görə onlar Allaha Şükür edirdilər! Və ümidləri doğruldacaqlarına, Qarabağı azad edəcəklərinə and içirdilər!





O vaxtları yaxşı xatırlayıram. Unuda da bilmərəm. Elşadın özündən böyük, qayğıkeş, vətənsevər, mehriban bacısı, mənim əmimin qızı, həm də özümə böyük bacı bildiyim Elnurə xanım Elşadın Vətən müharibəsindən çox-çox əvvəlki şəklini öz səhifəsində paylaşmış və ona, eləcə də bütün əsgərlərimizə müqəddəs savaşda uğurlar arzulamışdı. Ondan bildik ki, Elşad artıq müharibədədir, düşməndən qisas almaq üçün savaşır... Dil aciz qaldı söz deməyə... Qürurdan bilmədik nə edək... O qədər sevinirdik ki... Və təbii ki, uğurlar da arzulayırdıq!.. Allah onu, onları qorusun dedik, Allah onu, onları qorudu! Şükür İlahiyə!

Sonra isə Rəhmanın müharibədə olduğunu öyrəndik... Sonra isə Rauf Qazimizin... Ürəyimdə o qədər sözlərim var idi ki... Onların hamısını bir söz əvəz edirdi: "Novruz əmimin ruhu şaddır, şükür!"

Biz öz evlərimizə çəkilib Allaha dualar edəndə, bəzən narahat, bəzən rahat olanda, onlar bizim rahat olmağımız, Vətənin narahat qalmaması üçün canlarından keçməyə hazır idilər... Onlar özlərini hər şeyə hazır edirdilər... Son damla qanlarına qədər vuruşacaqdılar... Yaranı-xəsarəti heç saymırdılar belə... Təbii ki, ölümün gözünə də dik baxırdılar! Qorxunu qorxudur, ölümü öldürürdülər! Azərbaycan aslanları belə aslanlar idilər!

Elşad və Rəhmanın döyüş yolu Xocavənddən, Füzulidən, Cəbrayıldan və digər azad edilmiş torpaqlardan keçdi Hadruta qədər... Çoxlu Şəhidlərimizin nurlu nəşlərini görüb ürəkləri dağlansa da, Hadrutun yaxında olduğunu, göz ilə görülən olduğunu bilib sevinirdilər... Ürəklərinin yanan yerinə azad edilmiş vətən torpağının bumbuz bulaqlarının suyu səpilirdi... Sonuna qədər Allaha şükür edirdilər ki, onlara bu müqəddəs yolu açıb, Vətən torpaqlarını işğaldan azad etmək yolunu! Onların bu sahədə tarix yazması Allahın izni və Prezidentin bir əmri ilə başladı...

Elşad ilə Rəhman fikirləşirdilər ki, ailəmiz bizdən narahat qalsa da olar... Əsas odur ki, Vətən nigaran qalmasın... Biz cansız olsaq da olar... Əsas odur ki, Vətən Qarabağsız qalmasın... Biz Vətəni qucaqlaya bilməsək də olar... Vətən bizi bayrağa büləyib, müqəddəs qoynuna alıb ana balasını qucaqlayan kimi qucaqlayar... Biz Şəhid oluruqsa, olaq, təki Vətən sağ olsun!..

Və artıq əmr verilmişdi... Növbəti zəfər Hadrutun, Xocavəndin, yurdun zəfəri idi! Hadrutda döyüş olmalı idi. Elşad və Rəhman öz döyüş yoldaşlarına sonuncu dəfə baxırmış kimi baxdılar və həyatlarının çıxışını etdilər:

*– Uşaqlar, artıq Hadruta çatmışıq... Hadrut bilirsiniz ki, düşmənin ən böyük itkilərindən biri olacaq... Çünki düşmənlər öz qüvvələrini və əhalini ən çox Hadruta yerləşdirmişlər. Sovet dönəmində də, indi də belə olub. Dinc əhalini döyüş gedən əraziyə məcburi yerləşdirməklə öz məkrli planlarını beynəlxalq ictimaiyyətə başqa formada çatdırmaq istəyir hiyləgər düşmən. Ancaq əlisilahlılar hamısı tülkü kimi qorxub qaçırlar. Ona görə də dinc sakinlərə qarşı həddən artıq diqqətli olmalıyıq. Hadrutda əsgərlər də çoxdur. Onlar bizim qarşımızda davam gətirə bilməz, onların gücü yalnız köməksiz qocalara, uşaqlara, qadınlara çatar. Onları iti qovan kimi qovacağıq! Sizdən xahiş edirəm ki, sona qədər, son damla qanınıza qədər vuruşasınız, bilirəm ki, hər biriniz qisas üçün can atırsınız! Ölümün gözünə dik baxırsınız və ölümü gözə almısınız! Əsl Türk ərəni, Türk əsgəri kimi vuruşacaqsınız! Yaraları, ölümü heç bir şey kimi biləcəksiniz! Ən şərəfli*

*ölüm Şəhidlikdir! Şəhidlik isə bizə nəsib ola da bilər, olmaya da, bu ilahi qismətdir...*

Elşad belə deyirdi:

*– Mən Şəhid olsam, uşaqlarıma deyərsiniz ki, gözünüz yollarda qalmasın, atanızı yox bilməyin, o, hər an sizin yanınızda olacaq... Mələk kimi sizin çevrənizdə duracaq... Hiss etməsəniz də, o, var olacaq... Göylərdə... Biz medal üçün vuruşmuruq, biz rütbə, vəzifə üçün vuruşmuruq, biz Zəfər üçün, Vətən uğrunda vuruşuruq və Şəhid ola da bilərik, olmaya da! Təki Vətən sağ olsun!*

Rəhman isə belə deyirdi:

*– Mən Şəhid olsam, xahiş edirəm ki, ağlamayasınız... Sona qədər vuruşasınız! Dəfn ediləndə ağlayan olsa ucadan deyərsiniz ki, "Şəhidimiz üçün Ağlamayın! Əgər ağlasanız, Rəhmanın ruhu heç vaxt şad olmayacaq!" Bir də özünüz də ağlamayın... Bu, hadisə qarşısında dik durun! Bilin ki, mən canımdan çox sevdiyim bayrağıma büküləcəyəm, canımdan çox sevdiyim vətən məni öz qoynuna alacaq, çoxdan həsrətində olduğum sevimli atama və anama qovuşacağam!*

Və döyüş başladı! Elşadın da, Rəhmanın da vətən torpaqlarınm düşmən tapdağından azad edilməsi eşqi ilə çırpınan ürəkləri bu eşqlə daha da şiddətlə döyünərək, köksləri qabararaq var gücləri ilə döyüşür, şücaətlərini, qəhrəmanlıqlarını göstərirdilər! Artıq Rəhmanın da, Elşadın da gözündən işğal kadrları silinmişdi! Bundan sonra Zəfər var idi! Gün Zəfər günüdür! Gün Qarabağ günüdür!

Sonda isə onlar Xocavəndin bir hissəsini, o cümlədən Hadrut qəsəbəsini azad edərək düşməni arxadan yox, öndən, düşmənin BAŞINDAN(!) vurdular! Onlar böyük qəhrəmanlıq göstərdilər! Əsl ərən kimi, əsl Türk oğlu kimi döyüşdülər və ulularımızın ruhlarını şad etdilər!

Biz də hər dəfə Elşad ilə, Rəhman ilə telefonla əlaqə saxlayır, bir daha qürur duyur, bir daha fəxr edirdik... Zəfərin səsini onlardan, onların əsgər yoldaşlarından eşidirdik...

Və sonda, Zəfər çalındı! 8 noyabr Azərbaycanın "can" dediyi musiqi beşiyi Şuşa şəhəri azad oldu! Azərbaycan heç bu qədər sevinməmişdi! Dünya Azərbaycanlılarının, Türk dünyasının, Azərbaycan dünyasının gözü aydın oldu! 10 noyabrda qazanılmış Böyük Zəfərdən 5 gün sonra Rəhman da öz ad gününü böyük fəxrlə, ürək açıqlığı ilə qeyd etdi! Rəhman da ad gününü bu qədər fəxrlə qeyd etməmişdi heç vaxt ...

25 dekabr 2020-ci ildə isə onlar, o Ərən Qəhrəmanlar – MAXE əsgər Əliyev Elşad Hümbət oğlu "Füzulinin azad olunmasına görə" medalı ilə, MAXE əsgər Piriyev Rəhman Novruzxan oğlu isə "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi!

Həmin gün mən o qədər sevindim ki... Sevincimdən quş kimi uçub, sanki Qarabağda, Şuşada, Cıdır düzündə yallı gedirdim... 3 ay içərisində min qat olan sevincim daha da yüksəldi... Özümü göyün yeddinci qatında hiss etdim...

O gözəl məlumatı oxuduğum an – yəni 26 dekabra keçən gecə, saat 1-ə işləmiş mən Rəhmanın atası, çox sevdiyim, mərhum əmim Novruzun şəklinə baxdım, onun gözündəki nurun bir daha seyrinə durdum və onunla sevdiyi yarı, nurlu ana Hamar bibimin ruhuna müraciət etdim:





"Hamar bibim! Novruz əmim! Canınızdan çox sevdiyiniz sonbeşik oğlunuz Rəhmanın indi şad günüdür! Hələ beşikdə olarkən körpənizi, Rəhmanınızı qəddarlıqla qovmuş ermənilər indi Sizin cəsur Rəhmanınız məhv etmiş, iti qovan kimi torpaqlarımızdan qovmuş, torpaqlarımız azad edilmişdir! İnnən belə həmişə ruhunuz şad ola! Dərddən, qəmdən azad ola! Bu gözəl xəbər mənim Sizlərə olan həsrətimi azaltdı, elə bildim, buradasınız, bizimlə bir yerdəsiniz, danışırsınız, gülürsünüz, yallı gedirsiniz, ey mənim dünyaya gəlməyimi arzulayıb, arzusu çin olduqda isə qurban kəsən Novruz əmim! Ey eşitməsəm də, şirin sözlərlə məni əzizləyən Hamar bibim! Sizin ruhunuza səslənirəm! Ruhunuz şad olsun!"

Mən təkcə əmioğlularımla, o qəhrəmanlarla yox, Qarabağı azad edən, bu müqəddəs arzumuzun həyata keçirilməsi yolunda azacıq da olsa payı olan bütün ərənlərlə, Qazilərlə, Şəhidlərlə fəxr edirəm!

Hazırda düşmənlə üz-üzə dayanmış bütün əsgərlərimizə, o cümlədən əmioğlularıma bu müqəddəs vəzifələrinin icrasında uğurlar arzulayıram.

Qarabağlı günlərimiz daimi, əbədi olsun! Amin!

26.12.2020

*"Kredo" qəzeti, 03.02.2021*

## ŞƏHİDLİK ELƏ BİR ALİ MƏQAMDIR Kİ...



*Şəhid İlqar Vüqar oğlu Burcəliyevin əziz xatirəsinə həsr olunmuşdur. (11.03.2001-ci il Rusiya Federasiyası, Moskva şəhəri-28.09.2020-ci il Tərtər rayon, Suqovuşan qəsəbəsi)*

***Şəhidin anım günündə onlayn keçirilən tədbirdə çıxışım***

Hörmətli tədbir iştirakçıları! Şəhidlik elə bir ali məqamdır ki, bu məqam hər insana nəsib olmur. 100 il yaşayarsan, 100-cü yaşında dünyanı dəyişərsən. Şərəfli yaşasan belə, sadəcə dünyanı dəyişərsən. Ancaq, 19 il yaşayarsan, ömür kitabının 19-cu səhifəsində tufanlardan keçərsən, hər kəsin keçmədiyi Zəfər Yolunda irəliləyərsən və yenə hər kəsin qalxmadığı Şəhidlik Zirvəsinə qalxarsan, dünyanı cənnətlə dəyişərsən... 100 il yaşayan və dünyasını dəyişən şəxs cənnət və ya cəhənnəm üçün sorğu-sual olunur, ancaq, Şəhidlər sorğu-sualsız cənnətin ən gözəl guşəsinə qonaq edilir. Onları sorğu-sual etməyə ehtiyac qalmır. Onlar əvvəldən sorğulanaraq sual edilib ki, hazırsanmı vətənin, dinin, imanın uğrunda Şəhadətə? Onlar da razı olublar və canı-könüldən Zəfər Yolunu keçərək Şəhidlik Yoluna irəliləyiblər.

Gəncliyindən, arzularından, sevənlərindən doyan, haqq savaşından doymayan neçə-neçə gənclərimizdən sadəcə biri idi İlqar Burcəliyev... O, hər kəsin edə bilmədiyini etdi... İsti ocağını asanlıqla soyuq, palçıqlı səngərə dəyişdi, soyuq səngərini də amalı uğrunda bir göz qırpımında Şəhidliyə dəyişdi...

Həyat romanını 19-cu səhifəsində bitirib yeni bir tarix yazan Şəhidimiz İlqar Vüqar oğlu Burcəliyev 11 mart 2001-ci ildə Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində Vüqar Burcəliyevin və Elnurə Burcəliyevanın ailəsində dünyaya göz açmışdı. Onun nəinki Gəncədə, bütün Azərbaycanda ad qazanmış bir ailəsi var idi. O, görkəmli aktyorumuz Məmməd Burcəliyevin və həyat yoldaşı, aktrisa Sədayə Mustafayevanın nəvəsi idi. Doğma əmisi də teatrşünas Anar Burcəliyev idi. İlqar bu ailədə dünyaya göz açmış, bu mədəniyyət ocağında yetkinləşmişdi.

Balaca İlqar 2007-ci ildə Xırdalan şəhər 2 nömrəli tam orta məktəbdə ilk təhsil almağa başlamışdır. 2009-cu ildə Yasamal rayon 308 nömrəli tam orta məktəbdə, 2017-ci ildə Gəncə şəhər 38 nömrəli tam orta məktəbdə, 2018-ci ildə isə yenidən Yasamal rayon 308 nömrəli tam orta məktəbdə təhsilini davam etdirmişdir.

Bu mədəniyyət ocağında yetişən, boya-başa çatan İlqarın da artıq bır peşəyə həvəsi var idi. Futbolçu olmaq onun arzusu idi. Bu arzusuna tez də nail olmuşdu İlqar. O, futbolçuluq karyerasına 2014-cü ildə "Vətən" FK-da başlamışdır. 2016-cı ildə əvvəlcə Gəncənin "Kəpəz", "Zirə"nin isə eyniadlı FK-da futbolçuluq karyerasının uğurlarını qazanırdı.

Vaxt su kimi axıb gedir və İlqarın ən əsas arzusu gerçəkləşir. Şanlı Vətəni müdafiə, mühafizə etmək, qorumaq və Şanlı Vətənin bir əsgəri olmaq arzusu... İlqar böyük sevgi və həvəslə Şanlı Vətənin əsgəri olaraq hərbi xidmət keçir. Hərbi xidmətində də fəal olur, uğurlarının sayını artırmaqda davam edir.

İlqar bilirdi ki, artıq düşmən qudurub, istəyir ki, Azərbaycan yenə 30 il əvvəlki kimi qara buludların hədəfi olsun. Düşmənə hiddətlənən, onun dərsini vermək üçün yeni bir döyüş, müharibə istəyən, coşan-daşan İlqar Qarabağı azad etməyə hər an hazır idi. Lakin İlqar hücum əmrinin verilmə vaxtını gözləyirdi.

27 sentyabr 2020-ci il. Azərbaycanın yenilməz olduğundan xəbəri olmayan, dırnaqarası ağılları 30 il əvvəldə qalan düşmən Azərbaycana hücum etməyə cəhd göstərdi. Bir çırtmaya yatmış nəhəng oyandı və Şanlı Azərbaycan əsgəri Qarabağın azadlığını gerçəkləşdirməyə, "Dəmir Yumruq" əməliyyatını həyata keçirməyə başladı. 4 ayın əsgərindən Birinci Qarabağ müharibəsini də görmüş veterana qədər hər əsgər, hər zabit bu müqəddəs amal uğrunda zəfər, ölüm-dirim savaşına can atırdı. İlqar da vətən, amal yolunda ölümü gözə alan, Şəhidliyi çağıran aslanlardan biri idi. Madagizi Suqovuşan etmək üçün son damla qanına qədər vuruşurdu İlqar. Onun tək amalı düşməndən qisas alıb sonra Şəhidlik zirvəsinə yüksəlmək idi...

İlqar Burcəliyev Şanlı Zəfər yolunu başladanlardan oldu, lakin, qisasını ərənlərinə əmanət edərək 28 sentyabr 2020-ci ildə ömrünün 19-cu səhifəsini bitirdi və qanı ilə şanlı tarix yazdı... Şəhidlik Zirvəsinə ucaldı.

İlqar Burcəliyevin keçdiyi 1 günlük döyüş yolu nə qədər qısa olsa da mənaca dərin





və bitib-tükənməz olduğundan neçə-neçə dastanlara sığmaz. O bircə gün onu Vətən Müharibəsinin Qəhrəmanlarından biri etməyə bəs etdi. İlqar Burcəliyev 19 yaşlı, yaşı dəyişməyən, həmişəcavan və Qəhrəman bir Şəhid kimi nəinki Gəncənin, bütün Azərbaycanın, dünya Azərbaycanlılarının, türk dünyasının fəxri olaraq qalacaq! Bu, dünya durduqca duracaq, anılacaq, yaşayacaq, yaşadılacaq.!

Allah bütün Şəhidlərimizə rəhmət eləsin! Amin!

*11.03.2021.*

## GERİ QAYIDARAM, ŞÜBHƏN OLMASIN!



*Şəhid əsgər Nazim Əfqan oğlu İsmayılovun nurlu xatirəsinə həsr olunub. (1996-cı il Ağstafa rayonu Kolxəlfəli kəndi-16.07.2020-ci il Tovuz rayonu)*

*-Salam, ay oğlum, necəsən? Özünü necə hiss edirsən?*

*-Salam, anacan, yaxşıyam, narahat olma.*

*-Anan qurban, deyir oralarda vəziyyət pisdir ey, ermənilər atırlar. Yaxşı olduğunu düz deyirsən, yoxsa, burada nigarançılıqdan qovrulub-yanım mən?*

*-Heç elə şeymi olar ana? Mən heç sənə yalan deyərəmmi? Yaxşıyam, sən narahat olma. Bu gün dığaların cavabını vermişik. Səhər yenə atsalar o dığaların cavabını yenə də layiqincə verəcəyik. Kül edəcəyik onların bütün qərargahlarını. İndi zəhmət olmasa telefonu bacıma ver, ona sözüm var.*

*-Hə, Nazim. Eşidirəm.*

*-Bacı, 11 şəhid vermişik, nəbadə anama deyəsən ha, sənə deyirəm. Desən məndən çox nigaran qalar. Amma bircə demə ki, anam bu barədə televizordan eşidib.*

*-Yox, Nazim. Televizoru açmamışıq. Axı, Ağstafadan şəhidimiz var. Bilirsən də, adətdir bizdə, belə hallarda televizoru açmırıq. Orada sən bizdən narahat qalma, fikrini dağıtma, düşmənə qarşı amansız ol, şəhidlərimizin qisasını o yolunu azmışlardan alın. Yaxşımı?*

*-Xatircəm ol, bacı. Siz də narahat qalmayın. Onda rahat döyüşərəm, düşmənin nəfəsini kəsib geri qayıdaram İnşaAllah, şübhəniz olmasın!*

Deyəsən bu son zəng idi... Şəhid Nazim İsmayılovun son zəngi...

Onun şəhid olması xəbərini eşidəndə heç inana bilmirdim. Çünki, əvvəlki gün 11 nəfər vətən mücahidinin şəhid olması xəbəri məni sarsıtmışdı, bunun ardınca yenə də bir evdən gələn ana fəryadı... Yenəmi bir ev də viranə qaldı ana fəryadı ilə? Yenəmi? Axı... Niyə belə olur axı? Niyə bunu Azərbaycan qadınına rəva bilirlər? Yox... Azər-

baycan qadını yad, yağı yanında fəryad etməyən, baş əyməyən Türk qadınıdır, qürurlu, məğrur anadır...

Qardaş Türkiyə Respublikasının TRT 1 kanalında düz 5 il mövsüm fasilələri ilə yayımlanan "Diriliş:Ərtoğrul" serialının sonuncu mövsümündə Ərtoğrul bəyin qardaşı Gündoğdu bəyin arvadı Səlcan xatun da oğlunu çətin səfərə yola salandan sonra oğlundan nigaran qalır... Axı, onun oğlu neçə illər davam edən arzudan sonra doğulmuşdu, dünyaya gəlmişdi. Səlcan xatun ona görə olmazın əzablar çəkmiş, necə deyərlər gözü ilə od götürmüş, oğlunu asanlıqla əldə etməmişdi. Elə bilirdi ki, bu zillətin, əzab-əziyyətin qarşısında oğluna namərd silahı zərər yetirə bilməz, ilahi qüvvə onu bəlalardan hifz edər. Ona görə də baba adı daşıyan oğlu Süleyman barədə başındakı pis düşüncələri qovmaq istəyirdi.

Lakin, dünyanın çarxı... bəxt... tale... Günün günorta çağı namərd pusqusundan düşən şəhid atəşi, Süleymanının şəhid olması Səlcanın evini, xanimanını yandırıb- yaxır. Halını pərişan eləyir. O, dözmür, fəryad edib ağlaya-ağlaya Süleymanı hansı çətinliklərlə qazanıb necə böyütdüyü günləri yadına salır... Dizinə döyə-döyə göz yaşını və yolduğu saçlarını oğlunun nəşi üzərinə səpir. Oğlu yolunda süpürgə etdiyi saçlarını və okeanı belə daşdıracaq göz yaşlarını...

O vaxta qədər ki... Dəfnin olduğu yerdə özünü Bəybolat bəy kimi təqdim edən və Səlcan xatunun oğlu Süleymanın da qatili olan, millətinə, dövlətinə, nəslinə, soyuna xəyanət etməklə monqol quldurlarına xidmət göstərən "Albastı" adlı monqol əlaltısı gəlir. Onda Səlcan xatun hər şeydən duyuq düşürmüş kimi gözyaşlarını gizlədir. Və intiqam istəyən baxışları ilə Albastıya baxır... Oğlunun gözünə, dilinə, onun özünün isə ürəyinə dağ çəkmiş Albastıya...

Eyni intiqam baxışları ilə çox ana baxdı ermənilərin murdar sifətinə... Hətta, təkcə analar baxmadı bu murdar sifətlərə, uşaqlar da baxdı... İnanın, şəhid Elşad Məmmədovun 7 aylıq körpəsinin baxışlarında elə bil ki, Qarabağın xəritəsini görürdüm. Mən o baxışla onun böyüyəcəyini, əsgər olacağını və yanındakı əsgərləri ilə Qarabağın xəritəsinə baxacağını, xəritədəki kimi birləşmiş, bütöv Azərbaycanı görürdüm... Və Koroğlu kimi bir dəli nərə çəkərək bunu deyəcəyini bilirdim: "Ya Qarabağ Ya Ölüm! Başqa yolu yox artıq!"

Tovuz ətrafında düşmən təxribatı zamanı şəhid olanlar barədə eşidəndən sonra onlar barədə düşünərkən gecə ağlıma bu misralar gəldi:

*Mənim könlüm ağlayar ağlayanla birlikdə,*
*Qarabağda qaralar bağlayanla birlikdə...*
*Tovuzumda qaralar bağlayanla birlikdə...*
*Vətənimdə qaralar bağlayanla birlikdə...*

İnanın, Nazim İsmayılovun şəhid olması xəbərini özüm də bilmədən ürək yanğısı ilə ağzımdan qaçırdaraq anama dedim... Anam çox pis oldu... Çünki, onun rəhmətlik qardaşı, dayım Mütalib Həsənovun oğlu Saleh də Tovuzda xidmətdə idi... Özü də Dondar Quşçuda artilleriya bölüyündə xidmət edirdi... Əsgərlikdən qayıtmağına çox az qalmışdı. Hər gün onunla əlaqə yaratsaq da çox narahat olurduq. İndiki vaxtda hər bir şəhid, hər bir yaralı xəbəri bizim ürəyimizə qasırğa kimi dolurdu. "Allah dayımın ruhunun





dualarını eşitsin!" deyirdim. Çünki, dayıoğlu Saleh həm də ana babamın adını daşıyır... Saleh yanvarda əsgərliyə getdi. Dayım həmin ilin iyununda vəfat etdi. Salehin dayımın dəfnində iştirak etmək imkanı da olmadı, ilində də ola bilmədi. Dayımın vəfatının ildönümündən bir ay keçməmiş isə Tovuz istiqamətində erməni təxribatı başladı...

Salehin xidmət etdiyi artilleriya bölüyünün komandiri polkovnik İlqar Mirzəyev də şəhid olmuşdu... özü də generalı Polad Həşimovla birlikdə... İnanırsınız, o xəbəri eşidən kimi hansı hissləri yaşadığımızı bilmədik... Həyəcandan tər bizi bürümüşdü. Bilmirdik nə edək, necə edək. Mən anamı sakitləşdirməyə çalışırdım, lakin özüm də sakitləşə bilmirdim. Bu təkcə Salehə görə deyildi, bu, şəhid olmuş Azərbaycan övladlarına, vətən övladlarına, can qardaşlarıma görə idi.

Son aldığımız məlumatlara görə Saleh sağdır, Allah Mütalib dayımın ruhunun dualarını eşidib, təki elə digər vətən oğullarına görə də olunan dualarımızı Allahım eşidəydi, onlar da şəhid olmayaydı. Ancaq hər kəsin bir tale payı var və hər kəs öz qismətini, taleyini yaşayır, digər tərəfdən isə şəhid olmaqdan müqəddəs, ali nə var ki?.

Tovuz bölgəsindəki sonuncu şəhidimizin hansı kəndin müdafiəsi zamanı səhidlik zirvəsinə ucaldığını bilmirdim. Bununla belə Dondar Quşçuda olduğunu desəydim, anam yenə də çox narahat olacaqdı. Ona görə də, yanıltmaq üçün həmin vətən oğlunun Ağdam kəndində şəhid olduğunu bildirdim. Anam isə belə dedi:

*-Nə fərqi var... Ağdam kəndində olub, Dondar Quşçuda olub, Vahidlidə olub... Yenə də anası fəryad edir, bütün Azərbaycan fəryad edir şəhid övladı üçün...*

*Ağzımdan qaçırdığım xəbəri düzəltmək üçün gizlətməyə çalışdım:*

*-Anacan, haradan bilirsən, bəlkə, dezinformasiyaçılar yenə də hərəkətə keçib? Həm də nə bilirsən, sadəcə, sosial şəbəkələrdə yazılıb. Əsas Müdafiə Nazirliyinin məlumatı təsdiqləməsidir. Hələ ki təsdiqləməyib, İnşəAllah təsdiqləməz.*

*-İnşəAllah!...*

Anamın ürəyi az da olsa sakitləşdi, qardaşı oğlu və digər Azərbaycan oğulları üçün... O da var idi ki, general Polad Həşimovun şəhadətə qovuşma xəbərini də sosial şəbəkələrdən eşitmişdik. Nə bilim...

Və bir neçə saat sonra... Həmin xəbər təsdiqləndi. Əlim-ayağım yerdən üzüldü. Bu xəbər beynimdə yeni bir sözü də təkrarlatdı: "Nazim İsmayılov... Kədərimiz... Vüqarımız... Qürur yerimiz..."

Bu döyüşlərdə Ağstafa 3 şəhid verdi!... Hər bir şəhidimiz hər Ağstafalının, hər bir azərbaycanlının qürurudur. Ağstafa 2020-ci ilin "Şəhidlər şəhəri" oldu! Ağstafanın kədəri çoxdur, qüruru isə kədərindən də çoxdur və çox olmalıdır!

Şəhid Namiq Əhmədovun doğulduğu Qazağın və bütün Azərbaycanın fəxri olan Səməd Vurğunun gözəl bir misrasını yazmaq yerinə düşər:

*Ölüm sevinməsin qoy... ömrünü verməz bada,*
*El qədrini canından daha əziz bilənlər.*
*Şirin bir xatirətək qalacaqdır dünyada,*
*Sevərək yaşayanlar... Sevilərək ölənlər...*

Şairin şeirinə düzəliş kimi qəbul edilməsin. Məncə "Sevilərək ölənlər" yox, "Vətəni sevərək, Vətəni tərəfindən sevilərək şəhidlik zirvəsinə ucalanlar"...

Hamımız bilirik ki, həqiqətən də, Şəhidlik əbədiyaşarlıqdır, ölüm deyil.

Bu bəndin ilk misrası beynimdə əks-sədasını verdi. Ölüm sevinməsin qoy... Ölüm sevinməməlidir. Şəhid sevinməlidir! Çünki ən ali mərtəbəni fəth edib!

Mənim qəlbimdə əbədi yaşayacaq, ürək sirdaşlarım, qardaşlarım olan Şəhidlərimizə Səməd Vurğunun həmin "Ölüm sevinməsin qoy..." şeirinin misralarını həsr edir və bu yazını tamamlayıram:

*"Mən bu kiçik şeiri yazıram göz yaşımla,*
*Çünki vidalaşıram öz ürək sirdaşımla...*
*Şəhidlər ölməyiblər,qəlblərdə yaşayırlar,*
*Şəhid olanlar ölmür, onlar əbədi yaşar."*

*20.07.2020 .*

## ŞUŞA DƏRDİNƏ DƏRMAN OLAN QƏHRƏMAN



*Şəhid Rasim Yaqub oğlu Abdullayevin nurlu xatirəsinə (21.02.1975-ci il Kəlbəcər rayonu, Birinci Milli kəndi-10.11.2020-ci il Xocalı rayonu, Çanaqçı kəndi)*

Azərbaycanın əzəldən başı bəlalar görüb, bədxahların məkrli planına əsasən bu ölkənin məzlum, məğrur sakinləri 200-dən artıq il ərzində dəfələrlə haqsızlığa və ədalətsizliyə tuş gəlmiş, heç bir əsas olmadan öz dədə-baba yurdundan qovulmuş, didərgin düşmüş, qəriblik həyatı yaşamışlar. Tarixi vərəqləmək olar, ancaq mən son hadisələrdən söz açmaq istəyirəm. Keçən il başlayıb bitməsinə rəğmən, min il keçsə belə, yaddaşlardan silinməyən, son 200-dən çox ildə ilk dəfə qələbəmiz və əsrlərlə itirilmiş torpaqlarımızın azad edilməsi ilə nəticələnən Vətən müharibəsi son didərginliyimiz, dərdimiz olan Böyük Qarabağ dərdini də şükürlər olsun ki, qəlbimizdən silib apardı. Bir dərd silindisə də, can dərdlərimiz qaldı. 2881 gənc şəhid, neçə-neçə itkinlərimizin dərdi buna misaldır. Onlar Azərbaycanın yaralı qəlbinin dərdinə dəva oldular, xalqımızın yüz illərlə gözlədiyi arzı gerçəkləşdirdilər, Dəmir Yumruq olub Zəfəri əldə etdilər... Biz Qarabağlı, Şuşalıyıqsa, o 2881 Can sayəsindədir...

Həmin canlardan biri də öz dərdinə dəva axtarırdı, təbib olsa belə... Acısını kağıza





köçürüb, cansız kağızı şeirlərinin, acılarının məskəni etmişdi... Şeirlə dərdini, acısını bölüşürdü. Həssas ürəyi var idi. Onun ailəsini, dədə-babasını düz 2 dəfə yurdundan didərgin salmışdılar. Dərələyəzdəki deportasiyadan sonra min ümidlə Kəlbəcərə köçən Abdullayevlər ailəsi bu məskəndən də qovulmuşdular. Lakin Rasim Qarabağa qayıdışımızı gerçəkləşdirdi, ailəsinin qaçqın damğasını sildi. O, könüllərimizi sağaldıb içində qızıldan taxt quran, canı, qanı bahasına canlar xilas edən, sonuncu dəfə gözünü Şuşada yuman və bir daha açmayan Qəhrəman Şəhid polkovnik-leytenant Rasim Abdullayevdir!..



Rasim Yaqub oğlu Abdullayev 1975-ci il fevralın 21-də Kəlbəcər rayonunun Birinci Milli kəndində Yaqub Abdullayev və Nübar Qasımovanın ailəsində anadan olub. Onun nəsli 1918-ci ilə qədər Dərələyəzdə məskunlaşmış, 1918-ci ildə ermənilər tərəfindən Azərbaycan türklərinin kütləvi şəkildə qovulması zamanı yurdlarından didərgin düşərək Kəlbəcər rayonunun Birinci Milli kəndində məskunlaşmışlar. Rasim Abdullayevin ailəsində 7 nəfər olub – özü, atası Yaqub, anası Nübar, qardaşı Əvəz və bacıları Yeganə, Aybəniz, Əntiqə.

Rasim Abdullayev 1982-ci ildə Kəlbəcər rayon Birinci Milli kənd tam orta məktəbinin birinci sinfinə qəbul olmuşdur və 1990-cı ilə qədər orada təhsil almışdır. Keçən əsrin 80-ci illərinin sonu, 90-cı illərin əvvəli Ermənistanın Qarabağla bağlı torpaq iddiaları nəticəsində Azərbaycanla Ermənistan arasında qarşıdurma – Birinci Qarabağ müharibəsi başlayır. Müharibənin yeni-yeni alovlandığı 1990-cı ildə Rasim Kəlbəcər şəhər 1 saylı tam orta məktəbdə təhsilini davam etdirmişdir. Müharibənin ən qızğın vaxtları olan 1992-ci ildə Rasim məktəbi bitirərək Azərbaycan Tibb Universitetinə qəbul olmuşdur. Kəlbəcər işğal olunan zaman Rasim universitet tələbəsi idi. 1998-ci ildə ATU-dan məzun olan Rasim Abdullayev 2000-ci ilə qədər Sumqayıt şəhər 1 nömrəli xəstəxanasında interna keçmişdir.

Sumqayıt şəhər 1 nömrəli xəstəxanasında interna keçdikdən sonra 2000-ci ildə könüllü olaraq Azərbaycan Silahlı Qüvvələrinin tibb xidmətində hərbi tibb qulluqçusu kimi xidmətə başlamışdır.

İlk xidməti 2000-ci ildə Füzuli rayonu ərazisində yerləşən Əhmədbəyli hospitalında olmuşdur. 2005-ci ilədək bu hospitalda xidmət etdikdən sonra o, 2005–2015-ci illərdə Mərkəzi Hərbi Poliklinikada terapiya şöbəsində müxtəlif vəzifələri, o cümlədən, şöbə rəisi vəzifəsini yerinə yetirmişdir. 2010-cu ildə 10 illik qüsursuz xidməti dəyərləndirilmiş və Müdafiə Nazirinin müvafiq əmrinə əsasən "Qüsursuz xidmətə görə 3-cü dərəcəli" medalı ilə təltif edilmişdir. 2015-ci ildə 15 illik qüsursuz xidməti dəyərləndirilmiş və o, Müdafiə Nazirinin müvafiq əmrinə əsasən "Qüsursuz xidmətə görə 2-ci dərəcəli" medalı ilə təltif edilmişdir. 2015-ci ildən 2016-cı ilin sonunadək o, Gəncədə yerləşən

hərbi poliklinikada rəis vəzifəsində çalışmışdır.

2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin bölmələri arasında cəbhənin Tərtər, Cəbrayıl və Füzuli istiqamətlərində şiddətli döyüşlər başlamışdı. Tarixə "Aprel döyüşləri" kimi yazılan hərbi əməliyyatlar zamanı Rasim Abdullayev hərbi tibb qulluqçusu və Gəncə Hərbi Poliklinikasının rəisi olaraq qoşulmuşdu. O, döyüşün qızğın nöqtələrində qalan yaralı zabitlərə yerindəcə tibbi yardım göstərdi. Bu xidmətlərdən sonra 2016-cı ilin sonları, 2017-ci ilin əvvəlləri onun iş yeri dəyişdirilmiş və Rasim Abdullayev Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində tibb xidməti rəisi vəzifəsinə təyin olunmuşdur.

2020-ci ilin əvvəllərinə qədər bu vəzifəni yerinə yetirən Rasim Abdullayev son vəzifəsinə – Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində tibb bölüyünün komandiri vəzifəsinə təyin olunmuş və Vətən müharibəsi başlayana qədər bu vəzifəni yerinə yetirmişdir.



2020-ci il sentyabrın 27-də səhər saat 06:00 radələrində Ermənistan Silahlı Qüvvələrinin bölmələri tərəfindən genişmiqyaslı təxribat törədilmişdir və cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqeləri və yaşayış məntəqələri iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutulmuş, nəticədə ölənlər və yaralananlar olmuşdur. Bu barədə məlumat Azərbaycan Prezidenti İlham Əliyevə məruzə ediləndən sonra səhər saatlarında Ermənistan Silahlı Qüvvələrinin döyüş fəaliyyətinin qarşısını almaq məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin Komandanlığı tərəfindən cəbhəboyu zonada hücum əməliyyatlarının başlaması barədə qərar verilmişdir.

Qarabağ münaqişəsi tarixinə münaqişəyə son qoyan Vətən müharibəsi kimi yazılan bu hərbi əməliyyatlar zamanı polkovnik-leytenant Rasim Abdullayev "N" saylı hərbi hissənin tibb bölüyünün komandiri idi. O, Hadrut istiqamətində gedən döyüşlərin ən qızğın nöqtələrində qalmaqla yaralılara yerindəcə tibbi yardım göstərirdi. O, Şəhid olduğu günə, yəni Vətən müharibəsinin son gününə qədər 100-dən çox yaralıya döyüş meydanındaca tibbi yardım göstərmişdi. Həmçinin, Rasim Abdullayev qarşı tərəfin işğalından yeni-yeni azad olunan təhlükəli ərazilərə gedir, oradakı yaralılara tibbi yardım göstərirdi.

Ailəsi ilə canlı olaraq 26 sentyabrda, telefonla isə 9 noyabrda sonuncu dəfə əlaqə saxlamışdır.

Rasim Abdullayevə müharibənin son dəqiqələri, üçtərəfli bəyanat imzalanandan bir müddət əvvəl Şuşa istiqamətində qalmış yaralıların çıxarılması ilə bağlı tapşırıq gəlir. O, bu tapşırığa əsasən hərbi tibb maşını ilə Hadrut-Şuşa yoluna çıxır. Xocalı rayonunun Çanaqçı kəndi istiqamətində, Şuşaya az qalmış R. Abdullayevin olduğu hərbi-tibbi avtomaşın meşədə gizlənən qarşı tərəfin zabitləri və əsgərləri tərəfindən pusquya düşür. Bu zaman düşmən tərəfdən açılan atəşlərdən yaralanan Rasim Abdullayev qəhrəmancasına Şəhidlik Zirvəsinə yüksəlmişdir. İllərlə dədə-baba yurdunda ola bilməyən Şəhidimizin ruhu Kəlbəcər göylərində əbədi cövl etməkdədir. Şəhidimizin Müqəddəs nəşi II Fəxri Xiyabanda torpağa tapşırılmışdır. Şəhidimiz ailəli idi, Vətənə əmanət 2 oğul övladı yadigar qalmışdır...





Rasim Abdullayev müxtəlif məzmunlu 100-dən çox şeirin və hekayənin müəllifi idi. Bu şeirlərdən biri olan "Tələsmə" şeiri Rasim Abdullayev şəhid olduqdan sonra uzun müddət gündəmdən düşməmiş və bir çox xəbər saytlarında işıqlandırılmışdır.

***Rasim gözlərinə görünməyəcək,***
***Bu həsrət heç kimlə bölünməyəcək,***
***Xatirəm beynindən silinməyəcək,***
***Bir gün səni qınayacaq, tələsmə!..***
***"Tələsmə", Rasim Abdullayev...***

Şəhid Rasim Abdullayev Ali Baş Komandan Cənab İlham Əliyev tərəfindən Şəhadətindən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Şəhidimiz Vətən müharibəsinin son günü dastanının son sözlərini yazdı, dastana dönən 44 günü yaşamağa layiq oldu və 44-cü günündə Şəhadətə layiq oldu... Allah Şəhid Rasim Abdullayevlə bərabər bütün Şəhidlərimizə rəhmət eləsin! Amin!

*06.05.2021*

*"Kredo" qəzeti, 07.07.2021*

## DOĞRU YOLUN SAHİBİ VƏ YOLÇUSU



*Şəhid Rəşad İlqar oğlu Rəhimovun nurlu xatirəsinə həsr edilib (16 iyul 1985-ci il Tərtər şəhəri-9 noyabr 2020-ci il Xankəndi şəhəri)*

14 iyul 2021-ci ildə general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyevin şəhidlik zirvəsinə ucalmasının 1 illiyində onların, eləcə də onlarla bir xiyabanda uyuyan digər şəhidlərimizin əziz xatirəsini yad etmək üçün əbədi uyuduqları yer olan II Şəhidlər Xiyabanını ziyarət etdim. Bu Xiyabanı 10 noyabr 2020-ci ildə ziyarət etmişdim. İndi bu xiyaban əvvəlkindən çox əzəmətlidir, çünki indi həmin ziyarətgahda daha çox qəhrəmanlarımız uyuyur. Bu mənzərənin üzücü kədərini boğan tək təskinlik, təsəlli isə bu məzarların qisas şəhidlərinin, qalib ordunun əsgərlərinin, vətənin qəhrəman oğullarının məzarları olmasıdır.

Ziyarətim zamanı diqqətimi bir məzar da çəkdi. Bu məzarda restavrasiya işləri gedirdi. Məzarın görüşünə bir ağbirçək qadın, bir ana və bir qız da gəlmişdi. Ağbirçək ananı görən kimi başa düşdüm ki, O, məzarda uyuyan şəhidimizin anasıdır. Onun üzündə

iki əlaməti gördüm-böyük qürur və dərin kədər. Gözünün önündə yuvadan uçub, bədəni tərk edib Şuşa səmasında pərvaz edən bir oğulun ruhunun yuvasını torpaq etməsinəmi kədərlənəsən, yoxsa oğlunun şəhid olmağına görə qürurlanasan?... Ümumiyyətlə, bu mövzu ilə bağlı nə qədər qürurlansaq da kədərlənməmək də olmur... Şər ilə xeyirin mübarizəsi necədirsə, kədərlə qürurun mübarizəsi də elədir. Ana yalnız oğlunun və oğlu ilə birlikdə uyuyan qəhrəmanlarımızın məzarlarına baxırdı. O anda ana gözü başqa heç nəyi görmürdü. Fikir onu götürmüşdü. Başı daxilində gedən kədər-qürur savaşına qarışmışdı. Bu savaşda bir barış da hiss olunurdu, sezilirdi. Oğlunun şəhid olması ilə, bir də oğlunu görməyəcəyi, onu qucaqlamayacağı, onunla söhbət etməyəcəyi ilə barışmaq... Bu barış çətin idi. 35 il əziyyətlə böyütdüyü oğlunun səssiz məzarına baxmaq bu barışı çətinləşdirirdi. Ziyarətçilərin verdiyi təskinlik isə deyəsən bunu asanlaşdırmağa doğru bir zərrə idi. Elə bil məzar dilə gəlmək istəyirdi, demək istəyirdi ki, "Ana, mən sağam, ölməmişəm, səni görürəm, şəhid olmağıma kədərlənib ruhumu incitmə". Amma, Ana bunu bilsə də bilmək kifayət etmirdi. Belə ki, qarşısında olan oğlu deyil, onun şəhid məzarı idi... Oğlunun gələcək arzuları haqqında düşünən beyni artıq bir torpaq olmuşdu, arzuları vətən torpaqlarına qarışmışdı.

Mən bu şəhidimizin də məzarını ziyarət etdim. Bir neçə dəqiqə keçdikdən sonra ana yerindən durdu, daxilində gedən bu savaşı müvəqqəti dayandırdı. Lakin daxilindəkilər ona imkan vermirdi. Yenə də buna rəğmən O, daxilindəki dastanı bir-iki cümlə ilə belə ifadə etdi:

*– Məni bu günlərə saldın oğul... səhhətimlə əlaqədar tez-tez gəlməyimə icazə vermirlər. Evimdən gizlin çıxıb qaçmışam... Məzarını ziyarət etmək üçün qaçıb gəlmişəm...*

Ana elə bil ki, oğlunun məzarı ilə deyil, özü ilə bir az umu-küsü ilə danışırdı. Ananın ifadə etdiyi qəlbyandıran bu kəlmələr beynimdə uzun müddət qaldı və indi də qalmaqdadır. Bu ifadə Ananın daxilindəki savaşına olan cavabı idi. Onu bilirəm ki, Ananın təskinliyi oğlunun qəhrəmanlığı, Şuşa fatehi olması, öz canı-qanı bahasına Qarabağı qarış-qarış azad etməsi, nəhayət Xankəndində gözünü əbədi yumaraq şəhidlik zirvəsinə ucalması idi... Ən əsası vətən, ana, torpaqlarımızın azad olunması, ana-bacılarımızın, körpələrimizin, köməksiz ağbirçək və ağsaqqallarımızın, Xocalı şəhidlərimizin qisası yolunda mərd və mübarizliklə Mübarizlər kimi qisas aldıqdan sonra qəhrəmanlıqla şəhid olması idi!

Nur üzlü şəhidimizin əziz xatirəsinə həsr etdiyim bu yazımı həm də Onun nur simalı Anasına ərməğan edirəm.

Rəşad İlqar oğlu Rəhimov 16 iyul 1985-ci ildə Tərtər şəhərində anadan olmuşdur. Əslən Yevlax rayonunun Qoyunbinəsi kəndindəndir.

Rəşad daşıdığı adının mənasını doğrultmaq üçün bu dünyaya gəlmişdi. Adına, sanına, şanına, nəslinə, soyuna, kökünə, ailəsinə, Azərbaycanına layiq olmaq, layiq yaşamaq. Bu idi Onun əsas qayəsi. Vətən darda olanda Vətənin dadına yetmək, Vətənin xoş günlərinə səbəbiyyət vermək. Vətən ona oğul deyəndə mamır olub qayasında bitmək. Bu idi Rəşadın qayəsi. Bu idi Rəşadın istəyi, arzusu, amalı, həyat devizi. O, bu amal üçün nə lazım idisə edərdi. Və bilirdi ki, zamam-zaman edəcək də. Vətən onun gözünə Şirin görünəndə o, Fərhad kimi dağları dələcək. Vətən onun gözünə Leyli görünəndə o,





Məcnun olub çöllərə düşəcək. Vətən onun gözündə Albaniya kimi görünəndə o, Cavanşir olub doğru qərar verəcək. Və Vətən onun gözünə Şəhidlər yurdu olaraq görünəndə o, Şəhid olub vətənin, vətən torpağının azadlığı uğrunda ən şirin nemət olan can verəcək... Qurumaqda olan Xarı bülbülə qan verəcək... Qanı ilə onu sulayıb yenidən həyata qaytaracaq... Vətən ondan doğru yol istəyəndə O, bu doğru yolu çəkəcək, bir millətin o yolu yerimməsinə vəsilə olacaq. Sonda o doğru, müqəddəs yolun yolçusu olacaq. Onun adı da elə bu idi. Doğru yol!

1992-1993-cü illərdə orta məktəbin birinci-ikinci siniflərində oxuyarkən artıq Rəşadın ağlı kəsirdi, baş verən ədalətsiz müharibənin nə olduğunu anlamağa başlamışdı. Hamının taleyinə düşən müharibə insanların bəxtinə, qismətinə, istəyinə, arzularına, həyatına bir-bir son qoyurdu. Rəşad şagird gözü ilə Xocalı soyqırımı, doğulduğu Tərtərin yarımcan olması, Şuşanın işğalı, Laçının işğalı ab-havasını görmüşdü. Ətrafda hamı eyni ab-havada idi. Bununla bərabər müəllimlər şagirdlərə həmin vaxt üçün ən vacib olan tarixi daha çox öyrədirdilər. Onlarda bu ümid var idi; "Oxuyun, balalar, bəlkə, Qarabağın yatmış bəxtini Siz fidanlar çinara çevrilərək oyadasınız!"... Rəşad da həmin o fidanlardan biri idi. Zamanında o da böyüyüb bu çinarlardan olacaqdı... Rəşad bu ab-havada bir əksikliyin fərqinə varırdı. İnsanlarda xoşbəxtlik, şənlik yox idi. Onun axtardığı xoşbəxtlik yox idi. Çünki, Zəfər yox idi. Kədər var idi... Və o günlərdən 1-ci, 2-ci siniflərdə oxumasına, hələ balaca olmasına baxmayaraq Rəşad daxilində, özü qarşısında and içir! Qarabağın azadlığı, xoş sabahı üçün, kədərin yox olması, firavanlıq, ərənin Zəfəri üçün and içir!

Rəşad təhsilini bilikli, çalışqan, nizam-intizamlı, gələcəyi böyük amallarla dolu, potensialı böyük olan bir şagird kimi davam etdirir, müəllimlərin sevimlisinə çevrilir. Rəşad onu da bilirdi ki, doğru yolun yolçusu olmaq, o yolu çəkmək və o yolda yerimək üçün ağıllı, tədbirli, uzaqgörən, zamanında düzgün qərar verən olmaq, dərs oxumaq vacib və mühümdür.

Aylar-illər ötüb keçir, artıq o günlər geridə qalır, nəhayət Rəşad orta məktəbin məzunu olur. Ana-atası vətəni üçün böyüyən Rəşadla bir daha fəxr edir, qürurlanırlar.

Rəşad ən çox valideynlərinin onunla fəxr etməsi ilə qürurlanırdı. O, bu dünyaya, vətənə onda həqiqətən vətənsevər insan olmaq, onun qoynunda yaşamağa layiq olmaq, layiqli olmaq üçün gəlmişdi. Orta məktəbi bitirəndə o, layiqli bir məzun idi. Buna görə Allaha şükür edirdi. Allah onun layiqli Rəşad olması üçün lazım olanı edirdi. Rəşad böyüdükcə daha çox inanırdı ki, o günlər gəlib-çatacaq, qaranlıqlar aydınlıqlarla əvəz olunacaq. Və gələn o aydınlıq onunla və onun kimi gənclərlə təşrif buyuracaq. Bilirdi ki, günbə-gün həmin vaxt yaxınlaşır, gəlib yetişir artıq.

Arzuları ilə bərabər O, yuxularında da özünü ya at belində, ya da tank belində olan bir gənc kimi görürdü. Hər gecə yatanda yuxularında düşmən tapdağında sızlayan, inləyən Şuşanı görürdü. Görürdü ki, Şuşanın başı üstünü bürümüş qara buludlar, dumanlar çəkilir, o və onun dostları, yoldaşları dumanlar başında dastana dönürlər elə bil...

Orta məktəbi bitirdiyi il Rəşad Azərbaycan Beynəlxalq Universitetinə qəbul oldu. Ailəsi buna çox sevinirdi, lakin, o, elə bil bir az həsrətli idi. Çünki, əsgər olması üçün 4 il gözləməli idi. O, bu günlərə gəlmək üçün 11 il gözləmişdisə, o günlərə gəlib çatmaq

üçün nəinki 4 il, bir ömür boyu gözləyərdi. O, bu imana, bu inama öz-özlüyündə bir daha can verdi və ali təhsil almaq üçün bütün qüvvə və bacarığmı səfərbər edərək həvəslə oxumağa başladı.

Beynəlxalq Universitetin beynəlxalq hüquq fakültəsi sanki onun üçün yaradılmışdı. Əzəldən haqq-ədalət axtaran, haqq-ədalət carçısı olan, hüquq gəzən yerdə hüquqları tapdalanan Azərbaycanın bir oğlu kimi Rəşad beynəlxalq hüququ necə deyərlər, su kimi içir, dərindən, öyrənirdi. Rəşadın fikrində, beynində Vətənin haqqı-hüququ cövl edirdi. Onun bütün fikri-düşüncəsi Vətənində vətənindən, vətənində yurd-yuvasından didərgin salınmış yurddaşların pozulmuş hüquqlarının bərpası, onların öz dədə-baba yurdlarına qayıtmasının hüquqi yolunu axtarmaqdan ibarət idi.

Onun daxilindəki həsrət-ümid savaşı 4 il sonra ümidin qələbəsi ilə başa çatdı. Rəşad Azərbaycan Beynəlxalq Universitetinin Beynəlxalq Hüquq Fakültəsinin məzunu oldu. Onu düşündürən onun məzun olması deyildi təkcə. O, əsgərlik yolunda, kişilik məktəbində ilk addımlarını atacaqdı. Bu günlərə qədər gəlib çatdığma əvvəlcə inana bilməsə də, sonra bir anlıq keçib gəldiyi yollara nəzərən səyahət etdi. Bu ana gəlib çatdığı üçün sevindi. İndi onun əsas duası, arzusu, istəyi o idi ki, torpaqlarımızın azadlıq müharibəsi başlasın və bu müharibə onun xidmət etdiyi dövrə düşsün.

Nəhayət Rəşad ürəyində "əsgər anası narahatlığı" adlı bir nigarançılıqla, lakin min ümidlə, min sevinclə hərbi xidmətə başladı, əsgər kimi ilk mətin addımını atdı.

Rəşad xidmətinin ilk anlarından arzuladığı kimi azadlıq müharibəsinin başlamasını, müharibədə cəngavər kimi vuruşmaq, bir sözlə cəngdən cəngə yürümək istəyirdi. Təkcə onu istəmirdi onun min arzularla dolu ürəyi. O, yuxularda özünü şərəfli bir zabit kimi görürdü. Zabitlərə rəğbət bəsləyir, onlara ümidlə baxırdı. Ona hərbi geyim, ələlxüsus da zabit forması çox yaraşırdı. Elə bil Rəşad elə bu formanı daşımaq üçün dünyaya gəlmişdi. Hərb sənəti onun üçün idi elə bil. O, zabit şərəfini, məsuliyyətini dərindən dərk edirdi. Və bu şərəfi qoruyacaq potensial da var idi onda.

Odur ki, bu arzusunu həyat keçirmək üçün Rəşad Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim Tədris Mərkəzinin leytenantlıq kursuna yazıldı. Rəşad hərb sənətinə daha dərindən yiyələnmək məqsədilə yorulmaq bilmədən, gecə-gündüz bilmədən çalışdı, oxudu, öyrəndi. O, inanırdı ki, kursu uğurla, qüsursuz şəkildə bitirəcək və sevdiyi Azərbaycan zabiti adını qazanacaq.

Və hər ümidin, arzunun, inamın sonu xoşbəxtliyə çevrildiyi kimi, bu zəhmətin sonu bəhrəsini verdi. Əsgərlər kimi xidmətə başlayan Rəşad Rəhimov kursu böyük zəhmətlə, iti zəka, bacarıq ilə başa vurdu və leytenant Rəşad Rəhimov kimi kursu başa vurdu. Bu adı daşımağa haqq qazandı. Həmin gün Rəşadın ən sevincli günlərindən idi desəm, yanılmaram. O, özünü bu yolda tapdığı andan indikilərin baş verəcəyinə inanmışdı. Hərbçi olacağı günə, Müharibənin başlayacağı günə və Zəfər gününə... Hələlik Rəşadın üç arzusundan biri gerçəkləşmişdi. Bəlkə də, işğal altında inləyən torpaqlarımızın səmalarında dolaşan ulularımızın ruhları da inanırdı ki, Rəşad o iki arzunun da gerçəkləşməsinə nail olacaqdır. Çünki, ən əvvəl bu fikiri irəli sürən ruh Rəşadın daxilindəki, qəlbindəki ruh idi... Rəşadın rəşadətli ulularının ruhu idi...

Rəşad leytenant rütbəsi ilə bir müddət xidmət etdi. O, xidmətində qüsursuz idi. Xid-





mətinin hər günü Qarabağ döyüşlərini fikirləşirdi. Bu fikirlə alışıb yanırdı. Vətən uğrunda, torpaq uğrunda, qisas uğrunda alışıb yanırdı Rəşad... Valideynləri, ailə üzvləri ondan nigaran qalır, onun tərxis gününü səbrsizliklə gözləyirdilər. Lakin Rəşad ilk əvvəllərdən arzuladıqlarının həyata keçəcəyi günün gəlməsi üçün xidmətini davam etdirməkdə idi. O, o gün üçün bu yerlərə gəlmişdi. Zabit şərəfi ilə torpaqlarımız uğrunda vuruşmaq istəyirdi Rəşad. Qarabağda canını vermək, qanını tökmək xəyalı ilə çırpınırdı. Şuşanı azad görmək xəyalı ilə çırpınırdı qəlbi.

Bu xəyal, təəssüflər olsun ki, Rəşadın o vaxtkı xidməti dövründə gerçəyə çevrilmədi. Rəşad bu günlərə tez gəlmişdi, lakin, o günlərə gəlmək üçün, hələ çox çalışmaq lazım idi. Dəmir kimi qisas alovunda bişmək, isti-isti döyülmək lazım idi iti qılınc olmaq üçün. Və taybatay açılmış əlləri Allahdan başqa heç kəsin aça bilməyəcəyi dəmir yumruğa çevirmək lazım idi o günün gəlib çatması üçün.

Rəşadın hərbi xidməti davam etmədi və Rəşad ehtiyatda olan zabit kimi mülki həyatda fəaliyyətini davam etdirdi. Ancaq təəssüflənmədi, ürəyini sıxmadı, vaz keçmədi arzularından. Əksinə, o günə daha da yaxın olmaq üçün gücünü səfərbər etdi. O mənada ki, o, özünü hər döyüşə hazır edirdi, fiziki cəhətdən hazırlanırdı. Qarabağda azadlıq müharibəsi başlayacağı halda onun gedəcəyi ilk məkan hərbi komissarlıq olacaqdı. O, belə fikirləşirdi və hər şeyi belə planlaşdırmışdı. Alacağı hər hansı imtina cavabından sonra da vaz keçməyəcəkdi məqsədindən və sonuna qədər hərbi komissarlıqdan tələbinin həyata keçməsini təkidlə tələb edəcəkdi.

Rəşad Rəhimov 2008-ci ildə hərbi xidmətini zabit kimi başa vurdu və 2010-cu ildə Hərbiləşdirilmiş Mühafizə İdarəsində, 2011-ci ildən isə "Azərpoçt" MMC-də çalışmağa başladı. Hərbi xidmətdə əsgər və zabit kimi qüsursuz xidmət edən Rəşad bir əsgərtək mülki işdə də vəzifələrini qüsursuz, dəqiq və layiqincə yerinə yetirirdi.

2016-cı ilin Aprelinin ilk günləri... Rəşad bəlkə də, heç vaxt bu qədər həyəcanlanmamışdı. Qarabağda döyüş gedirdi. Özü də sərt döyüşlər. Bu bir haqq-ədalət, azadlıq müharibəsinin xəbərçisi, qaranquşu idi. Rəşad özünü inandırırdı ki, bu müharibə tez bitməyəcək. Çünki, tez bitən döyüşə səfərbərlik lazım deyildi. O isə səfərbər olmaq istəyirdi.

Döyüşlərin başlandığı xəbərini eşidən Rəşad əvvəllərdən planlaşdırdığı kimi dərhal Hərbi Komissarlığa doğru yol aldı.

Hərbi Komissarlığa çatıb səfərbər olunmasını istədi. O, özünü inandırırdı ki, onu hərbi xidmətə çağıracaqlar, inandırırdı ki, özü üçün gün bu gündür. O, bu gün döyüşəcək, can verəcək, qan tökəcək.

Döyüş bitən günə qədər hər gün Hərbi Komissarlıqda gözlədi. İşçilər nə qədər dil tökdülərsə də, Rəşadı sakitləşdirə bilmədilər. Hər gün eyni ümidlə və arzu ilə Hərbi Komissarlıqda olurdu Rəşad.

Lakin, sonuncu gün aldığı xəbərlə hər şeyi başa düşdü. Düşmən təxribatı nəticəsində başlanan müqəddəs döyüş dörd gündən sonra başa çatmışdı. Bu dəfə istəyi həyata keçməsə də Rəşad ümidini itirməmişdi. Ümidini itirmək üçün doğulmamışdı Rəşad. Əksinə, ümid qazanmaq üçün doğulmuşdu. O, ümid üçün doğulmuşdu. Sabaha inam üçün, qaranlığın uduzacağı aydın sabaha inam üçün gəlmişdi bu dünyaya Rəşad... O bilirdi ki, torpaqlarımızın işğalda olması davam etdikcə edə bilməz. Nəhayət Azərbaycan igidləri-

nin qəzəbi bir gün işğalçı ermənilərin başında şimşək kimi çaxacaq. Bilirdi ki, mütləq o gün gələcək və tez gələcək. Odur ki, yenə də gözləyəcəkdi Rəşad, dözəcəkdi...

Rəşad dözürdü... Hər şeyə rəğmən dözürdü... Müharibənin acılarına dəfələrlə şahid olmasına rəğmən... Hər atəşkəs pozuntusuna rəğmən... Hər atəşkəs pozuntusu nəticəsində şəhid olan vətən oğullarına rəğmən... Hər şəhid onun ürəyindən parça idi. Vətən bir şəhid verəndə onun ürəyindən bir parça ayrılırdı elə bil. Və şəhidlərdən geri qalan acını canı-qanı ilə, ürək yanğısı ilə hiss edirdi.

Keçən hər gün hər bir Azərbaycan cəngavəri kimi Rəşadın da əlləri qisas hissi ilə sıxılaraq yumruğa çevrilirdi. O, atəşkəsin tez-tez pozulmasına alışmamışdı. Bu xəbəri eşitmək istəmirdi. Əlacı olsa, özündə qanad taxardı, maneələrə baxmayaraq o bütün maneələri dəf edər və birbaşa düz Şuşaya uçardı. O inanırdı ki, atəşkəsi pozmaqla düşmən nə qədər həddini aşırsa aşsın, onsuz da onların ilan başının əzilməsi günü gələcəkdi.

Lakin qəflətən eşitdiyi və ildırım kimi vücudunu lərzəyə salan bir acı xəbəri heç qəbul edə bilmirdi Rəşad. 2020-ci ilin iyul ayı Tovuz rayonunda şiddətli döyüşlər baş verdi. Bu döyüşlər zamanı general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyev də olmaqla zabit-əsgər heyəti qəhrəmancasına Şəhidlik Zirvəsinə yüksəldi. Rəşad indiyə qədər döyüş meydanında generalın şəhid olmasını görməmişdi və belə bir hadisə barəsində eşitməmişdi. Bu, Azərbaycanın hərb tarixində ağırdan ağır itki idi. Və bu itki Qarabağ münaqişəsini dəyişəcək bir müharibəni zəruri edirdi. Bu ağır itki Azərbaycanın oyanışını, bir yumruq kimi birləşməsini və nəhayət dəmir yumruğa çevrilib düşmənin başına endirilməsini həyati zəruri edirdi. Rəşad fikrindən dönmürdü. Ürəyindən keçənləri ürəyində saxlamırdı. Fikirlərini beynindəki qəfəsdə saxlamırdı. O, qərarında qəti idi. Artıq qisasın vaxtı gəlirdi! Düşmənin başının əzilməsinin vaxtı gəlib yetişirdi!

Rəşad bilirdi ki, indidən belə görəcəkləri xəyal olmayacaqdı, gerçək olacaqdı. Vətən Müharibəsi başlayacaqdı!

Ali Baş Komandan Tovuz hadisələrindən sonra Azərbaycan xalqına müraciət-çağırış etdi. Ehtiyatda olan zabit, leytenant Rəşad Rəhimov səfərbərlik üçün qeydiyyatdan keçmək məqsədilə hamıdan birinci olaraq Hərbi Komissarlığa yollandı. Komissarlıqda artıq çoxdan Rəşadı tanıyan əməkdaşlar onu sevindirmək istəyirdilər. Rəşad əməkdaşlara ümid verirdi, işçilər də Rəşadın ümidini doğrultmağa çalışırdılar, istəyirdilər ki, səfərbərlik barədə ona şad xəbər versinlər. Müharibə özü ilə nə qədər ölüm-itim, ayrılıq gətirsə də yenə də onlar onun üzünü güldürmək istəyirdilər. İstəmirdilər ki, 4 il əvvəl Aprel döyüşləri zamanı səfərbərliklə əlaqədar olan vəziyyət təkrarlansın.

Rəşad öz vəzifələrini əzəldən bilirdi, indi öz içində bu vəzifələrin təlimini keçirdi sanki. Yuxularında məhv etdiyi düşmənin sayın-hesabın itirmişdi. Ağlının kəsdiyi 30 ilin hər günü Şuşanı fəth edirdi. Bir gün at belində, bir gün tank üstündə, bir gün qılıncla, bir gün avtomatla və yaxud da əlbəyaxa. Rəşad bunları yuxu olaraq görməkdən bezmişdi. Yeni gerçəkliyin, yeni reallığın vaxtı gəlirdi.

Onun gözlədiyi gün gəlirdi. Hərbi Komissarlıqdan gələn müsbət cavabla Rəşad bundan sonra yenidən hərbi xidmətdə olduğu kimi idi! Rəşad bu günü 4 il arzulamışdı. Gözü Qarabağdan başqa heç bir yeri , heç nəyi görmürdü. Könüllü zabit olan, yenidən könüllü hərbi xidmətə yollanan Rəşad yeni müharibənin Zəfər çalan döyüşçüsü, yeni





reallığın memarlarından biri olsun!

Bir neçə günlük təlimlərdən sonra axır ki, o gün gəldi çatdı. Qaçqınların 30 il, Azərbaycanın 200 il gözlədiyi gün. İllərə dəyən, min aya dəyən o gün – 27 Sentyabr günü gəldi çatdı. İllərdir, yüz illərdir bu günü Azərbaycanda gözləməyən yox idi. İyul döyüşlərindən başlayaraq daha həyəcanla o günü gözləyən Azərbaycan xalqı bilirdi ki, o gün indi daha tez gələcək. Tez də gəldi.

Bu günü Rəşad da öz yaşadığı ömür payında çox gözləmişdi. Bunsuz yatdığı hər gecənin yuxusu onun üçün 27 sentyabr idi. O, müharibə başlayan dəqiqələrdə öz-özüylə danışırdı: "Rəşad, axır ki, çoxdan gözlədiyin o gün gəldi! Bacardıq, Rəşad! İnamımızla, imanımızla, əməyimizlə bu günlərə gəldik. Xəyanətimizlə yox, dəyanətimizlə, əzmimizlə, dözümümüzlə gəldik bu günlərə! Allah bu müharibədən alnıaçıq, üzüağ çıxmağı xalqıma, millətimə, müzəffər orduma nəsib etsin! Amin!"

Və daxilində özünün özü ilə etdiyi bu söhbətdən sonra Rəşad bir ər, igid ər meydanına doğru yeridiyi kimi döyüş meydanına yeridi. Onu döyüşəcəyi ilk və son müharibə - Vətən müharibəsi gözləyirdi. Fürsət Rəşadın, silah Rəşadın, vəzifə Rəşadın, müqəddəs yol Rəşadın idi. Meydan onun və onun əsgər yoldaşlarının idi. Bu torpaqlarda bir düşmən belə qalmamalı idi, qalmayacaqdı da.

Rəşad üçün Vətən müharibəsi toy-bayram idi. Elə bil ki, toya-bayrama gedirdi. Təbii ki, onun xəyalında qurduğu şənlik, toy mağarı ordumuz şəhid verəndə dağılırdı. Və o zaman qisas ocağı yenə çatılırdı. Rəşad üçün düşmənlərlə vuruşmaq düşmənlərlə oynamaq, əylənmək kimi idi. Düşmənlərə qarşı fəndlər, taktikalar işlətmək, güllə atmadan onları zərərsizləşdirmək Rəşad və onun əsgərləri üçün çox asan idi. Rəşad sanki, neçə-neçə müharibələr görmüş sərkərdə kimi savaşırdı Vətən müharibəsində. Ötən hər döyüş Rəşadı amalına daha da yaxınlaşdırırdı. Bu döyüşlər, bu mübarizəli Mübarizli günlər onun üçün hər şey idi. Yaşadığı 35 illik ömrünün günləri idi. Və bu günlərin gəlib yetişməsi üçün 30 il gözləməyə dəyərdi.

Ailəsi ondan səbirsizliklə xəbər gözləyirdi. Nigarançılıq və narahatlıq yenə də var idi, necə ki, Rəşad əsgərliyə gedəndə ondan nigaran qalırdılar, yenə də ondan fərqli, lakin elə idi. Anası hər dəfə dəstəyi qaldıranda əlləri əsirdi, qorxurdu ki, birdən zəng vuran zaman Rəşad yox, onun komandiri olar və qara xəbər verər...

Zənglər zamanı söhbət edərkən Rəşadın danışığındakı ümid isə ailəni qürurlandırır, cuşa gətirirdi:

*– Narahat olmayın, hər şey yaxşı olacaq. Yaralanmağı düşünmək məcburiyyətindəyəm, müharibədir, hər şey ola bilər, lakin hələlik salamatlıqdır. Ancaq, döyüş bitənə qədər xəstəxanada qalmaq əsla. Qarabağa nəfəs qədər yaxınıq, anacan! Heç bu qədər yaxın olmamışdıq! Səsimiz Zəfər bayrağı sancılan yerdən gələcək, inan! Zəfər bayrağını sancmamış sakitləşən deyiləm! Şuşanı azad etməmiş döyüş meydanını tərk edən deyiləm. Müharibədir, hər şey ola bilər, amma hər şey yaxşı olacaq, İnşəAllah...*

Qubadlı və Zəngilan döyüşlərində əldə edilən qələbələr Rəşadı daha da sevindirir, ruhlandırırdı. O, özünü dünyanın ən xoşbəxt insanı, ən xoşbəxt zabiti, vətənini xilas edən ən xoşbəxt döyüşçüsü hesab edirdi. Qürurlanırdı ki, Qarabağı azad edənlərdəndir. O, bu günləri heç vaxt unuda bilməzdi. Qazi olsa, canıyla, Şəhid olsa ruhuyla daim

xatırlayacaqdı bu günləri!

O zamanlar Rəşad üçün ən xoş gün o gün olmuşdu yəqin... Komandanlıqdan gələn əmr. Şuşanın azad edilməsi üçün döyüş əmri! Rəşad Şuşanı azad etmək üçün vəzifələndirilmiş zabit-əsgər heyətinin sırasında idi. O, özünü xoşbəxtlərdən xoşbəxt hiss edirdi. Sanki, yenidən doğulmuşdu. Yenə də Qarabağ torpağında... Tərtərdə yox, Şuşada!..

Döyüş 2020-ci ilin oktyabrın sonlarında başladı. Rəşad silaha elə sarılmışdı ki, Allahdan başqa heç kəs onu silahdan ayıra bilməzdi. Ayağı da Şuşaya gedən yola yapışmışdı. Onu heç kəs bu yoldan döndərə, qopara bilməzdi. Bu yol Rəşad yolu idi.

Bu yol doğru yol, nicat yolu, haqq yolu idi. Və bu yolun yolçusu Rəşad və Rəşadın döyüş yoldaşları idi. Şuşaya yol Xocalıdan keçirdi. Şuşa yolunu böyük əməklə, əziyyətlə, qisas alovu ilə azad edirdi Rəşad. Bir Şəhid min qisas demək idi. Və bu mininci qisas Zəfər bayrağı Şuşada dalğalananda alınacaqdı.

Komandanlıqdan əmr gəldi:

– *Növbəti istiqamət: Daşaltı!*

Və Xocalıda bitən qaranlıq Daşaltıda aydınlaşmağa doğru davam edirdi. Bu aydınlıqdan Rəşadın gözləri qamaşırdı. O, yuxularında gördüyü Şuşanı artıq gözləri ilə görürdü. Rəşad heç vaxt bu qədər sevinməmişdi. Şuşa torpağı onun ayaqlarını bağrına basırdı. Qurumuş Xarı bülbüllər gülümsəyir, ancaq, yaşamaq üçün elə bil ondan imdad da diləyirdi. Rəşad isə son vəzifəsini yerinə yetirməli idi. Şuşanı azad edib qanı bahasına Xarı bülbülü dirçəltmək vəzifəsini...

Rəşad Allaha şükür edib və "Bismillah" deyib Şuşa döyüşlərinə Şuşada davam etdi. O, təzə ab-havayla, təzə nəfəslə döyüşürdü Şuşada. Ailəsi ilə zəngləşirdi, Şuşanı azad edəcəyini dilə gətirsə də, harada olduğunu, harada vuruşduğunu demirdi, çünki bu hərbi sirr idi. Bu ümidlə, bu sevinclə, bu qisas hissi ilə Qarabağı tam azad etməyi qarşısına məqsəd qoymuşdu Rəşad. Məqsədin həyata keçməyi onun yaşadığı bu günlərə baxırdı.

Döyüşlərdən birində düşmən namərdcəsinə minaatandan atəş açdı. Allah elə bil Rəşadı döyüş meydanında sınayırdı. Təhlükə Rəşadın bir addımlığında idi. Minaatan Rəşadın yanında deyildi. Sadəcə, Rəşadın silahı düşmüşdü. Və O, silahını qaldırmağa gedəndə onu minaatanla vura bilərdilər. Döyüş yoldaşları bunu görüb onu xəbərdar etdilər:

– *Rəşad, ora getmə! Düşmən oranı minaatanla vura bilər!*

– *Əgər silahsızamsa, bu müharibədə nəyə yarayıram? Döyüşçünün silahı onun şərəfidir.*

Rəşad maneələrə baxmayaraq öz silahını götürdü və tam sürətlə irəliyə atılaraq döyüşü davam etdirdi. Düşmən də eyni sürətlə geri çəkilirdi. Çünki, qarşısında yeni Azərbaycan Ordusu, əsgəri, ərəni var idi. Düzdür, qarşısında Xocalıda çarəsiz iməkləyən bala var idi, lakin, o bala qisasını almaq üçün böyümüşdü və indi bir ərən kimi mənfur düşmənindən qisasını alırdı.

Nəhayət 8 Noyabr günü gəldi çatdı. Rəşad vaxtın necə gəlib necə getdiyini bilmirdi. Dünən özünü Daşaltıda, bu gün Şuşanın başlanğıcında hiss edirdi. O günü yaxınlaşdırmaq üçün Topxana meşəsində, Şuşa qalasında, Şuşa küçələrində, hər yanda, hər yerdə sürətlə döyüşmüşdü. Və uzaqda bir qaraltı görünürdü. Rəşad onu yuxusunda gördüyü





binaya bənzətdi. Yanındakı döyüşçülərdən soruşdu:

– *Qardaş, orada qaraltı var. Görəsən ora haradır? Mən onu yuxularımda gördüyümü xatırlayıram.*

Döyüşçü böyük qürurla cavab verdi:

– *Şuşa İcra Hakimiyyətinin binasıdır, qardaşım! Biz Zəfər Bayrağımızı orada dalğalandıracağıq!*

Rəşad bu sözlə də bir daha yenidən doğuldu. Bu söz dağda-daşda əks-səda verdi elə bil. Rəşadın qulaqlarında Zəfər himninə çevrildi. Rəşad bu sözdən sonra daha da güclü oldu. Neçə illər qəlbində bəslədiyi Bozqurdu ondan tez icra hakimiyyətinin binasına atılmış və ulamışdı. Bu ulartıdan sonra Rəşad hərəkətə keçdi.

1 həftədən çox keçən döyüşlərdən sonra 30 il gözlədiyimiz an gəldi! Şuşa işğaldan azad edildi!

Rəşad o qaraltı kimi uzaqdan gördüyü mənzərəni gözləri ilə daha yaxından görürdü. Rəşad əsgərlərinin Zəfər Bayrağını necə sancmasını görürdü. Bu, Allahın bağışladığı lütf idi. Rəşadın gözləri qamaşırdı Şanlı Hilal Şuşada dalğalananda. Bir cümlə onun 35 illik zəhmətini və hələ bir neçə dəqiqəlik olan bəhrəsini izah etməyə yetirdi:

– *Allahım, Sənə Şükürlər Olsun!*

Şükürlər olsun! Bunun özü o deməkdir ki, Rəşad Allahın sevdiyi qulu idi. Və bu gözəl mənzərəni görməyə layiq idi.

Dayanmaq yox idi, davam etmək lazım idi! Düşmən tam məhv edilənə qədər davam etmək lazım idi! Düşmənin çox olmasına, müqavimət göstərməsinə baxmayaraq davam etmək! Və Rəşad yenidən zəfər qazanmaq üçün yola düşdü!

Şuşanın azad olunduğunu bilən və sevinclə bayramı qeyd edən ailə isə bilirdi ki, Şuşanın azad edilməsində onların ailələrinin, ailənin intizarına çevrilmiş Rəşadlarının da zəhməti var və bununla qürur duyurdular.

Rəşad üçün son istiqamət Şuşa-Xankəndi istiqaməti idi. O bilirdi ki, son günlər qalıb tam Zəfəri çalmağa. Düşmən işğalla qazandığı Qarabağı itirəcək, itirirdi.

Xankəndi istiqamətində düşmən son döyüşü udmaq üçün bütün qüvvəsini səfərbər edirdi. Nə olsun? Rəşadgil geri çəkilərdi?

Rəşad o gün sonuna qədər vuruşdu. Son damla qanına qədər. Elə bil ürəyinə dammışdı ki, o gün bu gündür. Artıq qisas alındı, torpaqlar düşmən tapdağından azad edildi, ona görə də Şəhadətin də vaxtı gəlib çatıb. Ona görə də vaxt bitənə qədər vuruşurdu Rəşad. Əlindən bir düşmən də canını sağ qurtara bilmirdi.

Rəşad Rəhimov 9 noyabr 2020-ci ildə böyük Zəfərə saatlar qalmış düşmənin atdığı namərd gülləsi ilə kəlmeyi-Şəhadətini gətirərək Şəhadətə yüksəldi! Gözü sonuncu dəfə Xankəndini gördü. Rəşad buna görə də xoşbəxt idi! Xankəndində Şəhid olan yeganə Şəhidlərdən biri kimi...

Onun müqəddəs nəşi 10 gün boyunca axtarıldı və 19 noyabr 2020-ci ildə II Şəhidlər Xiyabanında sevə-sevə uğrunda canını verdiyi vətəninin torpağına tapşırıldı.

Rəşad nə eləmişdisə, bu günlər üçün eləmişdi. Rəşad nə ömür sürmüşdüsə, bu günlər üçün sürmüşdü. Rəşad necə xidmət etmişdisə, bu günlər üçün etmişdi. O, nə söz vermişdisə, bu günlər üçün vermişdi.

Rəşad söz vermişdi, sözünü tutdu! Çünki, Rəşad Azərbaycan oğlu idi! Qisas əsgəri idi, cəngavər idi! Rəşad Allah adamı, Allahın bəxş etdiyi lütf idi! Rəşad Rəşadət idi! Rəşad doğru yol idi! O doğru yolu 27 sentyabrdan bəri çəkdi və 8 noyabrda dalğalanan Zəfər Bayrağı ilə taclandırdı! Şəhidimizdən 5 və 1 yaşında 2 övladı yadigar qaldı. Ölümündən sonra Rəşad Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq fərmanları ilə Vətən müharibəsində göstərdiyi misilsiz şücaətlərinə görə "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

Ümumiyyətlə, Rəşadın qısa, lakin mənalı ömür payı arzu dövrlərinə bölünürdü. Orta məktəbə gedəndə qarşısına məqsəd qoydu. Bu məqsəd üçün orta məktəbi bitirməyi, ali məktəbə qədəm qoymağı və ali məktəbdən məzun olmağı daha çox arzu etdi. Sonda isə bu günə qədər gəldi və torpaqlarımızı erməni mənfurlarının tapdağından azad etməyi özünün birinci dərəcəli amalı bildi.

Həmçinin, O, neçə-neçə müharibələr görmüşdü. Düz eşitdiniz, dünyaya gəldiyi andan neçə-neçə müharibələrə sinəsini sipər etmişdi Rəşad adlı rəşadətli Qəhrəman. Haqq-ədalətin, xeyir-şərin, təskinliklə qəmin, kədər və qürurun savaşında həmişə qalib gəldi igidimiz. Şəhidimizin anasına kədər-qürur savaşında qalib gəlməsini və kədərinin bir çox misli ölçüsü ilə qürur duymasını arzulayıram və arzulayacağam. Mən inanıram ki, bu gün Şəhidimin məzarı başında o, kədərinə sarsıdıcı zərbə endirib və Şəhidimin başı üstündə dalğalanan üçrəngli bayrağa baxaraq fəxr edib... Və inanıram ki, edəcək də! Çünki, əziz Anacan, o canını bunun üçün fəda etmişdi, Səni belə günə çıxarmaq, başını dik tutmağın, qürurlanmağın üçün... Kədəri az, qüruru çox günlər üçün...

Cənnətdəki ilk doğum günün mübarək, gözü Xankəndində əbədi yumulan Şuşa Fatehi! Unudulmaz, həmişəyaşar Şəhidim! Allah Sənə və Səninlə cənnətdə olan bütün şəhidlərimizə rəhmət eləsin! Amin.

*16.07.2021*

## ZƏFƏRƏ CAN FƏDA!



*Vətən müharibəsi qazisi Rauf Teymur oğlu Qasımov (10 iyun 2000-ci il Ağcabədi rayonu Yuxarı Qiyaməddinli kəndi)*

Bu gün Şanlı Zəfərimizin 1 ayı tamam olur. Bu gün həm də bizim böyük Qələbə Paradımızdır! Bu Parad təkcə bizim deyil, bütün Türk dünyasının, haqqın batil üzərində qazandığı Zəfərinin Paradıdır!

Bu Zəfərin əldə olunması üçün düz 44 gün çarpışdıq, vuruşduq, güllələrə sinə gərdik, döyüşdən döyüşə atıldıq, Türkün gücünü Qarabağın hər yerində mənfur düşmənə qarşı sübut etdik. 1945-ci ildə azərbaycanlı əsgərlərimiz döyüşə-döyüşə Berlinə necə çatdılarsa, 75 il sonra onların nəvələri, nəticələri və kötücələri də öz doğma Şuşamıza eləcə çatdılar Zəfər ab-havası





ilə... Hisslər müxtəlif olsa da, hamısı sevinc hissi ilə birləşirdi. Onlar Şuşaya çatanda bu qədər sevinəcəyimizi, sevincimizdən Xarı Bülbül kimi qanadlanıb uçacağımızı bəlkə də bilmirdilər. Bizim şanlı əsgərlərimiz o xəbəri bütün Azərbaycan xalqına çatdırdılar... Və Azərbaycan xalqı ən böyük arzusuna çatdı! QƏLƏBƏYƏ! Artıq bir söz dillərdə əzbər idi: "QƏLƏBƏ!"

Bu Qələbə də təkcə bizim qələbəmiz deyildi. Bu Qələbə neçə illər onu gözləyən milyonları aşmış könüllülərin qələbəsi idi. Bu Qələbə 200 il inləyən Haqqın, Hüququn, mənfur düşmən tərəfindən zaman-zaman parçalanaraq qəsb edilmiş vətən torpağının qələbəsi idi. Bu Qələbə "Zəfərə! Zəfərə!" deyən hər Türk ərinin, hər Türk nərinin, Tomris cəsarətli, hünərli qadınının, hər Türk oğlu, Türk övladının qələbəsi idi! Bu zəfər olmalıydı və oldu! Qarabağ bizim idi, bizim oldu! Qarabağ Türkün idi, Türkün oldu!

Bu Qələbəni bizə qazandıranlar var! Biz onları; Qələbə dadını bizlərə daddırmaq üçün canlarından keçmiş şəhidlərimizi, qazilərimizi heç vaxt unutmamalıyıq, unutmayacağıq! Onların qəhrəmanlıqları haqqında məqalələr dərc etməli, kitablar çap etməli, tarix dərsliklərinə salınmalı, şagirdlərimiz tərəfindən öyrənilməli, qəhrəmanlıq dastanlarını yazılmalı, filmlər çəkilməli, barələrində bəstələnmiş nəğmələri dildən-dilə gəzdirməliyik! Qazilər bizim üçün canlarını fəda etməkdən zərrə qədər belə çəkinməyibsə və Şəhidlər öz canlarını qurban veribsə, biz onlara ömrümüz boyu borcluyuq! Baxmayaraq ki, biz nə etsək də, onlara olan borcumuzu ödəyə bilmərik, yenə də bu yolda sona qədər çalışmalıyıq! Şəhidlərimizin ruhu, qazilərimizin sızıldayan canı rahatlıq tapsın deyə bunu etməliyik!

Mən də vətənini sevən övlad olaraq qərara gəldim ki, Vətən Müharibəsinin min ərindən, min nərindən bacardığım qədərinin qəhrəmanlıq dastanını yazım. Onlar bizim gözlərimizin kökünün saralmaması üçün öz gözlərini qurban verməkdən çəkinməyib! Onlar bizim vətən həsrətimizi aradan qaldırmaq, ərazi bütövlüyümüzü təmin etmək üçün canlarını mənfur düşmən güllələrinə, mərmi qəlpələrinə sipər edən vətən oğullarından biridir! Onlar həsrətin bizim boğazımızı üzməməsi üçün öz boğazlarından fışqıran qan selini seyr edib! Biz çətinliklərlə üzləşməyək deyə həmin çətinliklərin min qatıyla, milyon qatıyla üz-üzə dayanıb! Bunları qorxmadan, çəkinmədən, yorğunluq nədir bilmədən ediblər! Onlar bizim yuxumuzun şirin olması, rahat yatmağımız üçün neçə gecə yuxu nədir bilməyiblər! Onlar bizim gələcəyimiz üçün heç öz gələcəyini düşünmədən belə döyüşlərə atılıb və mümkün qədər düşmənini daha çox sayda məhv edib ancaq bundan sonra Şəhid olacağı barədə düşünüblər!

Onlardan biri ilk günlərdən Vətən Müharibəsində döyüşlərə atılan, Vətənə Zəfər gətirmək üçün çarpışan, Murov dağından Hadruta qədər şərəfli döyüş yolu keçən və bu yolda özünü qurban verməkdən zərrə qədər çəkinməyən, snayperçi olaraq 12 ermənini məhv edən Qarabağ Qazimiz Qasımov Rauf Teymur oğludur! Bu dəfə gəlin, onun Qəhrəmanlıq Dastanını oxuyaq!

Rauf Qasımov mənim mərhum Novruz əmimin nəvəsidir. Buna görə özümü çox xoşbəxt hiss edirəm, çünki onun qanı mənim qanım, canı mənim canımdır! Mən onunla fəxr edirəm! Təkcə onunla yox, əlbəttə onunla çiyin-çiyinə döyüşən Şəhid və Qazilərimizlə, o Türk oğulları ilə qürur duyur, fəxr edirəm!

Raufun ana babasını, yəni Novruz əmimi mən təxminən 2 il görmüşəm, yəni mənim hələ 2 yaşım olmamış Novruz əmim vəfat edib. Kiçik yaşlarında olduğum üçün onu heç xatırlaya bilmirəm. Onu ancaq valideynlərimin dediklərindən və özünün şəkillərindən tanımışam. Əmim dürüstlük, doğruluq, nəciblik və ağsaqqallıq mücəssəməsi olub. Heç bir sözü yalan olmayıb, bilməyərəkdən də yalan danışmayıb. Gücü-qüvvəti də, zəkası da, ədəbi də onu yaşadığı el-obada sayılıb-seçilən insanlardan edib. Bəlkə də, mən indi bu məqaləni yazanda onun ruhu şaddır, istəkli nəvəsi ilə fəxr edir... Bəlkə də...

Bildiyimə görə, 23 iyul 1993-cü ildə ikinci dəfə kəndimiz, yəni Ağcabədi rayonu Yuxarı Qiyaməddinli kəndi Ağdam şəhəri və ətraf yaşayış məntəqələri ilə birlikdə erməni mənfurları tərəfindən işğal edilərkən atam və əmilərim qocaların, uşaqların, ümumilikdə dinc, silahsız sakinlərin salamat qurtarması üçün xüsusi fəallıq göstərmişlər. Kənd işğal edilәndə əmimin qızı, yəni Qazimizin anası İmarət xanım erməni hücum etdiyi istiqamətində, kəndin kənarında yerləşən qoyunçuluq fermasında qalmış, onu min bir əziyyətlə fermadan çıxartmışdılar. Bundan da anlaşılır ki, Qazimiz də, Qazimizin anası da çətinliklərlə dolu, əziyyətli bir yolun yolçusu olmuşlar.

Babamın insanlıq mücəssəməliyi əmimə, əmimin bu xüsusiyyətləri isə bizlərə ötürülüb... Nəsillərimizdən keçib gələn xoş niyyətli əməllər şükürlər olsun ki, bu gün özünü doğruldub. Əmimin nəvəsi öz qəhrəmanlıq dastanını təvazökarcasına mənə danışırsa, mən də gələcək nəsillər məlumat ala bilsinlər deyə kağız üzərinə köçürməliyəm. Bu da onlar qarşısında mənim müqəddəs borcumdur.



Qarabağ Qazisi Qasımov Rauf Teymur oğlu 10 iyun 2000-ci ildə mənim ata yurdum olan Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində anadan olmuşdur. Belə ki, erməni mənfurları Raufun ata yurdu Ağdamın Mərzili kəndini işğal etdikdən sonra ev-eşiyini itirən ailə başqaları kimi işğal olunmuş ərazilərlə təmas xəttində yerləşən Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində məskunlaşmışdır. Ermənilər 12 iyul 1993-cü ildə ilk dəfə Ağdamı mühasirəyə salmaq üçün rayonun Mərzili və Yusifcanlı, eləcə də Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndinə qəflətən hücum etmiş, təkcə Yuxarı Qiyaməddinli kəndində 10 nəfər dinc sakini vəhşicəsinə qətlə yetirməklə 200-dən çox evi yandırıb külə döndərmişlər. Qonşu Mərzili kəndi işğal edildikdən sonra digər kənd sakinləri kimi Teymur Qasımovun ailəsi də qonşu Yuxarı Qiyaməddinli kəndindəki qohumlara pənah gətirərək həmin kənddə məskunlaşmış, İmarət xanımla ailə qurmuş, Rauf, özündən böyük qardaşı Həbib və özündən kiçik, hazırda Naxçıvanda ordu sıralarında xidmət edən qardaşı Rahib də həmin kənddə dünyaya gəlmişlər. Rauf burada dil açmış, Ana, Vətən sözlərini ilk dəfə burada söyləmiş, 6 yaşına qədər burada böyümüşdür. Qüdrətli dövlətimizin və onun qayğıkeş Prezidentinin qaçqınlara və





məcburi köçkünlərə göstərdiyi yüksək diqqət və qayğının sayəsində köçkünlər üçün qəsəbələrdən biri də Ağdam rayonunun Baharlı kəndi yaxmlığında tikilməklə köçkünlərin istifadəsinə verilmiş, həmin köçkün ailələrindən biri də Teymur Qasımovun ailəsi olduğundan 27 dekabr 2006-cı ildə Rauf da ailəsi ilə birlikdə Ağdam rayonunun Baharlı qəsəbəsinə köçmüş və orta təhsilinə qəsəbədə başlamışdır. 4-cü sinifə qədər Baharlı qəsəbəsində orta təhsil alan Rauf atasının Xocavənd rayon polis şöbəsində işləməklə ən bacarıqlı polis əməkdaşı olması, qəsəbə ilə iş yeri arasında məsafənin çox olması nəzərə alınaraq Beyləqan rayonu ərazisində yerləşən Xocavənd qəsəbəsinə köçmüş və orada orta təhsilini davam etdirmişdir. Atasının iş yerinin Ağcabədi rayonunun Taxta körpü ərazisində yerləşən Laçın rayon polis şöbəsinə dəyişdirilməsi ilə əlaqədar Rauf 4 ildən sonra, 2014-cü ilin mart ayının 16-da ailəsi ilə birlikdə yenidən Baharlı qəsəbəsinə qayıtmış, bundan sonra Rauf 11-ci sinifə qədər orta təhsilini davam etdirmişdir.

Vaxt-vədə yetişdi, Raufun 18 yaşın tamam oldu, o, vətən borcunu yerinə yetirməsi üçün özünün uşaq vaxtlarından arzuladığı, kişilik məktəbi olan hərbi xidmətə çağırıldı. Qismətdən hamıdan gizlədərək ən ülvi arzu tək qəlbində sirr kimi daşıdığı Dövlət Sərhəd Xidmətində hərbi xidmətinə başladı. Əyninə əsgər forması geyinən gündən Rauf ancaq torpaqlarımızın bütövlüyü dərdini, torpaq həsrətini çəkdi, torpaqlarımızın düşmən tapdağından azad olunmasında canla, başla iştirak etmək eşqi ilə yaşadı, buna görə bütün təlimlərdə iştirak etdi, silahları, onlardan istifadə qaydalarını dərindən öyrəndi. O, hələ görmədiyi, yalnız xəyallarında canlandırdığı ata vətəni olan təkcə Ağdamı yox, bütün Qarabağı, bütün Azərbaycanı tam, azad, firavan görmək istəyirdi.

Rauf 18 yaşından başlayan 18 aylıq hərbi xidmətində Vətənimizin çox yerlərini gəzib gördü. O, Zaqatalada, Cəlilabadda, Qobustanda, Füzulidə və digər regionlarda hərbi xidmətini davam etdirdi.

Vətən sevgisi həqiqi hərbi xidmətdən sonra onun köksündə daha da alovlanmağa başladı. Buna görə də o, tərxis olunduqdan sonra müddətdən artıq xidmət etmək üçün müraciət etdi və müraciəti müsbət həll olundu. Qazimiz 27 sentyabrdan başlanan Zəfər Yolundan əvvəl 6 ay təlimdə olub. 6 ay o, silahla yatıb, silahla durub, düşmənin başına od yağdıracaq silahı onun ən yaxın dostu, sirdaşı və könlünün munisi olub. Silah onun Zəfər Yoluna çıxmaq üçün tək yarağı olub. 6 ay içində gözünə düşmənin yuva qurduğu dağlardan və silahlardan başqa heç nə görünməyib. Kəpəz dağında, Qoşqar dağında, eləcə də Qazaxda və Ağstafada, Bığdağı deyilən yüksəkliklərdə və digər ərazilərdə aylarla təlimlərdə olub. Ona ancaq dağlarda təlim keçirilib.

Silaha və təlimə alışan Rauf ilk günlərdən belə özünü müharibəyə, cəngə, düşməni məhv etməyə hazırlaşdırıb. Döyüşə atılmaq üçün digər silahdaşları ilə birlikdə səbirsizlənirdi Rauf, bunun üçün günləri sayırdı, lakin önündə neçə ayları var idi.

Bu təlimlərdə o, bizim tox qalmağımız üçün ac qaldı, bizim şirin yuxu tapmağımız üçün yuxusuz qaldı. Bu, sadəcə, təlim idi. Ən çətini müharibədə olacaqdı... Lakin məşhur sərkərdələrdən birinin dediyi kimi təlimlər nə qədər çətin olacaqdısa, döyüş o qədər asan olacaqdı Rauf və Rauf kimi vətən fədailəri üçün... O da bunları nəzərə alaraq təlimlərin ən çətinləri ilə məşğul olurdu.

Rauf özü dastanında arzusunu da bəlli etdi: "Biz bilirdik ki, çoxlu dağlar aşacağıq.

Şuşa, Kəlbəcər və digər yerləri işğaldan azad etmək üçün çox keçilməz yerlərdən keçməli idik, axı biz öz dədə-baba torpaqlarımızı düşmən tapdağından azad etməli idik... "

O, Şuşanın işğaldan azad edilməsində iştirak edə bilməsə də, Şanlı Zəfər yolunun ilk yolçularından biri oldu..!

3366 m hündürlükdə olan Qoşqar dağına da çıxan Rauf hər dağa çıxanda özünü yeni bir torpağı azad etmiş kimi hiss edirdi. Bunun həqiqətə çevrilməsi üçün səbirsizlənirdi. Kəpəz dağından Göygölə necə baxırdısa, Şuşa dağlarından da İsa bulağına, Turşsuya baxmaq istəyirdi. Arzusuna çatmaq istəyirdi! Təbii ki, çatacaqdı! Çünki o, Azərbaycan əsgəri, haqq, ədalət əsgəri idi!

Rauf əsgər yoldaşları ilə birlikdə 6 ay ərzində gündə 400 gülədən istifadə etdiyini və səhər-axşam olmaqla gündə iki dəfə dağa çıxıb-düşdüyünü də deyir.

O, həm də bu 6 ayda it bələdçisi kurslarında olurdu. Ukraynadan gətirilən itlərin əhliləşdirilməsi ilə məşğul olurdu. İtlərin əhliləşdirilməsi çox çətin bir iş idi. Bu iş üçün çox vaxt tələb olunurdu.

Çətin kurslardan sonra artıq əsgərlər sınanmalı idi. Rauf və onunla birgə 12 əsgər it bələdçiliyinə görə müsabiqədə idilər. 12 nəfərdən 2 nəfər birinci olmalı idi.

Rauf bu müsabiqə üçün çox çalışdı. Sədaqətli heyvanın əhliləşdirilməsi onun üçün elə də çətin deyildi. O, özünü müsabiqəyə tam hazır hiss edirdi və müsabiqəni qazanacağına özündə inamı var idi, lakin özünə tam da arxayın deyildi. Bəlkə də bu onun təvazökarlığından irəli gəlirdi. O, bu təlimlərdən üzü ağ, alnı açıq çıxacaqdı. Elə də oldu! Rauf 12 nəfər təlimçi içərisindən seçilən 2 nəfərdən biri oldu! 6 ayın təliminin boşa çıxmadığını və müharibəyə, cəngə-hərbə tam hazır olduğunu sübut etdi! Raufun bu şücaətinə hərbçilər və təlimçilər heyran qalmışdılar.

6 aylıq zəhmətin gözəl bəhrəsi olaraq komandanlıq tərəfindən Raufa 1 həftəlik məzuniyyət verildi. O, yeni ilini ailəsi ilə bir yerdə qarşıladı. Təzə ildən xidmətinə sevə-sevə əhliləşdirdiyi sədaqətli iti ilə Qusarda sıravi əsgər kimi davam edən Rauf burada Azərbaycan-Rusiya sərhəd zastavasında xidmət edir, durmadan öz üzərində çalışır, hərbi xidmətinin bitməyinə 3 ay qalmış xidmətini könüllü davam etdirmək üçün yazılır və bu dəfə yenidən 3 ay kurslarda olur. Kursları müvəffəqiyyətlə bitirən qəhrəmanımız ən böyük uğurlarından birini qazandı və kiçik gizir rütbəsinə yüksəldi! 2019-cu ilin fevral ayının 17-də kiçik gizir kimi xidmətə başlayan və kəşfiyyat bölüyündə çalışan Rauf daha da böyük həvəslə xidmətini davam etdirirdi.



Kəşfiyyat bölüyündə xidmət edən qəhrəman Qazimizin bundan sonra çətinliyinin daha da artan günləri başlayırdı. Kəşfiyyatçı demək hər çətinliyə sinə gərmək və nə olursa olsun, davam etmək, müdafiə etmək demək idi. Gecə-gündüz təlimlərdə olan, yuxusuz gecələr keçirən Qəhrəman günü-gündən öz peşəsinə daha çox həvəslənirdi və o şərəfləndirici günün yaxınlaşdığını hiss edirdi.





Ümumi təlimləri bitəndə də o, hətta istirahət vaxtlarında belə çətinliyi hiss etmədən, durmadan, yorulmadan fərdi qaydada öz üzərində çalışır və özünü həmişəkindən də çox Vətən Müharibəsinə hazırlayır, inanırdı ki, bir gün gələcək və o, torpaqlarımızın ərazi bütövlüyünün bərpa olunmasında iştirak edəcək, bu Vətənin hər qarışını qəhrəmanlıqla müdafiə edəcək, Allah tərəfindən sınanacaq, gücü-qüvvəti əksilməyəcək və Vətən üçün hətta canından belə keçməyə hazır olacaq! Ən qısası, Vətən Qəhrəmanı olacaq!

Və nəhayət o gün artıq gəldi-çatdı! Zəfəri qazanmağın vaxtı gəldi!

Qazimiz cənab Ali Baş Komandanımız İlham Əliyevin əks-hücum əməliyyatlarının keçirilməsi barədə uzun illər həsrətlə gözlədiyimiz əmri haqda məlumatı 27 sentyabr 2020-ci il gecə saat 2-də aldı və Daşkəsən istiqamətində cəbhə xəttinə doğru hərəkət etdi. Artıq səhər saat 7-də əks-hücum əməliyyatı başlamışdı. Silahdaşları ilə birlikdə qəhrəman döyüşçü Rauf aslan kimi irəliyə şığıyır, qarşısına çıxan mənfur düşmənlərin başına od ələyir, onları məhv edirdi. Düşmənlər onun qarşısında aciz durumda idilər, bu cəsur döyüşçüyə heç nə edə bilmirdilər deyə canlarını xilas etmək üçün qaçırdılar. İlk gündən düşmənlər başlarını sərt qayaya çırpmışdılar. Rauf və əsgərləri düşmənlərə aman vermir, onları görən kimi məhv edirdilər. Onlar təlimat almışdılar ki, artilleriya düşmən postunu vurmalıdır və bununla da, növbəti düşmən postu ələ keçirilməlidir. Ordumuzun ilk hədəfi Daşkəsən istiqamətindəki yüksəkliklərdə yerləşən düşmən mövqeləri idi. Həmin günü saat 10-a qədər onlar döyüşdülər və artilleriya sona qədər zəruri nöqtələri intensiv atəşə tutdu. Onlar hücuma elə həvəslə başlamışdılar ki, aclıq, yuxusuzluq, yorğunluq nədir bilmirdilər. Qələbə simvolumuz olan Xarı Bülbül üçün tələssələr də, səbirlə, təmkinlə, inamla düşmən başına endirdikləri saysız zərbələrin sonda Zəfərlə yekunlaşacağı hissi ilə döyüşürdülər...

Vətən müharibəsinin ilk saatlarından döyüş təyyarələri, raketlər, artilleriya qüvvələri düşmənin başına od ələdilər. Bir neçə saat müddətinə əks-hücum əməliyyatı şiddətlə davam etsə də, düşmən 30 ilə yaxın müddətdə inşa edib gizləndiyi istehkamları tərk etməyərək müqavimət göstərirdi. Deyəsən, onlar Azərbaycan əsgərlərindən əməlli-başlı bir dərs almaq istəyirdi. Bu dərsi isə onlara snayperçi-kəşfiyyatçı gənc gizir Rauf Qasımov və onun əsgərləri verəcəkdi!

Düşmənlər saat 10-11 radələrində minaatanlar, artilleriya qurğuları və QRAD-larla daha çox müqavimət göstərir, Azərbaycan əsgərlərinin irəliyə atılmasına çətinliklər yaradırdılar. Əsgərlərimiz çətin, dağlıq relyefdə, hava isə dağlıq şəraitinə uyğun olaraq soyuq idi. Buna baxmayaraq, Allah sona qədər şərait yaradacaqdı ki, əsgərlərimiz üşüməsinlər, çünki onları vətən sevgisi, Zəfərin astanası isidəcəkdi. Onlar yağışda islanmasınlar. Kəlbəcərə qədər irəliləyib dolub-daşan İstisuda çimsinlər. Allah bu şəraiti yaradacaqdı və Əsgərlərimiz Aslan kimi Zəfəri dadacaqdılar!

Hələ Zəfərə gedən 44 günün ilk günü idi... Düşmən sağdan, soldan və düz istiqamətdən əsgərlərimizi mühasirəyə almışdılar. Bu zaman düşmən postunu ələ keçirmək çətinləşirdi. Düşmənin olduğu mövqelər dağlıq ərazilərdə, əlçatmaz strateji yüksəkliklərdə idi. Məğrur Ömər yüksəkliyi artıq öz əsgərlərini qarşılamaq üçün səbirsizlənirdi. Çoxlu dağlar və yüksəkliklər var idi ki, oraya ermənilər başqa adlar vermişdilər. Təbii ki, həmin dağlar və yüksəkliklər də öz əvvəlki adlarının çəkilməsi üçün səbirsizlənirdi.

Artıq yeni hədəf bəlli idi: Ömər yüksəkliyi!

Strateji cəhətdən daha öndə olmaq üçün əsgərlərimiz yüksəklikləri elə ilk anlardan bir-bir azad edirdilər. Qəhrəman qazimizin dediklərindən:

"Artıq neçə saat keçmişdi. Biz məqsədimiz Zəfər olarkən ilk anda bir neçə kəndimizin işğaldan azad olunma xəbərini aldıq! Allah bundan sonra əsgərlərimizə daha da çox ilahi nur payladı və elə bundan bir neçə saat sonra, axşam saat 6-da əsgərlərimizin artilleriya zərbələri daha da gücləndi. Əsgərlərimiz qartal kimi düşmənin üstünə şığıyırdılar. Aslan kimi kükrəyib bozqurd kimi nərə çəkərək dağlara dırmanırdılar. Torpaqlarımızın işğaldan azad olunması üçün yeni-yeni hədəflər bəlli olmağa başlayırdı. "Mən qanadlanıb uçmaq, ilhamlanıb yeni-yeni dastanlar yazmağa hazırlaşarkən mənim Qazim də silahı ilə Vətənin ən böyük azadlıq dastanını yazırdı. Artilleriya çoxdan düşmən postunu vurub məhv etmişdi. Əsgərlərimiz durmadan irəliləyirdilər. Türkə durmaq yaraşmazdı! Düşmənlə qabaq-qabağa, həm də əlbəyaxa döyüşən əsgərlərimiz onlara aman vermədilər. O saat darmadağın etdilər!

Təbii ki, mənim Qazim dastanında şəhidlərimizin olduğunu da deyir... Əslində, bu itki deyil... Biz onları qazanmışıq... Yenidən qazanmışıq... Zəfərlə birlikdə onlar yenidən bizə qayıdıblar... Onlar ölməyiblər... Onlar Şəhidlik zirvəsinə ucalıblar və ruhları şad olaraq azad edilmiş torpaqlarımızın səmalarında uyuyurlar...

"Kişi kimi döyüşmək üçün kişi olmaq lazımdır" deyiminin min birinci sübutu olaraq düşmən yenə arxadan vurmağı üstün tutdu və arxadan dəyən minamyot zərbəsi Qazimin ayağını yüngül yaraladı... Qazim heç bir ağrı hiss etmirdi. Ona görə də heç nə olmamış kimi ağrının yerinə vətən sevgisini məlhəm edərək dayanmadan döyüşürdü. Vətən sevgisi və qalib olmaq istəyi ağrıları tamamilə ona unutdururdu deyə "Haydı Döyüşə!" dedi Qazim!

Saat 8-də isə Əsgərlərimiz həmin dağı və yüksəklikləri də azad etdilər. Düşmənə növbəti dərs verərək neçə saat əvvəl "dərs verməyə çalışan"ları da birdəfəlik yox etdilər. Mühüm strateji yüksəkliklər əsgərlərimiz tərəfindən azad edilmişdi. Asan relyef şəraitində olsa belə arxadan vurmağa çalışan düşmənlərin oturduğu yerdə artıq Azərbaycan əsgərləri aslan kimi, öz torpaqlarında vuruşurdular! Onların postları da bizim əlimizdə idi, indi də bizim əlimizdədir! Növbəti mühüm tapşırıq da həll edilmişdi! Cəsur, qorxmaz, mərd, şərəfli əsgərlərimiz özləri kimi şərəfli Zəfər yolunda durmadan addımlayırdılar! Çətinliklə də olsa, dualarla, təkbirlərlə, sədalarla, imanla bu tapşırığın da öhdəsindən gəldilər!

Qazimiz Rauf Qasımovun dilindən; "Dövlət Sərhəd Xidmətinin xüsusi təyinatlısı olaraq azad etdiyimiz postlarda bir neçə saat gözlədik. Sonra Müdafiə Nazirliyinin əməkdaşları gəldilər və biz həmin yüksəklikləri onlara təhvil verdik. Özümüz isə növbəti tapşırıqların icrasına tələsdik"

Mənim Qazim bu şərəfli yolda ilk Zəfəri çaldı! Düşmənə növbəti dəfə qalib gələrək əməliyyatları sonuna qədər qəhrəmanlıqla icra etdi! Qorxmadan, yorğunluq nədir bilmədən, şərəfli yolda addımladı və bu yolda ayağına daş yox, raket belə dəysə, sürünərək, qarış-qarış da olsa yenə də bu yolda olacağını qərarlaşdırmışdı.

Növbəti qələbədən sonra onlara göstəriş gəldi ki, Daşkəsənə qayıtmaq lazımdır. Artıq Murovdağ yüksəklikləri, Talış kənd yüksəklikləri, Talış kəndi və Suqovuşan mənfur düşmən tapdağından azad edilmişdi, əlbəttə ki, bu qələbələrdə Qazimiz də yaxından iştirak etmişdi. Orada onunla çiyin-çiyinə mərdliklə döyüşmüş silahdaşlarından şəhid və qazi olanlar da var idi.





Qəhrəmanım öz silahdaşlarını və ümumilikdə Şəhidlərimizi və Qazilərimizi unutmur... *Unutmamağı özünə borc bilir! Heç birimiz unutmamalıyıq və unutdurmamalıyıq!* Bu torpağın hər qarışına Şəhidlər vermiş, Qazilər bəxş etmişik! Və sonunda onların sayəsində vətənimizə Zəfər şərbəti daddırmışıq!

Şəhidlərimiz və Qazilərimiz döyüş meydanından götürüldü. İlk Qazilərimizə can verildi, Vətən uğrunda canını qurban verən İlk Şəhidlərimiz isə dəfn edildi...

Artıq Tərtər-Kəlbəcər istiqamətində Qazimiz və onun silahdaşları qarşısında qoyulmuş tapşırıq layiqincə yerinə yetirilmişdi və indi onları vətənin azadlığı uğrunda yeni-yeni şərəfli tapşırıqlar gözləyirdi.

7 oktyabrda artıq növbəti döyüş tapşırığı verildi! Zəfər bizi gözləyirdi! Hədəf artıq Füzuli şəhəri və onun yaşayış məntəqələri idi!

Əsgərlər silah-sursatları götürdülər və günorta saat 1-də Füzuli şəhəri istiqamətində yollandılar. Axşam saat 11-ə işləmiş onlar uzun yol qət etdikdən sonra Füzuliyə çatdılar.

Əsgərlər Dövlət Sərhəd Xidmətinin komendantlığında idilər. Komandir onları qrup şəklində düzdü. Əsgərlər qrup şəklində düzülmüşdülər və hər qrupda 13-14 nəfər əsgər var idi. Ümumilikdə, orada Raufla birgə onun təqribən 150 nəfər əsgər yoldaşı cəmləşmişdi. Komandir əmrini verdi! Füzuli istiqamətində Zəfərə doğru irəli!

Qazimiz deyir ki, özümüzlə yemək götürmədik, ərzaq götürmədik. Onların əvəzinə çoxlu silah-sursat götürdük. Çünki döyüşdə ər kişinin arxa-dayağı çiyin-çiyinə döyüşdüyü əsgər yoldaşı, bir də silah-sursatıdır! Türkün silahı olmalıdır! Türkün silahı həm güc, həm qüvvət, həm də qələmdir ki, mən də Raufun dediklərini qələmimlə kağız üzərinə həkk edirəm və etməliyəm! Rauf deyirdi ki, artıq o qədər sursatımız, zəruri olan hər növ silahlarımız var idi ki, paltarımızda onları daşımaq üçün yer qalmamışdı.

Rauf 13 nəfərdən ibarət gizir heyətindən təşkil edilmiş snayperçi-kəşfiyyatçı qrupun tərkibində olmaqla həm də qrup komandirinin müavini idi. Qrup komandiri isə Ələsgər Ələsgəroğlu idi. Onun da adını qeyd etməyi özümə borc bildim. O, əsgərlərimizlə çiyin-çiyinə döyüşmüş və Raufla birgə böyük qəhrəmanlıq göstərmişdir!

Rauf onu da deyir ki, əgər qrup komandiri yaralansa və ya Şəhid olsa, qrupu özü idarə etməli idi. Həmin qrup komandiri isə hal-hazırda sağdır və Qələbəni qeyd edən, bizə qələbə bəxş edən minlərlə əsgərlərimizdən biridir!

Həmin gün saat 11-də əsgərlər onlar üçün narahat olmasınlar deyə öz ailələrinə zəng etdilər... Bəlkə də kimisi sonuncu dəfə öz ailəsinə zəng edirdi... Bu zaman insan o qədər duyğulu olur ki, sözləri ifadə etmək çətinləşir... Təkcə qrup yox, həmin gün Füzuli istiqamətində döyüşən bütün əsgərlər qarşılarına məqsəd qoymuşdular: Ya Qələbə, ya da yenə Qələbə! Bundan başqa ikinci yol yoxdur!

Rauf da öz ailəsi ilə danışırdı. İçindəki hisslər müxtəlif idi. İstəyirdi ki, anasının, atasının, ailəsinin səsini eşitməmiş Şəhid olmasın... Elə bilirdi ki, bundan sonra daha bir də ailəsi ilə danışmayacaq... Valideynlərinə bildirməsə də, çox duyğulu idi... Can

şirin şey idi, lakin Vətən ondan da şirin idi onun üçün! Rauf ailəsi ilə sonuncu dəfə danışırmış kimi danışdı. İçini bütünlüklə boşaltdı. Qismət... Bəxt... Tale... Döyüş Raufun alnına yazılmışdı Allah tərəfindən! Vətən uğrunda gedən bu döyüşdə ya Qazi olmalıydı, ya da Şəhid!

Hər şeyə sonuncu dəfə baxırmış kimi yanaşan Rauf zəngi dayandırdıqdan sonra təsəvvürünə çox şey gətirdi. Ağlından keçirdiklərini bir cümlə ilə ifadə etdi: "İnşəAllah valideynlərimin sinəsinə övlad dağı çəkmərəm, onlar məndən nigaran qalmazlar... "

Ərənim bundan sonra ancaq döyüşü düşünürdü! Cəngi düşünürdü, hərbi, düşmənin üstünə qartal kimi şığıyıb çökməyi, onu məhv etməyi düşünürdü! Bunun üçün qayaları çapıb, dağları dəlib, hər cür fədakarlığı edib Qələbəni xalqına bəxş etməyi, qismət olsa özü də görməyi düşünürdü! Eyni zamanda Şəhadəti də düşünürdü! Vətən adlı qaraca torpağı düşünürdü! "Getdi var, döndü yoxdur" sözünün qüdrətini, "Şəhidlik" zirvəsinin əzəmətini düşünürdü! O, bu döyüşdən sonra həmin torpaqda uyuya da bilərdi. Lakin Allah onu qoruyurdu... Rauf bunu bilirdi. Ona görə də bir az da inam hissi var idi. Yaşamağa inam! Ailəsinə, evinə, eşiyinə qələbəni gətirməyə inam! Yoldaşları ilə birgə Rauf bunları düşünürdü...



Rauf qorxmurdu, qorxudurdu! Qaçmırdı, yağı düşmənini qovurdu! İTİ QOVAN KİMİ qovurdu! Son nöqtəyə qədər düşmənləri qovurdu! Bununla o, fəxr edirdi! Düşmənləri qovduğuna görə, hər döyüşdən zəfərlə qayıtdığına görə, yatmış ruhları ayıltdığına, narahat ruhları şad etdiyinə, torpaqları Azad etdiyinə görə fəxr edirdi! Fəxr edirdi ki, bu Vətənin övladıdır! Türkdür, Türkün övladıdır!

Babalarının, nənələrinin bir vaxtlar su içdiyi bulaqları, gəzdiyi meşələri, çölləri, çəmənləri, dərələri, dağları, gördüyü hər qarış vətən torpağını azad etdiyinə görə fəxr edirdi, qürur hissi keçirirdi! Hər gün o, hər addım irəli getməsi ilə babalarının ruhunu narahatlıqdan azad edirdi! Buna görə fəxr edirdi! Fəxr edirdi ki, Azərbaycan türküdür və bu azadlıq mücadiləsinin bir parçasıdır!

Beləliklə, həmin gün saat 12-də artıq Rauf və döyüş yoldaşları növbəti döyüş tapşırığını yerinə yetirməyə tam hazır idilər. Onlar "Ya Qazilik, Ya Şəhadət, təki vətən sağ olsun!" deyib döyüşə atıldılar. Pələng kimi, ər kimi, nər kimi meydana atıldılar və Zəfər gününü daha da yaxınlaşdırmaq üçün döyüşdülər!

Füzulinin bir neçə kəndinin azad edilməsi uğrunda başlanılan həmin döyüşlərdə Rauf deyir ki, çoxlu sayda Azərbaycan fədailəri hərbi zirehli texnikalar və tanklarla düşmənin üzərinə ley kimi şığıyır, düşmənlərə aman vermir, düşmənin üzərinə doğru irəliləyirdilər. Yuxu onlar üçün heç nə idi. Çünki onlar körpələri güllə səsləri oyatmasın deyə döyüşürdülər. Ölüm onlar üçün heç nə idi, çünki Vətən, Haqq, Ədalət yolunda şəhadətin Allah dərgahında ən yüksək məqam olduğunu bilirdilər! Ulu Ruhların şad olma-





sı Raufun və döyüş yoldaşlarının əsas məqsədlərindən biri idi! Çünki onlar bu dünyadan narahat getmişdilər... Onlardan biriləri də onun öz babaları və nənələri idi... Allahım möcüzə edərdi, onlar bir anlıq yaşayardı, indi Raufun qəhrəmanlığına, onun barəsində yazılan bu qəhrəmanlıq dastanına baxıb fəxr edərdilər... Bəlkə də Allah dərgahında elə bunu da edirlər...

Keçdikləri yolların yaxınlığında azad edilmiş strateji yüksəkliklər, düşmənə məxsus, ordumuz tərəfindən məhv edilmiş QRAD qurğuları, müxtəlif hərbi texnikalar, hərbi maşınlar görünürdü. Müzəffər ordumuzun qarşısında davam gətirə bilməyən düşmən vurulmayan hərbi texnikaları qoyub qaçdığından ordumuz tərəfindən hərbi qənimət kimi götürülürdü.

Düşmən onların yerlərini bilməsin deyə Rauf və onun döyüş yoldaşlarının olduğu hərbi avtomobilin işıqları söndürülmüşdü. Çünki düşmən onları görüb tez artilleriya və minaatanlarla hücum edə bilərdi. Sürücü zil qaranlıqda avtomobili ustalıqla idarə edirdi, çünki Vətən, Ana harayına işıqsız da getmək olar... Bu, qaranlıqda qara pişik axtarmağa bənzəyirdi... Onlar isə qaranlıqda qara pişik axtarmırdılar, qaranlıqda Millətin işıqlı, sakit, şən sabahını axtarır, bunun üçün vuruşurdular! Hər dəfə döyüşə başlamazdan əvvəl Rauf əlini Allaha açıb sona qədər dua edirdi: "Allahım, Zəfərimizi daim eylə! Bizi müzəffər eylə! Bizi dərgahına göndər, ancaq Azərbaycan övladının ayağına daş dəydirmə! Allahım, Sən bizi qoru! Elə et ki, heç olmasa, sağ-salamat döyüşə çataq, pilotsuzlar kolonumuzu vurmasın! İzninlə səhəri sağ-salamat aça bilək, Allahım!"...

Allah Raufun duasını qəbul etdi... Hələ neçə duaları O, qəbul edəcəkdi... O, bu duaları qəbul etməklə qalmayıb Raufun şirin canını qoruyacaqdı...

Səhəri sağ-salamat açdılar. Düşmən onların kolonunu görə bilmədi. Səhər tezdən Füzuli rayonunun müvəqqəti işğalda olan kəndlərindən birinin yaxınlığına çatdılar. Rauf onu da deyir ki, oraya ermənilər ad qoymuşdu. Əslində, nəinki həmin kəndə, bütövlükdə Füzuliyə, Qarabağa onlar ad qoymuşdular. Axırda nə oldu? Rauf kimi Şanlı Əsgərlərimiz həmin adı elə ermənilərin özü ilə birlikdə cəhənnəmə göndərdi!..

Növbəti tapşırıq düşmən hərbi hissəsini nəzarətə götürmək və bununla da daha çox üstünlük qazanmaq idi.

Komandir öz əsgərlərini, igidlərini sıraya düzdü. Və mühüm tapşırığı verdi: "Növbəti tapşırığımız düşmən hərbi hissəsini darmadağın etməkdir! Düşmən qudurub, igidlərim! Hədlərini bildirməyin vaxtı gəlib çatıb! Onlara elə dərs verin ki, bundan sonra Türk igidinin gücü nə imiş, bilsinlər! Haydı, ərənlərim, analarımızın-bacılarımızın gözünü yolda, ürəyini həsrətdə qoymayaq! Füzuli bizim idi, bizim də olacaq! Türk Zəfərə yeriməlidir! Zəfərə!"

Və Türk oğlu Zəfərə yeridi! Rauf öz snayperçi mövqeyini tutaraq düşmənlərə əsl snayperçinin necə olduğunu göstərdi! Əvvəlcə Əsgərlərimiz HAROP-larla, artilleriya ilə düşmənə əks-hücum etdilər! Ondan sonra isə müdafiə olunmaq istəyən düşmənə Qurd Qapanı (Qurd fəndi) kimi basqın edildi! Düşmən çarəsiz vəziyyətdə qıvrılır, deşik axtarırdı ki, siçan kimi gizlənsin. Və tülkü kimi hiyləgərlik etməyə çalışırdı. Lakin Azərbaycanın rəşadətli əsgərinin bu yalanlara, bu hiylələrə qarnı tox idi! Bu döyüşdən əsgərlərimiz ancaq Zəfərlə çıxacaqdı! Onların əsas məqsədi bu idi!

Qabaqlarına hansı düşmən "əsgəri" çıxırdısa, hamısını ərənlərim dəryazla otu biçən kimi biçirdi! İmkan vermirdi ki, deşikdə gizlənsin. Demək olar ki, ərənlərimiz, əsgərlərimiz ancaq düşməni qovurdu! İTİ QOVAN KİMİ qovurdu! Düşmən qaça-qaça it kimi ləhləyirdi! Artıq onlardan nə tülkü çıxardı, nə çaqqal. Sonuncu dəfə bir Türk əsgəri, bir Əli Zülfüqarı kimi Bayraqdar görməsinlər, bir Koroğlu nərəsi eşitməsinlər deyə ağıllarına gələn tək fikir, əllərində olan tək imkan qaçmaq idi! Silahlarını, toplarını, hərbi maşınlarını, texnikalarını, hətta paltarlarını və şalvarlarını belə qoyub qaçan düşmən , təbii ki, ərənlərimiz qarşısında davam gətirə bilməzdi! Və Zəfər kimin idi? Türkün! Zəfər kimin idi? Allahın və Ona inananların!

Gecə sonuncu dəfə ailəsi ilə danışan və Qəhrəmanlıq dastanını yazmaq istəyən 7 nəfər həmin dastanlı gündə Şəhidlik Zirvəsinə ucaldılar! Allah Onlarla birgə bütün Şəhidlərimizə rəhmət etsin! AMİN!

Qazimiz Rauf həmin döyüşlə bağlı xatirələrində həm də deyir ki, "postu itirən düşmən yenə də hiylələrindən əl çəkmirdi. Məkrli planları qarşıda idi. Postu itirdikdən sonra hündür dağın başından bizi minaatanlarla vurmaq qərarına gəlmişdilər və vururdular. Lakin tez bir zamanda elə cəza aldılar ki, bu cəzanı heç bir düşmən almaq istəməzdi". Bu cəza Türkün düşmənə verdiyi cəza idi! Allahın qırmancı olan Türkün!

Rauf həm də deyir ki, "biz şükür edir və Allaha dua edirik ki, biz Azərbaycanın Üçrəngli, Nurlu Bayrağını həmin yerdə dalğalandırdıq! Qanlar və canlar bahasına da olsa biz həmin yeri işğaldan azad etdik! Şükür olsun Allaha! Füzuli Türk Vətəni idi və Türk Vətəni də oldu"!

Hərbi hissə çox geniş və böyük idi. O hərbi hissə ki, donuzların tövləsi olmuşdu və Azərbaycan Əsgərinin oraya ayaq basması ilə indi ora çox yaxşı bir hərbi hissə olacaq. Orada çoxlu yeməklər, ərzaqlar, əşyalar, silahlar var idi. Yollarda qalmış qənimətlər orada da dayanmırdı. Əsgərlərimiz yollarda qalmış bütün texnikaları qənimət kimi götürüb elə həmin texnikalardan düşmənin özünə qarşı istifadə edir və bununla da düşmənə hərtərəfli gözdağlarından birini çəkdirirdilər.

Artıq dan sökülmüşdü. Türkün sabahı açılmışdı. Saat 2-də əsgərlərimiz, ərənlərimiz şadlıqla bu yeni zəfəri bayram kimi qeyd edirdilər. Raufun ürəyinə dammışdı və yaqinləşdirmişdi ki, bu saat komanda veriləcək, yeni tapşırıq gələcək və biz yenidən Zəfər yürüşünə davam edəcəyik!

Elə də oldu. Qəhrəmanların komandiri gəldi və yenidən əsgərləri sırayla düzdü və dedi;

*– Ərənlərim! İgidlərim! Siz Füzulinin igidlər yetirmiş kəndlərini işğaldan azad etdiniz! Siz gecə yatmadınız, ancaq yorğunluq nədir bilmədiniz. 10 milyonluq arxa cəbhə isə əvəzində Sizin qəhrəmanlığınızdan qürurla danışdı! Sizin azad etdiyiniz kəndlərin xəbəri bu 10 milyonu sevindirdi! Artıq biz daha çox irəliləmişik! Strateji yüksəklikləri, üstünlük qazandıran yerləri işğaldan azad etmişik! İndi isə növbəti hədəf bir qəsəbədir! Növbəti hədəf: HADRUT QƏSƏBƏSİDİR!*

Əsgərlər sevinclərindən nə edəcəklərini bilmirdilər. Hadrutun işğaldan azad edilməsi Böyük Zəfərə daha da yaxınlaşmaq demək idi! SSRİ dönəmində azərbaycanlıları Hadrutdan məqsədli qaydada didərgin salmaqla əvəzində ermeniləri oraya yerləşdirdiklərindən orada o qədər ermənilər yaşayırdı ki, az qala ora "erməni şəhəri" statusu veriləcəkdi. Orada bir nəfər də olsun Azərbaycanlı tapmaq olmazdı. Hadrutun işğaldan azad edilməsi yağının kökünün oradan tamamilə kəsilməsi, təmizlənməsi, daha da çox iti qovan kimi qovulması, bununla da müqəddəs Şuşaya yolun açılması demək idi!







Düşməni sona qədər torpaqlardan qovmağa tam hazır olan və sonuna qədər bunu sübut edən ərənlərimiz və Rauf Hadrut istiqamətində yollandılar. Rauf sonuna qədər fəxr edərək və öyünərək deyir ki, "bu günə qədər qarışqanı incitmək istəməyən biz qarışqaları incidənləri (doğrudan da ermənilər həm təbiətə qarşı, həm də heyvanlara qarşı terror edirlər, torpaqlarımızdan qaçan zaman öldürdükləri itlər və ermənilərin can dostları olan donuzlar bunun bariz nümunəsidir) belə desək, evləri yandıranları, qadınlara təcavüz edənləri, qoca-cavan demədən başkəsənləri, ocaq söndürənləri, bir sözlə, dünyada yaşamaq haqqı olmayan parazit düşmənləri – erməniləri məhv edərək sona qədər torpaqlarımızdan qovurduq"!

O deyir ki, "sadəcə, düşməni məhv etməklə insanın hirsi soyumurdu, insan istəyirdi ki, bu günə qədər ermənilərin bizə qarşı etdiyinin hamısını erməni cəlladlarına qarşı etsin. Lakin biz bunu etmirdik, fərqimiz də elə bundadır... Fərqimiz olsun ki, Allah bizi bəyənsin və Zəfərimizi daim etsin! Onsuz da Türk Qələbəsinin Paradını izləyən ermənilər kütləvi olaraq qırılacaqlar və bir-birlərini didəcəklər... Onlar qeyri-rəsmi matəm elan edəcəklər, erməni "xalqının" matəmini... "

Hadruta doğru gedən yol sonra Şuşaya doğru uzanacaqdı... Şuşada da Şanlı Ordumuz Zəfər Tarixini, dastanını yazacaqdı! Rauf və döyüş yoldaşları fəxr edirdilər ki, yolboyu bu hərbi maşın gedirdi və dayanmırdı, çünki arxada qalan hər qarış torpaq azad torpaqlar idi. Bütün torpaqlar azad edilməliydi və edilirdi də!

Saat 3 radələrində Cəbrayıl istiqamətində yeri-yurdu olmayan və bunu özləri "bilməyən" düşmənlər Rauf və döyüş yoldaşlarının da içində olduğu "Kamaz"ı minaatanlardan və müxtəlif iriçaplı silahlardan atəşə tutdular. "Kamaz" sağdan və soldan, qarşıdan fasiləsiz atəşə tutulurdu. Təlaş yox idi... Qorxu yox idi... Sürücü o saat düşmənin bütün planlarının üstündən xətt çəkib dayanmadan sürətlə yoluna davam etdi.

Artıq onların əyləşdiyi "Kamaz" sürətlə Cəbrayıldan keçdi və Hadruta yaxınlaşdı. Tapşırıq daha da dəqiqləşirdi. "N" saylı xüsusi təyinatlılar Hadrutda döyüşən əsgərlərə kömək edərək Hadrut qəsəbəsini işğaldan azad etməli idilər!

"Kamaz"ın yük yerində oturan və deyib-gülən əsgərlər nə qorxurdular, nə də təşvişə düşürdülər. Sadəcə, Qələbəni, Qələbəni və Yalnız Qələbəni düşünürdülər! Hər dəfə olduğu kimi bu döyüşdə də onlar həyatla vida etməyə hazırlaşmırdılar. Rauf da həmin döyüşçülərdən biri idi... "Öldü var, döndü yoxdur" deyirdi!

Artıq qəhrəman ərənlərimiz Hadruta çatmışdılar. Rauf və əsgərləri Kamazdan düşdü

və yenidən yeni Zəfərə yollandı!

Xüsusi təyinatlılar Hadrutda idilər. Onlar döyüşə yeni çatan qardaş ərənlərini görəndə çox sevindilər və birgə Zəfər üçün döyüşdülər!

Zəfərə doğru olan bu yol zəhmətdən keçirdi. Rauf etiraf edir ki, "döyüş çətin keçirdi. Düşmən dağın başında, əsgərlərimiz isə aşağıda idi. Buna baxmayaraq, üstünlüyü Şanlı Əsgərlərimiz xüsusi bacarıqla tez əldə etdilər! Xüsusilə də "Harop"ların bu işdə rolu əsas və böyük oldu. Düşmənin qorxulu yuxusu olan "Bayraqdar" və "Harop" səmada rəqs edirdi və bununla da düşmənin əlindən əsas və önəmli strateji yüksəklikləri geri alırdıq"!

Komandir, mayor Ələkbərov qanlı döyüş gedə-gedə hər an ratsiya ilə əsgərlərlə əlaqə saxlayaraq onları daha da ruhlandırırdı:

– *Narahat olmayın, elə də uzaq məsafə qalmayıb. Strateji yüksəklikləri nəzarətə götürmüşük. Bir neçə saat sonra artıq Hadrut da işğaldan azad ediləcək! Üstünlük bizdədir! Əmr edirəm ki, döyüş meydanına daha çox "Harop"lar göndərilsin! Düşmənin yüksəkliklərdəki mövqeləri "Harop"larla vurulsun!*

"Bu ratsiya əlaqəsi əsgərlərimizin irəliləməsi üçün çox önəmli idi. Çünki əgər "Harop"lar göndərilməsəydi, Hadruta girmək bir az çətinləşə və ya gecikə bilərdi. Hadrut dağlıq və hündür bir ərazidə idi. Əvvəlcə "Harop"la dağlıq ərazilərdəki düşməni vurmalı, sonra isə hücum etməli idik"- deyir qazimiz Rauf.

Komandirin ratsiya əlaqəsindən sonra "Harop"lar düşmənin üstünə şığımağa başladı və düşməni mərmi yağışına boğdu. Bundan sonra düşmən artilleriya və aviasiya bombardmanları ilə darmadağın edildi, pərən-pərən düşdü, terrorçuların heç bir gücü qalmadı. Hücum edildi! Yüksəkliklərdəki düşmən postları da əsgərlərimiz tərəfindən darmadağın edildi!

Bundan sonra nədənsə, bir ara atəş səsləri dayandı. Haradasa, 10-15 dəqiqə sükut oldu. Silahlar lal-dinməz əsgərlərin qoynuna çəkildilər. Ən birinci atəşi vurulmuş düşmən postlarının əsgərləri dayandırdı, çünki artıq yetəri qədər silahları da yox idi, bitmiş və tükənmişdilər. Postda, demək olar ki, heç nə qalmamışdı. Dediyim kimi, pərən-pərən düşmüş uğursuz düşmənlər atəşi dayandırdılar və öz məhv edilmiş əsgərlərinin meyitlərinə baxmağa başladılar. Rauf deyir ki, "onların itkisi Hadrut döyüşündə çox idi. Atəşi dayandıran aciz düşmən həm də bu hərəkəti ilə yalvarırdı ki, Siz də atəşi dayandırın, daha atmayın. Yəni ermənilər istər-istəməz Türkün gücünü görməyə məcbur oldular! Mövqelərində güc ilə dayanan bir batalyon qədər "əsgər" Hadrut döyüşündə siçan kimi deşikdə gizlənməli oldu!"

Bu qədər yalvarışdan sonra Azərbaycan əsgəri, Azərbaycan ərəni yenə də düşmənə aman vermədi, əksinə, vəziyyətdən istifadə edib daha da irəliyə getdi! Düşmənlər artıq öz saatlarını sayırdılar, qorxduqları başlarına gəlmişdi! Türklər gəlirdi! Türklər dağın başına çıxaraq onlarla əlbəyaxa döyüşəcəkdi! Rauf Hadrut dağlarının başına qalxanda artıq təlimdə öyrəndiklərindən istifadə etməyin vaxtının gəldiyini daha da çox hiss edirdi!.. Təlimdə O, neçə-neçə Qarabağ dağlarının, Şuşa dağlarının, Murov dağının xəyalını qururdu! O xəyal gerçəkləşmişdi! Rauf və döyüş yoldaşları Hadrutu işğaldan azad edirdi!

Rauf deyir ki, "əlbəyaxa döyüşlər çətin, ancaq şərəfli idi. Düşmənin harada olacağını bilmirdin. On metrlikdən, on beş metrlikdən görməsəydin, onda avtomatik o səni görür və sənə hücum edirdi. Ancaq əl qumbarası və tapançadan istifadə olunurdu". Rauf ancaq Allahına dua edirdi ki, müzəffər olsun, bu Zəfəri də qazana bilsin və Hadrutun azadlığını görsün!





Elə də oldu! Türk oğlu, Türk aslanı Rauf və onun özü kimi Türk və özü kimi aslan yoldaşları Şişqaya yüksəkliyini də işğaldan azad etdilər! Hadrut Şişqayanın aşağı hissəsində qalırdı, yəni Şişqayanın azad olunması Hadrutun azad olunmasına bərabər idi! Azərbaycan əsgəri, Türk oğlu, Türk əsgəri Hadrutu işğaldan azad etdi və bununla da düşmənə ən böyük dərslərdən birini verdi!!!

Mən o 9 oktyabr gününü çox yaxşı xatırlayıram... Həmin gün Cənab Ali Baş Komandan Xalqına müraciət etmişdi və Hadrutun işğaldan azad olunmasını bəyan etmişdi! Sevincimiz qürur hissimizə qarışmışdı... Köksüm qabarmışdı... Ana yurdum, doğma yurdum Xocavəndimə nəfəs qədər yaxın olmuşduq o vaxt... İndi isə təkcə ona yaxın deyilik, həm də oradayıq!

Rauf deyir ki, "Hadrutda sakinlərdən heç kəs yox idi. Ora bütün Qarabağ şəhərləri, kəndləri və qəsəbələri kimi hərbiləşdirilmişdi. Heç bir şəraiti yox idi. Ancaq güllələbaran olurdu. Bir neçə erməni var idi ki, onlar da bizim Hadruta girməyimizdən əvvəl qorxub qaçmışdılar. Mən elə bilirdim ki, ədəbi, əxlaqı, şəxsiyyəti, mədəniyyəti, keçmişi, tarixi olmayan bu terrorist ermənilər ancaq müsəlman qocasına hörmətsizlik edirlərmiş. Demə, öz qocalarını da saymırlarmış. Hadrutda qalan qocalar və yaşlılar bunun bariz nümunəsi idi... Biz dünyanı vəhşilərdən növbəti dəfə xilas etmişik... "

İşğaldan azad olunan doğma Hadrutu gəzərkən Rauf orada minalanmış sahələri və xüsusilə də, hər tərəfdə hiyləni gördü və düşmən hiyləsinin yenidən şahidi oldu. Düşmən həmişə hiyləgər olub, ancaq bu qədər yox... Onlar evlərdə belə gizlənir, tanklarını belə yaşayış evlərinə yerləşdirirdilər. Sonra tank vurulanda deməyə dilləri olsun ki, bu yaşayış evini türklər dağıdıb. Türklər sizin ordunuzu dağıdıb ey, ey terrorçu dövlətin "yenilməz ordu"su! Türkün evlə nə işi? Evə qalsa, Türkün qızılla, zər-ziba ilə bəzənmiş bir ədalət sarayı var!

Rauf deyir ki, "düşmənlər yer altında tunellərdə gizlənir və burada anbarlar qururdular. Yəni, bir sözlə, siçan kimi deşikdə gizlənir və köstəbək kimi yerin altında yaşayırdılar". İndi də elə məğlub olublar ki, utandıqlarından (əgər utanmağı bacarırlarsa, bunlarda o xüsusiyyət varsa) yerin dibinə, yerin altına girirlər.

Zirzəmilərdə, hətta, taxtapuşlarda belə ermənilər gizlənir və "basqın" etməyə çalışırdılar. Rauf onu da gizlətmir ki, düşmən əsgərlərinin neçəsini elə zirzəmilərdən, taxtapuşlardan tapıb məhv ediblər. Həmin erməni hiyləgərliyi və erməni xisləti nəticəsində o, öz döyüş yoldaşlarını, silahdaşlarını itirib. Həmin qəhrəmanlar erməni tələsinə düşsələr də, düşmən hiyləsinə tuş gəlsələr də, son damla qanlarına qədər vuruşub Şəhid olublar.

Bu qədər hiylələrdən sonra bir də düşmən hiyləsi ilə qarşılaşmamaq və tək fənddə düşməni mat etmək üçün hansı binaya basqın edilməsinin zəruri olduğu öyrədilirdi. Rauf bunu təlimdə də çox əla öyrənmişdi.

Müdafiə Nazirliyinin Dövlət Sərhəd Xidmətinin Xüsusi Təyinatlıları və həm də kəşfiyyat bölükləri Hadrut qəsəbəsini düşmən işğalmdan azad etməyə müvəffəq oldu və

bu Zəfər döyüşündə müzəffər oldu! Bu Hadrut döyüşündə biz çox çətinliklə müzəffər olduq və Zəfər qazandıq! Bu Şanlı Zəfər üçün neçə-neçə Şəhidlərimizi vətən uğrunda qurban verdik, bayrağa bükdük, uğrunda canını fəda etdiyi torpaqda dəfn etdik. Həmin Hadrut Şəhidlərindən 7 nəfəri Raufun iş yoldaşı, döyüş yoldaşı və sirdaşı olub. Allah bütün Şəhidlərimizə rəhmət etsin! Amin!

Həmin qanlı və şanlı 9 oktyabr günü Raufla birlikdə Xalqın yaddaşından çıxmayacaqdır!

Axşam saat 8 idi. Qaranlıq düşmüşdü. Əsgərlər yorğun idilər. Dişləriylə, dırnaqlarıyla, tanklarıyla, toplarıyla azad etdikləri Hadrutdan doymaq istəmirdilər. Ancaq hələ də işğalda qalan vətən torpaqları onlardan nicat yolunu gözləyirdi. Azərbaycan əsgəri Şuşaya qədər irəliləməliydi və irəlilədi! Rauf artıq neçənci gecə idi ki, yuxusuz idi, heç özü də bilmirdi.

Komandir növbəti döyüş tapşırığını verdi və bildirdi ki, bir az gözləməliyik, ondan sonra isə yola çıxacağıq. Bu əmri eşidən kimi yorğunluq və yuxusuzluğun nə olduğunu bilməyən əsgərlər döyüşə səfərbər oldular və yenidən düşmən gülləsinə sinə gərməyə hazır oldular! Bu yolda onlar ölümü gözə almış və Şəhidlik Zirvəsinə ucalmağı şərəf bilmişdilər! Hər döyüşdən əvvəl onlar öz döyüş dostları ilə halallaşmış və qarşılarına məqsəd qoymuşdular: Ya Qazi, Ya Şəhid olacaqdılar! Qarabağı mütləq azad edəcəkdilər! Ulu̇ların Ruhlarını mütləq şad edəcəkdilər!

Növbəti tapşırıq isə bəlli idi: Cəbrayılın bir neçə kəndi və strateji yüksəkliklərini onlar işğaldan azad etməli idilər!

Əsgərlər sevinclə və böyük qələbə hissi ilə hərbi maşına mindilər və Cəbrayıla gedib, döyüş meydanına atılmağa tələsdilər..!

Döyüşqabağı Raufda elə bil başqa bir ruh var idi. Təkcə onda yox, bütün əsgərlərdə belə idi. Elə bil, həmişəkindən daha çox dostlarla halallaşmaq istəyirdi. Ürəyinə dammışdı ki, Allah onu bu yerdə sınağa çəkəcək. İgidlikdən də daha çox igidlik etmək lazım gələcəkdir. Onun ürəyinə dammışdı ki, bu yerdə ya Şəhid olacaq, ya Qazi! Onu başqa bir hiss bürümüşdü. Bir də ağlından onu da keçirirdi ki, yolunu gözləyən anası, ailəsi ilə kaş sonuncu dəfə danışaydı, hallarını soruşaydı... Ancaq Rauf heç heyfsilənmir, heç qorxmur, heç çəkinmirdi... Çünki hər yerdə o, hazır idi canını Vətənə qurban verməyə! Vətənin salamatlığı üçün Qazi olmağa, Şəhid olmağa hazır idi Rauf! Ona görə də bu döyüşə son döyüşü kimi baxırdı. Canı ilə, həyatı ilə halallaşırdı. Döyüş yoldaşlarına deyirdi:

*– Deyirəm, qardaşlar, Şükür ki, bu Vətən müharibəsi başladı! Şükür ki, biz Qarabağı azad edirik və edəcəyik! İnnən belə Şəhid də olsaq, Qazi də olsaq, Vətən müharibəsində bizim də adımız qızıl hərflərlə yazılacaq! Bizim də adımız gələcək nəsillərin dilinə düşəcək, bizim də qəhrəmanlıq dastanımızı yazan biri olacaq! Biz Şəhid olacağıq, adımızı körpələrə verəcəklər! Odur ki, "Var olsun Qarabağ! Var olsun Vətən!" deyib irəli atılaq və Zəfər çalaq!*

Qazimiz bu gözəl sözləri ilə əsgərlərimizə ruh verdi. Əsgərlərimiz ruhlanaraq, bir-birləri ilə söhbət edərək Cəbrayıla çatmaq istəyir, səbirsizlənirdilər.

Rauf öz döyüş yoldaşlarına hücum planları barədə danışarkən mənfur və heç vaxt





hiylələrindən əl çəkməyən düşmən "Spayk" rakcti ilə onların olduğu avtomobilin əsgərlər olan hissəsini vurdu... Raket Raufun 1 metrliyinə düşdü...

Bundan sonrası Rauf üçün qaranlıq idi... Heç nə hiss etmirdi... Nə qanlar içində sızıldayan başının, nə içindən qanlar fışqıran boğazının, nə də qaranlığa qərq olan gözünün ağrısını hiss edirdi Rauf... Heç bir şey hiss etmirdi... Çünki onları Vətənə qurban verməyə hazır idi! Canla-başla hazır idi! Bunlar üçün heyfsilənmirdi... Lakin qaranlığın içində bir işıq tapmaq istəyirdi... Gözünün ağrısına, canının sızıltısına baxmayaraq, işıq tapmaq istəyirdi...

O, çətinliklə də olsa ayağa qalxdı. Büdrəmədi və yıxılmadı... Ətraf bütünlüklə qan qırmızısı idi... Rauf bulanıq kadrları görməyə başlayırdı. Bir neçə dəqiqə əvvəl gülən, sevinən, danışan əsgərlərin cansız, amma Qurdbaş bayrağa sarılacaq olan bədənini... Artıq bulanıq da olsa, fərqinə vardı ki, düz yanında fışqıran qan onun boğazından gəlirmiş...

Sol gözünü tamamilə hiss edə bilmirdi Rauf... Ona görə də sağ gözünü güclə azacıq açmışdı... Qəlpə onun həm də vena damarını kəsmişdi... Burada çoxlu silahlar, sursatlar, mərmilər var idi... Onlar da partlaya bilərdi. Ona görə də Rauf Allahdan ilahi nur, güc və kömək istəyirdi. Ümidi Tək Bir Allaha idi! Allah onun bu etiqadına görə ona böyük bir güc verəcəkdi və onu bu sınaqdan üzüağ çıxardacaqdı!

İlahi nuru hiss edən Rauf qorxmadan və çəkinmədən ayağa qalxdı və daha da güclləndi. İstədi maşından düşsün. Çölə baxanda elə bildi ki, dərədən yuvarlanacaq. Bir an bu onun üçün çətinlik kimi göründü. Lakin bu olmalıydı. Şəhid döyüş yoldaşlarına, onların cansız bədənlərinə son dəfə baxdı və nə qədər çətin olsa da, özünü yanan hərbi maşından atdı.



*Qazimiz Rauf Qasımov şəhid dostu, can yoldaşı kiçik gizir Əkbər Mustafayev ilə*

Yenə də heç nə hiss etmədi. Güllələr bir-birinin ardınca yağır, mərmilər sıra ilə bir-bir partlayırdı. Hərbi maşın yanırdı. Kəşfiyyatçılarımız çətinliklə də olsa, qətiyyətlə və dəqiqliklə düşmənlə vuruşurdular ki, sonra yaralıları və Şəhidləri daşımaqda çətinlik yaranmasın.

Kənarda oturan və çıxa bilməyən yaralı Qazilərimiz hətta, alovu belə qırağa tullayırdılar ki, onlara manεə yaratmasın.

2 nəfər Qazimiz cəldliklə və özlərini itirmədən maşından yerə tullandılar. Onlardan biri də o vaxt təzəcə Qazi olan Rauf Qasımov idi.

Rauf mərmilərin ard-arda partladığı meydanda gördü ki, yenə də boğazından qan dayanmadan fışqırır. Ona görə də əlini boğazına tuta-tuta xüsusi təyinatlıların yanına gəldi ki, ona kömək edə bilsinlər.

Elə bu zaman Raufu mayor Səfərov Elvin gördü. Mərmilərin ard-arda partladığı, neçə dəqiqənin içində qırmızı rəngə boyanan maşından bir nəfərin belə sağ qal-

ması onu çox sevindirdi:

*– Şükür ki, əsgərlərimizdən biri sağ qala bilib. Ancaq indi ona kömək etmək lazımdır. Tez onu tibb məntəqəsinə aparın.*

Raufu tibb məntəqəsinə apardılar. Raufun özündə güc taparaq çıxdığı o hərbi avtomobildə həmin dəhşətli gündə 22 nəfərdən 17 nəfəri Şəhid olmuşdu... Həmin Şəhidlərin bir neçəsinin adını çəkməyi qazimiz onların ruhu qarşısında özünə böyük bir borc bildi...



1. Kiçik gizir Mustafayev Əkbər Natiq oğlu (02.07.2000-10.10.2020) – Mustafayev Əkbər Rauf Qasımova Vətən Müharibəsinin ilk günlərindən, ilk saniyələrindən, can olan, qan olan, sirdaş olan, hətta, qardaş olan bir Qəhrəmanımız idi. Onlar bir-birlərini Qardaş bilirdilər. Bir yerdə deyir, bir yerdə gülürdülər. Düşmənləri bir yerdə qovur, bir yerdə məhv edirdilər. Hadruta qədər bir yerdə, çiyin-çiyinə döyüşmüşdülər... Çiyin-çiyinə də yaralandılar... O dəhşətli 10 oktyabr günündə Əkbər Mustafayev Raufla bir yerdə, yanbayan idi. Raket onun yaxınlığına düşdü və O, qəhrəmancasına Şəhid oldu! Allah rəhmət eləsin!



2. Kiçik gizir Tağıyev Şahin Rəhim oğlu (03.07.2000-10.10.2020) – Şahın Tağıyev də Rauf Qasımovla çiyin-çiyinə döyüşən və onunla birgə yaralanan Qəhrəman idi. Düşmənləri birgə məhv edirdilər və birlikdə düşmənin qorxulu yuxusu olurdular. 10 oktyabr gününə qədər O, düşmənləri pərən-pərən salıb darmadağın etmişdi. Dəhşətli 10 oktyabr günündə O da Şəhidlik Zirvəsinə yüksəldi. Bəxt, tale təkcə buraya qədər gətirmir. O, hələ də sağdır. 2783 Şəhidimizdən biri olaraq... Təsadüfə bax ki, birlikdə Şəhid olan 2 Şəhidimiz – Əkbər Mustafayev və Şahin Tağıyev arasında sadəcə 1 günlük yaş fərqi var idi... Allah rəhmət eləsin!



3. Kiçik gizir Ramazanlı Əlizamin Umud oğlu (09.05.2000–10.10.2020) – Əlizamin Ramazanlı da 2000-ci ildə anadan olan və 10 oktyabr günündə Cəbrayıl istiqamətində hərbi maşında Şəhidlik Zirvəsinə yüksələn 3 Şəhidimizdən biridir. O, Faşizm üzrə Qələbə Günündə doğuldu və bizə Qələbə gətirmək üçün Şəhid oldu. O da faşistlərə qarşı döyüşdü və qəhrəmancasına Şəhid olaraq qalib gəldi. Allah rəhmət eləsin!



4. Kiçik gizir Məmmədov Əli Zeynal oğlu (06.12.1997 10.10.2020) Şəhid Məmmədov Əlilər ölmür! Azərbaycanda neçə Məmmədov Əlilər Şəhidliyə yüksəldi! Onlardan biri I Qarabağ Müharibəsində başından yara alıb Şəhid olan Ərənimiz, biri isə II Qarabağ Müharibəsində həsrət yaramızın olmaması üçün saysız-hesabsız yaralar alıb Şəhid olan Ərənimiz Məmmədov Əlidir! O da Rauf Qasımov ilə çiyin-çiyinə döyüşmüşdür, Qazimiz onunla birgə heç bir Şəhidini unutmur! Allah rəhmət eləsin!







5. Kiçik gizir Paxırov Elsevər Eyvaz oğlu (19.07.1997-10.10.2020) – 10 oktyabrda qəhrəmancasına Şəhadət şərbətini içən Şəhid Elsevər Paxırovun da qəhrəmanlığı unudulmazdır. Qazimiz onu da unutmur, hörmətlə yad edir və şahidi olduğu qəhrəmanlıqları yada salır. Allah rəhmət eləsin!

ALLAH ONLARLA BİRGƏ BÜTÜN ŞƏHİDLƏRİMİZƏ RƏHMƏT ELƏSİN! AMİN!

Qeyd etdiyimiz kimi, Rauf döyüş meydanında qalmışdı. İş yoldaşları əllərindən gələni etsələr də yenə də Rauf heç nə hiss etmirdi. Sadəcə, Allaha yalvarırdı ki, ona kömək olsun, onun üstündə axıra qədər dayansın, ona axıra qədər yar olsun! O arzulayırdı ki, sağalsın, yenidən döyüşüb düşmənlərdən dostlarının qisasını alsın, bundan sonra şəhid olsun və şəhid dostlarına qovuşsun! Qazimiz əməliyyat olunmalı idi. Lakin qanın laxtalanması üçün xüsusi maddə lazım idi. Eyni zamanda onun başında, gözündə, bütün bədənində qəlpə yaralarından dəhşətli ağrılar başlamışdı.

*– Morfin var? – Hərbçilərdən biri yanındakı iş yoldaşından soruşdu.*

*– Təəssüf ki... Morfin yoxdur... Qalmayıb... – əsgər təəssüfləndi. Onun gözlərindən kədər oxunurdu.*

*– Bura bax, ehey, ƏRƏN! – Raufa dünyaları verəcək, onu həyata qaytaracaq, onun ruhuna ilahi nurun dolmağına kömək edəcək həmin qəhrəman mayor rütbəli həkim otağa daxil oldu. - Hər şey yaxşı olacaq, morfin yoxdur, yoxdur, bu saat çatdıracaqlar ki, morfin versinlər. Ona qədər də dişini bir bozqurd kimi qıca və döz. Narahat olma! Sən sağ-salamat olacaqsan! Həkimlərin əlində nəinki bir xəstə qalır, əksinə, hələ sağalıb döyüşə can atanlar da var. Neçə əsgərimizə Şəhid deyiblər, həkimlər onları həyata qaytarıb, hamısı Qazi olub! İndi də sapsağlamdırlar! – Mayor Raufu sona qədər inandırırdı ki, dişlərini bozqurd kimi qıcasın, dözsün və Allahdan sona qədər imdad diləsin, yardım diləsin. – Narahat olma, Rauf! Hər şey yaxşı olacaq! Ailənin yanına qayıdıb Zəfəri onlarla qeyd edəcəksən! Bu günə də acı gün kimi baxıb xatırlayacaqsan.*

*– Çox yorulmuşam... Yuxum gəlir... – Rauf içində qalan son ruhu ilə bunu deyirdi.*

*– Əsla! Yatma! Yatsan, bir də ayıla bilməyəcəksən! Sənin əlini tutmuşamsa, buraxmayacağam! Sən buradan sağ çıxacaqsan!*

*– Yatmağım yaradan sızlamağımdan yaxşıdır...*

*– Yatma! Türkə nə gəlirsə, yatmaqdan gəlir! Yuxu yoxdur sənə! Döz! Növbəti ananın ağlamağına icazə vermə! Döz! Səbr et! Səbr edənləri Allah sevir! Hər şey yaxşı olacaq! Sən Türk ərənisən! Sənin ulu babanın sinəsinə ox dəyəndə o, həmin oxu iki yerə bölərmiş və döyüşü davam etdirərmiş! Bacararsan, igidim! Növbəti ana ürəyinin yanmasına imkan vermə! Döz!*

*– Dözə bilmərəm...*

*– Dözə bilmirsən? – Həyatverən mayorun gözü doldu. Elə bildi ki, son sözünü söyləyir Rauf. – Onda kəlmeyi-Şəhadət gətir... Son sözünü de... Həyatınla halallaşma, vidalaş... Mən sənin qulağına deyim, Sən də təkrar elə... İlahi nuru qəlbinə dolduraraq ruhunu bədənindən çıxar...*

Rauf elə bildi ki, sonuncu ruhu bədənindən çıxır, ona görə də kəlmeyi-Şəhadəti söylədi:

*– ƏŞHƏDÜ ƏN LA İLAHƏ İLLƏLLAH, ƏŞHƏDÜ ƏNNƏ MUHƏMMƏDƏN RƏSULALLAH!*

Bundan sonra Raufun gözü qaranlığa boyanmadı... Rauf, elə bil, yenidən həyata qayıtdı! Allah ona ən böyük ilahi gücü verdi! İki kəlmə onu ayağa qaldırdı! Möcüzələr yağdıran hərbçi Ən Böyük Möcüzənin gözü dola-dola seyrinə durdu:

*– Hey Maşallah, igidim! Ərənim, əsgərim! Türk əsgəri belə olmalıydı! Belə!*

*– Şad xəbər, morfin tapıldı! – iş yoldaşlarından biri həyəcanla bu gözəl xəbəri çatdırdı.*

*– Allahım, Sənə Şükür! – oradakı bütün hərbçilər, elə Raufun özü də bu cümləni neçə dəfə təkrarlayırdı...*

Həqiqətən, Allaha min Şükür! Neçə Qazimizi həyata qaytardı Qarabağla birgə!

Bu qanlı döyüşlərdə, həmin qanlı gündə onun fərqinə varan, ona kömək edən, onun canı yananda canı yanan Qəhrəman və Şanlı mayorumuz Səfərov Elvinin etdikləri danılmazdır! O, Allahın Raufa verdiyi ilahi nurun vasitəçisi olub. O, Raufu yenidən həyata qaytarıb. O, Raufla və bütün əsgərlərimizlə birgə əsl Vətən Müharibəsi Qəhrəmanıdır!..

Artıq demək olar ki, iş bitmişdi. Yaralar sarınmışdı. Ancaq Cəbrayılda, həmin hərbi avtomaşında sağ qalanlardan ən ağır yaralanan Qazimiz yarasının ağırlığına görə 3 saat hərəkətsiz bir şəkildə orada qaldı. Onun baş nahiyəsindən 35 mərmi qəlpəsi çıxarılmışdı... Lakin gözündəki mərmi qəlpəsi hələ də çıxarılmamışdı...

Qazimiz sona qədər Allahına Şükür edirdi! Allah onun ipini üzməmişdi, Allah onun həyat kitabını bağlamamışdı, qəhrəmanlıq dastanının davam edilməsinə vəsilə olmuşdu! 10 oktyabr 2020-ci ildə, Vətən Müharibəsinin ən qanlı günlərindən birində göydə Allah, yerdə qəhrəman həkimimiz bir Qazimizi də dünyaya, həyata belə qaytardı!

Ona tibbi yardım edildi. İlahi nura boyanan cəsur Qazimiz tibbi avtomaşına mindirildi. Burada onun yanında 7 nəfər yaralı əsgər var idi. Ən ağır yaralanan isə Rauf idi. Həkim sürücünü tələsdirirdi:

*– Sürücü, tez ol! Əldən-ayaqdan zirək ol! Burada 7 yaralı var! Ən ağır yaralanan Qasımovdur! Tez sür, Qasımov qan itirməsin! Tez sür, zirək ol, qan itirməsin! Tez ol!*

*– Qasımov, necəsən? Özünü necə hiss edirsən? – sürücü Raufa səsləndi.*

*– Zəfərə... ZƏFƏRƏ CAN FƏDA OLSUN!*

*– Maşallah, Maşallah mənim igidimə, mənim ərənimə, mənim əsgərimə! Türkə ayaqda durmaq yaraşar!*

Mən həmin günü heç vaxt unutmaram. 11 oktyabr günü artıq atama da məlum oldu ki, əmimin nəvəsi gözündən yara alıb, Qazi olub.

Mən atamın bu xəbəri eşidəndən sonra söylədiyi ilk cümlələri eşitdim və ayağa qalxdım. Bilirdim ki, əmimin nəvəsi də döyüşdə iştirak edir. Hisslərim bir-birinə qarışmışdı. Əmim nəvəsi ilə döyüşdə iştirakıma görə fəxr edir, yaralandığına görə təəssüflənirdim. Onun canını öz canım hesab edirdim, canım yanırdı, bu həqiqətən də belə idi, ona görə də Allaha dua etdim ki, onunla birgə bütün Qazilərə şəfa versin! Onunla birlikdə bütün Qazilərimiz üçün daha da narahat olmağa başladım.







Qazimiz isə həmin anlarda xəstəxanada əməliyyatda idi. Əməliyyatdan sonra həkim Qaziyə dedi:

*– İlahi möcüzədən və bu əməliyyatdan sonra demək olar ki, tam sağlamsan, Qazim! Bundan sonra qasırğa olsun, tufan qopsun, burulğan olsun, nə olursa olsun, sənə təsir edə bilməz. Sən Türk oğlusan! Sınaqdan üzüağ çıxdın! Səni təbrik edirəm! Gözün mərmi qəlpəsindən sonra iki yerə bölünmüşdü, gözünü tikmişik. Gözün tam sağalsın, bir müddət keçsin, o qəlpəni də çıxarıarıq. Dedim: "Uğurlar olsun!"*

*– Çox sağ ol... Çox sağ ol... Allah Türkə Yar Olsun!.. - əməliyyatdan yenicə çıxmış Qazimiz bir ağrı belə hiss etməyərək bu sözləri dedi.*

İndi isə həmin Qazim həmişəki kimi ayaqda durur, ailəsi ilə birgə Zəfər Paradını izləyir və fəxr edir! Fəxr edir ki, Azərbaycan Türküdür, AZƏRDİR, TÜRKDÜR, TÜRKOĞLUDUR! Fəxr edir ki, Vətən müharibəsində Qarabağ üçün, Azərbaycan üçün, doğma Vətən üçün savaşıb, vuruşub! Biz onunla fəxr edirik! Biz onunla və onunla birlikdə bütün Qazilərimizlə və Şəhidlərimizlə fəxr edirik! Onlara olan borcumuzun zərrəsini belə olsa ödəyə bilmək üçün Onların Qəhrəmanlıq Dastanını yazmalıyıq! Mən də minlərlə Şanlı Qazimizdən biri olan Qasımov Rauf Teymur oğlunun Qəhrəmanlıq Dastanını yazdım! Bununla da fəxr edirəm! Bu, mənim borcumdur!

Allah Türkə yar olsun və Zəfərimizi daim etsin!

***P.S. Mən bu məqaləni 10 dekabrda Zəfər Paradı günündə yazmışam. Həmin tarixdən 15 gün sonra, 25 dekabrda Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin sərəncamı ilə Hadrut uğrunda, Xocavənd uğrunda qəhrəmancasına döyüşən igidlərimizdən olaraq kiçik gizir, qəhrəmanımız Qasımov Rauf Teymur oğlu və məqalədə barələrində bəhs etdiyim Raufun can yoldaşları – Şəhid kiçik gizir Paxırov Elsevər Eyvaz oğlu və Şəhid kiçik gizir Mustafayev Əkbər Natiq oğlu "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildilər. Buna görə çox sevinirəm və Raufu səmimi qəlbdən təbrik edir, Şəhidlərimizin ruhunun şad olmasını diləyirəm!***

***Rauf Qasımovu xilas edən mayor Elvin Səfərov "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.***

*10.12.2020-26.12.2020*
*"Kredo" qəzeti, 29.12.2020, 08-14.01.2021*

# QİSAS GÜNÜNÜN FATEHİ



*Şəhid Sahil Habil oğlu Hüseynovun əziz xatirəsinə (12 iyun 2001-ci il Ağcabədi rayonu, Xocavənd kəndi- 9 noyabr 2020-ci il Füzuli rayonu, Aşağı Seyidəhmədli kəndi)*

Hər insana bu ali rütbə nəsib olmur... Şəhidlik!.. Bu ali rütbəni almaq üçün Vətəni hər zaman qorumalısan, güllələrə sinə gərməlisən, Şəhidlərin qisasını almalısan... Vətəni, torpağı sona qədər, son damla qanına qədər döyüşə-döyüşə müdafiə etməlisən... Vətənə layiq olmalısan, onun sənə verdiyi ada layiq olmalısan, bu adı doğrultmalısan... Vətənin şərəfini qorumalısan... Hər şeyi sonadək etməlisən, son damla qanına qədər: Vətənin şərəfini qorumağı, Vətənin hər qarış torpağını müdafiə etməyi, Şəhidlərin qisasını almağı... Bunları sonadək, son damla qanına qədər etdikdən sonra, o son damla qanın torpağa tökülüb torpağın rəngini dəyişdirdikdən sonra artıq Sən layiqsən bu ali rütbəyə!.. Onda ruhun bədənindən tezliklə çıxar və Şəhid olduğun yerdən Şəhidlik Zirvəsinə qədər yol çəkər... Cismin uğrunda can verdiyin vətən torpağının qoynunda, ruhun isə vətən torpağının səmalarında azad cövlan edib dolaşar o zaman...

Bu dəfə haqqında söhbət açacağım ərən, qəhrəman, Şəhidliyə, qisas günündə sonadək iştirak etməyə tam layiq olan ŞƏHİDLİK ali rütbəsinə yüksələn bir şəxs haqqında söz açacağam... Bir milləti qisas gününə yaxın edən, döyüşə qatılan, döyüşə-döyüşə, şəhidlər verə-verə qarşılayan, general Polad Həşimovun şəhadətini yaxından görən, onun ruhunu özündə hiss edən və qisasa yaxınlaşdıran döyüşdə də, qisas döyüşündə də iştirak etmək haqqını qazanan Şəhidimizin – Sahil Habil oğlu Hüseynovun dastanını oxuyaq bu dəfə...

Bəli, bu qəhrəmanımız səbir kasamızı daşdıran Tovuz döyüşlərində böyük hünər göstərib... Tovuz döyüşlərinin ilk günü onun ad günü imiş həm də... Gəlin, dastanın kuliminasiya nöqtəsindən başlamayaq... Ilk sözlərdən, ilk cümlələrdən başlayaraq oxuyaq bu dastanı...

Sahil Habil oğlu Hüseynov 12 iyun 2001-ci ildə Ağcabədi rayonunun Xocavənd kəndində dünyaya göz açmışdır. Əslən Xocavənd rayonundandır. O vaxtlar işğal olunan, hər qarışında qətliam törədilən, insanları qətlə yetirilən, dağ çəkdirilən Xocavənd rayonundan... Buna görə də Sahil ağlının kəsdiyi ilk günlərdən qaçqınlığın ailəyə verdiyi əzabı yaşayır... Xocavənd sözünü eşitdiyi gündən içindəki ruh bədəninin sözünə baxmır... Hələ ağlı təzə kəsən uşaq üçün bu, az hallarda baş verirdi. Lakin yaş ötdükcə ruh bədəndən çıxmaq istəyirdi elə bil... Sahil ilk təhsilini Ağcabədi rayon Xocavənd kənd 1 saylı tam orta məktəbində almışdır. İlk sinifdən son sinifə qədər çalışqanlığı,





bacarığı ilə seçilən Sahil müəllimləri tərəfindən təqdir olunurdu. O, xüsusilə, dərslərini yaxşı oxuyurdu ki, öz yurdu, öz milləti haqqında daha çox biliyə sahib olsun. O, Vətəni Azərbaycanı, onun ulu Qarabağını daha dərindən öyrənməyə çalışırdı. Tarix dərsini də Sahil gözəl öyrənirdi, öyrənməli, bilməli idi. O, bunu özünün vətən qarşısında ən müqəddəs borclarından biri sayırdı.

Bu dastanda bir məqamı qeyd etdım ki, Sahilin ruhu bədəninin sözünə baxmırdı. Tarix dərsini öyrənəndə elə bil Sahilin ürəyi olduğu yerdən çıxırdı. Yuxarı siniflərdə Qarabağın tarixini daha da mükəmməl öyrəndikdən sonra artıq Sahildə düşmənlərə daha çox qəzəb, kin, nifrət nümayiş olunurdu. Hər dəfə qartal baxışları elə bil deyirdi ki, vaxt gələndə düşmənə belə baxacağam. Əlləri elə bil deyirdi ki, vaxt gələndə silahı möhkəm sıxıb düşmənin bağrını yaxacağam. Torpaq həsrətli sözləri Sahil atasından, anasından eşitdikdən sonra günlərlə bu sözləri qəlbində təkrarlayırdı. Bununla da düşmənə kinini daha da artırırdı. Fələklə əlbir olan düşmən çox canlar yaxırdı. Sahil bunu çox yaxşı başa düşürdü. Soyqırımlar, vəhşətlər fələk-düşmən müttəfiqliyinin bir nişanəsi idi. Elə bil Sahil özünü yuxudan oyandırırdı. Düşünürdü ki, Oğuz elinə nə gəlirdisə, yuxudan gəlirdi. Hər dəfə xəyalına qaçqınlıq gəlirdi onun. İstəyirdi ki, torpaqlar azad olunsun, onlar doğma yurd-yuvalarına qayıtsınlar və onda onun ailəsi, eləcə də digər qaçqın və köçkün ailələri bir ağızdan desinlər: "BİZ QAÇ-QIN DE-Yİ-LİK!". Onun ən sevdiyi sözlərdən biri idi bu söz. Dili bu sözün, əli silah tətiyinin, gözü Azərbaycan xəritəsinin, bədəni, ruhu, mənliyi, özü Azərbaycanın aşiqi idi! 2019-cu ildə Sahil sonuncu sinifdə oxuyurdu. Günlərin tez gəlib keçməsini istəyirdi. Çünki, dediyim kimi, bu sinif son sinif idi. Bundan sonra Sahil ən ülvi istəyi bildiyi, qisas odunun qığılcımı olacaq hərbi xidmətə - kişilik məktəbinə yollanmalı idi. Özünü qisasa daha çox hazırlaşdırmaq üçün, qisas günlərinə daha da yaxın olmaq üçün O, mütaliəsindən də geri qalmırdı. Vətən həsrəti, torpaqlarımızın işğal altında olması, düşmənin tez-tez atəşkəsi pozması nəticəsində Vətən övladlarının şəhid olması barədə eşitdikləri onun qulaqlarında acı bir fəryada çevrilirdi artıq. Sahilin gözlərinin düz içinə diqqətlə baxan orada el-obasından didərgin salınmış 1 milyon qaçqının həsrətini, əzab-əziyyətini görə bilərdi. Güllə səslərindən qorxaraq oyunlarını yarımçıq qoyub qulaqlarını tutaraq qaçan uşaqlar elə bil ümidlə ona baxıb ağlayırdılar. Can verib qanıyla torpağın rəngini dəyişdirən igidlər qisaslarını alacağı ümidi ilə ona baxıb can verirdilər elə bil... Analar, bacılar ağır iztirablardan çıxış yolu ümidi ilə onun gözlərinə baxıb ərşi lərzəyə gətirən fəryadlarını dayandırardılar, sakitlik tapardılar elə bil...

Elə onda bu ümid dolu nəzərlərə, baxışlara dözə bilmədi Sahil, ümidləri doğrultmaq üçün əlini sonuna qədər sıxıb yumruq etdi və dedi: "Mən mütləq qisasa hazırlaşmalı, o böyük Qisas Gününü görməli, bu günün iştirakçısı, bayraqdarı olmalıyam! Mütləq! Doğma yurdum olan Xocavəndi mən azad etməliyəm! Düşmənə divan tutmalı, iti qovan kimi qovmalıyam, torpağımdan rədd etməliyəm, cəhənnəmə göndərməliyəm! Əgər hərbi xidmət müddətim bitənə qədər Qisas Günü yetişməsə, mən müddətdən artıq hərbi qulluqçu olaram, könüllü yazılaram, onu bilirəm ki, mən Qisas Gününü mütləq görəcəyəm! Bunu güllə səslərindən qulağını tutaraq oyununu yarımçıq qoyub qaçan uşaqların baxışları, can verib qanıyla torpağın rəngini dəyişdirən, qisasının alınmasını gözləyən

ərənlər, ah-naləsi, fəryadı göyləri titrədən ana-bacılar deyir! Bunu... Haqq deyir, Ədalət deyir, inləyən, düşmən tapdağında olan Vətən torpağı deyir!"

Sahil 11-ci sinfi müvəffəqiyyətlə başa vurdu və kişilik məktəbinə - hərbi xidmətə böyük həvəslə yollandı. Burada nə qədər təlimlər keçdi. Özünü hər an qisas gününə hazırlaşdırdı. Özü hiss edirdi ki, vaxtı gələcək və O, Xocavəndi görəcək, qalib ölkənin qalib ordusunun yenilməz əsgəri kimi Ulu Yurdunu görəcək, torpağına sığal çəkəcək! O, bunu bilirdi, hiss edirdi!. Ona hərbi forma çox yaraşırdı. Çünki o, əzəldən bir igid idi. O, təlimlərə də, döyüşə də, cəngə də, hərbə də hazır və layiq idi, təki Vətən torpağını azad etmək üçün bircə "İrəli", "hücuma" əmri verilsin. Lakin onun arzuladığı, görüşünə tələsdiyi günlər gəlib çatmırdı. Uzaqda qalırdı. Bir ilin keçməyinə rəğmən ancaq atəşkəs pozuntusu olurdu. Düşmənlər yenə də tülkü, çaqqal hiyləsi ilə at oynadırdılar...

Sahil böyük bir döyüş istəyirdi. Ancaq bununla O bilərdi ki, adını, ona dikilən ümidləri doğrulda bilər. Sahil bu döyüşün bir parçası olmaq istəyirdi. Qarabağı tezliklə azad edənlərdən biri olmaq istəyirdi. Vaxt var idi, zaman var idi... Vaxtı gəlməli idi... 2020-ci il Sahilin həyatını, sözün əsl mənasında, dünyasını dəyişdirdi... Sahili elə döyüş gözləyirdi ki, bu döyüşdən sonra O, bir an belə yerində dayana bilməyəcəkdi. Qisas odu hər dəfə bədəninin, ruhunun bir hissəsini yandırıb kül edəcəkdi. Qisas yuxuları görəcəkdi. Bu od onu elə yandıracaqdı ki, bu odun söndürülməsi üçün su yalnız Qisas Günündə tapılacaqdı... Həmin döyüş 2020-ci ilin iyul ayının 12-də baş verdi... İyulun 11-i Sahilin ürəyinə çox şey dammışdı. Bilirdi ki, bir döyüş olacaq, bu döyüş onu qisasa daha da yaxınlaşdıracaq. Çünki düşmən onsuz da quduz itə dönmüşdü, quduzluğu, hiyləsi, məkri artdıqca artmışdı. Atəşkəsi tez-tez və itkilər verməklə pozurdu düşmən. Bu, döyüş mesajı idi elə bil... Sahil gözlədiyi döyüşün tez gəlməsini Allahdan istəyirdi, səbirsizliklə istəyirdi...

12 iyul 2020-ci il... Səhər saatları... Hamı güllə səsindən diksinmişdi elə bil. Düşmən quduğanlığı artıq həddi, əndazəni çoxdan aşmışdı... Dayanmadan atəş açırdı kafirlər, özü də hara gəldi açırdılar. Yaşayış evlərinə də bu namərd güllələr dəyirdi. Komandir artıq işin heç də ürəyincə olmadığını çox yaxşı bilirdi. Onu da bilirdi ki, bu, adi atəşkəs pozuntusu deyil... Bu yeni döyüşün, böyük müharibənin başlanğıc əlamətidir.

Ona görə də bütün əsgərlər hazır oldular və düşmən tərəfindən açılan atəşlərə yerində, layiqincə cavab verməyə başladılar. Bu döyüş əsgərlərdən bəzilərinin ilk döyüşü idi. Elə Sahilin də ilk döyüşü idi. Elə bil Allah onun ürəyindən keçənləri eşidib 1 gün keçməmiş onun ürəyinin ən ülvi arzusunu yerinə yetirməklə Sahilə döyüş nəsib etmişdi. Sahil döyüşün olduğunu və onun da döyüşəcəyini eşitdikdən, biləndən sonra çox sevindi. Qəlbindən, içindən çox şey keçirtdi Sahil... İllərlə içində saxladığı qisas odu son vaxtlar sönürdü elə bil... Ancaq yox... Elə bil bu hisslər birdən vulkan kimi püskürməyə başladı... Lakin düşmənlə müttəfiqlik edən Fələk yenə də iş başında idi...

Ana səhər tezdən yuxudan duran kimi sevinə-sevinə oğluna zəng etdi. Ancaq zəngi cavabsız qaldı. Oğlu döyüşdə idi. Düşmənlərə qan uddururdu. İlk nigarançılıq o zaman başladı ana ürəyində... Ananın ürəyi tez-tez döyünməyə başladı. Narahatçılığı özünü daha da büruzə verdi. Sanki ürəyində kəskin sancı var idi. İçində bir boşluq hiss edirdi





ana. İnana bilmirdi ki, hansısa bir döyüş ola, Sahil də döyüşə. "Yəqin, özü bir də zəng edəcək " fikri ilə bir neçə dəqiqə gözlədi Ana... Ancaq zəng edə bilmədi Sahil anasına... Ana neçə dəfə təkrar zəng etdi oğluna, Sahil isə heç kəsin təsəvvür belə edə bilməyəcəyi qədər qanlı olan bir döyüşdə savaşırdı, vuruşurdu düşmənə qarşı. Düşmən isə sonuna qədər quduğanlığından, namərdliyindən istifadə edirdi. Atəşin ardı-arası kəsilmək bilmirdi. Get-gedə əsgərlərimizin işi çətinə düşürdü. Elə bu zaman...

Bir General, bir Sərkərdə, vaxtilə ən qanlı döyüşlərdən, ən çox Şəhid verdiyimiz döyüşlərdə döyüş yolu keçən, daim əsgərləri ilə çiyin-çiyinə, hətta onlardan öndə döyüşən, bu əməlləri ilə şanlı, şərəfli bir yol çəkən, bir millətin dirilişini gerçəkləşdirən, sözün əsl mənasında ali rütbəli şəxsiyyət üzünü düşmənə qarşı mərdliklə vuruşan əsgərlərə tutdu:

*– Ey ilk döyüşlərində belə mərd, belə şərəfli döyüşən, hələ neçə döyüş yolu keçəcək olan Azərbaycan Əsgərləri! Sizə bir sözüm var! Döyüşdüyünüz bu qanlı müharibə, ədalət savaşı Azərbaycanın ən şanlı döyüşünə bizi yaxınlaşdıracaqdır!.. Bizi ən böyük Zəfərlərə bu döyüş aparacaqdır! Bizi ən qanlı döyüşlərə bu an aparacaqdır! Mən Birinci Qarabağ müharibəsində, Azərbaycanın ən çox şəhid verdiyi Murovdağ döyüşündə iştirak edəndə Sizin kimi gənc idim. Qeyd etdiklərim mənim ilk döyüşlərimdən biri idi. O döyüşlərdə düşmənə qalib gələ bilməsək də daim özümü qisas üçün hazırladım... Ancaq indi inanıram ki, bu döyüşdən qayıtmasam belə, bunu ruhumla hər an təsdiqləyəcəyəm: Qisas gününün gələcəyi gün mütləq yaxındır! Gələcəkdir!*

*Ey əsgərlər, Sizə vəsiyyətim Zəfəri bu xalqa yaşatmağınızdır! Sizə mirasım isə bu sözlərimdir!.. Bu dünyada bir Polad Həşimov var idi!.. Sizi Zəfərə az da olsa yaxın edənlərdən biri oldu!.. Məni unutmayın... Mənim ruhumu başınızın üstündə bilərək döyüşün və Zəfəri çalın, çalmalısınız, çalacaqsınız İnşəAllah!.. Ya Allah!*

Elə bu zaman namərdlər özlərindən də namərd bir güllə ilə o Generalın, o Qəhrəmanın bədənini dəldi... Bütün əsgərlər bu vəziyyətdən çox təsirləndi . Bunu heç bir əsgər özünə sığışdıra bilmədi... Ali rütbəli bir hərbçi zabit döyüş meydanında, əsgərləri ilə birlikdə, ön cəbhədə, səngərdə mərdlik, qəhrəmanlıq mücəssəməsi kimi şəhid olmuşdu, qisas almadan, qisası alınmadan şəhid olmuşdu... Döyüş meydanında olan bütün əsgərlər, hərbçilər onun adını hayqırdılar və yerlərində dayana bilməyib tətikdə olan əllərini sonuna qədər silahlarına sıxdılar. Gözlə görünən hansı düşmən "əsgəri" varsa, onu nişan aldılar... Ancaq Polad Həşimovu şəhid edən o namərd çoxdan dabanına tüpürüb döyüş meydanından qaçmışdı...

Sahil bu mənzərəni görən gözlərinə inana bilmədi, bir anlıq yerində dondu elə bil... İçində dəlicəsinə hayqırdı, Koroğlu nərəsi çəkdi. Yox! Bu, onun istədiyi döyüş deyildi. Bu döyüş namərd gülləsi ilə nahaq qana bulanmışdı... Bu döyüş millətin canından bir parçanı qoparıb aparmışdı... Bu döyüş o döyüş deyildi... Neçə gün davam edən Tovuz döyüşləri Sahilin yaşadığı vaxtda gördüyü ən çətin döyüş anlarından biri idi.

Sahildən xəbər ala bilməyən və onun xidmət etdiyi yerdə qanlı döyüşün olduğunu eşidən bir ailə də yasa batdı, boğuldu... Generalın şərəfli şəhadəti ilə qəm okeanında boğulan bir millətlə birgə...

Azərbaycan iyul ayında yayın qızmar istisindən deyil, düşmənin namərdliyindən od

tutub yanırdı... İyul ayının, yay günlərinin istisindən yox, şəhid general atəşinin, intiqam odunun, alovunun ərşə qalxan istisindən qovrulurdu...

Sahil də o döyüşdən sonra qovrulduqca qovruldu. Bundan sonra hər gün ağlına, gözü önünə o döyüş, qisasının alınmasını gözləyən şəhid generalın ruhu gəlirdi... Yuxularına girən, can verən, qan tökən igid artıq Polad Həşimov olaraq gözlərinə görünürdü. O, Tovuz döyüşlərindən əvvəl qisas odunda bu qədər yanmırdı. Ancaq ona elə gəlirdi ki, indi o ən yandırıcı odda yanır. Sahilin dərdinə dərman olan o günlər gəlmirdi ki, gəlmirdi. Buna görə də Sahil özünü çox pis hiss edirdi. Heç kəs onun kefini aça bilmirdi, üzünü güldürə bilmirdi. O, Şəhidlərin ruhundan həya edirdi. Onların qisasını almadıqca dünyanı özünə dar bilirdi. O, Özünü heç vaxt bu qədər pis hiss etməmişdi. Güllə yaraları bədəninin hər yerinə dəyib dəlik-deşik etsəydi O, belə ağrımazdı. Çünki O, qisas alıb Şəhid olacaqdı... Ancaq indi Sahil özünü qisas almamış kimi hiss edirdi. Atəşkəs hər dəfə pozulanda elə bilirdi ki, üzərinə qaynar qazanla su boşaldırdılar... Gözü intiqam alovundan başqa heç nəyi görmürdü Sahilin. Artıq "Vaxtı gələcək" sözü belə onu ovundura bilmirdi.

Ancaq vaxtı gəlmişdi! Allah dualarımızı eşitmişdi və bir milləti sevindirəcək o günü gətirmişdi! 27 sentyabr 2020-ci il günü gəlmişdi! Həmin gün Sahil yenidən oyanmış, ruhunu diriltmişdi. Yerə-göyə sığmırdı... Sevincinin həddi-hüdudu yox idi. Duaları qəbul, arzuları gerçək olmuşdu! Allah o günü yetirmişdi. 27 sentyabr Sahilin ad günü idi elə bil. O qədər sevinirdi ki, elə bil ad gününü ailə üzvləri, sevdikləri ilə birlikdə özü də xüsusi təmtəraqla qeyd edirdi...

Həmin gündən Sahil ürəyində qalan, Tovuzda gerçəkləşdirə bilmədiyi arzusunu gerçəkləşdirirdi... Var gücü ilə döyüşürdü. Hər döyüşdə elə bilirdi ki, başının üstündə General Polad Həşimov var, o şücaətlə döyüşdüyündən məmnun olaraq xəfifcə gülümsəyir, sağlığında olduğu kimi... Ancaq döyüş yoldaşlarından hər biri şəhid olanda Generalın Şəhadəti yadına düşürdü Sahilin. Vətən uğrunda verilən canlardan güc alıb daha çox döyüşürdü, Sahil qəhrəmanlığını daha çox sərgiləyirdi... Bir vaxtlar yanında Polad Həşimov şəhid olduğu üçün sevincindən nə etdiyini bilməyən düşmən indi onun yanında dabanına tüpürüb tülkü kimi qaçırdı. Sahil hər bir qeyrətli Vətən oğlu kimi düşmənin qorxulu röyası olmuşdu. Füzulinin azad olunmuş hər qarış torpağı gülər üzlə Sahili və onun döyüş yoldaşlarını qarşılayırdı. Hər işğaldan azad olunmuş kəndi görmək Sahil üçün Zəfər idi! Sahil hər an yeni-yeni zəfərlər qazanaraq şəhidlərin qisasını alıb ruhlarını şad edirdi!

9 noyabr 2020-ci il... Sahil Hüseynovun son döyüşü... Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndi... Bu torpaq da Azərbaycan əsgərlərinin yolunu otuz ilə yaxın müddətdə dörd gözlə gözləyirdi... Bu yaşayış məntəqəsi uğrunda döyüşlər hələ təzə-təzə gedirdi. Sahil də həmin döyüşlərdə iştirak edirdi. Ürəyinə elə bil dammışdı ki, bu, deyəsən, son döyüşdür. Gözünə Polad Həşimov daha çox görünməyə başlayırdı bu vaxtlar... Elə bil bu dəfə düz önündə idi, Cavanşirə, Babəyə dönürdü, ona da işarə edirdi ki, sən də mənim kimi, bizim kimi ol, düşmənə daha çox zərbə endir! Sahil yorulmaq bilmirdi. Arzusu olan ən ali rütbəni – Şəhidliyi qazanmaq, ona layiq olmaq üçün daha çox çalışırdı, vuruşurdu. Düşmənlər imkanları olsa Sahilin həmlələrinin qarşısını almaq üçün onun başına pul da qoyardılar. Ancaq öz başlarını qaşımaq üçün əl atarkən Sahil o əli bir güllə ilə qoparırdı. Düşmənlər nə qədər atəş açsalar da, Sahilə onların gülləsi dəymirdi. Dəysəydi də, o bu ağrı-acını hiss etmədən, dayanmadan, yorulmadan döyüşəcək, vuruşacaq, intiqam, qisas alacaq, aldıqca yaralarının ağrısını unudacaqdı...





Düşmənlə birlik olan Fələk bu dəm öz oyununu oynadı... Yenə saysız-hesabsız namərd güllələrindən biri Sahilə tuş gəldi... Sahilin güllə dəymiş polad bədənindən qan axırdı... Qan torpağı sulayır, torpağın rəngini dəyişdirirdi. Hava günəşli deyildi. Sahilin Şəhadətinə görə gün də açılmırdı səmada... Günəş də utanırdı elə bil.

Artıq Sahilin gözləri səmanın ənginliklərinə dikilmişdi, elə bu zaman şəhid general Polad Həşimov onun ruhu çıxacaq polad bədəninə əli ilə toxundu. Ürəyinin son döyüntülərini hiss etdi. Sahilə bu sözləri dedi:

*– Sən Şəhadətə tam layiqsən!.. Bir azdan Səni Şəhidlərin Cənnəti gözləyir!.. Allahın dərgahı gözləyir səni, paşam! Cənnətdəki həyatında sənə uğurlar olsun!*

Sahil kəlmeyi-şəhadəti söylədi və bədənindən çıxan ruhu ilə azad etdiyi Qarabağ torpaqlarının azad səmasında Şəhidlik Zirvəsinə doğru pərvazlanmağa başladı...

Qarabağın işğaldan azad olunması ilə Sahilin və bütün şəhidlərimizin qisası alındı... Bu dastandan sonra deməyə haqqımız var: Sahil Hüseynov Qisas Günü Fatehidir! Allah bütün Şəhidlərimizə rəhmət eləsin! Amin!

*15.02.2021*

*"Kredo" qəzeti, 17.03.2021*

## SAVAŞLARDAN ALNIAÇIQ, ÜZÜAĞ ÇIXAN QƏHRƏMAN



*Şəhid Sahil Ədalət oğlu Məmmədovun əziz xatirəsinə həsr olunmuşdur. (12 iyul 1996-cı il Ağcabədi rayonu, Yuxarı Qiyaməddinli kəndi-25 oktyabr 2020-ci il Qubadlı rayonu).*

***Yadımızdan çıxmamısan, çıxmazsan bir an,***
***Sənsən Xalqımıza Zəfər daddıranlardan.***
***Sənintək Ərlərlə yüksəlir Azərbaycan,***
***Savaşlardan alnı açıq çıxan qəhrəman!***

*Müəllif*

Xalqımızın 27 sentyabr 2020-ci ildən başlayan Zəfər Yolu, Qarabağın dirçəlişi, azadlığı yolu hamı-

mızı qanadlandırıb quş kimi uçurtdu Qarabağa... Mən bu Şanlı Zəfər Yolundan əvvəllər hərdən qanadlanıb uçmaq istəyirdim. Bununla belə Vətən müharibəsi hamı kimi məni də qanadlandırdı və mən daha hərdən uçmuram. Hər an, hər dəqiqə, hər saniyə ruhumu Vətən göylərində, Qarabağ səmasında, Qarabağ sədasında hiss edirəm. Uçuram Füzuliyə, uca Füzulinin heykəlini görməyə uçuram... Uçuram Cəbrayıla, Xudafərin körpüsündə can qardaşımı salamlamağa, bizi ayırdığı kimi birləşdirən Arazda paklanmağa uçuram... Uçuram Qubadlıya, Qaçaq Nəbinin ədaləti ilə köksümü qabartmağa, Əliyarın gücüylə fəxr etməyə, Həsən Qorxmazın səsiylə ötən xatirələrə dalmağa uçuram... Uçuram Zəngilana, Xudayarın dastanını oxumağa uçuram... Uçuram Laçına, bulağından su içib Kürdoğlu kimi nəğməkar olmağa, laçınlıq vaxtlarımı orada çiçəkləndirməyə uçuram... Uçuram Ağdama, qoşa minarəsində Allaha Şükür etməyə uçuram... Bir də Seyid Lazım ağaya bu sözləri demək üçün uçuram Ağdama: "Seyid Ağam, daha həsrətlə baxmayacaqsan Qoşa Minarəyə... Daha biz bütövük, birləşmişik, Qarabağla həmrəyik, oralara qayıtmışıq!"

Uçuram Şuşama, dağlarına qalxmağa uçuram... Alban kilsəsində tolerantlıq sərgiləməyə, Gövhər Ağasında Allaha sonsuz Şükür və dualar etməyə uçuram... Pənahəli xanın sözünün kəsərinə, Vaqifin, Vidadinin nəğməsinə uçuram... Doktor Dadaş Həsənovun, Əhməd bəy Ağaoğlunun haqq səsinə, nərəsinə uçuram...

Və sözün əsl mənasında Xocalıya uçuram... Xocalıda "Xocalı Azərbaycandır! Qarabağ Azərbaycandır!" deməyə uçuram...

Biz Qarabağa qayıdırıq, uçuruq... Hərdən yox, hər an... Onu da deməliyik ki, biz Qarabağın hər qarışında, hər yerində, hər an şəhidlərimizi yada salmalıyıq, onların əziz xatirəsini anmalıyıq... Onların bizə gətirdiyi Zəfər ilə öyünürüksə, qan yaddaşımızı yada salan Şəhidlərimizi unutmamalı, hər çətinliyə sinə gərən Əsgərlərimizi də görüb, qürurumuza qürur qatmalı, Qarabağın təmiz, saf havası ilə dolan köksümüzü daha da qabartmalıyıq... Zəfər nəğməmizi, dastanımızı Şuşada, Cıdır düzündə, poeziya bayramında uca səslə oxumalıyıq!

Hazırkı qəhrəmanlıq dastanımız isə bizi zəfərə qovuşduran şəhidlərimizdən birinə aiddir... Gözünü sabaha dikən, gələcəyimizə inanan, gələcəyimizin Zəfəri necə qeyd edəcəyini görərək sinə gərə-gərə düşmən gülləsinə dik baxan, heç nə bildiyi ölümə Şəhidliklə cavab verən Şəhidimizə... Qulağından, sinəsindən yaralanıb "Mən burada belə qalsam, ölərəm, ancaq, orada döyüşü davam etdirsəm, Şəhid olaram" deyib yataqdan qalxaraq yenidən döyüşü davam etdirən Şəhidimizə aiddir bu Qəhrəmanlıq Dastanımız!. . Dastana dönən 2855 Şəhidimizdən sadəcə birindən danışmaq istəyirəm: Şəhid gizir Məmmədov Sahil Ədalət oğlundan!

Gizir Məmmədov Sahil Ədalət oğlu 12 iyul 1996-cı ildə ata yurdum, uğrunda şəhid qanı tökülmüş, şəhid canı verilmiş Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində dünyaya göz açmışdır. Atası Məmmədov Ədalət Pəncalı oğlu Birinci Qarabağ müharibəsində iştirak etmiş, böyük şücaət göstərmişdir. Lakin, Birinci Qarabağ müharibəsindəki məğlubluğun acılığını Məmmədovlar ailəsi də dadmağa məcbur olur. Neçə illər Ədalət ata evinin pəncərəsindən qonşu kəndə - Ağdam rayonunun Yusifcanlı kəndinə baxıb özünü günahkar sayır. Əlacı olsa idi, əlinə bir silah alıb Yusifcanlıya gedərdi.





Düşmən gülləsinə tuş gəlsə də, gəlməsə də, Yusifcanlını görməsi ona bəs olardı.

Ancaq, ruhu nə qədər həsrətlə qidalansa da, ondan da çox intiqamla qidalanırdı Ədalət atanın. Oğlunu da belə böyütməyə başlayırdı. Doğulduğu andan Qarabağ həsrətinin acısı ilə üzləşən Sahil 2003-cü ildə qəhrəmanın adına olan və qəhrəmanlar yetişdirən məktəb olan Alı Mustafayev adına Ağcabədi rayonu Yuxarı Qiyaməddinli kənd 1 saylı tam orta məktəbdə təhsil alır. Ağlı kəsəndən ailəsindən, mühitindən, ətrafındakı yaşlılardan ancaq yurd acısı ilə bağlı söhbətlər, sözlər eşidir. Bu həsrətə görə heç kəsin üzü gülmür, hamı ölüm yatağında olan bir ümidlə dünyasını dəyişən "haqq" dünyasında yaşayır. O, hər dəfə atasından müharibənin acılarını, ağrılarını, faciələrini, erməni qatillərinin soydaşlarımıza etdiyi qəddarlıqları eşidir, qəm yükü ilə yüklənir, gözü qarşısında belə bir səhnə canlanırdı: "Hər yer qan içində idi... Qara torpaq qırmızı rəng almışdı elə bil... Mənfurlar bir anın içində hamının köynəyini qırmızı rəngə boyamışdı... Qırmızı rəng görməkdən insanın gözü ağrıyırdı, qara düşən gözlər kimi. Nə qədər müdafiə etsək də, düşmənin havadarlarına tab gətirə bilmirdik. Taqətdən lap düşmüşdük. Düşmənlər gülə-gülə bəzən insanların qaçmağını seyr edir, bəzən də zövq almaq üçün insanları güllələyirdilər. Kənd camaatını qurtarmaq üçün nə qədər maşınlar var idi. Hamısı da zorla çaydan keçmişdi. Bəlkə də, insanlar boğulmaq təhlükəsi ilə üz-üzəydilər, biz döyüşdəydik, o qədərini bilmirdik... Ancaq, onu bilirəm ki, 1994-cü ilin mayında uca Nadir şahın ən axırıncı qulu-köləsi olan ermənilər elə o uca Nadir Şahın nəvələrinə qalib gəlmişdilər... "

Gözləri önündə canlanan bu səhnələr elə bil Sahilin başına qaynar su tökürdü... Sahili içəridən didib-parçalayırdı bu mənzərə... Hər gün bu qanlı səhnələri xatırlamaq, evindən, yurdundan didərgin salınmış, qaçqın adı almış məzlum insanları hər gün görmək, onların nəzərindəki haqlı suallara cavab axtarmaq... Ağcabədidən harasa gedəndə, yola düşəndə, qaçqın laçınlıların olduğu Taxtakörpüdən də keçmək... Xocavənddə dəfn olunmalı olan insanların qaçqın olduqları yerdə dəfn olunmasına şahidlik etmək... Sahil bu acılara dözə bilmirdi... Bəzən için-için ağlamaq istəyirdi, ancaq bacarmırdı. Gözlərini sıxa bilmir, ruhunu, yumruğunu sıxırdı... Hamıyla birgə çəkirdi bu acını... Yuxusu ərşə çəkilmişdi... Atasının solğun üzünü görmək onun ürəyini parçalayırdı...

Orta məktəbin son sinfini bitirdikdən sonra Sahil axır ki, arzularından birinə çatırdı. O, hərbi xidmətə yollanacaq, kişilik məktəbinin partalarında bəzən böyük qəhrəmanlıq yolunu öyrənəcək, bəzən də o yolu özü yeriyəcəkdi. Sahil bunu həmişə istəyirdi. İstəyirdi ki, əsgər olsun, əsgər forması geyinsin, səngər onu gözləsin, döyüşlərdən-döyüşə atılsın, qələbə çalsın, bu dəfə xalq onu gözləsin... Sahil istəyirdi ki, Taxtakörpüdən keçəndə laçınlıları sevincli görsün... Laçın azad olunandan sonra onların üzündəki sevinci görsün... Qələbə sevincini... Bundan sonra istəyirdi ki, qaçqın laçınlılar öz doğma Laçınlarına həsrətlə baxmasınlar, o günləri isə ağıllarından çıxartsınlar. Dağlığın qanı Aranın üzünə çilənməməli idi... Bir də Azərbaycanın başını qara buludun bürüməsini istəmirdi Sahil... Atası kimi döyüşkən olmaq istəyirdi, ancaq, atasından fərqli olaraq, o, subyektiv səbəblərdən məğlubluqla bitən müharibənin yox, Zəfərlə bitən müharibənin izi, izçisi olmaq istəyirdi. Fidanmı qurudub Şəhid olmaq istəyirdi, yeni fidanlar həsrət çəkməsinlər deyə...

Bunun üçün Sahil hərbi xidmətə yollandı. Hərbi xidmət zamanı həmişə ağlından Qarabağı keçirtdi. Bir əmr gözləyirdi... Bunun üçün özünü hər an hazırlaşdırırdı. Keçirilən hərbi təlimlər də onu böyük müharibəyə qədəm-qədəm hazır edirdi. Bu məqsədlə verilən hər təlim onun üçün həyat dərsi idi. Təlimə sadəcə təlim olaraq baxmayan igid əsgər Sahil möhkəm dayanaraq hərbçi dostlarının, komandirlərinin yanında öz şanını qazanmış, qorumuş, saxlamışdı.

1 il yarım keçdi... Sahil 1 il yarımın necə keçdiyini bilmədi. Ancaq, özünü narahat hiss edirdi. O, bilirdi ki, hərbçilik onun işidir. Onun sevgisi Vətən, yarı silah, amalı Qarabağ idi! Bunun üçün O, hər əzaba qatlana bilərdi. Heç kəs onu bu işdən ayıra bilməzdi. Bunu Sahil özü də istəməzdi. O, ağlından bir daha keçirirdi: "Ancaq, onu bilirəm ki, 1994-cü ilin mayında uca Nadir şahın ən axırıncı qulu-kələsi olan ermənilər elə o uca Nadir Şahın nəvələrinə qalib gəlmişdilər... Qandan qorxan ermənilər qan axıdırdı... Qandan qorxan ermənilər... Nadir Şahın qul-kölələri... Ay Allah, Sən bu sınağı tez bitir!. . Mən daha atamın solğun üzünü görmək istəmirəm... İstəyirəm ki, onun beynində dolanan böyük yaranı silib atım. O, bəlkə də elə bilir ki, mənə, bizə məğlubluğu ancaq o bağışlayıb... Ancaq belə deyildi axı... Xocalının, Şuşanın məğlubluğunu atam kimi namuslu, arlı insanlar yox, papaqsız papaqlılar, "Şuşa getsə başına güllə çaxanlar" bağışladı bizə... Ancaq daha belə olmayacaq! Mən atama, təkcə atama yox, Azərbaycanıma Zəfəri bağışlayanlardan biri olmalıyam! Artıq bunu bilirəm! Döyüş alnıma yazılıb, bəlkə Şəhidlik Zirvəsi də!"

Sahil qərarını vermişdi, atasının solğun çöhrəsinə qələbə sevinci gətirmək üçün, Xalqın Zəfəri dadması üçün, narahat əcdad ruhların narahatlığına son qoyulması üçün orduda yenidən qalır, Vətənə xidmətini davam etdirirdi! Sahil zəfərin əsgəri olmaq üçün orduda qalırdı! Sahil Zəfərin açarı idi, açar isə onun beynində, fikrində, ürəyində, varlığında var idi!

Sahil Məmmədov kəşfiyyat qrupuna yazılaraq bu dəfə Füzuli istiqamətində xidmətini davam etdirirdi. Bu vaxtlarda O, bir neçə dəfə Füzulinin azad olunmuş ərazilərindən işğalda olan hissəsinə baxırdı... Dağlar adamın ürəyini dağlayır, torpaq elə bil insanı basdırmaq istəyirdi. İşğalda olan hər qarış torpaq ona "gəl, gəl nə olar, məni azad et, mən daha yorulmuşam, tükənmişəm düşmən tapdağından, mənə güc ver, əsgər!" deyirdi elə bil. Sahil bunu mənliyinə sığışdıra bilmirdi. Elə bilirdi ki, işğalda olan Yusıfcanlıya baxır. Keçmişində pərən-pərən düşmüş uşaqlığı, gələcəyində isə yurdunun, Vətəninin azadlığı... Ancaq, Sahil bu azadlığı indi istəyirdi. Bunun üçün hər gün çalışır, çabalayır, təlimlərdə iştirak edir, atəşkəs nə vaxt pozulsa, düşmənini susdurmağı daha dərindən öyrənirdi. Sahil üçün hər gün atəşkəsin pozulması adi hal almışdı. Hər dəfə atəşkəs pozulandan sonra istəyirdi ki, düşmənə daha böyük, daha ağır, sarsıdıcı dərs versin. Düşmənlər tərəfindən qəddarlıqla öldürülən körpələr elə bil əlini ona toxundururdu, deyirdi ki: "Bizim ruhumuzun şad olmasına səbəb ol! Qarabağı azad edənlərdən ol! Biz Qarabağın azad olmasını hiss etmək istəyirik! Bizi narahatlıqdan qurtar!". İllər keçir, vaxt keçir, düşmən əsilsiz-nəsilsiz qohumlarını Qarabağa göndərir, ilk insanlardan yadigar qalan mağaralarda "insan" olması mübahisəli olan terrorçuları saxlayırdı. Çətir şəlaləsində onun-bunun saşası-maşası çimir, Vaqifin büstünün yerinə haram məh-





sullarla dolu dükan tikilirdi. Hər gün Sahilin gözlərinin önünə bu kadrlar gəlirdi, heç gözlərinin önündən getmək də bilmirdi. Natəvan qərənfiliylə, Vaqif sözləriylə, Ağaoğlu fikirləriylə, Üzeyir ağısıyla Bülbül səssiz-səssiz deyirdi ki: "Qisasımızı al, əsgər!"



Sahil hər dəfə uzaqdakı erməni əsgərlərinə baxıb yumruğunu açılmaz dərəcədə sıxır və nərə çəkirdi: "Şəhidlərin qisasını alaraq, Qarabağı azad etdiyimiz vaxt gələcək! Vaxtı gələcək ey qəddar düşmən!"

5 il dişini sıxa-sıxa, varlığı ilə, bütünlüklə dözərək, əzablara qatlaşaraq, gözü önündə canlanan müharibə kadrlarına əziyyətlə baxaraq Qisas Gününü gözləyən Sahil axır ki, o günü görmüşdü! 21-ci əsr Türk dünyasının böyük sərkərdəsi, ulu Zəfəri çalan sərkərdəmiz, Ali Baş Komandan cənab İlham Əliyev dəmir yumruq kimi sıxılmış əlini açdı və irəlini göstərərək min illərlə danışılacaq Zəfərli müharibənin qapısını taybatay açdı, O, Sahil və Sahil kimilərin səbirsizliklə çoxdan gözlədikləri Əmri verdi! Bir əmr ilə 100 minlərlə hərbçilər, əsgərlər, zabitlər, vətən fədailəri bu əmri can qulağı ilə dinlədilər, son dəqiqəni də hazırlaşmağa sərf etdilər və köksləri qabara-qabara dedilər: "Qarabağ, bizi gözlə! Gəlirik!"

27 Sentyabr 2020-ci ildə Azərbaycanın Zəfər Yolu çəkildi! Ürəyi vətən torpaqlarının düşmən tapdağından azad edilməsi eşqi ilə döyünən 10 minlərlə Azərbaycan Əsgəri bu Zəfər Yolunu çəkdi! O yolu çəkənlərdən biri də gizir Sahil Məmmədov idi! Onun sevincinin həddi-hüdudu yox idi. İlk zəfərini qazanmış kimi hiss edirdi özünü. Kədərə qələbə çalmışdı ilk dəfədən. Atasını məğlub edən dəhşətlərə qalib gəlmişdi. Artıq bilirdi ki, atasının köksü qabaracaq, deyəcək ki, mənim gətirməli olduğum qalibiyyəti oğlum gətirəcək Vətənimə, nəhayət başımızı dik tuta biləcəyik. Hiss edirdi ki, atası narahatlıq keçirmir, əksinə, çox sevinir. Bilir ki, Qarabağ işğaldan azad olunacaq! O, əlini Allaha açıb Şükür edirdi... Artıq gün Zəfər günü olmalı idi bundan sonra, oldu da!. .

Sahil Qələbə eşqi ilə, Zəfər eşqi ilə, Qarabağın, Şuşanın azad edilməsi, dirçəlişi eşqi ilə, Füzulidə, Cəbrayılda şahin kimi düşmən üzərinə şığıyıb onları alnından vurur, öldürməkdən betər edir, qələbəni qazanmaq üçün düşmənə gözləmədikləri yerdən, gözləmədikləri anda sarsıdıcı zərbələr vurur, düşmənin qorxulu röyası olurdu. O, hər qarış irəli gedəndə bilirdi ki, getdiyi yerlər artıq yenidən Azərbaycanın müqəddəs, azad torpağıdır. Qarabağ yenidən Azərbaycandır!

Müharibənin uğurla keçən hər günündə atası onunla fəxr edir, onunla qürur duyurdu... Allahma Şükür edirdi ki, bu Zəfər müharibəsi, Vətən müharibəsi gerçəkləşdi... Artıq Ədalət kişi heç nədən utanmırdı, başını dik tuturdu. Daha da fəxr edirdi, özünü müharibənin bir əsgəri kimi hiss edirdi. Oğlunu Cavanşir, özünü Cavanşirin atası kimi hiss edirdi, haqlı idi, bu hissi onda oğlu Sahil yaratmışdı...

Ancaq, müharibə taleyi Sahilin üzünə gülmür, ona birinci dəfə fələyin qanlı gözü dəyir. Sahil döyüşdə ermənilərə ağır zərbə endirərkən və döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirərkən mənfur düşmənin zalım gülləsinə tuş gəlir. Nəticədə, sinə, baş və ayaq nahiyələrindən yara alan Sahil Saatlı rayon xəstəxanasına aparılır.

Sahil yaralandığı üçün doyüş bölgəsindən uzaqlaşdırıldığından çox təsirlənir. Travma alır. İlk dəqiqələrdən onu Saatlıya aparan həkimlərə gözündən yaş axıdaraq hayqırır:

*– Həkim, məni aparmayın! Aparmayın! Buraxın məni! İstəyirsiniz, lap sizə iltizam da verim, xahiş edirəm, məni ora, cəbhəyə qaytarın! Mən döyüşdə düşmənlərimi məhv edib, torpaqlarımızı azad edib lazım gəlsə, elə orada da şəhid olmalıyam! Mən xəstəxanada öz sonumu gözləməməliyəm! Döyüş mənim alnıma yazılıb, həkim, məni buraxmasan, ömrünün günahını qazanarsan! Mənim alnıma Şəhidlik yazılıb! Buraxın məni! Buraxın!*

Ancaq, çox gec idi. Artıq Sahil özünə gələndə Saatlı rayon mərkəzi xəstəxanasında idi və həkimlər onu müalicə etməyə başlamışdılar. Qulağında problem var idi. Keçici şəkildə qulağı funksiyasını itirmişdi, o, eşitmirdi. Sahil özünü müharibədən məğlubluqla çıxmış kimi hiss edirdi. Atası da döyüşlərdə yara alıb xəstəxanaya yerləşdiriləndə bu cür hiss etmişdi özünü. Yaralandıqdan sonra Sahilin gözünün önündə yenə də atası Ədalətin solğun çöhrəsi, ümidsizliyi canlanmış, elə bil onu tez sağalıb döyüşə qayıtmağa səsləmiş, onu tələsdirmişdi. Ədalət kişi uzun illər bu solğun, pərişan çöhrəsi ilə onları böyütmüşdü. Amma, Sahil bunu istəmirdi! İstəmirdi ki, ondan sonra gələnlər də eyni əziyyəti çəksin, solğun olsunlar, Zəfər çalmayan, əzilmiş millət olsunlar. O, bundansa, həyatdan getməyi, yaşamamağı üstün tuturdu... O, əlində silahla düşmənə qarşı mərdlik, igidliklə döyüşüb, mərd, məğrur, yenilməz, qəhrəman, qalib Azərbaycan əsgəri kimi Şəhid olmaq istəyirdi...

Yaraları ilə əlaqədar Sahil bir neçə gün xəstəxanada qaldı. Bu günlər onun üçün hətta ən ağır bir neçə minilliyə bərabər idi. O, min illərlə danışılacaq olan Zəfəri çalanlardan olmaq istəyərkən, ona bu otaq zindan olmaqda davam edirdi. Hər saniyə elə bilirdi ki, camndan can gedir. Hər saniyə o döyüşləri yadına salırdı. Hər dəqiqə elə bilirdi ki, bir Şəhid verilir. Hər an torpaqda bir Şəhidin qanı tökülürdü, o isə xəstəxanada əli-qolu yaralı uzanmışdı. Sahil bunu öz qüruruna sığışdırmazdı. O, bunu heç istəməzdi. “Allah, bu necə dərddir, necə əzabdır, Allah?” deyərək fəryad edirdi. Bəlkə də, döyüş meydanında yaralandıqdan sonra döyüşü davam etsə idi, bu qədər mənəvi travma almazdı, əziyyət çəkməzdi. Ona təsir edən əslində, yarası deyildi, onun döyüşlərdə iştirak edə bilməməsi barədə düşüncələri idi... O, bu vaxtlar xəstəxanada öz sonunu gözləyirdi... Ancaq, Şəhid olmaq bu dastanda var ikən, O, əli-qolu bağlı yaşamağı necə istəyərdi axı? Həkimlər ona bu sözü deyəndə hirsindən dəli olmuşdu:

*– Sahil, Səni Bakıya aparmaq lazımdır. Çox qan itirmisən. Burada sənə edə biləcəyimiz kömək məhduddur. Bakıda isə sənə hər cür kömək olar. Bir az Bakıda qalarsan, düzəlsən, səni yenə qaytararıq döyüş səngərlərinə.*

*– Siz nə danışırsınız, həkim? Bu sözü mənim yanımda deməzdən əvvəl heç özünüzü mənim yerimə qoymusunuzmu?*

*– Siz səhv başa düş...*





*– Heç səhv başa düşməmişəm. Siz özünüzü sadəcə bir dəfə mənim yerimə qoyun. Birinci Qarabağ müharibəsində məğlub olmuş minlərlə əsgərdən birinin oğlu ol, hər səhər gözünün qabağında at oynadan düşmənin işğal etdiyi torpaqlara həsrətlə bax, hər il, hər ay, hər gün, hər saat, hər dəqiqə, hər saniyə, hər an qisas hissi ilə yaşa, yan. Neçə il məktəb, hərbi xidmət, yenidən hərbi xidmət, kəşfiyyatçılıq, gizirlik, təlimlər, həyat dərsləri, hər gün pozulan yüzlərlə atəşkəs, axıdılan nahaq qanlar... Bir dəfə çıxdı qarşıma bu göydəndüşmə, qızıl şans... Bəlkə də, mən sağalanacan bu müharibə bitəcək. Bəlkə, heç sağalmadım. Buradaca komaya düşdüm, öldüm. Bu zaman mən Şəhid olmaram. Ancaq, orada son damla qanıma qədər vuruşub həlak olsam, onda Şəhid olaram... Mən bunu istəyirəm... Bu göydəndüşmə şansı ömrümdə əlimdən verməræm. Bu, həyatımın döyüşüdür... Bu, həyatımı dəyişməsə də, mütləq dünyamı dəyişəcək. Mənə hərb lazımdır, cəng lazımdır, həkim, mənə döyüş lazımdır... Döyüş alın yazımdır, qismət payımdır, Zəfər mənim qanımdadır!*

Müalicə olunmasına etiraz etdiyinə görə həkimlərin tövsiyəsi ilə anası da onunla söhbət etdi:

*– Oğul, niyə üsyan edirsən? Həkimlər sənin yaxşılığın üçün deyir. Narahat olma, sən tez yaxşı olacaqsan... Nə olar, bir az qal, düzələndən sonra döyüşə gedərsən. Onsuz da sən döyüşdə olacaqsan, narahat olma... Ana qurban sənə, acı halıma, sən sağalmasan mən nə edərəm? Hansı daşı başıma çırparam?*

*– Ana, belə getsə mən döyüşdə ola bilməyəcəyəm. Hər gün mənə zindandır, anamsan, məni sən daha yaxşı anlayarsan. Mən Birinci Qarabağ müharibəsindəki məğlubluğumuzu oğlunun Zəfəri ilə əvəz etmək istəyirəm. Mən səninlə danışdığım bu müddət ərzində bəlkə də neçə əsgər dostlarım, döyüş yoldaşlarım Şəhidlik Zirvəsinə yüksəlir. Mən niyə əlim-qolum bağlı durmalıyam... Gələcək nəsillər bizim hamımızın Qəhrəmanlıq Dastanımızı vərəqləməlidir...*

Bu sözdən bir neçə saat sonra Sahil bütün sarğılarını açdı, əsgər formasını geyindi və yenidən köksü qabararaq döyüşlərə yollandı, elə bil bu heç ağır yaralar almış, hələ yaraları sağalmamış bir az əvvəlki Sahil deyil, pəncəsi ilə düşmənini parçalamağa hazırlaşan nəhəng bir şir idi...

Sahil döyüşlərdən döyüşlərə aslanlar kimi atılanda üzündə zərrə qədər kədər hiss edilmirdi. Çünki, alnına yazılan döyüşdə o da bir aslan kimi, bir cəsur, bir vətən fədaisi kimi döyüşürdü. Yaralandığı üçün sevinən ermənilər, onu yaraladığı üçün bir müddət “qəhrəman” olan erməni qorxağını Sahil yenidən iti qovan kimi qovdu. Zəfərlər yenidən onun oldu, onunla çiyin-çiyinə döyüşən Azərbaycan Əsgərlərinin oldu!

Gizir Sahil Məmmədovu da Qubadlı gözləyirdi... Qubadlı onun ruhunu öz göylərində qoynuna alacaq, qanını əbədi olaraq öz torpağına hopduracaqdı...

Sahil Qubadlının işğaldan azad olunması əmrini neçə gün idi ki gözləyirdi. Bilirdi ki, bu əmr veriləcək və o da əsgərləri ilə birlikdə düşmən üstünə şığıyacaq. Koroğlu dastanından şeirin iki misrası yadında qalmışdı: “Mən özüm Aslan paşanı, hərəniz bir xan üstünə... ” O da Koroğlunun zalım xanları biçdiyi kimi erməniləri biçəcək, Qubadlını yad əllərdən, yadellilərdən azad edəcəkdi. Düşünürdü ki, bir vaxtlar əlinin çatmadığı, ününün yetmədiyi, həsrətlə baxdığı torpaqlarda indi O, ancaq irəliyə doğru inamla

addımlayır... Buna görə, həm də, ikinci şansa görə Allaha sonsuz Şükür edirdi Sahil... Və onu da fikirləşirdi ki, Şəhid olsa, heç nədən heyfsilənməyəcək, əksinə, daha da sevinəcək, ailəsinə də ruhu deyəcək ki, "Şəhid olsam ağlamayın"... Milli Qəhrəmanımız Mübariz İbrahimovun dediyi kimi...

25 oktyabr 2020-ci il... Sahilin qəhrəmanlıq dastanının ən şərəfli, ən uca və ən son səhifəsi... Aşıq Cünunun nəğməli yurdu olan Qiyaməddinli-Arazbar eli, yurdu, torpağı hiss edirdi ki, bu gün bir Şəhid verəcək... Özü də böyük şücaət göstərən, əcdadı kimi sinəsinə saplanan oxu o saat qıracaq qədər qəhrəman Şəhidimizi... Silahı dostu-yarı bilən cəsur Şəhidimizi...

Sahil Məmmədov o gün Qubadlının ən ağır keçən döyüş meydanlarının birində idi. Aramsız, ardı-arası kəsilməyən zərbələri düşmənə vuran Sahil bilirdi ki, Şəhid olduğu gün yaxındadır. Ona görə də, qisas almaq üçün düşmənə zərbəni daha kəskin, daha sarsıdıcı vururdu, düşmənin canını daha çox yaxırdı, vəlvələyə salırdı. Onun bir baxışı od olar, düşmənin minasından da kəsərli olardı. Sahil onu da bilirdi ki, az qalıb, artıq Qubadlıdan düşmənləri sona qədər sıxışdırırlar. Daha çox döyüşürdü, bütün gücünü sərf edirdi ki, düşmən təkcə Qubadlını yox, öz adını da yaddan çıxartsın. Gizir Sahil Ədalət oğlu Məmmədov ömrü boyu topladığı bütün gücünü, qüvvəsini daha da səfərbər edib sona qədər vuruşdu və Qubadlının işğaldan azad olunduğu gün, 25 oktyabr 2020-ci ildə Qubadlı uğrunda gedən qanlı döyüşlərdə qəhrəmancasına Şəhidlik Zirvəsinə ucalanlardan biri oldu!.. Həmin gün onun ruhu Xarıbülbülə döndü və hayqırdı ki: "Səslən, ey Həsən Qorxmaz, gülləni dindir, ey onun qardaşı Faiq Qasımov! Cənnətdən boylan bu dünyaya bax, ey Milli Qəhrəman polkovnik Şükür Həmidov! Şükürün yanında onun dastanını oxuyan ey polad bədənli Qaçaq Nəbi, bil ki, oxunmalı bir Qəhrəmanlıq Dastanı da var! Qisasımızı alaraq getdim, ey dərdimizə dəva olan Ərəstə, ey onun yanında duran, bizim əcdadımız Həcər xanım! Yola sal məni Qubadlı! Qarşıla məni Ağcabədi! Qarşıla məni Azərbaycan! Bir Şəhidini daha verdin! Zəfər üçün, Vətən üçün!.. "

Həmin gün gecə saatlarında şirin yuxuda olan Azərbaycan xalqı Qubadlının azad olunması xəbəri ilə yerindən dik atıldı. Bu günü gördüklərinə görə neçə cavan, neçə uşaq Şükür etdi... Sözün əsl mənasında Şükür etdi... Xəzərin Sahili sözün əsl mənasında coşdu... Sahil həm də bunun üçün Şəhid olmuşdu... Xəzərin Sahilinin 20 yanvar faciəsindəki kimi qan dənizi olmaması üçün, ancaq sevinclə coşub-çağlaması üçün...

Hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15. 12. 2020-ci il tarixli sərəncamına əsasən Gizir Məmmədov Sahil Ədalət oğlu ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Sahil öz torpağı, Vətəni Azərbaycan üçün Şəhid olanlardan, Zəfəri gətirənlərdən biri idi!... Zəfərimiz daim olsun, Azərbaycan var olsun! Allah bütün Şəhidlərimizə rəhmət eləsin! Amin!

*19.01.2021*
*"Kredo" qəzeti, 10.02.2021*





## DÜNYASINI DƏYİŞDİRƏN, ARZUSUNU GERÇƏKLƏŞDİRƏN ŞUŞA FATEHİ



*Şəhid Şirxan İsmixan oğlu Quliyevin əziz xatirəsinə həsr edilmişdir.*
*(2 sentyabr 1995-ci il Xocavənd rayonu, Muğanlı kəndi-6 noyabr 2020-ci il Şuşa rayonu)*

Dünyasını dəyişdirən arzu... Bu arzunu gerçəkləşdirən Şuşa fatehi... Əbəs yerə məqalənin adı belə qoyulmamışdır. O, uşaqlıqdan bu yana içində böyüyən, mənlik boyda, namus, qeyrət boyda olan bir arzunu gerçəkləşdirmək üçün əsirgəmədən canını qurban verdi. Bu arzu onun dünyasını dəyişdirəcəkdi, sözün əsl mənasında dəyişəcəkdi... O, bu arzusunu gerçəkləşdirdi... Özü isə insanlıq yaranandan fəth olunması çətin olan bir Zirvəni fəth edib getdi bu dünyadan... O, alnımızda 30 ilə yaxın bir müddətdə qara hərflərlə yazılmaqla qalmaqda davam edən qapqara ləkəni silənlərdən biri oldu... Namərdliklə əlimizdən alınan canımız, gözümüz Şuşamızı azad edənlərdən biri oldu... Şuşanın qan izləri qalmış qarış-qarış torpaqlarının azad edilməsində onun da qanının izi var... Onun və bu yolda qanını, canını fəda etmiş bütün Şəhidlərimizin... Biz Vətən müharibəsində canından keçmiş Şəhidlərimizi heç bir zaman unuda bilmərik, buna bizim haqqımız, hüququmuz yoxdur... Çünki unutmaqla borc ödənilmir. Şəhidlər ölü deyil, onlar unudulanda ölürlər... Bizim borcumuz onların xatirəsini əziz tutmaqdır... Biz Xarı bülbülü görüb sevincimizə sevinc qatanda onlar Xarı bülbülə can verərək qan tökdülər, can verdilər... Noyabr ayının ilk günlərindən mənasını dəyişən, hər günümüzü Zəfərli gün edən belə oğullar Xalqımızın, millətimizin qəhrəmanıdırlar! Onlar rəsmi dövlət sənədi ilə bu ada layiq görülməsələr də xalqın, millətin qəlbinin, düşüncəsinin Milli Qəhrəmanlarıdırlar! Bizim Milli Qəhrəmanlarımızdırlar!

Bu dəfə haqqında yazacağım, insanlığın ən ali rütbəsinə, ən şərəfli Zirvəsinə yüksəlmiş, köksümüzü qürur hissi ilə qabardan, kədərimizi sevincimiz və vüqarımızla bərabərləşdirən, kədərləri nəzərlərimizdə heç edən şəhid – Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına həm Şuşanın, həm Şəhidlik Zirvəsinin fatehi olmağa haqq qazanan kiçik çavuş Şirxan İsmixan oğlu Quliyevdir! Onun əvvəli məşəqqətlərlə başlayan, sonu Zəfərlə və Şəhadətlə bitən dastanını oxumaq da bizim borcumuzdur, unutmayın, unutdurmayın, o halda unudulmazsınız!

Quliyev Şirxan İsmixan oğlu 2 sentyabr 1995-ci ildə Ağcabədi rayonunun Kürdlər kəndində anadan olmuşdur. O, ələn rəsmi olaraq qeydiyyatda olduğum, ana yurdum, bir qarışını görmək biz uşaqlara, elə Şirxanın uşaqlığına da nəsib olmayan Xocavənd rayonunun Muğanlı kəndindəndir. Muğanlı kəndi, xüsusilə də, Xocavənd rayonu əzəldən əbədi qəhrəmanlar yetişdirmişdir. Kəndimizin can verənləri, qan tökənləri çox olmuşdur. Şirxan da belə qəhrəmanlarımızdan biri oldu. Ancaq işğalın ilk illərində, yara qay-

saq bağlamayan vaxtlarda Şirxan təzəcə doğulmuşdu, hələ çox körpə idi. Tale, həyat onu öz torpağına həsrətlə baxmaq, qaçqın olmaq adlı bir məşəqqətə məhkum etmişdi. Bundan sonra onun həyatı torpaq həsrəti, torpaq zilləti ilə dolu olacaqdı. Şirxan da neçə gənc Vətən oğulları, Qazilər, Şəhidlər ilə birlikdə intiqam istəyənlərimizdən biri olacaqdı.

Ağlı kəsən ilk vaxtlardan Şirxanın gözü nələr görmədi ki... Qaçqınlığın ağrısını, acısını, doğma dədə-baba torpaqlarını gəzməkdən məhrum olmaq acısını gördü... Öz torpaqlarına həsrət qalanları , dünyasını dəyişərkən doğma yurd-yuvasında dəfn edilə bilməyənləri gördü... Əzab gördü, əziyyət gördü, zillət gördü... Azərbaycana nifrət edənlərə qalan sevinci, Azərbaycanı sevənlərə qalan kədəri gördü... Ötən müddət ərzində hər günü məşəqqətlə keçdi Şirxanın. Qaçqın həyatı sürmüş ailəsi Şirxana çox ümidlər bəsləyirdi. Anası Şirxanı hər bəladan hifz etməsi üçün Allaha dualarını əsirgəmirdi. Atası isə Şirxanın böyüyüb ailəyə, Vətənə, millətə layiq olacağını bilir, onun gələcəyinə ümidləri get-gedə artırdı. Şirxan isə üzünə, üzümüzə bağlı olan, düşmənlərin qarşısında taybatay açıq olan Şuşa qalasının qapılarını hər dəfə gördükdə hələ neçə il də əzab-əziyyət içində yaşayacağı ilə üzləşməli idi.

Şirxan ağlı kəsəndən o qədər intiqam istəyən, intiqamla, inamla yaşayan bir yeniyetmə gənc olmuşdu ki, yaşıdları olan körpələr oyuncaq maşınla, oyuncaq fiqurlarla oynayarkən O, oyuncaq silahla oynayırdı. Hər dəfə oyuncaq tüfənglə atəş açanda da elə bilirdi ki, həqiqətdə düşmənlərə atəş açır. Atası-anası da ona ümid verirdi və afərinlər söyləyirdi düşmənə sərrast, sarsıdıcı atəş açmasına görə. Şirxan Ana Vətəndə qürbətçi kimi yaşamaqdan bezər, yenə də ümid yeri kimi bir Allahma, bir də valideynlərinə sığınardı. Öz yurdundan, doğma torpağından ayrı yaşayan Şirxana ana torpağına qovuşmaq üçün ümid, təsəlli ancaq bu oyuncaq silahlar olurdu. Bir də valideynlərinin təskinlikləri.

Şirxan fikirləşirdi ki, nə vaxtsa bu silah həqiqi bir silah olacaq və O, bu silahı düşmənlərə qarşı çevirəcək, bu həqiqi silahla düşməninin nəfəsini kəsəcək... Bu fikir onun ağlına orta məktəbə daxil olanda gəlmişdi... Necə gözəl fikir idi bu fikir... İnsanı xəyallara aparırdı... Ancaq hələ ki xəyallara... Növbəti illərdə Şirxan orta məktəbdə oxuyanda bu fikri fikir etmədi, arzu etdi, amal etdi, uşaqlıqda düşünülmüş bir fikri həyatının əsas arzusu, amalı etdi... Çünki bu fikir onun tərəfindən kölgədə qalmamalı, ağıldan çıxardılmamalı idi... Bunu heç bir Vətən oğlu ağlından zorla da olsa çıxarda bilməzdi. Şirxan bu arzu ilə təsəlli tapırdı artıq. Bu arzu, bu amal içindəki pis fikirlərə qarşı əsas silah olmuşdu. Dəli kimi inanırdı bu amala, Vətən dəlisi, torpaq dəlisi kimi. Həm də Koroğlu dəlisi kimi.

Şirxan şər ilə mübarizədə dastanlardan da güc alırdı. Atasından, anasından eşitdiyi həmyerlisi Yaqub Xoşdari dastanı, Fuad Nəsirov dastanı, Muğanlı kəndinin, Xocavənd rayonunun igid oğullarının dastanları Şirxanın gücünə güc qatırdı. Güc qatmaqla bərabər, hər dastan onun intiqam alovu, qisas odu olurdu. Şirxan bir dastan yazmaq istəyirdi, dastan olmaq istəyirdi. . İstəyirdi ki, qəhrəmanlıq göstərsin, hünər göstərsin, dastan olan Qəhrəmanların göylərdə olan müqəddəs ruhları da ona bir ağızdan afərin desinlər. Şirxan bunu da özünün müqəddəs amalı etmişdi.

Məktəbdə sinifləri pillə-pillə qalxdıqca daha da əla oxuyan Şirxan tezliklə 11-ci sinfə





keçmək istəyirdi. Vaxt ötür, zaman ötürdü. Həsrətə yer verilməməli idi. Şirxan qisas gününün tez olmasını istəyirdi, tələsirdi, əgər qisas günü o əsgər gedənə qədər olmasa idi, bundan sonra daha çox dua edərdi ki, o qisas günündə elə özü də iştirak etsin...

Nəhayət, Şirxanın bir arzusu da gerçəkləşdi. Şirxan 11-ci sinfə keçdi, 11-ci sinfi və tam orta məktəbi bacarıq və çalışqanlılıqla bitirdi. Bundan sonra onu həqiqi silah, ən ülvi arzu - kişilik məktəbi, hərbi xidmət gözləyirdi. Hərbi xidmət, sərkərdəlik bundan sonra, təkcə, Şirxanın gerçəkləşən ülvi arzusu deyildi. Sərkərdəlik ömrü idi, həyatı idi, taleyi, qisməti idi bundan sonra. O, əsgər olduğu ilk gündən Şəhidliyə yüksəldiyi günə qədər hərbi xidmətdən ayrılmayacaqdı. "Sərkərdə Şirxan" adlı bu iki sözü ayıran üçüncü söz həyatda olmazdı.

İstək və arzularını həyatda reallaşdırmaq üçün 2013-cü ildə Şirxan Quliyev hərbi xidmətə yollandı. 2013-cü ildən 2020-ci ilin Zəfər Gününün bir addımlığına qədər Şirxanın həyatı hərbi xidmətlə bağlı oldu. 7 il... 7 il Şirxan vətənin müsəlləh əsgəri oldu. Ömrünün sonuna, Şəhadətinin başlanğıcına qədər sərkərdəlik yolunda gələcəkdəki Zəfərlərə, cənglərə inamla, ümidlə baxaraq yeridi, necə deyərlər, yürüdü Şirxan. Təlimlərdə hünər göstərib hərbçilərin, içərisində "Zəfər" sözü olan cümlələr söyləyib əsgər yoldaşlarının, əhatəsində olanların qələbəyə ümidini artırırdı. Bununla yanaşı o, öz ümidini də başdan sona qədər artırırdı. Hər gün eyni ümidlərlə, hər gün eyni inamla gələcəyə baxırdı. Hərbçi olmaq onun üçün hər şey idi. Həyatının mənası, dünyasını dəyişdirəcək ən ülvi arzuya aparan bir yolu idi onun...

Şirxan hərb sənətini o qədər sevirdi ki, əsgər olanda düşündüyü əsas məsələni – əsgərlik müddətinin bitməsi məsələsini elə tərxis olunan kimi həll etdi. Bir gün belə dayana, dura bilmədi. Tanıyanların tərəddüdlərinə baxmayaraq tez bir zamanda müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olmaq üçün müqavilə imzaladı. Bu müqaviləni elə həvəslə, elə istəklə imzaladı ki, kənardan baxanlar elə bilirdilər ki, Şirxan uzun müddət həsrətini çəkdiyi sevgilisinə qovuşub, onunla ailə həyatı qurmaq üçün səadət sarayında sənədə imza atır. Bəli, həqiqətən də Şirxanın nəzərində bu imzanı atmaq hələ o birindən çox üstün idi. O zaman təqvimlər 2015-ci ilin sonunu, 2016-cı ilin əvvəlini göstərirdi.

Aprel döyüşləri başlayanda Şirxan çırpınırdı ki, özü də həmin döyüşlərdə iştirak etsin. Bu döyüşlər xalqımızı zəfərə yaxın etdiyi kimi, Şirxanı da öz doğma yurduna yaxın edirdi. Döyüşlərdən zəfərlə çıxmış əsgər yoldaşlarına deyirdi ki, bundan sonra hansı döyüş olsa, mən də iştirak etməliyəm. Şirxan istəyirdi ki, Qarabağda harada döyüş olsa, o da orada olsun. Qisas günü tez gəlib çatsın. Hər Azərbaycanlı, xüsusilə də, ürəyində yurd həsrəti qalmış qaçqın bunu istəyirdi. Yəni, sabiq qaçqınlar... Və yaxud... Son qaçqınlar. Çünki Şirxan kimi oğullar qaçqınlıq statusunu ləğv etmək üçün ilk özlərindən başladılar. Sonra bir xalqın, bir millətin qaçqınlıq statusunu ləğv etdilər... Şirxanın ən böyük arzusu həm də bu idi. Alında hələ də qalmaqda olan bu ləkəni silib atmaq, təmizləmək. Qaçqınlıq illərinə son vermək istəyən çox Vətən oğlu vardı. Onların neçəsi Qazi oldu, neçəsi Şəhid... Onlar ərazi bütövlüyümüz üçün Şəhid olmuşdular, düşmən atəşlərini susdurarkən, düşməni geri otuzdurarkən... Şirxan bu yolda Şəhadəti belə düşünmüşdü... Bircə Allahdan onu arzulayırdı ki, həmin gün tez gəlsin. Gözlədiyimiz neçə illərdə qadınların saçına dən düşdü, kişilərin beli büküldü , körpələr böyüdülər... Şirxan

da həmin körpələrdən biri idi. Və bu qaçqın-köçkün həyatına birdəfəlik son qoyulmasını istəyirdi! Anası Raisə xanım - boynunu bükməyən, ucaboylu Şirxanın ruhu ona baxa bilsin deyə başını dik tutan o Şəhid anası deyir ki, o, həmişə qaçqınlıq statusunu ləğv etmək, alnımızdakı bu qara ləkəni dünya durduqca silmək üçün çalışırdı. Atasına deyirdi ki, sənin doğulduğun torpağı azad edəcəyəm, orada yenidən yaşayarsınız. Şirxan o günləri gözləyirdi... Xəyalında canlandıraraq ... gözləyirdi...

İllər boyu bu minvalla, ümidini bir dəfə də olsun itirməyən, gözünü Şəhidlərimiz kimi parlaq sabaha dikib gözləyən, nə olur olsun, atəşkəs neçə dəfə pozulur pozulsun gözləyən Şirxan üçün vaxt, zaman daralırdı. Gözləyə-gözləyə 2020-ci ilin iyul ayı çoxdan gəlib çatmışdı... Bu ay hamımızı intiqam odu ilə yaxdığı kimi, Şirxanın da həyatını dəyişəcəkdi... Şirxanın həyatını iyul ayı, dünyasını sentyabr-noyabr ayları dəyişdirəcəkdi...

2020-ci ilin iyul ayı Azərbaycan tarixini yenidən yazan Tovuz döyüşləri başladı. Hamımıza bir daha və ucadan "Yetər! Qisas vaxtıdır!" dedirdən bir hadisə baş verdi. General Polad Həşimov da Şəhidlik Zirvəsinin fatehləri arasında idi! Bu, bizim xalqımız üçün böyük acı, yas idi. Hamı kimi Şirxan da bu xəbərləri çox pis qarşılamışdı. Bu, ola bilməzdi. Azərbaycan qisas gününə yaxın olmalı idi. Şirxanın içi-içini yeyirdi. Hər gün özünü Mübariz kimi hiss edirdi. Postdan-posta hünər göstərmək istəyirdi. Ancaq hünər göstərməyin vaxtı gəlməli idi. Bu vaxt isə hələ ki gəlmirdi ki, gəlmirdi. Vətən oğulları özünü səfərbər edib orduya qoşulanda Şirxan onları xoş sifətlə, gülər üzlə qarşılayırdı. Artıq bilirdi ki, Ali Baş Komandan o əmri verəcək.

21 sentyabr 2020-ci il... Hamının Qisas Odunu alovlandırdığı gün. Hamının coşduğu, vulkan kimi püskürdüyü gün. Azərbaycana Şəhid atəşinin düşdüyü və Qisas alovunun şölələndiyi gün... O gün bir Şəhid vermişdik... Son atəşkəs şəhidimizi, Tovuz döyüşlərindən sonra atəşkəsin pozulması zamanı şəhid olmuş kiçik çavuş Elşən Məmmədovu... Onun da qisası elə 7 gün sonra 27 sentyabr 2020-ci ildə yas mərasiminin 7-ci günü alındı...

Son atəşkəs şəhidimizin qara xəbəri də əks-səda yaratdı. Əsgərlər yumruğunu daha çox sıxırdılar. Şirxan da yumruğunu dəmir yumruq edənlər arasında idi və çoxdan bu sıraya qatılmışdı. O, bir an əvvəl vaxtın gəlməsini gözləyirdi. İndi təxmin etmişdi ki, həmin Şəhidli, Zəfərli, Qələbəli vaxt yavaş-yavaş yaxınlaşır. Şirxanı hərbi təlim toplantılarına çağırmışdılar. Həmin gün Şirxan ailəsi ilə canlı olaraq sonuncu dəfə görüşdü. Bundan sonra ancaq telefon zəngləri ilə əlaqə saxlayacaqdılar...

Görüş zamanı Şirxan valideynləri, bacı-qardaşı ilə gülə-gülə, sevinclə, bəzən isə onlara sezdirmədən qəhərlənərək danışırdı. Sonda Şirxan duruxurdu. Söhbətin sonuna gəlmişdilər. Şirxan hərbi hissəsinə qayıtmalı və birbaşa təlim toplantılarına yollanmalı idi.

Bacısının ürəyinə nə isə dammışdı elə bil. Ancaq bunu qara fikir sayırdı. İçindəki qara fikirlərlə mücadiləsinə başlamışdı. Doya-doya qardaşına baxırdı. Elə bilirdi ki, bir də belə baxa bilməyəcək qardaşına. Belə vaxtlarda Şirxan da ondan soruşurdu ki, niyə elə baxırsan... Sual versə də, qəlbində hiss edirdi, başa düşürdü bacısının nələr fikirləşdiyini...





*– Hə... Anacan... Mən artıq qayıtmalıyam... – Şirxan daha da ümidlənərək, ümidindən güc alaraq Anasına son dəfə gülər üzlə baxdı.*

*– Hara qayıdacaqsan, oğul? – Ana Şirxandan o gözəl cavabı gözləyirdi...*

*– Mən təkcə hərbi hissəmə qayıtmayacağam, anacan. Yurduma qayıdacağam! Muğanlıma qayıdacağam! Qarabağa qayıdacağam! Qisasımızı, Şəhidlərimizin qisasını alacağam! Bunu etmək üçün qayıdıram hərbi hissəyə, anacan! Yəqin ki, bundan sonra daha görüşə bilməyəcəyik... Telefon zəngləri də, yəqin ki, az olacaq innən belə... Şəhidlik...*

*– Oğul... – Ana baxışları ilə Şirxandan onu kövrəltməməyini xahiş edirdi.*

*– Hər bir kəsə nəsib olmayan bir ali rütbədir... Nə bilim, qismətimiz var, taleyimiz, alın yazımız var... Döyüş alnımıza yazılıbmış, yazılmalıymış doğulduğumuz andan... Biz görmədiyimiz yurdumuzu azad etmək üçün gedirik, Ana! Döyüş yoldaşlarımız, mən... Şəhid olsam da... Başını dik tutmağınla əlaqədar səndən söz almalıyam... Söz verirsən?*

Ana üçün bu, çətin idi... Canından can gedəcəkdi oğlu Şəhid olsaydı... Ancaq onu da bilirdi ki, canından gedən canı da nigaran qoya bilərdi söz verməsə... Ona görə də başını dik tutub Şirxanın gözlərinin içinə baxaraq:

*– Söz verirəm, oğul! – dedi – Sən də söz ver ki, bizi Qarabağa qaytaracaqsan!*

*– Mən sözümü doğulduğum gündən verdim, Şəhid olduğum gündə də sözümü tam mənada tutacağam! Söz verirəm, Anacan!*

*– Özünü qoru, oğul...*

*– Niyə elə deyirsən? – Qeyri-iradi Şirxan bu sözü dedi. O, bununla Anasına bildirdi ki, könlündən Şəhid olmaq keçir. – Elə demə... – Sonra sözü dəyişdi. - Bax, oğlun döyüşdən qayıdanda ürəyiniz istəyən bir maşın alacaq. Ailəlikcə hamınızı o maşına mindirəcəyəm, gedəcəksiniz Şuşaya... Qarabağa, Xocavəndə, Muğanlıya... Gəzdirəcəyəm sizi... Özümün bu günə qədər görmədiyim yerləri onda sizin bələdçiniz kimi gəzdirəcəyəm... Sağlıq olsun, baxaq görək...*

*– Sağ ol, oğlum! Allah Sənə də, döyüş yoldaşlarına da, ölkəmizə də yar olsun! Birinci bugünkü Şəhidimizdən başlayaraq, Səni bir çox Şəhidimizin qisasını alan görüm! Şuşaya bayraq sancan görüm, oğlum!*

*– Görəcəksən, Anacan! Mütləq görəcəksən! Ya bir bədənlə, bir ruhla, ya da ayrıca bədənlə Səni bir də görəcəyəm... İndi isə... HƏLƏLİK...*

"Bəlkə də Əlvida... " dedi Şirxan öz içində... Anasının özünü sonuna qədər sıxan gözlərinin içinə son dəfə baxaraq, əlini yelləyərək getdi... Bundan sonrası uzun, başı Ulularımızdan başlayan, sonu o Uluların nəvələri ilə bitən, nəvələrinin Zəfəri ilə bitən Zəfər Yolu idi!.. Allah Şirxana savaşın 44 gününün 41 gününü döyüşməyi nəsib edəcəkdi... 41 dəfə Maşallahlarla, sonsuz dəfə İnşallahlarla, Şükürlərlə, Təkbirlərlə, Dualarla döyüş meydanına şir kimi atılacaqdı...

21 sentyabrdan başlayan təlimlər 27 sentyabra qədər davam etdi... 26 sentyabr Şirxanın son təlimləri idi və demək olar ki, təlimlər bitmişdi. Bundan sonrası yenə də Zəfərli bir savaşın başlanğıcı, neçə-neçə şəhidlərimizin, vətən fədailərinin qisasının alınması idi... Qan tökülən, can verilən torpaqlarda bir daha canın verilməsi, qanın tökülməsi idi, torpaqların mənfur düşmənin tapdağından azad edilməsi idi... Xainliklə, namərdliklə

işğal olunan torpaqların mərdliklə, cəsarətlə, igidlik, qəhrəmanlıqla azad edilməsi idi... Bu savaşda neçə cəsurlar döyüşəcəkdi... Şirxan da o cəsurlardan biri idi...

26 sentyabr günü komandir həmişəki kimi bu dəfə də səhərə daha çox inamla baxan Şirxandan soruşdu:

*– Quliyev, nə fikirləşirsən? Sabah nələr olacaq? Nələr edəcəyik? Nələr etməliyik?*

*– Sizin dediyiniz kimi: nələr etməyəcəyik ki, cənab komandir? – Şirxan içindəkiləri boşaltmağa başladı. – Birinci hava məlumatından başlayım. Sabahdan yağışlar utanacaq yağmağa biz döyüşdüyümüz üçün. Sabahdan günəş utanacaq çıxmağa biz qan tökdüyümüz, can verdiyimiz üçün. Sabahdan hamı Vətəni kimi olacaq. Hamı hər qara xəbərə mətin olaraq, ayaqda duraraq qarşılıq verəcək. Sabahdan bir xalq yenidən dirçələcək, diriləcək. Bir millət yenidən ayaqda duracaq, qələbələr qazanacaq. Sabahdan nələr olmayacaq ki, komandir? Ululardan bizə gəlmiş Ulu miras – Zəfər qazanılacaq! Bu Zəfəri biz qazanacağıq! Bir dəfə də, bir addım da geri çəkilmədən! Bir dəfə də arxaya baxmadan! Düşmənləri bundan sonra qovacağıq! Sona qədər qovacağıq! Ən azından özümüzə, ən çoxundan Vətənimizə belə bir sözü verdiyimiz üçün! Biz Vətənə söz vermişik, cənab komandir! Mən də söz vermişəm, bu, mənim uşaqlıq arzumdur! Buna görə müqavilə müddətimi artırmışam. O gün gəlməyənə qədər mən bu işi ata bilməzdim. Qısası, cənab komandir, sabahdan bu savaşın başlanğıcından sonuna qədər YA QAZİ OLACAĞIQ, YA QALİB OLACAĞIQ, YA ŞƏHİD OLACAĞIQ! Məqam həmin məqamdır, bu üç məqam bizi tam vaxtında gözləyir!*

*– Bir söz də istəyirəm səndən... – Komandir Şirxandan ilham alırdı.*

*– O sözü indi deyirəm: Vaxtı gəlib, cənab komandir! Vaxtı gəlib! Gecə hamı yatacaq, sabah bir xalq oyanacaq! Şəhid olduğum günə qədər əmrinizə müntəzirəm, Cənab Komandir! Tək işim düşmənləri qovub Qarabağı sona qədər görmək, axarıncı qələbəni qazanmaq olacaq!*

*– Səninlə fəxr edirəm, Quliyev! Fəxr edirəm! İlk qələbəmiz üçün mənə inam verənlərdən biri də Sənsən! Sənin atan-anan qarşısında sona qədər baş əyirəm!*

Bu inamla, bu ümidlə, bu təmkin və səbirlə illərlə özünü hazırlaşdıran Şirxan Quliyev 27 sentyabr 2020-ci ildən sonra Allahın və Onun Aslanının (İmam Əli nəzərdə tutulur) yar olması ilə birlikdə Zəfərdən Zəfərə irəliləyəcəkdi! Necə deyərlər:

***Dastanının Zəfər qolu onun idi,***
***Gedəcəyi Zəfər Yolu onun idi!***
***Axı, Qarabağı onun yurdu idi,***
***Ulu yurdun sağı-solu onun idi.***

Şirxan 25 illik, çoxuna qısa gələn, ancaq mənalı olan bir ömür yaşamışdı bu günə qədər. 25 il ərzində yığdığı gücü, inamı, ümidi səfərbər edib döyüşürdü. Ən böyük arzusuna nəfəs qədər yaxın idi artıq. Nəfəsdən də yaxın olmaq istəyirdi... Buna görə də sonuna qədər gücünü, qüvvəsini səfərbər edirdi. Hər an, hər dəqiqə Şəhadəti düşündü. Yolu Cəbrayıldan, Füzulidən keçdi şir kimi döyüşən Şirxanın... Heç görmədiyi yerləri gördü, ancaq heç görmədiyi dəhşətlərin seyrinə durmadı. Qarabağın hər qarışında gör-





düyü dağıdılmış ev üçün, yasa batmış, lakin məğrur dayanmağı bacaran hər ailə üçün, Gəncə üçün, Bərdə üçün,Tərtər, Goranboy, Ağdam, Ağcabədi üçün, onların qisası üçün vuruşurdu Şirxan. Özünü Qisas Gününün fatehləri arasında gördüyü üçün, özü də belə cəsur əsgərlərdən olduğu üçün əvvəlcə Allaha şükür edir, sonra isə özünü xoşbəxtlərin xoşbəxti hiss edirdi. Şirxan üçün bu, göydəndüşmə fürsət idi. Bu fürsət 200 il ələ gəlməmişdisə, indi ələ gəlmişdisə, qaçırmaq olmazdı onu. 200 il ərzində itirilənlərin heç olmazsa bir hissəsinisə də geri qaytarmaq, bu illər ərzində ədalətsizlik, zülm, haqsızlıq ətrafında cərəyan edən tarix çarxını ədalət, haqq ətrafında fırlanmağa yönəltmək üçün Şirxan var gücü ilə çalışırdı, vuruşurdu. Azərbaycanı istəməyən, dırnaqarası sülhün tərəfdarı olanların verdiyi dırnaqarası atəşkəslər hamı kimi Şirxanı da narahat etmirdi. Əksinə, əvvəlkindən də daha güclü, qüvvətli bir şəkildə vuruşurdu. Polad bədənini güllələrə sipər edirdi. Zəfər Yolu "keçilməz" olan, ancaq bir anda keçilən səddən Şəhidlik Zirvəsinə qədər, hələ ondan sonra da olan Şirxanı ən böyük, ən ağır, ən qanlı, ancaq ən şanlı döyüşlərdən biri gözləyirdi...

Noyabr ayının 2-si Şirxan, demək olar ki, sonuncu dəfə ailəsi ilə zəngləşirdi... Onun ürəyinə dammışdı ki, deyəsən, ömrünün sonu, şərəfli yolun başlanğıcı yaxınlaşır. Ən böyük Zəfəri qazananlardan biri olmağa Şirxan tam layiq idi. Çünki özü bu yerləri görməmişdi. Öz yurdunu görmək ona nəsib olmamışdı. Neçə il əzablardan, əziyyətlərdən keçmişdi bunun üçün. Müqavilələr yeniləmişdi bu günü görmək üçün. Həmin günləri Şirxan görməli idi və görürdü də...



*– Salam, Ana! Necəsiniz? – Şirxan sonuncu dəfə ailəsi ilə danışırmış kimi danışırdı. Elə bil bilirdi ki, bu sondur. Anasından söz almaq istəyirdi.*

*– Əvvəlcə sən de, oğlum, necəsən? Əvvəl bilim ki yaxşısan, ondan sonra sevinim. – Ana kövrəldiyini Şirxandan gizlətməyə çalışsa da bacarmamışdı.*

*– Belə də, anacan. Yaxşı oluruq artıq.*

*– Haradasan, haralardasan?*

*– Bir gün Sənə dastanımı təqdim edərəm, 2 noyabr səhifəsini çevirərsən, onda görərsən ki, mən o vaxt harada idim. Ancaq əgər bu qədər narahatsansa, onu deyə bilərəm ki, ən böyük Zəfərə nəfəsdən də çox yaxınıq. Bu, elə Zəfərdir ki, onun yolunda neçə igidlərimiz şərəflə, həvəslə addımlayır.*

*– Oğul, Səninlə fəxr edirəm! Sən bu fəxrə uşaq yaşlarından layiq idin. Hələ uşaq yaşlarından Sən oyuncaq silaha sarılmışdın. Oyuncaq silah oynayırdın. Heç yadımdan çıxmaz, oğul.*

*– Həmişə fəxr edəcəksən, Ana... Mən gedəndə də...*

*– Nə dedin, oğul? – Ana özünü eşitməzliyə vurdu və oğlundan söz almağa çalışdı.*

*– Ana, mənə bir söz de ki, ürəyimin döyüntüsünü artırsın, qisas alovumu daha da şöləndirsin... Mənə güc versin, inamımı artırsın... Mənim sənə bu günə qədər çox suallarım olub... Sən də hamısına cavab vermisən... Qaçqınlıq həyatından suallar vermişəm, cavab vermisən. Əzabdan, əziyyətdən... Hər şeyi mənə danışıb taybatay açılan əllərimi sıxılmış yumruq etmisən. Bir sualıma da cavab ver... Mən Şəhid olsam...*

*– Oğul...*

*– Ana, sualıma döz... Döz, ana... Mən Şəhid olsam, nə edəcəksən? Yanında ola bilməsəm, ancaq ruh kimi ətrafında dolansam ... Nə edərsən? Məni bir də ancaq şəkillərdə görsən... Mənə sual versən, ancaq bədənimlə deyil, ruhumla cavab versəm... Nə edərsən?*

*– Başımı dik tutaram, oğul... Dözərəm... Mən bir Ana kimi bu günə qədər hər şeyə dözmüşəm... Qaçqınlığa dözmüşəm, əzablara, əziyyətlərə dözmüşəm... Bir qaçqınlıq damğasını, alın ləkəsini alnımda daşımağa dözmüşəm... Sən ki o ləkəni alnımızdan siləcəksən... Mənim başımı dik tutmamağım, uşaq kimi ağlamağım o zəhmətlərə, o əziyyətlərə hörmətsizlik olar... Sənə sözüm odur ki... Döyüş, oğul! Son damla qanına qədər döyüş!.. Adını, Şirxan adını tarixə yaz. Sən şir nəslisən, xan nəslisən, Sənin atan-baban mərd olub, qəhrəman olub, oğul... Bizi qurtar bu qaçqın həyatından... Həyatımızı dəyişdir... Qəhrəman kimi, igid əsgər kimi, fateh kimi, zəfərlə döyüşdən qayıt oğul ... Əgər qayıtmasan...*

Ana-bala bir ağızdan bu sözləri təkrarladılar:

*– Vətən sağ olsun!..*

Şirxan o gün sonuncu dəfə ailəsi ilə zəngləşirdi... Ömrünün bitməsinə, Şəhidlik Zirvəsinin fatehi olmağa az vaxt qalmışdı. Parlaq Qələbənin çalınmasına da az qalmışdı... Şirxanı indi ən böyük qələbə gözləyirdi... Qanlı, şanlı ŞUŞA DÖYÜŞLƏRİ gözləyirdi Şirxanı!.. O, Şuşanın hər qarışında, Zəfər bayrağının dalğalanmalı olduğu hər yerində can verəcək, qan tökəcəkdi... Gözü önündə döyüş yoldaşları şərəflə şəhid olacaqdı... Özü də... Şəhid olacaqdı...

Noyabr ayının əvvəllərində bir xalqın tarixini təzələyəcək, dastanını yenidən yazacaq Alparslandan qalan Malazgird döyüşü kimi, Fatehdən qalan İslambol döyüşü kimi olan bir döyüş – Şuşa döyüşləri o vaxt başladı! Şirxan artıq inanırdı ki, zəfərə az qalıb, Şuşaya yaxın deyilik, elə Şuşanın özündəyik! Şuşanın zirvələrinə qalxaraq, dişi ilə, dırnağı ilə, əlbəyaxa döyüşlərlə düşmənə qarşı vuruşaraq onlara böyük bir dərs keçirdi Şirxan. Şuşanın ən böyük Zirvəsində hayqırırdı, səsi düşmən tərəfə əks-səda verirdi: "ZƏFƏR BİSMİLLAH!". Onun başının üstündə Alparslan, Fateh, Xətai, Təxti-Nadir sahibi, Türk dünyasının bütün fatehlərinin ruhu var idi. Bir xalq o günü gözləyərkən, gözlərinin kökü saralarkən həmin xalqın ərənləri Zəfərə bir addım yaxınlıqda idi... Zəfərin astanasında idi...

Yaşadığı ömür yolu Şirxanın gözünün qabağından kino lenti kimi gəlib keçirdi... İllər boyu gözləmişdi bu günü... Özü həyatı qədər gözləmişdi – 25 il... Hər gün yuxularına girirdi Qarabağın Zirvələri... Şuşanı görməyən ərənlərdən biri olan Şirxan Şuşaya qədər döyüş yolu keçmişdi, artıq bilirdi ki, çox az qalıb, lap az qalıb o Zəfərə... Əgər o günə qədər Şəhidlik Zirvəsini fəth etsəydi, yenə də Vətən sağ olsun deyəcəkdi!..





Şuşanın zirvələrində, ən qanlı döyüşlərdə ləçəkləri qurumuş Xarı bülbüllər ərənləri çağırırdı. Bir Xarı bülbül Şirxana tərəf boylanmışdı. Döyüşlərin ən qızğın vaxtında özünü, polad bədənini sipər edən Şirxana Xarı bülbül qurumuş ləçəkləri ilə demək istəyirdi ki: "Yanımdakı hələ də bitə bilməyən güllərə Şəhid döyüş yoldaşlarının al qanı can verir. Gör nə gözəl çiçəklər açıblar. Deməli, o güllər, çiçəklər şəhidlərin qanı sayəsində artıq azaddır. O güllərin olduğu torpaqlarda Zəfər çalınıb. Mənə də can ver! Mən də azad olmaq istəyirəm! Sən də illərlə bu günü gözləmisən, mən də! Hər gün palçığa batmaq, düşmənin murdar ayaqlarında tapdalanmaq, heyvan gülüşləri eşitmək istəmirəm! Sizin xoş səsinizi eşitmək istəyirəm! Tez ol, mənə can ver, Şirxan!"

Şirxan bilirdi ki, Xarı bülbülə can verən Şəhidlərin sırasında özü də olacaq. Və sıra ona da çatır yavaş-yavaş... Ona görə də son qisasını almaq istəyirdi. Xainliklə, xəbisliklə, satqınlıqla işğal edilən Daşaltı zirvələrində sona qədər döyüşürdü... Öz səddini keçilməz adlandıran, axırda dərsini alan ohanyan kimi soysuzlara hədlərini bildirmək istəyirdi... Polad bədənli general Polad kimi düşmənə qarşı ən böyük, sarsıdıcı zərbələrini endirirdi... Amansız, qəddar düşmənə aman verməк sözünü eşitmək belə istəmirdi. Şəhid olan hər döyüş yoldaşı üçün, qətl edilən hər mülki şəxs üçün daha kəskin, sarsıdıcı intiqam almaq istəyirdi... Daşaltının hər qarışında hər əsgəri yüksək sevinclə salamladığı kimi Şirxanı da salamlayırdı qəhrəman Riadın, Albertin ruhu... Şirxan əlçatmaz yüksəkliklərə qalxanda oradan həmin an qanad açıb ruhunu uçurtmaq istəyirdi.. Lakin hələ buna vaxt var idi...

7 noyabr 2020-ci il... Zəfər Gününə bir gün qalmışdı... Çox az qalmışdı Zəfərimizin çalınmasına... Şirxan və onun döyüş yoldaşları saat bilmədən, dəqiqə bilmədən düşmənləri qırıb irəliləyirdi. Şirxan hamıdan daha çox inanırdı ki, artıq bu, son addımlardır. Döyüş yoldaşlarına deyirdi ki: "Məqam həmin məqamdır, çatırıq Zəfər bayrağının dalğalanacağı yerə!.. "

Zəfər bayrağının dalğalanacağı yerə az qalmışdı... Bir Şəhid yaxınlığındakı Xarı bülbülə qan verdi, can verdi... Və sırada Şirxan var idi... Şirxan da öz qanını yanında yalvarıb-yaxaran, azad olmaq istəyən, azad olmağı gözləyən Xarı bülbüllərdən birinə verməli idi... Şirxan bir azdan çiçək, gül açacaq, ancaq hələ quru vəziyyətdə olan Xarı bülbülə dedi:

– Hə, Xarı bülbülüm... Həmişə dediyim kimi: "Məqam həmin məqamdır!"... Mənə Şəhid olmaq gərək, Sənə də qanımla, canımla, ruhumla qidalanıb gül, çiçək açmaq, dirilmək, canlanmaq... Ya Şəhidlik Zirvəsi! Məni gözlə!

Şirxan kəlmeyi-şəhadəti söylədi və qanının son damlasını da töküb gözlərini əbədi yumdu... Gözlərinə son dəfə Zəfər bayrağının dalğalanacağı yer göründü... Ürəyindən axan son damla qan axaraq Xarı bülbülə yaxınlaşdı... Xarıbülbül o qanı canına hopdurdu. Şirxanın ruhu bədənindən ayrıldı. Xarı bülbül canlandı, dirilişin sevincini yaşayaraq məğrurluqla Zəfər bayrağının dalğalanacağı yerə baxdı...




Müsahıbələrdən birində Şəhidimizin əmisi oğlunun açıqlamaları ürəyimi parçaladı: “7 noyabr günü idi. Gördüm, Şirxandan mənə zəng gəlir... Kontaktımda adı “Şirxan əmioğlu” idi. Dedim: “Əmioğlu, Sənə qurban olum... ” Ancaq cavab səsi Şirxanın səsi deyildi... Onda mənə xəbər verdilər ki, Şirxan Şəhid olub... ” Şirxanın əmioğlusu Onun Şəhadətini eşidib ürəyini parçalayan ilk yaxınlarından oldu... Ondan sonra... Bu mübarək şəhadət xəbəri ailəyə çatdı və təkcə bir ailə deyil, bir Vətən Şirxansız qaldı...

8 Noyabr günü... Şirxanın canı, qanı ilə dirilən Xarı bülbül artıq daha da çox qürurla bu dəfə Zəfər bayrağının özünə baxırdı... Bütün Xarı bülbüllər dirilmişdi... Şuşa azad olunmuşdu! Xalqımız Zəfər çalmışdı! 200 ildən bəri itirilən torpaqlarımızın bir hissəsinin azad edilməsi ilə əlaqədar bu bizim ilk zəfərimiz idi, bu Zəfər artıq bizim Zəfərimiz idi!..

Zəfərin baş fatehi, Ali Baş Komandan Şuşanın azad olunması müjdəsini 200 ildən bəri acı yasıyla boğulan bir millətə verdi və o millət ən böyük Zəfərini böyük qürurla qeyd etdi!. . Vətənin hər qarışında vətəndaşlar bayraqlarla dayanmışdılar... Gülə-gülə, sevinə-sevinə bu günü qeyd edirdilər... Hamı sevincindən ağlayırdı... Təbii ki, hamı Zəfərin fatehlərinin dəfn olunduğu, and yerimiz olan Şəhidlər Xiyabanına axışırdı...

Həmin gün bir Xalqın, bir millətin günü idi...

Şuşada Şirxanın qanı ilə, canı ilə dirilən, haqqında dastanlar yazılmalı olan həmin Xarı bülbülün yanında Şirxanın azad edilmiş vətən torpaqlarının səmalarında gəzən ruhu olsa da vətən torpaqlarının qoynuna aldığı cismi yox idi... Bu hadisə dastanın ən təsirli məqamı sayıla bilər...

Döyüş yoldaşları Şuşada Zəfər bayrağını dalğalandırdıqdan sonra, Şuşanın fatehi olduqdan sonra əli Xarı bülbülü tutan Şirxanın bədəninin olduğu yerə qayıtdılar... Əsgərlər sevinclərindən ağlayırdılar... Günəş Şuşaya doğmuşdu... Zəfərlə Günəş görmüşdü Şuşamız... Şirxanın can yoldaşı, döyüş dostu onun hərəkətsiz əlini tutdu və dedi:

*– Qalx, Şirxan, artıq arzuladığın, yolunda canını fəda etdiyin Zəfəri çalmışıq! Gəl bu Zəfəri birlikdə qeyd edək! Hər Şəhid kimi Sənin də bu Zəfərdə böyük əməyin olub, Şirxan! Oyan, Şirxan! Şuşaya Günəş doğub! Zəfər Günəş kimi doğub Şuşaya! Bilirəm, ruhun sevinir, ancaq çox istəyərdik ki, bədənin də sevinəydi... Şuşanın hər qarışında birlikdə gəzəydik... Azad etdiyin Şuşanın hər yerini birlikdə gəzərdik... Birlikdə gəzərdik... – Bu sözlər onun daxilində əks-səda verdi. Döyüş yoldaşının ağlına bir fikir gəldi. – Bu fikir ömrümdə mənim ağlıma gəlməzdi...*

Döyüşçülərin hamısının istəyi ilə Şirxanın cansız bədənini qaldırdılar və tankın üstünə qoydular. Şirxanın can dostları tanka mindilər. Bir döyüş yoldaşı çöldən bu sözlə ifadə





edilməsi çətin olan mənzərəni görürdü... O, işarə etdi ki, tankı sürün!

*– Hə, Şirxan, indi Səninlə Zəfərli Şuşanı gəzəcəyik!.. – Tankçı dostu tank üstündə hərəkətsiz dayanan o böyük fatehi sanki hiss edərək, duyğularına hakim olmağa çalışaraq bu sözləri deyirdi...*

Şirxan tank üstündə, gözü açılmış bir şəkildə Şuşanı gəzirdi... Şirxanın cansız bədəni harada idisə, ruhu da oranı seyr edirdi... Şirxanın ruhunun gözləri dolmuşdu... İstəyirdi ki, can dostlarını qucaqlasın...

Can dostları tank üstündəki Şirxanı Şuşanın mərkəzinə, Zəfər bayrağının dalğalandırıldığı yerə qədər gəzdirdilər... Tankçı dostu nə qədər duyğularına hakim olmağa çalışsa da, Şirxanın çiyin-çiyinə döyüşdüyü can yoldaşının gözündən yaş axırdı... “Ax... Şirxan... Bilməzdim bu qədər yandıracaqsan... ” deyə öz içində Şirxanın canlanmasını, qayıtmasını, gəlməsini istəyirdi... Elə bil Şirxanın cansız bədəni ilə barışa bilmirdi... Şirxan Zəfər bayrağını sadəcə ruhu ilə dalğalandırmışdı... İndi də cansız bədəni ilə Şuşanı gəzirdi... Nə olsun, Şirxanın ruhu əbədiyyətə qədər, dünya durduqca Şuşada, Şuşanın mərkəzindədir... Və o yüksəklikdən parlaq Qələbəli Azərbaycana baxır!.. Şirxan Quliyev şəhadətindən sonra “Vətən uğrunda”, “İgidliyə görə”, “Qubadlının azad olunmasına görə” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edildi...

Şirxan bu yolda canını fəda etmiş hər bir Vətən oğlu kimi öz arzusuna çatdı... Bu yolda O, öz canını verdi, qanını tökdü... İndi onun cismi aramızda olmasa da... Ruhu ki başımızın üstündədir... Vətən sağ olsun!

*17.02.2021*
*“Kredo” qəzeti, 14, 21.04.2021*

## “QƏHRƏMANA ELEGİYA”



*Şəhid Vasif Üzeyir oğlu Məhərrəmovun nurlu xatirəsinə (10 fevral 1989-cu il Beyləqan rayonu, Milabad qəsəbəsi-1 yanvar 2021-ci il Qubadlı rayonu həsr olunur.)*

***Sən getdin, atanın beli büküldü,***
***Neçə arzular torpağa gömüldü.***
***Sanma ki, bunla zalım fələk güldü,***
***Yerlərin heç vaxt doldura bilmərik,***
***Lakin, biz də Mübarizik, Vasifik!***

*Müəllif*

Elə vəziyyət yaranır ki, müharibə qaçılmaz olur... Belə vəziyyətlərdə insanlar hər an, hər dəqiqə müharibə təhlükəsi ilə qarşılaşa bilirlər... Müharibə bəzən ən dəhşətli, bəzən ən qəribə, bəzən də hətta ən səssiz

ola bilər... Bəzən heç nə hiss etdirməz, ən böyük acısını sonradan yaşadar insanlara... Müharibə dərsdir, özü də böyük dərs... Bunlardan da ən əsası həyat dərsidir... Müharibənin də öz həyat dərsi var... Hər an bir güllə ilə həyatına təhlükə vura, səni sevdiklərindən ayıra bilərlər... Ən dəhşətlisi də məncə budur... Heç kəs dözməz sevdiyi insanın bir an içərisində, gözlənilmədən, ağıla gəlmədən yox olmasına, bu yoxluğun ağrısına, acısına dözməz...

Dünən, ya da srağagün gördüyün bir insanın tezcə də qanadlanıb uçmağına, yox olmağına necə dözə bilərsən axı? Axı, o da qayıtmalı idi, qayıdacaqdı... Ailəsini görəcəkdi, həsrətini azaldacaqdı... Qohumları, yaxınları, dostları, yoldaşları onu qanlı müharibədən Zəfərlə qayıdan bir Əsgər kimi qarşılamalıydılar... Ona hələ Şəhadətindən 7 gün və 3 gün əvvəl medal da verilmişdi... Bəlkə də buna görə o, ailəsi ilə danışmış, ailədə doğmaları gülə-gülə, sevinə-sevinə onu təbrik də etmişdilər... Hər zəng qurtarmamış ailə üzvləri ona deyirdilər ki, "Özünü qoru, Vasif! Vətən müharibəsindən sonra, ölümlə ölüm-dirim müharibəsindən də bəlkə Zəfərlə döndün... " Fələyin qisməti, istəyi isə dəhşətlidir... Bu istək, bu qismət insana inanılmaz acılar verir bir dəqiqənin, bir anın içində...

Mən də bir elegiya yazıram... Qürurla birlikdə, göz yaşı da əlavə edirəm yazıma... Bunu ona görə yazıram ki, Vətən Müharibəsində zəfər bizim olsa da, Şəhidlərimizin qəlblərimizdəki yaraları qaysaqlanmadığından Yeni ili bayram kimi qeyd etmək olmazdı... Bunun sübutu üçün getdi bəlkə də qəhrəmanım, 2021-ci ilin ilk günü ürəyimizi parça-parça edən Şəhadəti ilə, Şəhid gizir Məhərrəmov Vasif Üzeyir oğlu...

Şəhid gizir Vasif Məhərrəmov Azərbaycanın sevincinin qənimi olan qara buludların göy üzünü bürüdüyü ilk ildən 1 il sonra, 10 fevral 1989-cu ildə Beyləqan rayonunun Milabad qəsəbəsində anadan olmuşdu. O, hələ körpə idi, haradan biləcəkdi ki, ağlı kəsmədiyi bir vaxtda əldən gedən Qarabağı o, öz qəlbi, cəsarəti və silahı möhkəm sıxan əlləri ilə azad edənlərdən biri olacaqdı. Bəlkə də körpə olmasaydı, ən azı 18 yaşı olsa idi, O, mütləq həmin döyüşlərə də atılardı. Vasif elə bir igid, elə bir cəsur insan idi ki, Vətənə uzadılan hər naməhrəm əli kəsməyə hazır idi.

Ağlı kəsən kimi bilməsə də, tədricən mühitindəki qaçqınlardan, doğulduğu yerdə qurulan Xocavənd qəsəbələrindən və orada yaşayan, az da olsa ümidi olan və qaçqın damğası ilə yaşamağa məcbur olan insanlardan başa düşürdü ki, yurdun bir parçası əsir qalıb. Orta məktəbin 1-ci sinifinə daxil olandan sonuncu sinfə qədər yurdumuzun tarixini, dilini, ədəbiyyatını öyrənir və Yurdunu bir daha sevirdi O. Lakin sevinmirdi. Ürəyində hər an deyirdi ki: "əli qələm tutan Nizamilər, Füzulilər, əli qılınc tutan Cavanşirlər, Babəklər, əli silah tutan Əliyarlar, Həsən Qorxmazlar, Mübarizlər yurdu olan bu vətənin bir parçası necə qaçqın damğası ilə yaşaya bilər?". O, son siniflərdə oxuyanda artıq qarşısına bir məqsəd qoyur: "Qarabağ azad olunmalıdır! Oranın azad olunmasında hökmən iştirak etməliyəm, hər hansı səbəbdən iştirak edə bilməsəm əgər, onda oranı azad edənlər üçün hər an duaçı olacağam və dua edəcəyəm!". Lakin sonra gənc, kişilik məktəbinin ərənlik biliyinə yiyələnməyə az vaxtı qalan Vasif bir daha ərənlərimizi, igidlərimizi, Yurd üçün öz gələcəyini düşünməyib Yurdun gələcəyi üçün Şəhadət Şərbətini Dadan Şəhidləri düşünüb bu şərəfə, bu şücaətə, bu Şəhadətə çatmaq istəyirdi. Bilirdi ki, bu yolda yerimək asan deyil. Onu bütün çətinliklər gözləyir. Ancaq, o, bu çətinlikləri heç nə bilir, çünki, əsrlər əvvəl bu yolda Təxt-i-Nadir sahibləri yeriyiblər. Onun milləti bir vaxtlar Yeni Dehlidə dik dayanıb! Vasif bir zamanlar Yeni Dehlidə dik dayanan Təxt-i-Nadir sahibi ilə indi Qarabağa əlləri çata bilməyən ürəyi yaralı insanlarımızı gözünün qabağına gətirib sarsılırdı. Bəlkə də o, hər zaman bunu edirdi. Bununla da intiqam odunda çırthaçırtla alovlanıb yanırdı. Lakin, hələ orta məktəbin son siniflərində oxuyan Vasif bu düşüncələrindən sonra qarşısına sadəcə bir məqsəd qoydu: "DÖYÜŞ ALNIMIZA YAZILIB! Odur ki, mən də Azərbaycan Əsgəri olmaq şərəfinə yiyələnməli, kişilik məktəbini keçəndən sonra da döyüşçü olmaqdan, qanı düşmənə qarşı mübarizə aparmaqdan əl çəkməməliyəm!"





Vaxt-vədə gəlib çatdı, gün o gün oldu ki, Vasif kişilik məktəbinə, əsgərliyə yollandı... Onun qəlbi ilk vaxtlardan hər an intiqam atəşi ilə yandı, intiqamından güc aldı, damarlarında elə bil intiqam qanı fışqırdı, düşməndən qisas almasına alət olacaq silahına onda məhəbbət yarandı, Ana, Vətən məhəbbəti... Hər gün elə fikirləşirdi ki, Ali Baş Komandan əmr verəcək və O, bir əsgər kimi döyüşlərdən-döyüşlərə atılıb Qarabağı azad edənlərdən biri olacaq... Bunun üçün canavarlar süfrəsini dağıdan bir Bozqurd lazım idi. Bu Bozqurdun vaxtı az idi. Prezident, Ali Baş Komandan əmr verməyin hələ vaxtı olmadığını bilirdi. Vasif dözməsə də, bilirdi ki, düşmənin belini sındırmaq üçün hərbçilik, cəsurluq, qəhrəmanlıq yolunda peşəkarlaşmaq çox vacibdir. Təlimlər onun polad bədənini daha da möhkəmləndirəcək, onu böyük, qanlı müharibəyə hazır edəcəkdi.

Vasif bu günlərə qədər çox təlimlərdə iştirak etmiş, öz bacarığı, dözümlülüyü, hünəri və qabiliyyəti ilə hərbçiləri, əsgər yoldaşlarını heyran qoymuşdu. Əsgər yoldaşları ona əvvəldən ümüdlər bəsləyirdilər, Vasif hər dəfə uğurdan-uğura atılanda bu ümid daha da böyüyür, qollu, budaqlı, kölgəsi geniş bir ərazini əhatə edən bir ümid ağacına çevrilirdi. Vasif isə bu möhtəşəm ümid ağacını Zəfər ağacına çevirmək istəyirdi. O da bu ağacın bir budağı, bir yarpağı olmaq istəyirdi. Bu Zəfər ağacının hər budağı bir Zəfər, hər yarpağı bir Zəfər fədaisi olmalı idi. Vasif bu Zəfər ağacının toxumunu içindəki torpaqda əkmək istəyirdi. Bəlkə də, özü də bu torpaqda bir torpaq olmaq istəyirdi, torpağa qarışmaq istəyirdi. Vətən üçün lazımsa Şəhid olmaq, Vətən torpağının şəhid, zəfər çalmış qəhrəman əsgər kimi onu qucaqlamasını istəyirdi Vasif...

Ailəsi bu günə qədər onu çox qorumuşdu, çox dualar etmişdi ki, Vasifin orada ayağına bir daş da dəyməsin. Həmişə də edəcəkdilər...

Vasif illərlə dişini qıcamış, dözmüşdü. Bütün hiyləgər erməni təxribatlarına, atəşkəs pozuntularına bir Azərbaycan Türkü olaraq səbri ilə cavab vermişdi. Bu illərdə nə qədər Şəhidlərimiz olmuşdu, hər Şəhid xəbəri eşidəndə Ona dünya dar gəlirdi. Mübariz Şəhid olanda Vasifin ürəyi dözməmişdi. Elə bil, onun başına qaynar su tökmüşdülər. Bundan sonra onun yuxularına daha çox girməyə başlayırdı Qarabağ həsrəti... Bəzən tam hazır olarkən, müharibəyə başlamışkən yuxu bitir, Vasif yuxusuna haram qatırdı. Mübariz-

siz düz 10 il O, mübariz bir döyüşçü olmağa hazırlaşmışdı. O, həmişə Ana Vətənini ailəsindən üstün tuturdu. Çünki, Vətənsiz insan, şəxsiyyət olmazdı. Olsa da, ol şəxsdə vicdan olmazdı...

Bəzən Mübarizin dastanından ilham alıb özü də Mübariz kimi olmaq istəyirdi. Lakin, O, yenə məqamı, vaxtı gözləyirdi. Ürəyi parça-parça olsa da, anaların ahı qulağını qanatsa da, həsrət fikrini haça-haça etsə də, O dözürdü. Vaxtının gəlməsi, məqamın yetişməsi üçün dözürdü...

Böyük hərbçi sərkərdəmiz, əsrimizin Cavanşiri, Babəki olan general Polad Həşimovun şəhadəti bütün xalqımızı erməni mənfurlarına və ümumiyyətlə hər mətləbin birlikdə həyata keçirilməsi üçün yenidən bir etdi, birləşdirdi. Xalq öz həmrəyliyini bir daha göstərdi. Dar gündə dostlarımız tanındı, onlar da bizimlə həmrəy oldular, birlikdə dərd yaşadılar, birlikdə qürurlandılar. Poladımızın şəhidliyinə heç kəsin dözmədiyi kimi, Vasif də dözə bilmirdi, intiqam onu içərisindən yeyirdi. Nə zaman bir atəşkəs pozuntusu olsa, o saat onun düşmən üzərinə qartal kimi şığımağı gəlirdi. Artıq O, Ali Baş Komandanın jestlərindən bilirdi ki, intiqam almaq vaxtı yaxmlaşıb, gəlir, indi hər an daha çox hazırlaşmaq lazımdır!

Bu ilin sentyabr ayının əvvəllərində verilən son atəşkəs şəhidimiz Elşən Məmmədovun şəhadəti ilə artıq Vasif düşünürdü: "Daha bəsdir! Bu şəhid anası sonuncu dəfə fəryad etməli, bu ata sonuncu dəfə belini bükməlidir! Bu Şəhid bizim Son Atəşkəs Şəhidimiz olmalıdır! Daha Dəmir Yumruğu düşmənə göstərməliyik! Qarabağı azad etməliyik! Düşmənləri müqəddəs torpaqlarımızdan qovmağın vaxtı gəlməlidir!"

Vasifin bu düşüncələri tələb olunan haqq-ədalət, coşub öz qabından daşan Azərbaycan səbri kimi öz yerini tapdı: VAXTI GƏLDİ! Sentyabr ayının qəm-kədər ayı olmaması üçün, sentyabr ayının sonlarında, 27 sentyabrda Ali Baş Komandan hamının 30 il gözlədiyi "Qan düşmənini Vur!" əmrini verdi! O zaman bütün əsgərlər və zabitlər, bütün silahlı qüvvələr, ərənlərimiz, döyüşçülərimiz, igidlərimiz, hətta hərbçi olmayanlar da səfərbər olaraq döyüşə atıldılar. Arxa cəbhədə olanlar da həmrəylik göstərərək özlərini mənfur düşmənlə üzbəüz olan əsgər kimi hiss etməklə əsgərlərimizə mənəvi dayaq oldular. Öndə olan həmin igid döyüşçülərdən biri də gizir Məhərrəmov Vasif Üzeyir oğlu idi!

İlk zənglərdən birində Vasif sonuncu dəfə görüşdüyü ata-anası ilə son dəfə danışırmış kimi danışdı:

*– Ana, birdən mənə bir şey olsa... Onda ağlayarsan?*

*– Mənim duam səninlədir... Bizim duamız səninlədir, oğul... Hər döyüşçünün ata-anasının duası, Cavanşirin, Babəkin, Ərtoğrulun, Xətainin, Nadir şahın ata-anasının duasıdır! Bu dua həmin ərəni ömrü boyu qoruyar və ona həmişə yar olar... Təbii ki, Allahla birgə... Allah da Sənə yar olsun, köməkçi olsun, oğul!..*

Vasif hər gün elə bil qəlbində duaları ilə uğurlar əldə etdiyi üçün anasına təşəkkürlər edir, bu uğurlar barədə anasına ətraflı məlumat verərək onu da sevindirirdi. Müharibənin hər çətin günündən sağ çıxdığına görə Allahına Şükür edirdi O. Hər Şükür sanki ona dirilik suyu verir, onu canlandırırdı. Onun üzərinə səpilən dirilik suyu Azərbaycan





xalqına səpilən cəng, zəfər suyu idi!

***Azərbaycan canlandı,***
***Axan damarda qandı.***
***Qarabağım hər zaman,***
***Yurdum Azərbaycandı!***

Vasif hər zaman döyüşür, qisas üçün könül verdiyi, məhəbbət bəslədiyi silahını bir an belə əlindən yerə qoymurdu. Heç nə bildiyi bir məfhumun, ölümün gözünə dik baxırdı. Qorxmaz bir əsgər kimi Zəfər Yolunda addımlayırdı. Qisasının, intiqamının nəticəsi olan erməni cəsədləri azad etdikləri hər qarış torpağımızda nə qədər görsə də, ürəyi soyumurdu. Azərbaycana uzadılan hər xain əli kəsməyini ürək yanğısına səpilən Zəmzəm suyu bilirdi Vasif. "Təki Vətən sağ olsun" sözünü şüar edib Şəhid olmaq da istəyirdi. Bunu özünə şərəf bilirdi. Ailəsi ondan nigaran idi, lakin, bilirdilər ki, Vasif Vətəni hər şeydən üstün tutur, onun yolunda Şəhid də olar, Qazi də!

Vasif Füzulinin, Cəbrayılın və Qubadlının azad edilməsində xüsusi cəsurluq, igidlik, məharət, şücaət göstərmişdi. (Vasif heç bilməzdi ki, O, Qubadlıda Şəhid olacaq, lakin, döyüşlərdə yox, zəfərdən və düşmənin məğlub, təslim olmasından sonra... Təki Vətən Sağ Olsun...) Onun düşmənə vurduğu sarsıdıcı zərbələrdən digər döyüşçü dostları da güc alaraq daha sürətlə irəliyə şığıyar, döyüşər, erməniləri bir zərbədə məhv edərdilər. Təkcə onlar yox, Qarabağdan xəbər gözləyən bütün Azərbaycan Vasif kimi ərənlərimizi görüb ruhlanır, qürurlanır, həvəslənirdilər və yeni yaradıcı işlərə aparan yolların xəritəsini çəkirdilər.

Vasif illərlə dişini sıxa-sıxa, "vaxtı gələcək... " deyə-deyə, həsrətlə gözlədiyi o günə canlı şahidlik edirdi. 8 Noyabrda Şuşamızın, Azərbaycanın mədəniyyət paytaxtının azad olunması ilə, 10 Noyabrda isə düşmənlərin sülhə məcbur edilməsi ilə Azərbaycan tam Zəfər çaldı! Bütün Dünya Azərbaycanlıları, dar gündə tanınan dost, qardaş ölkələr kədərimizə kədərləndiyi kimi, sevincimizə ürəkdolusu sevindilər! Zəfərimizi birlikdə bayram etdilər! Bu unudulmaz Zəfərin canlı şahidi olanlar (içi mən qarışıq) bilirdilər ki, bir 8 noyabr, bir 10 noyabr bütün aylara, illərə, qərinələrə, əsrlərə, hətta, dünyanın ən axırıncı ilinə də dəyər.

Zəfərimizə sevinib Allaha sonsuz şükür edənlərdən biri də bu zəfərdə sonsuz payı olan gizir Vasif Məhərrəmov idi! O sevinirdi ki, ən böyük arzusuna çatıb və Zəfəri əldə edənlərdən, Vətənə bu sevinci verənlərdən, Xarıbülbülü diriltdənlərdən biri olub! O, çox sevinirdi! Telefon əlaqəsi zamanı Anasını, ailə üzvlərini qələbəyə görə təbrik də etmişdi O. Vasif 44 gün ərzində qəlbində sıxıb saxladığı bir çox cümlələrdən ibarət olan istəklərinin sadəcə cüzisini Anasına deyirdi:

*– Anam, deyirdin ki, hər döyüşçünün ata-anasının duası, əcdadlarımızın ata-anasının duasıdır, bu dualar əziz övladları qoruyur və xəta-bəladan hifz edir. Həqiqətən də həmin duaların hamısı, sizin dualarınızla birlikdə gerçək oldu. Dualar sayəsində və*

*əsgərlərimizin şücaəti sayəsində müqəddəs yurdlarımız azaddır... İncik ruhlar daha rahatdır... Qələbəni qazanmışıq!*

– Hə, oğlum, dualar yerinə yetdi. Hamısı. Var ol, oğul. Südüm sənə halal olsun! Sən düşmənə baş əymədin, onun başını əzdin! Özü də dəmir yumruq əməliyyatı zamanı dəmir yumruğunla! Allah Sənə həmişə yar olsun! Bundan sonra orada özünü qoru. Allah eləməmiş birdən mina olar, bu ermənilər əl çəkən deyillər, onlar bu 28 il ərzində o qədər şeytan işlər görüblər ki... Azərbaycan əsgərləri evləri top atəşinə tutur demək üçün tankları evlərdə gizlədənlərdirlər ey bunlar, hər şey gözləmək olar bu ermənilərdən, balam...

– Nə bilim, ay ana. Nə olur olsun, Allahın qismətindən qaçmaq olmaz, onu deyim ki hələ ki, evə gələ bilməyəcəyəm, amma sizin üçün elə darıxmışam ki, heç belə olmamışdı. Qayıdana qədər yenə duan üstümdə olsun. Əgər nə isə olacaqsa, başıma bir iş gələcəksə... Vətən sağ olsun!

Neçə-neçə igid əsgərlərimizdən olan, düşmənin qarşısında dik dayanan, hər jurnalist sualına dəqiqliklə cavab verən polkovnik Babək Səmidli şəhid olandan sonra ailəsi Vasif üçün də narahat olmağa başladı. Hər gün Vasiflə zəngləşir, ona diqqətli olmağı tövsiyə edirdilər. İstəyirdilər ki, Vasif tez qayıtsın, görüşsünlər, həsrəti azaltsınlar... Bəlkə də Vasifin xəyalı da var idi ki, bir gün ailəsini də götürər, birlikdə azad olunmuş Qarabağı gəzərlər... Lakin, fələyin növbəti oyunundan Vasif də, ailəsi də xəbərsiz idi...

Qələbə Paradı günündə özünü daha da sevincli hiss edən Vasif baxdıqca gözəl mənzərələrdən doymur, Allaha bir daha Şükür edirdi. Türk qardaşlarım gördükcə damarındakı Türk qanı sanki partlayıb fışqıracaqdı. Lakin, nə qədər ruhlansa da, O, Şəhidləri unutmurdu. Elə bil Onlar da əlini Vasifin çiyninə qoyurdular və Allahın dərgahına gedəndə Vasifə də işarə edirdilər ki, Sən də gələcəksən bu gözəl dərgaha... Vasif bunu hiss edirdi elə bil.

Və sonda Vasif bir əmri ilə səfərbər olduğu Ali Baş Komandanı tərəfindən 24 dekabr 2020-ci ildə "Cəbrayılın azad olunmasına görə", 25 dekabr 2020-ci ildə isə "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi. 29 dekabr 2020-ci ildə isə "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilmişdi. Vasif haradan bilərdi ki, bu gözəl xəbərin ona çatmasından sadəcə 3 gün sonra O, Şəhadətə qovuşacaq... İnsanın ürəyi parən-parən olur bu reallıqla üz-üzə qalanda...

Ailəsi onu bu xoş xəbərə görə təbrik də etmişdi. Onların sevinclərinin həddi-hüdudu yox idi, elə bil Vasif qayıtmışdı. Bəlkə də qohumlarından biri Vasifin təltif edilməsi xəbərini yoldaşlarına vermiş, qürurlu dayanaraq Vasifin şücaəti ilə fəxr etmişdi... Onlar haradan bilərdilər ki, şadlıqla dolan bu evdəki insanlar 3 gün sonra canlarından çox sevdikləri bir insanın dəfninə gedəcəkdilər...

Vasif bir daha, bəlkə də son dəfə ailəsi ilə zəngləşdi...

*– Oğul, səni bu uğuruna görə təbrik edirəm... Görürsən, oğul, dualarımız bir-bir gerçəkləşir. İnşəAllah qayıdarsan, Yeni ildə bir yerdə olarıq.*





*– İnşəAllah, ana, İnşəAllah! – Vasifdə də son ümid var idi...*

*– İnanıram, inanıram, gələcəksən... O vaxt səni daha qürurla, fəxr hissi ilə qarşılayacağam... Sənin üzünü, gözlərini öpəcəyəm... Sinəndə gəzdirdiyin bayrağı öpəcəyəm... Sevinc hissi hamımızı bir daha bürüyəcək... Allah eləsin, oğul, Allah eləsin...*

*– Sən deyirsənsə, mütləq olacaq. Bəlkə də, təzə ilin ilk günü olacaq bu gün, elə hamısı... – Sözlər elə bil Vasifə vəhy ilə gəlirdi. Elə bil təzə ilin ilk günündə nələrin olacağından xəbərdar idi O.*

*– İnşəAllah olacaq, oğul! Bax, özünü qoru ha, mina olar, elə olar, belə olar... Mütləq gələcəksən ha... Səni sağ-salamat görəcəyəm, görəcəyəm... Daha telefonla danışmayacağam...*

*– Narahat olma, o gün gələcəyəm deyirəmsə, gələcəyəm. Siz də özünüzü qoruyun. Çölə çıxmayın, hava buralarda da soyuqdur, özünüzü soyuqdan qoruyun, Allah hamınızı qorusun. Amma, Vətən odu bizi qızındırır. Əsgərlərlə bəzən zarafatlaşırıq, gülürük... Şəhidlərimizi yada salırıq, kövrəlirik, deyək ki gözümüzün biri ağlayır biri gülür... – Ürəyindən keçirirdi ki, bəlkə özü də Şəhid olacaq, ancaq ailəsi bunu mümkünsüz sayırdı. Bilirdilər ki, mütləq o gələcək, başqa cür olmasının ehtimalı yoxdur, onların nəzərində ululların duaları qoruduğu kimi yenə də qoruyacaqdı Vasifi...*

*– Allah Şəhidlərə rəhmət eləsin, oğul! Sənə də cansağlığı versin! O gün olsun daha çox Zəfər qazanasan! Zəfər Sənə yaraşır!..*

Vasif həmin gün başqa duyğularla danışırdı. Elə bil yanında Xudayar şəhidliyindən sonra məlum olan öz məşhur, füsunkar, ürəkləri fəth edən,bir az da dağlayan, dillərdə əzbər olan təsnifini oxuyurdu. Elə bil yanında Babək Səmidli Xudayarı müşayiət edirdi... Demək ağırdır, yaşamaq ondan da ağır... Elə bil hamısı Vasifi öz yanlarına çağırırdı... Deyirdilər ki, Sən də bizə qoşulmaq üçün bir azdan Allahın dərgahına gələcəksən, bizimlə birlikdə azad etdiyimiz müqəddəs torpaqlarımızın səmasında uçacaqsan... Vasif ailəsini də düşünürdü. İstəməzdi ki, bir ana da ağlar qalsın. Bir atanın da beli bükülsün... Amma, onun həmişə, hər yerdə bir şüarı var idi: "Təki, Vətən sağ olsun!"

Bu şüarla yaşayan, bu şüarı yaşamaq səbəbi edən gizir Məhərrəmov Vasif Üzeyir oğlu 2021-ci ilin ilk günü uğrunda döyüşdüyü, oradakı şücaətinə görə təltif olunduğu Qubadlı rayonunda minaya düşərək Şəhadət şərbətini içən Şəhidlərimizdən biri oldu və ruhu həsrətində olduğu, azad etdikləri vətən torpağının səmalarında sevinclə pərvazlanan, onu öz qatarlarında görmək arzusunda olan ruhlara qarışaraq xoşbəxtliklə pərvaz etdi ...

O vaxt bir ailə nə qədər qürur duysa da, daxildə qəm yasına boğuldu... Bir ana da ağladı... Bir atanın da qəddi əyildi, bir gəlin də xınasını göz yaşıyla suladı, sildi... Vətən Müharibəsinə şəhidlik edən hər kəs Vasifin şəhadətinə qürur qarışıq təəssüflənərək ağladılar, Yeni il keçirilməsinə də lüzum duymadılar.

Fələk öz oyununu bir daha oynadı... Hələ Təzə İlin ilk günü yenicə başlamışkən bir Ərənimiz də Şəhid oldu...

Hər kəsə ən çox təsir edəni də Onun Şəhadətindən 3 gün əvvəl təltif edilməsidir... Bəlkə də nə qədər ümüdləri, arzuları var idi qəlbində... Ailəsi düşünürdü ki, O, tədbirlərdə, reportajlarda döyüşçü kimi dik duracaq və sinəsindəki üç medalı da birdən cingildəyəcək. Medalın əslində önəmi yox idi, sadəcə, təqdir idi, lakin, arzular böyük idi. O, medallar üçün deyil, vətən üçün getmişdi. Bəlkə də anası düşünürdü ki, Vasif baba olanda nəvələrinə üç medalını da döşünə taxıb böyük fəxrlə Vətən Müharibəsindən danışacaqdı... Qismət... Fələyin oyunu...

2021-ci ilin ilk günü Şəhid xəbərinə oyandıq... Ürəyimizdəki bütün şam ağacları Şəhid atəşi, odu ilə yandı, yanıb kül oldu... Yəqin qismət belə imiş deyə bilmirəm... Bu, razılaşması namümkün olan bir acı həqiqət idi...

Şəhadəti ilə hamımızın ürəyini parçalasa da, şəhid gizir Vasif Məhərrəmov bizim qürurumuzdur və həmişə də olacaq! O, öz dastanını özü danışa bilməsə də, biz onun böyük qəhrəmanlıq dastanını illər uzunu yazacaq, yayacaq və nəsillərdən-nəsillərə yadigar edəcəyik!

Allah Bütün Şəhidlərimizə rəhmət eləsin! Amin!

*09.01.2021*

*"Kredo" qəzeti, 20.01.2021*

## MƏN BU DÜNYAYA ZƏFƏR ÜÇÜN GƏLMİŞDİM



*Vətən müharibəsinin ən gənc şəhidi Vüsal Novruz oğlu Allahverdiyevin Cənnətdən yazdığı dastan...*

*(25 iyul 2002-ci il Samux rayonu Qarayeri qəsəbəsi-6 noyabr 2020-ci il Xocavənd rayonu)*

***Ölümlərdən saqınma, məyus olmaqdan utan!***
***Bir dəfə düşün səni nədir dünyada tutan?***
***Məfkurəsindən başqa hər varlığı unudan***
***Qəhrəmanlar kimi sən əbədi qalmalısan...***

*"Türk Gənclərinə" şeirindən bir bənd*
*Müəllifi: Hüseyn Nihal Atsız*

İndi cənnətdə, cənnətin ən gözəl guşəsindən böyük sevinclə, qürur hissi ilə Sizə öz həyat hekayəmi danışıram. Bu hekayəni 6 noyabr 2020-ci ildə, Xocavənd istiqamətində şəhid olduqdan sonra ruhum digər şəhidlərimizin ruhu ilə azad etdiyimiz Qarabağ səmalarında cövlan edən vaxt yazmağa başlamışam. Yəqin ki, Siz də bu dastanı heç vaxt unutmazsınız və oxuyarsınız... Məndən Sizə qalan vəsiyyət





və miras elə budur...

Mən Allahverdiyev Vüsal Novruz oğlu 2002-ci ildə Samux rayonunun Qarayeri qəsəbəsində anadan olmuşam. Ailəm məni orta məktəbə də, əsgərliyə də neçə-neçə arzular və ümidlərlə yola salıb... Qəlblərindəki bu arzuların və ümidlərin içərisində torpaqlarımızın düşmən tapdağından azad olunması arzusu və ümüdü də var idi... Ancaq məni, hələ də körpələri kimi sandıqları övladlarını bəlkə də silahla, topla, tüfənglə təsəvvür etmirdilər... Necə etsinlər, axı mən körpə idim, uşaq idim...

Orta məktəbdə aşağı siniflərdə oxuyanda bir Qəhrəmanın taleyi hamının taleyini dəyişdirdiyi kimi, mənim də taleyimi, dünyagörüşümü tamamilə dəyişdi. Tariximi yenidən yazdı, məni yeni tarix yazanlardan etdi. Mən həmişə ana dilimizlə bağlı olan dərslikləri mükəmməl oxumuşam, mütaliə etmişəm. Əlimdən kitab düşməyib. Elə şəhid adaşım Vüsal Allahverdiyevlə cənnətdə danışanda o da mənə dedi ki, mən də mütaliələr edirdim, Nihal Atsızın kitablarını oxuyurdum, onun bozqurdla bağlı olan kitabları əlimdən düşmürdü. Mən də eyni ilə etdiyimi bildirərdim. O mənə deyərdi ki, yəqin elə Allah Səni dünyaya bəxş edən andan Vətən üçün, vətənsevər yaradıb. Doğulduğun ilk andan Vətən oğlu olmusan. Elə həmin günlərdən Vətən yoluna ömrünü həsr etməyə hazırlaşmısan, bunu həyata keçirmək üçün yolçuluğa başlamısan.

Lap kiçik yaşlarımda, orta məktəbə gedənə qədər tariximizi öyrənməyə görə məktəb yaşım çatmadığı üçün mən atamdan, anamdan tariximizi, tarixin bizə verdiyi dərsi öyrənirdim. Nəslim, nəcabətim, soyum, boyum haqqında atam, anam məni məlumatlandırırdı. İlk olaraq Ulu Öndərimizi, onun Azərbaycan xalqı yetişdirdiyi cənab Prezidentimizi öyrəndim, sonra başladım tarix yoluna... Ancaq, 2010-cu ildə, yay tətilinin ilk günlərində bir qəhrəmanın dillərdə əzbər olan adı qulaqlarımda əks-səda verdi, verdi : MÜBARİZ! 22 yaşında, yaşına, gəncliyinə önəm verməyib, Vətəninə önəm verən, düşmənin qəddarlığına, haqsızlığına dözməyib vulkan kimi püskürən, zamanın haqsızlığına üsyan edən bir Qəhrəman və onun yaddaşlardan silinməyəcək mübarək adı... O, Tərtər istiqamətində, Çaylı kəndi yaxınlığında düşmənləri lərzəyə salmış, gecə vaxtı danüzünə qədər onların qorxulu röyaları, kabusları olmuşdu. Neçə-neçə erməni dığasını qırıb məhv etdikdən sonra Şəhadətə doğru mübariz, mərd, cəsur addımlarla addımlamışdı həmin qəhrəman... O vaxtdan sonra daha çox anladım Şəhadətin nə olmasını, Şəhidliyə necə addımlayırlar, o yol necə keçilir və o yolu keçmək kimlərə, necə nəsib olur... Ondan sonra bütün yay tətili boyu o qəhrəmanın mübarək adı dilimin əzbəri olmuşdu. Yay tətilinin yarısını onun nurlu nəşinin təhvil verilməsini gözləməklə keşirdim. Nəhayət Onun mübarək nəşi təhvil verildi və o, uğrunda canını sevə-sevə fəda etdiyi vətən torpağında dəfn olundu. Bütün Azərbaycan xalqı ayağa qalxmışdı. Dövrümüzün, zəmanəmizin yeni bir xalq qəhrəmanını hamı ayaq üstündə qarşılayırdı, alqışlayırdı... Qəhrəmanın nur üzlü anasının-atasının əllərini öpmək istəyənlər çox idi... Ancaq, ana həm çox gərgin, eyni zamanda həm də qürurlu idi... Onun naləsi hamının ürəyini sızladırdı. Bu vəziyyətdən mənim anam da çox təsirlənmişdi. Ömrünün baharını payıza, qışa çevirməklə Vətəninin qışını yaza, bahara çevirən bir Qəhrəmanın yoxluğu hamının ürəyini parça-parça edirdi... Mənə nə isə qaranlıq qalırdı... Mən də çox təsirləndim, ancaq ağlaya bilmirdim... Düşünürdüm ki, axı Mübariz ölməyib, Şəhid olan necə ölə bilər? Şəhidə

ölü kimi baxırlarsa və ağlayırlarsa... Bu, necə ola bilər? Dözmədim və valideynlərimdən soruşdum:

– *Mübariz İbrahimov ölüb ki, hamı onun yoxluğuna ağlayır?*

– *O nə sözdür, oğul, təbii ki, ölməyib, heç ölməyəcək də.* – Atam doluxsunaraq sualıma cavab verdi.

– *Bəs niyə ona görə ağlayırlar, axı, deyirlər ki, Şəhidə ağlamaq olmaz, o ölməyib, Şəhiddir... Allah yolunda Şəhid olanlar ölmürlər axı... Bunu Siz də mənə demişdiniz...*

– *Düz deyirsən, oğul, düz deyirsən. Ancaq, bir Ana fəryadı elə acıdır ki, onu ölçmək üçün bir acıölçmə aləti, cihazı yoxdur. Bunu ifadə etmək üçün dil də acizdir, ruh da. Nə qədər çalışırıq ağlamayaq, ağlayırıq, özümüzdən asılı deyil. Sənin sözün mənə həm də bu cümləni xatırlatdı: Şəhidlər bizim ağlamağımız üçün deyil, Zəfəri qeyd edib sevinməyimiz üçün getdilər...*

– *Ata, indi Mübariz İbrahimovun qisası alınıb?*

– *Mübariz İbrahimovun qisası alınıb deyirlər...*

– *Yox, ata, məncə alınmayıb. Bunu hiss edirəm. Mübarizi Şəhid edən alçaq qorxduğundan qaçıb, gizlənib...*

– *Sən indi Şəhidliyi də hamıdan doğru anladın, qisası da.. Afərin, oğul... Səni, sənin kimi oğulları Mübarizin qisasını alan görüm, oğul...*

– *Elə də görəcəksən, atacan...* – Atamın dediklərindən güc alırdım. Özümü heç də 8 yaşlı bir uşaq kimi təsəvvür etmirdim. – Bundan sonra mən Mübariz kimi olacaqdım!..

Atam elə bil baxışları ilə, gözləri ilə danışırdı, elə bil o baxışları ilə deyirdi ki: "Səninlə fəxr edirəm, oğul... " Atam həqiqətən də, mənə bildirməsə də hiss edirdim ki, o istəyir ki, mən böyüyüm, Mübariz kimi olum və Mübarizin qisasını alım, ancaq, ürəyi bir az ehtiyat edirdi... Sonrakı illərdə daha çox ehtiyat edəcəkdi... "Bəs Şəhid olarsa?!... Bəs Şəhid olsa!?" deyəcəkdi... Valideynlərim doğulduğum andan qoymurdular ki, velosiped sürəndə yıxılım, ya da qaçanda ayağım daşa dəysin. İndi də cənnətdən onları izləyirəm, heç biri barışmır 18 yaşlı bir gəncin sinəsinin güllələrə sipər olmasıyla... Övladının ayağına daş dəyməsin deyə ürəyini daşlara sipər edən bir ana indi oğlunun yoxluğu ilə barışmırdı... Özü də 18 yaşında olan oğlunun... Ancaq, yanımda durub o biri dünyaya baxan şəhid qardaşlarıma da deyirəm ki, mən cənnətdə sizinlə birlikdə olduğuma görə çox şadam...



Bura 18 il yaşayıb gördüyüm işıqlı dünya kimi ikiüzlü deyil. Bu cənnətin hər üzü, hər guşəsi gözəldir. Düşünürəm ki, göylərdən gördüyüm Şuşa cənnətin o biri dünyadakı oxşarıdır. Mövzudan kənara çıxmayıb onu da deyirəm ki, valideynlərim, məni sevənlər, uğrunda can verdiyim Vətənim mənə görə göz yaşı töksə, bu cənnətin hər qarışı mənim üçün əzab olar... Bilirəm ki, bunu onlar da istəməzlər... Ancaq neyləyəsən, qismət belə gətirdi də... Bəxt... qismət... 18 il bir üzü kirli dünyada, dünya dağılana qədər isə hər üzü cənnətməkan olan o biri dünyada yaşamalı, ancaq yenə də sevdiklərimdən ayrı qalmalı imişəm... Yenə də Vətən sağ olsun...





O yay günündən min qərinə boyda olan 10 il keçdi gözümün qabağından. Hər gün atəşkəs pozulurdu, hər dəfə şəhidlər verirdik... İndi Cənnətdə bir yerdə qaldığım bir şəhid var... Adı Sərxan, soyadı Qasımovdur... Sən demə, şəhid olanda onun 18 yaşı təzə tamam olubmuş. O da mənə öz dastanını danışdı... Vətən övladlarından təvəqqəmdir ki, onun da qəhrəmanlıq dastanını dinləsinlər. Təsəvvür edin ki, oğlunun ad gününü təbrik etmək üçün ona zəng vuran ana bir komandirin onun oğlu barədə qara xəbər verməsi ilə ani olaraq buz heykələ çevrilir... Düşünürəm ki, ailəmin acısı Sərxanın ailəsinin acısı ilə eynidir, ancaq, onun ailəsinin acısı mənim ailəmin acısından bəlkə də bir qədər fərqlidir... Çünki hər ailənin öz çəkə bildiyi qədər dərd yükü var.

Of... (Bir Şəhid anası acı çəkəndə özümdən asılı deyil, cənnətdə belə ufuldayıram...) Harada qalmışdıq? Hə, mübarizə ruhumun dirilişindən 10 il keçmişdi... Mən 2-ci sinif şagirdi, 8 yaşlı bir məktəbli uşaq deyildim... Bir azdan Azərbaycan Respublikasının əsgəri olaraq vətənə xidmət andı içəcəkdim...

2020-ci ilin iyul ayında baş vermişdi həmin hadisə. Anam hər əsgər anası, müvəqqəti də olsa ciyərparasından ayrı düşən varlıq kimi özünü narahat hiss edirdi. Deyəsən, məndən gizli-gizli ağlayırmış da. Hər bir əsgər anasının ürəyi həmin vaxt yuxa kimi nazik olur. Mən o vaxt bir günlük əsgər idim, başa düşmürdüm. Şəhid oldum, Anamı cənnətdən görərək... anladım... Anladım ki, Ana üçün oğlundan ayrı qalmaq canın bir parçasından ayrı qalması kimidir. Anam hətta mənim əsgər olmağımla da barışmaq istəmirdi ki axı hələ bu mənim körpəciyimdir... Ürəyinə nə isə dammışdı elə bil. Ana ürəyidir də... Dolaşıq fikirlər beyninə hakim olmaq istəyirdi. Bəzən də özünə təskinlik verirdi ki, nədir ki il yarım, bu il yarımda nə olasıdı ki, olsaydı yəqin 30 ilə yaxın müddətdə olardı... Ancaq sən saydığını say... İlk 3 aydan sonra nələr olmadı ki...

Çoxları kimi anam da elə düşünürdü ki, mən sadəcə əsgər gedib ümumi qaydada vətənə xidmət edəcəyəm, daha heç bir şey, yəni müharibə olmayacaq. Axı ermənilərin havadarları çoxdur, onlar sülh yolu ilə torpaqların qaytarılmasını uzatdıqca uzadacaq, ermənilərin hegemon havadarları isə Azərbaycana torpaqlarını müharibə yolu ilə qaytarmağa imkan verməyəcək, 200 ildən çox müddətdə olduğu kimi... Əsgərliyimin ilk günlərində Zəfər tariximizin ön sözü yazılırdı elə bil. Tovuz döyüşləri başlamışdı... Cəbhə xəttində qanlı döyüşlər gedirdi. Bir an içərisində bütün Azərbaycan bu döyüş barədə olan xəbərləri izləməyə başladı... Hamının tərəzi gözü dörd olmuşdu. Təbii ki, biz də olanları izləyirdik. Anamın nələr hiss etdiyini, hansı hissləri keçirdiyini təsəvvür edə bilmirəm. Ancaq ana ürəyinin çırpıntılarından eşidirdim ki, içində deyir: "Gəncliyinə doymayan balamı indi yola salsam, görəsən, Tovuzda döyüşməyəcək? Allahım Sən saxla balamı, balalarımızı!".

Və sonra Xalq üçün elə bil bir anlıq həyat dayandı... Döyüşlər davam etsə belə... İnsanlar nəyin baş verdiyini təsəvvür belə edə bilmirdilər... Heç kəs bu halı qəbul, həzm edə bilmirdi... Hələ səhər saatlarında günümüz zil qara rəngə boyanmışdı... Qırmızı qanlı Tovuz döyüşlərində arasında özümün də olduğum 2855 cənnət Şəhidlərinin əlini yumruq edəcək an gəlmişdi... General Polad Həşimov qəhrəmancasına şəhidlik zirvəsinin fatehlərindən biri olmuşdu... Gözünü xalqın sabahına dikərək qatil gülləsinə,

namərd güllәsinə qurban getmişdi generalımız... Gözünü sabaha dikdi deyirəm, çünki, O, hər şeyi bilirdi... Heç bilməzdim ki, adını belə eşitmədiyim bir generalımız şəhid olacaq, öz şəhadəti ilə hamını Zəfərli döyüşə hazırlaşdıracaq, haraylayacaq, birləşdirəcək, Mübariz və mübarizlərdən sonra bir anda onun da adı dillər əzbəri olacaq... Heç bilməzdim ki, əvvəllər adını eşitmədiyim həmin generalla cənnətdə qonşu olacağam...

Anam əvvəlcə qardaşımı, sonra məni əsgərliyə yola saldı... Mən dostlarla əsgərliyi düşünəndə, xeyli müddətlik ayrılıq, həsrətdən bəzən doluxsunub, bəzən gülümsəyəndə anamın gözləri dolmuşdu. Çox qorxurdu mənim üçün... Bu, adi bir təlaşlanma deyildi... Axı mən onun üçün hələ də körpə idim. Elə bil anamın ürəyinə dammışdı mənim şəhadətim... Elə bil əvvəlcədən bilirdi ki, bizi qanlı döyüşlər gözləyəcək, bundan sonra da... Zəfər. Ana ürəyidi də... Anam eyni vaxtda canından iki parçanın həsrətini, ayrılığını daşıya bilməyəcəyini, gücsüz olacağını elə bil hiss etmişdi, ona görə də ikimizin bir vaxtda getməyimizi heç istəmirdi... İçində ağlayırdı için-için, dua edirdi Allaha, bizi qoruması üçün Ona yalvarırdı anam... Anamı gör neçə dərd-bəlalar gözləyirmiş... Of...

Andiçmə mərasimim olanda da anam özünü gücla saxlayırdı... Özünü mənə gülə-gülə oğlunu yola salan bir ana kimi göstərirdi... Mən elə bil anlayırdım onu... Bilirdim ki, qəlbi qan ağlayır, qəlbi qan-yaşdır... Nə edə bilərdim ki, axı, vətəni müdafiə etmək mənim ən müqəddəs borcumdur. Mən artıq daha çox "Vətən sağ olsun" deməliydim və için-için deməyə başlamışdım... Qarşıda məni çətin, lakin olduqca şərəfli günlər gözləyirdi...

3 ay içərisində nələr olmadı ki... Əsgərlikdə olanda eşidirdim xəbərləri... Xalq ayağa qalxmışdı bütün vətənimdə. Haqq, ədalət tələb edən, işğalçılığa son qoyulması üçün mitinq keçirən bütün dünya azərbaycanlıları xarici ölkələrdə təzyiqlərə məruz qalır, təhdid edilir, döyülürdü... Onlara hücumlar olurdu... Bütün bu olanlardan sonrakı döyüş Tovuzdakı kimi dörd gün-beş gün çəkməməli idi... Artıq hamı Zəfərli müharibəyə hazır idi! Dişimizi qıcaya-qıcaya, yumruğumuzu sıxa-sıxa qisas vaxtının gəlməsini gözləyirdik...

Nəhayət həmin vaxt gəldi, ilk Zəfərlər bizi qucaqladı! 27 sentyabr 2020-ci ildə artıq biz "vaxtı"nın gəlməsini gözləmirdik, çünki, qisas vaxtı gəlmişdi. Biz ilk zəfərlərimizi elə həmin gün, həmin andan qazanırdıq! Düşməni biçə-biçə, qıra-qıra, məhv edə-edə irəli gedir, torpaqlarımızı onların murdar tapdağından azad edirdik. Ölüm-qalım savaşında olan heç kim bir addım belə geri çəkilməyi düşünmürdü. Hamı şəhidliyi gülüşlə, sevinclə, zəfərlə qarşılamaq istəyir, qarşılayırdı, irəliləyirdi... Düşmənlər qorxaq, namərd və cəsarətsiz olduqlarından hətta, şalvarlarını belə qoyub qaçırdılar. Azad etdiyimiz torpaqlarımızda düşmənin şalvarını, paltarını görəndə gülməkdən özümüzü saxlaya bilmirdik... Onda bilirdik ki, ilk həmlədən qarşımızdan qaçan düşmən bizim yanımızda heç kimdir... Azərbaycan 90-cı illəri yaşamırdı... Mən də 90-cı illəri yaşamadığım üçün yeni reallığı yaratmağa çalışırdım... Döyüş yoldaşlarım ilə birgə... Onlar mənim yanımda, gözümün qabağmda şəhid olurdular... Şair deyib ki, "yanında boş yerə tamahım düşüb". Mən də istəyirdim ki, onlarla bir yerdə şəhid olum, lakin onların qisasını alandan sonra...

Beləcə, erməni də olsa tək bir nəfər də olsun mülki şəxsə zərər vermədən, sadəcə





düşmən "hərbçiləri"ni qova-qova, məhv edə-edə vurub Füzulidən, Cəbrayıldan çıxardıq... O torpaqların azad olunması yolunda çox şəhidlər verdik, çox qazilərimiz oldu... İndi burada həmin şəhidlərlə hər gün görüşür, söhbətləşirəm... Cənnətdə gördüklərim və eşitdiklərimdən böyük bir kitab yazardım... Ancaq, bu yazdıqlarım yəqin ki, oxunulacaq... Oxudulacaq... Mən özümü düşünmürəm, bütün şəhid dostlarımı düşünürəm... İstəyirəm, bütün şəhidlərin qəhrəmanlıq dastanları tanınsın, oxunsun... İnnən belə çox dastanlar yazılacaq, bilirəm... Onu da deyim ki, var gücümlə heç nəyi düşünmədən, sadəcə Qarabağı düşünərək yaşadığım o şanlı 40 günü, o döyüş yollarını heç nəyə dəyişmərəm... Bütün günü Allaha şükür edirəm ki, Vətən müharibəsini yaşamışam, döyüşmüşəm, düşməni məhv etmişəm, şəhid olmuşam... Şükür demişkən, şəhid Şükür Həmidov da şəhid döyüş yoldaşlarımın yanındadır... Cənnətdə şəhid yoldaşlarımla danışanda cənab polkovniki də onlardan xəbər alıram... Ümumiyyətlə, Cənnətdə mənimlə bir yerdə olan şəhidlərin hər birisi bir dastandır... Biz hamımız o şanlı, şərəfli 44 gündə sona qədər döyüşdük və şəhid olduq, dastana döndük...

Onu da deyim ki, qardaşım da Vətən müharibəsində iştirak edirdi. Onun dilindən də döyüş yolu haqqında sözlər eşidirdim... Zəngləşirdik aradabir... Elə istəyirdim ki, ağızdolusu danışsın. Ancaq döyüşdə olduğumuz üçün bu da ola bilməzdi... İndi cənnətdə onun şəhid olan döyüş yoldaşlarından qazi olan qardaşımın hünərləri barədə eşidib sevinirəm...

6 noyabr 2020-ci il... Dastanın əvvəlində demişdim ki, cənnətə daxil olduğum ilk gündür... O günü heç bir zaman unuda bilmərəm... Ailəmin acısı, Vətənimin qüruru olmuşdum o gün... O gün min aya dəyərdi mənim üçün... 8 Noyabr Zəfər günümüzdürsə, 6 Noyabr da şəhadət günümdür...

Həmin gün eşitmişdik ki, əsgərlərimiz Şuşa istiqamətində gedən döyüşlərdə daha çox üstünlük qazanıblar. Fikirləşirdim ki, daha bu düşmənin sonudur. Elə həm özümün, həm erməni zülmünün, həm də müharibənin sonudur. Müharibə bitəcəkdi, Zəfər qazanacaqdıq. Şuşa mütləq bu günə-sabaha azad olunacaqdı... Bir də... Mənim üçün bu bir son idi... Həm də başlanğıc... Şəhid olacaqdım... Şəhidlik Zirvəsi məni gözləyirdi...

Xocavənd istiqamətində şiddətli döyüşlər gedirdi. Düşmən azğınlaşmışdı. Bizdən böyük bir dərs almaq istəyirdilər. Ona görə də, onlar bir dəfə atırdılarsa, mən min dəfə qarşısını alırdım və əks zərbə endirirdim o cəlladlara. Biz öz dəyanətimizlə düşməni təəccübləndirirdik. Onlar çaş-baş qalmışdı. Sərt qayaya çırpıldıqlarını bilirdilər. Xilas ola da bilmirdilər. Hirslərindən quduz it kimi daha çox kortəbii hücum edirdilər. Onların postlarını dağıdıb keçə-keçə irəliləyib gedirdik. Bura qədəri mənim üçün çox asan idi. Ancaq, bundan sonra işlər çətinləşirdi. Düşmən hər tərəfdən gülləlari yağış kimi yağdırırdı. Hamımız daha çox qorunurduq. Həm də daha çox hücuma keçirdik. Atəş səsləri kəsmək bilmirdi. Elə bil güllələrin arası bu gün ərzində heç kəsməyəcəkdi...

Sağımda, solumda döyüş yoldaşlarım şəhid olurdu... Özümdən asılı olmayaraq mənim gözümdən yaş axmağa başlayırdı. Lakin göz yaşlarımı gizlədirdim, gizlətməyə çalışırdım. İçimdə hirsimi boğub hayqırırdım: "Yox! Ola bilməz! Siz məndən ayrıla bilməzsiniz! Bir döyüş yoldaşı, bir can qardaşı öz can qardaşından ayrılıb gedə bilərmi? Sizin qisasınızı mütləq alacağam!" Artıq mənim üçün bu bir son idi və bunu mənliyimlə

qəbul etmişdim. Anamdan üzr istəyirdim, atamdan üzr istəyirdim. Bu ayrılıq çox acı olacaqdı onlar üçün, bilirdim. Ancaq, mən ölməyəcəkdim ki... Dostlarımın qisasını aldıqdan sonra mən əbədiyaşar, şəhid olacaqdım...

Və son... Bir namərd gülləsi bədənimdən keçdi... Yaramı Allah nuru sarıdı... Torpağa düşdüm... Döyüş yoldaşlarımın qanları ilə birgə qanımız torpağın rəngini dəyişdirdi... O tərəflərdə kül olmuş güllər, çiçəklər görünürdü. İndi hamısı çiçək açır, elə bil onlara biz can vermişdik, qanımızla, şəhid qanı ilə... Onlara can vermək üçün... can vermişdik...

Mən öz gücümü toplayıb qırıq-qırıq bu sözləri dedim:

*– Müba... riz... ! Po... lad!.. Mən Sizlərin qisasınızı... aldım... aldım... Ya Allah! Qəbul et məni! Haqqını halal et, Azərbaycan! Bir az da gözlə, gəlirəm, Cənnətim!..*

Və... 6 noyabr 2020-ci ildə Şəhidlik zirvəsini fəth edənlərdən biri oldum... Həm sevinir, həm doluxsunurdum. Artıq canlı deyildim, bədəndən çıxan bir nur saçan ruh idim və azad etdiyimiz vətən torpağının səmalarında uçurdum, hey uçurdum, ənginliklərə yüksəlirdim... O vaxtdan da göylərdə qaldım. Səma şahinlərinə salam verdim. Cənnətdəki bütün şəhidlər mənə salam verdi, salamlaşdıq... Xudayar mənim dastana döndüyümü söylədi... Onu qucaqladım... Yaşıdım olan bütün şəhidlər analarından nigaran olduqlarını bildirdilər, çünki, onların da yaşı hələ 18 idi... Buna baxmayaraq hamısı bir ağızdan, ürəkdən söyləyirdilər: "VƏTƏN SAĞ OLSUN!"...

Bu da mənim qəhrəmanlıq dastanım... Mən 18 yaşlı, Vətən müharibəsinin ən gənc şəhidi, Ana vətəninə görə gəncliyindən doymayan, ancaq gəncliyindən tez doyub Zəfərli müharibəni sevə-sevə, ürəkdən, candan seçən Vüsal Novruz oğlu Allahverdiyev... Mən siz olan dünyada cəmi 18 il yaşadım. Bunun 8 ilini necə yaşadım, bilmədim. Ancaq, qalan 10 ili düşmənlə mübarizə üçün yaşadım, əzm ilə yaşadım, hər gün yuxumda bir şəhidi görərək yaşadım... Mühitimdəki müharibə əzablarına sinə gərərək yaşadım... Vüsal adına layiq olmağa çalışdım... Sonda da cənnətdə, Şəhadətlikdə vüsalım gerçəkləşdi...

Bu həyatım üçün Allahıma minnətdaram və Şükürlüyəm... Şükürlüyəm, Poladlıyam, Babəkliyəm, Zaurluyam, Xudayarlıyam, Cəbrayıllıyam... Mən şəhidəm... Bu da mənim yazdığım dastanımdır... Azərbaycanımın hər səhifəsinə nurlu əlinin dəyməsi üçün yazılıb...

Allah bütün Şəhid yoldaşlarıma rəhmət eləsin!.. Qazi qardaşlarıma şəfa versin, müqəddəs vətənimin, torpaqlarımızın müqəddəs keşiyində dayanan qəhrəman əsgərlərimizin ayağına daş dəyməsin... ! Allah uğrunda canımızı verdiyimiz Vətənimizi qorusun! Amin!

Və bu da dastanın son sözü... Vətən sağ olsun! Vətənin bütövlüyü dünya durduqca əbədi qalsın!

*08.02.2021-13.02.2021*
*"Kredo" qəzeti, 02.06.2021*





## QARABAĞ SƏMASINDA CÖVL EDƏN BİR QARTAL VƏ YA SƏMALARIN QƏHRƏMANI, GÖYLƏRİN TÜRKÜ



*Vətən Müharibəsi Qəhrəmanı şəhid Zaur İsmayıl oğlu Nudirəliyevin əziz xatirəsinə həsr olunur. (1 sentyabr 1978-ci il Bakı şəhəri-4 oktyabr 2020-ci il Cəbrayıl rayonu)*

***44 günün Qəhrəmanı bir dastan yazdı,***
***Bu böyük dastanda nələr oxusan azdı.***
***Cənnətdə də şər qüvvəyə yenə zəfər çal,***
***Qarabağ səmasında cövl edən bir Qartal!***

*Müəllif*

Bir Qəhrəman tanıyıram... Şəhidliyi ilə bizə acı gətirsə belə, hətta son nəfəsində də düşmənə böyük zərbə endirən, ona çoxlu itkilər verən bir Qəhrəman... Bir Qəhrəman tanıyıram... Hər gedişi ilə, hər şücaəti ilə düşmənin qorxulu röyasına çevrilən bir Qəhrəman... Bir Qəhrəman tanıyıram... Qarabağ səmalarında dünya durduqca pərvazlanacağını, cövl edəcəyini, uçacağını bildiyi üçün özünü buna hazır edən, hərdən yox, hər an uçmaq istəyən bir Qəhrəman... Bu Qəhrəman qartal baxışları ilə dost-düşməni sezərək, bozqurd kimi düşmənlərə dişini qıcaya-qıcaya baxaraq hər Vətən övladı kimi vətənin düşmən tapdağında qalan müqəddəs torpaqlarının azad edilməsi üçün savaş gününün, Zəfər Gününün nə vaxt gələcəyini bilirdi... Bu qəhrəmanımın gözlədiyi Zəfərli savaş günü gəlib çatdı və O, həmin savaşın ayrılmaz bir hissəsi, bir parçası oldu... Və elə Ali Baş Komandanın Fərmanı ilə rəsmi olaraq da həmin müharibənin Qəhrəmanı elan edildi...

10 dekabr 2020-ci ildə baş tutan Türk dünyasının, Haqqın Batilə qarşı döyüşünün və bu döyüşdə qazandığı Zəfərinin rəmzi olan böyük Zəfər Paradını bütün haqq tərəfdarları, Türk dünyası və bu böyük dünyaya candan, ürəkdən bağlı olanlar, hətta, Haqqa boyun əydiklərini etiraf edən bədxahlıqdan, paxıllıqdan başlarını itirmiş batil tərəfdarları, düşmənlər də izlədilər. Bu parad hər anı ilə yaddaşlarda qaldı, 2020-ci ildən 2020 il keçsə belə yaddaşlarda qalacağını təsdiqlədi Zəfərin. Bu parad dekabrda keçirilmişdi, ona görə, onu 2020-ci ilin yekun hesabatı kimi də qiymətləndirmək olar.

Sonda hər paradda olduğu kimi bu Zəfər keçidində də Hərbi Hava Qüvvələrinin şanlı hərbçiləri Vətən səmasında qartal kimi qanad çalıb uçdular. Onlar qartal kimi uçan zaman hava, səma da Azərbaycan oldu elə bil... Səmada Azərbaycan bayrağının rəngləri əks olundu. Hamının hissləri, duyğuları, kədərləri, sevincləri yəqin ki, bir-birinə qarışmışdı həmin an. Mənim hissim də coşqun Xəzər kimi çağlayırdı. Zəfərimizin tacı

olan bu paradın sonu mənə göylər, torpaqlar, dənizlər, səmalar, ağaclar, güllər, çiçəklər, bundan qürur duyacaq və kədərlənəcək bütün canlılar bu bayrağın seyrinə dursun deyə, dənizlər, göllər, çaylar "Azərbaycan" deyib coşub-çağlasın deyə, torpaq "mən yenə də Azərbaycanam!" deyib sevincinə sevinc qatsın deyə canından keçən 2855 Şəhidimizi bir daha xatırlatdı... Təbii ki, haqqında danışacağım, səmaların baş tacı olan Qəhrəmanımızı da xatırlatdı... O, həm də bu müqəddəs, əbədi unudulmaz xatırlanma üçün canından keçmişdi...

Budəfəki Qəhrəmanlıq Dastanmı Vətən Müharibəsinin Qəhrəmanı, Onun idarə etdiyi səma şahini zədələndiyi üçün geriyə dönə bilməyəcəyindən, düşmənə ağır zərbə vurmadan şəhadətə qovuşmaq istəmədiyindən son anda öz təyyarəsini düşmən təyyarəsinə çırpıb düşmənini məhv etdikdən sonra şəhidlik zirvəsinə ucalan polkovnik Zaur İsmayıl oğlu Nudirəliyev yazmışdır, mən isə sadəcə qələmə almışam... Bu yazılmış dastan əslində təkcə Onun deyil, Qəhrəmam olduğu Vətənin, onun Zəfərlə bitən şanlı savaşının dastanlarından biridir...

Zaur Nudirəliyev 1 sentyabr 1978-ci ildə Bakı şəhərində dünyaya göz açmışdır. 1985-ci ildə Sabunçu rayonunun Zabrat qəsəbəsində yerləşən 192 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. Zaur orta məktəb illərini neçə-neçə ümidlər, xəyallar, arzular ilə yaşayırdı. İçindən bəzən hərbçi olmaq da keçirdi. Ancaq, 1990-cı ilin 20 Yanvarında Sovet ordusu tərəfindən Bakı şəhərində və bəzi regionlarda əliyalın, azadlığı uğrunda çarpışan insanlara qarşı törədilən vəhşətdən sonra hərbçiliyə olan həvəsi bir az azalmışdı. Sovet ordusunun əsgəri mundirində Sovet ittifaqının hər hansı şəhərində əliyalınlara atəş açan qızıl orduda qızıl qan tökmək istəmirdi gənc Zaur. Həmin hadisədən 2 il keçmədi ki, qızıl ordu da, sovet ittifaqı da dağıldı-getdi. Ancaq, onun ağlına belə gəlməyən, hərb sənətinə qarşı beynində əvvəlki fikirlərində inqilabi çevriliş edən, onun taleyini tamamilə dəyişən Qarabağ müharibəsi başlayırdı. 1992-ci il... Azərbaycanın təkləndiyi, dünya hegemonları, haqsızları tərəfindən bir yağlı tikəyə, loxmaya çevrildiyi il... Onda müstəqillik yoluna hələ təzəcə qədəm qoymuş, yenicə ayaq üstə durduğuna hədsiz dərəcədə sevinən körpəyə bənzəyən Azərbaycan elə bir loxmaya çevrilmişdi ki, hər yoldan ötən, öz xırda problemini həll edə bilməyən, hətta, hegemon olmasa da belə paxıl və naqislər tərəfindən idarə edilən ölkələr gənc Azərbaycana diş qıcadaraq əlinə çəngəl-bıçaq alıb bu loxmanı vəhşicəsinə parçalayıb udmaq istəyirdilər. Həmin il Qarabağa soxulan, əvvəllər süfrəmizdə yaltaqlıqla əyləşib öz daxilindəki naqisliyi büruzə vermədən çörəyimizi yeyən, torpaqlarımızda yaşamaları üçün yer verdiyimiz, çörəyi dizinin üstündə olan nankor qonşumuz olan ermənilər bizə qarşı bəşəriyyətin görə bilmədiyi ən amansız, vəhşi, qəddar müharibəni başlamışdılar. Həmin ilin hələ ilk 2 ayı ölkə üçün çox ağır keçdi. Xocalı soyqırımlarm, dəhşətlərin qurbanı oldu. Neçə soydaşımızı, silahdaşımızı, ölkəmizi öz vətəni bilib sevə-sevə yaşayan, mənfur qonşularımız kimi nankorluq etməyən, yaşadığı ölkəsinin müdafiəsinə qalxan rus, yəhudi və digər millətlərin, eləcə də etnik qrupların nümayəndələrini elə həmin ildə erməni vəhşiliklərinə görə itirdik... Ən çox Şəhid verdiyimiz illərdən idi 1992-ci il. Qan yaddaşımıza çevrilən o illərdə yeniyetmə Zaur həyatın acı çətinliklərinə heç alışa bilmir, bununla barışmasa da, tarixin bu vəhşətlərinə şahidlik edirdi. Xocalı faciəsi, Xocalı aeroportunun





işğalı Zauru çox məyus edirdi. İlin ilk aylarından xəyalları, ümidləri başqa olan Zaurun bu faciələrə görə elə bil qanadları qırıldı. Bircə əlləri qaldı... Bəlkə də o istəyirdi ki, bir qartal olub qanad çalsın, Xocalı aeroportuna uçsun, oranı görsün. Qarabağı görmək istəyənləri mədəniyyət beşiyində doyunca uçurtmaq istəyirdi O... Lakin, ümidi tamam itmişdi Zaurun. Əlinə elə bil mismar çaxırdılar. Taybatay açılan bu əllər ilin hər ayı, hər günü, hər anı sıxıldıqca sıxılacaqdı...

Xocalının, Şuşanın, Laçının xainliklə işğalı, neçə qız-gəlinin, oğulların Şəhid olması Zauru içəridən yandırıb qovururdu. Elə bil yaşadığı hər gün, şərait, mühit ona əzab verirdi. Tarixin nə ki var saxtalaşdırıldığı illərdə dünyaya gələn Zaur əzəlinin, əbədinin tarixini öyrənəndə daha da əzab çəkirdi. O bilirdi ki, tarixi ilə öyünməli olan bir millətin əvvəlcə bədxahlar tərəfindən tarixi saxtalaşdırılmış, sonra isə ləkələnmişdi...

Bunlara dözə bilməyən Zaur öldürülən hər qızı-gəlini, ağsaqqal-ağbirçəyi, ata-ananı öz ata-anası, bacısı, hər igidi də öz qardaşı, özünün gələcək qəhrəmanlıq mənbəyi hesab edirdi. Onların qisasının alınmasını artıq gənc Zaur özünə daha çox borc bilməyə başlamışdı. Bunun üçün nə etməli olduğunu uzun-uzun düşünürdü O. Qolu-qanadı daxili və xarici mənfurlar tərəfindən xəyanət nəticəsində qırılmış bir Vətəni yenidən göyün ənginliklərinə necə uçurtmaq olardı? Axı, Vətəni satanlar onu qoruya bilməzlər!? Vətəni satanlar çoxalır, qoruyanlar azalır... Zaur bunun üçün də artıq qərarını vermişdi: "Vətəni qoruyanlardan biri olmalı, lazım gələrsə, Ona görə canından keçməli!". Məktəbdə təhsilini davam etdirmək arzusu ilə yaşayan fəal şagird Zaur o vaxt hərbçi olmaq, Vətənin keşiyində durmaq üçün təhsili dayandırıb hərbi təhsil almaq qərarını verdi. Vətən üçün Zəfər qazanıb Vətəni sevincdən göylərdə uçurtmaq üçün O, təyyarəçi olmağı seçdi.

Zaur Nudirəliyev 1992-1995-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsilini davam etdirdi. Burada Hərbi Hava Qüvvələri ilə bağlı bir çox biliyə yiyələndi, peşəkar bir hərbçi, bir təyyarəçi sərkərdə olmaq üçün çox çalışdı, Azərbaycanı yenidən quran Ali Baş Komandanın izi ilə addımladı və arzusuna çatmaq yolunda böyük əmək sərf etdi, zəhmət çəkdi, əziyyətlərə qatlaşdı .

1995-ci ildə Zaur qardaş ölkə Türkiyəyə göndərildi. Türkiyə Ali Hərbi Hava Qüvvələri məktəbinə daxil oldu. Orada bizə sovet ideologiyası ilə uzun illər tamam başqa, saxta ideyalarla tanıdılan türk qardaşların hərb sənətinin necə mətin, necə cəsarətli, necə qüvvətli bir ustası, bilicisi olduğunun əyani şahidi oldu Zaur. Onların zəkasından, bacarığından daha da çox qürurlanan, qüvvətlənən Zaur özünü hər keçilən dərsdə, təlimdə arzusuna daha yaxın hiss etdi. 2000-ci ildə bu hərbi məktəbi də təyyarəçilik ixtisası üzrə bitirdi. Bununla da, O, ən ülvi və ən böyük arzusuna – hərbçi-təyyarəçi olmaq şərəfinə yiyələndi. Sevincinin həddi-hüdudu yox idi. Özünü sözün əsl mənasmda səmalarda pərvazlanan qartal kimi hiss edirdi. Qanadını bərpa etmişdi artıq. Bircə işğal olunmuş vətən səmasında uçmaq qalmışdı Zaur üçün... O da Şəhid olan vaxt gerçəkləşəcəkdi... Bu dəfə O, dünya durduqca ruhu ilə bir yerdə uçacaqdı göylərə...

Zaur Nudirəliyev 2000-ci ilin fevral ayından 2004-cü ilin iyul ayına qədər "N" saylı hərbi hissədə 3-cü aviasiya eskadriliyası aviasiya manqasının təyyarəçisi olaraq işə başlamış və burada vətən qarşısında xidmətini davam etdirmişdi. 2004-cü ilin iyul ayından 2004-cü ilin dekabr ayına qədər həmin aviasiya manqasının baş təyyarəçisi olmuş-

dur. 2004-cü ilin dekabr ayından 2007-ci ilin mart ayına qədər "N" saylı hərbi hissədə 1-ci aviasiya eskadriliyası aviasiya manqasının baş təyyarəçisi olaraq xidmət etmişdir. 2007-ci ilin mart ayından 2009-cu ilin dekabr ayma qədər artıq həmin aviasiya eskadriliyasının manqa komandiri vəzifəsinə qədər yüksəlmiş, 2009-cu ilin dekabr ayından 2011-ci ilin may ayına qədər 1-ci aviasiya eskadrilyası komandirinin müavini-şturman vəzifəsində çalışmışdır.

Arzularına nəfəs qədər yaxınlaşan Zaurun misilsiz xidmətləri təltifsiz qalmırdı. O, "Hərbi xidmətdə fərqlənməyə görə", "Qüsursuz xidmətə görə", həmçinin, Silahlı Qüvvələrin yubiley medalları ilə təltif edilmişdi.

Zaur Nudirəliyevi tanıyanlar, onun tabeliyində işləyənlər onun necə xeyirxah, zəhmətsevər, səmimi, qayğıkeş, eyni zamanda xidməti vəzifəyə necə məsuliyyətli və tələbkar insan olduğunu bilirdilər. Zaur Qarabağın səmasını fəth etməzdən əvvəl mühitinin ürəyini fəth etmək istəyirdi. Buna nail olmuşdu. Hərbçilər Onun adını eşidən zaman qürrələnir, dostların, yoldaşların köksü qabarırdı. Zaur ən böyük arzusuna – Qarabağın azad olunması arzusuna çatmaq üçün gücünü-qüvvəsini dayanıb-dincəlmədən sərf edirdi. Yorulmadan öz işində çalışırdı. Təsadüfi deyil ki, O, 2011-ci ilin may ayından 2013-cü ilin noyabr ayına qədər "N" saylı hərbi hissənin 1-ci aviasiya eskadriliyasının qərargah rəisi, 2013-cü ilin noyabr ayından 2015-ci ilin avqust ayına qədər isə "N" saylı hərbi hissənin 1-ci aviasiya eskadriliyasının komandiri olmuşdur.



Zaur Nudirəliyev sonuncu vəzifəsinə 2015-ci ilin avqust ayında təyin olunur. O, həmin vaxt "N" saylı hərbi hissə komandirinin uçuş hazırlığı üzrə müavini və uçuşların planlaşdırılma bölməsinin rəisi vəzifəsinə təyin olunmuşdu.

O, keçmiş arzularını, xəyallarını unutmurdu, unuda da bilməzdi... Elə bil, Qarabağ həsrətli illərin tükənəcəyini hiss edirdi Zaur. O, bilirdi ki, bu həsrət tez bitəcək. O, ən böyük arzusu olan Qarabağ səmalarında pərvazlanmaq arzusunu tez reallaşdıra biləcək. Ancaq, illər heç sürətlə də ötüb keçmirdi. Vaxt daralmırdı da. Həsrət üçün vaxt bol idi. Zaur özünün hansı mövqedə olduğunu bilirdi, hər dəfə də yadına salırdı. O, bu mövqedə olmaq üçün çox çalışmamışdı. Bu mövqedə olmaqdan ziyadə, arzusunu reallaşdırmaq üçün çox çalışmışdı. O, polkovnik olmaq üçün liseyə daxil olmamışdı, Qarabağ həsrətinə son vermək üçün, qisas almaq üçün liseyə daxil olmuşdu. Ruhu göylərə pərvazlanan Azərbaycan vətəndaşı, bir igid olan, bir Şəhid olan Ruslan Polovinkonu da unutmurdu Zaur. Onun qəhrəmanlıq dastanını uzun illər özünə ideal bilmişdi, oxuya-oxuya bitirmirdi. Onun üçün əsas dərslərdən, təlimlərdən biri də bu olmuşdu. Zaur Şəhidlərimizin





qisasını almaq üçün dişi ilə, dırnağı ilə bütün əngəlləri aşıb bu mövqeyə gəlmişdi. Vaxt onun üçün önəmli idi. Qarabağ Zəfərini görmədən, bu Zəfərdə bir rolu olmadan getmək istəmirdi bu dünyadan. Ona görə, həmişə gözlədiyi kimi bu dəfə də gözləyirdi vaxtı. Səbirlə, ümidlə, təmkinlə...

Bu günün həsrəti ilə o, çox çalışmış, 4 dil öyrənmişdi. Onlarla ölkələrdə təlimlərdə olurdu, hətta Amerikada da səs salmışdı... Xarici ölkələrdə də onu hamı tanıyırdı. Cəsur bir hərbçi kimi baxırdılar ona. Təbii ki, bunu sübut etmək üçün Zaur necə çətinliklər görmüşdü. Amma hamısını bir məqsəd üçün etmişdi. O böyük müharibə üçün! Zəfərli müharibə üçün! O, bunu istəyirdi! Buna görə 42 illik ömrünün 28 ilini bu işə həsr etmişdi. Hər dəfə də Qarabağ acısı ilə. Ürəyində neçə dəfə Qarabağın adını çəkirdi Zaur. Həsrətlə ona baxırdı. Düşmənlərin bütün təxribatlarına, bütün qudurğanlıqlarına dözürdü. Ölkə xaricində olarkən bütün anti-azərbaycançılıq oyunlarına dözürdü. Bilirdi, bilirdi ki, xaricdə Azərbaycanlıları, Türkləri zalım kimi bilirlər. Xatırlamırlar, çünki türkləri görməyiblər. Sadəcə öyrəndikləri dezinformasiyalardan sonra belə bir təsəvvür yaranıb o antitürkçülərdə. Bu, reallıq deyildi. Zaur bu real olmayan "reallığı" silib atmaq istəyirdi. Qarabağ əzəli və əbədi Azərbaycan torpağı idi və Azərbaycan daha acı çəkməməli idi!

Yanındakı gənc əsgərlər, hərbçilər onu çox ümidləndirirdi. Onu lap 1992-ci ilə aparırdı. Zaur onların heç də solmamış, müharibə də görməmiş üzlərini görüb ümidlənirdi, ancaq, bir az da narahat olurdu. Müharibə görməmiş, müharibə haqqında sadəcə oxumuş olan bu gənclər hələ ömrünün baharını yaşayarkən döyüşlərə atılacaqlar... Şəhid də olacaqlar, bəlkə də... Zaur bunu deyərkən həm də elə bil, hərbçilərin ürəyini oxuyurdu. Onların hamısı bunu düşünürdü, deyirdilər ki, ömrümüzün baharını yaşamadıq. Ancaq, bu cümlələrin yanına bir cümlə də əlavə edirdilər: "Vaxtı gəlsin, biz döyüşək, Qazi olsaq da, olmasaq da, Şəhid olsaq da, olmasaq da, Vətən sağ olsun!"

2020-ci ilin 26 iyun günü polkovnik Zaur Nudirəliyev I dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif olunmuşdu. Bu təltifdən sonra daha da ümidlənən hərbçilər Zauru təbrik edirdilər. Zaurun bu uğuruna onlar çox sevinirdilər.

Ailəsi də Zauru təbrik edirdi. Onlar sevinirdilər. Lakin, xəbərsiz idilər ki, 1 ay sonra nələr olacaq, ölkə gündəmini necə dəyişəcək, hər səhər necə açılacaq... Zaurun isə elə bil ürəyinə damırdı. Bilirdi, olacaqdı, bu nə vaxtsa olacaqdı... Medal xətrinə yox, Zəfər üçün, Qisas üçün, İntiqam üçün olacaqdı bu...

İyul ayında Tovuz bölgəsində erməni təxribatları nəticəsində döyüşlər başladı... Sonda Zəfərli müharibəmizdə iştirak edən neçə cavan bu döyüşdə iştirak etdi. Hər səhəri ayrı ab-havada açan Azərbaycan həmin günlərdə daha da sarsıldı. Elə səhər saatlarında ölkə bu xəbərlə yasa boğuldu, göz yaşları dənizində batdı, pərvazlanmaq istəyən qanadlar bir anda qırıldı... General-mayor, qanlı, şanlı Aprel döyüşlərindən vüqarla sağ çıxmış veteran, əyilməz komandan Polad Həşimov qəhrəmancasına Şəhid oldu... Bütün vətəndaşlar eyni acını yaşadılar. Zaur isə başqa acı yaşadı... Bundan sonra Zaurun xəyalına hər dəfə 1992-ci il gəlməyə başlayırdı. Acı, qara xəbərlər, ağlayan insanlar, göy üzünü alan qara bulud, yerdə göz yaşı dənizi, qan okeanı... Zaurun gözü alovlanırdı elə bil. İntiqam alovu Zaurun gözlərini alova boyayırdı. Bu intiqam alovu mütləq parlaq zəfər-

lə, parlaq günəşlə əvəz olunmalı idi... Zaur bundan sonra qərarını vermişdi... Daha çox atəşkəs Şəhidi verməyək deyə O, özünü intiqam alovuna atmağa daha çox hazırlayırdı... "Vaxtı gələcək, vaxtı gələcək...". Zaur bu sözlərlə də intiqam alovunu söndürə bilmirdi. Sönə bilməzdi bu alov... Vaxtı gəlməli idi!

Vaxt gəldi, ancaq intiqam alovu sönmədi! 27 sentyabr 2020-ci il bütün Azərbaycan ərənləri bir yumruq olub, dəmir yumruq olub, intiqam atəşini daha da alovlandırıb əks-hücum əməliyyatına, necə deyərlər, "Dəmir Yumruq" əməliyyatına başladılar! 20 il hərb yolunda ömrünü şam kimi əridəndən sadəcə 2 ayın əsgərinə qədər bütün ərənlər Qarabağ yolunda can verməyə başladılar. Məqsəd bəlli idi: İntiqam mütləq alınmalı idi! Bu döyüş Qarabağ müharibəsi kimi ağrılı olmamalı idi. Bu müharibə regionun ən həlledici müharibəsi olmalı idi. Nəinki region, bütün dünya və türk dünyasını tanımayan "insanlar" Türkün gücünü görəcəkdilər! Susanlar da, susmayanlar da... Susanlar siçan deşiyi axtaracaqdılar, susmayanlar əllərini dəmir yumruq edəcəkdilər...

Bu müharibənin başlamasına sevinənlərdən biri də 1992-ci ildə hərbi lisey oxumağa can atan, 2020-ci ildə isə polkovnik rütbəsinə qədər yüksələn, başındakı biliyi, qolundakı qüvvəti daha da artıran Zaur Nudirəliyev idi! O, bunu əvvəldən istəyirdi... lap əvvəldən, 1992-ci ildən... O vaxtdan sonra hər gün bu günü gözləyirdi Zaur... Döşündə medallar artdıqca artsa da, çiynindəki poqonlar dəyişilsə də, Zaur bunları uğuru hesab etmirdi. Ən böyük uğurunu Qarabağın azad olması hesab edirdi. Qarabağın uğrunda canından keçməyi, Şəhid olmağı üstün bilmişdi Zaur... Ona görə də, ilk gündən ərənlərini Zəfər gününə səslədi:

*– Haydı, ərənlərim, yurda uzanan qanadları qırmağa, hərdən yox, hər an uçmağa! Qarabağın səmalarında cövl edən bir qartal, bir şahin olmağa! Həm Bozqurd olmağa, həm Qartal olmağa! Haydı, ərənlərim, düşməni iti qovan kimi qovmağa! Qarabağı azad etməyə! Zəfər çalmağa! Zəfər çalmağa!*

İndi hansı düşmən cürət tapardı onları dayandırmağa? Zaur qanadlarını sonadək açmışdı, özünü sözün əsl mənasında uçan məğrur bir qartal hesab edirdi. Sona qədər vuruşur, fəndlərdən istifadə edib düşməni ələ salır, hər hərəkətində düşməni udacağını elə düşmənin özünə bildirirdi... Onun coşğunluğundan ərənləri də coşurdu, çağlayırdı. Onları heç kəs dayandıra bilməzdi. Kimdir 12 dəfə qəhrəmanlıq edən Herakl? Kimdir onunla öyünüb nağıllar, fantaziyalar quranlar? Onlar 12 dəfə qartal kimi uçub düşmənə dərs verən Zaur Nudirəliyevə boyun əyməyə və təslim olmağa məcbur idi! Zaur uçuşun ilk dəqiqələrindən düşmənə bəlli edirdi ki, artıq çıxış yolunuz yoxdur, sizi havada da, torpaqda da iti qovan kimi qovacağıq! Və gerçəkləşdirdiyi 12 uçuşun hər birində də Zaur Nudirəliyev qələbə qazandı, düşmənə böyük dərs verdi! Zaur özünü ününün yetmədiyi, əlinin çatmadığı böyük enginliklərdə hiss edirdi. O, illər boyu bunu istəyirdi. İndi isə inanırdı və deyirdi: "Ya ruhum, ya da bədənim Şuşa səmasında olacaq!"

Zaur Nudirəliyev bu 12 uçuşun hamısında da necə uğur qazana bilmişdi?

27 sentyabr 2020-ci ildən başlayan Vətən Müharibəmizdə Hava Qüvvələrinin pilotlarına "SU-25" döyüş təyyarəsinin yeni üsullarla idarə olunması tapşırığı verilmişdi. Təbii ki, bu üsullarla da düşmənə qalib gəlmək asanlaşacaq və dünya hərb sistemi bizim üsulumuzdan danışacaqdı. Elə də oldu. Polkovnik Zaur Nudirəliyev ilk uçuşdan son





uçuşa qədər şans qazandıracaq, avantaj yaradacaq, irəli aparacaq üsullardan istifadə edirdi. Həm də komandanlıq bu işi elə ona tapşırmışdı. Zaur bu üsullarla Vətən Müharibəsində adı qızıldan həkk olunası pilotlarımızdan biri və birincisi olur. O, təlimlərdən və dərslərdən öyrəndiklərindən də istifadə edərək bombaların atılmasının yeni riyazi üsulunu icra edir. Bununla da, uğur yenə pilotlarımızın olur! Zaur Nudirəliyev bu üsullardan təkcə biri ilə belə Vətən Müharibəsinin bir hissəsinə çevrilir.

***13-cü uçuş: Həyatın Finalı, Şəhadətin Başlanğıcı***

12 uçuşun 12-si bitir... Geridə 12 qanlı döyüş, uğurlu uçuş... Öndə 13-cü ağırlardan ağır bir uçuş... Zaur 13-cü uçuşa çox hazırlaşmışdı... Bütün əngəlləri o biri uçuşlarda necə aşmışdısa, 13-cü uçuşda da elə aşacaqdı... Düşmən onun qarşısında heç nə idi, Zaurun bozqurd baxışlarını, qartal uçuşlarını görəndə, hiss edəndə qorxurdu. Zaur bu uçuşda da şahin olacaqdı, göylərdə Azərbaycan adını hərfi-hərfinə yazacaqdı... Ancaq Zaurun ürəyinə Qazilik də, Şəhidlik də daha çox dammışdı, bircə qəza nəticəsində düşmən tərəfə eniş etməsin... Narahat olub-eləmirdi özü üçün, ancaq, ailəsi üçün narahat olurdu. Ailəsi ilə danışanda bərk-bərk tapşırırdı ki, mən nə vaxt olmasam, başınızı dik tutun, mənim ruhum da rahatlıq tapsın. Zaur Qazi olsa, yenə də döyüşlərə qatılmağa can atacaqdı. Şəhid olsa... Şəhid olsa, Vətən sağ olsun! O, Qarabağ səmalarında dünya durduqca ruhunu uçuracaqdı!

Səmaların Qəhrəmanı adına çoxdan haqq qazanan Zaur Allahın elə bil göydən yerə endirdiyi ədalət mücəssəməsi olan Türklərdən biri olduğu üçün də fəxr edirdi. Ona görə də, həm bu adına, həm də o ada layiq olacaqdı: "Göylərin Qəhrəman Türkü" adına!

4 oktyabr 2020-ci il... Arazla ağlayan, Arazda boğulan, nə bəlalar, nə məşəqqətlər yaşayan Cəbrayılın xarabalığa çevrilən şəhərinin səmalarında son döyüşlər... Son bəlli idi, Cəbrayılda Azərbaycanın Haqqı erməni quldurlarının batilinə qalib gələcəkdi, Şəhidlər də veriləcəkdi, onların da ruhu Cəbrayılın azad səmalarına yüksəldiləcəkdi... Zaur da elə bil hiss edirdi, bilirdi ki, bu son döyüşlərdir, çox az qalıb Cəbrayılı işğaldan azad edib ilk böyük qələbəni qazanmağa... Günorta gündəm Gəncəyə atılan bombalar idi... Məşəqqət sırası Gəncədə idi... Gəncə çətinliklərə başını həmişə dik tutmuşdu, yenə də dik tutacaqdı... Zaurun da məqsədi Cəbrayıl səmalarından Qarabağa, Gəncəyə, Azərbaycana salam vermək, Gəncənin, Qarabağın qisasını almaq, lazımsa Qazi, lazımsa Şəhid olmaq idi... Zaurun ən böyük arzusu bu gün gerçəkləşirdi!..

Və 13-cü uçuş başladı! Zaur bu döyüşün son döyüş olacağını hiss edirdi, buna görə də, riyazi üsulundan da istifadə edərək düşmənə saysız zərbələr endirməyə başlayırdı. Ruhunu Qarabağ səmalarında hiss edirdi. Elə bilirdi ki, elə bu saat cənnətə göndərilib. İlk dəqiqələr yaxşı keçməyə başlayırdı...

Lakin, sonrakı dəqiqələrdə riyazi üsul kifayət etmirdi... SU-25 qırıcısı hücumlara məruz qalırdı... Zaur işin çətinliyini daha da hiss etməyə başlayırdı. Xəbər verirdi ki, qırıcıya zərbə vurulur. Özü də var gücü ilə düşmənin hədəfini geri çevirmək, onun boş beynini bir daha ələ salmaq istəyirdi, buna çalışırdı. Uğurlara addımlamağa çalışırdı, ancaq, elə bil... Bu son idi... Zaur Cəbrayılın Zəfərini cənnətdə görəcəkdi...

***– Bismillahir-rəhmanir-rəhim!.. Ya Şəhadət, Ya Qazilik, Ya Müzəffərlik! Yürüyün, aslanlarım, önünüzdəki yol göstərən qoca bozqurd, qoca qartal Şəhadətə uçur!..*** *Cəbrayıl bu gün azad olacaq, ancaq, mən onu cənnətdə görəcəyəm... Allaha Şükürlər Olsun!*

*Ən böyük arzuma çatdım... İnnən belə bədənim cənnətdə, ruhum Qarabağ səmalarında olacaq... Vətən sağ olsun!..*

4 oktyabr 2020-ci ildə Cəbrayıl şəhəri uğrunda gedən son döyüşlərdə qələbəyə az qalmış, Cavanşir ağıllı, Babək qeyrətli, Ərtoğrul şücaətli, Təxti-Nadir sahibi kimi fateh olan, dünya durduqca ürəklərimizdə də, ruhumuzda da yaşayan Qəhrəman – polkovnik Zaur Nudirəliyev qəhrəmancasına Şəhadət Şərbətini içdi və Şəhidlik Zirvəsinə ucaldı!

Bir neçə saat keçdikdən sonra Azərbaycan ilk böyük və mühüm qələbəsini qazandı – Cəbrayıl şəhəri işğaldan azad edildi! Ruhu çoxdan Qarabağ səmalarında uçan Zaur adlı bir Qartal, bir Şəhadət və Zəfər yolu yolçusu şad oldu...

9 dekabr 2020-ci ildə "Dəmir Yumruq" əmrini verən Ali Baş Komandan əmrə sədaqətli, sona qədər güclü və diqqətli, məntiqli, ağıllı bir Qəhrəmanı mükafatlandırdı – Vətən Müharibəsinin ayrılmaz hissəsi olan Şəhid Zaur Nudirəliyevi "Vətən Müharibəsinin Qəhrəmanı" medalı ilə təltif etdi! Göylərdən Şuşa Qalasına baxan Qəhrəmanımız 1000 illər boyu dastana döndü və dastana dönən Vətən Müharibəsinin şanlı Qəhrəmanı oldu!..

Biz Cəbrayılın azad olunmasına görə yerdə sevinərkən, Sən də göylərdə, səmalarda sevindin, Böyük Səma Fatehi! Arzun çoxdan gerçək oldu! Azərbaycan ilk böyük Zəfərini yox, ən böyük Zəfərini qazandı!.. Sən təkcə Vətən Müharibəsinin yox, Azərbaycan xalqının, bütün türk millətinin ayrılmaz hissəsisən, Qəhrəmanlarından birisən, Cənab Polkovnik!

Ruhun Şad Olsun, Şəhid Polkovnik Zaur Nudirəliyev! Gözlərində gözünün izi qalan Ərənlərinə də Allah yar olsun!

*01.02.2021-06.02.2021*
*"Kredo" qəzeti, 17, 24.02.2021*

## İMAM HÜSEYNİN ŞƏHİDLƏR GÜLÜSTANINDA...



*Şəhid Ağababa Səfər oğlu Abasovun əziz, nurlu xatirəsinə həsr edilir (14.03.2002-ci il Şabran rayonu Uzunboyad kəndi – 29.09.2020-ci il Füzuli rayonu).*

Ağababa Səfər oğlu Abasov 14 mart 2002-ci ildə Şabran rayonunun Uzunboyad kəndində dünyaya göz açmışdır. İlk təhsilini Uzunboyad kənd məktəbində alan Ağababa həmin məktəbi bitirdikdən sonra sənədlərini Sabirabad Dövlət Sosial-İqtisadi Kollecinə vermiş, həmin təhsil ocağında təhsilini davam etdirmişdir. Kolleci bitirən Ağababa hərbi xidmətə yollanmışdır. Hərbi xidmət müddətinin ilk beş ayını Ağcabədidə "N" saylı hərbi hissədə başladıqdan sonra sentyabr ayında təlimlərə çağırılmışdır. Əsgər Ağababa Abasov 27 sentyabr 2020-ci ildən başlayan Vətən Müharibəsində, xüsusilə Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə kəşfiyyat qrupunun manqa komandiri kimi fəaliyyət göstərmiş, 29 sentyabr 2020-ci ildə həmin döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən yaxınlığında mərmi partlaması nəticəsində qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlmişdir. Torpaqlarımızın düşmən tapdağından azad olunması uğrunda göstərdiyi qəhrəmanlığa görə şəhadətindən sonra Ali Baş Komandanın müvafiq fərmanına əsasən Ağababa Abasov "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.





Şəhidimizin əziz xatirəsinə həsr etdiyim "İmam Hüseynin şəhidlər gülüstanında" şeirini böyük qürur və həvəslə təqdim edir və Allahımızdan bütün şəhidlərimizə rəhmət diləyirəm:

### *İmam Hüseynin şəhidlər gülüstanında*

*(Vətən torpaqlarının azad olunması yolunda qəhrəmanlıq göstərərək 18 yaşında şəhidlik zirvəsinə ucalan Ağababa Səfər oğlu Abasovun əziz xatirəsinə)*

Mübariz yolunu davam etdirdin,
Bu amalla cəngavərə çevrildin.
Elə bil Şəhadəti hiss etmişdin,
Qisas axdı damarında, qanında.

Düşmən at oynadırdı yurdumuzda,
Buna tab etmirdi Bozqurdumuz da.
Polad şəhid oldu Tovuzumuzda,
Bu nisgili daşıyırdın canında.

Qisas almaq var idi hər anında,
Qisas almaq ürəyində, qanında.
Qisas sözü yazılmışdı alnında,
Bu sözləri daşıyırdı sanın da.

Gün keçdi, ay ötdü və vaxtı gəldi,
Başladı bir Vətən müharibəsi.
Vətən oğlu qisası üstün bildi,
Düşmən tab etmədi, kəsildi səsi.

Manqa komandiri o, Abasovdu,
Düşmənləri "iti qovan"tək qovdu!
3 gün döyüşmək ona nəsib oldu,
Sayəsində düşmənə gör nə oldu?

O aldı neçə şəhid qisasını,
Qoymadı ki yerdə qalsın qanları.
Durmadan məhv edirdi düşmənini,
Öldürürdü "hay" adlı "heyvanları".

3 gün sonra qara xəbəri gəldi,
Ağababa şəhidliyə yüksəldi!..
Xəbər nə qədər qürurlu olsa da,
Səbri boğan kədər artırdı daha...

Şəhid olduğu bir anda da aldı,
Vətən oğlu Ağabala qisasını.
Şanlı Vətən əsgəri Zəfər çaldı,
Düşmən keçirtməli oldu yasını.

Neçə aydır orada uyuyursan,
Şuşadakı o ruhuna baxırsan.
Qara torpaq qərənfilın qucursan,
And yeri-Şəhidlər Xiyabanında.

Qəhrəmanımızsan, unudulmazsan,
Sən verdin Şanlı Vətənin üçün can.
Doğdu günəş Şuşaya, söküldü dan,
Xalq bayram etdi Azərbaycanında.

Sən Zəfərli bir Xarı bülbül oldun,
Peyğəmbərin bağında sünbül oldun,
Əlvan rəngli, xoş ətirli gül oldun,
Hüseynin Şəhidlər gülüstanında.

*18.03.2021*

## QƏHRƏMANIN CƏNNƏTDƏ İLK DOĞUM GÜNÜ



*(Vətən Müharibəsi qəhrəmanı şəhid polkovnik-leytenant Anar Vaqif oğlu Əliyevin cənnətdə ilk doğum gününə həsr edilmişdir)*

28 avqust 2021-ci ildə şəhid polkovnik-leytenant, Vətən Müharibəsi Qəhrəmanı Anar Vaqif oğlu Əliyevin cənnətdə ilk doğum günü elə uyuduğu II Şəhidlər Xiyabanında qeyd olundu. Əvvəlcə Fəxri Qarovul dəstəsinin əməkdaşları Şəhidin məzarı üzərinə çələng qoydular. Sonra Müdafiə Nazirliyinin Hərbi Orkestrinin hərbi marşının sədaları altında oraya toplaşmış hərbçilər, məktəblilər, şəhidin valideynləri, ailə üzvləri və yaxınları, eləcə də ziyarətə gəlmiş çoxsaylı insanlar şəhid Anar Əliyevin məzarını ziyarət edərək tər qərənfilləri məzar üzərinə düzməklə öz sonsuz ehtiramlarını





ifadə etdilər. Azərbaycan Respublikasının dövlət Himninin sədaları altında Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi və sonra şəhidimizə həsr olunmuş tədbir açıq elan edildi. Xiyabanın ərazisindəki yaşıllıq sahədə keçirilən tədbirin aparıcısı, polkovnik Abdulla Qurbani şəhid Anar Əliyevin həyat, döyüş yolu haqqında söz açdı, onun şücaətinə, qəhrəmanlığına və bu qəhrəmanlıqlarının dövlətimiz tərəfindən hələ onun sağlığında dəfələrlə fəxri adla qiymətləndirilməsinə, Anar Əliyevin sağlığında və ölümündən sonra "Vətən uğrunda" medalları ilə təltif olunduğuna diqqət çəkdi. Eyni zamanda tədbirin aparıcısı cənab Prezident İlham Əliyev tərəfindən ölümündən sonra şəhidimizə verilən "Şuşanın azad olunmasına görə" medalını şəhidin oğlu Əli Əlizadəyə təqdim etdi.

Sonra söz Tərtər rayonunun icra başçısı Müstəqim Məmmədova verildi. O, Anar Əliyev haqqında ürək sözlərini ifadə edərək yaxın vaxtlarda Tərtər şəhərində küçələrdən birinə şəhidimizin adının veriləcəyini tədbir iştirakçılarına çatdırdı.

Tədbirdə Anar Əliyevin iş yoldaşları, fəxri qarovul dəstəsinin əsgərləri, Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alan kursantlar, xüsusi təyinatlı dəstənin əsgərləri, habelə zabitlər, təqaüddə olan general, Anar Əliyevlə birgə xidmət etmiş və döyüşlərdə həlak olmuş şəhidin valideyni də iştirak edirdı. Çıxış edənlərin ifadəsindən məlum oldu ki, Anar Əliyevin leytenant paqonlarını şəxsən təqdim etdiyi, onunla birgə çiyin-çiyinə xidmət etmiş və ondan 1 gün əvvəl şəhidlik zirvəsinə yüksəlmiş Zahir Feyzullayevin atası Eyvaz Feyzullayev də Oğuz rayonundan tədbirə qatılaraq tədbirdə öz yanğılı ürək sözlərini tədbir iştirakçılarına çatdırdı.

Təqaüddə olan hərbi həkim, Birinci Qarabağ müharibəsi veteranı, yazıçı və şəhidə həsr edilmiş "İgid ölər, adı qalar" kitabının müəllifi Əli İsmayılov çıxışında həmin kitabdan sonluğu "Şəhidlər unudulmur" ilə bitən bir sitat da gətirdi.

Naxçıvan şəhərində Ulduz Əliyevanın ideyası və təşəbbüsü ilə start götürən "Şəhidin ətri" adlı layihənin nümayəndəsi, Naxçıvan Dövlət Univeristetinin müəllimi Məhsəti xanım Əsgərova Naxçıvandan gəlib tədbirə qatılaraq üzərində şəhid Anar Əliyevin qızılı rəngli fotoşəkli, adı, soyadı və doğum tarixi həkk olunmuş ətri şəhidin həyat yoldaşı Vüsalə Əliyevaya təqdim etməklə tədbirdə ürək sözlərini ifdə etdi.

Sonda şəhidin valideynləri Vaqif ata və Səkinə ana çıxış etdilər. Onlar tədbirdə iştirak edən və müəyyən obyektiv səbəblərdən iştirak edə bilməyən yaxınlara təşəkkürlərini bildirdikdən sonra tədbır bağlı elan edildi və Hərbi orkestrin Zəfər marşını ifa etməsi ilə yekunlaşdırıldı.

Tədbirdən sonra qəhrəmanımızın atası Vaqif müəllim Anar Əliyevin döyüş yolundan bəhs edən, yazıçı Əli Həsənin qələmə aldığı "Əfsanəvi kəşfiyyatçı" adlı kitabını mənə hədiyyə etdi. Hər şeyə görə Şəhidin valideynlərinə və ailəsinə çox təşəkkürümü bildirirəm. Bu mənim üçün ən dəyərli hədiyyədir, bu kitab mənim kitab rəfimin və yazı masamın üstünün bəzəyi olacaqdır.

Sonra mən şəhidimizin nurlu xatirəsinə həsr etdiyim, redaksiya heyətinin üzvü və ən gənc ictimai müxbiri olduğum "Kredo" qəzetinin 18.08.2021-ci ildə 30-cu nömrəsində dərc etdirdiyim səhidimizin qızı Nigar Əliyeva ilə apardığım "Mənim atam dünyanın ən yaxşı atasıdır" adlı müsahibəni, şəhidimizin həyat və döyüş yolu haqqında qələmə

aldığım eyni adlı məqaləmi şəhidimizin valideynlərinə, ailə üzvlərinə və yaxınlarına təqdim etdim.

Eyni zamanda şəhidimiz Anar Əliyevin cənnətdə keçirdiyi ilk ad günü münasibətilə 27.08.2021-ci ildə axşam saatlarında yazdığım "Cənnətdə ad günün mübarək olsun" adlı şeirimi vaxt məhdudiyyətinə görə tədbirdə iştirakçıların diqqətinə çatdırmaq mümkün olmadığından qəhrəman şəhidimizin məzarı başında səsləndirdim. Mənə elə gəldi ki, şəhidimizin ana vətənin qoynuna hopmuş cismi, uğrunda şirin canını fəda etdiyi Şuşa səmalarının ənginliyində cövl edən şad ruhu bir anlıq diqqət kəsilərək bu şeiri dinlədi və çox-çox şad oldu. Şəhidim, Sən Şuşaya apardığın o yolun və bu Vətənin ayrılmaz hissəsisən, elə də qalacaqsan! Cənnətdə ad günün mübarək, ruhun şad, Kəlbəcərin daim azad olsun, Vətən Qəhrəmanı!

Anar Əliyev və onun kimilər qəlblərimizdə əbədi yaşamalıdırlar, yaşayacaqlar ki, həmişə ruhları şad olsun. Mən tam inanıram ki, bu belə də olacaq, çünki Onlar əbədiyaşardırlar. İndi isə Qəhrəmanımıza həsr etdiyim həmin şeiri çox hörmətli oxucularımın diqqətinə çatdırmaq istəyirəm.

**Cənnətdə ad günün mübarək olsun!**

Ey Əfsanə, Dastan, Cəngavər Aslan,
Cənnətdə ad günün mübarək olsun!
Ruhun qarşısında baş əyir bu can,
Cənnətdə ad günün mübarək olsun!

Həyatını həsr etdin Qarabağa,
O kəsilməz nura, sönməz ocağa.
Qəhrəmantək qayıtdın o torpağa,
Cənnətdə ad günün mübarək olsun!

Şuşaya aparan qapını açdın,
O ilk qarışlara nurunu saçdın,
Zəfər Sənə, Sən Zəfərə yaraşdın,
Cənnətdə ad günün mübarək olsun!

Yolunda əsgərin düşməni sezər,
İki cahanda şər qüvvəni əzər.
Etdiyin şücaət dillərdə gəzər,
Cənnətdə ad günün mübarək olsun!

Ad gününü keçirirdin ailənlə,
Bu gündən keçirəcəksən Vətənlə.





Vətən deyir: "Fəxr edirəm Səninlə,
Cənnətdə ad günün mübarək olsun!"

Ey Əfsanə, Dastan, İgid Qəhrəman,
Cənnətdə ad günün mübarək olsun!
Qəlbdə yaşadır Səni Azərbaycan,
Cənnətdə ad günün mübarək olsun!

*"Kredo" qəzeti. 15.09.2021.*
*27-28.08.2021.*

## VƏTƏNİN KÖRPƏ ŞƏHİDİ



*Şəhid Balaş Namiq oğlu Cəfərovun işıqlı xatirəsinə həsr olunub. (18.07.2002-ci il Abşeran rayonu, Hökməli qəsəbəsi - 23.12.2020-ci il Füzuli rayonu).*

Balaş Namiq oğlu Cəfərov 18 iyul 2002-ci ildə Abşeron rayonunun Hökməli qəsəbəsində anadan olmuşdur.

O, 2020-ci ilin iyul ayından Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə başlamışdı.

Azərbaycan Ordusunun əsgəri olan Balaş Cəfərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərimizin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsinə elə ilk anlardan qatılmışdı. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuş, Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Uzun müddət nəşi tapılmamış, 23 dekabr 2020-ci ildə onun nəşi döyüş getmiş ərazilərdən tapılaraq Abşeron rayonunun Hökməli qəsəbəsinə gətirilmiş və doğulduğu qəsəbədə torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Balaş Namiq oğlu Cəfərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir. Şəhidimiz Vətən müharibəsinin ən gənc şəhidlərindən biri olmuşdur.

Şəhidimizə həsr etdiyim "Vətənin körpə Şəhidi" şeirini qürurla təqdim edir və Allahdan bütün şəhidlərimizə rəhmət diləyirəm!

**Vətənin körpə şəhidi**

Verdin balaca canından,
Vermədin öz torpağından.
Bozqurdtək yurdun igidi,
Vətənin Körpə Şəhidi.

Dağ çəkdirən yaralara,
Dözdün bala canın ilə.
Örnək oldun balalara,
Hürr və azad qanın ilə.

İndi Səndən örnək alır,
Sənin yaşındakı cavan.
Dastanından ilham alır,
Hər sözdən ilham axtaran.

Səni çox axtarmışdıq biz,
Tapammadıq Səndən bir iz.
Hayqırdıq Sənin adını,
Gəlmədi bir dəm səsimiz.

İtdi-batdı cavan canın,
Kökü kəsildi gümanın.
Söküləndə yeri danın,
Gözümüzdən axdı qan-yaş,
Şəhid oldu körpə Balaş...

Sənin cocuq ürəyinə,
Böyük vətən sığışmışdı.
Sənin əsgər kürəyinə,
Anan qürurla baxmışdı.

Şəhid oldun vətən üçün,
Döyüşdə geri qalmadın.
Səni yad edirik hər gün,
Qəlblərdə əbədidir adın.

Ruhun önündə baş əyib,
Qürurla dayanacağıq.
Səni ruhən özümüzdə,
Sözümüzdə anacağıq.

*29.06.2021*





## CƏNNƏTDƏ GERÇƏKLƏŞDİ ÜLVİ ARZU DASTANI



*Şəhid MAHHXHQ əsgər Bəxtiyar İlqar oğlu Aslanova və onun ən ülvi arzusu olan Şuşanı azad etmək, Şuşanı görmək arzusuna ithaf olunur... (28.12.1998-ci il Naftalan-Şuşa - 30.09.2020-ci il Murovdağ, Ağbaba yüksəkliyi)*

Bəxtiyar İlqar oğlu Aslanov 28 dekabr 1998-ci ildə Naftalan şəhərində dünyaya göz açmışdır. Əslən Şuşa rayonundan idi. Birinci Qarabağ müharibəsi zamanı 8 may 1992-ci ildə Şuşa işğal edildikdən sonra Bəxtiyarın ailəsi Naftalanda məskunlaşmışdır.

2005-ci ildə Səməd Vurğun adına 2 saylı orta məktəbə daxil olub, 2016-cı ildə həmin məktəbin 11-ci sinfini məzun olaraq bitirib. 2016-cı ildə Gürcüstanda Açıq Tədris Universitetində İqtisadiyyat və Beynəlxalq əlaqələr şöbəsinə daxil olub. 2 il oxuduqdan sonra təhsilini dondurub və hərbi xidmətə getmək qərarına gəlib.

Anasının dediklərindən: "Bəxtiyar 2019-cu il yanvarın 22-də hərbi xidmətə yola düşdü. Daşkəsən Şəhər "N"saylı hərbi hissədə qulluq edirdi. 2020-ci ilin iyulun 23-də hərbi xidmətdən geri qayıtdı. Avqust ayında Şəmkirdə Türklər tərəfindən keçirilən təlimdə iştirak etdi. Sənədlərini düzəldib hərbi hissəyə verdi. Orada işləmək istədiyini bildirdi. Sentyabr ayında işə getdi. Sentyabrın 22-də mənə mesaj yazdı və dedi ki, müharibə başlayır. Mənimlə fəxr edərsiniz. Mən şəhid olmağa gedirəm. Sənin vətənini geri alıb, səni Şuşana qaytaracağam. 6 nəfər əsgərlə birgə Ağbaba yüksəkliyinin alınması üçün həmlə qrupu üzvü olaraq döyüşlərdə fəal iştirak etmişdir".

Azərbaycan Ordusunun əsgəri olan Bəxtiyar Aslanov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğah altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Ailəsi ilə sonuncu dəfə 27 sentyabr 2020-ci ildə əlaqə saxlayan Bəxtiyar Aslanov 30 sentyabr tarixində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Uzun müddət itkin kimi axtarılan Bəxtiyarın nəşi 137 gün sonra Murovdağın Ağbaba yüksəkliyində tapılmış və 13 fevral 2021-ci ildə ailəsinin istəyi ilə Goranboy rayonunun Balakürd kəndində torpağa tapşırılmışdır.

Bəxtiyar Aslanov Şəhadətindən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Şəhidimizə və onun ən böyük arzusu olan Şuşanı azad etmək və Şuşanı görmək arzusuna ithaf etdiyim "Cənnətdə gerçəkləşdi ülvi arzu dastanı" şeirini qürurla təqdim edir və bütün Şəhidlərimizə Allahdan rəhmət diləyirəm.

**Cənnətdə gerçəkləşdi ülvi arzu dastanı**

İllər boyu neçə acı çəkdik biz,
Şuşada silindi çox izlərimiz...
Mənim tanıdığım bir Qəhrəman var,
Şuşanı görməyən bir Şəhidimiz...

Neçə il Şuşada bir həyat quran,
Cıdır düzündə böyük fəxrlə duran –
Bir ailə ayrıldı öz yurdundan,
Qurdun ruhu qovuldu öz qurdundan.

Ailəylə qəmlənirdi Azərbaycan,
Ailənin yeni məskəni – Naftalan...
Ailədə doğulacaqdı Qəhrəman,
Qanıyla, canıyla yazacaq dastan...

Doğulmuşdu O, Qarabağsız illərdə,
Şuşa həsrəti ilə düşmüşdü dərdə.
Könlünün yarası da Şuşası oldu,
Həyatının yası da Şuşası oldu...

Ad mənası özünü doğrultmadı,
Bəxtiyar illərlə acı yaşadı.
Qırılmışdı o uçmalı qanadı,
Fələk zərbəsiylə sınmış qanadı.

Şuşa, Şuşa deyə böyüdü uşaq,
Şuşa, Şuşa deyə məktəb oxudu.
Eşitdiyindən, həm oxuduğundan,
Açılmış əlləri bir yumruq oldu.

Tarixi öyrəndi, həm Şuşasını,
Albertin, Riadın mərd dastanını.
Qisas odu daha da alovlandı,
Yıxmalıydı düşmən xanimanını.

Yurddan qovmalıydı qəddar yağını,
Xilas etməliydi Qarabağını.
Azad etməliydi Şuşa-Laçını,
Beynində qurmuşdu bu planını.





Qərar verdi məktəbi bitirəndə,
Şuşası üçün əsgər olmalıydı!
Əgər düşməndə olmazsa əndazə,
Bəxtiyar Şuşanı qurtarmalıydı!

Cəngavərlikçün böyüdü arzusu,
Çin olmalı idi onun yuxusu.
Bitməliydi xalqın acısı, yası,
Mütləq azad olmalıydı Şuşası.

Qüsursuz xidmətin son illərində,
Onu bir məsələ düşündürürdü.
Ömürlük, sonadək bir əsgər olmaq,
Düşmən üzərində hey zəfər çalmaq.

"Hə!" dedi Bəxtiyar, qərarı verdi,
İlk əvvəldən hərb peşəsini seçdi.
Daxildəki digər hissi, duyğunu,
Düşmənləri biçirmiş kimi biçdi.

Bundan sonra sərkərdə olacaqdı,
Sona qədər orduda qalacaqdı.
Döyüşlərdə hünərlər göstərəcək,
Şəhid zirvəsinə ucalacaqdı!..

Bəxtiyar Daşkəsəndə xidmət etdi,
Əsgərlərə qarşı mehriban idi.
Onları döyüş yoldaşları kimi,
Cəngdə, həm hərbdə görmək istəyirdi.

Daşkəsəni ürəyi də seçmişdi,
Ora Qarabağa çox yaxın idi.
Yaxın idi Daşkəsənə Kəlbəcər,
Bəxtiyar yurd üçün canından keçər.

Ancaq, ürəyi sıxılırdı onun,
Çin olması çətin idi yuxunun.
Azad olunmalı yer uzaqdaydı,
Qarı düşmən orda at oynadırdı.

Hər atəşkəs onda bir qəzəb idi,
Düşmənə gələcəyi göstərirdi.

İşarə edirdi, vaxtı gələcək,
Azərbaycan Kəlbəcərdən keçəcək!

Qisas alovu heç bir vaxt sönmədi,
Azərbaycan öz vaxtını gözlədi.
Bəxtiyar da "Vaxtı gələcək!" dedi,
O Zəfərli savaşın vaxtı gəldi!

O, hamıtək atıldı döyüşlərə,
Olmuşdu axır ki, ona bəxti yar.
Əsgərlər dedi sevinə-sevinə:
"Səni gözləyir o Şuşa, Bəxtiyar!"

İllər uzunu böyütdüyü arzu,
Sentyabrın axırı gerçək olmuşdu.
Bəxtiyar özündə qanad tapmışdı,
Pərvazlanırdı, elə bil ki, quşdu...

Sona qədər döyüşdü o igidim,
Var gücünü o gündə sərf eylədi.
Amma, zalım fələk oyun eylədi,
Mərdim namərd gülləsinə tuş gəldi.

Zalım fələk döyüşlərin bir günü,
Kəsdi onun qarşısını, önünü.
Artıq fələkdə olmuşdu bu adət,
Bəxtiyara qismət oldu Şəhadət...

İgidi qucaqladı Murov dağı,
Başın əydi Ağbaba yüksəkliyi.
Dağın zirvəsində bir ruh cövl etdi,
Bu ruh Şəhid olan Bəxtiyar idi.

Bu zirvədən o zirvəyə uçdu o,
Şəhid oldu Pənahəli nəvəsi.
Ona yar olmasa da öz bəxti,
Ona yar oldu Şəhidlik Zirvəsi!

Cismani görmədi əziz Şuşanı,
Ruhu həmin gündən Şuşanı gördü.
Qarabağlı etdi Azərbaycanı,
Şuşa qalasında bir bayraq hördü.





Şuşaya cismani heç çatmasa da,
Bəxtiyar Şuşanı ilk görən oldu.
Ruhu azad etdi əziz Şuşanı,
Bunun üçün verdi o, öz canını.

Günlər ötdü, aylar ötdü, vaxt keçdi,
Ailənin gözü yollarda qaldı.
Bir kəndə neçə Şəhid nəşi gəldi,
Bəxtiyarımın nəşi tapılmadı.

Anası, atası qurbanlar dedi,
Baxt ötsə də, ümidin itirmədi...
Zəfər oldu, hamı verdi şad xəbər,
Bəxtiyardan heç bir xəbər gəlmədi.

8 Noyabr... Azad oldu Şuşamız,
Qələbəni çaldı şanlı Ordumuz.
Yenilməz aslana döndü qurdumuz,
Zəfəri qeyd etdi ulu yurdumuz.

Bəxtiyara olan ümidlər artdı,
Dualarla ana gözü yaşardı.
Bəxtiyar heç zaman ölməyəcəkdi,
O, Şuşa səmalarında yaşardı.

Ruhu dalğalandırdı bayrağını,
Bəxtiyar öpdü Vətən torpağını.
Nə qədər Zəfərə sevinsə də O,
Anasından yenə nigaran qaldı.
Anası da ondan nigaran qaldı...

Dekabr da keçdi, gəldi soyuqlar,
Murov dağının başını qar aldı.
Ana ümidini boran apardı,
Atanın gözünün kökü saraldı.

Can yoldaşı gör neçə gün axtardı,
Bilmədi küləkdi, borandı, qardı.
Nitqi tutuldu, gözləri yaşardı,
Tapdı can yoldaşı can yoldaşını...

Cansız bir bədəndi... Ərimiş bədən...
Sümüyü görünən, polad, bərk cisim.

Can yoldaşı ağladı, dedi: "Nədən?"
Bədəni əsirdi çox, əsim-əsim...

Bəxtiyarın ruhu ziyarət etdi,
Torpaq olan, daş olan bədənini...
Sonra baxdı o Zəfər bayrağına...
Onun üçün şirin canın vermişdi...

Anası bu dünyada ağlayanda,
Cənnət bucağında gülməzdir Şəhid...
Ağlınızdan çıxartmayın bir an da:
Bu dünya durduqca ölməzdir Şəhid!..

Arzu ürəkdə qaldı, candan keçdi,
Qarabağlı etdi Azərbaycanı...
Amalı yolunda qanından keçdi,
Daimi qəlblərdə əzizdir Şəhid.

Gözü kimi sevirdi Yurdu Azərbaycanı,
Azad etmək idi amalı doğma Şuşanı.
Görmədisə də o böyük zəfərin anını,
Cənnətdə gerçəkləşdi ülvi arzu dastanı...

*15.02.2021*
*"Kredo" qəzeti, 14.07.2021*

## ZİRVƏLƏRİN FATEHİ



*Şəhid Bəybala Fazil oğlu Əliyevin əziz xatirəsinə həsr olunur. (22.10.1996-cı il Gədəbəy rayonu, Səbətkeçməz kəndi-02.10.2020-ci il Murovdağ silsiləsi)*

44 günlük Vətən Müharibəsi ilk anlarından son dəqiqələrinə qədər Azərbaycanın şanlı tarixinə qızıl hərflərlə yazıldı. Havada, quruda, suda, harada olmasından asılı olmayaraq, istər könüllü olsun, istər müddətdən artıq xidmət edən, sıravi əsgər və ya zabit olsun... Hər kəs, torpaqlarını işğaldan azad edib Xalqına Zəfər sevincini yaşatmaq istəyən hər bir Vətən oğlu, hər bir Azərbaycan əri, igidi Vətən üçün, Zəfər üçün





həvəslə, var gücü ilə döyüşdü mənfur düşməni ilə. Düşmənə qan uddurdu, onu iti qovan kimi qovaraq zəfərlər çaldı. Yurdunun hər qarışında bir qədər qan izi, bir qədər can izi saxladı. Bu torpaq gözünün önündə zərrə-zərrə böyütdüyü, boya-başa çatdırdığı oğullarının Şəhidliyini görməyə məcbur oldu. Vətən torpağı yaşamasını çox istədiyi igidinin qanını məcbur olaraq öz canına hopdurdu. Sonda ulu torpağın duaları gerçək oldu, bütün Şəhidlərimizin qisası alındı, Zəfərimiz çalındı!

İlk cümlələrdə qeyd etdiyim kimi, dənizindən, dağından, göyündən, yerindən asılı olmayaraq, bütün vətən övladları, vətənsevərlər, vətən fədailəri bir yumruq kimi birləşdi, bir oldu, birlik oldu. Bu vətəni dirçəltmək, bütöv etmək üçün birləşdi! Hər oğlu özündə bir intiqam alovu saxladı, düşməni yandırmaq üçün. Qorxunu qorxudan, igidlik mərdliklə çağlayan şanlı əsgərlər Azərbaycanın necə igidlər yetişdirən bir yurd olduğunu düşmənə sübut etdirdilər.

Bu vətən fədailərindən biri də Hərbi Dəniz Qüvvələrinin matrosu, həm də Vətən müharibəsində şəhid olan tək matros Bəybala Fazil oğlu Əliyev idi.

Bəybala Əliyev 22 oktyabr 1996-cı ildə Gədəbəy rayonunun Səbətkeçməz kəndində anadan olmuşdur. O, 2013-cü ildə Gədəbəy rayonu Səbətkeçməz kənd tam orta məktəbini bitirdikdən sonra həqiqi hərbi xidmətə yollanmış, hərbi xidməti başa vurduqdan sonra hərbi dəniz qüvvələrində xidmət etməyə başlamışdır. Nümunəvi xidməti ilə komandanlığın diqqətini cəlb edən Bəybala Əliyev hərbi təhsil almaq üçün 2015-ci ildə Türk Dəniz Qüvvələrinin sərəncamına göndərilmişdir. Valideynlərinin tək istəyi Bəybalanın hərb sənətinin sirlərinə yiyələnməsi, gələcəkdə döyüşdən-döyüşə atılan, igid dağlar oğlu, dəniz övladı olması idi. Burada təhsil almaq Bəybala üçün bu bir şans idi. Türk Dəniz Qüvvələrinin məktəbində onunla bərabər təhsil alan türk tələbə yoldaşlarını Bəybala özünə həqiqi mənada qardaş bilməklə bərabər həm də orada özünü yad ölkədəki kimi hiss etmirdi. Elə bilirdi ki, elə Azərbaycanın özündə, Türk Dünyası adlanan qocaman bir ölkənin bir şəhərindədir.

Dənizin dalğalarının, lal suların axım səsini özünə əzəldən sirdaş bilən Bəybala 2016-cı ildə Türkiyədəki təhsilini başa vurub Vətənə qayıtdı. O, orduda qalıb xidmət etmək, ömür boyu hərbi xidmətdə olmaq, hərbin sirlərini bilən bir igid kimi hər çətinliyə dözmək, hərbçi olub bu şərəfi qorumaq istəyirdi. Bəybala həmin il müddətdən artıq hərbi xidmət qulluqçusu, matros olaraq hərb sənətinə sevgisini bir daha nümayiş etdirdi. O, Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissədə kəşfiyyatçı-snayper kimi xidmətini davam etdirdi. Onu da qeyd edək ki, MAHHXHQ matros Quru Qoşunlarında MAHHXHQ əsgəri olaraq tanınır.

Bəybala Əliyev 2020-ci ilin 27 sentyabrında başlayan Vətən savaşında Kəlbəcər və Suqovuşan uğrunda gedən döyüşlərdə əzmlə vuruşmuş, qəhrəmanlıq nümunəsi və şücaət göstərmişdir. O, döyüşlərdə hamını Zəfərə səsləyir, mütləq Zəfərin çalınacağını və Zəfərin yaxın olduğunu yorulmadan hamıya çatdırırdı. Bu, böyük ürəklə, sevinc və qürur hissi və şövqlə döyüşə yollandığı avtobusun pəncərəsindən "Növbəti istiqamət: Kəlbəcər" kimi dediyi sözündən də aydın olurdu. Bəybala bir çox qanlı döyüşlərdə mərdliklə iştirak etdi, növbəti döyüşlərin birində 02 oktyabr 2020-ci ildə elə azad etməyə can atdığı Kəlbəcərdə, Murovdağda Şəhidlik Zirvəsinə yüksəldi.

Şəhadətindən sonra Bəybala Əliyev cənab Prezident tərəfindən "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

Şəhidimizə həsr etdiyim "Zirvələrin fatehi" şeirini qürurla təqdim edir və Allahdan bütün şəhidlərimizə rəhmət diləyirəm!

**Zirvələrin Fatehi**

Dənizdə tufan oldun,
Quruda toz qopardın.
Şirtək düşməni qovdun,
Bu torpaqdan çıxardın.

Döyüşlərə gedən vaxt,
Sanki toyda idin sən.
Sən üstünə gedəndə,
Qorxub qaçırdı düşmən.

Bu millətin olmusan,
Dastanı, hekayəsi.
Azərbaycan oğlusan,
Ulu Türkün nəvəsi.

Şəhid oldun Murovda,
Səni qucmuşdu dağlar.
Axtarılırdı nəşin,
Anan qalmışdı ağlar.

Döyüşdən sağ qayıdan
Hər ər gəldi, gəlmədin,
Köksündə imzan olan
Zəfər gəldi, gəlmədin.

Çıraq tutduq yoluna,
Haray çəkdik dağlara.
Səni axtardıq qarda,
Ən çətin zamanlarda.

Qışın oğlan çağında,
Qara xəbərin gəldi.
Ümidimizi qırdı,
Ürəyimizi dəldi.





Səndən qalan şəkillər,
İşıq tutur illərə.
Mirasındır hünərlər,
Gələcək nəsillərə.

Sən zəfərçün döyüşdün,
Məhv etdin düşmənini.
Sevirdin öz yurdunun,
Çölünü, çəmənini.

Fəxr edirdi səninlə yurdumun hər ərəni,
Sən döyüşlər pələngi, sən savaşlar aslanı.
Canından çox sevərdin öz ana vətənini,
Sən Allahın əsəri, ımanlının imanı.

Qarabağla bir etdin yenə Azərbaycanı,
Bu Yurd vərəqləyəcək qəlbindəki dastanı.
Zirvələrin fatehi, dənizlərin tufanı,
Ey Azərbaycanımın Bəybala Qəhrəmanı!

*25.08.2021*

## ELDƏN GEDƏN QƏHRƏMAN



*Şəhid Elsevər Eyvaz oğlu Paxırovun əziz xatirəsinə (19.07.1997-ci il Balakən rayonu-10.10.2020-ci il Cəbrayıl rayonu ərazisi) həsr olunur.*

Şəhid kiçik gizir Paxırov Elsevər Eyvaz oğlu 19 iyul 1997-ci ildə Balakən rayonunda dünyaya göz açmışdır. Orta təhsilini Balakən rayonunun Hənifə kənd tam orta məktəbində almışdır. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanmış, Vətənə layiqli bir şəkildə xidmət etdikdən sonra Vətənə yenidən xidmət etmək üçün müddətdən artıq xidmət edənlərdən biri olmuşdur. Hərbi xidmətdə olarkən ona kiçik gizir rütbəsi verilmişdir.

Kiçik gizir olaraq Elsevər Paxırov Vətən Müharibəsinin ilk günlərindən döyüşlərə atılmış, döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmiş və döyüş yoldaşları ilə birgə bir neçə postu azad etmişdir. Vətən müharibəsinin əsas döyüşlərindən olan Murovdağ əməliyyatı, Hadrut döyüşü və digər döyüşlərdə böyük qəhrəmanlıq və hünər göstərmişdir.

Elsevər Paxırov döyüş yoldaşları ilə birlikdə bir neçə önəmli strateji yüksəklikləri də işğaldan azad etmişdi.

Kiçik gizir Paxırov Elsevər Eyvaz oğlu 10 oktyabr 2020-ci ildə sonuncu dəfə Füzuli istiqamətində gedən döyüşlərdə son damla qanına kimi döyüşmüş, öz ümidlərini kiçik gizir kimi sonuna qədər doğrultmuş və Şəhidlik Zirvəsinə yüksəlmişdir.

Balakən rayonunun Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Şəhidimiz "Döyüşdə fərqlənməyə görə", "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Şəhid Elsevər Paxırovun əziz xatirəsinə həsr etdiyim "Eldən gedən qəhrəman" şeirini təqdim edir və Allahdan bütün Şəhidlərə rəhmət diləyirəm.

**Eldən gedən qəhrəman**

Sayəndə Qarabağa,
Qovuşdu Azərbaycan.
Məhv etdin neçə düşmən,
Eldən gedən qəhrəman.

Döyüşlərdə hünərin,
Bəllidir əsgərlərə.
Neçə ümid vermişdin,
O Qəhrəman ərlərə.

Ümidləri doğrultdun,
Qarabağ azad oldu.
Azərbaycan sevindi,
Sevinməyən yad oldu.

Hamı səni axtardı,
Ərənlər arasında.
Cismin heç görünmədi,
Əsgərlər sırasında.

Çünki, Şəhid olmuşdun,
Sən cismani yox idin.
Şəhidlik Zirvəsinə
Qürurla yüksəlmişdin.

Ürəklər dağa döndü,
Ümidlər birdən söndü.
Qəhrəmanlar yanında,
Sənin yerin göründü...





Kədər gəlməsin sözə,
Yaşlar dolmasın gözə.
Qəhrəmanlıq dastanın,
Bir təskinlikdir bizə.

Qarabağ var canında,
Damarında, qanında.
Qəhrəmanlıq göstərdin,
Sən hünər meydanında.

Vətəninə qulluğun,
Bir an getmədi hədər.
Sənin ruhun şad olsun,
Qəhrəman, igid əsgər!

Sənin ilə fəxr edır,
Anamız Azərbaycan.
Xatirən əbədidir,
Eldən gedən qəhrəman.

*19.02.2021*

## ELİN SEVGİSİNİ QAZANAN, ELİNİ SEVƏN ELSEVƏR



*Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının "N" saylı hərbi hissəsinin çavuşu Şəhid Elsevər Mahir oğlu Piriyevin nurlu xatirəsinə həsr edilmişdir (12.06.1995-ci il Ağcabədi rayonu Arazbar kəndi – 16.10.2020-ci il Hadrut qəsəbəsi).*

Vətən müharibəsində elin sevdiyi, elini sevən, həm evdən, həm də eldən gedən neçə-neçə oğullar olub... Bu oğullar anadan olanda onlardakı vətəni, eli sevərliyi hələ yeni doğularkən ağsaqqallar, ağbirçəklər hiss etdiklərindən onlara özlərinə bənzər ad verirmişlər (Atalar misalı: Yönlü cücə yumurtadan bəlli olur). Bizim elat camaatı da həmişə atalar sözünə əməl etmiş, bu sözlərin dəyərindən hər bir sahədə, elə yeni doğulan vətən oğullarına və qızlarına ömürləri boyunca, bəzi hallarda isə

hətta həyatdan köçdükdən sonra da onları Azərbaycan qədər yaşadan ad seçirmişlər. Babalarının sezdiyi, sevdiyi, seçdiyi adlarına uyğun olaraq bu Elsevərlər xalqımızın qan yaddaşı olan torpaqlarımızın mənfur düşmənlərimiz tərəfindən işğal olunması, yurddaşlarımızın öz ata-baba ocağından didərgin salınması günlərində bu ikiüzlü dünyaya göz açdılar, çətin vaxtlarda bu dünyaya gəlsələr də vətənin dar günündə silaha sarılıb onu qorumaq üçün nağıllarda da deyildiyi kimi "gündə bir arpa boyu böyüdülər", o günlərdən sonralarda da doğulan Elsevərlər çox oldu... Onların amalı yurdun, vətənin ilhamı oldu. Bu Elsevərlər qüvvələrini səfərbər etdilər və sonda birləşdilər. El bir olub dağı yerindən oynadarsa, bir olandan sonra gör bu Elsevərlər nələr edər...? Zaman gəldi yetişdi ki, bu Elsevərlər İkinci Qarabağ müharibəsinin, Zəfər Yolunun Qəhrəmanları oldular... Nəhayət 200 ildən də çox bir müddətdə həsrət qaldığımız, əlimizin uzalı qaldığı, lakin çata bilmədiyi, həmin Elsevərlərin canı-qanı bahasına nəhayət ki, qovuşduğumuz Zəfər Günündə biz onların yaşayanlarının özü, şəhadətə qovuşanlarının isə uca ruhu qarşısında baş əydik...

Belə vətən oğullarımızdan biri də mənim ata-baba yurdum olan Ağcabədi rayon Yuxarı Qiyaməddinli kəndinin lap yaxınlığında yerləşən (Sovet dövründə bu kəndlər bir sovetlik olub, rəsmi sənədlərdə iki kəndin sovetliyi Arazbar adlandırılıb) rayonun Arazbar kəndindəndir. Bu şəhidlik dastanımız Piriyev Elsevər Mahir oğlu haqqındadır. Yəni vətənin El Sevərlərindən birinin haqqında dastan... Heç bir vətənsevər, elsevər şəhidlərimizin bir-birindən fərqi yoxdur. Çünki onlar hamısı Mübarizlər, Poladlar, Şükürlər, Qəhrəmanlar və ... Elsevərlərdirlər. Hamısı özləri üçün əziz olan hər şeydən keçib şirin canlarını vətən, xalq, yurd, yuva, namus, qeyrət, ən ülvi və ən əziz olanlar yolunda heç tərəddüd etmədən fəda edənlərdir. Elsevər də bütün qeyd olunanlara rəğmən əzizlərinin sevinci olaraq belə bir gündə Uca Yaradanın izni ilə gözəl Qarabağın qədim elat elində dünyaya göz açmışdı. Allahın bu gözəl payından şadlanan və Allahına dəfələrlə şükranlığını bildirən yeni dünyaya göz açmış körpənin babası, ağsaqqal, dünyagörmüş, dünyalarca həyat təcrübəsinə malik, nurunu Allah vermiş Allahverən baba da adətincə ulu müdrikliyni bir daha göstərərək sonbeşiyi olan Mahir balasının bircə oğlan övladı, özünün isə soy-kökünü davam etdirəcək oğlan nəvəsinin üzünü ilk görcək onu qucağına alıb başı üzərinə qaldıraraq Allaha şükürlərini ifadə etmiş, uşağın nur saçan sifətini görüb sevinmiş, türk ellərinin dua etdiyi qaydalara əməl edərək ilk öncə körpənin qulağına Kəlmeyi-Şəhadəti oxumuş, sonra isə şirin-şəkər nəvəsi üçün seçdiyi adı onun qulağına pıçıldamışdır; "Duyuram ki, sən dədə-babaların kimi, nəslimizə, soyumuza, kökümüzə, obamıza, elimizə uyğun olaraq elini, obanı, vətənini, xalqını canından da çox sevən bir igid olacaqsan. Gələcək xarakterinə, xasiyyətinə uyğunlaşdıraraq mən də sənin adını Elsevər qoydum, adını Elsevər qoydum, adını Elsevər qoydum! Adını mən verdim, qismətini, taleyini, bəxtini Ulu Yaradan, Uca Allahımız versin. Amin!"

Elsevər Ağdama, Xocalıya, Şuşaya yaxın, lakin istəsə də oranı görə bilməyərək böyüyən bir oğul kimi Qarabağa uzaqlardan baxmaqdan doymuşdu. Qarabağı yaxından görmək, gəzmək istəyi, arzusu, amalı ilə Elsevər böyüdü, əsgərlik yaşına doldu, əsgəri xidmət keçdi və həmin istəyi onu bu günlərə gətirib çıxardı, vətən keşiyində müsəlləh





əsgər... O, Daxili Qoşunların çavuşu, Vətən müharibəsi Şəhidi, tanıyanlar arasında mərifəti, qanacağı, mədəniyyəti, tərbiyəsi, səmimiyyəti, namusu, qeyrəti, vətənsevərliyi, ailəcanlılığı ilə tanınan və Elsevər adının haqqını elinə artıqlaması ilə qaytarmağı bacarmış Elsevər Piriyev olmuşdu.

Elsevər Mahir oğlu Piriyev 12 iyun 1995-ci ildə Ağcabədi rayonunun qədim, "Arazbarı"sı ilə məşhur Arazbar kəndində anadan olmuşdur. Mənim haqqında danışacağım bu Elsevər Qəhrəmanımıza qan yaddaşından sonrakı günlər nəsib oldu... O günlər... Xalqın yaddaşından silinməyəcək o günlər... Çevrilişə cəhddən yeni çıxan, vətəndaş müharibəsindən yeni xilas olan bir dövlətin sağalmayan yaralıya çevrilən günlərində doğuldu Elsevər... Elsevər üçün o günlər getməli, bir də gəlməməli günlər idi. Valideynlərindən eşitdikləri onu dəhşətə gətirirdi. Qonşu, Ağdama yaxın olan kəndlərin ərazilərinə mənfur düşmənlərimiz tərəfindən mina yerləşdirilməsi, düşmənin Qarabağı yağmalaması, talaması, onların qaçqın Şəhidlərə, qaçqın qazilərə, qaçqın uşaqlara, körpələrə çevrilməsi, daha nələr, nələr... Bunları Elsevər özlüyünə sığışdıra bilmirdi. Elsevərin odlu qılınc olması üçün bişdiyi günlər bu günlər idi. Gülüstan müqaviləsi ilə başlayıb bu yerlərə gəlib çatan Azərbaycanın gülüstana çevrilməsi Elsevərlərin gəncliyinin əlində idi. Artıq Elsevərin fikrində bunlar hər şeydən çox aşılanırdı, kök salırdı... Sarsılmaz birlik! Vətənpərvərlik! Vətən torpaqlarını düşmən tapdağından azad etmək! Şəhidlərimizin Qisası!

Uşaq vaxtlarından bu ideya ilə yoğrulan, bişən Elsevər 2001-ci ildə Ağcabədi rayonu şəhid Cavanşir Həsənov adına Arazbar kənd ümumi orta məktəbinin birinci sinfinə qədəm qoydu. Elsevər məktəbdə biliklərə yiyələnməyə can atması ilə daha çox diqqət çəkirdi. O, ağlı, tərbiyəsi, qabiliyyəti ilə müəllimlərini təəccübləndirir, həm də sevindirirdi. Müəllimlərin sandığından da çox ağıllı, bacarıqlı olan Elsevər həm də təbiətən çox sakit idi. O, bilirdi ki, bu günlərdə uşaqlara və ona lazım olan nə varsa, hamısı bilikli olmaqdan, öyrənməkdən keçir, məktəbdən, təhsildən keçir. Məktəbin zəruri olduğunu Elsevər çox gözəl dərk edirdi. Ona görə də, dərslərinə çox önəm verirdi.

2010-cu ilə qədər ümumi orta məktəbdə təhsil alan Elsevər bundan sonra atasına kömək edəcək, onun sağ əli olacaqdı. Bu yolda onu çətinliklər, zəhmət, alın təri gözləsə də, atasına kömək etmək, işini asanlaşdırmaq ailənin tək oğul övladı kimi onun vəzifəsi idi. Və bunu fikirləşdikdən sonra Elsevərin işi birə beş asanlaşırdı. Çox işi az iş hesab edib zəhmətə qatlaşırdı. Onun bu yolda ən böyük mükafatı atası Mahir əminin nəsihətləri, öyüdləri və işinə verdiyi qiyməti idi.

Elsevərin fədakar anası onun bu qədər çalışqan olmasına görə qürur duyurdu, onunla fəxr edirdi, eyni zamanda ana ürəyi yeganə oğluna görə bir az da narahat olurdu, Elsevərin yorulmağından qorxurdu. Lakin, bunu da bilirdi ki, "igid odur hər zəhmətə qatlana, igid odur atdan düşə atlana". Elsevəri zəhmətdən uzaq yetişdirmək olmazdı. Çünki, Elsevərin bəxtinə, taleyinə gendən gələn halallıq, alın təri, zəhmət, mərdlik, kişilik, igidlik, qəhrəmanlıq yazılmışdı. Elsevər zəhmətdə bişə-bişə igid, qəhrəman olmalı idi. Adı kimi Elsevəri uşaq vaxtlarından el sevirdi, sona qədər də sevməli idi. Qürurlu ana sona qədər qürurla dayanacağına inanır və Elsevərə Allahdan yorulmazlıq, güc, qüvvət arzulayırdı. Bir Ananın arzusu bundan başqa nə ola bilərdi ki?

Elsevər 3 il atasının fərdi təsərrüfatında çalışdı, tər tökdü. Əməyi, zəhmətsevərliyi ilə hamının diqqətini cəlb edirdi. Atalar məsəlindəki kimi "Çalışan qazanar, almazı qızarar". Elsevərin almazı onun tərbiyəsi, daxilindəki tükənməz gücü, Vətənə sevgisi, sabaha ümidi və o sabahı gerçəkləşdirmək üçün göstərdiyi səylər idi. Elsevər atasını hər bir mövzuda anlayırdı, onunla heç bir fikir ayrılığı yox idi. Lakin o, daimilik fermer təsərrüfatında çalışmağı özü üçün həyat yolu seçməmişdi. O öz daxilindəki gücü aşkara çıxacaqdı və özünü elə vaxtda sınayacaqdı ki, Vətən, el ondan danışdıqca danışacaqdı. Bu amal üçün Onun vətənə sevgisi onu daha da gücləndirir və onu məqsədinə daha da yaxınlaşdırır, sabaha ümidi nəticəsində onun ilhamı artır və daha çox əmək sərf edərək hər mövzudan, hər sarıdan, hər sahədən Qarabağa yaxın edirdi. Elsevər gəncliyə bu andla, bu amalla qədəm qoymuşdu. Qarabağın işğaldan azad edilməsi andıyla!

2013-cü ilin iyul ayında müvəffəq olduğu əmək fəaliyyətini o, müvəqqəti dayandırdı. Elsevərin yaşı kişilik məktəbinə daxil olmağa yaxınlaşırdı. Elsevər illər keçdikcə həyəcanlanırdı, ürəyi çırpınırdı. O, hərbi formanı geyməyi çox istəyirdi. O hərbi formaya özünü layiq bilmək istəyirdi və bunun üçün də çox çalışmağın lazım olduğunu bilirdi. İnanırdı ki, onun sevdiyi və onu sevən xalq onu hərbi formada təsəvvür edir.

Odur ki, Elsevər hərbi xidmətə yollanmaq qərarına gəldi. Atası da onu bu formada görməyi çoxdan arzulayırdı. O, atasının ər oğlu, nər igid oğlu idi. Ona bu yerdə nə yaraşmazdı ki?

2013-cü ilin isti bir iyul günü, Elsevərin cəngavərlik yolunda ilk addımını atdığı gün idi. Bu ilk addımlarını Elsevər sürətli addımlara çevirmək istəyirdi. Tez bir zamanda əlində bayraq, əlində silah Şanlı Vətənin şanlı ordusunda xidmət etmək istəyirdi. Ata köksünü qabardaraq oğlunu Vətənə əmanət edir, Ana hər yeni xidmətə başlayan əsgər anası kimi 1 il yarım yeganə oğlunun həsrətinə alışmağı özü üçün çətinlik bilirdi. Elsevərin isə sevincinin həddi-hüdudu yox idi. O, ümidlərini, arzularını gerçəkləşdirmək yolunda ilk addımını atırdı! Piriyev Elsevər Mahir oğlu artıq Azərbaycan Ordusunun əsgəri idi!

Şanlı Ordunun minlərlə əsgərindən biri olan Elsevər xidmətini Bakı şəhəri, Montin qəsəbəsində yerləşən "N" saylı hərbi hissədə davam etdirmişdir. Onun üçün hər şeydən öndə Vətən idi. Və ondan sonra Vətənə xidmət. O, hansı şəraitdə olursa olsun, Vətənə qüsursuz xidmət etməyi, xidmətdə fərqlənməyi üstün tuturdu. O, bütün gücünü səfərbər etməklə bunları bacarmalı idi, bacarardı. Çünki O, Elsevər idi. Elsevər el üçün hər zəhmətə qatlaşmağı özünə borc və şərəf bilən insanlardan biri idi. Adını doğrultmağa çalışan və doğruldan minlərlə Azərbaycan əri kimi o da Vətən uğrunda hansı şəraitdə olursa olsun, səfərbər olmağa hazır idi. Vətən üçün qarlı dağlar aşar, Vətən üçün susuz səhralardan ayaqyalın keçər, yuxusuz gecələr keçirərdi. Elsevər bunu etmək üçün hazırlaşırdı...

Bacardığı işin ustası olan Elsevər bu işi də bacaracağını bildiyi üçün tərəddüdsüz işə başladı. Təqvim 25 noyabr 2013-cü ili göstərirdi. Elsevər Azərbaycanın həm asayişini, həm də müdafiəsini öz üzərinə götürəcək qədər inadlı və mərd idi. Həmin gün O, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının kursuna daxil oldu. O, bu kursdan alnıaçıq üzüağ keçəcəkdisə, Daxili Qoşunların hərbçisi olacaqdı və ona Daxili Qoşunlar geyimi və





qürurlu beret daşımaq nəsib olacaqdı. O, bu beretə və formaya görə kursa daxil olmamışdı, O, düşünürdü ki, onun amal yolu Daxili Qoşunlardan keçir. Sonda Elsevər sürətli addımlarla, iti baxışlarla, sonuna qədər diqqətlə bu çətin kurslardan alnı açıq üzüağ keçdi. Bununla da hamının gözlədiyini, gözlədiyindən daha çoxunu bacardı O. Beləliklə, Piriyev Elsevər 20 fevral 2014-cü ildə kursu başa vurdu və Daxili Qoşunların əsgəri adına layiq oldu! Elsevər Daxili Qoşunların xüsusi təyinatlı dəstəsində heyət nəfəri idi!



Daxili Qoşunlar Komandanı general-mayor Şahin Məmmədovun 2014-cü il tarixli 32 nömrəli əmrinə əsasən Elsevər Piriyevə kiçik çavuş hərbi rütbəsi verilmişdi. Elsevər buna layiq idi. O, qüsursuz xidməti və məharəti ilə hamının diqqətini öz üzərinə çəkirdi. Elsevəri əvvəllər tanımayanlar bu günə qədər niyə belə şəxsiyyətlə qarşılaşmadıqlarına heyfislənirdilər. Lakin, heç nə gec deyildi. Elsevəri tanıyan, bilən insanlar, şəxsi heyət, ailə, dostlar, qohumlar hamısı Elsevərlə fəxr edirdi. Elsevər onu bu yerlərə qədər gətirən Ana və Vətənlə fəxr edirdi. Fəxr edəcəkdi... Varlıq ruhdan ayrılana qədər özü, ondan sonra isə müqəddəs ruhu...

2015-ci ildə Elsevər hərbi xidmətini bitirməyə hazırlaşdı. Lakin elə bil onu xidmət etdiyi hərbi hissəyə kilidləmişdilər. Bu hərbi hissədən, bu atmosferdən, bu yerlərdən doya bilmirdi, gedə bilmirdi O. Amma, ailəsindən ötrü də darıxmışdı. Ailəsi onun üçün Vətən olmasa da dünyalar qədər əziz idi. Vətən isə hər şey idi. O, hərbi xidmət ilə geri, doğmalarına qayıtmağın arasında uzun müddət fikirləşdi, götür-qoy elədi, elə bu vaxt bir mancə ortaya çıxdı... Elsevərin təhsili. Elsevər təhsilə önəm verirdi. Təhsildən yarımçıq ayrılıb təsərrüfat işlərində atasının sağ əli olanda yarımçıq saxladığı təhsilini "işlər yüngülləşsin bir gün davam edərəm" deyə düşünmüşdü. Lakin hərbi xidmət və hərbi biliklərə yiyələnəndən sonra hərbi xidmət və məktəb təhsilini davam etdirmək seçimi arasında qalmalı oldu Elsevər. Ancaq məktəb onun üçün daha önəmli idi bu zaman, çünki, onun Zəfər yolu mütləq və mütləq təhsildən, bilikdən keçirdi...

Hərbi xidməti bitirdikdən sonra Elsevər bunu da bacardı. 3 sinfi bir neçə aya eksternat yolu ilə və imtahanlarda iştirak etməklə bitirdi. Ağır kurslardan, təlimlərdən keçən Elsevərin bədəni də, zehni də polad kimi idi. O təlimlərdən sonra Elsevər üçün bu imtahanlar su içimi kimi idi. Yeniyetməliyindən bütün ağırlıqlara sinə gərən bu aslan duruşlu gənc həmin ili Ağcabədi rayonu A. Sultanov adına Kürdlər kənd tam orta məktəbinə müraciət etdi, buraxılış imtahanlarında iştirak etdi və müvəffəqiyyət qazandı. Onun bu qələbəsinə belə də deyə bilərik, müzəffər oldu. Artıq O, tam orta təhsilli bir şəxs idi və bu onun təhsilli, peşəkar hərbçi olmasına qapıları taybatay açmışdı. Onu hərbi xid-

mətdən ayıran tək maneə belə yox idi. Əgər olsa da O da ölüm idi və ona da Şəhadət deyilirdi. Elsevər bu yolda mütləq Şəhadəti gözə almışdı. Hələ qarşıda neçə illər onun idi, sağlıq olsun, O, hələ özünü dəfələrlə necə göstərəcəkdi, neçə sınaqlardan alnıaçıq, üzüağ çıxacaqdı... Bunu zaman göstərəcəkdi...

2015-ci ilin dekabr ayında Elsevər yenidən hərbi xidmətə qayıtdı. Yenidən Daxili Qoşunlarda müvəqqəti ayrıldığı müvəffəq dostlarına qayıtdı. Bu dəfə Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə qüsursuz xidmətini davam etdirməyə başladı.

Ümumiyyətlə, Elsevər qısa, lakin mənalı ömründə bir fenomen kimi böyümüşdü. O, sağlığında elə bir zirvəyə ucalmışdı və elə sürətlə həmin günlərə qədər gəlmişdi ki, bu sürəti bəlkə də heç kəs ötə bilməzdi və bilməz də. Öz hərbi hissəsinə yeni hisslərlə, yeni duyğularla, yeni həvəs və amalla qədəm qoyan bu cəsur gənc niyə də ruhlanmamalı idi? Başında Daxili Qoşunların xüsusi təyinatlılarının bereti, əynində zolaqlı forması, əlində bayraq, əlində silah, yanında dostları, komandiri, əsgərləri... Özündə Vətən eşqi, qisas eşqi... Elsevər bu mühitdə ruhlanmaya bilməzdi. Hər günə yeni nəfəslə oyanıb işlərini Allahın Vətən vasitəsilə Ona verdiyi güclə görürdü.

Ata və ana bu 21 ildə oğullarının ayaq açıb yeriməyini, söz deməyini, məktəbə getməyini, hərbçi olmağını arzulayırdılar. Bunların hamısını uca Allah bu valideynlərin gözləri önündə etmişdi. Geriyə qalırdı Elsevərin toyu. Ana min bir arzu və həvəslə oğlunun yerbəyer olmasını, ailə qurmasını arzulayırdı. Elsevəri hərbi formada necə görürdüsə, bəy kostyumunda da elə görmək istəyirdi. Elsevərin bu ali ailə cəmiyyətini qurmağa yaşı nəinki çatırdı, hətta bir az gecikirdi də...

Odur ki, valideynləri, dostları, qohumları Elsevəri bu dəfə bəy kostyumunda gördü. Təqvim bu dəfə 2016-cı ili göstərirdi. Həmin il Elsevərin çal-çağırlı bir düyünü, toyu oldu. O, eldən soyluyub-boyladığı, bəyənib-sevdiyi Əfsanə Piriyeva ilə ailə həyatı qurdu. Onun toyu həmin günlərdə möhtəşəmliyinə görə dillərdə əzbər olmuşdu. Elsevər elin bəzəyi idi. Bu kənd özünü hər sahədə öz sözünü demiş Elsevərsiz təsəvvür belə etməzdi.

Elsevərdən qalan ilk yadigar körpə ərən 2017-ci ilin iyulunda dünyaya göz açdı. Körpə dünyaya uğurla gəlmişdi. Onun dünyaya gəlməsi Elsevərin uğuru idi. Elə o körpə də Əfsanənin və Elsevərin Uğuru oldu. Körpənin adını Uğur qoydular. Bu uğuru qazanan Piriyevlər ailəsinə növbəti uğur, növbəti sevinc dəryası 2 il fərqlə nəsib oldu. Ailə özünü Allahın sevdiyi qulları hesab edirdi. Sevinci ikiqat, üçqat artmışdı ailənin. Elsevər özünü xoşbəxtlərin xoşbəxti hesab edirdi. Elsevərin ikinci oğlu, noğul övladının adı Ümid oldu. Bu adda ümid var idi. Qarabağ ümidi, aranlı-dağlıqlı, otaylı-butaylı Qarabağın otaysız-butaysız olması ümidi. Qəmi sevinclə, qaranlığı aydınlıqla, qaçqınlığı sahibliklə, məğlubluğu Zəfərlə əvəz edəcək ümid... Bu ümid gerçəyə çevrilməli idi. Bəlkə də, Elsevərin oğlunun adı təsadüfən deyil, məxsusi olaraq Ümid qoyulmuşdu. Bəlkə də, Elsevər bilirdi ki, ümid gerçəyə bir an dönəcək və o an yaxında olacaq... O bilirdi, bilirdisə, deməli olacaqdı. Çünki o, əsgər idi və o anı yaxınlaşdırmaqla vəzifələndirilmişdi. Elsevər eli sevindirəcəkdi!

2020-ci ilin qisas oduyla, alovuyla canları pörşələndirib alovlandıran Tovuz döyüşləri hamını yandırdığı kimi, Elsevəri də alovun ən qızmar yerinə atmışdı. Ustad şair Bəxtiyar Vahabzadənin sözü var: "Yandı, pörşələndi həsrət könüllər, yenə bu minvalla illər ötüşdü." Düzdür, Elsevərin həsrət könlü pörşələndiyindən də artıq alovlanırdı, yanırdı. Lakin, bu minvalla illərin ötüşməyi? Əsla! Elsevər fikirləşirdi... Artıq bu şeirin əzbərini pozmağın vaxtı gəlmişdi. Real bilinən yalanı üzə çıxardıb yeni reallığı qurmağın vaxtı gəlmişdi. Bozqurd zəncirini qırmalı, aslan qəfəsindən çıxmalı idi! Bozqurd da, aslan da bir an belə qalmazdı, biz 30 il səbirlə belə qaldıq... Elsevər bunları düşünəndə elə bil alışıb yanırdı. Gündən-günə artan alov Elsevərə yerində dinclik tapmağa imkan vermirdi. El yamrdı, el ağlayırdı, el Şəhidlərinə yas saxlayırdı, el Qarabağa həsrətlə baxırdı. El sevinməli idi. El gülməli idi. El Şəhidlərinə yas saxlayıb Zəfərini bayram etməli idi. Elsevər üçün o gün sürətlə yaxınlaşırdı. Elini, vətənini sevənlərin zəfərinə doğru...

2 ay içərisində bu gün, 30 il həsrətlə gözlənilən həmin gün gəlib yaxınlaşdı, yaxınlaşdı və gəlib çatdı! O gün gəldi! 27 sentyabr 29 il adi günlər kimi gəlib-getsə də nəhayət 30-cu ildə 27 sentyabr günü tariximizə Şanlı Zəfər Günlərinin ilk günü olmaq kimi daxil oldu, bu günü, bunun sevincini yaşamaq Elsevərlərə nəsib oldu! Elsevər Piriyevə isə o Şanlı Zəfər Günlərinin memarlarından olmaq nəsib oldu! Elsevər nəhayət ki, illərlə zəhmət bahasına əldə etdiyi hərbi bacarığını göstərməsi üçün meydan açıldığına sevindi. Bu millət Poladın şəhadəti ilə, Elsevərlərlə oyandı və bir nəfər kimi torpaqlarımızın işğaldan azad edilməsi mübarizəsinə qalxdı. Və bu el Elsevərini bir kükrəmiş aslan kimi Qarabağın işğaldan azad edilməsinə bu sözlərlə göndərdi:

**Elin sevən Elsevər**

Sən Elsevərimizsən!
Şirin, şəkərimizsən,
Ocaq, həm pirimizsən,
Şirimiz, nərimizsən!

Üz boğazın yağının,
"Qarasının, ağının",
Sevindir el-obanı,
Haqqını ver adının!

Qaytar Qarabağını,
Azad et torpağını,
Qoru od-ocağını,
Ver Zəfər sorağını!

Əzablara sinə gər!
Şanlı, Qəhrəman əsgər!
Sənlədir Şanlı Zəfər!
Elin sevən Elsevər!

Elsevərə bu sözlər bəs edirdi ki, gücünə güc qatsın! Elsevərə bu sözlər bəs edirdi ki, əzablara, əziyyətlərə dözsün. Sinəsini vətəni, əsgər dostları, yoldaşları üçün poladdan sipər etsin. Qartal kimi düşmən üzərinə şığıyaraq onlara həddini bildirsin. Elsevərə bu sözlər bəs edirdi ki, bir gün bir, o biri gün iki qanlı döyüşdə almaçıq, üzüağ iştirak etsin. Ona bu sözlərdən sonra düşmənin vurduğu ən ağır yaralar belə təsir etməzdi. Bir sözlə, Elsevərə bu sözlər bəs edirdi ki, 30 il işğalda olmuş vətən torpağını, Qarabağımızı bir neçə aya deyil, bir neçə həftəyə düşməndən azad etsin!

Elsevər üşün ilk döyüşlər Murovdağda başladı. Necə ki, ən qanlı döyüşlər Murovdağda bitmişdi məğlubluğun zəfərə zəfər çaldığı, qalib gəldiyi qanlı müharibədə. Elsevər bunları çox gözəl bilirdi. Bu döyüşlərə isə əsl xüsusi təyinatlı kimi hazırlaşmışdı. Əsl Azərbaycan əsgəri, əsl Elsevər kimi! Onun üçün addım atdığı hər qarış torpaq işğaldan azad olunmuşdu. Və O, buna görə çox sevinirdi! Hər kiçik qələbə, hər alınan post onu Böyük Zəfərə aparırdı! Bu kiçik qələbələrdən, bu alınan postlardan, bu dağlardan, dərələrdən, keçilməz yerlərdən, sərhədlərdən, hədlərdən keçirdi Zəfər Yolu! Elsevər bunların hamısını xüsusi təyinatlı Elsevər kimi bilirdi. Döyüşlərdə iştirak edərkən Daxili Qoşunların kurslarında öyrəndiklərini bir daha yaddaşında təkrarlayırdı. Təlimlərdə öyrəndikləri indi çox işə yarayırdı. Ən çox işə yarayan isə Bozqurd fəndi, qisas hissi, yenilməzlik ümidi, ilk qalibiyyətlər nəticəsi ümidin və uğurun qalibiyyəti idi. Və bu Ümid və Uğur ilk böyük qələbəsini qazandı! Murovdağ azad olundu!

İlk böyük qələbənin doğurduğu sevinc Elsevərin qanadlarını təzələmişdi. İstiqamət Cəbrayıl-Füzuli istiqaməti idi, indi Simurq quşu kimi oralara uçub düşmən başına od yağdırmaq vaxtı idi... Bu yollar Murov dağından da çətin idi. Lakin Elsevərə heç nə təsir edə, onu bu müqəddəs yolundan döndərə bilməzdi. Düşmən bir an belə onun qarşısmda dayana bilməzdi, Elsevər onu qırıb-çatar, məhv edərdi.

Döyüş yoldaşlarının dediyinə görə, hücumlar zamanı Elsevər hamını ötür, döyüşçüləri qarşı tərəfin hücumundan qorumaq üçün daha da qabağa atılırdı, irəliləyirdi. Özü də nə vaxt? Yaralı olan zaman! Yaralı olan zaman xəstəxanada müalicə olunmalı olduğu halda bunu etmir, bu gənc əsgər hücumlarda hamıdan öndə gedib düşmənin darmadağın edirdi. Elsevəri Elsevər edən bu idi! Savaşın ilk gününə çatdıqdan sonra son gününə yaxın olmaq hissi, duyğusu, amalı, istəyi, arzusu idi Elsevəri Elsevər edən!

Oktyabr ayının günləri ikirəqəmli olduqca Elsevər üçün Uğurun ad günü yetişirdi. Elsevər Uğurun ad gününə qədər özünü çatdırmaq istəyirdi. Elə bil həmin günə kimi qələbə çalıb, ad gününə zəfərlə qayıtmaq üçün Elsevər tələsirdi. Oğlunun ad günündə iştirak etmək istəyirdi. Telefon zəngi ilə səsini eşitməklə kifayətlənmək istəmirdi Elsevər. İstəyirdi ki, oğlunun ad gününə böyük zəfərlə qayıtsın. Bəlkə də elə ona görə daha çox qabağa atılıb, daha çox ərazini azad etmək istəyirdi və edirdi də. Bu həvəslə yorulmaq bilmirdi, yormaq bilirdi, dincəlmək istəmirdi Elsevər.

Elsevər üçün növbəti istiqamət Hadrut oldu. Hadrut artıq Şuşa Yolu idi. Hadrut Zəfər Yolunun bir parçası idi. Elsevər Zəfər qazanacaq olan elin parçası olaraq Hadrut istiqamətində döyüşlərə başladı. Silahdaşlarına, yurddaşlarına kömək etməyi Vətənə kömək etmək bilirdi. O, bu torpaqlara ayaq basıb işğaldan azad etdikcə elə bil daxilən





vaxtı ilə həmin torpaqlardan qovulmuş həmvətənlərinə sevinclə müjdə verirdi. Və bu müjdəni gerçəkləşdirib həmin sahiblərə vermək istəyirdi. İnanırdı ki, bu müharibədən sağ çıxacaq və döyüşdüyü yerlərdən olan keçmiş qaçqınları sevindirəcək. Eli sevindirəcək bir daha Elsevər!

Lakin, 16 oktyabr günü eli sevindirmədi O. Heç kəsi sevindirmədi. Elə bil ailə də duyuq düşmüşdü nəyinsə olduğu barədə. Bu olan nə idisə, gərək olmayaydı. Bəlkə də olmalıydı və oldu da. Bu bir tale idi. Allah Elsevəri həmin gün mükafatlandırdı. Elsevər 16 oktyabr 2020-ci ildə Hadrut istiqamətində qəhrəmancasına Şəhadət Şərbətini içdi... Sözün bitdiyi yer Hadrut idi bu dəfə. Elsevər eldən qopub Allahın dərgahına gedirdi... Necə ki, bir vaxtlar o, bu dərgahdan öz elinə göndərilmişdi... Vətənə aşiq olan Aşıq Cünun yurdu Arazbar bir Şəhidini verdi o gün... Elsevər bu mükafata layiq idi və həmin gün o mükafatı aldı... Elsevər Allaha sonsuz Şükürləri ilə başlamışdı haqqın dərgahına səfərə...

Sonrakı günlər Elsevərdən xəbər alınmadı... Piriyevlər ailəsinin ruhu qəlbinə qapandı. Hamı ümidə sığındı. Ümidə... Ad günü getdikcə yaxınlaşan Ümidə... Şanlı Zəfər günü Elsevərsiz gəldi keçdi. Mahir əmi çox arzulayırdı Zəfər Günü bir Günəş onun bəxtinə doğsun, Elsevər gözlənilməz zəng etsin və Zəfər Günündən danışsın, atasını təbrik etsin... Olmadı... Ad gününə çatmaq istədiyi Ümidini də ruhuyla təbrik etdi Elsevər...

Və bir gün onun mübarək nəşi tapıldı... Elsevərin nurlu nəşi torpağa tapşırılanda bütün ekranlar Şəhidin Daxili Qoşunlardan olan yoldaşlarının paradda bozqurdtək yürüməsini göstərirdi. Onlar Zəfər Yolunda yürüdükləri kimi yürüyürdülər. Düşmənləri sürüyürdülər. Və bunun özü bir təskinlik demək idi. Elsevərin qisası alınmışdı, ermənilər 10 dekabrda Bakıda keçirilən zəfər paradını ermənilər özləri üçün utanc günü adlandırmışdılar. 8-10 noyabr günləri düşmən üçün cəhənnəm əzabı idi. Elsevər canı-qanı bahasına qazandığı Zəfəri Ümidinə hədiyyə etmişdi... Elsevər Şəhadətinin özü təskinlik idi. Həmçinin, Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ona verilən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medallar...

Elin sevdiyi, elini sevən Elsevəri el məktəblisi kimi, el əməkçisi kimi, qəhrəman əsgər kimi təsəvvür edirdilər. Bundan sonra el Elsevərini Şəhadət Zirvəsinin fatehi kimi təsəvvür edəcək...

Ruhun şad olsun, elin sevgisini qazanan, elini sevən Elsevərim!

*20.07.2021-21.07.2021*
*"Kredo" qəzeti*
*04.08.21-11.08.21*

## AZAD LAÇININ ŞAD OĞLU



*Şəhid əsgər Elnur Şahmurad oğlu Cabbarovun nurlu xatirəsinə (15.09.1994-cü il Ağcabədi-Laçın rayonu Qarakeçdi kəndi- 12.11.2020-ci il Bakı şəhəri) həsr olunur.*

Cabbarov Elnur Şahmurad oğlu 15 sentyabr 1994-cü ildə Ağcabədi rayonunda anadan olmuşdur. Əslən Laçın rayonunun Qarakeçdi kəndindəndir.

Hərbi xidmət müddəti bitdikdən sonra Elnur "N" saylı hərbi hissədə müddətdən artıq hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirir.

27 sentyabr 2020-ci ildən başlayan Vətən Müharibəsinə Elnur könüllü olaraq Xüsusi Təyinatlı Qüvvələrə qoşulduqdan sonra yollanır. Döyüşlərdən birində ağır yaralansa da, yenidən döyüş meydanına qayıdır. O, Füzulinin, Cəbrayılın, Hadrutun, Zəngilanın, Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuş, Laçın dəhlizinin işğaldan azad edilməsi də Elnur və onun tərkibində olduğu komandaya tapşırılmışdı.

Əsgər Elnur Cabbarov 5 noyabr 2020-ci ildə Şuşa döyüşlərində ağır yara almış, əvvəlcə Hadruta, oradan Bakıya aparılmışdır. O bir həftə komada olmuş, 12 noyabr 2020-ci ildə Bakıda müalicə aldığı xəstəxanada dünyasını dəyişmişdir. Ağcabədi rayonunda dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 09.12.2020-ci il tarixli Sərəncamına əsasən Elnur Cabbarov ölümündən sonra "Qarabağ" ordeni ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elnur Cabbarov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Elnur Cabbarov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.





Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Elnur Cabbarov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti cənab İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Elnur Cabbarov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Elnur Cabbarov ailəli idi. Döyüşdə olan zaman qızı dünyaya gəlmişdir. Lakin o, qızını görməmişdir.

Şəhidimizə həsr etdiyim "Azad Laçının şad oğlu" şeirini qürurla təqdim edir və Allahdan bütün Şəhidlərə rəhmət diləyirəm!

### Azad Laçının şad oğlu

Uşaqkən bir yara vuruldu sənə,
Uzun illər alnında qalan "qaçqın".
Sən ümidlənib and içdin o günə,
Ki, deyəcəksən: "Yağılar, siz qaçın!"

Azad Laçının şad oğlusan Elnur,
Ruhun sənə dedi: "Bozqurd, ayıl, dur!"
Budağısan Qarabağ ağacının,
Xarı bülbülüsən əziz Şuşanın.

Sən qurtardın öz yurdunu, elini,
Cəsur, cəngavər bir qəhrəman idin.
Erməni cəlladın murdar dilini,
Elə bil "Zülfüqar" qılıncla kəsdin.

Könüllü oldu Sənin dəli könlün,
Qanadlanıb uçdu Laçın yurdunda.
Azərbaycan, Elnur adlı cəngavər,
Olub Sənin dastanlı bir ordunda.

O Elnur ki, qəhrəmandan qəhrəman,
O Elnur ki, Bozqurd kimi bir aslan,
O Elnur ki, canıyla tarix yazan,
O Elnur ki, sonunda dastan olan.

Təlimat verildi: "Laçın dəhlizi!"
Sevincindən qartal olub uçdun sən.

Qucaqladı səni "Laçınlı" sabah,
Həsədlər apardı "qaçqın"lı dünən.

Fələk onu da öz qurbanı etdi,
Qəhrəmanın həyatı sona yetdi.
Ruhu Peyğəmbəri görməyə getdi,
Əsgər Elnur Şəhidliyə yüksəldi!

Elnur, görəmmədiyin fidan qızın,
Böyüyəndə səninlə fəxr edəcək.
"Üzün görə bilməyəcəyəmsə də,
Mənim qəhrəman atam var" deyəcək.

Elnur, sən tək olsan da bir ordusan,
Düşməninə ağır zərbə vurmusan.
Qurd oğlusan, türkümün Bozqurdusan,
Azərbaycan, qəhrəmanlar yurdusan!

Düşmənə mükafat olacaq lənət,
Sən Azərbaycan xalqına bir nemət.
Elnur, Allah eləsin Sənə rəhmət!
Azərbaycan, Elnurlarla qürurlan!

*15.06.2021*

## SƏN ŞUŞANIN FATEHİSƏN!



*Şəhid Elvin Dayandur oğlu Məmmədovun əziz xatirəsinə (05.09.1988-ci il Beyləqan rayonu Milabad qəsəbəsi-08.11.2020-ci il Şuşa şəhəri) həsr olunur.*

Şəhid çavuş Elvin Məmmədov 5 sentyabr 1988-ci ildə Beyləqan rayonunun Milabad qəsəbəsində anadan olmuşdur. Ailədə 6 uşaqdan beşincisi olan Elvin 1995-ci ildə Vilayət Cəfərov adına tam orta məktəbə daxil olmuş, 2006-cı ildə həmin məktəbdən məzun olmuşdur. 2008-ci ildə hərbi xidmətə yollanmışdır. 3-cü Ordu Korpusunda xidmət etmişdir. 2010-cu ildə müddətli xidmətini başa vurmuşdur. 2011-ci ildə könüllü olaraq ordu sıralarına yazılmışdır. "N" saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu əsgər kimi qulluq etmişdir. 2013-cü ildə xidmətini davam etdirmək üçün 3-cü Ordu Korpusuna göndərilmiş, Xocavənd ərazisində yerləşən h/h artilleriya divizionunda texniki-təminat tağım komandirinin müavini vəzifəsini icra etmişdir. Çavuş Elvin Məmmədov ictimai-siyasi və döyüş hazırlığında əldə etdiyi nailiyyətlərə görə dəfələrlə fəxri fərmanla təltif edilmişdir.





Çavuş Elvin Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmiş, Füzulinin, Qubadlının və Şuşanın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şücaət göstərmişdir. Elvin Məmmədov 8 noyabr 2020-ci ildə Şuşa azad olunan gün, Azərbaycanın Zəfər günündə 42 günlük döyüşünü sonlandırır və Şuşa torpağında qəhrəmancasına Şəhidlik Zirvəsinə yüksəlir. Elvin Məmmədov ailəli idi, 2 oğul, 1 qız övladı yadigar qaldı. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15. 12. 2020-ci il tarixli Sərəncamına əsasən Elvin Məmmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Elvin Məmmədov ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Şəhidimizə həsr etdiyim "Sən Şuşanın fatehisən!" şeirini qürurla təqdim edir və Allahdan bütün Şəhidlərimizə rəhmət diləyirəm!

**Sən Şuşanın fatehisən!**

Bu günlərə gələnədək,
Yetişdin bir cəngavərtək.
And yerində andın içən,
And yerinə çevrilənsən.

Cəbhə xəttindən baxanda,
Ümid ilə Qarabağa,
Əmr gələndə komandirdən,
Cəbhəni yaran, keçənsən.

Qartal kimi pərvaz edən,
Aslan kimi nərə çəkən,
Şuşada bir budaq əkən,
Zəfər çinarı edənsən.

Azərbaycan hünərlisən,
Azərbaycan ərənisən,

Azərbaycan Zəfərlisən,
Vətən içində Vətənsən!

Qarabağa nur yağdıran,
Düşmənə qasırğa olan,
Yağış kimi nur ələyən,
Qasırğa kimi əsənsən.

Xarı bülbülə canından
Verdin, ey Bozqurd qəhrəman.
Əziz tutub yurdu candan,
Vətəni candan sevənsən!

Təltif etdi Allah Səni,
Böyük məsuliyyət verdi.
Zəfərin sahibindənsən,
Sən Şuşanın talehisən!

Çıxıb xalqın cərgəsindən,
Sonra dastana çevrilən,
Heç vaxt izi silinməyən,
Sən Şuşanın fatehisən!

*09.07.2021*

## HAQQ İLƏ BATİLİN SAVAŞI VƏ YA QİSASIN ALINDI, ŞƏHİD!



*Şəhid Elşən Əli oğlu Məmmədovun şəhadətə qovuşması və onun qisası haqqında düşüncələr. (18.04.1982-ci il Tovuz Qazıqulu kəndi-21 sentyabr 2020-ci il Tovuz rayonunun ermənilərlə sərhəd ərazisi)*

"Bu gün saat 09:20 radələrində Tovuzda kiçik çavuş ELŞƏN MƏMMƏDOV qəhrəmancasına ŞƏHİD oldu... İnanın ki, 2016-cı ilin aprel və bu ilin iyul aylarındakı döyüşlərdən sonra bu sözləri eşitmək çətindir. Daha nə qədər uşaq atasızlıqdan ağlayacaq? Daha nə qədər atanın beli oğulsuzluqdan büküləcək? Daha nə qədər ana, bacı, yar, yoldaş boynu bükük qalacaq? Bu bizə





rəvadırmı? Deyil!!! Biz əvvəlkiləri unutmadan son 30 illik göz yaşını və dağını aradan götürmək üçün çox çalışmalıyıq! Hər bir işimizdə ŞƏHİDLƏRİMİZİN xatirəsini daim uca tutmalı, bu Haqq ilə Batilin döyüşündə Haqqın yanında olmalıyıq! Bizim Vətənimiz daha heç bir zaman ağlar qalmamalıdır! Bunu heç kəs mənliyinə sığışdıra bilməz və sığışdırmamalıdır!

Onu da deyim ki, 5 il əvvəl yenə sentyabr ayında yenə bir Elşən Məmmədov şəhadət şərbətini içmişdi! Elşənlər ölmür, onlar Haqqın dərgahında, cənnətdə əbədiyyətə qovuşurlar!

Allah bütün ŞƏHİDLƏRİMİZƏ rəhmət eləsin! AMİN! (21.09.2020. )"

Mən bu sözləri Facebookda yazan gün elə bil hissiyyatım mənə demişdi ki, QISAS GÜNÜ yaxınlaşıb. Çünki həmin vaxt ermənilər çox azğınlaşmışdı. Xaricdə yaşayan soydaşlarımız erməni vandallığına məruz qalırdı. Televiziyada bu xəbərlərə baxarkən yumruğumu bərk sıxırdım. Bunu mənliyimə sığışdıra bilmirdim.

21 sentyabr 2020-ci ildə artıq səbir kasam daşdı. Çünki yenə bir Vətən oğlunu şəhid vermişdik. Televiziya kanallarından birində deyilən söz mənə çox təsir etdi:"Elşən Məmmədov nə ilk Şəhidimizdir, nə son Şəhidimiz... "

Ona görə də bu paylaşımımı etdim. İlk dəfə idi ki, bu qədər qəzəblənmiş, qəhərlənmişdim. Daxilimdə bir hiss var idi ki, şəhid Elşən Məmmədov son atəşkəs Şəhidimiz olmalıdır. Elə də oldu. Şəhid Elşən Məmmədov bizim son atəşkəs Şəhidimiz olaraq yaddaşlara həkk olundu.

Mənim hiddətləndiyim, intiqam alovunda yandığım gün demə, Şəhid olacaq, Qazi olacaq, Fateh olacaq Vətən oğulları könüllü olaraq hərbi təlim toplantısına çağırılmış və min illərlə danışılacaq Şanlı Vətən müharibəsinə hazırlaşırlarmış. Buna vikipediyada 200-dən çox Şəhidimizə səhifə açanda çox Şəhidimizin tərcümeyi-halında rast gəlmişəm.

Mənim bu sözləri yazmağımdan 6 gün keçdi...

27 SENTYABR GƏLDİ VƏ ZƏFƏRİMİZİN VAXTI DA GƏLDİ! MİNLƏRLƏ VƏTƏN OĞLU ZƏFƏR YOLUMUZU ÇƏKDİ VƏ BU YOLDA YÜYÜRDÜ! ƏLİMİZ DƏ ŞUŞAYA ÇATDI, ÜNÜMÜZ DƏ ŞUŞAYA YETDİ! TÜRK DÜNYASI ZƏFƏR ÇALDI VƏ DÜŞMƏNƏ "DƏMİR YUMRUĞU" GÖSTƏRDİ!

Mən isə ömrümün sonuna qədər özümü və mühitimi "Haqq ilə Batilin Savaşı"na (Vətən Müharibəsinin mənim üçün ilk adı) hazırladığım günü və yazacağım Zəfər Dastanının həmin ön sözünü xatırlayacağam... Elə həmin gün də atəşkəsin son şəhidi olan Elşən Məmmədova həsr etdiyim "Qisasın alındı, Şəhid" adlı şeiri yazmışdım.

*30.01.2021*

**Qisasın alındı, Şəhid!**

*(Qisası dəfninin 7-ci günündə alınan, sentyabr ayında başlayan Tovuz döyüşlərində qəhrəmancasına şəhid olmuş Elşən Əli oğlu Məmmədovun əziz xatirəsinə...)*

Şəhadətin mübarəkdi,
Qisasın mübarək oldu.
Vətənin igid əsgəri,
Güc-qüvvətdə bir tək oldu.

Sənin qoyub getdiyin güc,
Bizləri hara apardı?
Füzuliyə, Cəbrayıla,
Sonra Şuşaya apardı.

Sən güc verdin biz gənclərə,
Səndən ilhamlandıq, Şəhid!
7 gündür ki, biz səni,
Qisasla bir andıq, Şəhid!

Anacan, dik tut başını!
Şəhid qisası alındı!
Azad olunan kəndlərdə,
Şəhid ruhu pərvazlandı.

"Bozqurd" ular o kəndlərdə,
Haraylayar o kəndlərdə,
Azərbaycan türklərini,
Hey çağırar o kəndlərdə.

Şəhidim, gül, sevin sən çox,
Düşmən gözünə batıb ox.
Ağlamayır ana, bacı,
Daha burda ağlayan yox.

7 kənd azad edilib :
Ordumuz zəfər çalandır...
Ali Baş Komandan deyib:
"Qarabağ Azərbaycandır!"

*27.09.2020*





## XOCALININ QİSASIN ALAN ƏBİL



*Şəhid Əbil Qadir oğlu Cəbizadənin nurlu xatirəsinə (26.02.1993-cü il Sumqayıt şəhəri–14.10.2020-ci il Xocavənd rayonu Zoğalbulaq kəndi) həsr olunur.*

Əbil Qadir oğlu Cəbizadə 26 fevral 1993-cü ildə Sumqayıt şəhərində dünyaya göz açmışdır. 2000-ci ildə Sumqayıt şəhərinin Corat qəsəbəsində yerləşən 7 nömrəli tam orta məktəbin birinci sinfinə daxil olub 2011-ci ildə əla qiymətlərlə məktəbi bitirən Əbil həmin ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Texnologiya və Dizayn fakültəsinə daxil olmuşdur. 2015-ci ilə qədər burada çox işlənən malların texnologiyası və dizaynı ixtisasında təhsil almışdır.

Universiteti bitirdikdən sonra Əbil Cəbizadə hərbi xidmətə yollanmış, silahla mükəmməl davranışına görə komandanlığın diqqətini cəlb etmiş, çox keçmədən baş atıcı vəzifəsinə təyin olunmuşdur. Bir əsgər olaraq Əbil Cəbizadə 2016-cı ildə baş verən Aprel döyüşlərində iştirak etmiş, döyüş tapşırıqlarını böyük uğurla yerinə yetirmişdir. Bu döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə O, dəfələrlə fəxri fərmanlarla və təşəkkürnamələrlə təltif edilmiş, 2016-cı ilin oktyabr ayında hərbi xidmətini başa vurmuşdur.

Əbil Cəbizadə 2020-ci ilin 21 sentyabrında "Hərbi vəzifə və hərbi xidmət haqqında" və "Səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq təlim və məşq toplantısına çağırılmışdır.

2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərimizin azad edilməsi üçün başlanan Vətən müharibəsinə Əbil Cəbizadə könüllü qatılmış, Cəbrayılın və Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə mərdlik və qəhrəmanlıqla vuruşmuş, Xudafərin körpüsünün azad olunmasında böyük şücaət göstərmişdir. Ailəsi ilə sonuncu dəfə 12 oktyabrda əlaqə saxlayan Əbil Cəbizadə 14 oktyabr 2020-ci ildə Xocavənd rayonunun Zoğalbulaq kəndi istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Şəhadətindən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Şəhidimizə həsr etdiyim "Xocalının qisasın alan Əbil" şeirini qürurla təqdim edir və Allahdan bütün Şəhidlərimizə rəhmət diləyirəm.

**Xocalının qisasın alan Əbil**

Qaçqın oldu mühitin uşaqlıqdan,
Torpaq həsrəti gəlirdi hər yandan.
Sən idin onların dərdin anlayan,
Ümidsiz hallarına yanan, Əbil.

Sumqayıtda yaşayan hər qaçqının,
Ümidin artırmaq üçün yaşadın.
O qayıdış gününü arzuladın,
Qarabağı əməldə anan Əbil.

Sevincindi Şanlı Aprel günləri,
Cəngavərtək sipər etdin sinəni.
Şücaətlə bitirdin döyüşləri,
Əzəldən misilsiz qəhrəman Əbil.

Döyüş bitdi, günlər gəldi, ay keçdi,
Yenə verildi yurdun Şəhidləri.
Cilovlaya bilirdin hisslərini,
Allahdan o səbri qazanan Əbil.

Dedin: "Artıq qisas alınmalıdır,
Azğın düşmən dərsini almalıdır.
Ulu Qarabağ azad olmalıdır"
General şəhid olan zaman, Əbil.

Səfərbər oldun Qarabağ uğrunda,
Könüllü yürüdün Zəfər yolunda.
Kəlam oldun Azərbaycan qolunda,
Dədə Qorqudtək qədim dastan Əbil.

Xudafərində şücaət göstərdin,
Ayrılmış iki qardaşı bir etdin.
Düşmənləri vurdun, arzuna yetdin,
Arzun üçün verdin canın, can Əbil.

Ürəyində Xarı bülbül bitirdin,
Məğrur, gözəl gülü gördün, fəxr etdin.
Kəlimeyi-şəhadətini gətirdin,
Cəsur kimi şəhid olan an, Əbil.





Yazmısan qəhrəmanlıq tarixini,
Qazanmısan Qarabağ Zəfərini.
Göstərdin layiqincə hünərini,
Sənlə fəxr edir Azərbaycan, Əbil.

Baş əyirəm ulu ruhun önündə,
Baş əyirəm Şanlı Zəfər Günündə.
Doğulub Xocalı ildönümündə,
Xocalının qisasın alan Əbil.

04.07.2021

## ARZULARI GERÇƏK EDƏN ŞƏHİDİM



*Şəhid kapitan Fizuli Vidadi oğlu Əliyevin əziz xatirəsinə (27.01.1985-ci il Bakı şəhəri – 08.10.2020-ci il Tərtər rayonu Suqovuşan qəsəbəsi) həsr olunur.*

Fizuli Əliyev 27 yanvar 1985-ci ildə Bakı şəhərində dünyaya göz açmışdır. Orta məktəbin səkkizinci sinfini bitirən Fizuli sonra öz arzusu ilə Cəmşid Naxçıvanski adına hərbi liseyə daxil olmuş, 2003-2007-ci illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirmişdir. Ali hərbi təhsilini başa vurduqdan sonra Fizuli leytenant rütbəsi ilə hərbi fəaliyyətinə başlamışdır. Uzun müddət Murov dağında xidmət etmiş, "N" saylı hərbi hissənin "Həmlə" Taborunun Qərargah rəisi olaraq xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun kapitanı olan Fizuli Əliyev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Fizuli Əliyev 8 oktyabr 2020-ci ildə Suqovuşan istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. II Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən kapitan Fizuli Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarının

rəhbəri olan, düşmənin canlı qüvvəsinin məhv edilməsində rəşadət göstərən, vəzifə borcunu ləqayətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Fizuli Əliyev ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamma əsasən Fizuli Əliyev ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Şəhidimizin əziz xatirəsinə həsr etdiyim "Arzuları gerçək edən şəhidim" şeirini oxucuların diqqətinə çatdırmaqla Allahdan bütün Şəhidlərimizə rəhmət diləyirəm!

**Arzuları gerçək edən şəhidim**

Tarixə adın yazaraq yurdumda,
Oldun bu gün, sabah, dünən şəhidim.
Zabit izin qoydun şanlı ordumda,
Zabitliyi şərəf bilən Şəhidim.

Qisas alovuyla alışan, yanan,
Düşmənləri zəkasıyla aldadan,
Dosta gülər üzlə, gözəl davranan,
Düşmənlə döyüşdə gülən şəhidim.

Bir əlində silah, birində bayraq,
Sayəndə azaddır ulu Qarabağ!
Talışda Qələbəni bağıraraq,
Zəfər bayrağını hörən şəhidim.

Düşmən namərd gülləsini vuranda,
Sənin coşqun könlün anlıq duranda,
Şəhidliyin anı gəlib-çatanda,
İmam Hüseyn üzün görən şəhidim.

30 il Şuşada qalan düşmənin,
Adı, həm tarixi yalan düşmənin,
Bizləri yandıran, yaxan düşmənin,
Canın alıb, qanın tökən şəhidim.

Uca tutdun yurdun ulduz, ayını,
Yaxşı verirdin düşmənin "payı"nı,
Yağıların haqsızlıq sarayını,
Qələbə eşqiylə sökən şəhidim.





Fəxr edir Səninlə Bayraq Şəhidim,
Azad etdiyin Qarabağ, Şəhidim.
Bu yurdda nər, igid, qoçaq Şəhidim,
Fəxr edir Səninlə Vətən, şəhidim!

Vətən səmasında ruhun da şaddır,
Ruhun bilir ki, Qarabağ azaddır.
Adın qəlblərdə yaşayan bir addır,
Yaşayırsan, ölməmisən, şəhidim!

Şəhadətin şirin şərbətin içib,
Qəhrəmanlıqla düşməni məhv edib,
Özüyçün qurduğu arzudan keçib,
Arzuları gerçək edən şəhidim!

*26.06.2021*

## ZƏFƏR İNANANINDIR!

*Ata tərəfdən Misirdən, ana tərəfdən Ağdamdan olan, nə Misiri, nə də Ağdamı doyunca görə bilməyən, öz yurdunda qaçqın qalan, ancaq sonunda intiqamını alan, şəhid Xalid Mahmud oğlu Hassanın əziz xatirəsinə... (26.10.1995-ci il Sumqayıt şəhəri - 04.11.2020-ci il Ağdərə) həsr olunur.*



Xalid Mahmud oğlu Hassan 26 oktyabr 1995-ci ildə Sumqayıt şəhərində anadan olmuşdur. Atası misirli, anası Ağdam rayonunun Saybalı kəndindəndir. Xalid 6 aylıq olarkən ailəsi ilə birlikdə Qazaxıstana köçmüşdür. Orta məktəbdə oxumaq yaşına çatanda valideynləri ilə birlikdə Azərbaycana qayıtmış və Bərdə rayonu ərazisində köçkünlərin məskunlaşdığı çadır şəhərciyində yerləşən 2 nömrəli Ağdam məktəbinin birinci sinfinə daxil olmuşdur. Valideynlərinin tez-tez yaşayış yerini dəyişməsi ilə əlaqədar Xalid 10-cu sinfi Qazaxıstanda, 11-ci sinfi Azərbaycanda bitirmişdir. O, 2014-cü ilin aprelində hərbi xidmətə yollanmış, Tovuz rayonu ərazisində yerləşən "N" saylı hərbi hissədə qulluq etmiş, hərbi xidmət müddətini başa vurduqdan sonra mülki həyatda fəaliyyət göstərmişdir.

2020-ci ilin iyul ayında başlayan Tovuz döyüşlərindən sonra Xalid də səfərbər olunmaq üçün iki dəfə Ağdam rayon hərbi komissarlığına müraciət etmiş, lakin onun müraciəti müsbət həllini tapmamışdır. O, Vətən Müharibəsi başlayandan sonra, 8 oktyabr

2020-ci ildə nəhayət istəyinə çatmış və həmin gündən döyüşlərdə iştirak etməyə başlamışdır. Xalid Ağdərə, Talış və Suqovuşan uğrunda gedən döyüşlərdə şücaətlə vuruşmuş, 4 noyabr 2020-ci ildə Kəlbəcər-Şuşa yolunun Ağdərə sahəsində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Şəhid Xalid Hassan ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Şəhidimizin uca ruhuna həsr etdiyim "Zəfər inananındır!" şeirini böyük qürurla təqdim edir və Allahdan bütün Şəhidlərə rəhmət diləyirəm!

**Zəfər inananındır!**

Yurdunda qaçqın olmaq
Acısını yaşadın.
Saybalını ruhunda,
Yaşatmaqdan doymadın.

Çox yerləri sən gəzdin,
Ayrılığı çox sezdin.
Vətənin üçün dözdün,
Yurdunu unutmadın.

Vətəninə qayıtdın,
Məktəbini bitirdin.
Bundan sonra sonacan
Vətəndə xidmət etdin.

İllər boyu gözlədin,
Qisas anın izlədin.
O an heç tez gəlmədi,
O dan tez sökülmədi.

Tərxis olunanda da,
Əsgərliyi düşündün.
Yenə həmin fikirlə,
Sən öz evinə döndün.

Ailəni də qurdun,
Göyçək bir qızın oldu.
Bir həyat eşqin oldu,
Parlaq ulduzun oldu.

Sən qəlbinə "Döz!" dedin,
Öz vaxtını gözlədin.





Bəzən Sən çox tələsdin,
Ana yurdu özlədin.

Komandan əmr versəydi,
Yenə əsgər getsəydin...
Ömürlük şad olardın,
Yurdu azad etsəydin.

Vaxt, zaman daralırdı,
Ömürdən gün alırdı.
Yarım qalmış sevinclər,
Heç bitməyən həsrətlər.

2020-də
Qisas yenə doğuldu.
Ölkədə gündəm oldu,
Hamı yasa boğuldu.

"Bir General Tovuzda,
Şəhid oldu" dedilər...
"Qisas sarayın külü,
Tez sovruldu" dedilər...

Sən buna heç dözmədin,
"Qisas vaxtıdır" dedin.
Axı, Sən də Tovuzda,
Xidmətini etmişdin.

Atadan ərəb idin,
Nə olsun misirliydin.
Bu Vətənin çörəyin,
Uzun illər yemişdin.

İtirmədin çörəyi,
Unutmadın deməyi:
"Ana Vətən çağırır,
Fəxr bilirəm getməyi."

İki dəfə Ağdamda,
Getdin, səfərbər oldun.
Yenə də xəyalında,
Könüllü əsgər oldun...

Səni çağırmadılar,
Bir neçə gün, neçə ay...
Gizləndi gözəl Günəş,
Qaranlıqlar doğdu Ay.

Sentyabr ayında Sən,
Yenə səfərbər oldun.
Axır ki, Qarabağda,
Sən yenidən doğuldun!

O gündən Vətənimiz,
Zəfərlər qarşıladı...
Ucaldı "Vətən" adı,
Ucaldı "Zəfər" adı...

Səni düşündürürdü
Hər an, hər gün Saybalı.
Onu azad eyləmək,
Bir millətin amalı.

Sən döyüşlərdə neçə
Qəhrəmanlıq göstərdin.
Vətəninə: "Biz Sənin
Keşiyində hər zaman,
Dayanarıq" – Sən dedin.

Sən göstərdin düşmənə
Millətin yumruğunu.
Sən göstərdin zillətə,
Millət ululuğunu.

Düşmənlərə amansız,
Məhv edirdin çox qansız.
Qarabağ ki, olmazdı
Bütöv Azərbaycansız!

Noyabrın əvvəlində
Zəfərə hazırlaşdın.
Coşğun bir dəniz kimi
Zəfərçün doldun, daşdın.

Xarıbülbülün Səni,
Hər zaman gözləyirdi.





Çox səbrsizlənirdi,
O an artıq gəlirdi.

O 4 Noyabr gəlirdi,
Ərən düşmən biçirdi.
Şəhadət gözləyirdi,
Ərənlərdən birini.

Sən böyük yola çıxdın,
Kəlbəcərdən başladın.
Yurdun hər qarışına,
Salamını yolladın.

Uzun yollardan sonra
Doğma Şuşaya çatdın.
Yurdun azad sevincin,
Zəfərimizə qatdın.

O an namərd gülləsi
Qəlbini hədəf aldı.
Ərənim Xalid Hassan,
Şəhadətə ucaldı...

Həmin gün Sən çəkmişdin
Bir Şəhadət yolunu.
Zəfərlər bəzəyirdi
Bu yolun sağ-solunu.

Başladı Kəlbəcərdən,
Bozqurddan, şirdən, nərdən.
Son dərgah oldu Şuşa,
Zəfərim, hər an yaşa!

Vətənə qurban olmaq,
Buydu Sənin adətin.
Zəfər çalınan yerdən,
Başladı Şəhadətin.

Nə olsun ki görmədin,
Ruhunla Sən eşitdin.
Azad oldu Vətənin,
Üzü ağ, açıq alın,

Sənin doğma Saybalın.
Şəhid oldun uğrunda,
Vətənin, Xalid Hassan!
Bunu dedin son anda:
"Var olacaq hər zaman,
Vətənim – Azərbaycan!"

*20.02.2021*

## BÖYÜK HÜNƏR, CAVAN ŞƏHİD



*Şəhid İsmayıl Yaşar oğlu Qurbanovun xatirəsinə (06.03.2001-ci il Qəbələ rayonu Böyük Pirəli kəndi-27.09.2020-ci il Füzuli-Cəbrayıl) həsr olunur.*

Qurbanov İsmayıl Yaşar oğlu 6 mart 2001-ci ildə Qəbələ rayonunun Böyük Pirəli kəndində anadan olmuşdur. O, orta təhsilini Böyük Pirəli kənd orta məktəbində başa vurduqdan sonra Qəbələ Peşə məktəbinə daxil olmuş, 2019-cu ilin iyul ayında həqiqi hərbi xidmətə yollanmışdır.

Azərbaycan Ordusunun əsgəri olan İsmayıl Qurbanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsinin əvvəlindən Füzulinin azadlığı uğrunda gedən döyüşlərə qoşulub. İsmayıl Qurbanov elə müharibənin ilk günündə, 27 sentyabr 2020-ci ildə Füzuli və Cəbrayıl istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub. 28 sentyabr 2020-ci ildə Qəbələ rayonunun Soltannuxa kəndində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən İsmayıl Qurbanov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Eyni zamanda Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən İsmayıl Qurbanov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Həmçinin Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən İsmayıl Qurbanov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.





Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən İsmayıl Qurbanov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilmişdir. (mənbə: memorial. az)

Şəhidimizə həsr olunmuş "Böyük hünər, cavan şəhid" şeirini qürurla təqdim edir və Allahdan bütün Şəhidlərimizə rəhmət diləyirəm!

**Böyük hünər, cavan şəhid**

Ürəklərdə bir dastan var:
Böyük hünər, cavan Şəhid.
Sevindik də dastan yazar,
Qoy dinləsin neçə igid.

Getdi 19 yaşında,
Dərd-qəm yox idi başında,
Şəhid oldu Qarabağda,
Ana Vətən savaşında.

Yaraşıqlı bir gənc idi,
Səliqəliydi saçları.
Hələ körpəcə canıyla,
Qoruyurdu insanları.

Qoruyurdu bu milləti,
Qazanırdı o hörməti.
Bitməyibdir hələ onun,
Bu dastanı, rəvayəti.

Adı el ilə bir idi,
Qəhrəman İsmayıl idi.
Əlində bayraq tuturdu,
O, düşmənlə vuruşurdu.

Cavan canına atıldı,
Bir gün namərdin gülləsi.
Heyif ki, birdən kəsildi,
Onun haqq bağıran səsi.

Tez yetişdi Şəhadəti,
Şəhadət onun neməti,
Şəhidlik onun qisməti,
Bitdi onun hərəkəti.

Solmuşdu o gənc çöhrəsi,
Gəlmirdi onun nəfəsi,
Artıq o bir Şəhid idi!
Zirvələrə yüksəlmişdi!

Sönsə də yenə bir ocaq,
Qarabağda o yanacaq!
Ölməyib şəhid İsmayıl,
Şuşamızda yaşayacaq!

Ölümüylə dastan yazdı,
Daim dastan oxunacaq.
Ruhu vətən səmasında,
Qarabağda yaşayacaq!

*22.06.2021*

## ŞUŞANIN MƏRD İSMAYILI



*Şəhid İsmayıl Elmar oğlu Mustafayevin nurlu xatirəsinə böyük ehtiramla (22.09.1996-cı il Gəncə şəhəri-08.11.2020-ci il Xankəndi)*

İsmayıl Mustafayev 22 sentyabr 1996-cı ildə Gəncə şəhərində anadan olmuşdur. 2012-ci ildə Gəncə şəhəri 43 nömrəli tam orta məktəbin 9-cu sinfini bitirmişdir. 2012-2015-ci illərdə Gəncə şəhəri 2 nömrəli Peşə liseyində (indiki Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində) təhsil almışdır.

İsmayıl Mustafayev 2015-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə şəhəri Kəpəz rayon şöbəsindən həqiqi hərbi xidmətə çağırılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

27 sentyabr 2020-ci il tarixdə Vətən müharibəsi-





nin başlaması ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə qismən səfərbərlik elan etməsi haqqında 28 sentyabr 2020-ci il tarixli Sərəncamına uyğun olaraq İsmayıl Mustafayev yenidən hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan İsmayıl Mustafayev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərzilərimizin işğaldan azad edilməsi üçün başlanan Vətən müharibəsində snayper olaraq iştirak etmişdir. Füzulinin, Cəbrayılın və Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə mərdliklə vuruşmuşdur. İsmayıl Mustafayev 8 noyabr 2020-ci ildə Şuşa döyüşləri gedişində Xankəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuş, 17 noyabr 2020-ci ildə Gəncə Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən İsmayıl Mustafayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Bundan əlavə ərazilərimizin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən İsmayıl Mustafayev ölümündən sonra "Cəsur döyüşçü" medalı ilə təltif edilmişdir.

Həmçinin Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən İsmayıl Mustafayev ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Şəhidimizə həsr etdiyim "Şuşanın mərd İsmayılı" adlı şeirini böyük qürurla təqdim edir və Allahdan bütün Şəhidlərə rəhmət diləyirəm!

**Şuşanın mərd İsmayılı**

Bu Vətənin, bu millətin,
Düşmənə dərd İsmayılı.
Kökünü kəsdi zillətin,
Şuşanın mərd İsmayılı.

Çox cəsur, kəskin nişançı,
Kabusu oldu düşmənin.
Qəhrəmanlıq simvoludur,
Yeni gələn hər ərənin.

Şuşamızın dağlarını
Düşmənlərdən təmizlədi.

Onları qovdu yurdumdan,
İzlədikcə hey izlədi.

Nizaminin nəvəsisən,
Xətainin yadigarı.
Toplamısan, bir etmisən,
Bir millətdən olanları.

Şuşa qartalı olmusan,
Qəhrəmanlıq simvolusan.
Sanma çiçəktək solmusan,
Yurdun əbədiyaşarı.

Qəhrəmanısan bugünki,
Yurd dadına yetənimin.
Sənlə fəxr edirəm, çünki,
Şəhidisən Vətənimin.

*17.07.2021*

## NƏR DURUŞLU İGİDİM



*Şəhid İsrayıl Namiq oğlu Cəfərzadənin əziz xatirəsinə (30.09.2000-ci il Bakı şəhəri- 16.10.2020-ci il Tərtər rayonu Suqovuşan qəsəbəsi)*

İsrayıl Namiq oğlu Cəfərzadə 30 sentyabr 2000-ci ildə Bakı şəhəri Sabunçu rayonunda anadan olmuşdur. Əslən Ağsu rayonundan idi. O, 2007-ci ildə Akif Qambayzadə adına Bakı şəhəri Sabunçu rayonu 148 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olmuş, 2016-cı ildə məktəbin 9-cu sinfini bitirdikdən sonra Bakı Dövlət Peşə Təhsili Mərkəzində texnoloji qurğuların operatorluğu ixtisası üzrə təhsil almışdır. İsrayıl Cəfərzadə həm də sərbəst güləş idman növü ilə də məşğul olmuşdur. Rayonlararası keçirilən yarışlarda 1-ci, 2-ci və 3-cü yerləri tutaraq, müxtəlif diplomlar və medallarla təltif olunmuşdur. O, təhsilini bitirdikdən sonra 2019-cu ilin 2 iyul tarixində hərbi xidmətə yollanmışdır. Hərbi xidmət zamanı da fəallığına görə müxtəlif fəxri fərmanlar və təşəkkürnamələrlə təltif olunan İsrayıl 2020-ci ilin 28 may tarixində çavuş rütbəsi almışdır. Azərbaycan Ordusunun əsgəri olan İsrayıl Cəfərzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın





ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla döyüşmüşdür. O, 16 oktyabr 2020-ci ildə Tərtər rayonunun Suqovuşan qəsəbəsi istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuş, Bakı şəhəri Bakıxanov qəsəbəsində yerləşən Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən İsrayıl Cəfərzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Şəhidimizin nər duruşundan ilhamlanıb yazdığım, Şəhidimizə həsr etdiyim "Nər duruşlu igidim" şeirini qürurla təqdim edir və Allahdan bütün Şəhidlərimizə rəhmət diləyirəm!

**Nər duruşlu igidim**

Çəkərək Zəfər yolun,
Döyüşlərdə ucalan,
Qarabağ – azad yurdun,
Qüdrətindən güc alan
Şəhidimizsən bizim,
Nər duruşlu igidim.

Qürurlandı ana yurd,
Fəxr etdi Azərbaycan.
Zirvəyə yüksələndə,
Sənin kimi Qəhrəman.
Qürurumuzsan bizim,
Nər duruşlu igidim.

Gözəl ana Vətəndə,
Sənin adın gələndə,
Yenə də Səni anar,
Yenə yaxılar, yanar.
Kağız-qələmim, izim,
Nər duruşlu igidim.

Yadımda qalacaqsan,
Əzbərim olacaqsan.
Yenə yuxularımda,
Cəbhəni yaracaqsan.
Sən olacaqsan fikrim,
Nər duruşlu igidim.

Cənnətdə dostlarınla,
Danışırsan ailəndən?
İsrayıl, qardaş, bil ki,
Darıxacağıq Səndən.
Həm arzum, həm ümidim,
Nər duruşlu igidim.

Odu oldun ocağın,
Zirvəsi oldun dağın,
Meyvəsi oldun bağın,
Sən ulu Qarabağım!
Od - ocağımda közüm,
Nər duruşlu igidim.

Cəngdən-cəngə yürüdün,
Düşmənləri sürüdün.
Qara rəngə boyadın,
Terrorçuların günün.
Döyüşçüm, mücahidim,
Nər duruşlu igidim.

Ölməzsən, yaşayansan,
Şuşa üçün yanansan.
Şəhid olduğun yerdə,
Özün Suqovuşansan.
Qəhrəmanım, Şəhidim,
Nər duruşlu igidim!

*21.06.2021*

## VƏTƏNİNƏBƏDİ QƏHRƏMANISAN...



*Vətən müharibəsi şəhidi İlqar Mayılxanlının əziz xatirəsinə həsr edirəm (24 iyul 1998-ci il Beyləqan rayonu, Milabad qəsəbəsi - 27 sentyabr 2020-ci il Füzuli rayonu)*

İlqar Mayılxanlı 24 iyul 1998-ci ildə Beyləqan rayonunun Milabad qəsəbəsində dünyaya göz açmışdır. O, 2004-2015-ci illərdə şəhid Vilayət Cəfərov adına Beyləqan rayon Milabad qəsəbə tam orta məktəbində orta təhsilini almışdır. Orta məktəbi bitirdikdən sonra 5 oktyabr 2016-cı ildə hərbi xidmətə yollanıb 2018-ci ilin 12 aprelində hərbi xidmətini başa vuraraq ordudan





tərxis olunan İlqar həmin ilin oktyabr ayında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq yenidən hərbi xidmətini davam etdirmişdir. Hərbi xidmətinə piyadanın döyüş maşınında tuşlayıcı vəzifəsi ilə başlamışdır.

Əsgər İlqar Mayılxanlı 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərimizin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmiş, Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərmişdir. İlqar müharibənin ilk günü qarşı tərəfin çoxsaylı hərbi texnikasını, silah-sursatını, canlı qüvvəsini məhv etmişdir. Qanlı, bir o qədər də şanlı döyüşlərin gedişatında İlqarın tuşlayıcı vəzifəsini icra etdiyi PDM düşmən tərəfindən hədəfə alınır. İlqar Mayılxanlı bizi Qələbələrə aparan 27 sentyabr günü yaralı döyüş yoldaşlarını xilas edərkən qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlir. Şəhidliyindən sonra cənab Prezident İlham Əliyevin sərəncamına əsasən "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

İgid şəhidimizə həsr etdiyim "Vətənin əbədi qəhrəmanısan" şeirini təqdim edir və Allahdan bütün Şəhidlərimizə rəhmət diləyirəm:

**Vətənin əbədi qəhrəmanısan...**

Ölməmisən, ruhən varsan, canlısan,
Sən Qəhrəman İlqar Mayılxanlısan!
Sən Qarabağın Azərbaycanısan,
Vətənin əbədi qəhrəmanısan!

Qarabağa hey baxardı Beyləqan,
Baxardı səssiz-səmirsiz, uzaqdan...
Həsrətin tez sona yetməsi üçün,
Torpaqları azad etdin, verdin can.

Qarabağa yenə baxır Beyləqan,
Qarabağa daha baxmır uzaqdan.
Sənin kimi igidlər sayəsində,
Artıq Qarabağlıdır Azərbaycan!

Son tökülən qanının izi qaldı,
Ailənin sağalmazdı yarası.
Lakin, sənin dastanından güc aldı,
Qürurlandı, olmadı ağlayası.

Müharibənin qəhrəmanı İlqar,
Yağı düşmən başına yağdırar qar.
Fəxr edir, qürurlanır Azərbaycan,
Onun İlqar adlı qəhrəmanı var.

Olməmisən, sən əbədiyaşarsan,
Ürəklərdə, qəlblərdə daim varsan.
Sən Qəhraman İlqar Mayılxanlısan!
Vətənin əbədi qəhrəmanısan!

*29.03.2021*

## ŞƏHADƏTİN OLDU



*Zəfər Günündən 30 il əvvəl həmin gündə dünyaya göz açan şəhid kapitan Kənan Faiq oğlu İsrafilovun nurlu xatirəsinə ithaf olunur... (08.11.1990-cı il Şəki rayonu Şirinbulaq kəndi - 05.10.2020-ci il Tərtər rayonu Suqovuşan qəsəbəsi)*

Kənan İsrafilov 8 noyabr 1990-cı ildə Şəki rayonunun Şirinbulaq kəndində dünyaya göz açmışdır. Cəmşid Naxçıvanski adına hərbi liseydən məzun olan Kənan 2008-2012-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirmişdir. 2013-2018-ci illərdə Murovdağda komandir vəzifəsini icra etmişdir. Sonra isə 2018-ci ildən qərargah rəisi kimi fəaliyyətini davam etdirmişdir. 2018-ci ildə Müdafiə Nazirliyinin Hərbi Akademiyasında təhsilini davam etdirən Kənan 2020-ci ilin iyun ayından Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində tabor komandiri kimi fəaliyyətini davam etdirmişdir.

27 sentyabr 2020-ci ildən başlayan Vətən Müharibəsində kapitan Kənan İsrafilov tabor komandiri olaraq iştirak etmişdir. Füzulinin, Cəbrayılın və Suqovuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirən kapitan Kənan İsrafilov 5 oktyabr 2020-ci ildə Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Şəhidimizə həsr etdiyim "Şəhadətin oldu" şeirini böyük qürurla təqdim edir və bütün Şəhidlərimizə Allahdan rəhmət diləyirəm.

**Şəhadətin oldu...**

Qarabağda düşmənin,
Uzun bir həsrət oldu.
Şəhidliyə yüksəldin,
Sözün "Şəhadət" oldu...

Səmalara yüksəldin,
Artdı əbədiliyin.
Elə bil ki, mənliyin,
Özün Şəhadət oldu..





Torpaq altda uyudun,
Göydə cövl etdi ruhun.
Qisas alovun, odun,
Közün Şəhadət oldu...

Düşmənə qurdun oyun,
Zəfər dastanlı boyun.
"Qisas" alovlu yolun,
İzin Şəhadət oldu...

Torpağa tapşırıldın,
Torpaqla salamlaşdın.
Səni yola salmağa,
Addımlar mətin oldu...

Ruhun olsun həm rahat,
Düşmən olmadı heç şad.
Qarabağ oldu azad,
Sənin niyyətin oldu!

Həsrətə bir son qoyan,
Cavan yaşından doyan,
Qarabağı qaytaran,
O Şəhadətin oldu!

*13.02.2021*

## DASTANINA QURBAN OLUM, ŞƏHİDİM!



*Şəhid Mirmuraz Mirbaba oğlu Cəfərovun nurlu xatirəsinə (26.05.1997-ci il Gəncə şəhəri -26.10.2020-ci il Qubadlı rayonu)*

Mirmuraz Mirbaba oğlu Cəfərov 26 may 1997-ci ildə Gəncə şəhərində anadan olmuşdur. O, 2003-2011-ci illərdə Gəncə şəhəri, C. Cabbarlı adına 6 saylı tam orta məktəbdə təhsil almışdır. Mirmuraz Cəfərov 2015-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə şəhəri, Nizami rayon şöbəsindən həqiqi hərbi xidmətə çağırılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir. Mirmuraz Cəfərov 2020-ci ilin sentyabr ayında Azərbaycan Ordusunda keçi-

rilən hərbi təlim toplantılarına çağırılmış, təlimlərdə iştirak etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Mirmuraz Cəfərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərimizin işğaldan azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Füzulinin, Qubadlının və Zəngilanın azad edilməsi uğrunda gedən döyüşlərdə mərdliklə vuruşmuşdur. Mirmuraz Cəfərov 26 oktyabr 2020-ci ildə Qubadlı rayonu istiqamətində gedən döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. 27 oktyabr 2020-ci ildə Gəncə Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Mirmuraz Cəfərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Eyni zamanda döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyi, sona qədər döyüşdüyü və tapşırıqların yerinə yetirilməsində fərqləndiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 18.12.2020-ci il tarixli sərəncamına əsasən Mirmuraz Cəfərov ölümündən sonra "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilmişdir.

Həmçinin Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Mirmuraz Cəfərov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi. Şəhidimizə həsr etdiyim "Dastanına qurban olum, Şəhidim" şeirini qürurla təqdim edir və Allahdan bütün Şəhidlərimizə rəhmət diləyirəm!

**Dastanına qurban olum, Şəhidim!**

Mənə dolu həyatın yarım qaldı,
Kəpəz dağlarını çən, duman aldı,
Şəhidliyin Zirvəsinə ucaldı,
O canına qurban olum, Şəhidim!

Canından olsan da bu gənc yaşında,
Heç ruhdan düşmədin sən savaşında.
Qanın qaldı torpaqlarda, daşlarda,
O qanına qurban olum, Şəhidim!

"Mir" adını üstün tutdun hər zaman,
Layiq bildi Səni yurd – Azərbaycan,
Ruhundur kəlmeyi-şəhadət, azan,
Azanına qurban olum, Şəhidim!

Sən yaddaştək həkk olunmusan məndə,
Sənə heyran oldum mən bu vətəndə.





Bitməz o sözlər nəğməli sinəndə,
Ozanına qurban olum, Şəhidim!

Vətən üçün şamtək əriyən, yanan,
Şəhid oldun, yaddan çıxmazsan bir an.
Taleyini nə gözəl yazıb yazan,
Yazanına qurban olum, Şəhidim!

Namərd düşmən alanda səni nişan,
"Uf" demədən Vətən üçün verdin can.
Xarı bülbülümü sevib sulayan,
Al qanına qurban olum, Şəhidim!

Sən vermədin düşmənə heç vaxt aman,
Hayqırışın duyuldu Qubadlıdan.
Yazdın orada Şəhadətli dastan,
Dastanına qurban olum, Şəhidim!

*29.06.2021*

## DAİM QƏHRƏMANSAN, NAİM



*Şəhid əsgər Naim Süleynman oğlu Ağayevin nurlu xatirəsinə həsr olunmuşdur. (29.08.1998-ci il Rusiya Federasiyasının Saratov vilayəti - 30.10.2020-ci il Füzuli rayonu)*

Naim Süleyman oğlu Ağayev 29 avqust 1998-ci ildə Rusiya Federasiyasının Saratov vilayətində dünyaya göz açmışdır. Əslən Ağcabədi rayonunun Muğanlı kəndindən idi. 2004-cü ildə Azərbaycana köçən Naim elə həmin il Ağcabədi rayonu Sarvan Quliyev adına Muğanlı kənd tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. Naim 2015-ci ildə orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanır. 2018-ci ilə qədər etdiyi hərbi xidmət müddətində təlimlərdə iştirak etmişdir.

Ordudan tərxis olunandan sonra O, MAHHXHQ olur. 2020-ci ilin 7 iyununda yenidən ordu sıralarına çağırılır.

27 sentyabr 2020-ci ildə Vətən Müharibəsi başlayır. Əsgər Naim Ağayev də döyüş yoldaşları, silahdaşları ilə birlikdə mühüm hərbi əməliyyatlarda iştirak edir və döyüş tapşırığını böyük müvəffəqiyyətlə yerinə yetirir. 30 oktyabr 2020-ci ildə MAHHXHQ Əsgər

Naim Ağayev Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına Şəhid olur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Naim Ağayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir. Eyni zamanda Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən əsgər Naim Ağayev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Şəhidimizə həsr etdiyim "Daim qəhrəmansan, Naim" şeirini qürurla təqdim edir və Allahdan bütün Şəhidlərimizə rəhmət diləyirəm!

**Daim qəhrəmansan, Naim**

Ananın doğum gününə,
Şəhadət hədiyyə etdin.
Davam etdin doğru yönə,
Axırda arzuna yetdin.

Qatil oldu fələk, zaman,
Gənc yaşında Sən verdin can.
Oldun nəğmə, oldun dastan,
Bir uzun ömürtək getdin.

Özün boyda dərd qaldırdın,
Naim Süleymanoğlutək.
Düşmən zəncirini qırdın,
Dəmir yumruq, dəmir bilək.

Budur arzu, budur dilək,
Barəndə dastan yazılsın.
Ruhun önündə baş əyək,
Adın hər zaman anılsın.

İgidim, o nurlu adın,
Qəlblərdə yaşayır daim,
Oldun əsgər, oldun zaim[1]*,
Daim qəhrəmansan, Naim.

*15.06.2021*

1. *Zaim - ərəb sözü olub, öndər deməkdir*





## ORXAN, İGİDXAN, ƏRXAN



*Şəhid Orxan Allahverdi oğlu Yusubovun nurlu xatirəsinə həsr olunub. (19.01.1992-ci il Gəncə şəhəri - 27.09.2020-ci il Murovdağ yüksəkliyi)*

Orxan Allahverdi oğlu Yusubov 1992-ci il yanvarın 19-da Gəncə şəhərində anadan olmuşdur. Vətənimizin dar günündə gənc yaşını, ailə həyatı qurmadığını, arzularını, yolunu gözləyənləri nəzərə almayan, sadəcə, dar günlərdə Vətəni nəzərə alan, vətənin çağırışına qaça-qaça gedən Orxan 2020-ci ilin iyul-sentyabr aylarında Kəpəz rayon Hərbi Komissarlığına üz tutur. Həmin ilin 21 sentyabr tarixində hərbi təlim toplantılarına qatılır və 6 gün sonra 30 il gözlədiyimiz Vətən müharibəsi, Zəfər müharibəsi başlayır.

Azərbaycan Ordusunun əsgəri olan Orxan Yusubov Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Murovdağın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə igidliklə döyüşmüş, şücaətlər göstərmişdir. Orxan Yusubov 27 sentyabr tarixində Murovdağ istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhid olmuşdur. Uzun müddət nəşi tapılmamışdır. Müdafiə Nazirliyinin rəsmi məlumatına əsasən itkin düşən hərbi qulluqçu hesab olunmuşdur. Onun nəşinin tapılıb ailəsinə məlumat verilməsi üçün zəruri tədbirlər görülmüşdür. Ailə uzun günləri, ayları il bilib, əsr bilib Orxanın tapılması üçün dualar edirdi. Hərbçilər canla-başla özlərini bu işə səfərbər edirdi. Və 3 iyun 2021-ci il tarixində Orxanın müqəddəs nəşi Murovdağ istiqamətində tapılaraq ailəsinə təhvil verilmişdir. Ailəsi bunu gözləmirdi, lakin, bunun özü bir müjdə idi – Orxan Şəhid olmuşdu! Orxan Zirvəyə ucalmışdı! Orxan müqəddəs oldu və bundan sonra da müqəddəs olacaq! Dünya durduqca, Vətən var olduqca qəlblərdə yaşayacaq!

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda gedən döyüş əməliyyatları zamanı hərbi hissə qarşısında qoyulmuş tapşırıqlar icra olunarkən vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Orxan Yusubov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Şəhidimizin nurlu adı olan Orxan "igid xan", "ər xan" mənasını verir. Şəhidimizə həsr etdiyim "Orxan, İgidxan, Ərxan" şeirini qürurla təqdim edir və Allahdan bütün Şəhidlərimizə rəhmət diləyirəm!

## Orxan, İgidxan, Ərxan

Min illərlə yaşadı, yaşayacaq cəsur can,
Boşuna axmayacaq, axıdacaq azad qan.
Ölkəni etdi, hələ edəcək hürr, firavan,
Əzbərdir dilimizdə Orxan, İgidxan, Ərxan.

Yaşayır Orxan adı göstərilən hünərtək,
Kökü Atillalardan gələn qorxmaz Hun ərtək.
Düz 30 ildə hər an gözlənilən Zəfərtək,
Ayımız, ilimizdə Orxan, İgidxan, Ərxan.

Orxan adı yüzillik üçrəngli bir işıqtək,
Qəhrəmanlar yetirən bu yurda yaraşıqtək,
Qəhrəmanlıq dastanı deyən ozan, aşıqtək,
Yaşayar qəlbimizdə: Orxan, İgidxan, Ərxan.

Bir nakəs endirəmməz onun şanlı bayrağın,
Orxan bayraqdarıdır alınmaz Qarabağın.
Ölməz Şəhidi olub alovlanan ocağın,
Taxt qurub könlümüzdə Orxan, İgidxan, Ərxan.

Yazmağa qələmimiz, danışmağa dilimiz,
Düşmənə endirməyə yumruğumuz, əlimiz,
Qarabağtək yaddaşda əbədi, əzəlimiz,
Didədir gözümüzdə Orxan, İgidxan, Ərxan.

Aylar ilə müqəddəs nəşin dondu, əridi,
Nəşin tapıldı, ümid şamtək söndü, əridi,
Təskinlikdi bu bizə, Orxan Şəhid nər idi,
Yaşayır izimizdə Orxan, İgidxan, Ərxan.

Fəxr elə, O, yolunda keçdi şirin canından,
Qələbəni pay verdi, keçdi Zəfər anından,
Fəxr elə Azərbaycan, var Orxantək Qəhrəman,
Olacaqdır hər zaman,
Olacaqdır hər bir an, Orxan, İgidxan, Ərxan!

*26.06.2021.*





## ŞƏHİDLİK ZİRVƏSİNDƏN



*Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndində Şəhidlik Zirvəsini fəth edən MAHHXHQ əsgər Ramazan Əbülfət oğlu Göydağlının nurlu xatirəsinə... (04.02.1997-ci il Culfa rayonu Kırna kəndi - 28.10.2020-ci il Füzuli rayonu Yuxarı Yağlıvənd kəndi)*

44 günlük Vətən müharibəsi özü bütöv, möhtəşəm bir dastana dönmüşdü. Lakin bu dastanın elə boyları var idi ki, elə bu boyların özü də ayrıca bir dastan olmuşdu. Bu boylar boylu-buxunlu, pəhləvan cüssəli igidlər, ərlər, əsgərlər, hərbçilər idilər ki, onlar heç nədən çəkinmədən, qorxu nədir bilmədən ölümü gözə alıb Vətən torpaqlarının düşmən tapdağından azad edilməsini və şəhadəti hər şeydən üstün bildilər. Onlar şəhidliyə ucalmaqla dastana döndülər... Göydə ruha, yerdə soyuq daşa, vətənsevərlikdə ən oxunaqlı, çox maraqlı dastana döndülər Şəhidlərimiz... Təhsilindən, işindən, yeni doğulan və ya doğulacaq olan övladından, yeni evləndiyi və ya heç evlənmədiyi yarından, şirin canından, həyatından keçən, Vətəndən, Şəhadətdən, Qarabağdan keçməyən, qürur, and, güvənc yerimiz olan Şəhidlərimizdir onlar... Onlar Vətən qarşısında öz borclarını artıqlaması ilə və layiqincə yerinə yetirdilər, insan üçün ən şirini olan canlarından keçdilər. Bizə düşən isə onları hər an hörmətlə yada salmaq, xatırlamaq, tanımaq və tanıtmaqdır. Hər dəfə bir Şəhidimiz haqqında paylaşım edəndə, yazı yazanda fikirləşirəm ki, nə yaxşı ki, bir nəfər də bu Şəhidimizi tanıyanlar sırasına qoşuldu.

İndi haqqında məqalə yazacağım Şəhidimiz isə yenicə MAXE (müddətdən artıq xidmət edən) kimi orduya qoşulan və təlim kurslarından birbaşa Vətən müharibəsinə yollanan, Füzulinin Yuxarı Yağlıvənd kəndində Vətən Müharibəsi Qəhrəmanı Nihad Babayev ilə bir yerdə şəhid olan əsgər Ramazan Göydağlıdır!. .

Ramazan Əbülfət oğlu Göydağlı 4 fevral 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Kırna kəndində dünyaya göz açmışdır. "Göydağlı" soyadı ona Ordubad rayonunun Nürgüt kəndindəki Göydağın şərəfinə verilmişdir.

2003-cü ildə Culfa rayon Kırna kənd tam orta məktəbinin 1-ci sinfinə daxil olan Ramazan 2014-cü ildə həmin məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanmış, 2016-cı ildə hərbi xidməti başa vurmuş və əmək fəaliyyətinə başlamışdır. O, bir müddət Azərbaycanda, həmçinin Türkiyə və Qazaxıstanda müxtəlif sahələrdə iş təcrübəsi qazanmışdır.

Hərb peşəsi daim onun diqqətini özünə cəlb etdiyindən bu arzusunu həyata keçirmək üçün 2020-ci ilin 5 sentyabrında Ramazan Göydağlı MAHHXHQ kimi əsgər olmuş, bununla da hərbi sahədəki fəaliyyətini yenidən davam etdirməyə başlamışdır. 27 sentyabr 2020-ci ildə Vətən Müharibəsi başlayan zaman hərbi hazırlıq kursunu təzəcə

bitirən MAHHXHQ əsgər Ramazan Göydağlı öz arzusu ilə 15 oktyabrdan etibarən döyüşlərə və hərbi əməliyyatlara qoşulmuşdur. Şəhid Ramazan Göydağlının bacısı Elmira Sultanova onun barəsində belə deyir: "Ramazan uşaq vaxtı çox dəcəl idi. Anam onu bir yerdə saxlaya bilmirdi. Ancaq böyüyəndən sonra çox sakitləşmiş, mülayimləşmişdi, elə bil həmin Ramazan deyildi. O, orta məktəbi bitirdikdən sonra əsgərliyə gedib gəldi, sonra Türkiyədə, Qazaxıstanda işlədi. Son 2-3 ildə davamlı olaraq Bakıda işləyir, evi olmadığı üçün bizimlə birlikdə qalırdı. Mənim övladlarımla oynamağı çox sevirdi. Bacımın övladlarını da çox istəyirdi. Eyni zamanda Ramazan hərb sənətini çox sevirdi, lakin bu istəyini aşkar formada bizə bildirmirdi. Bir gün dedi ki, mən Naxçıvana gedib hərbidə qulluq etmək üçün yazılacağam, ərazisinin bir hissəsi düşmən tapdağında olan Vətənimin mənim kimi oğullara indi daha çox ehtiyacı var. "Müharibə olsa səfərbərlik elan ediləcək, onda Vətənin müdafiəsinə gedərsən" deyib onu fikirindən daşındırmağa çalışsaq da, o, qərarında qəti idi və dediyi kimi də elədi. Gedib orduya yazıldı və 2020-ci ilin sentyabrın 5-də yenidən hərbi xidmətə başladı. 22 gün sonra, yəni sentyabrın 27-də Vətən Müharibəsi başladı. Yenə də bizə bildirmədən Ramazan xidmət etdiyi hərbi hissədən könüllü olaraq döyüşə qatılmaq barədə rəhbərliyə müraciət edibmiş. O, müharibəyə gedib döyüşlərə qatılana qədər nə atam, nə anam, nə də biz bu barədə heç nə bilmirdik. Sonradan eşitdiyimizə görə dostu müharibəyə gedəndə onu xeyir-dua ilə yola salan Ramazan ona deyib ki, sən get, mən də sənin arxanca gələcəyəm. Hərbi xidmətə yeni başlamasına baxmayaraq Ramazan öz arzusu və istəyi ilə könüllü olaraq müharibəyə gedib Vətən torpaqlarının düşmən tapdağından azad edilməsi yolunda Şəhidlik zirvəsinə ucaldı. İtkimiz nə qədər ağır olsa da, Şəhid qardaşımla fəxr edirik. Təskinliyimiz böyük Zəfərimiz və torpaqlarımızın monfur düşmənlərdən azad olmasıdır. Allah bütün şəhidlərimizə rəhmət, qazilərimizə şəfa nəsib eləsin, qəhrəman əsgər və zabitlərimizə, Ali Baş Komandanımıza kömək olsun. Amin!".

Ramazan Göydağlının döyüş yoldaşlarının dediklərindən;

"Vətən Müharibəsində Ramazan düşmənə qarşı amansız, döyüş yoldaşlarına, bizim hamımıza qarşı isə eyni münasibətdə olmaqla həmişə olduqca sakit, səmimi və çox mehriban idi. Hamıyla deyib-gülür, zarafatlaşırdı. Allah şəhadətə layiq olanları özü seçir, bizim hərbi hissədəki Ramazan kimi mehriban, gülərüz, şən, zarafatcıl uşaqların hamısı şəhid oldu, Allah hamısına rəhmət eləsin!"

Ramazan Göydağlı Füzuli, Cəbrayıl, Hadrut və Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla döyüşmüş, 28 oktyabr 2020-ci ildə Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fərmanına əsasən Ramazan Göydağlı ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Qəhrəman şəhidimizə həsr etdiyim, hüzn qədər də qürurla yoğrulan "Şəhidlik zirvəsindən" adlı şeirimi fəxrlə təqdim edir, bütün Şəhidlərimizə Allahdan rəhmət diləyirəm...





**Şəhidlik Zirvəsindən...**

Tez getdin bu dünyadan, məhv eylədin çox düşmən,
Olmadı bir an doyan sənin şirin səsindən.
Şəhid əsgər Göydağlı, Sənə yazıram dastan,
Ayaq izin bol olan Göydağın zirvəsindən...

Şəhid kimi ucaldın, anan fəryad qopardı,
Lakin oldu duası: "Daha gəlməsin ardı,
Bir də nəsib olmasın kimsəyə övlad dağı",
Səni qaytarmaq üçün nə gəlməzdi əlindən?...

Bir ev-eşik sənliydi, bir Vətən sənsiz qaldı,
Zalım fələk tələsdi, səni yaman tez aldı.
İgidliyinlə birgə Şanlı Vətən ucaldı,
Yoxluğun yandırsa da, sən qürur yerimizsən...

Şəhidini qarşıla, qəhrəman yurdu - Kırna!
Şəhidinin əlində var Xocalı torpağı.
Şəhidin yanındakı ər qəhrəmanlarınla,
Azad etdi, qaytardı o ulu Qarabağı!

Ey Şanlı Şəhidim, sən xalqın yaddaşındasan!
Əbədi qalacaqsan, çünki xalqın oğlusan!
Soyqırımın qisasın almaq üçün verdin can,
Səninlə fəxr edir Qarabağlı Azərbaycan!

Səninlə qürurlanır, öyünür atan, anan,
Sən idin Vətəninə həmişə candan yanan.
Qarabağ səmasında Şəhid ruhun bir ümman,
Mən yazıram, yazacam, Şəhidim, Sənə dastan.

Vaxtsız getdin dünyadan, bizə qalıb xatirən,
Olmadı bir an doyan sənin şirin səsindən.
Şəhid əsgər Göydağlı, Sənə yazdım bir dastan,
Əminəm... oxuyarsan... ŞƏHİDLİK ZİRVƏSİNDƏN!

*10.02.2021*
*"Kredo" qəzeti, 16.06.2021*

## ADI KİMİ ZƏHMLİYDİ

*Şəhid Rəcəb Nəcəf oğlu İsmayılovun əziz xatirəsinə. (17.09.2000-ci il İmişli rayonu Əliqulular kəndi-30.10.2020-ci il Laçın rayonu Güləbird kəndi)*



Rəcəb Nəcəf oğlu İsmayılov 2000-ci il sentyabrın 17-də İmişli rayonunun Əliqulular kəndində anadan olmuşdur. Azərbaycan Ordusunun əsgəri olan Rəcəb İsmayılov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərimizin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində ilk andan iştirak etmişdir. Füzulinin, Cəbrayılın, Qubadlının və Laçının azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla vuruşmuşdur. Rəcəb İsmayılov 30 oktyabr 2020-ci ildə Laçın rayonunun Güləbird kəndi istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən Şəhidlik Zirvəsinə yüksəlmişdir.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Rəcəb İsmayılov "Cəsur döyüşçü" medalı ilə təltif edilmişdir.

Rəcəb İsmayılovun uzun müddət tapıla bilməyən nəşi müəyyən edilərək 3 fevral 2021-ci ildə İmişli rayonunun Əliqulular kəndində torpağa tapşırılmışdır.

Rəcəb sözünün mənası "göstərişli, heybətli" deməkdir. Heybətli sözü eyni zamanda zəhmli mənasını verdiyindən qəhrəman Şəhidimizə həsr etdiyim şeirimi "Adı kimi zəhmliydi" adlandırmaqla həmin şeiri qürurla oxuculara təqdim edir, Allahdan bütün Şəhidlərimizə rəhmət diləyirəm!

### Adı kimi zəhmliydi

Adı kimi zəhmliydi,
Od püskürdü düşmənə.
Yağıya etdi həmlə,
Qaytardı borc Vətənə.

Bir növcavan gənc idi,
Vətənə qurban getdi.
Zirvələrdə müqəddəs,
Şəhid şərbətin içdi.





Bizim qürurumuzsan,
Başımızın tacısan.
Bizim üçün ölməzsən,
Qəlbimizdə yaşarsan.

Neçə aylar axtardıq,
O müqəddəs nəşini.
Çox intizarda qoydun,
Ananın ürəyini.

Ana ayırmırdı yanından səni,
Qoymazdı ondan uzaqda qalasan.
İndi bunu heç qəbul edə bilmir,
Qışın oğlan çağında qar altdasan.

Olan son ümid öldü,
Fələk bizlərə güldü.
Ürəklər buza döndü,
Həyat ocağın söndü.

Dərk edir, anlayırdıq,
Onunçün toxtayırdıq.
Şəhidlər ölməyiblər,
Onlar müqəddəsdirlər!

Çin oldu mənim yuxum,
Düşmənə batdı oxum.
Yoxdur yağıdan qorxum,
Şəhidlərim verib can.

Həyata keçdi arzun,
Azaddır cənnətməkan.
Şad olsun Sənin ruhun!
Yaşasın Azərbaycan!

*20.06.2021*

# KOROĞLU KİMİ QƏHRƏMAN



*Xalq Qəhrəmanımız olan Koroğlunun əsl adı Rövşəndir. Bu məqaləni və şeiri Koroğlunun əsl adına layiq olan, Murov dağının və şəhidliyin zirvəsinin fatehi olmağa haqq qazanan bir qəhrəmanın-şəhid kapitan Rövşən Mahmud oğlu Pənahovun əziz xatirəsinə həsr edirəm. (02.10.1989-cu il Qazax rayonu Birinci Şıxlı kəndi- 02.10.2020-ci il Murovdağ silsiləsi)*

Rövşən Mahmud oğlu Pənahov 1989-cu il oktyabrın 2-də Qazax rayonunun Birinci Şıxlı kəndində dünyaya göz açıb.

1995-2006-cı illərdə Qazax qayonu M. Həsənov adına Birinci Şıxlı kənd tam orta məktəbində, 2006-2010-cu illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) təhsil alıb.

Rövşən Pənahov hərbi xidmət illəri ərzində "Qüsursuz xidmətə görə", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" və "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" medalları ilə təltif edilib.

O 2016-cı ilin aprel ayının 1-də başlayan və 5-də bitən dördgünlük müharibədə iştirak edib. Həmin döyüşlər zamanı göstərdiyi igidliyə görə vaxtından əvvəl mükafat qaydasında "kapitan" hərbi rütbəsi ilə təltif olunub.

Azərbaycan Silahlı Qüvvələrinin kapitanı olan Rövşən Pənahov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Murovdağın azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib.

Rövşən Pənahov oktyabrın 2-də Murovdağ döyüşləri zamanı qəhrəmancasına şəhid olub. Onun mübarək nəşi Qazax rayonunun Birinci Şıxlı kəndində torpağa tapşırılıb. Kapitan Rövşən Mahmud oğlu Pənahov döyüşlər zamanı göstərdiyi şücaətə və igidliyə görə ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq fərmanları ilə "Vətən uğrunda", "İgidliyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Şəhidimizə həsr etdiyim "Koroğlu kimi Qəhrəman" şeirini böyük qürurla təqdim edir və Allahdan bütün Şəhidlərimizə rəhmət diləyirəm.





**Koroğlu kimi qəhrəman**

Vətənin Vətən daşısan,
Qürur duyur Azərbaycan.
Koroğlunun adaşısan,
Koroğlu kimi qəhrəman.

İgid idin, əsgərlərin,
Oldu minlik "dəli"lərin.
Sənin başçılığın ilə,
Göstərdilər hünərlərin.

Düşmənlərdən qisas aldın,
Şəhid oldun, sən ucaldın.
Öz tabutuna sığmadın,
Bütöv bir Azərbaycandın!

Murovdağın zirvəsində,
Can vermisən, qan tökmüsən.
Yağı düşmənin komasın,
Viran qoymusan, sökmüsən.

Zəfərə açılan qoldun,
Zəfərə bitişik yoldun.
Həsrət ilə baxdığımız
Murovdağda şəhid oldun.

Bu Zirvədən o Zirvəyə,
Şəhadət yolunu çəkdin.
Qazandığın qələbəylə,
İgidlik toxumu əkdin .

Koroğlu da səni seçdi,
Səni bildi doğma nəvə.
Sənin kimi oğullarla,
Çaldıq biz parlaq Qələbə!

Vətənin Uca başısan,
Qürur duyur Azərbaycan.
Vətəninçün sən verdin can,
Koroğlu kimi qəhrəman!

*15.02.2021*

## CƏNGLƏRİN CƏNGAVƏRİ



*Şəhid Ruslan Muhuma oğlu Nəbiyevin əziz xatirəsinə (16.07.1996-cı il Zaqatala rayonu Danaçı kəndi– 08.12.2020-ci il Tərtər rayonu Suqovuşan qəsəbəsi)*

Ruslan Muhuma oğlu Nəbiyev 1996-cı il iyulun 16-da Zaqatala rayonunun Danaçı kəndində dünyaya göz açmışdır. O, 2002-2013-cü illərdə Danaçı kənd 1 nömrəli tam orta məktəbində orta təhsil alnıış, 2014-cü ildə müddətli həqiqi hərbi xidmətə çağırılmış, 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində həqiqi xidmətdə olmuşdur.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Ruslan Nəbiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşan və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

Ruslan Nəbiyevlə Suqovuşan döyüşlərindən sonra əlaqə saxlamaq mümkün olmamış, 2020-ci ilin dekabr ayının 8-də şəhid olduğu müəyyənləşdirilmiş, nəşi Zaqatala rayonunun Danaçı kəndində torpağa tapşırılmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etdiyi və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15.12.2020-ci il tarixli sərəncamına əsasən əsgər Ruslan Nəbiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Şəhidimizə həsr etdiyim "Cənglərin cəngavəri" şeirini qürurla təqdim edir və Allahdan bütün Şəhidlərimizə rəhmət diləyirəm!

**Cənglərin cəngavəri**

Azərbaycan fəxr edir,
Var sənintək əsgəri.
Məhv etdin düşmənləri,
Cənglərin cəngavəri.

Dar günlərdə Vətənə,
Oğultək kömək etdin.
İti addımla sən də,
Könüllü əsgər getdin.

Ad qazandın, ad saldın,
Şəhid qisasın aldın.





Keçdin şirin canından,
Şəhid olub ucaldın.

Heç döyüş yoldaşların,
Unutmaz səni, Ruslan.
Qəhrəmantək qorudun,
Sən bu vətəni, Ruslan.

Səni yurdun, vətənin
İnsanları unutmaz.
Xatirən olunur yad,
Qisasın yerdə qalmaz.

Adının kökü Arslan,
Fəxr edir Azərbaycan.
Cənnətdə də hifz etsin,
Səni Ulu Yaradan!

Adın dillər əzbəri,
Yurd seçmişdin səngəri.
Azərbaycan əsgəri,
Cənglərin cəngavəri.

Ruhun cənnətdə olsun,
Məzarın nurla dolsun.
Yenidən doğul Ruslan,
Cəngavər oğul Ruslan!

*22.06.2021*

## ULU BİR PALIDIN KÖLGƏSİ



*"Kölgə" ləqəbli zabit, şəhid kapitan Samir Sabir oğlu Mikayıllının nurlu xatirəsinə həsr edilmişdir. (1 yanvar 1993-cü il, Ağcabədi rayonu Salmanbəyli kəndi – 9 noyabr 2020-ci il, Şuşa rayonu)*

Xəyalımızda bir Ulu palıd canlandıraq. Ulu, özü də nə ulu... Budaqları qocaman qartal qanadları ilə zirvələri fəth etdiyi kimi ətrafa yayılmış palıd... 10 milyonun kölgəsinə sığındığı böyük və qədim, qocaman bir palıd... Bu palıd yer üzünün ən yaşlı palıdının – ulu Türkün kökünə və ətrafa yayılmış budaqlarına bənzəyir. Minilliklər tarixi var və bir günü min aya dəyən neçə-neçə gün-

lər yaşayıb, yaşayır, yaşayacaq bu palıd... Bizim bu ulu, bu qədim palıdımız zamanın qarşılaşdırdığı bütün manеələrə qarşı dimdik ayaqda olub, o manеələrə özünü sona qədər, layiqincə göstərə bilib. Meşə yanğınlarından da böyük manеələrlə rastlaşıb, əzablar çəkib, acılar yaşayıb bu palıd. Vaxt olub arxasından baltaladılar, vaxt olub, kökündən kəsməyə çalışıblar, o balta da cəlladların əllərini qabardıb yara elədi, kəsdi. Və bu palıd bir zamanlar fidan ikən ondan qidalanıb böyüyən budaqlarını və qonşu, ona candan yaxın olan ağacları dar günlərində köməyinə çağırıb. Onun dar günündə çağırdığı budaqları və canından olan qonşu ağaclar o yanğını, o arxadan zərbə endirən namərd baltanı heç nə bilib, o manеələrə qarşı sinə gərib, əzm nümayiş etdiriblər və sonda, bəziləri məcbur olub cəllad baltasını, cəllad odunu götürüblər. Lakin qisas oduyla yanan, candan olan qonşu ağaclar sona qədər tutunublar, sona qədər ayaqda qalıblar və onların üzərinə gələn hər manеəni asanlıqla dəf ediblər. Budaqları qırılmış, gövdəsi zədələnmiş bu ağaclar palıda layiq olan ağaclar olublar. Onlar həmişə seçiliblər. Həm gözəlliklərinə görə, həm də əzmlərinə, dözümlərinə, gözlərinin önündə məğrur-məğrur dikələn uca palıda sevgilərinə görə... Bəzi ağaclar da həmişə bu ağaclara köks ötürüblər. Zaman-zaman bu ağaclar bizim Ulu palıdımıza özünü dost kimi göstərməklə daldada düşmənçilik edib, düşmən olub, kənardan və içlərindən bu qoca palıdı içindən yeyiblər...

Aman Allah! Düşündükcə heyrətlənir, dəhşətə gəlirsən... Dəhşətə ona görə gəlirsən ki, bu palıd nə çətinliklərlə üzləşib, nələr görüb belə.. Və heyrətlənirsən ona görə ki, bu palıd nələr görməyinə baxmayaraq dimdik ayaqda olub, ayaqdadır, ayaqda olacaq... Çünki bu palıdın özünə layiq, böyüdənə, yetirənə sevgi ilə yoğurduğu budaqları və ağacları var... Bu budaqlar və ağaclar əsl qəhrəmanlıq nümunəsi olublar... Xəfif bir yelə hazırlıqlı olublar, güclü, dağıdıcı qasırğa günlərində yerlərindən belə tərpənməyiblər... Güclü qasırğalardan ağac-ağaca aşan zaman bu ağaclar palıdı qoruyurdu və Ulu palıd sərt şəkildə qasırğaya qarşı mücadiləsini davam etdirirdi. Qocaman palıd bu mücadilədə hələ də dözümlü və qalibdirsə, qırılan, aşan və qisas alan, ona yaxın ağacların və budaqlarının sayəsindədir...

Bu ağaclar yeni fidanlara ilham verir... O fidanlar ki, böyüyəcək, böyüyəcək, bu torpağın dərinliklərinə kök salıb bərkiyəcək, suyunu içib böyüyəcək və ağac olub bu Ulu palıdı qoruyacaq...

Bəzi məsələlər barədə söz açdıq, bəs bu Ulu palıdın kölgəsi? Bundan hələ söz açmamışıq. Bu Ulu palıdın kölgəsi ən isti günlərdə, hətta səhranı xatırladan yandırıcı günlərdə canlıları, insanları elə özünə çəkər ki, yandırıcı istini heç hiss etməzsən. Hər yanın sərinlik olar və sərinlikdən feyziyab olarsan, sərinlikdən ləzzət alarsan. Və bu Ulu palıdın kölgəsi olmasa, günəşin nəfəs kəsən istisi, odu bizi yandırardı. Palıdın budaqlarının və gövdəsinin kölgəsinin müqaviməti olmadan o od bir anda bizi, kölgəyə pənah gətirmiş bütün canlıları kül edərdi. Və ağaclarla odun mübarizəsi çətinləşərdi. O palıd nədirsə, o ağaclar nədirsə, o kölgə də odur! Onun məqsədi, məramı Ulu palıdına və Ulu palıdın yerləşdiyi qartal şəkilli əraziyə xidmət və azğın düşmənlərə nifrətdi!

Bu dəfə bəhs olunan bir Şəhidimiz də bu Ulu Palıdın kölgəsi idi. Bu palıd kölgəsi Şəhid oldu, lakin bu oda, bu alova təslim olmadı. Alovlar ölkəsinin, küləklər şəhərinin palıdının ağacları bu kölgənin qisasını tez aldılar. O, öz yerində əvəzsiz idi, lakin yeri





boş qalmadı, qalsa idi, palıd kölgəsiz qalardı. "2907 Dastan" Şəhidlərimizdən sadəcə bir dastanı, lakin uzunlardan uzun bir dastanı olan Şəhidimizdən söz açacağıq... Bu Şəhidimiz "Kölgə" ləqəbli xüsusi təyinatlımız, kapitan Mikayıllı Samir Sabir oğludur!

Samir Mikayıllı 1 yanvar 1993-cü ildə bizi Qarabağa aparan yolun üzərində olan rayon, Azərbaycanımızın dilbər guşələrindən biri olan Ağcabədi rayonunun Salmanbəyli kəndində anadan olmuşdur. O, uşaq yaşlarından belə yoğrulmuşdu: ailəsinə, yurduna, elinə, obasına sadiq biri kimi. Onun xəmiri görkəmli şair Almas İldırımın dediyi kimi göz yaşı ilə yoğrulmuşdu həm də. Çünki onun doğulduğu il Qarabağ müharibəsinin qanlı-qadalı, şəhidli-qaçqınlı, işğallı-talanlı vaxtlarına təsadüf edirdi. Ulu palıdın sınandığı vaxtlara... O vaxtlar ki, Ulu palıd kökündən çıxardılırdı. Son həddə Ulu palıdın bir yetirməsi – Ulu Öndər Heydər Əliyev bu xalqı xilas etdi. Ulu Palıdın budaqları yanıb-ütülsə də kökü yerində qaldı. İndi Öndərin xilas etdiyi Ulu palıdı qorumaq qalırdı. Bu palıdın qorunması kimi çətin bir iş artıq yeni nəsilə tapşırılırdı. Nəsillər kəsilmədən Öndər xilas etdi bu xalqı. Şəhid ağaclar çoxaldıqca, körpə fidanlar da böyüyür, boy atır, çoxalırdı. Bu saysız-hesabsız fidanlardan birinə də Samir Mikayıllı fidanı deyilirdi. O, bizi Qarabağa aparan bir eldə, bir obada əkilmişdi. Onun üzərinə düşən ən ali və müqəddəs vəzifə bizi Qarabağa aparmaq idi!

Valideynləri ocağı sönmüş yurdun gələcəyinə çıraq olması üçün 1999-cu ildə Samiri məktəbin birinci sinfinə göndərdilər. Ağcabədi rayonu Ə. Məmmədov adına Salmanbəyli kənd tam orta məktəbində təhsilinə başlayan Samir nizam-intizamlı şagird idi. Onu başqaları arasında seçilmiş edən xüsusiyyətlər ağıllı, bilikli, səmimi, mehriban, başqalarına hörmətlə yanaşan, açıq fikirli, açıq qəlbli, gələcəyə baxış nöqtəsi dərin olan bir uşaq olması idi. O, müəllimlərini dərin düşüncəliliyi ilə heyrətə salırdı. Samir elə bu vaxtlardan seçilmiş görünürdü. Seçilmişləri, əlbəttə ki, uca Allah seçir. Ən önəmli vəzifələri Allah yolunda tutmalı olan şəxslər seçilmişlərdir. Belə insanlar keçmişi unutmamalı, lakin keçmişdə də qalmamalıdırlar. Gələcəklə bağlı fikirləri müsbət, xəyalları özləri qədər dərin olmalıdır. Onun da xəyalı, gələcəklə bağlı düşüncələri xalq üçün idi. Bu xalqın Ulu palıdına od dəyməsin deyə O, hər şeyi edərdi. Onun uşaqlığı, yeniyetməliyi belə keçmişdi. Bu ali arzularla. Hansı vəzifəni tutacaqsa tutsun, nə iş görəcəksə görsün, öz torpağı, Vətəni, eli-obası, xalqı üçün çalışacaqdı. Bu, Samirin bəxti, qisməti idi. Palıdın ululuğuna kölgə olmaq istəmirdi Samir, palıdın kölgəsi olmaq istəyirdi. O, xalqı düşmənlərdən qoruyan bir kölgə olmaq istəyirdi. İstəyirdi ki, kölgə olsun və xalq bu kölgəyə yığışsın, bir yumruq olsun, dəmir bir yumruq olsun. Və yalnız bu dəmir yumruğun özü mənfur düşmənə qarşı özünü göstərə, qəti sözünü deyə bilərdi.

Bu kölgənin arzusu asan reallaşmayacaqdı. Hələlik isə bu arzu qaçır, Samir isə qovalayırdı. Samir tutmaq istədiyi bu arzunun yolu ilə illərlə irəlilədi, onun ardınca qaçdı. Bu da ona səbəbiyyət verdi ki, Samir 2007-ci ildə orta məktəbdən məzun oldu və sənədlərini Cəmşid Naxçıvanski adına Hərbi Liseyə verdi. Uşaq yaşlarından özünü bu oda, bu közə atan və hər çətinliyə qarşı eynən Ulu palıd kimi dimdik ayaqda duran və hər qəmə, kədərə qarşı gülərüz dayanan bu fidan 3 il hərbi liseydə qüsursuz xidmət edən bir əsgər kimi oxudu, hərb sənətini öyrəndi. O, bilirdi ki, doğru qərar verib. Buna qəlbən inanırdı. Fəxr edirdi ki, hərbi liseyin tələbəsidir. Bu lisey onun üçün Qarabağa açılan qı-

fıllı qapının açarı idi. Sülhdən dəm vuranların hərəkətlərindən sonra artıq bir yol qalırdı, torpaqlarımızın azad edilməsinin hərbi yolu. Bunun üçün hələ fidanlar əkilməli, onlara qulluq, qayğı göstərilməli idi. Fidanlardan biri olan Samir də yavaş-yavaş böyüdü. Bu minvalla 3 il də keçdi, bədəni, gövdəsi möhkəmləndi, boyu uzandı, yaşı artdı Samirin. Fidan Samir "davam ya tamam" sualı qarşısında qalanda davamı seçdi. Onun həyatı illərlə hərbi xidmətdə keçəcəkdi. Və bunu dərk edən Samir sevincək sənədlərini Hərbi Məktəbə verdi. Seçim proseslərində iştirak edən Samir bu işi o qədər məqsəd bilmişdi ki, bu amal uğrunda o qədər çarpışıb-vuruşmuşdu ki, qüsursuz və müsbət göstəriciləri onu qardaş ölkə olan Türkiyəyə gətirib çıxarmışdı. Belə ki, təhsil müəssisəsinin rəhbərliyi onu təhsil almaq üçün qardaş Türkiyəyə göndərdi. Sevincdən Samirin ruhu yerində durmurdu. Çünki əvvəla onun müsbət göstəricisi vardı, sonda isə o, təhsilini davam etdirmək üçün məhz qardaş Türkiyəyə göndərilirdi. Onun üçün Türkiyə Azərbaycan, Azərbaycan isə Türkiyə idi. Türkiyə türkləri Azərbaycan türkləri idi onun üçün. Odur ki, bu coşqu ilə Samirin Türkiyə səfərini heç bir qüvvə dayandıra bilməzdi.

Müdafiə Nazirliyinin qərarı ilə kursant Samir Mikayıllı Türkiyə Quru Qoşunları Hərbi Məktəbinə göndərildi. 2014-cü ilə qədər bu məktəbdə təhsil aldı və təhsildə həmişə fərqləndi. Türk öyrəncilərlə nəzakəti, səmimi, mehriban davranışı onu məktəbdə, demək olar ki, hamı ilə sarsılmaz dostluq telləri ilə bağlamışdı. Samirin çalışqanlığı ilə birlikdə dostluğu da yaxşı idi. Tanıyanlar bilirdi ki, Samir hərbçi dostlarına görə özünü ölümə də atar. Çünki o, özünü Vətənə nə qədər lazım bilirdisə, hərbçi dostunu da Vətənə bir o qədər lazım bilirdi.

Samir xəyallarını Türk dünyası boyu çoxaldır və bu xəyalların bir-bir gerçəkləşməsi üçün oxuyur, öyrənir, təhsilini davam etdirirdi. 2014-cü ildə Samir hərbi məktəbi motoatıcı ixtisası və leytenant rütbəsi ilə bitirdi. Bəs Qəhrəmanımızın Türkiyə səfəri bitdimi? Xeyr. O, 2014-cü ilin sentyabr ayında Tuzla Piyada Məktəbində təhsilini davam etdirməyə başladı. 2015-ci ilin aprel ayına qədər bu məktəbdə zabit ixtisası kursu keçdi və hər iki məktəbdə Samir unudulmaz oldu, böyük nailiyyətlər, uğurlarla ata yurdundan ana yurduna qayıtdı.

Samir 2015-ci ilin 3 aprel tarixindən iyul ayının sonunadək hərbi andla yoğrulan, daha da şərəfli və qüdrətli, düşmənə qarşı yenilməz bir zabit olmaq üçün Silahlı Qüvvələrin Təlim Tədris Mərkəzində də zabit ixtisası kursunu keçdi. İyul ayı bitdi, avqust ayı gəldi və Samir Mikayıllının həyatının ən gözəl günlərindən biri bu ayla gəldi. O, artıq Vətənini, yurdunu, torpağını göz bəbəyi kimi sevən, qoruyan şərəfli bir zabit, Ulu palıdının kölgəsi olmuşdu... O kölgəyə minlərlə insan təşəkkür edəcəkdi və o kölgəni daim yadlarında saxlayacaqdılar...

Samir bu şərəfli adla 2015-ci ilin avqust ayından noyabr ayına kimi Naxçıvanda motoatıcı taqım komandiri olaraq ilk vəzifəsinə başladı. Ürəyindən keçənlər bunlar idi: "Mənim Ulu palıdım! Mənim ulu Vətənim! Nəhayət ki, Sənin kölgən, şərəfini qoruyan zabitinəm! Sənin şərəfinə əl uzadan ağacları kökündən kəsmək, kölgəmlə milyonlarla əhalini qorumaq mənə borc olsun!"

Samir bu qısa zaman ərzində xidməti vəzifəsini layiqincə, qüsursuz yerinə yetirdi. Heç kəsin qəlbinə dəymədi, hər kəsə bacardıqca çox kömək etdi. Xidmətində nümunə





olduğuna görə ona irəliləyiş yaraşırdı. O, 2015-ci ilin noyabr ayında Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun xüsusi təyinatlı kəşfiyyat qrupuna komandir vəzifəsinə təyin olundu. Ona Naxçıvan XTQ əfsanəsi olmaq yaraşırdı. Və onu əfsanə etmək üçün Yaradan sınaqlardan da keçirəcəkdi.



O sınaq 2018-ci ilin may ayında başladı. Qansız erməni vandalları Qarabağdan əl çəkmədikləri kimi Naxçıvandan da əllərini çəkmək istəmirdilər. Məlum olduğu kimi mənfur düşmənlər Naxçıvana da xain, murdar əllərini uzatmış, kəndlərini yağmalayıb işğal etmişdilər. Lakin bu dəfə qarşılarındakı illər əvvəlki həmin Naxçıvan deyildi. Bu dəfə düşmən qarşısında Naxçıvanı qoruyan əfsanəvi oğullar var idi. O əfsanəvi oğulların sınaq günü həmin gün idi.

Vandallar, cəlladlar öz düşmən xislətlərinə sadiq olaraq Şərur rayonunun işğal altında olan Günnüt kəndindən bizim əfsanələrimizə hücum etdilər. Düşmənlərin əfsanəsi mif idi, lakin bizim əfsanəmiz Türk idi, odda yanmayan Simurq idi, belə mərd oğullar idi. O mərd, igid, qəhrəman oğullar həmin gün düşmənə əks-həmlə etdilər...

Samir də bu qəhrəman oğulların sırasında, arasında idi. Həyatında ilk dəfə canlı döyüş görən Samir bilirdi ki, düşmənləri kimdir. Onu bildiyi üçün daha da enerjili döyüşürdü. Daha güclü, daha qüdrətli döyüşürdü. Hər mənfur erməni əsgəri görəndə onun gücü, qüvvəti, qüdrəti daha da artırdı. Ona görə də sonuncu erməni əsgərinə, erməni işğalçısına, cəlladına qədər məhv etmək, qırmaq istəyirdi. Lakin hələ vaxt, zaman var idi. Ermənilər qorxu içində cəhənnəmə yola düşmüşdülər, çünki onların gördükləri üz Samirin düşmənə qəzəbli, nifrətli, sərt üzü idi...

Və Samir kimi oğulların gücü ilə əks-həmlə əməliyyatı 7 gün içində sona çatdı. Şərur rayonunun Günnüt kəndi, "Ağbulaq" yüksəkliyi, Qızılqaya dağı, Qaraqaya dağı düşmən tapdağından azad olundu. Ruhları İrəvanda qalan bu mərd oğullar Dərələyəz mahalının Arpa kəndini də nəzarət altına aldılar. Onlar bilirdilər ki, erməni cəlladları ilə bir daha görüşəcəklər. Və onda, şüarı "Son erməni cəlladına qədər!" olan böyük, genişmiqyaslı əməliyyat başlayacaqdı...

7 gün ərzində hər gün Samir döyüşlərdə Cavanşir, Babək, Alparslan, Xətai, Əfşar, Nuru paşa, Etibar İsmayılov, Namiq Abdullayev, Sadiq Hüseynov kimi qəhrəmanların ruhunu özündə qonaq edib bu ruhda döyüşdüyünə görə hərbi hissə tərəfindən təqdir olundu. Sonra bir yerdə cənnətə köçəcəkləri yoldaşları onu Qəhrəman bildilər, hörmət bəslədilər. Və rəhbərlik mükafat qaydasında ona vaxtından əvvəl "baş leytenant" hərbi

rütbəsi verdi. O, 2018-ci ilin oktyabr ayında Qərargah və təchizat bölüyünün komandiri vəzifəsinə təyin olundu.

Qanlı bir döyüşdən çıxan Samiri öz elində, obasında daha fərqli tanıdılar. Samir Ulu palıdı üçün bir fidan deyildi, onu qoruyan bir ağac idi. Bəli, Şəhid ağacların can verdiyi fidanlar illər keçdikdən sonra böyüdülər və qüdrətli, qüvvətli ağaca çevrildilər. Bu ağaclar qisas alan ağaclar olmaq istəyirdilər. Samir də belə bir ağac idi, həm də geniş kölgə salan ağac. Onu artıq yoldaşları, yaxınları "Kölgə" adı ilə tanıyırdılar. Onun zəhmli görkəmi təlim keçdiyi əsgərləri qorxutmurdu, əksinə, onların kişilik məktəbində əsl kişi kimi yetişməsində böyük rol oynayırdı. Samir də illərlə bu kişilik məktəbinin şagirdi olmuş, illərlə oxumuş və sonra bu kişilik məktəbinin əsl sərkərdələrindən, müəllimlərindən biri olmuşdu. Xüsusi təyinatlı Samir hamının fəxr, vüqar yeri idi. Naxçıvan xüsusi təyinatlıları arasında Samir bir başqa idi.

Ulu palıd Samirlə sağlığında fəxr edirdi. Onu Ulu palıdın bütün budaqları tanımasa da, yönü Ağcabədiyə və Naxçıvana olan budaqlar onu tanıyırdı və tanıdığına sevinirdi. Samir hər kəsin istəklisi, xatirli-hörmətli oğul idi. O, Ulu palıdın köksündə əsrlərdən bəri yer almış yaralarına su səpir, yaralarına məlhəm olub onu sarıyırdı. Xüsusi təyinatlıların müharibədə aslantək döyüşmələri üçün başlanan və davam edən çətin, amma şərəfli təlimlərdə Samir əsl bölük komandiri, əsl başçı kimi davranır, özünü sanki hər gün müharibədə hiss edir, müharibəyə hazırlayırdı. Bu olanlar hamısı Samiri daha da bərkidir, möhkəmləndirirdi. Bu Ulu palıdın polad kölgəsi idi Samir.

Samir bilirdi ki , Ulu palıdın yaraları var. İllərlə, əsrlərlə bu palıdın elə budaqlarını qırıb atmışdılar ki, palıd bu ədalətsizliyə qarşı hiddətindən az qalırdı kökündən çıxa. Lakin bununla belə o, budaqlarının, kölgəsinin, ağaclarının sayəsində hələ də yaşayırdı. Onun yaraları kölgəsini, budaqlarını və ağacları göynədir yandırırdı. Ancaq Ulu palıd güc toplayıb özünü ayaq üstə saxlaya bilmişdi və Samir kimi kölgələr, ağaclar onu sonadək qoruyacaqdılar. Samir fikirləşirdi: "Belə hara qədər gedər axı? Nə vaxta qədər belə olacaq?". Çünki qırılan budaqların xəzəl olmuş yarpaqları var idi və bu, onlara göz dağı idi. Onlar budaqlarından didərgin idi, bir fəslin yox, 4 fəslin xəzəlləri idi bunlar. Samir bu xəzəlləri görmək istəmirdi. Çünki bu xəzəllər Ulu palıdın yarpaqları idi, Ulu palıd bu xəzəlləri gördükcə yarası təzələnirdi. Həqiqətən də bunun bir sonu olmalıydı. Düşmən od, düşmən ağaclar hələ də Ulu palıda hücum etmək üçün dişlərini qıcamışdılar. Yəni, hər gün atəşkəs pozulurdu. Ulu palıdı qoruyanlar da artıq bu ədalətsizliyə son qoyulmasını istəyirdilər. Bir əks-hücumla bu ağacın kökünü kəsmək, bu oda məcrasından çıxıb kükrəyən sellə cavab vermək istəyirdilər. Və Samirin də səbri tükənməyə başlamışdı. İnanırdı ki, belə gələn belə getməyəcək. Bu yazılan axıra qədər belə qalmayacaq. Bəxt, yazı təzələnəcək... Göydəki Allahın icazəsi ilə bunlar hamısı Samirgilin üzərinə düşürdü. Samirgilə ancaq məqamını gözləmək qalırdı. Bəs nə vaxta qədər? Artıq Ulu palıda inam verən böyük budaqlar qırılıb-atılırdı. Belə ki düşmən məkri nəticəsində səngər generalı Polad Həşimov və onun silahdaşı polkovnik İlqar Mirzəyev şəhadətə qovuşmuşdu. Bu budaqlar yarpaqları ilə (generalla birgə şəhadətə yüksələnlər) yerdə qalırdı. Ulu Palıd bunları görməkdən səbirsizlənmişdi. Ona görə də sonuncu budaqlar kəsilmədən vaxtı, məqamı yaxınlaşdırmaq lazım idi.





Samirin dualarında həmin günün gəlməsi, qəhrəmanımızın tez düşmən üzərinə şığıması, yenidən düşmənə həddini bildirməsi istəyi var idi. Allah Samirə səbir verirdi. Səbir... Bu səbir isə artıq Zəfərə açılan qapıya dirənmişdi.

O səbir gəldi və o qapıları açdı... Uzun müddət gözlədiyimiz gün bir anda gəlib çatdı. O gün ki, bizim varlığımızda, ürəyimizdə, mənliyimizdə, şərəfimizdə bir yeri vardı... O günün özü bəlli idi, lakin nə vaxt olacağı uzun müddət gizli qalıb ürəyimizi oyurdu... iki əsrlik, sonda isə 30 illik həsrətin bitəcəyi günlər başlayırdı... Bu günlər Samirin günləri idi... Bu günlər onun kölgəsi olduğu Ulu palıdın günləri idi...

Samir həmin günlərdə bölük komandiri vəzifəsinə təyin edilmişdi. O, düşünürdü ki, döyüşlərin ilk günündə Qarabağda olacaq və döyüşəcək... Lakin bu yol çətinliklərdən keçirdi, həmin çətinlik də hamıyla vidalaşıb Samirlə və onun döyüş yoldaşları ilə birgə işinə davam etdi... İşlər gecikməli oldu. Samir canından çox sevdiyi Qarabağda olanlardan sadəcə komandanlıq, rəhbərlik vasitəsilə xəbər tutacaqdı. O isə odun-alovun içində olmaq istəyirdi. Günlər keçir, qəhrəmanımızın ümidi, səbri daha da sınağa çəkilir. Bu dəfə döyüş Samirin daxilində başlayır... Ümidlə həsrətin döyüşü... Və ümid qalib gələcək, bu Zəfərlə birlikdə Samir müharibəyə, döyüşə, oda-alova, Şəhadətə atılacaqdı...

Qəhrəmanımız hər gün daxilən uca Allahı ilə söhbət edirdi: "Mənə o günü göstər, uca Allahım! Ulu adın xatirinə, məni Qarabağsız eləmə! Qoy mən də Qarabağda döyüşüm, mən də uca palıdımı qoruyum, qırılmış budaqlarına həyat verim, qisaslarını alım! Məni də bu şərəfə layiq eylə, Allahım! Cavabını qəlbimə doldur, Allahım! Bilim ki, bu şərəfə layiqəm, ya da yox... Döyüşçü xəyalım xəyal olaraq qalmasın, Allahım!"

Onun diləyini dinləyən uca Allah arzularını ürəyində qoymadı. Bir az gec olsa da güclə gerçəkləşmədi bu arzu... Allah Samirin döyüşə aparan qapısını qıfıllamadı, ipini üzmədi, çünki Samir Allahın sevdiyi qulu, uca palıdının xidmətçi kölgəsi, ağacı idi!

Samir 17 oktyabr 2020-ci il tarixində yol boyu Allaha şükürlər edərək döyüşçü yoldaşları ilə birgə Qarabağa yola düşdü. O, ərənləri ilə yol boyu bu mövzuda söhbət etdi:

– Qardaşlarım, arzularımız gerçək oldu! Biz Allahın sevdiyi qullarıyıq! Allah bizim ümidimizi artırdı, həsrətimizi öldürdü, o günü bizə yaxın etdi, duamızı qəbul etdi! Bundan sonra bizə qalır ki, sona kimi döyüşək, son erməni cəlladına qədər məhv edək, ən böyük Zəfərə qədər gedək! Qarabağı bu işğalçılardan, vandallardan xilas edək! Allah bu duamızı gerçək etdisə, deməli, yanımızdadır və düşmənlərə qarşı bizimlədir, çünki O, haqqın tərəfindədir! Allaha etiqadımızla, inamımızla, imanımızla bu düşmənləri yerə vuraq! Qarabağı görən gözümüz döyüşlərdə gücümüzdür, yəni son damla qanımız tökülən zaman düşünsək ki, Qarabağdayıq, 30 il Azərbaycanımızın ayağı dəyməyən torpaqlardayıq, onda, cana gələrik və döyüşərik! Bu əzmlə, bu ürəklə, bu güclə düşmən qabağımızda heç nədir! Hoydu, igidlərim, yeriyək düşmən üstünə!

Samirin ürəyindən bundan uca, əziz, istəkli, bundan ülvi sözlər keçmirdi. Ürəyini o gün boşaltdı Samir. Və onun əsgərlərinə, döyüş yoldaşlarına verdiyi fərəh, güc sözlə ifadə oluna bilməyəcək qədər idi. Düşmənlərdə isə bu yox idi. Onlar bir-birlərinə "Bu Vətən bizimdir, bizə əmanətdir, qorumalıyıq!" deyə bilməzdilər. Çünki onların olmayan Vətəni bura deyildi. Heç bir yer deyildi. Qorxub qaçan, müqavimət göstərməyə aciz olan fərari azğınlara isə dərs vermək Samir kimi oğulların əlində çox asan idi.

Füzulinin düşmən işğalından azad olunduğu gün Samir döyüş yoldaşları ilə birlikdə Qarabağa, döyüş meydanına gəldi. Ertəsi gün onu döyüş meydanına aparan qapıları açdı və hər igid, hər ərən kimi o da özünü ər meydanına atdı. Müharibədə Samirin iştirak etdiyi ilk döyüşlərdə ermənilərin üzündə çarəsizlik açıq şəkildə görünürdü. Onların bəziləri hətta Samiri tanıyırdılar. Belə ki, Samir onları hələ Günnütdəki ər meydanında qəhrəmancasına məğlub etmişdi! Samir onların eşitdiyi son sözü qulaqlarına pıçıldayırdı: "Mən gəldim, alçaq erməni cəlladı! Biz gəldik! Əzrailiniz olaraq gəldik!". Düşmən ən ağır şəkildə ölmək istəyərdi, lakin Samirin əlində ölmək istəməzdi. Çünki Samirin düşmənə amansızlığı üz-üzə gəldikləri ilk dəqiqələrdən özünü göstərirdi, belə ki düşmən əsgəri döyüşməkdənsə onlarda fərarilik hissi daha çox baş qaldırırdı. Bizdə isə Vətən eşqi, Qarabağ eşqi, azad olunacaq torpaqlara ayaq basmaq hissləri baş qaldırır, zirvədə özünə məskən salırdı.

Samir Füzuli rayonunun bir sıra kəndləri, Zəngilan, Qubadlı, Xocavənd rayonunun Tuğ kəndi, Laçın koridoru istiqamətində gedən döyüşlərdə mərdliklə və qəhrəmanlıqla savaşdı, özünü əsl vətənpərvər, qəhrəman kimi göstərdi. Döyüş əməliyyatları zamanı o, Naxçıvandakı təlimlərdə ona verilən bıçağı üzərində daşıyırdı. Ehtiyat igidin, Samirin yaraşığıdır axı... Qəhrəmanım Ulu palıdın qırılmış budaqlarını yenidən Ulu palıdda görürdü və öz-özlüyünə sığmırdı. Gördüklərindən cuşa gələrək düşməni daha çox məhv edirdi. O, bilirdi ki, vaxt azdır, iş çoxdur, qısa vaxt ərzində Ulu palıdın bütün qırılmış budaqlarını özünə qaytarmaq, Ulu palıdın yaralarına məlhəm qoyub ona yeni həyat vermək lazımdır.

Və Samirin döyüşə başladığı gündən bir neçə gün də keçdi. Samir gözlərinə inana bilmirdi. Sanki bu, onun üçün yuxu idi, lakin bunun yuxu olmasını istəmirdi. Bəli, bu, yuxu deyildi, bunu kifayət qədər görmüşdük yuxularımızda, düz 30 il! 30 il yuxularda gördüyümüz artıq gerçəkləşirdi. Samir yuxuda yox, gerçəkdə Şuşaya sarı baxırdı, özü də uzaqdan yox, yaxından! O, sürətlə bu yerlərə qədər gəlib çatmışdı. Vaxtından əvvəl bura qədər gəlmişdi. Özü də düşməni mat edəcək sürətlə gəlmişdi. Samir Ağdamla, doğma yurdu Ağcabədiylə adı bir çəkilən, dilbər guşəmiz Şuşanı görə bilirdi. Tapşırıq müharibənin son tapşırığı və ən böyük Zəfəri bizə gətirəcək tapşırıq idi. Azərbaycanın Şuşaya aparan qapısını açmalı, Şuşanı azad etməli, 30 il edə bilmədiyimizi etməli, Şuşada Zəfər bayrağımızı sancmalı! Samir Allahına Şükürlər edirdi. Ulu Palıdın qırılmış son budağını ona qaytarmaq qalırdı və bundan sonra Ulu Palıdın qırılmış budaqları yenidən həyata qayıdacaqdı. Samirin qəhrəmanlığı bu müharibəylə taclanacaqdı! Bunun üçün bircə yol var idi! Ya Zəfər, ya Zəfər!

Samir "Ey böyük Allahım! Sən öz ucalığın xatirinə bizə yerdən göylərə qədər güc -qüvvət ver!" – deyərək Şuşa yolunda döyüşlərə başladı. Qardaşına Tuğdan şad xəbərləri müjdələyən Samir Şuşada bütün millətə müjdə vermək istəyirdi. Bura qədər gəlmişdisə, sevdiyi qulu olduğu Allah Şuşada sona qədər döyüşməyə də ona icazə verəcəkdi. Döyüşmək ona qalırdı. Şuşa torpağında ayaq açıb yerimək, Şuşanı doya-doya görmək, havasını ciyərə çəkmək Samir üçün hər şey idi. Xalqımızın ümidlərini daş altda basdıran Daşaltı onlar üçün ər meydanıydı. Qisas Daşaltıda alınırdı və Şuşada zirvəsinə çatmalıydı! Utanc bizdən ermənilərə ötürülürdü. Bizim Zəfər günümüz onların utanc





günü idi. Tarix təkrarlanırdı, bu dəfə rollar dəyişilmişdi. Samirgil ermənilərin güllə ilə qorxutduğu o vaxtkı çağalar deyildi, düşmənləri qorxudan, lərzəyə gətirən, "düşmən əsgərləri"nin qocasına-cavanına baxmayıb məhv edən, parçalayan aslanlar idi! Samir Daşaltında düşmənlərin başına daş salırdı... Ulu Palıd üçün artıq sağlam, bütöv, tam olmanın son mərhələsi idi, bundan sonra O, bütün budaqları sapsağlam, yenə əvvəlki kimi, məğrur olan həmin əvvəlki Ulu Palıd olacaqdı. Yarasından əsər-əlamət qalmayacaqdı.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun xüsusi təyinatlı fatehlərinin tərkibində vuruşan bölük komandiri Samir Mikayıllı üçün günlər sayılırdı... Çox az qalmışdı, çox az...

– Komandir, qəlbimizdə, ürəyimizdə əbədi olan Şuşa indi günü-gündən bizə daha yaxın olur, bir həftə əvvəl aralıdan qaraltı kimi görünürdü, indi lap yaxınımızdadır. -Bu sözləri Samirdən ruhlandırıcı cavab almaq istəyən əsgər həyəcanla dedi. Bu günləri gözləmirdi sanki: Hər şey iki-üç həftənin içində oldu.

– Şükür Allaha, qardaşım! Şükür! Vaxt var idi, kilometrlərlə uzaqda idik. Sadəcə yuxularımızda görürdük yaxınlığımızdakı Zəfər tağını. Arzumuz yerinə yetir, qardaşım! Biz bacarırıq! Bacaracağıq Allahın icazəsiylə! 30 il xəyalını qurduğumuz Şuşaya bu gün-sabah çatacağıq, Şuşamızın həsrətinə son qoyacağıq , inşəAllah!

Samirin bu sözlərindən bütün əsgərlər ruhlandılar. Hamı bir ağızdan qışqırdı:

– Şuşa bizimdir, bizim olacaq! Şuşa bizimdir, bizə qayıdacaq! Səfər bizim, Zəfər Allahındır!

Ertəsi gün gündən-günə Zəfərə yeriyən, pələng kimi, şir kimi, aslanlar kimi düşmən üzərinə atılan, sürətiylə tozu dumana qatan Samirgilin dəstəsi arzuladıqlarına – Şuşaya çatdılar. Budur, bu həsrətlə gözlədiyimiz 30 il, bu da vüsalına bir-iki həftədə qovuşduğumuz Şuşa! Şuşa bizim oldu! Samirin nuruna nur qatırdı Şuşa. Bu Zəfər Samirin qəlbində, köksündən başlayıb bütün bədəninə xoş bir ənbər kimi yayılırdı. Əsgərlərin nuru tez zamanda Şuşanı bəzədi. Şəhidlərin ruhu Şuşa göylərində əbədi olaraq pərvaz etdi.



Samir nərə çəkərək təzəcə sancılan Zəfər bayrağını qürurla süzdü:

– Ey Ulu Palıd! Ey Azərbaycan! Sən sağaldın! Biz qırılmış budaqlarının qisasını aldıq! Sənin yaran yoxdur daha, heç bir parazit, qurd səni didə bilməz. Çünki sənin dövrəndə Bozqurdlar var! Sağalmaz yaran Şuşa unudulmaz Zəfərinə şahid oldu! Şahid ol, ey Dünya! Şuşa azaddır!

Döyüşdə göstərdiyi şücaətlərə görə komandanlıq həmin gün Samirə vaxtından əvvəl "kapitan" hərbi rütbəsi verdi. Ulu Palıd Samiri gözündə daha bir qat da yuxarı qaldırdı. Və

ertəsi gün Samir o qədər ucalacaqdı ki, lap zirvədə, Peyğəmbərlərin yaxınlığında olacaqdı.

Ailə Şuşanın azadlığına, Samirin Zəfərinə və onun aldığı yeni rütbəyə sevinirdi. Evdə bayram ab-havası vardı. Yaxınları elə sevinirdilər ki, sanki müharibə tam bitmiş, Samir zəfərlə evə qayıtmışdı. Bundan sonra nə olacaqdı? Samir üçün sevinənlər olacaqlardan bixəbər, fələk isə xəbərdar idi. Bu sevincdən tez qəzəbləndi fələk və acığını, odunu, alovunu bu ailənin üzərinə tez də atdı...

Ailə ertəsi gün Samirlə telefonla hal-əhval tutmaq üçün onun rəhbərliyinə zəng vurdu:

– Salam, cənab komandir. Mikayıllı Samirin yaxınlarıdır narahat edən. Ondan bir məlumat verərdiniz, zəhmət olmasa.

Telefonun o başında komandir çarəsiz vəziyyətdə susub qalmışdı. Bu üzücü sözü demək asan məsələ deyildi belə vaxtda. Komandirin canı o qədər sıxılırdı ki, özünü toxdada bilmirdi... İndi Samirin ailəsinə necə desin bu xəbəri?

Nəhayət, komandir özündə güc tapıb qəhərli halda, lakin qürurla bu sözləri dedi:

– Mikayıllı Samir bu gün qəhrəmancasına şəhidlik zirvəsinə yüksəldi!.. O, bizim qəlbimizdə, ruhumuzda, yaddaşımızda əfsanə, dastan olaraq yaşayacaq, qalacaq... Samirin ürəyində, qəlbində sözlər çox idi... Sizə demək istəyirdi ki, Şəhid olsam, ağlamayın. Belə uca Zirvəyə çatmağın harasında qəm-kədər var axı?..

Əvvəlcə qarşı tərəfdə qısa susqunluq hökm sürsə də bu uzun müddət davam etmədi, nəhayət, hıçqırtı içərisindən bu sözlər eşidildi; "Vətən sağ olsun komandir, siz sağ olun. Ali Baş Komandanımız sağ olsun!".

Komandir belə xəbəri alan bu valideyn sarsılmazlığına, mətinliyinə heyran qalaraq dedi;

– Belə vətəndaşı, əsgər valideyni olan Vətən əbədiyaşardır! Qardaş, Allah Sizə səbir versin!.. Onunla dünyadolusu fəxr edin. O, məğlub ölkənin Şəhidi deyildi, O, Şuşa torpağında qalib kimi döyüşməklə onu düşmən tapdağından azad edərək qəhrəmancasına Şəhid olan Azərbaycan əsgəridir! Eşq olsun belə igidlərimizə!...

Samir Mikayıllı 9 noyabr 2020-ci ildə Şuşa istiqamətində müharibənin bitməsinə 1 gün qalmış düşmənin namərd gülləsindən aldığı yaradan qanaxma nəticəsində şəhidlik zirvəsinə yüksəldi!.. Və sonuncu dəfə gözü ondan sonra böyüyəcək, hələ təzə əkilən Şuşa fidanlarına baxdı... "Ah, necə gözəl hissdir, Şuşada Şəhid kimi göylərə qalxmaq, uçmaq, pərvazlanmaq... Allahım, Sənə sonsuz Şükürlər olsun! Sənə həmd olsun!" – deyib Allahın dərgahına getdi Samir.

O, doğulduğu Ağcabədi rayonunun Salmanbəyli kəndində torpağa tapşırıldı. Şəhadətindən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", Şuşanın, Füzulinin və Xocavəndin azadlığına görə medalları ilə təltif edildi. Onun xatirəsinə Ağcabədidə bir park açılıb... Yeni əkilən fidanlar baxıb ruhlansınlar və bu ruhda böyüyüb ağac olsunlar deyə...

Allahdan bütün Şəhidlərimizə rəhmət diləyir, Şəhidimizin nurlu xatirəsinə həsr etdiyim "Samir" şeirini oxucuların diqqətinə çatdırmaq istəyirəm. Ulu Palıdın Səni sonsuza qədər xatırlayacaq, onun sədaqətli mühafizi Samir! Ruhun şad olsun!





**Samir**

Ey düşmənin üzərinə,
Aslan kimi gedən Samir.
Qələbə, Zəfər yolunda,
Ömrünü əridən Samir.

"Kölgə" ləqəbin ilə Sən,
Asan qorundun düşməndən.
Şəhid oldun, qalib gəldin,
Məğlub edəmmədi düşmən.

Çevrildin Ulu dastana,
Həqiqi bir əfsanəyə.
Kölgəydin Ulu ağaca,
Qoymazdın bir kimsə əyə.

Mənə görə, Şəhidim, Sən,
Ulu dağsan, bir zirvəsən.
Döyüşünlə ruh vermisən,
Hər zabitə, əsgərə sən.

Fəxr edəcək bu millətin,
Səndən sonra oğulları.
Sənin kimi igidlərdir,
Vətənin dövləti, varı...

Fəxr edir səninlə Vətən,
Əbədi fəxr edəcəkdir.
Şəhid adınla yaşayıb,
Göylərə yüksələcəkdir.

*19.08.2021*
*"Kredo" qəzeti,*
*25.08.2021, 01-08.09.2021*

## ŞUŞA FATEHİ, ZƏFƏRİN OĞLU



*Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Xüsusi Təyinatlı Dəstəsinin baş çavuşu şəhid Səid Zəfər oğlu Cəfərovun əziz xatirəsinə həsr olunur (04.02.1993-cü il Neftçala rayonu Xolqarabucaq kəndi – 09.11.2020-ci il Şuşa şəhəri)*

***Mən Şəhid olub tarixdə yaşamaq istəyirəm...***
*8-ci sinif şagirdi Səid Cəfərov*

***Mən döyüşçüyəm, göydə ay görünsə belə siz məni görməzsiniz.***
*Döyüşçü Səid Cəfərov*

***Əgər bu gün torpaqlar işğaldan azad edilməsə, gələcək körpələr bizə nifrət edəcəklər!***
*Qisas Günündən 1 gün əvvəl Səid Cəfərov*

***Mən ələyam...***
*Son sözünü söyləyib şəhidlik Zirvəsinin Fatehi olan Səid Cəfərov*

Bu günə qədər çox dastanlar eşitmişik... O dastanlar bizim həyatımızm mənasına çevrilib, bizim məqsədimiz, məramımız, həyat amalımız, ən böyük arzumuz olub. Bir dastan bir millətin dirilişinə, dirçəlişinə zəmin yaradıb. Bir dastanı oxuya-oxuya böyüyən artıq neçənci şəhid, neçənci qazi nəsli yetişib. Mən bu məqaləni yazdığım tarixdən 33 il əvvəl bir dastan yazılmışdı. Əli və Bəxtiyar dastanı... (22 fevral 1988-ci ildə DQMV-də ermənilərin Qarabağ ərazisinin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistan SSR-in tərkibinə birləşməsi barədə qəbul etdikləri qərara etiraz əlaməti olaraq azərbaycanlıların keçirdikləri dinc etiraz yürüşü zamanı Əsgəran rayonunda erməni quldurları tərəfindən qətlə yetirilən ilk şəhidlərimiz – Ağdam rayon sakinləri Hacıyev Əli Kamal oğlu və Quliyev Bəxtiyar Zahid oğlu). Ondan 2 il sonra yenə bir dastan yazıldı. Elə haqqında danışacağım dastan yazanlarımızdan biri də həmin dastanı tamam-kamal oxuyub bilənlərdən olub və o dastan bu qəhrəmanımıza ilham, güc-qüvvət verib. 1990-cı ilin 20 Yanvar azadlıq, müstəqillik dastanı, qəsbkarlara, imperialistlərə, qəddarlığa, zülmə baş əymək, etiraz etmək, köləlik buxovlarını qırmaq dastanı... !

Baxın, Azərbaycanımız neçə-neçə belə dastanları olan bir ölkədir. Onun hər qarışında tarixli bir dastan, hər zərrəsində unudulmaz, heç vaxt yaddan çıxmaz dastanlı ulu bir tarix yatır. Mannadan üzü bəri olan dövlətçilik tariximizdə vətənimizin minlərlə xaini olubsa da, həmin xainlərin hamısını məhv edən, başını əfi ilan başı kimi əzən on minlərlə vətən fədailəri, qəhrəmanımız olub. Tariximiz dastanlarımızla doludur, dastanlarımız da tariximizlə: Tomrisin dastanı, Atropatenanın dastanı, Cavanşirin, Babəkin, Koroğlunun, Qaçaq Nəbinin, Böyük Vətən müharibəsində faşizm üzərində qalib olan həmyerlilərimizin, eləcə də Birinci Qarabağ savaşında erməni faşizminə qarşı mərdliklə döyüşən igidlərimizin mübarizə dastanı... Diqqət etmisinizsə, Vətən müharibəsində şəhidlik zirvəsinə yüksəlib ulu Cavanşirin, Babəkin, digər qəhrəmanlarımızın cənnət qonşusu olan neçə-neçə Cavanşirlərimiz, Babəklərimiz var... Onlar tamamilə dastan olan və dastanları ilə bərabər müasir tariximizi qanları ilə yazan şəxsiyyətlərdir, yazdıqları tarix ilə əbədi olaraq yaşayan insanlardır, ruhən Qarabağ səmalarında, cismən sazımızda, sözümüzdə, qanımızda, canımızda, dastanlarımızda, şeirlərimizdə, bəstələrimizdə, musiqilərimizdə, ağılarımızda, bayatılarımızda, filmlərimizdə, tariximizdə... Bizim onları yaşatmaq üçün sərf etdiyimiz hər əməkdə, etdiyimiz hər əməldə, hər anımızda, ürəyimizi hərəkət etdirən udduğumuz nəfəsimizdə yaşayanlarımızdır... Hazırda haqqında yazacağım, öz qanı ilə qəhrəmanlıq dastanını özü yazmış, sağlığında dastanına, şəhadətindən sonra tabutuna, məzarına sığmayan Qəhrəmanımızdır... Oxuduğu, məqsədi, amalı bildiyi dastanlarımızdan güc alaraq, şəhidlərimiz üçün düşməndən öc alaraq Şəhidlik Zirvəsinə ucalan və həm Şuşanın, həm də Şəhidlik Zirvəsinin Qəhrəmanı olan bir Qəhrəman... Sözün əsl mənasında həm Zəfərli Vətənin və həm də həqiqətən Zəfərin oğlu olan bir Qəhrəman...

Bu Qəhrəman Vətən Müharibəmizin yenilməz igidlərindən biri olan Şəhid Səid Zəfər oğlu Cəfərovdur...



Şəhid baş çavuş Səid Cəfərov 4 fevral 1993-cü ildə Neftçala rayonunun Xol Qarabucaq kəndində anadan olmuşdur. Onun qisas qığılcımını şöləl追ənən alov edən, onu əsl Səid edən bir milləti parçalamağa sürükləyən, xainləri çoxaldan, Vətəni oğullarından ayrı qoyan o müharibə bitəndə Səidin 1 yaşı var idi. 1 yaş... Səidin yaşadığı ilk birillikdə çox şeylər oldu, çox hadisələr baş verdi... Azərbaycan yenə itirə-itirə getdi, Təxt-i-Nadir sahibinin külləri göyə sovrulmaqda davam etdi, sonradan öz yurdunu igidliklə azad edib şəhidlik zirvəsinə yüksələn oğullar öz yurdundan hələ körpə olarkən ayrıldı... Murovdağda gələcəkdə general olmaqdan çox, bizim qisas alovumuz olan şəhid Polad Həşimov və neçə-neçə oğullar Qarabağ müharibəsinin minlərlə igid Vətən oğullarımızın canını alan qanlı-qadalı döyüşünə şəhid oldu... Bu 1 ilin sonunda canımızdan can alan, qanımızdan qan alan o müharibə müvəqqəti olaraq bitdi, bu illərdə Azərbaycan ədalətsiz müharibənin məğlub ölkəsi kimi tarixdə qaldı, yaddaşlara hopdu. Neçə-neçə ulularn ruhu öz dədə-baba torpağında qəriblikdə, qür-

bətdə qaldı. Aşıq Ələsgər hələ buna qədər öz vətənində qərib idi, dünyaya göz açdığı, ilk ayaq üstə durub addım atdığı doğma Vətən torpağı onun üçün qürbətə çevrilmişdi... Neçə-neçə bəy-igidlərin, rəiyyətin, işğalçı yüksək çinli zabitlərə qan udduran qaçaqların, onların qeyrətli xanımlarının, saz-söz adamlarının, döyüşdən-döyüşə atılanlarla məclisdən-məclisə quş kimi uçanların, papağının çəkisi sözü ağırlıqda olan ağsaqqalların, sifəti nurlu, ağzı dualı ağbirçəklərin ruhu sonradan qürbətə çevrilən Vətəndə narahat olaraq qaldı...

Səid 1999-cu ildə İlqar Səfərov adına Mürsəqulu kənd tam orta məktəbinin 1-ci sinfinə daxil olmuşdur. Həvəslə, cəld, inamlı addımlarla hər gün daxil olduğu sinif otağı onun gələcək arzularının həyata keçirilməsi üçün bir mənbə idi. Bu mənbədən qaynaqlanaraq o, təhsilin, elmin sirlərinə yiyələnir, elmin bütün sahələrini həvəslə öyrənir, lakin tarix fənninə daha çox vaxt ayırırdı. Hələ kiçik yaşlarından Vətəninə bağlı olan, özünü Vətənindən ayrı hiss etməyən, ən çox sevdiyi sözlərdən biri və birincisi "Vətən" olan Səid hər tarix dərsi olanda çox sevinirdi. Tarix müəlliminin tarix xəzinəmizdən çıxarıb dediyi sözlər, kəlmələr Səid üçün tarix dərsindən çox, həyat dərsinə çevrilirdi. Təsadüfi deyildi ki, Səid mənfur düşmənə qarşı köksündə baş qaldıran qisas qığılcımını məktəb illərində şölələndirmiş, şölələnib-kükrəyib ətrafa yayılacaq bir alova çevirmişdi.

Hər tarix dərsində Azərbaycanın Eldəgizlər, Səfəvilər, Əfşarlar kimi dastanlarını oxuyan, dərindən qavrayan, həyat dərsi hesab edən, mənliyinin, özünün, öz kökünün dərsi hesab edən Səid getdikcə tarixdə baş verən haqsızlıqlara görə özünü narahat hiss etməyə başlayırdı. Çünki tarix dərsinin səhifələrində illər ötür, dövlətlər dəyişir, bəziləri isə ədalətsizliyə, xainliyə, satqınlığa tab gətirə bilməyib səhifədən silinirdi. Əfşarlar dövlətinin xaincəsinə dağılmasından sonra Azərbaycanda ən dəhşətli dövr, xanlıqlara parçalanma dövrü başlandı. Əfşarlar Azərbaycanın fəthdən fəthə atılan son dövləti oldu. Bu cümləni oxumaq və ya eşitmək Səidə dünya boyda bir dərd, bir əzab idi. Necə yəni, keçmişi ilə silinməz mərdlik, qəhrəmanlıq salnaməsi yazan qüdrətli Azərbaycan indi ədalətsizlik, haqsızlıq qarşısında məğlubdur?.. Vətənində qaçqınlıq həyatı yaşayanlar isə bunun əyani sübutu idilər. Onlar yorğun, dağ boyda əzab-əziyyətlərdən, neçə-neçə terrorlardan, soyqırımlardan çıxan, Allahdan qisas istəyən baxışları ilə bunu deyirdilər. 1988-ci ilin bu günü, yəni 22 fevralı verdiyimiz 2 Şəhiddən başlayan bu qanlı-qadalı yol ilə bağlı yazılmış, özlərini ədalətli kimi göstərib ədalətdən xəbəri olmayanlara və haqsızlıqlara qarşı yazılmış bu kitabın səhifəsini belə açmayaraq kənara atanlara qarşı Səiddə hələ o vaxtlardan hiddət yaranırdı. Haqsızlıqlara qarşı olan bu kitabın hər səhifəsi ona 500-600 səhifədən çox yazılmış bir roman kimi gəlirdi. Bu kitabın oxunması tarixin özü kimi əziyyətli, əzablı, çətin idi. Əzablı yollardan keçən Azərbaycanın vəhşət dolu, dəhşət dolu tarixini oxuyurdu Səid. Bu kitabın hər sətrini oxuyanda qəzəbdən, hiddətdən onun kiçicik əli möhkəm sıxılmış yumruğa çevrilirdi. Günlərlə oxumağa, oxuduqlarını həzm etməyə çalışırdı, lakin bacara bilmirdi. Əzab çəkirdi. Elə bil içində inləyən, haqsızlığın qurbanı olmuş neçə qoca, qadın, cavan, uşaq harayı var idi. İçini sakitləşdirə bilmirdi. İçində bir yanğı var idi. Oxuduğu hər sətirdə bu yanğı daha da çoxalır, yayılırdı. Damardakı qanlarla birlikdə axırdı bu yanğı. Səid gözü açıq yatırdı, yatsa da, yuxusuna ancaq Xocalıda qətlə yetirilən uşaqlar, qadınlar, ağsaqqal-ağbirçəklər gəlir,





onlar hayqırmağa başlayırdılar: "Böyü Səid, böyü, qisasımızı al! Böyü, qisasımızı al! Sənə güvənirik, sənə inanırıq! Bizi yanıldıb küllərimizi yenidən yandırma! Qisasımızı al, ruhumuzu dirçəlt, şad elə, Səid!"

Bu yanğı həmin vaxtlardan Səidin qəlbinə çata bilmişdi. Həmin vaxtlar Səid 8-ci sinifdə oxuyurdu. O vaxtlarda Səid artıq mənliyi ilə, öz-özlüyündə dərk edəcəkdi ki, tale yolları haradan başlayıb haraya kimi davam edəcək. Bu qədər yanğılı hadisələr onun sinəsini dağlayırdı. Ürəyi paramparça idi Səidin. Duyğuları bir-birinə qarışmışdı. Hətta, Qarabağsız ötən hər gününü matəmdəki kimi hesab edirdi O. Səid gələcəyə inamla baxırdı. İnanırdı ki, arzuladığı, arzusunda olduğu elə bir gün gələcək ki, iztirablarına, acılarına son qoyulacaq, qəlbi, ürəyi, içi, duyğuları rahatlıq tapacaq. Səidin həyatı o gün, dünyası isə illər sonra dəyişəcəkdi. O gün elə bir gün olacaqdı ki, Səid o gündən sonra qarşısına məqsəd qoymasaydı, bu günlərə qədər gələ bilməyəcəkdi. O gün Səidin əsl Səid olduğu gün olacaqdı. Həmin gün Səid özünü Vətəni kimi hiss edəcəkdi, hər gün etdiyi kimi. Və bundan sonra sadəcə, bir amalı olacaqdı – Düşməndən qisas almaq, Qisas, Qisas, Qisas! Bu amal Səidi sonda həm Qəhrəman, həm də dastan edəcəkdi... O gün onun dünyasını dəyişdirəcəkdisə də, arzusunu ürəyində, ruhunda, canında, mənliyində qoymayacaqdı qalsın...

8-ci sinif şagirdi Səid Cəfərovun tarix dərsi idi. Təxmin etmişdi ki, müəllimə yenə də Azərbaycanın faciələrlə, soyqırımlarla, müsibətlərlə dolu bir tarixini yana-yana, həm də yandıra-yandıra danışacaq. Bu dərsi dinləmək Səid üçün ən ağır əzab-əziyyətə bərabər idi. Səid günlərlə özünü sıxıb bu dərsi oxuyurdu, bir gözü sətirlərdə, o biri gözü şəkillərdə olurdu. Şəkillərdə 20 Yanvar qurbanlarının tanklar altında necə qalması əks olunurdu. Şəkillərdə vəhşət var idi... İnsanın ürəyi parçalanır, gözləri qan ağlayırdı. Səid bunları ilk dəfə oxumurdu... Ancaq ürəyində, canında həmişə hiss etdiyi o yanğı hər dəfə daha güclü olurdu. Bu qanlı-qadalı tarixi oxuya-oxuya, öyrənə-öyrənə, oxuduqca, öyrəndikcə alovlana-alovlana Səid artıq yeniyetmə yaşına çatmışdı. O, ibtidai sinfi təzəcə bitirmirdi, indi onun yaşında Cəmşid Naxçıvanski adına hərbi liseydə tələbələr var idi... Hərbi lisey... Səidin fikrində bu söz heç vaxt bu qədər əks-səda doğurmamışdı...

Müəllimə müsibəti heç vaxt bu qədər dolğun anlatmamışdı, elə bil onun içində də yanğı böyük idi:

*– Uşaqlar, 20 Yanvar bizim Ümumxalq Hüzn Günümüzdür. 16 il bundan əvvəl o vaxt haqqında hamının dastanlar qoşduğu, gerçəkləri gizlətdiyi qaniçən qızıl ordu bütün qayda-qanunları pozaraq, özlərindən qayda-qanun çıxararaq Bakıya hücum etdilər. Bu hücum Bakının işğalına bərabər bir hücum idi. Azərbaycanı müstəqil edib qaniçənlərdən ayırmaq istəyən soydaşlarımızın, azadlıq, haqq tələb edən insanlarımızın vəhşicəsinə qətli idi. Bu hücum bizim səsimizi boğmaq, bizi dünya durduqca susdurmaq və bu qaniçən rejimi sonsuza qədər saxlamaq məqsədilə edilmişdi. Nəticədə, 20 Yanvar günü neçə-neçə soydaşlarımız qətlə yetirildi, onların arasında təbii ki, uşaqlar da var idi. Sizdən yaşca kiçik olan, elə kiçik də şəhid olan məktəblilər. Əgər onlar yaşasaydılar, siz onların ən kiçiciyinə əmi-dayı, xala-bibi deyə müraciət edərdiniz. Hələ 20 Yanvarda qanunsuz, kütləvi həbslər də oldu. Haqq-ədalət carçılarını, azadlıq hayqıran çoxlu günahsız soydaşlarımızı həbs etdilər. Onların içərisində Xəlil Rza Ulutürk də var idi. Hələ bu,*

*harasıdır, təkcə, Bakıdamı qırğınlar oldu? – Müəllim 20 Yanvarın törədildiyi yerlərdən birində doğulan Səidin əlini qaldırdığını gördü. – Səid, nəsə sözün var? Buyur, oğlum.*

Səid içindəkiləri tamamilə boşaltmağa başladı:

*– Müəllimə, mən Neftçalada anadan olmuşam. Bildiyiniz kimi, Neftçala da dəniz sahili şəhərlərimizdən biridir. Qızıl ordunun məqsədi o idi ki, dəniz sahili şəhərlərimizə də hücum etsin. Valideynlərimdən eşitdiyimə görə, qızıl ordu Neftçalaya da hücum edib, orada qırğınlar olub, Şəhidlər vermişik... Eşitdiyimə görə, Lənkəranda da eyni hadisələr baş verib.*

*– Halal olsun Səidə. Çox düzgün vurğuladı. Oğlum, Sən dərsi əzbərləmiş kimi danışdın. Bəli, Neftçala, Lənkəran, Bakı. Uşaqlar, Sizcə təsadüfdürmü bu şəhərlərin hamısının Xəzərin sahilində yerləşməsi?*

Uşaqlar bir ağızdan "Deyil" dedilər.

*– Görün, necə azğın düşmənlərimiz olub və hələ də var. 20 Yanvardan sonra da Qarabağ müharibəsi başladı. Minlərlə igid oğullarımız müharibədə şəhid oldu. Nəticədə, həm igid oğullarımızı itirdik, həm də 20 faiz torpağımızı. Qarabağımızı itirdik. İndi Qarabağda düşmən istədiyini edir. Sizin kimi oğullara isə Qarabağı, Qarabağın Şəhidlərini hər an ürəklərdə, qəlblərdə anmaq düşür, Vətən torpaqlarını azad etmək arzusu ilə böyümək, oxumaq, öyrənmək, hazırlaşmaq düşür. Bunları etdikdən sonra inanın ki, hamımızın istədiyi o gün yaxınlaşacaq, Qarabağı işğaldan azad edəcəyik. Şəxsən mən inanıram ki, bunlar mütləq olacaq, uşaqlar.*

Təsirlənən Səid bu sözləri dedi:

*– Müəllimə, mən istəyərəm ki, həmin müharibənin öndərlərindən olum, mənim yaşıdlarım da mənim kimi olsun. Qarabağımızı biz azad edək, düşmənlərimizdən şəhidlərimizin qisasını biz alaq, şəxsən mən bu yolda şəhid olmaq istəyirəm.*

*– O nə sözdür, Səid? Heç birinizə ölüm qismət olmasın.*

Səid öz içində fikirləşirdi: "Şəhidlik ölümdür ki?"

*– Müəllimə, 20 Yanvar Şəhidlərinin hamısına neçə-neçə dastanlar, hekayələr, şeirlər, poemalar yazıblar. Onları bir an da unutmayıblar. Vətən onları unutmayıb. Ancaq onlar Şəhid olmasaydılar, sadəcə vəfat etsəydilər, onlar tez unudulardılar. Təkcə ailələri, yaxınları yada salıb, xatırlayardı. Mən də unudulmaz olmaq istəyirəm, istəyirəm ki, bu yolda mənim də öz dastanım olsun...*

Müəllimə bu sözlərin qarşısında heç nə deyə bilmədi. Elə bundan sonra da zəng çalındı, tarix dərsi bitdi. Son dərs tarix dərsi olduğundan uşaqlar müəllimə ilə xudahafizləşib sinif otağından çıxdılar.

Səidi bir fikir düşündürürdü, onu içdən narahat edirdi... Müəllimənin dedikləri bir daha Səidə pis təsir edirdi, ancaq bu dəfə daha çox... O, təsəvvür edirdi ki, indi onun gəzdiyi hər yolda, izdə şəhidlərin qan izi var. 20 Yanvarda Neftçalanın nə qədər əziyyətlər çəkməsi barədə düşünəndə pis olurdu. Ürəyi parça-parça olurdu. O, düşünürdü ki, bundan sonra nə edə bilər... Çox düşünürdü, özünü düşündürürdü. Bacısı ilə məktəbdən qayıdanda Səid birdən gözlənilmədən ona dedi:

*– Bacı, mən Vətən uğrunda Şəhid olmaq istəyirəm...*

Bacısı mat-məəttəl qaldı. Səiddən heç vaxt belə bir cümləni eşitməmişdi. Ona görə





də Səiddən bir az incidi:

*– O nə sözdür danışırsan? Şəhid olmaq asandır? Bəs biz, bəs anan, bəs atan? Bu haqda düşünmədən necə bu sözü deyə bilirsən?*

*– Mən çox düşünmüşəm, bacı... Günlərlə düşünmüşəm... Dərs oxuyanda da, eyni fikirlər beynimi silkələyib. Baxdığım hər vəhşət doğuran şəkilə, Xocalı müsibəti ilə bağlı olan şəkillərə seyrçi qala bilmirəm. İçimdə boşluq hiss edirəm. Onlar üçün nə edə bilərəm axı, onu düşünürəm... Yaşım da buna əl vermir... Fikirləşirəm ki, onların ruhunun rahatlıq tapması üçün ancaq Şəhid olub onlara qovuşaram. Uşaqlardan eşitdiklərim də heç yalan deyil. Mənim yaşımdakı uşaqlar indi Cəmşid Naxçıvanski adına hərbi lisey deyilən məktəbdə oxuyurlar. Mən də hərbçi olmaq istəyirəm... Hərbçi olub bütün Şəhidlərin qisasını alıb özüm də Şəhid olmaq istəyirəm... 20 Yanvarın da qisasını almaq istəyirəm... İnsan öləndə sadəcə ailəsi, dost bildikləri, sevdikləri tərəfindən yada düşür... Onda bilinir ki, o ölüb. Ancaq Şəhid adını qazanan heç bir kəs ölə bilməz, ölmür, xatirələrdə əbədi yaşayır... Mən də əbədi olmaq, əbədi yaşamaq istəyirəm, bacı, incimə...*

Səidin sözlərini daxilində heç də həzm edə bilməyən və ondan sonra ömrü boyu Səiddən narahat qalan bacısı indi Səidin yoxluğuna dözə bilməsə də, qürur duyaraq söyləyir: **"Qardaşım 8-ci sinifdə oxuyanda bizim məktəbin sinifləri az olduğu üçün tarix dərsində qardaşımın oxuduğu sinif ilə birləşdik, həmin dərsdə o, 20 Yanvar şəhidləri haqqında danışırdı, qardaşım orada belə bir cümlə dedi: Mən Şəhid olub tarixdə qalmaq istəyirəm. Təbii, mən orada onun söylədiklərinə bir az aqressiv reaksiya verdim. Qardaşım isə mənə bildirdi ki, insan bu dünyada əbədi yaşamır, mən Şəhid olub tarixdə yaşamaq istəyirəm. Düşünürəm ki, qardaşım bunları sadəcə cümlə olaraq deməyib, bu gün o isbat etdi ki, bu onun real arzusu imiş... "**

Həmin illər Səid daha da cuşa gələrək min ümidlərlə, arzularla sənədlərini Cəmşid Naxçıvanski adına hərbi liseyə verir. Ancaq qəbul ola bilmir. Qara fikirlilər Səidin bununla yıxıldığını düşünsə də, Səid ümidini itirmir. "Vaxt gələr" deyərək Səid orta təhsilini davam etdirir. 2010-cu ilə qədər dözür, həmin il artıq ümidlərini dirçəldərək və bir o qədər sevincini də artıraraq məktəbi bitirir. Bundan sonra Səid bilirdi ki, müqəddəs arzusuna qədəm-qədəm yaxınlaşır. Çünki bundan sonra Səid onu ülvi arzularına, amalına, məqsəd-məramına yaxınlaşdıracaq olan hərbi xidmətə, kişilik məktəbinə yollanacaqdı. Artıq bilirdi ki, O, əsgərdir, bundan sonra istəsə, yenidən hərbi xidmətdə qalar. Səid artıq düşünürdü ki, bununla ömrünün sonuna qədər, yəni Şəhid olacağı günə qədər hərbçi olaraq yaşayacaq, çarpışacaq.

25 aprel 2011-ci ildə Səid dualarla yola salınır və hərbi xidmətə başlayır. 16 oktyabr 2012-ci ildə hərbi xidmətlərdə döyüş tapşırıqlarını yüksək səviyyədə yerinə yetirdiyinə görə fərqlənmə ilə xidmətini başa vurur. Bir neçə aylıq müddətdə Səid hərb sənətindən ayrılmalı olur. Bu müddət ərzində Səid gələcək həyatının, yaşam planının necə olacağına daha çox vaxt ayırır. Lakin gələcək həyatı Səid üçün çoxdan, hələ orta məktəb illərindən bəlli idi, O, öz yolunu elə həmin vaxtlardan seçmişdi, yenidən öz sevimli yerinə, orduya qayıdacaqdı, qayıtmalıydı. Ancaq necə?

Səid mülki həyat tərzinə alışa, uyğunlaşa bilmədi, daha doğrusu uyğunlaşmaq

istəmədi. Səid asudəçiliyə, mülki həyata çox da dözə bilmədi, ona görə də yenidən ordu sıralarına qayıtmağa qərar verdi. Bu məqsədlə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının MAHHXHQ əsgəri olaraq 2013-cü ilin 11 iyulunda Gəncədə yerləşən "N" saylı hərbi hissədə xidmətini davam etdirməyə başladı. Səid bundan əvvəlki əsgərlik həyatını dastanının ön sözü kimi içindəki kitabda qələmə almışdı, yenidən orduya qayıtmaq isə bu dastanın başlanğıcı idi. Bundan sonra Səid həyatında tək amalını fikirləşəcəkdi – düşməndən qisas almaq amalını... Tərxis olunduqdan sonra bu gün üçün bir neçə ay güclə dözmüşdü və yenidən ordu sıralarına qayıtmışdı, bundan sonra da dözəcəkdi Səid, o gün gələnə qədər dözəcəkdi... Həmin günə qədər özünü əsl vətənpərvər döyüşçü olaraq yetişdirəcəkdi, hərb sənətinin sirlərinə daha da dərindən yiyələnəcəkdi. Tək məqsədi, amalı üçün qartal kimi səmada cövl edəcək, məqamı gəldikdə yağı üzərinə şığıyacaqdı... Əzəldən bir qəhrəman olaraq böyüyən Səid bundan sonra yeni Qəhrəmanlıq Dastanını yazmağa başlayacaqdı...



Əvvəl Gəncədə xidmətdə olan Səid bir il sonra Qazaxda yerləşən "N" saylı hərbi hissədə xidmətini davam etdirməyə başlayır. Səid nailiyyətlərini daha da artırmaq üçün 2017-ci ilin aprelində Bakıya gəlir və burada xidmətini davam etdirir. Ailəsi bunu Səidin uğurlarından biri hesab edirdi. Səid isə bu uğuru ən böyük uğura yaxınlaşdıran bir şərait kimi bilirdi.

2019-cu ilin sentyabr-oktyabr aylarında hərb sənətinin sirlərini tamam-kamal bilmək, təcrübələrini artırmaq və gələcəkdəki qisas savaşlarına hazırlanmaq üçün Səid Cəfərov əzəldən bizə qardaş olan ölkəyə – Türkiyəyə göndərilir. Türkiyənin paytaxtı, qəlbi Ankara şəhərində Jandarma Komando Özəl Asayiş Komutanlığında "JÖAK" təməl kursunda təkmilləşmə kurslarına başlayır. Bu kursda hərbçilərə taktiki atış, terrorçularla mübarizə hərəkatı, xüsusi əməliyyat və sairləri öyrədilirdi. Səid burada həm





verilən təlimləri dəqiqliklə öyrənir, həm də qardaş Türkiyənin gözəlliyini seyr edərkən özünü qürbətçilikdəki kimi hiss etmirdi. Elə bilirdi ki, doğma Azərbaycandakı hərbi hissələrdən birindədir. Burada tək də deyildi. İlk gündən ətrafındakı türk qardaşlara isinişmişdi, bir-birlərini qardaş bilirdilər. Səid burada olmaqdan zövq alır, burada olmağın ona verdiyi fürsəti dəyərləndirir, daha da həvəslə öyrənir, çalışırdı. Təlimlərdə Səid özünü qisas anlarına daha da yaxınlaşırmış kimi hiss edirdi. Burada özünü daha çox hərbçi kimi hiss edirdi. Səidə sevə-sevə daşıdığı hərbi forma da çox yaraşırdı. Bu formada Səid özünü əsl Səid kimi hiss edirdi. Deməli, Səidin alın yazısı bu idi. Döyüş, düşmənlə cəng etmək, onlardan gecikmiş qisası artıqlaması ilə almaq, onları torpaqlarımızdan iti qovan kimi "İti Qovan"la qovmaq hər bir Vətən oğlu kimi Səid Zəfər oğlunun da adına, taleyinə, qismətinə, bəxtinə qızıl hərflərlə yazılmışdı.

Komandirinin nəzərində Səid nizam-intizamlı, işini, xidmətini sevən, normativləri dəqiq yerinə yetirən xüsusi təyinatlı dəstənin hərbçisi kimi qalmaqda idi. Təməl kursların sonunda xidmətdə fərqləndiyinə görə Səid Cəfərov Türk Silahlı Qüvvələrinin generalı Ali İhsan Ersoy tərəfindən Fəxri Fərmanla təltif olunur. Beləcə, Daxili Qoşunların xüsusi təyinatlısı Səid Cəfərov düşməndən qisas almaq üçün daxilində böyüyən ümidləri daha da artıraraq, sabaha inamla baxaraq, Türkiyədəki unudulmaz anları bir daha yadına salaraq Ata Vətənindən Ana Vətəninə qayıdır.

Bundan sonra artıq kurslardan, təlimlərdən keçmiş, döyüşlərə atılmağa tam hazır olan hərbçi kimi Səid Cəfərova bircə səbirsizliklə gözlədiyi o əmrin verilməsi anını dözümlə gözləmək qalırdı... O müqəddəs günü gözləmək... İlk günlərdə Səid elə bilirdi ki, günlər tez gəlib keçəcək və qisas günü yaxınlaşacaq... Qarabağın azad olunma günü isə işvəli qız kimi nazlanırdı. Qisas günü üz çevirmişdi, gəlmək istəmirdi. Səid isə bunu istəmirdi. O, istəyirdi ki, döyüşdən-döyüşə atılsın, Qarabağın hər qarışını düşməni təqib etməklə gəzsin, hər qarışında düşməni qanına boyasın, lazım gələrsə, özü də bu yolda Şəhidlik Zirvəsinə ucalsın. Hər şeydən çox bunu istəyirdi Səid. "Şəhid" adını eşitsə, zaman dayanardı onun üçün. Gözünə Şəhid döyüş yoldaşlarından başqa heç nə görünməzdi. Bir də Qisas görünərdi... Döyüş yoldaşlarına ümid verirdi o gün gələcək, o gün gələcək deyərək... Xəyalında, yuxularında döyüş səhnələri görünürdü. Gözünün önündə bir-bir xainləri biçə-biçə, qıra-qıra irəliləyən, əngəlləri aşa-aşa, hətta yaralanmış qolundan, ayağından keçsə də, haqq işindən keçməyən, əl çəkməyən və sonda, Zəfər bayrağını Qarabağın mərkəzinə taxan bir Qəhrəman canlanırdı. Bu Qəhrəman gec-tez həqiqilik və həqiqiliyi ilə birlikdə əbədilik, əbədiyaşarılıq qazanacaqdı. Bəs bu Qəhrəman nə vaxt diriləcək, üzə çıxacaqdı?.. Səidi bu sual düşündürürdü. Bu Qəhrəman özü ola bilərdi və yaxud da ola bilər, bunu çox yaxşı bilirdi. Ancaq şərait yaranmamışdı. Əmr hələ ki gəlmirdi. Düşmən səbrimizi sınasa da, biz dözürdük... Dişimizi qıcayaraq, sıxaraq dözürdük... Hər Vətən oğlu kimi Səid Zəfər oğlu da Zəfərin oğlu olduğunu haqqı danan ədabazlara sübut etdirmək istəyirdi. Gözünün önündə düşmən istədiyini edirdi. Səid və onun döyüş yoldaşları isə hələ də dözürdülər... Əsgər idilər, əmr verilənə kimi dözməyə məcbur idilər.

2020-ci ilin iyul ayında Azərbaycanı yayın yox, qisas alovunun, odunun istisi yandırırdı. Sonradan Zəfərli müharibəmizdə əməyi çox olacaq igidlərin də iştirak etdiyi, bizi

Qisasa daha da yaxınlaşdıran Tovuz döyüşləri başlamışdı. Çoxlu Şəhidlər vermişdik, Vətəndə yas içində yas idi. Ən böyük yas da mənfur düşmənin tülkü kimi hiyləgərliklə General Polad Həşimovu və onun kimi vətənsevərləri Qarabağın azadlığını görmədən həlak etməsi, onları şəhid etməsi idi... Bu döyüşlərdən sonra Səid də dözməyənlərimizdən biri oldu. Artıq daha çox o günü gözləyirdi... Çox ümidlə, yenə də az səbirlə... Səbri bitib-tükənmişdi Səidin... Ancaq bilirdi ki, daha belə qalmayacaq, bir insan bu halla barışsa da, min insan, milyon insan barışmayacaq. Baş verəcək döyüşlərə Səid özünü tam hazır hiss edirdi. İçində öldürdüyü hər qarabaqara fikirlər onun üçün düşmən leşi idi. Qara fikirlərə ruhən əvvəlcədən qalib gələn Səid içində qalan Qarabağ xəyalını gerçəkləşdirmək üçün vaxtın gəlməsini izləyirdi, gözləyirdi...

26 sentyabr 2020-ci il... Düşmən azğınlaşmışdı, harada olduğunu bilmirdi, bilmirdi ki, olduğu torpaq kimin torpağıdır. Ona görə də hətta yeni-yeni torpaqlar "fəth" etməyi arzulayacaq dərəcədə azğınlaşan düşmənə həddini bildirməyin vaxtı çatmışdı.

Elə də oldu. 1 gün sonra Ali Baş Komandan əmri verdi və "Dəmir Yumruq" əməliyyatımız, Zəfərli Vətən müharibəmiz ədaləti süngü ilə, igid vətən fədailərinin canı, qanı bahasına işğaldan azad etmək üçün başladı.

Həmin gün hər Vətən oğlu kimi Ali Baş Komandanın əmrini eşidən, Vətənin çağırışına çoxdan hazır olan Səid sonuncu dəfə ailəsi ilə vidalaşdı. Bacısının dediklərindən:

***"Döyüş başlamazdan əvvəl Səid mənə sms yazdı. Sms-də yazırdı:"Əgər bu gün bu torpaqlar işğaldan azad edilməsə, gələcək körpələr bizə nifrət edər!"***

Səidin Zəfər yolu 27 sentyabr 2020-ci il, saat 04:55-dən başladı. Düşmənə dərs verməyin, Qarabağı azad etməyin, Zəfəri çalmağın vaxtı gəlmişdi. Səid illərlə içində qalan Qisas alovu ilə içindəki o Qəhrəmanı həqiqiləşdirmək və əbədiləşdirmək üçün can atırdı. İlk döyüşlərindən biri Murovun o üzü uğrunda gedən döyüşlər oldu. Qəhrəmancasına, heç nədən çəkinməyərək, qorxunun özünü qorxudaraq, "dəhşət" ləqəbli əfsanəvi cılızlara dəhşət yağdıraraq irəliləyirdi Səid. İçindəki bütün boşluqlar doldurulmuşdu. İçindəki qüvvəni var gücü ilə sərf edirdi və bir düşməni də əlindən sağ buraxmırdı, buraxmayacaqdı. Daxili Qoşunların bir neçə gün ərzində əfsanəvi xüsusi təyinatlısına çevrilən Səid döyüş yoldaşlarının gözündə çoxdan Qəhrəman idi. Hər Zəfər, hər döyüş, hər aldığı qisas, hər məhv etdiyi düşmən onu daha da gücləndirirdi. Müharibənin özündən güc alırdı o. Qollarında can verən şəhidlərin də qisasını alırdı. Çox bağlı olduğu döyüş yoldaşlarını da Şəhid verirdi Səid... İnciyirdi, istəyirdi ki, dostu onu da özü ilə birlikdə Cənnətə aparsın. Cənnət sakini olmağa vaxt var idi, zaman var idi. İndi vaxt yalnız Zəfərin idi. Səid ən böyük Zəfəri qazanmaq istəyirdi. Uşaq vaxtlarında televizorda baxmışdı ki, Şuşada Xarı bülbül adlı çiçək var. O, ancaq Şuşada bitir. Şuşa işğal olunduqdan, işğala verildikdən sonra Xarı bülbül təbiətdən, ona dönük çıxan insanlardan küsüb, heç bir yerdə, heç Şuşada da bitmir... Səid Xarı bülbülü canlı-canlı görmək istəyirdi... Sonralar nəinki görəcək, hətta qanı ilə qidalandıracaqdı Xarı bülbülü, könlünü alacaqdı yenidən bitməsi üçün... Səidin döyüş yolu Murov dağı yüksəkliklərindən sonra tez bir zamanda Füzulidən, Cəbrayıldan da keçirdi. Səid də düşmənlərin qorxulu röyası olan Vətən oğullarımızdan biri idi. Hər gün Zəfər çalan, hər gün irəliləyən və hər gün mənfur, lovğa düşməni iti qovan kimi qovan ordumuzun bir hərbçisi, xüsusi təyinatlısı





olaraq Səid çox cəsur, çox mərd bir əsgər idi. O, döyüş yoldaşlarına qarşı mehriban, səmimi, düşmənə qarşı əzazil idi. Düşmən elə hey qaçdığından Səid həm döyüşməklə, həm də qovmaqla məşğul idi. Hər dəfə pozitivliyini qoruyan, döyüş yoldaşlarını ruhlandıran və özü də heç ruhdan düşməyən Səid Xocavəndin ilk işğal olunan kəndlərindən biri olan Tuğ kəndinin azad edilməsi uğrunda gedən döyüşlərdə böyük şücaət göstərirdi. Şuşaya açılan qapıları açırdı. Düşmənə şans da, aman da vermirdi, çünki bu düşmən aman vermədiyindən amana layiq deyildi. O, döyüş yoldaşlarını həmişə Zəfərə səsləyirdi. Səidin jestləri və inamı o demək idi ki, mütləq Zəfər olacaq... Zəfər oğlu olsa da, olmasa da... Sonunda Səid ən böyük, ən parlaq Qələbəyə doğru olan qapıları açır, onun şücaətlə döyüşdüyü qədim türk yurdu Tuğ kəndi düşmən işğalından azad edilir. Bu xəbər tezliklə xalqımıza çatdırılır. "Qələbənin vaxtı gəldi" deyən xalqımız, Tuğ kəndinin keçmiş qaçqınları bu xəbəri yenidən doğulublarmış kimi qeyd edirlər.



Səid bu Zəfərdən sonra bir fotoşəkil çəkdirir. Həmin şəkildə "əla" işarəsi hər şeyin yaxşı olduğunu və yaxşı da olacağının göstəricisidir. Bununla kifayətlənməyən Zəfər oğlu, Vətən oğlu qeyri-rəsmi olsa belə, Prezidentimizə - Ali Baş Komandanımıza Tuğ kəndinin işğaldan azad olunmasını əsgər yoldaşları ilə birlikdə əsgəri qaydada məruzə edir. Səid ta orta məktəb illərindən bunları düşünür, arzu edir, elə həmin vaxtlardan bu anı yaşayırdı... Və bu anı ona qismət etdiyi üçün Allahına şükürlər edirdi!. . Bu, göydəndüşmə fürsət idi... İtirə-itirə getdiyimiz illərdə doğulan Səid bir-bir itirdiyimiz torpaqları mənfur düşmən işğalından azad edirdi! Bu orta məktəbdə vətənimiz barədə öyrəndiyi tarixin son 200 ilində bir ilk idi və Səid də tarixdə bu ilki yazanlardan biri idi...

Xocavənd istiqamətində daha da irəliləyən, torpağa da, dağa, dərəyə də, meşəyə, talaya, yerə-göyə sığmayan döyüşçü-qəhrəman Səid arzularının çağlayan, parlaq vaxtında gözlənilmədən namərd düşmən gülləsinə tuş gəldi. Ayağından və qolundan ağır yaralandı... Düşmən ona güllələri atanda sevincindən bilmədi nə etsin... Elə bildi ki, bir türkü öldürüb... Ancaq Səid düşməni yanıltmaqla məşğul idi. Düzdür, ağır yaralanmışdı, ancaq heç nə hiss etmirdi. Yenə də əlindən gələni edir, düşmənin başına ildırım kimi od yağdırırdı. Hərbi tibb işçilərini razı sala bilməyən Səid təkidlə döyüşü davam etdirmək istəyirdi. Düşmən tərəfindən çoxdan ölü bilinən Qəhrəmanımız döyüşü davam etdirərək neçə-neçə düşmən məhv edir, komandiri mühasirədən çıxarır, 2 taboru mühasirədən xilas edir... Haqqında yazmalı olduğum və yazdığım Qəhrəmanım belə Qəhrəmandır... İdi yox, çünki O, hələ də ürəyimizdə, qəlbimizdə, canımızda, qanımızda, ən əsası isə azad

etdiyi Qarabağ torpaqlarının azad səmasında, ənginliklərində pərvaz edərək yaşayır...

Geridə canla, qanla azad olunan torpaqlar, qazanılan Zəfərlər, öndə ən böyük Zəfər... Səid artıq ən böyük Zəfərin astanasında idi... Bu günə kimi nə qədər döyüşlərdən çıxmışdı, ağır yaralanmışdı, qollarında əsgər dostları, döyüş yoldaşları şəhid olmuşdu, neçə-neçə təhlükələrdən sağ-salamat çıxmışdı... Bu günə qədər neçə-neçə quldur düşməni qanına qəltan etmişdi, məhv edə-edə irəliləmişdi Səid... O qədər onları məhv etmişdi ki, döyüş meydanında düşmən tapa bilmirdi, yəni o mənfurlar davam gətirə bilmirdilər, qorxularından dabanlarına tüpürməyə macal tapmadan tülkü kimi qaçırdılar...

Səidin önündə ən qanlı, lakin ən şanlı döyüş var idi... O, ana yurdun incisini xilas etməli idi bu dəfə... Arzusunu gerçəkləşdirəcək, dünyasını dəyişdirəcək, Zəfərli yuxuları çin etdirəcək o döyüş Şuşa döyüşü idi və Səidi artıq azad edəcəyi Şuşa gözləyəcəkdi!..

Şuşanın azad edilməsi uğrunda qanlı döyüş noyabr ayının əvvəllərində başladı. Səidi bu dəfə əvvəlkindən daha çox təhlükələr gözləyirdi. Düşmən hər tərəfdə olsa da, Azərbaycan ordusunun qəfil, sarsıdıcı həmlələrindən çaşbaş qalmışdı. Hər tərəfdə qanlı döyüşlər gedirdi. Səid xidmət etdiyi xüsusi təyinatlı dəstəsi ilə birgə qətiyyətlə irəliləyirdi. Bir an belə dayanıb-durmurdu, nəfəsini belə dərmirdi. Tək məqsədi ancaq və ancaq irəliləmək idi. Bunun üçün nə qədər gözləmişdi. İllər boyu... Əngəlləri aşa-aşa, ölümlərdən dönə-dönə, əzablara, əziyyətlərə, məşəqqətlərə dözə-dözə, qatlaşa-qatlaşa gözləmişdi bu anları Səid... Həmin gün çoxdan gəlib çatmışdı. Səidin ən ali arzusuna çatmasına az qalmışdı. Ona görə də sonuna qədər özünü qoruyurdu. İstəyirdi ki, Zəfər bayrağını görəndən, ən böyük Zəfəri qazanandan sonra Şəhid olsun. Onu Xarı bülbül gözləyirdi. Xarı bülbülü dirçəltməmiş, cana gətirməmiş bu dünyadan gedə bilməzdi...

Xüsusi təyinatlı Qəhrəman Səidin yanında qidalanmaq üçün yeməyi yox idi. Əvəzində daxilində bütün orqanizmini dayanıqlı, əbədi qidalandıran qisas alovu, odu var idi. O, bununla qidalanıb, bişirdi və Xarı bülbülü öz qanı ilə qidalandırmaq üçün hərəkət edirdi. Silahlarını, zəruri sursatlarını daim özü ilə daşıyan Qəhrəman olub Səid, ehtiyatlılığı sevib, həmişə "ehtiyatlı igidin anası ağlamaz" kəlamının tələblərinə əməl edib...

Soyuq silahla, əlbəyaxa küçə döyüşlərində döyüşən xüsusi təyinatlı Səidin sərt baxışı belə düşmənləri mənən öldürürdü. Onun bir baxışı bəs idi. Düşmən o saat qorxurdu və hərəkətləri ilə bildirirdi ki, təslim olub. Bu irəliləyişlə Zəfərli günlərinə az qalırdı Səidin.

8 Noyabr günü... Bu gün bir bölgənin deyil, bir millətin tarixini dəyişdirdi, yenidən yazdı. Sıradan bir gün ikən ən yaddaqalan, ən unudulmaz günlərdən biri oldu. Elə bir gün oldu ki, o günü unutsaq, daşa dönərik... İnsan olmarıq, türk olmarıq, azərbaycanlı olmarıq... O günü unutsaq, bu milləti unudarıq...

Həmin gün xüsusi təyinatlı Səid Cəfərov artıq bilirdi ki, Şuşa şəhərinin yarısından çoxu düşməndən təmizlənib. Zəfər bayrağının dalğalanacağı yerə az qalıb. Səid əzəldən Zəfər oğlu idi... Həmin gün bunu bütün düşmənlərə göstərdi. Gücünü, dəmir yumruğunu həmin gün düşmənə göstərərək düşməni daha çox məhv etdi...

Artıq döyüşün sonları idi... Səid küçə tüfeylilər kimi gəzən, döyüşün nə olduğunu bilməyən, "uşaq-muşaq" belə deyilə biləcək düşmən "əsgər"lərini məhv edə-edə tam zəfərə doğru irəliləyirdi. Səid özü də elə bil hiss etmişdi ki, artıq bu dövranın, bu həyatın sonudur. Ən böyük Zəfəri qazanmağa nəfəs qədər yaxın idik... Döyüş yoldaşları ilə sanki sonuncu dəfə danışırmış kimi danışırdı. Əsgərləri Zəfərə ruhlandırmaq üçün bu çıxışı etdi Qəhrəman:





*– Ey ərənlər! Artıq az qalıb, Böyük Zəfəri İnşaAllah çalacağıq! Bundan sonrası bizim üçün bir millətin diriliş Zəfəridir! Bundan sonrası böyük və parlaq qələbədir! Allah bizə verdi bu fürsəti, biz də qaçırmadıq! Sona qədər irəlilədik, dağlardan, dərələrdən, düzlərdən, keçilməsi mümkünsüz olan sıldırım qayalardan vətən sevgisi və uca Allahımızın köməkliyi sayəsində keçdik, küçələrdə əlbəyaxa düşmənləri sıra-sıra öldürdük, ən böyük arzumuzun gerçəkləşməsi üçün əlimizdən gələni etdik, əzablara, məşəqqətlərə dözdük... Bunun üçün dözdük... Zəfər üçün, Böyük zəfər! Ey ərənlər! Mənim bu günə qədər sadəcə atam Zəfər oldu! Bundan sonra mənim özüm, mənliyim, hər şeyim bu Zəfər olacaq! Bu Zəfər üçün heç nəyi, heç kəsi düşünməyin, yalnız millətimiz tərəfindən səbirsizliklə 200 il gözlənilən bu Zəfəri düşünün! Bu Zəfəri qazanmaq üçün ölümü gözə almayın, Şəhadəti düşünün! Bu uğurda Allah bizə yar olsun, igidlər!*

*– Allah bizə yar olsun! Allah bizə yar olsun! Allahu-Əkbər, Allahu-Əkbər! – Ərənlərin bir çıxan bu nərələri azad edilməkdə olan Şuşa küçələrində, Cıdır düzündə, Xuraman qayasında əks-səda verirdi. Bu əks-sədadan düşmənlər qorxub geri çəkildilər.*

Səidin bu çıxışı əsgərlərimizi daha da ruhlandırdı. Onlar daha da hərəkətləndilər, daha da gücləndilər, qüvvətləndilər, canlandılar. Pələng ovunun üstünə atılan çeldlikdə önlərində olan düşmənin üzərinə atılmaqla onları caynaqları ilə parçalayıb məhv etdilər.

Xüsusi Təyinatlılar, Daxili Qoşunlar, Quru Qoşunları... Bütün ərənlərimiz hərəkətə keçərək, dağlardan, dərələrdən, küçələrdən... Hər dəf olunmaz maneələrdən keçərək, əngəlləri aşaraq hamını birləşdirən Zəfər Yolunda irəliləyirdilər. Sonda o Zəfər Yolu bütün Ərənləri birləşdirdi... Şuşa uğrunda gedən döyüşlər 8 Noyabr 2020-ci il Zəfər bayrağının dalğalandırılması və Türk dünyası Azərbaycanının ən böyük Zəfəri çalması ilə sona yetdi...

Səhərisi gün Xarı bülbülü dirçəldənlər, Şuşanı azad edib Zəfər bayrağını dalğalandıranlar, o ərənlər arasında Səidin cismi yox idi... Sadəcə ruhu var idi... İgid Qəhrəmanımız, baş çavuş Səid Zəfər oğlu Cəfərov 9 noyabr 2020-ci ildə Şuşada qəhrəmancasına Şəhidlik Zirvəsinin də fatehi oldu! Bədənini Şuşa torpağı, ruhunu Şuşa göyləri qucaqladı, quruyan son Xarı bülbül Səidin qanından, canından güc aldı, dirçəldi, həm də küsülülüyünü, küskünlüyünü unudaraq, insanlarımızla, əsgərlərimizlə barışaraq dirçəldi, şəhidlərimizin qanı ilə canlandı...

Şəhid baş çavuş Səid Cəfərov Şəhadətindən sonra Cənab Ali Baş Komandan tərəfindən "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi.

Səid 8-ci sinifdə oxuyarkən ilk dəfə Şəhid olmaq istədiyini dedi, günlərlə, aylarla, illərlə qisas üçün ömür sürdü... Əsgər oldu, o günü gözlədi, hərbçi oldu, o günü gözlədi, ölkələr gəzdi, öyrəndi, əsl hərbçi oldu... Sonda isə arzusuna çatdı... Həm Şuşanın, həm də Şəhidlik Zirvəsinin Fatehi oldu!.. Səid sözün əsl mənasında Zəfərin oğlu idi!...

Şəhidimizə həsr etdiyim "Zəfərin oğlu" şeirini qürurla təqdim edir, Allahdan bütün Şəhidlərimizə rəhmət diləyir və məqalə-dastanı tamamlayıram...

## ZƏFƏRİN OĞLU

*Şuşa şəhərinin Fatehlərindən olan, Daxili Qoşunların Xüsusi Təyinatlı Dəstəsinin hərbçisi, şəhid baş çavuş Səid Zəfər oğlu Cəfərovun xatirəsinə dərin hörmət və ehtiramla...*

Bu dünyaya O, Zəfər üçün gəldi,
Zəfər üçün düşmən bağrını dəldi,
Şəhidliyin Zirvəsinə yüksəldi,
Böyük Qəhrəmandır Zəfərin oğlu.

Ürəklərdə O, daim yaşayandır,
Düşmən qarşısında hər an durandır,
Ruhuyla yaşayır, o da bir candır,
Damarlarda qandır Zəfərin oğlu.

Şuşa dağlarından dumanı çəkdi,
O quruyan Xarı bülbülü əkdi,
Öz Topxana meşəmizi dirçəltdi,
Zəfəri dadandır Zəfərin oğlu.

Bu yolda çox əzablara qatlaşdı,
Bu məqsədçün qarlı dağları aşdı,
Coşdu, ilhamlandı, qaynadı, daşdı,
İgid, pəhləvandır Zəfərin oğlu.

Yaşla dolubdur göz, bükülübdür diz,
Səni yuxularda gözləyirik biz,
Ananın gül üzü solubdur sənsiz,
Bahar zimistandır Zəfərin oğlu.

Sənin həyatının hər səhifəsi,
Ulu xaqanlarımızın kəlməsi.
Gerçəkləşməyəcək bir an bitməsi,
Bitməyən dastandır Zəfərin oğlu.

Ruh bədəndən çıxdı, göylərin oldu,
Düşmənin yarası çox dərin oldu,
Gözəl Xarı bülbül Zəfərin oldu,
Bir Azərbaycandır Zəfərin oğlu!

*22.02.2021-24.02.2021*
*"Kredo" qəzeti, 30.03.2021*





## DASTANA SIĞMAYAN CƏSUR QƏHRƏMAN



*Bu məqaləni və şeiri yaşca məndən böyük, ən əziz qardaşım hesab etdiyim, mənim adaşım, şücaəti ilə ürəyimi dağa döndərən şəhid Sevindik Ramil oğlu İsmayılzadənin əziz xatirəsinə həsr etmişəm. (30.11.1998-ci il Saatlı rayonu, Qara Nuru kəndi, Cəbrayıl rayonu-20.10.2020-ci il Füzuli rayonu)*

Sevindik Ramil oğlu İsmayılzadə 30 noyabr 1998-ci ildə Saatlı rayon məcburi köçkünlər üçün salınmış Qara Nuru kəndi 2 nömrəli çadır şəhərciyində dünyaya gəlmişdir. Əslən Cəbrayıl rayonunun Soltanlı kəndindəndir. 2005-ci ildə Bakı şəhəri, Qaradağ rayon Əliheydər Kazımov adına 228 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. Burada 3 il təhsil aldıqdan sonra Füzuli rayon 49 nömrəli tam orta məktəbində təhsilini davam etdirərək, 9 illik orta təhsilini başa vurmuşdur. 2014-cü ildə ailə vəziyyəti ilə bağlı Biləsuvar rayon məcburi köçkünlər üçün salınmış Cəbrayıl şəhərciyinə köçmüşdür. O, burada təhsilini Çərəkən kənd Vahid İsmayılov adına tam orta məktəbində davam etdirmiş, daha sonra əvvəlki təhsil aldığı məktəbə qayıdaraq tam orta təhsilini tamamlamışdır. 24 iyul 2017-ci ildə Sumqayıt şəhərində yerləşən N saylı hərbi hissədə xidmətinə başlamışdır. Daha sonra Bakı şəhəri, Pirəkəşkül qəsəbəsində yerləşən N saylı hərbi hissədə Sərhəd Qoşunlarında kəşfiyyatçı vəzifəsini icra edərək xidmətinə davam etdirmişdir. O, burada olduğu müddətdə xidmətinə görə Fəxri Fərmanla təltif edilmişdir. Hərbi xidmət müddətində Xüsusi Təyinat kursunda snayper təlimi alaraq kursu başa vurmuşdur. 27 yanvar 2019-cu ildə hərbi xidmətini bitirərək, Biləsuvar rayonu Cəbrayıl şəhərciyinə geri qayıtmışdır. Azərsun Qida Sənayesinin əvvəlcə əkin sahəsində, daha sonra paketləmə sahəsində işləmişdir. Sonra Biləsuvarda yerləşən xalçaçılıq fabrikində işləmək üçün 16 sentyabr 2019-cu ildə Cəbrayıl peşə məktəbinə daxil olmuş və 18 iyun 2020-ci il tarixində məzun olmuşdur. Məzun olduqdan sonra Bakı şəhərinə gedərək əvvəlcə restoran olmaqla daha sonra bir neçə işdə (tikinti, daş karxanası və s.) işləmişdir. Son olaraq FAB Boya kimya sənaye şirkətində işə başlamış, burada müəyyən müddət işləmişdir. İşlədiyi müddət ərzində 27 sentyabr tarixində Vətən müharibəsi başlamış, qismən səfərbərlik elan olunmuşdur. 9 oktyabr 2020-ci ildə Sevindik Binəqədi rayonunda yerləşən çağırış məntəqəsinə yollanmışdır. Əvvəl çağırılmasa da sonra könüllü əsgər olaraq çağırılmış, Ağcabədi rayonuna göndərilmişdir. Sevindik bir müddət burada xidmətini davam etdirdikdən sonra özünün təkidi ilə ön cəbhəyə, Füzuli rayonuna xidmətini davam etdirmək üçün göndərilmişdir. Könüllü əsgər Sevindik İsmayılzadə Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmiş və 20 oktyabr 2020-ci ildə həmin döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur.

Şəhid Sevindik İsmayılzadə Biləsuvar rayon Cəbrayıl şəhərciyindəki 3 saylı qəsəbə məzarlığında dəfn edilmişdir. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidentiİlham Əliyevin 15.12.2020-ci il tarixli sərəncamına əsasən Sevindik İsmayılzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir. Şəhid Sevindik İsmayılzadəyə həsr etdiyim "Dastana sığmayan cəsur Qəhrəman" şeirini azacıq kədərlə və qürurla təqdim edirəm və Allahdan Bütün Şəhidlərə rəhmət diləyirəm.

**Dastana sığmayan cəsur qəhrəman**

Neçə düşmən əsgərini yandıran,
Onlara yeni reallıq qandıran,
Ulu Qarabağ üçün vermisən can,
Dastana sığmayan cəsur qəhrəman.

Ömür boyda bir əzabı çəkmişdin,
Qaçqın məşəqqətiylə yüklənmişdin,
Sonda isə şəhidliyə yüksəldin,
Sən öz doğma yurdunu azad etdin.

Vətən torpağında Sən də bir candın,
Döyüşdə şəhidlərimizi andın.
Şəhid oldun, dastan oldun, ucaldın,
Neçə şəhid qisasını Sən aldın.

Qəhrəmanlıq dastanından güc aldım,
Qələmimlə düşmənimdən öc aldım.
Hünərinizlə ürək dağa döndü,
Sayənizdə el Qarabağa döndü...

Hər Anım Günündə qan yaddaşımsan,
Ruh yaddaşımsan, həm can yaddaşımsan.
Sağlığımda bizə qismət olmadı,
İndiysə sən mənim qan qardaşımsan.

Türk dünyasının cəsur Qəhrəmanı,
Demisən: "Artıq bu an qisas anı".
Ana Vətən üçün vermisən canı,
Qəlbdə əbədi məşəl ol, alovlan,
Önündə baş əyir bil Azərbaycan!

*19.02.2021*





**MƏN DÜNYADA RAHAT YAŞAYAMMADIM...**



*Birinci Qarabağ müharibəsinin II qrup əlili Əliyev Səyyaf Nüsrət oğlunun əziz xatirəsinə həsr edilmişdir. (10.03.1983-cü il Ağcabədi rayonu, Yuxarı Qiyaməddinli kəndi - 30.03.2021-ci il Ağcabədi rayonu, Yuxarı Qiyaməddinli kəndi)*

Birinci Qarabağ müharibəsi zamanı erməni mənfurları tərəfindən Ağdam rayonunun Yusifcanlı kəndi ərazisinə basdırılmış piyadalar əleyhinə minaya hələ 10 yaşında ikən düşərək çoxsaylı xəsarətlər almış, uca Allahın rəhmi ilə yenidən bir yığın ət parçasından canlandırılaraq həyata qaytarılmış, 2-ci qrup Qarabağ müharibəsi əlili, Ağcabədi rayonu Alı Mustafayev adına Yuxarı Qiyaməddinli kənd tam orta məktəbində ingilis dili müəllimi vəzifəsində işləmiş, sol qıçındakı mina xəsarətinin yerindən mənfur erməninin bənzəri olan xərçəng xəstəliyinə tutularaq bütün daxili orqanlarına yayılmış zalım xəstəlikdən dünyadan vaxtsız köç etmiş, insanlıqda, vətəndaşlıqda, səmimiyyətdə, vətənpərvərlikdə, düşmənə nifrətdə yaşıdları arasında tay-bərabərinə təsadüf etmədiyim, bu dünyada Nuray və Gülay adlı iki qız, Murad adlı bir oğul yadigarı qalmış, mənim üçün çox əziz olan əmim oğlu Səyyaf Nüsrət oğlu Əliyevin unudulmaz xatirəsinə onun öz dilindən həsr olunmuşdur.

Ağrım yenə şiddətlənir, yüksəlir,
Əzrayıl başımın üstə dikəlir.
Ölsəm, tək anama yazığım gəlir,
Mən dünyada rahat yaşayammadım...

Şüa mənim bədənimi qurutdu,
Yazıq canım şad günləri unutdu.
Dünya mənə özün nə pis tanıtdı?!
Mən dünyada rahat yaşayammadım...

Nuray, Gülay, Murad məni səslədi,
Sağalacağıma ümid bəslədi.
Hamı məni sağlam görmək istədi,
Mən dünyada rahat yaşayammadım...

Əvvəl zalım mina, sonra da xərçəng,
Dedim Əzrayıla: "Yaxamdan əl çək!"
30 mart... Bu gün son günümmüş demək,
Mən dünyada rahat yaşayammadım...

Bəlkə də ağrımla sizləri yıxdım,
Duymayasız deyə, özümü sıxdım...
Son anda dözməyi bacarammadım,
Mən dünyada rahat yaşayammadım...

Anam, yəqin ağrı vermişəm sana,
Bais olmuşam mən göz yaşlarına...
"Ağrın mənə gələydi" deyən ata,
Cənnətdən baxıram, ağlama daha...

Övladlarım, gözünüz yol çəkəcək,
Xoş günlər anarsız "ata" deyəndə...
Biləsiniz, atanız gəlməyəcək,
Məzarım oxşayın yada düşəndə.

Gurşad, iki dəfə səni səslədim,
Atam dedi: "Nə sözün var?" deməпід...
Elə bildim, ağrım keçib gedəcək,
Sözlərim də son söz imiş, bilmədim...

Fələk istəyirdi olsun son anım,
Məni qovururdu bu acım, ağrım.
Sular söndürmədi, alışdım, yandım,
Mən dünyada rahat yaşayammadım...

Sizlər sağ olun, Səyyafınız getdi,
Ancaq qəbrim üstə yazılar adım.
Əzəldən əzablı bu ömrüm bitdi,
Mən dünyada rahat yaşayammadım...

*01.04.2021-02.04.2021*
*"Kredo" qəzeti, 07.04.2021*





## ŞAHİN



*Şəhid Şahin Şamxal oğlu Fətaliyevin əziz xatirəsinə həsr olunur. (30.07.1999-cu il Beyləqan rayonu Bolsulu qəsəbəsi-30.09.2020-ci il Füzuli rayonu).*

Şahin Şamxal oğlu Fətaliyev 30 iyul 1999-cu ildə Beyləqan rayonunun Bolsulu qəsəbəsində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə yollanan Şahin Fətaliyev hərbi xidmət müddətini başa vurduqdan sonra xidmətini davam etdirmək qərarına gəlir və bu məqsədlə də Müdafiə Nazirliyinə müraciət edir. Onun arzusu nəzərə alınır və o, "N" saylı Ordu Korpusunda müddətdən artıq hərbi xidmət qulluqçusu kimi xidmətini davam etdirməyə başlayır.

O, ailəli idi, 2020-ci ildə Zəhra adlı qızı dünyaya gəlmişdir.

Şahin Fətaliyev Ermənistanın işğalı altında olan ərazilərimizin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən başlanan Vətən müharibəsində ilk andan iştirak etmişdir. O, Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə mərdliklə vuruşmuş, 30 sentyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Şahin Şamxal oğlu Fətaliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Eyni zamanda Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Şahin Fətaliyev ölümündən sonra "Füzulinin azad olunmasma görə" medalı ilə təltif edilmişdir.

Şəhidimizə həsr etdiyim eyni adlı şeiri qürurla təqdim edir və Allahdan bütün Şəhidlərimizə rəhmət diləyirəm!

### Şahin

Ey Bozqurd baxışlı, qartal qanadlı,
Şəhid kimi torpaqda bitən Şahin.
Fəxr edir Sənlə Azərbaycan adlı,
Səni böyüdən anan, Vətən, Şahin.

Təskinlik tapır o qürurla yarın,
Böyüyüb çox fəxr edəcək övladın.
Amma o, çox axtaracaq atasın,
Çox tez getdin, ayrıldın bizdən, Şahin.

3 günlük döyüşlə dastana döndün,
Vətən uğrunda yanan şamtək söndün.
Qisas yolunda şahintək yürüdün,
Sən ey düşmən nəfəsin kəsən Şahin.

Sən tariximizdə əbədi adsan,
Bizlərçün can Şəhid, düşmənə yadsan.
Qarabağ azaddır, bilirəm, şadsan,
Azad olan gündən bilirsən, Şahin.

Qəhrəmanlığına heyran olmuşam,
Tökülən qanına qurban olmuşam.
Zəfərindən mən çox yazan olmuşam,
Bu ərməğandır Sevindikdən, Şahin.

12.07.2021.

## DƏRDƏ DƏRMAN ŞƏHİDİM



*Şəhid Şöhrət Şakir oğlu Qasımovun əziz xatirəsinə həsr olunur. (16.08.1992-ci il Gədəbəy rayonu-29.09.2020-ci il Tərtər rayonu Suqovuşan qəsəbəsi)*

Şöhrət Şakir oğlu Qasımov 16 avqust 1992-ci ildə Gədəbəy rayonunda dünyaya göz açmışdır. İlk təhsilini 1998-ci ildə Sumqayıt şəhəri 18 saylı tam orta məktəbdə alan Şöhrət 2009-cu ildə Sumqayıt şəhərində yerləşən Cəbrayıl rayonu 5 saylı tam orta məktəbi bitirmişdir. Həmin il yüksək balla Azərbaycan Tibb Universitetinin (ATU) hərbi tibb fakültəsinə qəbul olmuşdur. Universiteti müvəffəqiyyətlə bitirdikdən sonra Müdafiə Nazirliyinin Yevlax rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmətə başlamış, 3 ay sonra Tərtər rayonunun ön xətdə yerləşən hərbi hissəsində xidmətini davam etdirmişdir.





Tibb xidməti leytenantı Şöhrət Qasımov 2016-cı ildə Aprel döyüşlərində də iştirak etmiş, 2018-ci ildə ona tibb xidməti baş leytenantı rütbəsi verilmişdir. Nümunəvi xidmətinə görə qısa müddət ərzində o, vəzifədə irəli çəkilmiş və o, tibb xidməti rəisi vəzifəsinə təyin olunmuşdur. Şöhrət xidməti dövründə nümunəvi zabit və savadlı həkim kimi hər kəsin rəğbətini qazanmışdır. Hərbi xidməti dövründə bir çox fəxri fərmanlar və təşəkkürnamələr ilə təltif edilmişdir.

Tibb xidməti rəisi, baş leytenant Şöhrət Qasımov da 27 sentyabr 2020-ci ildə başlayan İkinci Qarabağ, yəni Vətən müharibəsindəki hərbi əməliyyatlarda iştirak edən hərbi həkimlərimizdən biri olmuşdur. Döyüşdə olduğu 2 gün ərzində bir çox mühüm tapşırıqları icra etmiş, həm neytral ərazidə, həm də döyüş bölgəsində qalan yaralılarımızı və şəhidlərimizi təhlükəli ərazilərdən çıxarda bilmişdi Şöhrət. Sonuncu dəfə 29 sentyabr 2020-ci ildə Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərərək 3 çətin tapşırığın öhdəsindən gəlmişdi O, yaralıları döyüş bölgəsindən çıxaran zaman düşmən tankı ilə üz-üzə gəlmiş və üzərində olan xidməti silahla düşmənlə qəhrəmancasına mübarizə aparmış, sona qədər düşmənlə döyüşmüş, həmin vaxt zirehli maşında olan 4 nəfər əsgərimizi xilas etmişdir. Həmin gün hərbi həkim baş leytenant Şöhrət Qasımov qəhrəmancasına şəhid olmuşdur. DNT analizi nəticəsində Şöhrət Qasımovun nəşi aşkar olunmaqla 9 oktyabr 2020-ci ildə Sumqayıt Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Şöhrət Qasımov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Həmçinin Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına rəhbərlik etdiyi, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində rəşadət göstərdiyi, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Şöhrət Qasımov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Şəhidimizə həsr etdiyim "Dərdə dərman Şəhidim" adlı şeirini qürurla təqdim edir və Allahdan bütün Şəhidlərimizə rəhmət diləyirəm!

**Dərdə dərman Şəhidim**

Sayəndə sağalıbdır,
Azərbaycan, Şəhidim.
Qan axmaması üçün,
Tökmüsən qan, Şəhidim!

Azərbaycan kimisən,
Öz yurdunun səsisən,
Şəhidsən, ölməmisən,
Çox yaşayan Şəhidim!

Düşmənlərə əzazil,
Dedin düşmənə: "Əzil!"
Dosta qarşı şirindil,
Həm mehriban Şəhidim.

Hünər, cəsarətiylə,
Şafinin qüdrətiylə,
Gücüylə, qüvvətiylə,
Ad qazanan Şəhidim.

Parlaq bir Zəfər üçün,
Cəng üçün, səngər üçün,
Yaralı əsgər üçün,
Şamtək yanan Şəhidim.

Səni daim qəlblərdə,
Könüllərdə yaşadıb,
Səni daim anacaq,
Azərbaycan, Şəhidim!

Qarabağı sağaldan,
Həm ayağa qaldıran,
Tapılmaz Səntək insan,
Dərdə dərman Şəhidim.

*22.06.2021*

## QALİB ƏBƏDİYAŞAR



*Şəhid Tural Saləddin oğlu İsayevin işıqlı xatirəsinə (11.04.1992-ci il Siyəzən rayonu Yenikənd kəndi - 27.09.2020-ci il Füzuli rayonu).*

Tural Saləddin oğlu İsayev 1992-ci il aprelin 11-də Siyəzən rayonunun Yenikənd kəndində anadan olub. Orta təhsil aldıqdan sonra həqiqi hərbi xidmət keçən Tural hərbi xidmətdən qayıtdıqdan sonra hərbi hissəsindən, əsgər yoldaşlarından darıxdığına, hərbçi olmağa alışdığına və Vətənə daha uzun müddət xidmət etmək istədiyinə görə yenidən hərbi xidmətə geri dönür və müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi yenidən vətən yolunda xidmətini davam etdirir, qüsursuz xidmətinə görə





çavuş rütbəsinə yüksəlir. Azərbaycan Ordusunun çavuşu olan Tural İsayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Füzuli istiqamətində gedən döyüşlərdə şücaət göstərmişdi. Döyüşlərin ilk günü bütün çətinliklərə baxmayaraq Tural bu çətinliklərə sinə gərirdi. Amma elə namərd düşmənin namərd gülləsi də, təəssüflər olsun ki, 27 sentyabr 2020-ci il müharibənin ilk günü Turalın polad sinəsinə tuş gəldi və o, qəlbi Qarabağın azad edilməsi arzuları ilə dolu olduğu halda Şəhidlik Zirvəsinə yüksəldi. Əfsuslar olsun ki, O, itkin düşdü. Uzun müddət itkin olaraq onu axtardılar. Aylar keçir, anasının, atasının ümidi üzülürdü. Ana oğlunun nəşi ilə birgə bir ümid də axtarırdı və oğluna qurban demişdi. Nəşi gəlsə belə...

Üzücü xəbər gəldi... 120 gün sonra, 31 yanvar 2021-ci ildə Turalın mübarək nəşi tapıldı. Ana oğlunun nəşi kəndə gələn kimi dediyi qurbanını kəsdi... Şəhidimiz doğulduğu Siyəzən rayonunun Yenikənd kəndində torpağa tapşırıldı.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamma əsasən Tural İsayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamma əsasən Tural İsayev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə və həmin tarixli fərmanla əlavə olaraq "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Tural adının mənası "əbədi, qalib gələn, ölməz" deməkdir. Şəhidimizə adının mənasına uyğun olaraq həsr etdiyim "Qalib əbədiyaşar" adlı şeirini qürurla təqdim edir və Allahdan bütün şəhidlərimizə rəhmət diləyirəm!

**Qalib əbədiyaşar**

Adına uyğun zirvə,
Məkanın oldu, Tural.
Cənnətin gözəl yeri,
Cahanın oldu, Tural.

Atıldın bozqurd kimi,
Vətənin savaşına.
Baxmadın sən, tez doydun,
28 yaşına.

Qovuşurdun sən artıq,
Ulu Qarabağına.

Məhv edirdin, baxmırdın
Sən ilanın ağına.

Sənə namərd güllləsi
Yaman tez gəldi, Tural.
Sənə atılan güllə,
Qəlbimi dəldi, Tural.

Qanlı, ağır döyüşdə,
Müqəddəs nəşin itdi.
Ailən inanmırdı
Ki, sənin ömrün bitdi.

Səs-səmir gəlməyəndə,
Anan çox təlaşlandı;
"Allah, onsuz neylərəm,
O ki canımdan candı?!"

Tural, ümidlər ilə,
Ailən çox gözlədi.
Allahım dözüm verdi,
"Vüsala var, döz dedi".

Zəfəri çalanda biz,
Bilinmirdi səndən iz.
Yenə yol gözləyirdik,
Bitmirdi ümidimiz.

Bir ay da gəlib keçdi,
Tapıldı çox itkinlər.
Heç kəsilməyəcəkdi,
"İnşAllah"lar, "Amin"lər.

Keçmiş döyüş yerlərin,
Gəzdilər uzun müddət.
Tapmaqçün sənin nəşin,
Çəkdilər çox əziyyət.

Anan sən tək oğula,
"Canımdan can" demişdi.
Nəşin tapılan vaxtda,
Yenə qurban kəsmişdi.





Vüsal yetdi, vaxt gəldi,
Nəşin edildi aşkar.
Anan donub qalmışdı,
Etmirdi səbrü-qərar.

Allah deyər: "Şəhidlər,
Ölməzdir, görəmməzsən."
Tək bu təskinlik verər,
Bilirdik ki, ölməzsən!

Əbədi yaşar adın,
Qərinələr, əsrlər.
İgid adıyla yaşar,
Adın kimi ölməzsən!

Ürəklərdə xal olar,
Arzun idi tükənməz.
Şəhidlər Tural olar!
Yəni, Şəhidlər ölməz!

Ürəklərdə, dillərdə
Turaltək Qəhrəman var!
Yaşayar könüllərdə,
Qalib əbədiyaşar.

*21.06.2021*

## ŞƏHİDLİK ÖLÜM DEYİL



*Bu məqalə və şeir hərbi polisimiz, Füzulinin azad olunması uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olan MAHHXHQ əsgər Vaqif Vüqar oğlu İsmayılzadənin əziz xatirəsinə ithaf olunmuşdur... (06.11.1996-cı il Beyləqan rayonu Şahsevən kəndi - 20.10.2020-ci il Füzuli rayonu)*

Vaqif Vüqar oğlu İsmayılzadə 1996-cı il noyabrın 6-da Beyləqan rayonunun Şahsevən kəndində anadan olmuşdur. Əslən Cəbrayıl rayonundan idi.

Vaqif İsmayılzadə 2016-2017-ci illərdə Azər-

baycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2017-ci ildən isə Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsində çalışırdı.

Azərbaycan Ordusunun əsgəri olan Vaqif İsmayılzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə mərdliklə savaşıb. Vaqif İsmayılzadə oktyabrın 20-də Füzulinin azad olunması uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuş, Beyləqan rayonunda torpağa tapşırılmışdır.

Ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Şəhidimiz haqqında yazdığım "Şəhidlik ölüm deyil" şeirini böyük qürurla təqdim edir və bütün Şəhidlərimizə Allahdan rəhmət diləyirəm.

**Şəhidlik ölüm deyil...**

Xidmət etdin ordunda,
Gülü bitən uğrunda,
Şəhid oldun yurdunda,
Ana Vətən uğrunda!

Şəhid oldun, can verdin,
Xarı gülə can verdin,
Qarabağa qan verdin,
Ana Vətən uğrunda!

Şəhid olduğun yerdə,
Ömürlük qalıb bir iz.
Mücahidlər içində,
Sən idin bir mübariz.

Amala çatıb getdin,
Qarabağdı amalın,
Bununla bizi etdin,
Ağ üz, həm açıq alın.

Vətən səmasındasan,
Azadlıq səmasında.
Əbədi qəhrəmansan,
Bütün Türk dünyasında.





Qanlı, şanlı döyüşdə,
Şirin canından keçdin.
Həyat mümkünlüyündə,
Sən Şəhadəti seçdin.

Bütöv Vətən uğrunda,
Canını verdin qurban.
Qarabağım yenə də,
Olmuşdur Azərbaycan!

Şəhidliyin qürurdur,
Ayrılıq, zülüm deyil.
Sən ki Şəhid olmusan,
Şəhidlik ölüm deyil...

*13.02.2021*

**İndi**



*1-ci Qarabağ müharibəsinin şəhidi, Azərbaycan Respublikasının Milli Qəhrəmanı Albert Aqarunoviç Aqarunovun nurlu xatirəsinə. (25.04.1969-cu il Bakı şəhəri, Əmircan qəsəbəsi-08.05.1992-ci il Şuşa şəhəri)*

Salam, Şəhid! Necəsən?
Şaddımı ruhun indi?
Zəfər qazandı ərən,
Çin oldu yuxun indi.

Azad oldu Şuşamız,
Şəfa tapdı yaramız,
Bitdi ağrılarımız,
Düşmən "taxtından" endi.

Gözəl Xarı bülbüllər,
Qurumuşdu o illər.
Döyüşəndə əsgərlər,
İlk dəfə güldü, dindi.

Səndən sonra gələnlər,
Düşmən bağrın dələnlər,
Fəxrlə Sənə dedilər:
"Bu Qələbə Sənindi!"

Çünki Sən bu Vətənin,
Şəhid fədakarısan.
Şuşa Zirvələrinin,
Sən həmişə varısan.

Məskən etdin Şuşanı,
O, səni övlad bildi,
Şuşa Vətənin idi,
İndi də Vətənindi!

Bu Qələbə Sənindi,
Şəhidtək gedənindi.
Rahat uyu Sən indi,
Qarabağ bizim idi,
İndi yenə bizimdi.

*23.08.2021*

## ƏSRİMİZIN TOMRİSİ



*Vətən müharibəsində iştirak etməklə qəhrəmancasına şəhid olmuş yeganə döyüşçü qadın, hərbi həkim (mülki qadın şəhidlərimiz istisna olmaqla) Ərəstə Kərim qızı Baxışovanın nurlu xatirəsinə. (04.05.1989-cu il Xaçmaz şəhəri-23.10.2020-ci il Qubadlı rayonu)*

Yaralı Qarabağdan,
Çəkdin dumanı, sisi.
Yeni zərif qəhrəman,
Əsrimizin Tomrisi.

Təkcə özün deyilsən,
Ana Vətənimizsən.
Səni görürük mətin,
Qaratel, həm Gültəkin.





Şəhidlərin bacısı,
Yurdun yoxdur acısı.
Çünki, vermisən dərman,
Cənnət yaraşığısan.

Vətən Ana, Yurd Ana,
Aslan Ana, Qurd Ana,
Ruh verdin öz nurunla,
Anan Azərbaycana.

Göz gözlədi qapıda,
Qulaq gələn hər səsdə.
Yalvarmışdıq ahəstə,
Gəl nə olar, Arəstə.

Ruhun da dərman oldu,
Bizə təskinlik verdi.
Bu dünya heyran oldu,
Dastanını dinlədi.

Sən heç olma nigaran,
Körpə balalarından.
Şəhadətindən sonra,
Yurd Anadır onlara.

Cənnətin çiçəyisən,
Torpağa can vermisən.
O zamandan, o dəmdən,
Torpağa çevrilmisən.

Göy Türkümün ulduzu,
Savaşın qadın üzü.
Bu xalqın qəlbindədir,
Arəstə adlı qızı.

*08.08.2021.*

## AZƏRBAYCAN AZƏRİ



*Şəhid Azər Dilafət oğlu Əliyevin nurlu xatirəsinə həsr olunur. (06 yanvar 1999-cu il Ağcabədi rayonu Yuxarı Qiyaməddinli kəndi– 28 yanvar 2021-ci il Bakı şəhəri)*

Adın Vətənin adı,
Qovdun torpaqdan yadı.
Vətən eşqli, fədai,
Azərbaycan Azəri.

Keçdin iki savaşdan,
Vətən-can savaşından.
Yenə də qalib gəlib,
Oldun Şəhid Qəhrəman.

Darıxdın Qarabağdan,
Ona yollar axtardın.
Başlayaraq Arandan,
Xocavənddə qurtardın.

Sən komada olarkən,
Sənə hədiyyə gəldi.
O topçu ərənindən,
Qazanılmış Zəfərdi.

Bu Qələbə Sənindir!
Neçə ərənınindir!
Bu Zəfər adaşının,
Ulu Vətənınindir!

Sənsən tarixi yazan,
Vətənə layiq olan.
Qisas odun yandıran,
Düşməndən qisas alan.

Keçdin çətinliklərdən,
Qəhrəmantək dözdün sən.
Səsin gəlir Cənnətdən,
Orda rahat ol, həm şən.





Saysız-hesabsız mərdin,
Canında güc-təpər var.
Bir öldün, min dirildin,
Yurdda Əlitək ər var.

O Səni yaşadacaq,
Çatacaq yeni ocaq.
Bir Şəhid oğlu kimi,
Mətin addım atacaq.

Sən Babəktək böyüdün,
Koroğludan güc aldın.
Vətən üçün can verib,
Xalq gözündə ucaldın.

Elimin mərd igidi.
Düşmənə dərd igidi.
Qəlblərdə yaşayırsan,
Ey Kərbəla şəhidi.

Yurdumun şah əsəri,
Zülfüqartək kəsəri,
Müzəffər, cəngavəri,
Azərbaycan səvəri,
Azərbaycan əsgəri.
Azərbaycan Azəri.

*09.08.2021.*

## BABƏK: ŞƏHİDLİK ASLANI



*"Zəfər" ordeni kavaleri, "Vətən uğrunda" medallı, Azərbaycan Silahlı Qüvvələrinin 1-ci Ordu Korpusunun Komandir müavini - Qərargah rəisi, şəhid polkovnik Babək Mətləb oğlu Səmidlinin nurlu, işıqlı xatirəsinə... (07.01.1974-cü il Göyçay şəhəri – 23.11.2020-ci il Tərtər rayonu Suqovuşan kəndi)*

Sona qədər Zəfər üçün yürüdün,
Düşmənini vahiməyə bürüdün.
44 gün sonra Sən Zəfəri gördün,
Özündən yarandı Zəfər Dastanı.

Neçə illər boyu bunu gözlədin,
Sonda "Artıq Qisas Günüdür!" dedin.
44 gün Zəfərin Yolunu keçdin,
Dedin: "An ən böyük Zəfərin anı!".

Azərbaycan adı əzbər dilində,
Zəfər qazandın Qarabağ elində.
Hər yerdən ora jurnalist gələndə,
Göstərdin onlara Suqovuşanı.

Sən səs verdin öz xalqının səsinə,
Səsini eşitcək qəlblər titrədi.
Səndən ilham aldı əsgərlərin də,
Xalqın Səni çağırdı, "Babək!" dedi.

Çox saytlar, qəzetlər Səndən yazmışdı,
Reportajlar üst-üstə yığılmışdı.
İrəliləyirdik, gedirdi ələm,
Yadına düşürdü "Qılınc və qələm".

Sən silah tuturdun, candan keçirdin,
Sona qədər düşmənləri biçirdin.
Sonda namərd düşmən kimi etmirdin,
Jurnalistə düz məlumat verirdin.

Qayıtmaq istədi düşmən, getsə də,
Sən düz idin, düşmən təkzib etsə də.
Sən deyirdin düşmənə: "Ol lal-dinməz,
Babək Səmidli heç yalan söyləməz!"

Yalan söyləmək onlara xas idi,
Sağlığın düşmənə böyük yas idi.
Lakin, düşmən riyadan əl çəkmirdi,
Köhnə hamam idi, köhnə tas idi.

Qarabağda yenidən biz yurd saldıq,
44 gün sonunda Zəfəri çaldıq!
Qarşıladı Qarabağ adlı bir yurd,
Zəfəri gördü Babək adlı Bozqurd!





Zəfəri qeyd etdin böyük həvəslə,
Alqışlar eşitdin sevincli səslə.
Yeni reallıq var idi, yeni çağ,
Çünki azad olunmuşdu Qarabağ!

Ulu Babək ruhuyla alqış etdi,
Elə bil ruhun o səsi eşitdi.
Sən bu şərəfli adı qorumuşdun,
Bu adı şərəf ilə doğrultmuşdun.

Ulularn ruhunu şad etmişdin,
Yağı düşmənin üstünə getmişdin.
Məkrlə dolu komasını sökmüşdün,
Qəlbini dəlib, qanını tökmüşdün.

Zəfəri görməyə layiq idin Sən,
Səninlə fəxr edir bu doğma Vətən.
Çünki, Şəhidlərin qisasın aldın,
Ulu Qarabağda Zəfəri çaldın!

Əfsus ki, təxribata qurban getdin,
İti addımların qısqandılar.
Yanında 4 erməniydi, bir də rus,
Şəhidliyinə seyrçi qaldılar.

Mina Onu bizdən əbədi aldı,
"Babək"- adı ancaq yaddaşda qaldı...
"Öldü" deməyin Cənab Polkovnikə,
Zəfər görüb Şəhidliyə ucaldı!

Biz silə bilmərik dastanlı izi,
O izlə gedən ömürlük ucalar.
Unuda bilmərik keçmişimizi,
O keçmişdə bir "sərkərdə Babək" var.

İçimizdə qaldı neçə arzular,
İçimizdə axdı o qanlı yaşlar.
Çünki, demişdilər bizə ulular,
Şəhidlərə ağlamaq günah olar.

Adətən ölənlərə ağlayırlar,
Göz yaşında neçə qəlblər sınırlar.
Nə olsun ürəyə bir yara dəyib,
Ağlamayaq, Şəhidlər ki ölməyib?

Sən əbədi yaddaşda qalacaqsan,
Səni yaddan çıxarmaz Azərbaycan.
Çünki, Sən yazmısan Zəfər dastanı,
Polkovnik Babək: "Şəhidlik Aslanı"!

*03.03.2021*

## DÜŞMƏNİN QƏNİMİ BAYRI



*Şəhid Bayrı Mirzə oğlu İmanovun nurlu xatirəsinə həsr olunur. (5 fevral 1996-cı il, Salyan rayonu Qaraçala kəndi – 10 noyabr 2020-ci il Şuşa şəhəri)*

Ürəyindi iman yeri,
Gələcəyə güman yeri.
Xilas edib həyatları,
Qurban etdin canın, Bayrı.

Səni unutmaq olarmı?
Bizlərə heç yaraşarmı?
Köçüb getdin gənc yaşında,
Arzular vardı qarşında.

Sən o arzunu seçmişdin,
Zəfəri yaxın etmişdin.
Xocavənddə, həm Şuşada,
Düşməni məğlub etmişdin.

Sən döyüşün son günündə,
Baxdın Şuşa göylərinə.
44 günü gördü gözün,
Bitməmişdi hələ sözün.





Allah o günləri Sənə,
Verdi sovqat, pay, hədiyyə.
Bir an baxdın şəhidlərə,
Bir an baxdın qələbəyə.

Düşmənin gülləsi dəydi,
Sanmam ki, qəddini əydi.
Mələklər özün yetirdi,
Göstərdi Sənə cənnəti.

Bu 44 gün birdən-birə
Gəldi, getdi qismət ilə.
44-cü gün başladı,
Nurlu bir Şəhadət ilə.

Ölüm gəldi, addım iti,
Gəldi və apardı Səni.
Allah 44-cü gündə,
Sənə verdi Şəhadəti.

Şuşada mərd dururuqsa,
Sizlərin sayəsindədir.
Qələbə Siz Şəhidlərin,
Amalı, qayəsindədir.

Cismin könüllərimizdə,
İsmin Zəfərlərimizdə.
Biz deyilik Səndən ayrı,
Düşmənin qənimi Bayrı.

Şəhidim, Sən yaşayırsan,
Minlərlə yurddaş qəlbində.
Allah cənnətinə yarsan,
Var ol Allah cənnətində.

*30.08.2021*

## CƏBRAYIL : ALLAHIN MÜCAHİD QULU



*Şəhid Cəbrayıl Dövlət oğlu Dövlətzadənin aziz xatirəsinə həsr olunur. (11.09.2001-ci il Sumqayıt şəhəri, Corat qəsəbəsi-28.09.2020-ci il, Kəlbəcər rayonu, Murovdağ silsiləsi*

Allahın mücahid qulu Cəbrayıl,
Qarabağın Zəfər yolu Cəbrayıl.
Əsl nümunə oldun hər ərənə,
Borcunu qaytardın ulu Vətənə.

19 yaşına sığmayan dastan,
Sənin qələmindən çıxdı, Cəbrayıl.
Vasitəçi bilib Səni Yaradan,
Düşmənin evini yıxdı, Cəbrayıl.

Böyük qisaslara sən layiq oldun,
Yeni Şah İsmayılsan bu yurdun.
Gənc qurd kimi fəndgir çaqqal öldürdün,
Bu işinlə övlad üzü güldürdün.

Səni hey yad edirəm, ey Şəhidim!
Ruhunu şad edirəm, ey Şəhidim!
Var Sənintək, Mübariztək igidim,
Arzum budur yolunuzla mən gedim!

Qorudun sarsılmaz ana Vətəni,
Azad etdin alınmaz Kəlbəcəri.
Sən yazmısan – Azərbaycan Əsgəri,
"Qələbə" adlı Müqəddəs Zəfəri!

Sənsən Qələbənin memarlarından,
Cəngavər qanının damarlarından,
Nərə çəkdin Sən Şəhid olan zaman,
Toxum əkdin savaş başlayan zaman.

Toxum böyüdü, oldu Şanlı Zəfər,
O Zəfərlə Şuşanı azad edər!





Səntək igidlərin ruhun şad edər,
Şanlı Vətənimdə hər igid əsgər!

Hər an duaçıyıq sənin ruhuna,
Biz inanmırıq cismən yoxluğuna.
Əsgərsən, Vətən keşiyin çəkirsən,
Qarabağda, Kəlbəcərdə, Şuşada!

Əsl nümunə oldun hər ərənə,
Borcunu qaytardın ulu Vətənə.
Allahın mücahid qulu Cəbrayıl,
Qarabağın Zəfər yolu Cəbrayıl,

*29.06.2021.*

## QİSAS CƏNGAVƏRİ



*Vətən müharibəsi şəhidi Elmin Əvəz oğlu Mirzəyevin nurlu xatirəsinə (20.02.1995-ci il Xocavənd rayonu Əmrallar kəndi - 02.10.2020-ci il Füzuli rayonu)*

Qisas cəngavəri, sülhün əsgəri,
Fikri Vətən, Qarabağ olan Elmin.
Oldun sərkərdəsi, igidi, nəri,
Bu dövlətin, bu yurdun, bu millətin.

Qisas məskənin oldu Xocavəndin,
Güc verdi sənə ruhu ərənlərin,
Sonda Sən Qarabağı azad etdin,
Zəfərdir yurda verdiyin sərvətin.

Şəhid olub verdin Zəfər xəbərin,
Sən Xocavəndimin işğal günündə.
Baş əyirik biz, sənin əzizlərin,
Qəhrəmanlıq abidənin önündə.

Qanla yazıldı Qarabağ əsərin,
Nurlu Şəhadətin, parlaq Zəfərin.
Şəhidlər ölməz deyir Peyğəmbər, din,
Sən əbədiyaşarsan, şəhid Elmin.

*18.05.2021*

## BİR SEVGİ VAR...

(poema)



*Ailə həyatı qurmasının 9-cu ayında qəhrəmancasına şəhid olmuş Elvin Tələt oğlu İsmayılovun nakam sevgisinə həsr olunmuşdur. (09.03.1989-cu il Beyləqan rayonu Əlinəzərli kəndi- 27.09.2020-ci il Füzuli rayonu)*

Bir sevgi var, bitməzdir,
Şəhidlərtək ölməzdir...
Bu sevgiyə 9 ay,
Həyatda bəs etməzdir.

O sevgi ki, gülləylə,
Sadəcə yaralandı.
Bilirdi ki, Şəhidin,
Ruhuyla sağalandı.

Qısqandırırdı yadı,
Elvin-Şəhlaydı adı.
Sevgi yoluyla getdi,
Cəng yoluyla başladı.

Anası istəyirdi
Toyu olsun Elvinin.
Davam etsin şad günlər,
Kökü kəsilsin qəmin.

Şəhlam tanıyanda,
Heç inana bilmədi.
Onu qaynanatək yox,
Doğma anatək sevdi.

Sonra toyları oldu
Şəhla ilə Elvinin.
Şəhla ulu ocağa,
Həvəslə köçdü gəlin.





Elvin hərbçi idi,
Şəhla bunu bilirdi.
Buna görə o, daim
Fəxr edir, sevinirdi.

Ağlına gəlməmişdi,
Elvin Şəhid olacaq.
9 aylıq xəyallar,
Bir anda yıxılacaq.

Şəhla kitab yazmışdı,
"And yeri" – Şəhidlərə.
Yazanda bilməmişdi,
Dönəcək o günlərə.

Şəhid yarın görəndə,
Onun dolurdu gözü.
Bilməzdi, Şəhid yarı,
Olacaq bir vaxt özü.

Özün hazırlayırdı,
O, bir əsgər yarıydı.
Ondan ayrı düşəndə,
Onu xatırlayırdı.

"Hifz elə Elvinimi,
Yarımı qoru, Allah!
Onsuz – ölmüşəm demək,
Çəkərəm iztirab, ah".

Sidqi-ürəkdən idi,
Şəhlanın bu duası.
Elvinli olmalıydı,
Sevgi dolu dünyası.

"Dünyada ayrılıq var,
Dünyada sərhədlər var.
Birdən mənə qıyarlar,
Tez ayrılarıq, ey yar."

Elvinin ürəyində,
Bu fikir iz salmışdı.

Şəhlanın arzuları
Ürəyində qalmışdı.

Heç 9 ay keçmədi,
O gözəl toylarından.
İntiqam alınırdı,
Erməni cəlladından.

Müharibə başlandı,
İgidlərim atlandı.
Şəhidlər də verdik biz,
Səngərlər boş qalmadı.

Şəhla nikbin olaraq,
Onu yola salırdı –
Elvin gedirdi cəngə,
Şəhlası tək qalırdı.

İçi için yeyirdi,
"Yar dardadır" bilirdi.
Alınan xəbərlərdən,
O çox ümidlənirdi.

Artıq ilk qələbələr,
Çaldı bizim ordumuz.
Neçə canlarla azad
Edilirdi yurdumuz.

Birdən xəbər kəsildi...
Elvindən səs gəlmədi...
Şəhla fikrə dalırdı,
Ümidlər azalırdı...

"Sənə qurban, canım yar,
Sevgim, mehribanım yar.
Qəlbim yerindən çıxır,
De, ordan nə xəbər var?"

Son nikbin arzu, xəyal,
Şəhla üçün quruldu.
Şəhla rahatlaşmadı,
Alovlandı, qovruldu.





Dəqiqələr, saatlar,
Ömürdən bir-bir keçir.
Səssizcə uyuyur yar,
Şəhid şərbətin içir...

Gəlir hərbdən bir xəbər,
Olmadılar bixəbər.
Şəhla xəbər eşitcək,
Həyat çiçəyi soldu,
Elvini Şəhid oldu...

Ümid intihar etdi,
Ruhun həyatı bitdi...
Onun gözləri doldu,
Elvini Şəhid oldu...

"Axı, vaxtımız vardı,
Demədin, zaman dardı.
Sevgimizdən, əsgər yar,
Olmadı bir yadigar.

Doyunca danışmadıq,
Söhbət edib gülmədik.
Fələk izin vermədi,
Sonadək sevəmmədik... "

Həmin gün Şəhla üçün,
Sanki bir zülüm, ölüm.
Deyirdi o: "Tək qoydun,
Məni sən, gözəl gülüm. "

O sonadək gözlədi,
Elvinin qisasını.
Yeri gələndə etdi,
Şəhidlərin yasını.

Yeri gələndə nikbin,
Fikiri oldu onun.
Qələbəsi gəlirdi,
Onun ana yurdunun.

Sonda noyabr da gəldi,
8-i tez yetişdi.
Azərbaycan Ordusu,
Qazandı o Zəfərin!
Qisas alındı, Elvin!

Bu sevgi güllü bahar,
Bu sevgiyə yağmaz qar.
Hələ də bir sevgi var,
Dünya durduqca yaşar!

*14.06.2021*

## CƏNNƏTDƏN CƏNNƏTƏ KÖÇƏN ELZAMİN



*Şəhid Elzamin Eyvaz oğlu Tağıyevin əziz xatirəsinə (11 avqust 1992-ci il Xocavənd rayonu Qaradağlı kəndi–09 noyabr 2020-ci il Şuşa şəhəri)*

Az görmüşdü Qaradağlı üzünü,
Çox yaşadı Qaradağlı həsrətin.
Sonda dedi meydanda öz sözünü,
Qarabağın qaytardı öz qüdrətin.

Bir ömrə bərabər idi 43 gün,
Elzamin sonadək göstərdi gücün.
Aldı intiqamın Qaradağlının,
Aldı düşmənindən aldı o, öcün.

"Allah zaminində", dua etdi el,
Elin duasıyla yüksəldi əsgər.
Vətən əsgərinə qasırğatək yel,
Elzaminə Simurq da köks ötürər.

Ohanyan səddində sıxılmışdı əl,
Elzamin atəşkəsləri səngidir.
İndi var Şuşada dəmirdən heykəl,
Elzamin düşmənə yumruq endirir.

Bu fani dünyadan keçən Elzamin,
O nurlu Cənnəti seçən Elzamin.
Şəhid oldu cənnətməkan Şuşada,
Cənnətdən Cənnətə köçən Elzamin.

*09.08.2021.*





## CƏNAB KAPİTAN



*Şəhid kapitan Fəzail Cahan oğlu Əliyevin nurlu xatirəsinə ithaf... (05.11.1990-cı il, Zaqatala rayonu Bəhmədli kəndi-30.09.2020-ci il Füzuli rayonu.)*

Qürurusan uğrunda can verdiyin Vətənin,
3 günlük qanlı döyüş nəsibin oldu sənin.
Boş olması imkansız səngərlərdə yerinin,
Şəhidliyin ilə sən olmusan böyük dastan,
Vətən uğrunda Şəhid oldun, cənab Kapitan.

Neçə il ürəyində gəzdirdin intiqamı,
Sonda dözmədin, dedin: "Bu an intiqam anı!"
Vətən üçün can verdin, qurtardın neçə canı,
Şəhidliyin ilə sən olmusan böyük dastan,
Vətən uğrunda Şəhid oldun, cənab Kapitan.

Cəng sənindi, hərb sənin, zəfəri gözləyirdin,
Ad gününü zəfər günü ilə bir keçirdin –
Ən gözəl bucağında göylərdəki cənnətin,
Şəhidliyin ilə sən olmusan böyük dastan,
Vətən uğrunda Şəhid oldun, cənab Kapitan.

Etdin Vətənimi Sən üzü ağ, açıq alın,
Hər bir zaman qürurla çəkilir şanlı adın.
Köksü qabarır neçə döyüş yoldaşlarının,
Şəhidliyin ilə sən olmusan böyük dastan,
Vətən uğrunda Şəhid oldun, cənab Kapitan.

Özün getdin, qurtardın Qarabağ adlı yurdu,
Ulatmadın, kükrətdin Vətənimdə Bozqurdu.
Sənin şəhid olmağın ərənləri coşdurdu,
Şəhidliyin ilə sən olmusan böyük dastan,
Vətən uğrunda Şəhid oldun, cənab Kapitan.

Yoxluğun qəlbimizə çəkibsə də böyük dağ,
Sənsə cismani yoxsan, ürəklərdə sağsan, sağ.
Ən böyük arzuna çatdın: azaddır Qarabağ!
Şəhidliyin ilə sən olmusan böyük dastan,
Vətən uğrunda Şəhid oldun, cənab Kapitan.

Bu yurd üçün tökdün qan, Qarabağda verdin can,
Qəlblərdə taxt qurmusan, taxt qalacaqdır hər an,
Səninlə fəxr edir öz Vətənin – Azərbaycan!
Şəhidliyin ilə sən olmusan böyük dastan,
Vətən uğrunda Şəhid oldun, cənab Kapitan?!

11.02.2021

## UÇUB GEDƏN BİR KƏPƏNƏK



*Şəhid Xəyyam Məhəmməd oğlu Daşdəmirovun aziz xatirəsinə həsr edilmiş ağı (22.02.2002-ci il İsmayıllı rayonu Balik kəndi-12.07.2020-ci il Tovuz rayonu)*



Nə edim mən, necə yazım,
Əlimdə qələm quruyur.
Beynimdəki fikirləri,
Qəlbimdəkilər qoruyur.
Bir şəhidin nəşi kimi,
Yazan əllərim soyuyur.
Bu dünyadan doymayanım,
Başqa dünyanın olanım.
Vətən üçün həyatından
Nə tez doyur?..
Öz içimdə şeirimi,
Əsə-əsə oxuyuram.
Gözümdə yox, qəlbimdəki
Yaşlar ilə boğuluram.
Qafiyələri düşünüb,
Körpə beynimi yoruram,
Yormalıyam.
Mələk olan Şəhidimdən
Nə tez uçub getdiyini





Sormalıyam.
Necə seçim mən sözləri,
Məndə ki yoxdur ixtiyar.
Darlıq edir mənə fikir,
Ürəyimə yağır qarlar
Və əriyir.
Qəhrəmanım uçub gedir,
Bəzəkli bir kəpənəktək.
İntizarla gözləsəm də
O, heç geriyə dönməyir,
Və yəqin ki, dönməyəcək.
Bir şəhidin anasını,
Anlaya bilməsəm də mən,
Bunu çox yaxşı bilirəm.
Bir ay bir il kimi gəlir,
Dəqiqələr qərinədir.
Lakin Şəhidin anası,
Göz yaşı bilməməlidir.
Çünki o, Şəhid anası yox,
Vətən anası olmuşdur.
Düşünməsin, açan çiçək,
Vaxtsız, vədəsiz solmuşdur.
Ana, Vətən, doğma torpaq,
Namus, qeyrət, başda papaq –
Bunları biz əziz tutaq!
Şəhidlərimizi anaq!
Onda, ruhları şad olar,
Məzarda rahat yatarlar.
Vaxt gələcək, bitəcək yas,
Alınacaq böyük qisas!

*20.08.2020*
*"Kredo" qəzeti, 28.07.2021*

# XƏYYAM ƏFSANƏSİ



*Şəhid baş leytenant Xəyyam Əli oğlu Əzizovun nurlu xatirəsinə (08 noyabr 1995-ci il Neftçala şəhəri – 08 noyabr 2020-ci il Şuşa şəhəri)*

Əfsanəvi Xəyyam keçdi dünyadan,
Səsi gəldi Qarabağdan, Şuşadan.
Allahın verdiyi nur çöhrəsində,
Çinar yüksəlmişdi bir pöhrəsində.

Doğuldu ərənlər Neftçalasında,
Neftçala qalmışdı öz yarasında.
Aldı yaralar 20 Yanvardan,
Onunla ağlamışdı Azərbaycan.

Xəyyamı Xəyyam elədi bu məkan,
Elədi mübariz, igid, qəhrəman.
"Vətən" dedi, oldu Vətənə qurban.
Dedi: "Vətən, ucalardan ucasan,
Səntək anaya layiq olmalıyam!"

Bu oğul layiq olmaq üçün ona,
Dözdü çətinliyə, ruh verdi cana.
Qorumaq istərdi yurdu düşməndən,
Azad edəcəkdi yurdu düşməndən.

Zabitin şərəfi sədaqətiydi,
Zabitin qüdrəti Haqdan gəlirdi.
Zabitin ürəyi can yoldaşları,
Əziz tutmalıydı candan Şəhidi.

Xəyyam xüsusi təyinatlı idi,
Tapşırığı dəqiq icra edirdi.
O, özündə güc tapırdı mənəvi,
Öldürürdü içindəki düşməni.

Qəhrəman cəsurca eylədi xidmət,
Hiss etmirdi nə əzab, nə əziyyət.





Onunçün əzabdı Şuşasız qalmaq,
Xoşbəxtlik olardı Zəfəri çalmaq.

Var idi Vətəndə bir ümid, istək,
Bilirdi ki, tez həyata keçəcək.
Bu yolda hər maneəni aşacaq,
Xəyyam Qarabağa yaxınlaşacaq.

2020... Dastan kimi il,
Unudulmaz, unutmaz neçə nəsil.
75 il keçirdi Qələbədən,
Babalarım keçdilər gör nələrdən.

Babaların ruhları şad deyildi,
Nəvələrdən qələbə istəyirdi.
Yaradandan diləyirdi bu yurdun,
75 il sonra gəlsin Zəfəri.

Moskvada keçdi Qələbə Paradı,
O meydanlar tarixi təkrarladı.
Yurdun xüsusi təyinatlısı,
Dedi: "Olacaq Zəfər, qabaqdadı!"

Toz qopardı orda bir dəstə igid,
O dəstədə vardı Xəyyam və Həmid[1].
Bilirdi bəxt yazan ulu Yaradan,
Zəfər Günlərində olacaq Şəhid...

4 ay keçdi, səbir bir az tükəndi,
Elə bildilər, ümidlər bitəndi.
Ruhumuzda qəzəb başqa qəzəbdi,
Yerdə qalan qanlar qisas istədi.

O zaman başladı Vətən savaşı,
Nə görməmişdi ki yurdumun başı.
Xəyyamtək oğullar verərək canı,
Alacaqdı nahaq qan qisasını.

Cəbrayıl, Füzuli onu gözlədi,
Xəyyamlarla işğalın sonu gəldi.

1. *Şəhid baş leytenant Həmid Abbasbəyli*

Süngü, silah tutan o polad əldi,
O əllə gələn zəfər nə gözəldi.

Xocavəndim Şuşamıza qapıydı,
Əziz Hadrut Zəfərə aparırdı.
Xəyyam üçün o günə az qalmışdı,
O günə özünü çatdırmalıydı.

Şuşa rayonuna ilk addımlarda,
Xarı bülbüllər çıxdı qarşısına.
Solmuş bu gül azadlıq diləyirdi,
O, Zəfər Günü dirçələ bilərdi.

Ürək təzələndi ulu bir səslə,
Xəyyam davam etdi təzə nəfəslə.
Heç nə idi onunçün zədə-yara,
Şuşa dərman idi bu yaralara.

Noyabr keçmişdi artıq səkkizə,
O gün necə ulu, müqəddəs bizə.
Xəyyama göylərdən yağırdı nurlar,
Sanki Cənnətdən onu çağırırlar.

Xəyyam hiss eylədi, bu göndərişdir,
"Bu gün Zəfərimizdir" Allah deyir.
Etməmək günahdır Allah deyəni,
Saxlamaq olarmı Xəyyam ərəni?

Şuşa şəhərinə bir qarış qalmış,
Şuşa havasından bir nəfəs almış.
Xəyyam görür: Xarı bülbül dirçəlmiş,
Yoldaşlarsa Şəhadətə ucalmış.

Şəhid əsgərlərin ayaqlarını,
O güllər həsrətlə qucaqlayırdı.
Xəyyam əllərini göyə açırdı,
Şuşaya çatmağa lap az qalırdı.

Bu gün Qəhrəmanın ad günü idi,
Ad günündə yurdu azad edirdi.
Xəyyam üçün ifadəsi çətindi,
Gör necə şad gündü, necə sevincdi...





Az qalmışdı mərkəzinə Şuşanın,
Bir oğlu da getdi Azərbaycanın.
Çevrildi İmam Hüseynin gülünə,
Son qanın verdi Xarı bülbülünə.

O Gün Yaradanım verdi hədiyyə,
Xəyyam bir mələktək getdi Cənnətə.
Xəyyama hədiyyə idi Şəhadət,
Vətənə hədiyyə idi Qələbə.

Ruhu cövl edir Şuşa səmasında,
Ruhu pərvazlanır el-obasında.
Qəhrəmanlıq ətri səs-sədasında,
Daim səsləyir bizləri Zəfərə.

Yaşayır Şuşada, ürəyimizdə,
Yaşayır dastanda, əsərimizdə.
Əməlimizdə Xəyyam əfsanəsi,
Qəlblərimizdə Xəyyam əfsanəsi!

*22.08.2021*

## DASTANA DÖNDÜ



*Şəhid Xudayar Müslüm oğlu Yusifzadənin cənnətdəki ilk doğum gününə və əziz xatirəsinə həsr edilmişdir. (15.07.1998-ci il Bərdə şəhəri-22.10.2020-ci il Zəngilan rayonu Ağbənd qəsəbəsi)*

Keçdi xəyalından öz gözəl yurdu,
Dumanlar başında dastana döndü.
Əzəldən öz ruhu bildi Boz qurdu,
Vətən Savaşında aslana döndü.

Şəhid olmaq idi onun xəyalı,
Zəfər çalmaq idi onun amalı,
O vaxt ki, əsgər qisasını aldı
Ulu Şuşa Azərbaycana döndü.

Xudayarın nəşi nura boyandı,
Şəhadətiylə Qarabağ oyandı.
Bilin, Qarabağım Azərbaycandı,
Xudayar o bağda bağbana döndü.

İnsan deyil vətənini sevməyən,
İnsan deyil yurd qədrini bilməyən.
Gülləsi mərd Xudayarıma dəyən,
İnsanlıqdan çıxıb şeytana döndü.

Zərbəsiylə matəm elədi yağı,
Dağ üstündən çəkdi düşmənə dağı.
Qorudu vətəni, ana torpağı,
Bu yolda kükrəyən ümmana döndü.

Azərbaycanımın mərd vətəndaşı,
Vətən söyləyərdi hər kəlmə başı.
Yumuşaq yastığı vətənin daşı,
Lopa-lopa qarlar yorğana döndü.

Nur üzündən həyat eşqi yağırdı,
Ömür boyu "haqq-ədalət" bağırdı.
Şəhid oldu, ərənləri çağırdı,
Ərənlər mərdanə meydana döndü.

Bağışlamadı O, bir xəyanəti,
Özündə hiss etdi gücü, qüvvəti.
O, silahla dirçəltdi ədaləti,
Düşmənin dediyi yalana döndü.

Şəhid, ruhunla ömür sürəcəksən,
Zəfər üçün sevinib, güləcəksən.
Oram cənnətdən şad görəcəksən,
Ki, Zəngilan cənnətməkana döndü.

"Xarı bülbül"ə can verdin, bilirik,
Səni ulu Fateh hesab edirik.
Can Xudayar, bil ki, şair Sevindik,
Getdiyin o yolda qurbana döndü.

Ey şəhidim, oyan, röyadan oyan,
Sevindiyin qəlbini etdin viran.





Olmadı o gül camalından doyan,
O, şücaətindən heyrana döndü...

Keçdi xəyalından öz gözəl yurdu,
Dağlar zirvəsində dumana döndü.
Həmişə sevərdi vətəni, yurdu,
Vətənçün yazılmış dastana döndü.

*15.07.2021.*

## QARDAŞ



*Vətən Müharibəsi qəhrəmanı, şəhid **İntiqam Bayram oğlu Əsgərlinin dilindən Aprel döyüşlərində qolları arasında şəhid olmuş qardaşı Nurlan Bayram oğlu Əsgərliyə***



***İntiqam Əsgərli***
*(16.08.1990-cı il Masallı rayonu Viləş kəndi-9.11.2020-ci il-Şuşa şəhəri)*

***Nurlan Əsgərli***
*(03.12.1995-ci il Masallı rayonu Viləş kəndi-04.04.2016-cı il-Tərtər rayonu)*

Qan içində qollarımda can verdin,
Vətənimin torpağına qan verdin.
Mənə dağ çəkib, yara vurub getdin,
Yıxıldım o an, donub qaldım, qardaş.

Xatırladım sənlə gözəl günləri,
Xatırladım bu günü, həm dünəni.
Rəva bilmədim "xatirə" deməyi,
Şirin xatirələrə daldım, qardaş.

İçimi boğan da həmin an oldu,
Məni yandıran da həmin an oldu.
Qisasımı alanadək çox yandım,
Sakitləşdirən Azərbaycan oldu.

Günə gün demədim mən, illərə il,
Mən intiqamın üçün çalışdım, bil,
Çox yanırdı bədən, qovrulurdu dil,
Mən nur adını yada saldım, qardaş.

Sənin ilə Şəhid oldu yoldaşım,
O 4 ildə dərd-qəm yazdı yaddaşım,
Səni yaşatmaq istədim, qardaşım,
Səni əməllərimdə andım, qardaş.

Sən kimi qardaşın qisasın almaq,
Düşmən üzərində qələbə çalmaq,
Qarabağın hər yerində yurd salmaq,
Bu idi mənim əsas andım, qardaş.

Vaxtdı, Əmr verdi Ali Baş Komandan,
Səfərbər oldu nə qədər növcavan.
Qarabağ olmalıydı Azərbaycan,
Elə bil dirçəldim, oyandım, qardaş.
Bu anda yerimdə durardım, qardaş?

Bir qüvvə dayandırammazdı məni,
Sona qədər məhv elədim düşməni.
Yenə də unutmadım qardaş, səni,
Qisas almağa çalışırdım, qardaş.

Şuşada döyüşdə iştirak etdim,
Səngərdə Xarı bülbülə çevrildim.
Şükür ay Allahım, arzuma yetdim,
Şəhid olub qisasın aldım, qardaş!

Sən qərənfil, mən isə Xarı bülbül,
İkimiz də döyüşlərdə açan gül.
Cismən olmasaq da, cənnətdə canıq,
ƏZƏLİ, ƏBƏDİ AZƏRBAYCANIQ!

*04.04.2021*





## MƏNİM ŞƏHİD ƏMİOĞLUM



*Şəhid Qalası Müslüm oğlu Kərimlinin əmisi oğlunun dilindən onun nurlu xatirəsinə (08.01.2000-ci il Hacıqabul rayonu Muğan kəndi - 02.11.2020-ci il Şuşa rayonu Daşaltı kəndi)*

5 ay hər yerdə axtardıq,
Sənin mübarək cismini.
Biz düz 5 ay həsrət qaldıq,
Eşitmədik o səsini.

Sən Şuşanın fatehisən,
Qələbə əldə etmisən.
Bunu əvvəldən bilirdik,
Səni canlı gözləyirdik.

Gözləyirdik qayıdarsan,
Sən bizi qucaqlayarsan.
Keçdiyin döyüş yolundan,
Yorulmadan danışarsan.

Olmadı, qardaş, olmadı,
Sənin yerin heç dolmadı.
Bizim gülümüz solsa da,
O Xarı bülbül solmadı.

Çünki ona can vermişdin,
Qanını qida bilmişdin,
Sayəndə var Xarı bülbül,
Zəfərindən halidir gül.

Sənin sayəndə azaddır,
Şuşamın uca qalası.
Bilirəm ki, ruhun şaddır,
Əmimin igid balası.

Yoxluğunla qəlbimizdə,
Tükəndi taqət, həm durum.
Sənsən vüqarım, qürurum,
Mənim Şəhid əmioğlum!

*12.05.2021*

## QARABAĞIN ÜZÜN AĞ EDƏN QARA



*Şəhid Qara Əmirxan oğlu Balakişiyevin nurlu xatirəsinə...*
*(11.07.1994-cü il Xocavənd rayonu Əmrallar kəndi–*
*27.09.2020-ci il Füzuli rayonu)*

Yazıldın ömürlük sən yaddaşlara,
Adın həkk olundu qara daşlara.
Gedişinlə vurdun qəlblərə yara,
Qarabağın ləkəsin silən Qara,
Qarabağın üzün ağ edən Qara.

Yaşadın Qarabağ həsrəti ilə,
Böyüdün ata nəsihəti ilə.
Allahın verdiyi qüdrəti ilə,
Bayraq sancdın azad olan yurdlara!
Qarabağın üzün ağ edən Qara.

Güc göstərdin o Aprel günlərində,
"Bir də dönəcəyik!" dedin düşmənə.
Möhtəşəm dönüşün qalıb dillərdə,
Böyük dərs verdin namərd yağılara!
Qarabağın üzün ağ edən Qara.

Gedişin təskinlikdimi, qəmdimi?
Sən xoş xasiyyətli, həm də səmimi.
Fəth eylədin ürəkləri, qəlbləri,
Sadiq çıxdın bu elə, bu ocağa!
Qarabağın üzün ağ edən Qara.

4 gün keçdi, vədə yetdi, vaxt gəldi,
Düşmənlərin özlərini itirdi.
Başladı Qarabağ müharibəsi,
Bu vətən itirdi igidlərini,
Bu Vətən qazandı ilk Zəfərini.

Qisas odu qaynayırdı qanında,
Düşmənlərdən ilk qisasını aldın.
Sən Mirqamət qardaşının yanında,
Şəhidliyin Zirvəsinə ucaldın!
Yaddaşlarda bir qəhrəmantək qaldın.





O vaxt İmam Hüseyn səni dərmişdi,
Bir gül kimi öz köksünə sərmişdi,
Ruhun Səni Zirvələrə apardı.
Allah Səni Vətənə pay vermişdi,
Vətən Səni Allaha pay qaytardı.

Döndün bir soyuq məzara, qardaşım,
Ürəklərə vurdun yara,qardaşım.
Qisas alan, Şəhid olan yurddaşım,
Cənnətdə dostları ara, qardaşım,
Sənlə fəxr edirik, Qara qardaşım!

*22.07.2021*

## BİZ MÜBARİZİK! – MÜBARİZLİK TARİXİ



*(poema)*



***Milli Qəhrəman Mübariz İbrahimov***

***Milli Qəhrəman Polad Həşimov***

Dirilişlə ululanı dirildən,
O Göylərdən güc alan, nərildəyən,
Düşmənə ölüm yarası tək dəyən,
Onlar bizik, biz hər işə barizik,
ONLAR BİZİK, POLADIQ, MÜBARİZİK!

Göytürk, Qurdbaş, Qızılbaşçün tökən qan,
14 yaşında Ulu Fateh olan,
Gündüz olan, qaranlıqdan sökən dan,
Onlar bizik, BİZ ŞANLI ƏRƏNLƏRİK,
ONLAR BİZİK, POLADIQ, MÜBARİZİK!

Dədə Qorqud sözləriylə güc alan,
Düşmənlərdən intiqam, həm öc alan,
Koroğlunun nərəsiylə ucalan,
Onlar bizik, BİZ ŞANLI ƏRƏNLƏRİK,
ONLAR BİZİK, POLADIQ, MÜBARİZİK!

Uyğur ilə, qazax ilə qurd olan,
Qırğız, özbək, tatar ilə yurd salan,
Azər ilə, Türk ilə TƏK TÜRK olan,
Onlar bizik, BİZ ŞANLI ƏRƏNLƏRİK,
ONLAR BİZİK, POLADIQ, MÜBARİZİK!

Ərtoğrulla dövlət olmaq istəyən,
Ulu Osmanla da gerçəkləşdirən,
Bizik neçə milyonu keçən ərən!
Onlar bizik, BİZ ŞANLI ƏRƏNLƏRİK,
ONLAR BİZİK, POLADIQ, MÜBARİZİK!

Xətaiylə haqq-ədalət diləyən,
Düşmən çoxdu: ağız əyən, dil əyən,
Boyunlarını əydik biz alp-ərən,
Onlar bizik, BİZ ŞANLI ƏRƏNLƏRİK,
ONLAR BİZİK, POLADIQ, MÜBARİZİK!

Ana yurd çöküşünü yaşar ikən,
Şah oldu ulu Əfşar Nadir ərən,
BİZİK YENİ DEHLİYƏDƏK YOL GEDƏN,
ONLAR BİZİK, BİZ ŞANLI ƏRƏNLƏRİK,
ONLAR BİZİK, POLADIQ, MÜBARİZİK!

Əfsus ki, xainlərimiz də oldu,
İnlərimiz, cinlərimiz də oldu,
O Nadir şahımız şəhid də oldu,
Heyif ki, xanlıqlara parçalandıq,
Bir-birimizi diddik, parçalandıq.

Əsrlər keçdi, yağıya əsir olduq,
Nədənsə, hürlüyə həvəssiz olduq,
Təngnəfəs olduq, nəfəssiz olduq,
Əsrlərlə əziyyəti biz çəkdik,
Hürlük istəyirdik, ancaq biz təkdik.





Gəldi, 1918 gəldi,
Acı ilə gəldi, şirinlə gəldi.
Yağı düşmən neçə soyqırım etdi,
Rəzil idi, çox rəzilliklər etdi.

Ağladı neçə anam, qız-gəlinim,
Az qala kəsiləcəkdi bu dilim.
Qalmayacaqdı az qala heç nəyim,
Boşa çıxırdı mənim neçə səyim.

Bax onda o alp-ərənlər toplaşdı,
Silahıyla yox, sözüylə toplaşdı,
Bu birlik onlara necə yaraşdı,
Onlar bizik, BİZ ŞANLI ƏRƏNLƏRİK,
ONLAR BİZİK, POLADIQ, MÜBARİZİK!

İstiqlal günəşi parladı, yandı,
O üçrəngli bayraq da dalğalandı.
Bu ərlər dövləti Azərbaycandı!
Onlar bizik, BİZ ŞANLI ƏRƏNLƏRİK,
ONLAR BİZİK, POLADIQ, MÜBARİZİK!

2 il çəkmədi bu gözəl hürlük,
Əzəlimiz olmuş bu özəl hürlük.
Yurdsevərlər oldular parça-bölük,
Yad əllər boğdu bu gözəl Vətəni,
Ay-ulduzun saçına saldı dəni.

70 illik əzablardan çox sonra,
Müstəqil olsa da bu Şanlı Vətən,
Müstəqilliyinə ləkə vuruldu,
İndi Qarabağla düşdü saça dən.

Neçə ailənin kökü kəsildi,
Düşmən Qarabağın "cənnət"in sildi.
Qız-gəlinimiz də o vaxt əsirdi,
Şimal küləkləri yenə əsirdi.

Düşmən bizə yalnız 1 gün vaxt verdi,
Qovulduq ürəyimizdəki dağla.

Həsən Qorxmaz o vaxtlar çox deyərdi:
"Ağla, Qarabağım, ağla, sən ağla... "

Ağladı Qarabağ torpağı, daşı,
Qanlara bələndi onun yaddaşı.
Həlak oldu çoxunun yar-yoldaşı,
Əsir oldu yurdun torpağı, daşı,
Niyə ulamırdu bozun qurddaşı?
Çaqqalların başın əyən qurddaşı?

Qurddaş yox idi, dəm vuran var idi,
Qılınclardan, qələmlərdən, həm sözdən.
Özdən çevrilirdi yurdun taleyi,
Faciəyə çevrilirdi bəxt özdən.

Çaqqalların süfrəsində əyləşən,
Çox görmüşdük vətən xainlərini.
Düşmənlə şadlanan, deyib-gülüşən,
Mələk donunda gəzən cinlərini.

Müşkül həll olundu, gəldi o Bozqurd,
Harayladı, nərə çəkdi səsiylə.
Dirilik suyunu ondan aldı yurd,
İçdi Ulu Heydərin nəfəsiylə.

Ulu Öndər qurtardı bu milləti,
Bunun üçün çəkdi O, əziyyəti,
Öz Yurduna istiqlalı gətirdi,
Dirilişi, Dirçəlişi gətirdi.

Arzusu, amalı Qarabağ idi,
Əsl istiqlalı Qarabağ idi.
Əfsuslar olsun ki, aman yox idi,
Ulu Öndər Zəfər görmədən getdi.

Lakin, onun yolun davam etdirdi,
Qarabağdan ilham alan bir İlham.
Ululardan ilham alan bir ərən,
Zəfər tarixini yazan bir İlham.
İllərlə içində plan qurmuşdu,
Dövlətçiliyimizi qorumuşdu,





Qarşısında düşməni mat olmuşdu,
Düşmənin rəngi saralıb- solmuşdu.

Yurda çoxlu erməni soxulmuşdu,
30 ildə orda yuva qurmuşdu.
Biz tikdiklərimizi uçurmuşdu,
Onlar məzarlıqları da oymuşdu.

Gördü Qarabağım nə müsibətlər,
Gördü hər bir yanda nə fəlakətlər.
İnsan donunda gəzən neçə cinlər,
Bilmədi orda çəkilər nərələr,
Bilmədi Qarabağda son kim gülər.
Vətənində "Torpaq!" qədri bilənlər,
Bir gün gəlib yurdu azad edərlər!

Dırnaq arasında var atəşkəslər,
Lakin duyulur qəhqəhəli səslər,
Bu ilanı, bu şeytanı kim bəslər?
Çaqqal, ilan, şeytan üçbucağında,
Dünyada doğrunu bərbad edərlər.

Gəldi 2010... Qoyuldu bir iz,
Dastan yazdı bizim ÇOX ƏRƏNİMİZ!
Fərid, Əhməd və Ərənim Mübariz!
ONLAR BİZİK, BİZ DİRİLİŞ ETMİŞİK,
ONLAR BİZİK, POLADIQ, MÜBARİZİK!

2016 ilin apreli
Olacaqdı tarixin yaxşı ili.
Ərənlərim şumlayacaq meydanı,
Azad edəcək Cocuq Mərcanlını!

Düşmən əsəbindən zəhər qusarkən,
Hiylə ilə min qapını pusarkən
Dünya həmişəki kimi susarkən,
Mərcanlını azad etdi ƏRƏNİM,
Ulu ruhunu şad etdi ƏRƏNİM!

ONLAR BİZİK, BİZ DƏMİRİK, POLADIQ,
ONLAR BİZİK, BİZ ŞÜKÜRÜK, MURADIQ!

Bundan sonra düşmənlər dəyişildi,
O hakimiyyətə bir xəstə gəldi.
Məqsədləri xəstə, məramı xəstə,
İstəkləri xəstə, amalı xəstə.

Hər sözünə min bişmiş toyuq gülür,
İsti-isti, ya soyuq-soyuq gülür,
Yaş axır gözdən, gözü oyuq gülür,
Ermənilər növbəti dəfə ölür.

Gəldi 2020-ci ilim,
Dastan demək istəyir indi dilim.
Osmanlıdan qalıb bu adət mənə,
Dərsverici şillə vurmaq düşmənə,
Şillə vurmaq istəyir indi əlim.

İyun ayı gəldi... Qalxdı ərənim,
10 ildir uyuyan ər Mübarizim,
Söylədi ərlərə, mərd igidlərə;
"Qələbə, qələbə, yalnız qələbə!
Bunu söyləyir mənim yolum, izim. "

Mübarizlər nərələri yüksəldi,
Ondan sonra da iyul ayı gəldi.
Tonqallar yanırdı indi Oğuzda,
Dədə Qorqud dastan dedi Tovuzda.

Görülməyən şanlı bir döyüş oldu,
Qürurlu və qanlı bir döyüş oldu.
Düşmən nə qədər dərsini alsa da,
Tovuzda neçə-neçə gülüm soldu.

Neçə-neçə uşaqlar yetim qaldı,
Neçə Ana qara xəbərlər aldı.
Qarabağ üçün göz kökü saraldı,
Al qanım onda daha çox qaraldı.

Gözlərimiz bir Araz çayı oldu,
Sanki, bizi torpağa qovuşdurdu,
Xəbər eşidəndə həyatlar durdu:
Neçə-neçə ərənim şəhid oldu,





Onlar bizik, biz xainliyə yadıq,
Onlar bizik, biz İlqarıq, Poladıq!

Günlər gəldi keçdi, ay da dəyişdi:
Baharda açan gül-çiçəklər soldu.
Neçə igid vətən üçün döyüşdü,
Neçələri bu yolda şəhid oldu.

Ürəkdə nə qədər acımız oldu...
Şəhidin anası anamız oldu,
Şəhidin bacısı bacımız oldu,
Şəhidlər bizim baş tacımız oldu.

Hər an, hər dəqiqə "Yetər!" söylədi,
İşğalçı məntiqə "Yetər!" söylədi.
Qarabağda işğal altında qalan,
Abidə, məqbərə "Yetər!" söylədi!

Dərdlərə məlhəmdi yurdun İlhamı,
Damarda çağladı Şahlanış qanı.
Gün Diriliş günü, Zəfər zamanı,
Qisasa səslədi Azərbaycanı!

Sentyabrımız qisas üçün boyandı,
Ərənlərimiz içdi qisas andı.
Bu qisas üçün qəlblər alovlandı,
Qisasa olan ümid nura boyandı.

Zəfər Yolunda ilk addımın səsi,
Cəbrayıl şəhərində eşidildi.
Qarabağın, Azadlığın nəfəsi,
Şəhidin son sözündə eşidildi.

Əzilməliydi əfi ilan başı,
Hələ davam etməliydi "Vur!" əmri,
Zəhər dadı veməli düşmən aşı,
Əmr gətirməliydi Böyük Zəfəri!

Bir gözümüz güldü, biri ağladı,
Qarabağa qoymarıq biz bir yadı.
"Madagiz" yenidən bizə qayıtdı,
Oldu yenidən Suqovuşan adı.

Füzuli, Zəngilan, həm də Qubadlı,
Qarabağ ismli, həm Zəfər adlı,
İti qovan kimi qovulur yağı,
Ordum azad edir o Qarabağı!

Hadrut Şuşaya açılan qapıdı,
Xalçasının ilməsidi-sapıdı.
Salamımız Günəşədir, Ayadır,
Yolumuz yalnız, yalnız Şuşayadır!

Vaxtı gəldi! Şahlanışla ucaldıq,
Babəkimdən, Koroğlumdan güc aldıq,
Bizim olan Şuşamızı qaytardıq,
Bizə nəsib olan Zəfəri çaldıq!

8 noyabr gətirdi zəfərimizi,
Onda var şəhidlərimin qan izi.
8 noyabr Azərbaycanın ünü,
8 noyabr Xalqımın Zəfər Günü!

Kimdir keçilməz cığırlardan keçən,
Kimdir şəhadət şərbətini içən,
Kimdir döyüşlərdə həm öndə gedən,
Kimdir nurlu Zəfəri mümkün edən,
Kimdir düşmənindən qisasın alan,
Düşmənin canına vəlvələ salan,
Kimdir mümkünsüzü mümkün eyləyib,
Şuşada Zəfər bayrağı ucaldan,
Üçrəngli Bayrağı dalğalandıran?
ONLAR BİZİK, ZAURUQ, HƏM BABƏKİK,
ONLAR BİZİK, POLADIQ, MÜBARİZİK!

*10.12.2020–02.01.2021*





## VAR MƏNİM



*Vətən Müharibəsi Qəhrəmanı, şəhid Nail Nəriman oğlu İbrahimlinin əziz xatirəsinə (04.03.1994-cü il Oğuz rayonu Xaçmaz kəndi - 08.11.2020-ci il Şuşa rayonu)*

Var olasan Vətənim,
Kor olasan düşmənim.
Sanma məni öldürdün,
Bu ruhum yaşar mənim.

Başını heç əyməsin,
Saçına dən dəyməsin,
Mən "ölərəm" onda ki,
Vətənim ağlar mənim.

Qarabağlı nidayla,
Qəm-kədərlə vidayla,
Yaşatsın əks-sədayla,
Adımı dağlar mənim.

Şahiddir döyüşlərə,
Şahid oldu nələrə,
Azad olan Arazım,
Hələ də çağlar mənim.

Şəhid ata, anası,
Şəhid oldu balası,
Şəhidə ağlaması,
Qəlbimi dağlar mənim.

Nailəm, son sözümdür:
"Vətən mənim özümdür,
Ulu Şuşa bizimdir!"
Könlüm çəkib car mənim.

Var olasan Vətənim,
Kor olasan düşmənim.
Biləsən ölməmişəm,
Şəhid adım var mənim.

*22.07.2021*

## ALLAHDAN NƏZİR

*(poema)*



*Şəhid, Daxili Qoşunların əsgəri Nəzir Rahib oğlu Osmanovun əziz xatirəsinə. (01 yanvar 1998-ci il Qax rayonu Qıpçaq kəndi – 01 noyabr 2020-ci il Şuşa rayonu)*

Yeni İli qeyd etdi,
Vətəndaşım toy kimi.
Rəqs etdi mahnılara,
Sanki yox dərdi-qəmi.

Tez unutduq, vətəndaş,
Tökülən bu qanları.
Unutduq vaxtsız gedən,
Cəngavər oğlanları.

Qəhrəmanın ad günü,
Düşmüşdü təzə ilə.
Ad günləri keçirdi,
Sevinclə, məzə ilə.

Onsuz keçən ad günü,
Keçdi şənlik olmadan.
İki ay vaxt keçirdi,
Cənnətdə olmağından.

İndi gedib Qəhrəman,
Xatirə qalıb ondan.
Onu tanımalıdır,
Bu Vətəndə hər insan.

Onun adı Nəzirdi,
Düşmənləri əzirdi.
Çətinliyə hazırdı,
Neçə dastan yazırdı.

23 il əvvəl,
Qaxda doğulan Nəzir,





Doğuldu toy-büsatla,
Oldu Allahdan Nəzir.

Sevimli qulu idi
O, ulu Yaradanın.
Qüruru olacaqdı
Ulu Azərbaycanın.

Sınaqlı zamanlardan,
Görmüşdü neçə zillət.
Nəziri də yetirdi,
İgid yetirən millət.

Bu millət Zəfər üçün,
Nəzirləri seçmişdi.
Bunun üçün Yaradan,
Yurda Nəzir vermişdi.

O Nəzir ki, qürurlu,
O Nəzir, üzü nurlu.
O Nəzir, igidliklə,
Mərdlik ilə yoğruldu.

Düşdü bir qaynar oda,
Yandı, yaxıldı o da.
Çünki, bir Dəmir Yumruq,
Lazım idi bu yurda.

Dəmir Yumruq çox bişdi,
Qisas alovlandırdı.
Dirilik suyun içdi,
Yenidən canlandırdı.

Nəzir də canlanırdı,
Dərindən anlayırdı.
Nəzir vardı Yurd üçün!
Göytürk, həm Bozqurd üçün!

Onda cücərdi istək,
Onda bitdi arzular.
Vardı onda bir sual:
"Niyə Yurd qara bağlar?

Niyə işğaldadırlar,
Şuşalar, Qarabağlar?
Yetər, bu kifayətdir!
Mənim bir amalım var!

Mən Vətənin oğluyam,
Allahımın quluyam,
Mən Osmanov Nəzirəm,
Düşmənləri əzərəm.

Bir gün gələr, umuram,
Mən buna inanıram,
Çöküb düşmən köksünə,
Nəfəslərin kəsərəm!"

Nəzir də bu yoldaydı!
Atırdı addımların.
Payıza döndərərdi,
Bu yolda öz baharın.

Bu Nəzir ər oğlu ər,
Getdi xidmətə əsgər.
Müddətini gözləməz,
Zəfərini gözləyər.

Xidmətini şərəflə
Edib sona yetirdi.
Ancaq rahat deyildi,
Rahat ola bilmirdi.

Onun vardı istəyi,
Yurdu azad etməli.
Bu an çatmadığından,
Sislər aldı qəlbini.

Anlamaq gec olmadı,
Qəlbini tez anladı.
Tale belə yazmışdı,
O, MAXE olmalıydı.





Nəzir MAXE düzəldi,
Yenidən xidmət etdi.
O, özünü bu qədər,
Xoşbəxt hiss etməmişdi.

Deyirdi ki: "Yenidən,
Xidmətçinəm, ey Vətən.
Ən böyük düşmənimdir,
Qarabağa göz dikən!"

Şölələndi, yandı hey,
Qisasın qaynar odu.
Köksündə məskən salıb,
Qəlbə xiridar oldu.

Nəzirdi xalqa yanan,
Qisasçün alovlanan.
Nəzir səni əzəcək,
Seyrinə dur, ey nadan!

Vətən müharibəsi,
Nəzir üçün şans idi.
Şansa düşmüş fürsəti,
O, tez dəyərləndirdi.

O dedi anasına:
"Gedirəm Qarabağa,
Mən Şəhid olacağam,
Şəhid olub torpağı,
Qanla qaytaracağam!"

O, qanlı savaşlarda,
Düşmənini yandırdı.
Daha çox il keçməmiş,
İşğalı dayandırdı.

Şuşanın qarışında,
Cəngavərtək yeridi.
Dedi: "Rədd ol, ey düşmən,

Bura Aslan meydanı,
Bura qurdun yeridi!"

O ki sürücü idi,
Meydanı tərk etmirdi.
Allahdan gələn güclə,
Yurdu azad edirdi!

Son dəfə maşınını,
O, saxladı Şuşada.
Şəhid olmağa getdi,
Cənnət qoxan havada.

Qələbə Dastanına,
Qalan yeddinci gündə,
Nəzir Şəhid ruhunu,
Hiss edirdi özündə.

Şuşamıza aparan,
Nur tökülən yerlərdə,
Nəzir müqəddəs oldu,
Ad yazdı Zirvələrdə.

Səninlə qürur duyan,
Xalqa canını verdin.
Çox illər arzulanan
Zəfərlə sevindirdin!

Yazılır sən Fatehin,
Müqəddəs bir divanı.
Qəlblərə köçürülür,
Sən şəhidin dastanı.

Döndü nurlu bir gülə,
Yoğruldu ahdan Nəzir.
Candı Xarı bülbülə,
Paydı Allahdan Nəzir.

*14.08.2021.*





## GENERAL



*Qisası şanlı ordumuz tərəfindən alınan, qanı yerdə qalmayan şəhid, səngər generalımız Polad İsrayıl oğlu Həşimovun əziz xatirəsinə... (02.01.1975-ci il, Qəbələ rayonu Vəndam qəsəbəsi – 14.07.2020-ci il Tovuz rayonu)*

Qisasın alındı, Cənab General,
İnnən belə gözün qalmaz arxada.
Onu bil ki, düşmənin qorxususan,
Qorxa-qorxa səni salarlar yada.

Cəhənnəmə vasil etdik onları,
Yurduma göz dikən o dığaları.
Peşman etdik biz o qəddar "yan"ları,
Əsgərlərin ömrünü verməz bada.

Daha da çox ruhun şad olsun indi,
Fəxr elə qoyub getdiklərin ilə.
Səndən aldıq biz bu gücü, qüvvəti,
Vətən torpağını vermərik yada.

Qaytarılacaq Füzuli, Cəbrayıl,
Dedik ki: "Ey sən, mürgüləyən, ayıl!"
Bizə "yox" deyənlər oldular zayıl,
İndi canlarından əskilməz qada.

"Belə gəlmiş, belə getməz" dedik biz,
"Bu azadlıq sona yetməz" dedik biz,
Bakı tortunu özümüz yedik biz,
İnşəAllah, ordumuz zəfəri dada.

General, bil ki, heç ölməmisən sən,
Güllər açır indi arzularında.
"Qarabağ- Azərbaycan" deyirəm mən,
Düşmən başlayıbdır indi fəryada.

Qisasın alındı, ey generalım,
Məqsədim, ideyam, arzum, amalım.

Azərbaycan qədər yaşayacaqsan,
Yurdumuza ayaq basmaz bir zalım.

Şəhadətinlə birləşdi millətim,
Döndü sıxılmış dəmir yumruğa,
Elə dəydi ki, düşmənin başına,
Daha gələ bilməzlər Qarabağa!

*28.09.2020*

**POLAD**

Qədim odlar yurdunun odu, közüsən, Polad,
Qələbə dastanının bir ön sözüsən, Polad.
Uğrunda can verdiyin ulu Vətən içində,
Sən o qədim Vətənin elə özüsən, Polad.

Dastanlarla böyüdün, sonda "dastan"a döndün,
Şəhidliyə yüksəldin gözümüzün önündə.
Sən Zəfər Yolu üçün istiqamətdin, yöndün,
Ruhunla Fateh oldun Şanlı Zəfər günündə.

Qisasının eşqiylə neçə igidlər getdi,
Onların sayəsində Vətən arzuya yetdi.
Şəhidim, oğlun yaşda olan igid Qəhrəman,
Sənin qisasın aldı, Murovu azad etdi!

1 il başladı qəmlə, davam etdi Zəfərlə,
Sənsiz keçən o 1 il davam etdi nələrlə.
Qəbrin üstə deyirik: "Pis gün geridə qaldı,
Ey Səngər Generalı, Əsgərin Zəfər çaldı!"

Sənin qızıldan taxtın ürəyimdə var bu gün,
Hünərinə Atsızdan qalıbdır şüar bu gün:
"İnsan büyür beşikdə məzarda yatmaq üçün,
Qəhrəmanlar can verər yurdu yaşatmaq üçün!"

Xatirəni edirik, edəcəyik daim yad,
Şuşamız oldu azad, rahat uyu, uyu şad.
Sən Hünər Tarixində yeni bir iz, yeni ad,
Yaşa, bizləri yaşat, Şəhid Həşimov Polad!

*12.07.2021, "Kredo" qəzeti, 28.07.2021.*





**ƏZƏRÜD**



*2016-cı ilin aprel döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş Pəncəli Nurməhəmməd oğlu Teymurovun dünyaya göz açdığı Astara rayonunun Əzərüd kəndinə həsr olunub. (24 mart 1981-ci il Astara rayonu Əzərüd kəndi - 2 aprel 2016-cı il Tərtər rayonu Talış kəndi)*

Nə igidlər, ərlər yetişdirmisən,
Səndədir dağ boyda vüqar, Əzərüd.
Qarın olubdur saçlarındakı dən,
Gözəl diyar, şanlı diyar Əzərüd.

Gör necə tərbiyə vermisən ona,
Toyunda Şəhidlik arzulayana,
Vətəniyçün daim hey alovlana,
Allah Pəncəlilərə yar, Əzərüd.

Samidim getdi, heç dayanmadılar,
Muradım getdi, heç dayanmadılar,
Pəncəlim getdi, heç dayanmadılar,
Var Samidlər, Pəncəlilər, Əzərüd,
Var Poladlar, həm Muradlar, Əzərüd.

Pəncəlinin pəncəsi aslanındır,
Aslanın anası Azərbaycandır,
Pəncəlilər vətən üçün yanandır,
Vətən Pəncəlilər anar, Əzərüd.

Gör neçə səhərlər açılacaqlar,
Gör neçə günəşlər parlayacaqlar,
O mənfur düşmənlər də qaçacaqlar,
Şanlı Qarabağım ki var, Əzərüd,
Düşmənə Qarabağım dar, Əzərüd.

Bilirəm, acını içdən duyuram,
Sənin bu halını belə qoymuram.
Qarabağdan heç bir zaman doymuram,
Düşmən olacaq tar-mar, Əzərüd,
Şanlı diyar, şanlı diyar Əzərüd!

*23.08.2020*

## QİSASIN ALINDI, QƏHRƏMANIMIZ!



*Namərd hiyləsinə, namərd gülləsinə gözlənilmədən tuş gələn, Daşaltıda xain düşmən tərəfindən namərdcəsinə qanı axıdılan, gözünü sabaha – Parlaq Qələbəmizə ümidlə dikib qurban gedən, Vətən müharibəsi zamanı qisası alınmış, Milli Qəhrəmanımız Riad Fikrət oğlu Əhmədovun aziz xatirəsinə. (20.12.1956-ci il Bakı şəhəri-26.01.1992-ci il Şuşa rayonu Daşaltı kəndi)*

Ruhun bayram etsin Zəfər Günündə,
Artıq Zəfərlidir hər bir anımız.
Baş əyirik uca ruhun önündə,
Qisasın alındı, Qəhrəmanımız!

92-nin soyuq qış günündə,
Getdin qurban satqının hiyləsinə.
Ancaq, qisasını aldıq qurbanların,
Başına güllə çaxdıq satqınların.

"Oğullar"ın səni dastan bildilər,
Bu qisas gününü çox gözlədilər.
Qəhrəman ruhunu şad etmək üçün,
Şəhidlik Zirvəsinə yüksəldilər!

Ruhun da, Şuşa da artıq azaddır,
Başı uca anan ömürlük şaddır.
Bu Zəfərə türk dünyası sevinir,
Sevinməyən qatillərdir, cəlladdır.

Şad olacaq ruhun hər an, hər zaman,
Sevinclidir göy üzü, torpaq altı.
Bu günü bayram edir Azərbaycan,
Azad olunubdur Şuşa, Daşaltı!

Gün Zəfər günüdür, an Zəfər anı,
Qarşıla Cənnətdə oğullarını.
Unutmaz səni Azərbaycanımız,
Qisasın alındı, Qəhrəmanımız!

*08.11.2020-14.02.2021, "Kredo" qəzeti, 03.03.2021*





## ŞƏHİD ÖVLADIM



*Şəhid Rövşən Əli oğlu Nurzadəyə atası, hörmətli Əli müəllimin dilindən onun əziz xatirəsinə (24.03.1975-ci il Sumqayıt şəhəri - 06.11.2020-ci il Şuşa şəhəri)*



Tez getdin dünyadan, nakam getmədin,
Başın uca etdin ulu Vətənin.
Fəxr edir səninlə qədim millətin,
Qəbrin nurla dolsun, Şəhid övladım.

Sən döyüşə can atırdın əzəldən,
Gələcəyini parlaq bilirdim mən.
Qəmli-sevincliyəm, çünki Şəhidsən,
Yerin cənnət olsun, Şəhid övladım.

Düz deyirdin: "Rövşənəm, Koroğluyam",
Sənin mərdliyindən qürur duyuram.
Adını yaşadıram, qoruyuram,
Adın qutlu olsun, Şəhid övladım.

Qarabağ uğrunda candan yanırdın,
Şəhidlərimizi hər vaxt anırdın.
Söz düşəndə sən çox arzulayırdın:
"Şuşa azad olsun", Şəhid övladım...

Vaxt gəldi, fərəhlə döyüşə getdin,
Qubadlını, Şuşanı məskən bildin,
Zəfər Günü Şuşanı azad etdin,

Düşməni məhv etdin, Şəhid övladım.
Şəhadəti seçdin, Şəhid övladım.

Bal sözlü balamsan, Şəhid övladım,
Nur üzlü balamsan, Şəhid övladım,
Alınmaz almazı, əziz Şuşanı,
Qoruyan qalamsan, Şəhid övladım,
Nə yaxşı, varımsan, Şəhid övladım...

*24.07.2021*

## ŞÜKÜR–ƏSRLƏRİN QƏHRƏMANI



*Azərbaycanın Milli Qəhrəmanı, Silahlı Qüvvələrin "N" saylı Ordu Korpusunun komandir müavini – Qərargah rəisi, doğulduğu və məcburən ayrı düşdüyü doğma torpağı uğrunda qəhrəmanlıqla son damla qanınadək döyüşərək ona şəhadəti bahasına qovuşan cəsur, mərd, qorxmaz qəhrəman – şəhid polkovnik Şükür Nəriman oğlu Həmidovun əziz xatirəsinə həsr edilir. (01.04.1975-ci il Qubadlı rayonu Armudlu kəndi-22.10.2020-il Qubadlı rayonu Mahmudlu kəndi)*

Yazdı öz adını qızıl hərflərlə,
Uca "Xarı bülbül" abidəsinə.
Şəhid oldu və hayqırdı, zəfərlə,
Ərənlər səs verdi onun səsinə.

Türk dünyasının Milli Qəhrəmanı,
Qarabağlı etdi Azərbaycanı.
Qubadlıda tökdü o, son qanını,
Ulular qurban dedi nəfəsinə.

Azadlıq yolu idi onun yolu,
Getdi 25 gün Zəfər Yolu.
Qəhrəmanlar dastanının bir qolu,
Ərənlər idi onun sağı-solu.

Düşmənləri hər an yandırdı, yaxdı,
Son damla qanı öz yurdunda axdı.
Getdi, arxada bir dastan buraxdı,
Azad etdi O, gözəl Qarabağı!





Heç bir vaxt düşmənə vermədi aman,
Çaqqal bozqurdumdan qorxurdu yaman.
Çünki, vardı Şükür adlı qəhrəman,
Qoymaz qala Qarabağda bir yağı.

Andı və mərdliyi onu ucaltdı,
Bu mərdliklə uca zirvəyə çatdı.
Cəngə girdi, yağıya qan ağlatdı,
Son nəfəsdə öz yurdunu qaytardı,
Qubadlını, Qarabağı qaytardı.

Qaçqın oldu yurddan bir axşam çağı,
Bilirdi ki itirib Qarabağı.
Çəkərdi bayatı, söylərdi ağı,
Böyüdü, düşmənə oldu göz dağı.

Şəhadətindən sonra gəldi xəbər,
Qubadlını azad etdi ərənlər.
Məğrur igidimin ruhu şad oldu,
Arzusu çin oldu, yurd azad oldu!

Onun yolu Qaçaq Nəbi yoludur,
Onun nuru uca Allah nurudur.
Onun ulu xalqı indi qəlbində,
O nurlu "Şükür" adını qoruyur.

Sanmayın ki, igidim, mərdim öldü,
Sanmayın ki, Şükür adı yox oldu.
Əksinə, O, bir öldü, min dirildi,
Qəlbimizdə Şükürümüz çox oldu.

Şükür şəhid oldu, basdı bağrına,
Dalğalanan üçrəngli bayrağını.
Canından müqəddəs bir ruh çıxanda,
Göyə qalxdı, oldu göy qəhrəmanı.

Qubadlıda Qəhrəman izi qaldı,
Damarda axan mərd qan izi qaldı...
Onların sayəsində Qarabağda,
Silinmiş izimiz silinməz qaldı...

Dəfn olundu İkinci Xiyabanda,
Parçalandı qəlblər, yandı çox can da...

Barışmadı tabut daşıdığıyla,
Daşıdığının acı yoxluğuyla...

Yenə deyək: "Şükür cismani yoxdur,
Əslində, qəlblərdə Şükürlər çoxdur... "
Ulu bir xalq saxlayanda böyük yas,
Alındı düşməndən "Şükür"lü qisas...

Qəhrəmamm əsrin Cavanşiridir,
O, Nəbidən, Koroğludan biridir,
Şəhidlərin yalnız cənnət yeridir,
Birdə yağı yurdu bölməyəcəkdir.

Ulu yurdum vardır igidləriylə,
Qəhrəman, cəngavər, həm mərdləriylə,
Mübariz, həm Sadiq, Şükürləriylə,
Yaşayır, bu vətən yüksələcəkdir.
Qəhrəman şəhidlər ölməyəcəkdir!..

*01.04.2021*

## ÜRƏYİM QANADLANIR – BU ZƏFƏRLƏ, DÖZMƏYİR

*Ordumuzun Qubadlı ərazisinə daxil olması və bir neçə kəndi azad etməsi münasibətilə Qubadlı şəhidi Şükür Nəriman oğlu Həmidovun işıqlı xatirəsinə həsr edirəm. Qeyd edim ki, bundan 4 il əvvəl mən Qubadlının işğalı gününün ildönümünə "Ürəyim parçalanır – bu işğala dözməyir" adlı şeir yazmışdım və həmin şeir 2018-ci ildə işıq üzü görmüş "Hərdən uçmaq istəyirəm" adlı kitabımda dərc olunmuşdu. İndi isə ordumuzun zəfərlərindən ilhamlanaraq "Ürəyim qanadlanır – bu zəfərlə, dözməyir" adlı zəfər şeirini yazıram. Qubadlılı Qarabağ bizimdir!*

*Müəllif*

Qubadlının səması, həm sərindir havası,
Könlümdür bu zəfərlə qanadlanıb uçası.
Nəbinin ocağında dayanası, durası,
Ordumuz zəfərini çalasıdır, çalası.

Ürəyim qanadlanır bu zəfərlə, dözməyir,
Qubadlıda gözümə bir düşmən də dəyməyir.
"Bəsdir" dedik artıq biz, gəldik Qubadlımıza,
Nəbisi ilə şanlı, həm sanlı, adlımıza.

Şükürüm son sözündə dedi: "Allaha Şükür!"
Nəbim ilə bir yerdə zirvələrdə saçdı dürr.





Qubadlıdadır indi Behcət, Şükür və Nəbi,
Onlarla zirvədədir Azərbaycan əsgəri!

Ürəyim qanadlanır, bu zəfərlə dözməyir,
Və uçur Qubadlıya, düşmən başını əyir.
Şükür son damla qanın axıdan dəm, zamanda,
Qubadlı mərkəzində Bayrağımız yüksəlir!

Onu görən zaman O, əllərini yelləndir,
İndi artıq Şəhiddir, Nəbinin önündədir...
Nəbi ilə bir yerdə oturub söhbət edir,
Əliyarımla da o, cənnətdə bir yerdədir.

Mir Sədi ağanın o, iki əlindən öpür,
O ölmür, əvəzində vurduğu düşmən ölür.
İndi onlar hamısı zəfər şənliyindədir,
Ürəyim qanadlanır – bu zəfərlə, dözməyir.

O bilir, gəzəcəyik biz bütün Qubadlını,
Şuşanı, Xocavəndi, bütöv bir Qarabağı!
Gəzəcəyik Mollunu, görəcəyik Nəbini,
Armudluda düşmənə verəcəyik göz dağı.

Şükürümün bağından nübarı edəcəyik,
Şükürə neçə dastan, şeir söyləyəcəyik.
Şuşada eşidəcəyik Cabbarın səsini,
Şuşada bayrağımızı biz yüksəldəcəyik.

Ölməyəcəyik Vətənçün biz öldürəcəyik,
"Ya Qarabağ Ya Ölüm!" biz bunu deyəcəyik!
Şamoların qisası yerdə qalmayacaqdır,
Bir türküm oyanıbdır, çoxu oyanacaqdır.

Azərbaycan Ordusu nə qədər tarix yazıb,
Hələ də yazacaqdır, hələ də yazacaqdır.
Bakıdır, həm Təbrizdir, Naxçıvandır, Turandır,
Qarabağ doğma Vətən, şanlı Azərbaycandır!

Təbi gələn və daşan bu Sevindik sevinir,
Ürəkdən süzülən və gələn sözləri deyir:
"Qubadlı kəndlərində Bayrağımız yüksəlir!
Ürəyim qanadlanır – bu zəfərlə, dözməyir!"

*23.10.2020*

## TURAL - VƏTƏN



*Şəhid Tural Ədil oğlu Bayramlının aziz xatirəsinə.*
*(10 fevral 1996-cı il Beyləqan rayonu Şərq qəsəbəsi – 04 noyabr 2020-ci il Şuşa rayonu)*

Onun adı Turaldı,
Düşməndən qisas aldı.
Şuşa üçün qan töküb,
Şəhidliyə ucaldı.

Uşaq ikən vuruldu,
Ona qaçqın damğası.
Xeyli vaxt bu əzabla,
Olmuşdu yaşayası.

"Nə vaxt alınacaqdır,
Bu Vətənin qisası?"
Qarabağdı ürəyi,
Cəbrayıldı dünyası.

Əzəldən mərd yaratdı,
Onu Uca Allahı.
Dün düşmən at oynatdı,
Görürdü o, sabahı.

Sabahı gözləyirdi,
Ümidin itirmirdi.
Deyirdi: "Dağ Veysəlli,
Ey yurdum, gözlə məni!"

Nə vaxt ki, o gənc Tural,
Oldu şanlı bir əsgər.
Ona ümid verdilər,
Bu elatlar, bu ellər.

O gündən müddət keçdi,
Əsgərlik vaxtı bitdi.





Üstün bildi o, hərbi,
Vətəninə xidməti.

O dedi: "Nə qədər ki,
Nakamdır Dağ Veysəlli,
Səngərdə olacağam,
Əsgər də qalacağam.

Daxili Qoşunlarda
4 il xidmət etmişdi.
Atəşkəs zamanında,
Belə xəyal etmişdi:

"Bir vaxt o gün gələcək,
Yurdun üzü güləcək.
Qarabağ bizim olub,
Yenə bizə dönəcək."

Ana Vətən söylədi:
"Turalım, o gün gəldi!"
Komandan əmrin verdi,
Ürək o gün dirçəldi.

Birə min artmış idi,
Turalımın sevinci.
O gün başladı çünki
Vətən müharibəsi.

O atıldı meydana,
Döyüşdü mərd-mərdana.
Dərs verdi düşmanına,
Sevinc verdi yurduna.

İman nuru gətirdi
Füzuliyə, Hadruta.
Sevinirdi döyüşə
Gedəndə Cəbrayıla.

Ürəyində sevincin,
Göz yaşları axırdı.

O, yuxuda gördüyü,
Cəbrayıla baxırdı.

İlk baxışdan bilinir,
Yuxu-gerçək fərqlidir.
Cəbrayılın torpağın,
Ediblər darmadağın.

Qəhrəmanım bilirdi,
Buralar dirçələcək.
Qovuşacaq nuruna,
Yeni nəfəs gələcək.

Gəldi o yeni nəfəs,
Durdu Şuşa yolunda.
Onunla yeni müjdə,
Verildi Qəhrəmana.

Tural Şuşamız üçün
Canına and içmişdi.
O, sözünü tutaraq,
Çox irəliləmişdi.

O, ruhuyla, qəlbiylə,
Günü-günə caladı.
Bu yolda yorulmadı,
İnamla addımladı.

Qəhrəmanın istəyi,
O gün yerinə yetdi.
Şuşanı azad etdi,
Özü Cənnətə getdi.

Şəhid oldu Turalım,
Ana, qadanı alım,
Nikbin ol, al təsəlli,
Turalın Cənnətdədi.

"Tural" yaşamaq demək,
O, yaşayır hər zaman.





Ruhən gəlişi sevinc,
Cismən gedişi yaman.

Vətən canımdır mənim,
Din, imanımdır məmim.
Onsuz olsam həyat yox,
Son məkanımdır mənim.

Vətəndir Altay Vətən,
Vətəndir Ural Vətən.
Həmişə əbədidir,
Həmişə, Tural-Vətən.

*22.08.2021.*

## AY BALAM



*14 oktyabr 2020-ci ildə şəhid olan Türk qəhrəmanımız Volkan Soyun anasının dediyi "Qara qaşlım, ay balam, Şəhidlərə yoldaş oldun, ay balam" ağısından təsirlənərək... Vətən şəhidlərinin, eləcə də bütün Türk dünyası şəhidlərinin analarına həsr edilmiş bayatı...*

Qara qaşlım ay balam,
Al qumaşlım ay balam,
Denən nə oldu Sənə,
Dərdli başlım, ay balam.

Qəhrəmanlar bitirən,
Yurdumuza bar oldun.
Nə tez getdin, ay balam,
Şəhidlərə yar oldun.

İgidlərə tay balam,
Ulduz balam, ay balam.
Dərdə ürəyim dözmür,
Qayıt, qadanı alam.

Xəbərini eşitcək,
Dünyada tənha qaldım.

Əzabla yetirmişdim,
Əzabla yola saldım.

Qəlbimdən parça idin,
Qəlbimə geri gəldin.
Sən şəhid övladımsan,
Qəlbimdə yaşayırsan!

Sənə ömrümü verdim,
Mənə qürur verənsən!
Saçlarımı ağ etdim,
Üzümü ağ edənsən!

İgid balam, can balam,
Vətənə hayan balam.
Demirəm: "Oyan, balam!"
Cənnətdə yatan balam.

Qəlbimdə yaşayırsan,
Daim yaşayacaqsan,
Yenidən doğacaqsan,
Günəştək batan balam!

*03.08.2021.*





## CƏNNƏTİN ƏRMƏĞANI



*Şəhid Ceyhun Möhübbət oğlu Hüseynovun əziz xatirəsinə həsr edirəm. (5 oktyabr 1991-ci il Ağcabədi rayonu Arazbar kəndi – 16 oktyabr 2020-ci il Xocavənd rayonu)*

Bir payız günündə dünyaya gəldin,
Ailəni ürəkdən sevindirdin.
Bilməzdik, Cənnətdən gələn Qəhrəman,
Payız günü Cənnətə qayıdarsan.

Bilinirdi ərliyin, igidliyin,
Sən həmişə bu Vətənin fəxriydin.
Döyüş meydanı idi Sənin yerin,
O meydanda Zirvələri fəth etdin.

Top atıb düşmənlərə toy tuturdun,
Girdiyin hər cəngdə tək sən udurdun.
Torpağın azadlığını istəyirdin,
Sən bunu polad iradənlə etdin.

Aprel günlərində Səntək igidin,
Həndəvarinə hərlənmədi düşmən.
Əzəldən igidlik nümunəsiydin,
Xilaskar bilmişdi səni bu Vətən.

Vətən gülüstandı, gültək açırdın,
Vətən bir Günəşdi, şölə saçırdın.
Vətən nə zaman Sənə "Oğlum" desə,
Onun yolunda ölməyə hazırdın.

Əvvəl də düşmənə Sən od salmışdın,
Ona görə yaddaşında qalmışdın.
Qalmışdın cəldliyin, cəsarətinlə,
Qalmışdın mərdliyin, həm qeyrətinlə.

Sənin də qismətin oldu Şəhadət,
Şəhid qoxan döyüşlərin birində,
Səni yenilməztək yaşadar millət,
Çünki izin qalır onun qəlbində.

Ey əziz şəhidim, ruhun şad olsun,
Sizə duaçıyıq, hər vaxt hamımız.
Azərbaycanımız hər vaxt var olsun,
Ona qurban olmalıdı canımız.

04.10.2021

## VƏTƏNİN NEMƏTİ



*Şəhid Nemət Əkbər oğlu Orucovun əziz xatirəsinə (15 noyabr 1994-cü il Goranboy rayonu Qaraçinar kəndi – 27 sentyabr 2020-ci il Xocavənd rayonu Nərgiztəpə kompleksi) həsr olunur.*

Günəş işıq saçırdı məzarına,
Şəfəqləri torpağını öpürdü.
Məzarın üstündə biz çəkirdik ah,
Sənin donmuş üzün gülümsünürdü.

Allah verən bir qismət idin, Nemət,
Allah Səni gec verdi, tez apardı.
Gəlməyin üçün can atırdı Cənnət,
Haqq Yolun Səni oraya qaytardı.

Ağır zamanlarda ümid Nemətim,
Pəhləvan cüssəli, igid Nemətim,
Ürəyində qalan arzuna çatdın,
Qarabağda oldun şəhid, Nemətim!

Həyatı təzə dərk edən gənc idin,
İllərin imtahanına rast gəldin,
Həsrət qaldın əziz Kəlbəcərinə,
Sən yurdunu qəlbində hiss eylədin.

Vaxtı gəldi, igid, qəhrəman zabit!
Döyüşlərdə Kəlbəcərçün vuruşdun,
Döyüşün ilk günü Sən şəhid oldun,
Pərvazlanaraq Kəlbəcərə uçdun.

Təntənə ilə dəfn olundu cismin,
Ruhun şahidiydi müharibənin.





Qisasının alınmasın seyr etdin,
Bayrağın dalğalanmasın seyr etdin.

Sənin yolunu açdığın əsgərlər,
Düşməni qanına qəltan etdilər.
Axır Sənin qisasını aldılar,
Ulu Qarabağda Zəfər çaldılar!

Səni həvəslə qucmağa gələcək,
Günəş hər gün Sənə işıq saçacaq,
Qaranlığı, dan yerini sökəcək,
Düşmən acığına Günəş açacaq!

Sən tarixsən, 30 ilin ibrəti,
Zəfər ilə əvəzlədin həsrəti,
Sənə olsun Yaradamn rəhməti,
Ey Vətənin unudulmaz Neməti!

22.09.2021

## YURDUN DAYAĞI ƏMRAH



*Şəhid Əmrah Qaraş oğlu Mamedovun əziz xatirəsinə (20 may 1998-ci il Ağcabədi rayonu Poladlı kəndi – 27 sentyabr 2020-ci il Tərtər rayonu Talış kəndi) həsr olunur.*

Sən bizləri şən edən,
Ürəkdən güldürəndin.
Vətənə qurban gedən,
Öldürəndin, öləndin.

Toy-düyünə gələrdin,
Xeyir-dua verərdin,
Şeir deyərək bizi,
Sən feyziyab edərdin.

O vaxt ki, bu ellərin,
Başını duman aldı.
Qəlbində nəğmələrin,
Heç oxunmamış qaldı.

Azad, nakam qəlbində,
Dastanları bitirdin.
Başladı müharibə,
Dastan yazmağa getdin.

Döyüşlərin ilk günü,
Müdafiəni yardın.
Fəda edib canını,
Şəhadətə apardın.

Ağır çətinliklərə,
Sinə gərdin, ey Əmrah.
Qəhrəmantək vətənə,
Canın verdin, ey Əmrah.

İlk nəğmədə sonlanan,
Yarımçıq dastanını,
Minlərlə ər-qəhrəman,
Şuşada tamamladı!

Xatirən unudulmaz,
Səni yad edir vətən,
Şəhidlər ölməyiblər,
Ölməz vətənçün gedən.

Sənin sayəndə yoxdur,
Yurdunda yağı, Əmrah!
Sənə sevgimiz çoxdur,
Yurdun dayağı Əmrah!

*26.09.2021*





# ZƏFƏR NƏFƏSLİ, ZƏFƏR QOXULU ŞEİRLƏR VƏ POEMALAR

## *Süngüyə çevrilmiş qələm*

*2020-ci ilin 27 sentyabr tarixində – 30 ilə yaxın müddətdə torpaqlarımızı işğal altında saxlamış, həmvətənlərimizi yurd-yuvalarından didərgin salmış erməni mənfurlarının təmas xəttində yaşayış məntəqələrinə hücumu nəticəsində dinc sakinlərin müdafiəsi, eləcə də torpaqlarımızın işğaldan azad edilməsi məqsədi ilə Milli Ordumuzun əks-hücuma keçməsi və bunun nəticəsində Füzuli rayonunun 5, Cəbrayıl rayonunun isə 2 yaşayış məntəqəsinin azad edilmə xəbərini Ali Baş Komandanımız cənab İlham Əliyevin televiziya ilə xalqa müraciətindən bildikdən sonra ürəyim dağa döndü. Bir anlıq özümü rəşadətli əsgərlərimizin yanında hiss etdim. Lakin, istəsəm də, yaşım buna yol vermədiyindən qələmimi süngüyə çevirmək, ürəyimdən keçənləri şeir formasında kağız üzərinə köçümək yolu ilə həm müzəffər ordumuza bu yolla da olsa dəstək vermək, həm də ürəyimi bir az boşaltmaq qərarına gəldim və buna başladım. Həmin şeirləri Ali Baş Komandanımıza, müzəffər ordumuza və Vətən uğrunda Şəhid olmuş əsgərlərimizə həsr etmişəm. İndi bu şeirləri oxucuların diqqətinə çatdırmaq istəyirəm.*

***27.09.2020.***

## ATA, RUHUN ŞAD OLDU!

*(Şuşanın işğaldan azad olunması münasibətilə Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev Fəxri Xiyabanda Ulu Öndərimiz Heydər Əliyevin məzarını ziyarət edərkən Onun dilindən Atasına)*

Çox çarpışdın, vuruşdun,
Haqq, ədalət uğrunda.
Zəfərə yaxın oldun,
Fateh olubdur oğlun.
Şuşamız azad oldu!
Ata, ruhun şad oldu!

Neçə il həsrət idik,
Biz gözəl Şuşamıza.
Sənə biz minnətdarıq,
Ulu bir atamıza!
Şuşamız azad oldu!
Ata, ruhun şad oldu!
Bu sözü çatdıranda,
Dilim bayram eylədi.
Sözüm elə gülllədi,
Düşmən başına dəydi.
Şuşamız azad oldu!
Ata, ruhun şad oldu!

Sevincdən sığmıram mən,
Şuşaya, Xankəndinə.
İndi biz dərs veririk,
Vandal ermənilərə,
Şuşamız azad oldu!
Ata, ruhun şad oldu!

Manc olammazdılar,
Orda durammazdılar.
Qazdıqları quyuda,
Özləri də azdılar.
Şuşamız azad oldu!
Ata, ruhun şad oldu!







Dünyanın Azərləri,
Yığıbdır ərənləri.
Dönürlər Şuşamıza,
Qeyd edirlər zəfəri.
Şuşamız azad oldu!
Ata, ruhun şad oldu!

Bu gözəl zəfər ilə,
Bildirdik ki, ölməyib
Bu yurdun ərənləri,
Riad və Albertləri.
Şuşamız azad oldu!
Ata, ruhun şad oldu!

Bir çağırışın ilə,
Çox etdin zəfərləri.
Qanmayanı qandırıb,
Məğlub etdin düşməni.
Şuşamız azad oldu!
Ata, ruhun şad oldu!

Nə yaxşı ki, Mən Sizin,
Öndərin övladıyam.
Dostlarıma mən dostam,
Nankorların yadıyam.
Şuşamız azad oldu!
Ata, ruhun şad oldu!

Xocalıdan sonra biz,
Axır çatdıq Şuşaya.
Mənfur düşməni qovduq,
Biz bu biri dünyadan,
Düz o biri dünyaya.
Şuşamız azad oldu!
Ata, ruhun şad oldu!

*08.11.2020*

## ZƏFƏRİN NİŞANƏSİ

*Bu şeir 2020-2021-ci ildə Mədəniyyət Nazirliyində "Vətənpərvərlik mövzusunda 10-15 yaşlılar arasında keçirilən ədəbiyyat müsabiqəsi"ndə qalib elan olunmaqla Nazirliyin Fəxri Fərmanına layiq görülmüşdür.*

Bu günüm dirilişin,
Zəfərin nişanəsi.
Qovuruq düşmənləri,
Onların batıb səsi.

Salakətin-göz yaşım,
Çevrilibdir sevincə.
Bayrağımı toxuyur,
Qız-gəlin incə-incə.

Aragül-axtardı gül,
Axırda da tapdı gül.
Oralarda çalınan,
Kamança və tardı, gül.

Tağavard da atası,
O Böyük Tağavard da.
Onları təbrik edir,
Ana Azərbaycan da.





Zərdanaşen-bir zərdir,
Qədrini bu yurd bilir.
"Zərdan" qalır yerində,
"Şen"i isə silinir.

Zoğalbulaq sərindir,
Quyuları dərindir.
Bu gözəl yurd, bu yerlər,
Qədimdən türklərindir.

Mets Tağlarda ucalır,
Yurdumun zəfər tağı.
Qələbəyə sevinir,
Bir, bütöv Qarabağı!

Şəkərim, Şəkərciyim,
Mənimdir bircəciyim.
O gözəl diyarlarım,
Mollularım, Xociyim.

Şuşasma çox baxır,
Gülərək Şuşakəndim.
Dirilişini elan,
Edərək Şuşakəndim.

Muxtarım, həm Daşaltım,
Mənim bəxtəvərlərim.
Çox rahat uyuyurlar,
Qəhrəman şəhidlərim.

Ey Qovşatlı, Mərdinlim,
Ey Aşağı Güzdəyim.
Mənim pak İslam dinlim,
İstərəm sənə gəlim.

Şux dayanıbdır Şıxlım,
Əsgərimin önündə.
Qərərim bayram edir,
Şanlı Zəfər günündə.

Qovşatlı bir diyarım,
Mənim Mirzəcamallım.

Sənsən mənim sevdiyim,
Ətirli, gül camallım.

Dövlətyarlı dəstəkdir,
Bizim dövlətimizə.
Öz yurduna, oğluna,
Məğrur əsgərimizə.

Əziz Qaraməmmədli,
Gözəl Mollahəsənli,
Şanlı zəfər günündə,
Olmuşuq artıq sənli.

Əsgərinə diləyir,
Daha şanlı zəfəri.
Bütöv Azərbaycanlı,
O əziz Əsgərxanlı.

Sazı basıb bağrına,
İndi Aşıq Məlikli.
Qonşu kənd azad olar,
Ey gözəl Niftalılar.

Çələbilər və Xəndək,
Həmzəli və Mahrızlı.
Sən də aramızdasan,
Qaramanlı, Ulaşlı.

Xocalıyla görüşür,
Çərəli və Xocahan.
Sizin ilə sevinir,
Bu bütöv Azərbaycan!

Yağıya boyun əyər?
Tinli və Boyunəkər!?
Səngərlərdə ərənim,
Düşmənini məhv edər!

Fürsət gözləmişdilər,
Yurduma gəlmişdilər.
Bağrımı dəlmişdilər,
O mənfur ermənilər.





Rəng qatır dalğalara,
O üçrəngli, aypara.
Qanlı can Ballıqaya...
İndi azadsan daha,
Xürrəmsən, şadsan daha!..

Ey səfillər, qaçın, ha!
Ordum çatdı Laçına!
Rədd ol, çıx get, qarayan,
Azad oldu Güləbird,
Azad oldu Səfiyan!
Onlardır qan, həm də can,
Vətənim Azərbaycan!

O iki Dilağarda,
Şəhidimin qanıdır!
Yurdun Azığı, Tuğu,
Can Azərbaycanıdır!

Gözəl Yal Pirəhmədlim,
Domi və Ələsgərlim!
Olmusunuz əsgərlim,
Olmusunuz ərənlim!

Susanlıq və Akakum,
Həm də Aşağı Sirik,
Bu yerlərdə ey əsgər,
Sən zəfər tağını tik!

Keçikli və Ördəklim,
Zəhmətli və əməklim!
Olmusan azad elim.
Dəmirçilər, Çanaqçı,
Çox əziyyət çəkmişdi!
Sinəsi dəlinmişdi,
Sağalıbdır sinəsi,
Yoxdur düşmən fitnəsi!

Tuğ isə Xocavəndin,
İlk işğaldakı kəndi...
İndi o da ağlayır,
Yəqin ki, sevincdəndi!

Mənim qədim Azığım,
Sən də artıq azadsan!
Milyon il tarixində,
Sən çoxlu ad salmısan!

Gözəl Hüseynalılar,
O ocağın qalanar,
Söyüdlüdə bağ-bağat,
Yaşıllıqlar salınar!

Mədətkəndim, Sığnağım,
Susanlığım, Akakum,
Hamımz deyirsiniz:
"Mən də şad, azad oldum!"

Bitməyib bu dastanım,
Tökülmədi az qanım.
Əsas odur ki, vardır,
Şanlı Azərbaycanım!
Canım-Azərbaycanım!
Qanım Azərbaycanım!

Zaman-zaman bölünmüş,
Çox məşəqqətlər görmüş,
İlhamı zəfər hörmüş,
Şamm Azərbaycanım!
Canım Azərbaycanım!

*09.11.2020*
*"Kredo" qəzeti, 03.03.2021*

## VAR OL, AZƏRBAYCANIM!

Bu gün zəfər günüdür, səfərlərdə ad saldıq,
Dedik: "Bəsdir yurdumuza minlər ilə yad saldıq!".
Cocuq Mərcanlımızda Qarabağ abad saldıq,
Biz Sənin üçün varıq, var ol Azərbaycanım!

Poladların qisası bizim amalımızdır,
Qarabağın minvalı bizim minvalımızdır.
Azərbaycan həm Altay, həm də Aralımızdır,
Biz Sənin üçün varıq, var ol Azərbaycanım!





Bizim üçün ağırdır hər bir şəhid xəbəri,
Budur Dünya qanunu, Dünya qəzov-qədəri.
Yetər! Və bitməlidir Qarabağın dərd-səri,
Biz Sənin üçün varıq, var ol Azərbaycanım!

Biz ki sənsiz heç kimik, ruh ver bizə hər zaman,
Ruh ver ki, cəhənnəmə vasil olsun "hrantyan"
Qələbənin mənası sənsən, ey Azərbaycan!
Biz Sənin üçün varıq, var ol Azərbaycanım!

Bu deyildir şerimin, sözümün son kəlməsi,
Çox eşidilməlidir aslanımın nərəsi.
"Qarabağ Azərbaycandır və nida işarəsi!"
Allahımla sən bizə yar ol, Azərbaycanım!
Biz Sənin üçün varıq, var ol Azərbaycanım!

*27.09.2020*

## VAR OLSUN AZƏRBAYCAN!

El zəfər çaldı, indi zəfər qeyd olacaqdır,
Zəfəri qazananlar unudulmayacaqdır.
Azadlığın məşəli əbədi yanacaqdır!
Var olsun Azərbaycan, daim var olacaqdır.

Bu zəfər mürəkkəbtək kağıza hopacaqdır,
Qarabağda hələ çox dastan yazılacaqdır,
Şuşada şanlı əsgər qürurla duracaqdır,
Var olsun Azərbaycan, daim var olacaqdır.

Döyüşün tezliyinə dünya heyrətlə baxır,
Vətən Zəfərə yeni bir həqiqətlə baxır.
Düşmənləri od-alov hələ çox alacaqdır,
Var olsun Azərbaycan, daim var olacaqdır.

Bu yerlərdə müzəffər bir ömür sürəcəyik,
Düşmənlərin qəddini kamantək əyəcəyik.
Prezidentimiz deyib, biz də həm deyəcəyik;
"Ey Şuşam Sən azadsan, Səni dirçəldəcəyik".

Bu diyar türkün olub, türk burda qalacaqdır,
Düşmən viran etdiyi yenə qurulacaqdır,
Solmuş Xarı bülbülüm burda kök salacaqdır,
Var olsun Azərbaycan, daim var olacaqdır.

Dünyaya car çəkirik, "Şuşa Azərbaycandır",
Söz bütövdür, yurd bütöv, bu da təzə nidandır!
Bu nida min illərlə tarixdə yaşayandır!
Azərbaycan əbədi dostlarına hayandır!

Vətənim şöləlLənən bir müqəddəs ocaqdır,
Yağı düşmənə düşmən, dosta dost qalacaqdır.
Hələ düşmənlərindən çox qisas alacaqdır,
Var olsun Azərbaycan, daim var olacaqdır!
Daim var olacaqdır!

*30.08.2021*

## MİLLİ HƏDƏF

Düşmənləri edirik dəf,
Qarabağdır milli hədəf.
Biz Qarabağın eşqinə,
Əmr ilə tuturuq səf.

Qorxmuruq Allahdan başqa,
Bir qüvvədən, bir kimsədən.
Heç bir zaman dəyişmərik,
Dönmərik biz mövqemizdən.

Biz səylə çalışırıq ki,
Ağlamasın heç bir insan.
Sızlamasın heç bir ürək,
Qovrulmasın Azərbaycan.

Güllələr dəyir hədəfə,
Yol verməik biz bir səhvə.
Şeirim də bir gülədir,
Düşmənə dəyər hər dəfə.

Hər gün bizdən danışarlar,
Uğurları qısqanarlar.





İt hürsə də, karvan keçər,
Türklər zəfərə qaçarlar.

Daşmayacaq göz yaşıyla,
Heç daşmayacaq xan Araz.
Dəli Kür Vətən dəlisi,
Deyir: "Zəfərə dastan yaz!"

Çox dastanlar yazacağam,
Çox nəğmələr bu zəfərə.
Zəfər Allahdandır, bəli,
Allah yar olsun bizlərə.

Çox şükür ki, yurdumuzun,
Üzü hər bir zaman ağdır.
Hədəfimiz qələbədir,
Hədəfimiz Qarabağdır!

Düşmənləri edirik dəf,
Qarabağdır milli hədəf.
Biz Qarabağın eşqinə,
Əmrlərlə tuturuq səf.

*27.09.2020*

## AZƏRBAYCAN ƏSGƏRİ

Sən savaşlardan çıxdın,
Müqəddəs Zəfər ilə.
Xalq sevgisin qazandın,
Hörmət və dəyər ilə.
Savaşlar başlayan gün,
Sənin gülmüşdü üzün.
General səngərdəydi,
O, göstərdi hünəri,
Azərbaycan Əsgəri!

Dəqiqəylə cəbhəni,
Qəhrəmanlıqla yardın.
O 44 gün bəs etdi,

Qarabağı qurtardın!
Sevindirdin ananı,
Anan Azərbaycanı!
Etdin Zəfər meydanı,
Yardın bütün sədləri,
Azərbaycan Əsgəri!

18-dən 50-yə,
Yaş sanamayan getdi.
Zəfər yolunu çəkdi,
Şuşanı azad etdi!
Cəzasız düşmənlərin,
Hegemonluğu bitdi.
Sən görmüsən bu işi,
Bozqurdların Ərəni,
Azərbaycan Əsgəri!

"Qarabağ qayıdacaq,
Şuşa azad olacaq!
Yağı ərənimizin,
Əlində bir oyuncaq",
Ümid sənəydi ancaq,
İgidliyi göstərdin,
Axırda gerçək etdin,
Artan min ümidləri,
Azərbaycan Əsgəri!

Qəhrəmanlar yurdusan,
Ey Anam Azərbaycan!
Oğlunun səsi gəldi,
Qarabağdan, Şuşadan!
Ordun qalib ordudur,
Özün qalib olmusan!
Sən də, qəhrəman əsgər,
Sayəndə Azərbaycan,
Yaşadı bu sevinci,
Daddı bu qalibliyi.
Hünərinə maşallah,
Qorusun Səni Allah.
Yurd eylədin səngəri,





Məhv etdin düşmənləri,
Cənnət şəhidin yeri,
Vətənimin ərləri,
Azərbaycan Əsgəri!
Azərbaycan Əsgəri!

*26.06.2021*

## ÇIRPINARSAN, QARA DƏNİZ

Müjdə müjdəyə qarışar, sevinib gülərsən onda,
Çırpınarsan, Qara dəniz, baxıb Türkün bayrağına.
Neçə illər pis olsa da, vüsala çatarıq sonda,
Çırpınarsan, Qara dəniz, baxıb Türkün bayrağına.

Ankarada qalalar boyanar üçrəngli bayrağa,
Qardaşlarım bura gələr, gəlib çatar xoş sorağa,
Qara dəniz, boylanarsan, baxarsan sən Qarabağa,
Çırpınarsan, Qara dəniz, baxıb Türkün bayrağına.

Allahıma Şükür, daha yaralar yağmır canıma,
Xoş səda yayılır ona, acarımda Becanıma,
Cavadımın ruhu şaddır, baxır Azərbaycanıma,
Çırpınarsan, Qara dəniz, baxıb Türkün bayrağına.

O ataşkəs illərində ürəyimiz qana batdı,
Göz qapağı bağlanmadı, körpələr güc ilə yatdı,
Axır ki, Azərbaycanım dadlı vüsalına çatdı,
Çırpınarsan, Qara dəniz, baxıb Türkün bayrağına.

Səfərdə hayqırıb "Hərb!" deyəcəyəm hər imanlıya,
Hərb səsim əks-səda verəcəkdir Cocuq Mərcanlıya,
Xələfliyə, Muğanlıya, həm də Qiyamadınlıya,
Çırpınarsan, Qara dəniz, baxıb Türkün bayrağına.

Bizim səadətimizdən gözü kor olur yadların,
Allahım, köməyimiz olsun nurla dolu Adların,
Poladım, o gün olsun çox olsun Poladabadların,
Çırpınarsan, Qara dəniz, baxıb Türkün bayrağına.

Üfürsək, tozla itərlər, bağırsaq, sözlə itərlər,
Gözlərimizdən od yağar, tək bir cüt gözlə itərlər,
Fikir verməri̇k, düşmənlər hər dəfə it kimi hürər,
Çırpınarsan, Qara dəniz, baxıb Türkün bayrağına.

Düşmən başını hər zaman, hər bir yerdə əyərik biz,
Tək istiqlalın uğrunda qanlı kəfən geyərik biz,
Gəncəmiz bombalansa da, himnimizi deyərik biz,
Çırpınarsan, Qara dəniz, baxıb Türkün bayrağına.

Qafqazlardan çox aşdıq biz, zəfərlərə çox qaçdıq biz,
Qarabağa qapıları əvvəlcədən çox açdıq biz.
Bilirəm qardaşlarım bu sözdən sevinəcəksiniz:
"Azərbaycanım qayıdır yenə öz Qarabağına!,
Çırpınarsan, Qara dəniz, sən üzü Qarabağına!
Çırpınarsan, Qara dəniz, baxıb Türkün bayrağına.

*04.10.2020*

## DÖNMƏYƏCƏYİK

İrəlidə dayanıb əsgərimiz,
Deyir:"Yanmışıqsa, sönməyəcəyik.
Son damla qanadək vardır qüvvəmiz,
Heç bir vaxt mövqedən dönməyəcəyik!"

Zərbələri endiririk yağıya,
Yol verməri̇k bələnək biz ağıya,
Türklük aşıladıq körpə çağaya,
Deyirik: "Düşməni məhv edəcəyik. "

Meyl etmirik biz düşmən torpağına,
Göz dikmirik bağçasına, bağına,
Azərbaycan gəlir Qarabağına,
Oranı cənnətə çevirəcəyik.

Qapılmayıb təlatümə, təlaşa,
Deyirik: "Pis şeylər gəlməsin başa
Yaşa, Prezidentim, hər zaman yaşa"
Hələ bu sözləri çox deyəcəyik.





Qarabağda neçə vaxtdır gəzmişik,
Düşmənimin təxribatın sezmişik,
Biz hər zaman düşmən başın əzmişik,
Lazım olsa yenə də əzəcəyik.

Çəkilsin düşmən artıq yuvamızdan,
Çəkilsin artıq bu el-obamızdan,
Bu an qələbəyə çatacaq bir an,
"Qarabağ- Azərbaycan" deyəcəyik.

Ön xətdə mərd durub əsgərlərimiz,
Deyir: "Yanmışıqsa, sönməyəcəyik.
Son damla qanadək vardır qüvvəmiz,
Heç bir vaxt mövqedən dönməyəcəyik,
Düşmənlərə biz qalib gələcəyik!"

*28.09.2020*

## ƏRƏNİM

Bu müqəddəs yolda irəlilə sən,
Hayqır azadlıq nəğməni, ərənim.
Zəfər şeirimi oxuyanda sən,
Sətrində yada sal məni, ərənim.

Ananın xeyr-duası ilə sən,
Keçirsən yağışdan, çiskindən, çəndən.
Dönəndə ana saçında görsən dən,
Sən qara elə o dəni, ərənim.

Dünya hirsindən susur və danışmır,
Sənin gücünü də ancaq danıbdır.
Lakin, içində fikir baş qaldırır:
"Öldürmür yoldan ötəni ərənim".

Sən cənglərə atıl bir aslan kimi,
Haqq ol, Həyy ol damarında qan kimi,
Hərəkət et sən "iti qovan" kimi,
Öldür, məhv et düşmənini, ərənim.

Döyüşdə qorusun səni Yaradan,
Keç Xankəndindən, Xocalı, Şuşadan,

Bayrağı Şuşada sən sancan zaman,
Qazanacaqsan zəfəri, ərənim.

Bu müqəddəs yolda cəld addımla sən,
Oxu azadlıq nəğməni, ərənim.
Qarşında diz çöksün o yağı düşmən,
Zəfərlərə səslə məni, ərənim.

*02.11.2020*

## DƏSTUR! ŞUŞADA BOZQURD VAR!

Kükrə Bozqurd, cövl et, qartal,
Ədalətinlə sən səs sal!
Şuşada sənin taxtın var,
Dünya durduqca orda qal!

Şuşa ulu Türk yurdudur,
Hər vaxt elə qalacaqdır!
Oranın hər qarışında,
Təkbirlər ucalacaqdır!

Türk qardaşım, həm yurddaşım,
Şuşada məktəb tikəcək.
Şuşada mif, əfsanə yox,
Tarixim öyrəniləcək!

Qazi olan gənc müəllim,
Zəfərimdən dərs deyəcək!
Orda inkişaf edəcək,
Parlaq zəfərli gələcək!

Oranın hər qarışmda,
Qürurla baş əyəcəyik.
"Bu torpağa şəhid qanı
Tökülübdür" deyəcəyik!

Neçə igid verdi canın,
Qurban verdi xanimanın.
Şuşada can verənlərlə,
Biz hər an fəxr edəcəyik!





Şuşaya göz dikənlərə,
Dardır o Türk dünyası, dar!
Siz ey qudurmuş şeytanlar,
Siz ey axmaqlar, nadanlar.

Dəstur! Şuşada bozqurd var,
Öz yurdunu əziz tutar.
Əgər yurduna göz diksəz,
Sizi didib parçalayar!

Bunu ulu fateh deyir,
Qoy eşitsin bütün cahan.
Bu söz zəfərli bir himndir:
"Qarabağdır Azərbaycan!"

*11.02.2021*

## KÜKRƏYİR

Soyuq səngərlərdə ürəyi bizlə,
Döyüşən əsgər düşmən başın əyir.
Baxasan gərək bir cüt nurlu gözlə,
Azərbaycan bir aslandır-kükrəyir!

Günümüzü bitirdik xoş müjdəylə,
Ürəyimizdə coşan təntənəylə,
Düşmən çəkilsin, baxmasın tənəylə,
Məhv edirəm, çünki yurda göz dikir.

Yağı bizi görcək dizi qatlandı,
Unutdu sözləri, unutdu andı,
1 həftədə dümağ oldu saqqalı,
Hikkəsindən ittək zəncir çeynəyir.

Bu gecə olubdur artıq xoş anlı,
Yatmır çox milyonlu azərbaycanlı.
Gələcəyəm görüşünə, Muğanlı,
Bunu sənə oğlun Sevindik deyir!

Yazaram bir dastan bu gün eşqinə,
Yazaram mən dayanmaram heç yenə.
Düşmən, kəsik qulağın ilə dinlə:
"Yenilməz"lərin artıq başın əyir!

Boynunu bük qisas alanım gəlir,
Səbri tükənmiş pəhləvanım gəlir.
Yurd qisası çox gecikib durma sən,
Dizini çök, AZƏRBAYCANIM GƏLİR!

Azərbaycan bir aslandır-kükrəyir,
Bu dünyadan haqq-ədalət istəyir.
Özgə torpaqlarında heç gözü yox,
O, əzəli Qarabağına gəlir!

*03.10.2020*

## OCAQ

İstidir mənə yurdum açan qucaq,
Hər zaman qalanacaqdır bu ocaq.
Mənim üçün, sənin və bizim üçün,
Millət üçün yanacaqdır bu ocaq.

Bu ocağa sığınmışıq hamımız,
Bu ocaqda unudulub qəmimiz.
Bu dəm zəfər dəmi, bizim dəmimiz,
Neçə anı anacaqdır bu ocaq.

Əlimizi bassaq bizi yandırmaz,
Qanmayanı o, boş yerə qandırmaz,
Bizi yadın yanında utandırmaz,
Yadı utandıracaqdır bu ocaq.

Gecəmizi işığa boyandırar,
Neçə əsr yatmışı oyandırar,
Gözün dikən "yan"ları hey yandırar,
Hələ çox yandıracaqdır bu ocaq.

Gecədir, onda ki, səhər olacaq,
Zəfər ocağımı oyandıracaq.
Ocağı oğurlayan zorilərin,
Canlarını hər zaman yandıracaq.

Əsgərimlə çiyin-çiyinə mən də,
Döyüşürəm qələmli səngərimdə.
Deyəcək ocağıma ərənim də,
"Ocaq, azad olunubdur Qarabağ!





Bozqurd ilə bizi edən şanlı türk,
Dinin sevən, vicdanlı, imanlı türk,
Ərdoğanlı, həm də ki, İlhamlı türk,
Şölələnib yanacaqdır bu ocaq.

Bu ocağın külü də bir ehramdır,
Bu ocağın havası bir dərmandır,
Ocaq yolumuza işıq salandır,
Türk olduqca olacaqdır bu ocaq.

İndi yan, həmişə sən yan, ey Ocaq!
Daha gur yan, alovlan sən, ey Ocaq!
Daim Azərbaycan azad olacaq!
Bütöv Azərbaycan azad olacaq!
Əbədiyyən türküm hürr yaşayacaq
Bu ocaq daima alovlanacaq!

*08.10.2020*

## QARDAŞ

*Cəbhədə Qarabağın azadlığı uğrunda döyüşən, bu amalın uğrunda canından-qanından keçməyə hazır olan qəhrəman əsgər qardaşlarıma...*

***Müəllif***

Vaxt tapıb yatarkən yuxularında,
Qarabağın azadlığın görənsən.
Dalğalanacaq Şuşa dağlarında,
O bayrağı qanın ilə hörənsən.
Süngünlə ver düşmənə utanc, qardaş!
Bayrağını Şuşamızda sanc, qardaş!

Bu yollardan atan-anan keçibdir,
Bu bulağın onlar suyun içibdir.
Onlar hər an Qarabağı seçibdir
Düşmən süngüsüylə burdan köçübdür.
Düşmənləri hər zaman qır, biç, qardaş,
Azadlığın şərbətini iç, qardaş!

Azad etdiyin hər qarış torpaqda,
Ayağına dəyməsin qara bir daş.
Əzizlərini orda qətl ediblər,
O yerlərdə məzarın ara, qardaş!

Qurtuluşda bundan başqa yol olmaz,
Qarabağsız heç sağ olmaz, sol olmaz,
Kim deyir ki, orda tikan, kol olmaz,
Tikanlardan və kollardan keç, qardaş!

Bu yolda şeytanlar adam öldürər,
İnsanları fikirindən döndərər,
Amma hər hücumda aslan nərildər,
Yorğunluğu bədənindən sov, qardaş!

Bir telin əskilsə qəlbim titrəyər,
Qıçına daş dəysə, qəlbimə dəyər,
Düşmən tərləməyi istəsə əgər,
Onu "iti qovan" kimi qov, qardaş!

Qarabağ düşmənə heç boyun əyməz,
Düşmənin gülləsi bizlərə dəyməz,
Düşmən həmlələri bizi titrətməz,
Yağılar əsgərimizə ov, qardaş.

Məhv et həmişə sən mənfur düşməni,
Deyə bilməsin heç "bu da mənimdir".
Qov yurdun başından dumanı, çəni,
Əmin ol sonunda zəfər sənindir.

Tarix boyu Qarabağ türk məskəni,
Tarixlərcə İrəvan türk vətəni.
Orada qalmamalıdır erməni,
Onların boynunu biz əyək, qardaş.

Hər sözündə hayqır sən öz nəğməni,
Qarabağ olmasın şeytan məskəni.
"İti qovan" kimi qovaq düşməni,
"Qarabağ bizimdir!" həm deyək, qardaş!

*30.10.2020*





## ŞAHLANIŞ

Nurlu duayla bəzəndi,
Qurandı, dindi Şahlanış.
Düşmənlərini əzəndi,
Qalibdi indi Şahlanış.

Koroğlunun nərəsiylə,
Tonyukukun bilgəsiylə,
Göytürkümün göy səsiylə,
Göylərdən endi Şahlanış.

Lovğalananı qandırdı,
Yalanları çox dandırdı,
Neçə ocaqlar yandırdı,
Kim deyər söndü Şahlanış?

Düşmən bayrağın yandırdı,
Xarı bülbülü suladı,
Bir Bozqurd kimi uladı,
Əvvəldi, öndü Şahlanış.

Zəfərinin gücü ilə,
Qılıncının ucu ilə,
O aldığı öcü ilə,
Şadlandı, güldü Şahlanış.

Sənin bu gülüşün ilə,
Vətənə dönüşün ilə,
Düşmənlər yandı, Şahlanış,
Düşmənlər öldü, Şahlanış.

Başı qurdbaş bayraq kimi,
Bədəni də aslan kimi,
Bir abidə-insan kimi,
Zəfər-insandı Şahlanış.

Bir Ərtoğrul qətiyyətli,
Bir Atatürk zehniyyətli,
Heydər, İlhamla qüdrətli,
Azərbaycandı Şahlanış!

*10.12.2020*

## SƏFƏR BİZDƏNDİR, ZƏFƏRSƏ ALLAHDAN

Düşmən diləməkdə olsun çox aman,
Səfər bizdəndir, zəfərsə Allahdan.
Torpağı boyadı nurlu olan qan,
Səfər bizdəndir, zəfərsə Allahdan.

Dua etdik 30 il, gerçəkləşdi,
Qorxdu mənfur, cəngəllikdə əlləşdi,
Nura boyanan təpə zirvələşdi,
Səfər bizdəndir, zəfərsə Allahdan.

Sümüyə dirəndi çoxlu bıçaqlar,
Qaçmışdırlar, hələ çox qaçacaqlar,
Çünki Azərbaycan əsgəri çağlar,
Səfər bizdəndir, zəfərsə Allahdan.

Düşmən hirsindən dəli oldu, dəli,
Kəsdik bizə uzanan bədxah əli.
Bizsə dedik: "AZƏRBAYCAN, İRƏLİ!"
Səfər bizdəndir, zəfərsə Allahdan.

Əsgərim öz millətini qoruyur,
Şəhidlərim zəfərimizi duyur,
Allah dərgahında rahat uyuyur,
Səfər bizdəndir, zəfərsə Allahdan.

Gəldiyimiz torpağımız azaddır,
Düşmən ordusunda işlər bərbaddır,
Sevinirəm, Azərbaycanım şaddır,
Səfər bizdəndir, zəfərsə Allahdan.

Azərbaycan haqq çağırıb hər zaman,
Düşmən diləməkdə olsun çox aman.
Allaha şükür edir AZƏRBAYCAN,
Səfər bizdəndir, zəfərsə Allahdan.

*03.10.2020*





## ŞUŞA TÜRKÜN YURDUDUR!

Şuşa Türkün Yurdudur!
Azad edən ordudur.
Ərdoğan şir duruşlu,
İlhamım Bozqurdudur!

Şuşa nə bəxtiyardır,
Gözəl günləri vardır!
Dirçəliş qarşıdadır,
İndi azad diyardır.

Şuşada bir gün vardı,
Əsilsiz-nəsilsizlər
Dəmlənib oynayırdı
Cıdırımda nakəslər.

Şuşada bir gün də var,
O gün hələ də yaşar!
Həmin gün oldu azad,
Qafqazın mirvarisi.
Həmin gün nakəslərin,
Kəsildi murdar səsi.

Budur qolların açıb,
Oynayır türk ərəni.
Cıdır düzündə qalıb,
Çək ey igid nərəni!

Burada ulu türk sən,
Sanma burada təksən.
Azərbaycan sevinər,
Zəfər nərəsi çəksən.

Hiss etsin qanım, canım,
Təzə-tər nəfəsini.
Azad olan Şuşanın,
Seltək dolub-daşanın.

Nağıl kimi bilirdik,
Çox vaxt xəyal edirdik,

Biz Şuşada olarıq,
Sevinclə oynayarıq.

İndi Cıdır düzündə,
Şanlı Türküm dayanmış!
Mənim xəyal etdiyim,
Nağıl deyil, dastanmış!

Bu günüm deyil həsrət,
Bu günüm olmuş vüsal.
Çal qopuzunu Qorqud,
Şuşada sevinclə çal.

İlham müjdəni verdi,
İlhamla, gülər üzlə.
Azad edəcək Xankəndin,
Qayıdacağıq biz də.

Şad ol, ulu Bəxtiyar!
Şad ol, ulu Şəhriyar!
Şad olun, Şəhidlərim!
Sizsiniz sabahlarım,
Bugünlərim, dünənim.

Şuşada biz Sizi də,
Duyacağıq ürəkdən.
Gələcək şəhid adı,
Hər əməl, hər diləkdən.

Yetmişdir arzusuna,
Gülür ona görə can.
Matəmlə yana-yana,
Ölür o Ermənistan.

Sevinir Azərbaycan!
Şuşalı Azərbaycan!
Şuşa Türkün yurdudur!
Ərdoğan Bozqurdudur!
Əliyev Bozqurdudur!

*16.06.2021*





## ŞUŞANIN YENİDƏN DİRİLİŞİNƏ

Düz neçə il sən əsirlikdə qaldın,
Cıdır düzündə də yallı getdilər.
Gözünün önündə bayrağın əzib,
Hər qarışında soyqırım etdilər.

Məscidində donuzlar at oynatdı,
Kilsələrdə dua oxunulmadı.
Bir məsciddə bircə axund olmadı,
Keşişlər zəli, qaniçən idilər.

Sənin adını da dəyişdirdilər,
Ayrı bir ad ilə əvəz etdilər,
İndiysə yoxdur izləri-tozları,
Gəldikləri kimi onlar getdilər.

Səbirsizlənirik o gün üçün biz,
İsa bulağının suyun içməyə.
Çətir şəlaləndə də biz paklanıb,
Qəhrəmanlıq qalandan da keçməyə.

Sadıqcan əlində tarımızsan sən,
Xan bağında bağça, barımızsan sən,
May ayında boranımız olsan da,
Noyabrda gələn yazımızsan sən.

Əllərinlə yaralıya şəfa ver,
Şəfalı ol, sən həmişə, ey Şuşam!
Müqəddəs torpağında qalacağam,
Qoynunda mən çox şeir yazacağam...

Səndə olan döyüş tarixlərinə,
Qanlı bir keçmiş kimi baxacağıq.
Düşmənin başında var artıq zədə,
"Dəmir Yumruq"la biz çox yaxacağıq.

Bu xalqın İlhamı qaytardı səni,
Natəvanı düşməndən xilas etdi.
Sən də azad olunmusan artıq tam,
Dildə bir söz vardır: "Diriliş:İlham!"

Düşmənlər yana-yana baxacaqlar,
İlhamın əliylə dirçəlişinə!

Bu nəğməmi mən sənə həsr edirəm –
Şuşanın yenidən dirilişinə!

Sonsuzadək bayram edəcəyik biz,
Bu gün başqa gündür, başqa bir andır.
Pisi "iti qovan" kimi qovduq biz,
Deyirik: "Qarabağ Azərbaycandır!
Şuşalı Qarabağ Azərbaycandır!"

*08.11.2020*

## TÜRKÜN GÜNÜ

Ey Ulular, şad olun,
Bu gün Türkün Günüdür!
Kədərdən azad olun,
Bu gün Türkün Günüdür!

Nur Günəşlə oyanan,
Bayraqlarla boyanan,
Dualarla nurlanan,
Bu gün Türkün Günüdür!

Azad olub yurd, məkan
Qaytarılıb yağıdan,
Türkün anıdır bu an,
Bu gün Türkün Günüdür!

Fəthlərdən fəthə qaçan,
Əcdadım Nuru Paşam.
Mən Zəfərlə qardaşam,
Bu gün Türkün Günüdür!

Qoy güc alsın Orxonlar,
Əcdadımızdır onlar.
Məni ancaq türk anlar,
Bu gün Türkün Günüdür!

"İti qovan" tək qovan,
Şanlı Zəfərə çatan,
Sevin, EY AZƏRBAYCAN!
Bu gün Yurdun Günüdür!
Bu gün Türkün Günüdür!

*10.12.2020*





## YA RƏBB!

*(Yəhya Kamal Bayatlının "Ya Rəbb" şeirinə bənzətmə)*

Kükrəyən aslanım Sənin aslanındır, Ya Rəbb!
Bu zəfər Sənindir, Sənin olanındır, Ya Rəbb!
Bu bayram İslamın, Sənin bayramındır, Ya Rəbb!
Sənin duanla Şuşam Azərbaycandır, Ya Rəbb!

Sən dua et, zəfərə tez çatsın müqəddəs yurd,
Göydəki o ordun kömək etsin ərənimə.
Sən yar ol bizə, qoy daha çox ulasın boz qurd,
Hədiyyə olsun bu gün Səninlə Vətənimə!

Qurd balası qurd olar, olduğu yer yurd olar,
Lənət yağdır düşmənə, qoy olsun o, tari-mar.
Azərbaycan gələr Şuşaya, havasın udar,
Şuşa bizimdir artıq, manc olammaz "yan"lar.

Zəfər günündə Sənə ürəkdən Şükür olsun,
Gözəl Şuşam yenə də yaqut olsun, dürr olsun,
O Topxana meşəmdə yaşıllıqlar gur olsun,
Bizə gücü-qüvvəti verənimiz Sən oldun!

İndi bayram eyləyir Mübarizlər, Poladlar,
Qazyanda ruhu şaddır, şad olacaq Əliyar,
Qarabulaqda ana eyləməyir ahu-zar,
Haqq Sənsən, hüquq sənsən, Sən olmusan bizə yar!
Həmişə ol bizə yar, Həmişə ol bizə yar,
İnşəAllah duanla Qarabağ azad olar!

Şığıyan tərlanım Sənin tərlanındır, Ya Rəbb!
Düşmənə qan udduran qəhrəmanındır, Ya Rəbb!
Səfərə biz çıxdıq, isminə dualar ilə,
Bu zəfər Sənindir, Sənin olanındır, Ya Rəbb!

*08.11.2020*

## YAŞA, VAQİF!

*(Uyuduğu yer-əziz Şuşası azad olunan böyük şair Molla Pənah Vaqifə xitabən)*

Vurdun ömrünü düzlərdə,
Faciəylə başa, Vaqif.
Qaldın sən mənfur əllərdə,
Nələr gəldi başa, Vaqif.

Baxıldın sən xor gözlərlə,
İzləndin sən pis izlərlə,
Səni o mənfur, pislərlə,
Çəkdilər yarışa, Vaqif.

Qan tökdülər "qırmızılar",
Xəncərləndi neçə dostlar,
Qan qusdular, qan qusdular,
Yaya, yaza, qışa, Vaqif.

Qanlı cəllad o da çəkdi,
Səni alov, oda çəkdi,
Çömçəylə, qaşıqla çəkdi,
Qara qanlı aşa, Vaqif.

Keçmiş Sovet illərində,
Yetişdi O, Ulu Öndər.
Səni böhtanlı günlərdə,
Dirçəltdi O, Ulu Öndər.

Hamı böhtan şumlayan vaxt,
O, beynində fikir əkdi.
Sənə böhtan atılarkən,
O, Sənə məqbərə tikdi.

Öldürüldüyün yerlərdə,
Səni yenidən dirçəltdi.
Adın gəzdirdi dillərdə,
Şeirlər bayramı etdi.

Lakin bu, uzun sürmədi,
Xainlər yenidən birdi.
Mənfur düşmənlər yenə də,
Şuşaya soxuldu, girdi.





Düşmən aldı nə qədər can,
Axıtdı çoxlu nahaq qan.
Məqbərən də dağıdıldı.
Şuşa yanıb alovlandı.

Çağlar idin, ancaq dondun,
Çevrildin sən daşa, Vaqif.
Yurdunu işğal edənə,
Kömək etdi Saşa, Vaqif.

Namərd qalib gələmməzdi,
Pis qarışdı işə, Vaqif.
Müsibətlər gəldi başa,
Bahar döndü qışa, Vaqif.

Neçə illər səssiz qaldın,
Məzarda əsir alındın.
Hər bir an təhqir olundun,
Yenə susdun, yenə dondun.

Göyçədə Ələsgər kimi,
Külün göylərə sovruldu.
Sazın, tarın sarı simi,
Gözəl səsi susduruldu.

Vardı Xarı bülbül ətri,
Vardı Vidadinin sətri.
Gözəllik dağıldı, getdi,
Yox heç kəsin hörmət-xətri.

Çəkildi şişə mərd əti,
Bəddi xainin niyyəti,
Məhv etdilər əmanəti,
Düşmən yana-bişə, Vaqif.

Düşmən atəşkəsi pozdu,
Yandırdı hey neçə canı.
Tökdü çoxlu nahaq qanı,
Mərdi çəkdi şişə, Vaqif.

Biz daha səbr eyləmədik,
Bir an da dözə bilmədik.

Komandandan əmr eşitdik,
Və qaçdıq zəfərə, Vaqif!

Azad oldu Cəbrayılım,
Füzulim, Suqovuşanım.
Bütövləşməyin yolunda,
Döndük biz şir-nərə, Vaqif!

Mənfur düşməni məhv etdik,
Doğma Şuşamıza getdik.
Şanlı Zəfərin Yolunda,
Biz çoxlu şəhidlər verdik.

Vətənə fədadır canım,
Vətəndə xoşdur hər anım.
Qələbəylə, zəfər ilə,
Şənlənir Azərbaycanım!

Şanlı 8 Noyabr gəldi,
Türküm Zəfərə yetişdi!
İmanda pak, şüşə Vaqif,
Azad oldu Şuşa, Vaqif!

Azərbaycan Zəfərlidir,
Qarabağım ərənlidir,
Düşmənimiz kədərlidir,
Dönüblər bayquşa, Vaqif!

Şuşamıza vurğun Vaqif,
Getdi boran, çovğun, Vaqif.
Şuşadan duman çəkildi,
Azad oldu ruhun, Vaqif!

Başa gələn bu haləti
Sevindik də nəzmə çəkər.
Şuşada şeir günündə,
Bu şeri söyləmək istər.

Bundan sonra ruhun rahat,
Zəfəri izlə, rahat yat.
Ruhunladır Şuşa, Vaqif,
Orda rahat yaşa, Vaqif!
Yaşa, Vaqif!

*15.01.2021*





## ŞƏHİDLƏR

Neçə arzunuz, amalınız vardı,
Əsas arzunuzsa – BÜTÖV olmaqdı!
Bunun üçün candan keçdi neçə ər,
Həmin ərlər sizsiniz, ey şəhidlər!

Ağlayır, yaş tökür çətir şəlaləm,
Dünyaya səs salır, çatır ah-naləm,
Qəbrinizdə bitir qızılgül, laləm,
Bir silinməz izsiniz, ey şəhidlər!

Ərtoğrulun soyu alp olmalıydı,
Xətainin soyu ər olmalıydı,
Öndərlərin soyu nər olmalıydı,
Sizinlə fəxr edir soy, ey şəhidlər!

Getdiniz döyüşə vermək can üçün,
Zəfərə qərq olan gözəl an üçün,
Getdiniz BÜTÖV AZƏRBAYCAN üçün,
Getdiniz ki, olmasın faciələr,
Getdiniz olsun düyün-toy, Şəhidlər!

Analar yas tutsun mən istəmirəm,
Düşmən olsun alışası-yanası.
Şəhid analarına səslənirəm,
O başını dik tut, şəhid anası!

Sirdaşlarım bu nəğməni oxuyur,
Xatirəniz həmişə yad olunur,
Ana vətən Sizinlə qürur duyur,
Sizləri anır nəsil-soy, Şəhidlər!

44 gündə tarixi yazan ərlər,
Sizə nəsib oldu qanlı döyüşlər,
Sizə nəsib oldu böyük zəfərlər,
Şöhrətli şəhidlər, şanlı şəhidlər!

*04.12.2020*

## ZƏFƏR TARİXİ

Gör neçə qisası yerdə qoymadı,
Qanlarla rənglənən Zəfər Tarixi.
Ulunun sözünü yerə salmadı,
Göylərə ələnən Zəfər Tarixi.

Ərəni ərəniylə nərildədi,
"Müqəddəs gün çox yaxındadır" dedi.
O düşmənləri darmadağın etdi,
Düşməni çökdürən Zəfər Tarixi.

Bizə yaraşmırdı o qanlı günlər,
Xocalı kimi ağır faciələr.
Bizə yaraşırdı Şanlı Zəfərlər,
Belləri bükdürən Zəfər Tarixi.

Ürəyimiz son dəfə də göynədi,
Qəlblərdə neçə Göytürk nərildədi,
"Qatılın döyüşə, döyüşə" dedi,
"Və ancaq zəfərə, zəfərə!" dedi,
Yer deyən, Göy deyən Zəfər Tarixi.

Düşmənə yerində həmlələr etdi,
Allah da haqq səsimizi eşitdi.
"Bayrağını" alıb yağı hey getdi,
Üçrəng bayraq tikən Zəfər Tarixi.

Füzulidən çıxdıq Zəfər Yoluna,
Salam verdik Oğuzların boyuna.
Şuşamızda baxdıq Üçrəng Bayrağa,
Onda ürəyimiz döndü bir dağa,
Tanrıdan güc aldı Zəfər Tarixi.

Dərəbəylərə haqq dərsini verdi,
Düşmən gülləsinə sinəsin gərdi,
Albert neçə düşmənin yerə sərdi,
Ucbəydən uc aldı Zəfər Tarixi.

"Həyy" dedi, "Həqq" dedi, Haqqı gətirdi,
Xarı Bülbül ətri zəfər ətriydi.
Azərbaycana Qarabağ yetirdi,
Dünyaya ucaldı Zəfər Tarixi.
Neçə zəfərlərə İlham olacaq,





Düşmənlərə kədər və qəm olacaq,
Onu "iti qovan" kimi qovacaq,
Düşmənə kükrəyən Zəfər Tarixi,
Azərbaycan deyən Zəfər tarixi!

*04.12.2020*

## ZƏFƏR KEÇİDİ

*(Əsrlərlə sarsılmaz, dəyişməz, yenilməz türk qardaşlığına həsr edilmişdir)*

Ulu Türk ruhunun dirilməsidir,
Qələbə keçidi, zəfər keçidi.
Yurdun xalçasının bir ilməsidir,
Qələbə keçidi, zəfər keçidi.

Bəylik meydanında bir ər dərsidir,
Bir zəfər dərsidir, hünər dərsidir,
Ər kişi ər, nər kişi nər dərsidir,
Qələbə keçidi, zəfər keçidi.

Təkbir sədasıyla keçən bayramdır,
Azadlıq şərbətin içən bayramdır,
Türk gündür, Türk şandır, həm də Türk andır,
Qələbə keçidi, zəfər keçidi.

Türk-Azərbaycan qardaşlığı əzəldir,
Nuru paşa Bakısı nə gözəldir,
Onu gözəl edən Şanlı Zəfərdir,
Qələbə keçidi, Zəfər keçidi.

Əcdadlardan gələn işıqdır, nurdur,
Soylardan soylanan Zəfərli soydur,
Başçısı Ərtoğrul, düyündür, toydur,
Qələbə keçidi, zəfər keçidi.

Qalib bir millətin Zəfər anıdır,
Hürlüyün, həm azadlığın qanıdır,
Türkiyəsidir, Azərbaycanıdır,
Qələbə keçidi, zəfər keçidi.

*10.12.2020*

## YALNIZ QƏLƏBƏ!

İnanırdıq bir gün deyiləcəkdir,
Həmin gün də bayram ediləcəkdir,
Qarabağım sevinib, güləcəkdir,
Qələbə, qələbə, yalnız qələbə!

Gözəl Qarabağım, dərd çəkdin sən çox,
İndi isə dərdlər yoxdur artıq, yox.
Düşmənin qəlbinə sapladıq biz ox,
Qələbə, qələbə, yalnız qələbə!

Qanlı faciələr son tapmalıydı,
Əsgər bayrağı dalğalamalıydı,
Qarabağ azaddı və olmalıydı,
Qələbə, qələbə, yalnız qələbə!

Zəngəzurum, gözlə, səndən keçirik,
Sənin üçün qandan, candan keçirik,
Naxçıvana biz yolundan keçirik,
Qələbə, qələbə, yalnız qələbə!

Yurdun oğlu-qızı eyləyir bayram,
Düşmənin keşişi yandırsın çox şam,
Gəlmişəm, qoynunda hayqıram, Şuşam:
"Qələbə, qələbə, yalnız qələbə!"

Yurdumun zəfəri çoxdan çox artıq,
Düşmənin köksündə vardır ox artıq,
Qarabağdan başqa bir yol yox artıq,
Qələbə, qələbə, yalnız qələbə!

Neçə Albertlərin ruhları şaddır,
"Diriliş:İlham"ım, nə gözəl addır,
Gözüm aydın olsun, yurdum azaddır,
Qələbə, qələbə, yalnız qələbə!

*10.11.2020*





## KƏND QARADİZ

*(Füzuli rayonunun Kənd Qaradiz yaşayış məntəqəsinin mənfur düşməndən azad edilməsi xəbərini Ali Baş Komandan cənab İlham Əliyevdən eşitdikdən sonra ilhamlanaraq dərhal qələmə almışam)*

Bu yerdə var xüsusi iz,
Kənd Qaradiz, kənd Qaradiz!
Səninlə sevinirik biz,
Kənd Qaradiz! Kənd Qaradiz!

Arzuladıq səni hər an,
Arzuladı çox sevən can,
Arzuladı Azərbaycan,
Kənd Qaradiz, Kənd Qaradiz!

Şad xəbəri eşidən an,
Sevincdən tüküm oldu biz.
Düşmənə dedik: "rədd ol, "yan",
Kənd Qaradiz, Kənd Qaradiz!

Səni çox anlayıram mən,
Çox ayrı qalmışdın bizdən,
Gəlməsin o dəm yenidən,
Kənd Qaradiz! Kənd Qaradiz!

Veteranlar çox sevinir,
Onlar səni yada salır.
O günlər və bu günlərdən,
İlham ilə ilham alır.

Biz sənə həmişə yarıq,
Hər bir qarışında varıq.
Düşmənlərə yağan dolu,
Düşmənlərə yağan qarıq.

Qərq edərik düşmənləri,
Hər zillətə, hər kədərə.
İndi artıq bizimləsən,
Lənət deyək düşmənlərə.

Özümü heç saxlamaram,
Qəribə bir duyğudayam.
İlham ilə irəlidə,
Yazaram, həm yaradaram.

Mənim Mütalib dayımın,
Qaradiz qəhrəmanının,
Bilirəm ki, ruhu şaddır.
Sahib dayımsa xəbəri,
Eşidəndə çox ruhlanır.

Sənin inamın İlhamdır,
Onsuz düşmən çökməzdi diz.
Sən yenə Azərbaycansan,
Kənd Qaradiz, Kənd Qaradiz!

*27.09.2020, 16:21*





## GƏNCƏM

*(Mənfur düşmənin Gəncəni qadağan edilmiş raket atəşinə tutması və günahsız insanların şəhid olmasına həsr edilmişdir.)*

Ürəyindən axır qanlar, bilirəm,
Solmasın yanağının alı, Gəncəm.
Yarana yaxacam mən özüm məlhəm,
Olmayacaqsan sən yaralı, Gəncəm.

Ey Gəncəm, köksündə dəlik açdılar,
Açdılar, sonra da qorxub qaçdılar.
Mərd sinənə vursalar da çox yara,
Şükür, gələcək var arzularında.

Cavad xan köksünə dəymişdir yara,
Təzələnməyəcək o yara daha.
Nurlar göndəribdir o, xoş sabaha,
Olmayacaqsan sən aralı, Gəncəm.

Düşmənlər qorxub qucağa girərkən,
"Azərbaycan çox güclüdür" deyərkən,
Qarabağ bizim olacaq çox erkən,
Qurban sənə "İrəvan xalı", Gəncəm.

Bizim yanımızda ol, gözdən itmə,
Özünü sən daha yaralı etmə,
Sağalsın yaran, ol şəfalı, getmə,
Olma hüdudundan aralı, Gəncəm.

Yar olacaqsan sən Qarabağına,
Deyəcəyik: "Çox toy-büsat qurula,
O gün olsun deyək biz oralara,
Yoldaşındır Şuşa maralı, Gəncəm. "

Ürəyindən axır qanlar, bilirəm,
Sən əziyyət çəkmə özüm gəlirəm,
Öz əlimlə göz yaşını silirəm,
Olma heç vaxt məndən aralı, Gəncəm.

*04.10.2020*

## ŞUŞAM

*(Qədim Azərbaycan torpağı Şuşanın azad olunması münasibətilə)*

Çapıldı, talandı torpağın, daşın,
Əsir götürüldü dostun, sirdaşın,
Qan rəngdə olmasın indi yaddaşın,
Görüşünə gəlib ədalət, Şuşam.

Nə qədər oyuldu sənin gözlərin,
Namusu tapdandı qız-gəlinlərin,
Cəzasın alacaq o düşmənlərin,
Gətirməsələr də nədamət, Şuşam.

"Başına güllələr"i çaxanların,
Başından gülləni elə vurduq ki,
Bir də hücum etməzlər onlar daha,
Səni qurtardı gör neçə mərd, Şuşam.

Bağışla sən bizi, gecikdik bir az,
Amma dedik: "Bu qan da yerdə qalmaz!".
İndiysə bizimsən, qışında var yaz,
Sən bizə olmusan əmanət, Şuşam!

Başından vurmuşuq biz düşmənlərin,
İndi gözləyirlər cəhənnəmlərin.
Sona yetdi sənin işğal günlərin,
Bir daha görməzsən rəzalət, Şuşam!

Oğlunu görəndə nə hiss keçirdin?
Yəqin ki, Allaha şükr etdin min-min.
Məscidlər yandıran, tanımayan din,
Gözləyər onu çox qiyamət, Şuşam!

Güllə səsin eşitməyəcəksən sən,
Düşməyəcək daha saçlarına dən,
Səni görmək üçün səbirsizəm mən,
Azadlığın artıq elan et, Şuşam!





Bilirəm, qəlbində arzuların var,
İnşəAllah övladın yanında olar.
Xarı bülbülünün iyindən doyar,
Bu gözəl arzuna sən də yet, Şuşam!

Ey düşmən, kiminə güvənirdin sən?
Sənsən artıq indi hikkəndən ölən.
Səni "iti qovan" kimi qovuram ,
Sənə bəsləməyib heç hörmət Şuşam.

İki hakimiyyət var İrəvanda,
Bəs qalacaqdılar bu torpaqlarda?
İndi yerə düşüb o "bayraqlar" da,
Yox onlarda namus, ar, qeyrət, Şuşam.

Onun olmayana "bizimdir" dedi,
Özgənin yurdunu özünün bildi.
Bunu da bütün cahan bilməlidi,
Qarabağ əzəldən bu yurdun idi.
Odur ki, qalmazdı yağıya, yada,
Şuşamız da Azərbaycandır daha!

Qalaya diriliş hoyla gəlibdir,
Əliyevlə gəlib, toyla gəlibdir,
Azərbaycanın o Şanlı əsgəri,
Qorqud ilə gəlib, boyla gəlibdir!

Yallı gedəcəyik biz o qoynunda,
Bu heç yuxu deyildir, əziz Şuşam!
Deyirik ki: "Əziz Şuşam, azadsan,
Bu tarixdən Şuşadır Azərbaycan!"

*08.11.2020*

## AĞTƏPƏ

*(Ağtəpə yaşayış məntəqəsinin azad edilməsi münasibəti ilə)*

Elə şumlamışıq ki,
Qalmışıq səpə-səpə.
Bizimsən sən, bizimsən,
Gözəl diyar-Ağtəpə!

Neçə illər "dost" idik,
Biz o mənfur düşmənlə.
Daha heç yol vermərik,
O pis və kobud səhvə.

Yandırıldın, bağırdın,
Səsin çatdı sadəcə
Dostun Xudafərinə.
Yandın sən neçə dəfə,
Ay sağalan Ağtəpə.

Cənublara boylansan,
Sən yarını taparsan.
O üçrəngli bayraqdan,
Gözünü ayırmazsan.
Təbriz, Turan, Ağtəpə,
Ay Savalan, Ağtəpə.

Bax sən o "Yerevana",
Baxır çox yana-yana.
Sən bir yaralı ana,
Mənsə balan, Ağtəpə.

Şumlanan çox yerlərdə,
Artıq çiçək əkilir.
Deyəcəyim gözəl ad,
Çoxlu yerdə çəkilir:
Azad olur dağ, təpə,
Azərbaycan – Ağtəpə!

*20.10.2020*





## QARĞABAZAR

Bayrağımız dalğalanar,
Düşmənlərə zərbə vurar.
Xalqım şəhidləri anar,
Sənin ilə, Qarğabazar.

Könlüm quşu uçdu sənə,
Gördü xanimanlarını.
Bu xalq hələ unutmayıb,
Görüb neçə anlarını.

Xanimanın dağılsa da,
Zəfər oldu təsəllimiz.
Viran olmuş yurd-yuvanı,
Cənnəməkan edərik biz.

Səsimiz çatır hər yana,
"Yan"lar qalıb yana-yana.
Dünya gözünü dikibdir,
Gözəl yurd-Azərbaycana.

Görəcəksən artıq bizi,
Görəcəyik artıq səni.
Lakin unudulmayacaq,
Yurdumun qanlı dünəni.

Daha qapqara olacaq,
O saçlarının ağ dəni.
İndi gəlmişik yanına,
Ey Türk yurdu, Türk Vətəni!

Hamı eşidir səsimi:
"Düşmən sözlərimdə azar,
Azərbaycan tarix yazar,
Sevindik çəkir artıq car:
Qarğabazar, Qarğabazar!"

*20.10.2020*

## XOCALIM

*Xocalının 2 kəndinin işğaldan azad olunmasının sevinc hissi ilə*

Dünyanın bəlasın çəkmişdir başın,
Bir Turşsu olmuşdu sənin göz yaşın.
"Paytaxt" da olmuşdu Şuşa qardaşın,
Yaxındadır həmin zəfər, Xocalım!

Oğulların güllələrlə öldülər,
Tofiq, Adil yad əllərdə söndülər,
Cənnətdə qisası çox gözlədilər,
Yaxındadır həmin zəfər, Xocalım!

Qızının ermәni dərisin soydu,
Bir müddət gözlədi, gözlərin oydu,
Zövq aldı bu işdən, "qəhrəman" oldu,
Ondan yoxdur xəbər-ətər, Xocalım!

O cəlladlar dərs alacaq, bilirəm,
Cəhənnəmdə odlanacaq, bilirəm,
Yağı evi hey yanacaq, bilirəm,
"Yan"lar yanar, zaman gələr, Xocalım!

Bax düşmənin namərd "serjik"lərinə,
Tüpür onun sən gülən gözlərinə,
Hamısının oy gözün, xıncım elə,
Heç qalmasın bircə nəfər, Xocalım!

Bax indi yandırırıq biz "yan"ları,
Onlar qovmuşdular Xocalıları.
"İti qovan" tək qovuruq onları,
Düşmənin bayrağı enər, Xocalım!
Yaxındadır həmin zəfər, Xocalım!

*07.11.2020*





## DAŞKƏSƏN

*(Müzəffər ordumuzun həmləsi ilə Cəbrayıl rayonunun Daşkəsən kəndinin işğaldan azad edilməsinə həsr olunub)*

Ona nə edə bilərdi "baş kəsən"?
Onun adı da var qorxmaz Daşkəsən.
Adın eşidəndə düşməndir əsən,
Bu ada sahibdir qorxmaz Daşkəsən.

Dözəmmədin, səbr daşın parçalandı,
Söndürülən odun, atəşin yandı.
Görürəm ki, düşmənim "cılızyandı",
Səni görcək qaçar, durmaz, Daşkəsən.

Ayırdılar neçə il sənlə məni,
Daha da ağardı saçının dəni.
Təkrarlanmasın bu yurdun dünəni,
Heç kəsdən heç bir şey ummaz Daşkəsən.

Mən bilirdim, sənin hər iri daşın,
Götürəndə boş başlar yaracaqdı.
Zorik, indi bax görüm bacarırsan?
Söndürmək istədiyin o ocaqdı.

Danışıq masaları da yoruldu,
Yalan duymaqdan qulağı kar oldu.
Yanan, qovrulan "yan"lara ar oldu,
İndi artıq sən bizimsən, Daşkəsən.

Bic düşmənin ağlına heç batmadı,
Viranın bir gün abad olacağı.
Özlərinin bir ömür çox ağlayıb,
Azərbaycanımın şad olacağı.

Möhkəm dayan, hər zaman get irəli,
Azərbaycan əsgəri, hər an ol sağ.
Yanında heç nədir nakəs erməni,
İndi Azərbaycanındır Qarabağ!

Sənə yaxınlaşa bilməz "baş kəsən",
İnnən belə sən elə mənimləsən.
Xalqımla zirvəyə yüksələcəksən,
Mənimsən sən, mənimsən sən, Daşkəsən!

*08.10.2020*

## QUYCAQ

*(Quycaq kəndinin mənfur erməni tapdağından azad olunması münasibəti ilə)*

Artıq düşmən əlimizdə oyuncaq,
Gəlirik görüşünə, azad Quycaq.
Yağı başına çox odlar yağacaq,
Gəlirik görüşünə, azad Quycaq.

Yaralandıq əvvəlcə sən, sonra mən,
Azad oldun 30 ildən sonra sən.
Artmayacaq daha saçındakı dən,
Gəlirik görüşünə, azad Quycaq.

Bir zamanlar təxribatı sezmədik,
Neçə dəfə ağladıq, həm inlədik,
"Bəsdir daha!" dedik və biz dözmədik,
Gəlirik görüşünə, azad Quycaq.

Yeniləndə sən inanmaz düşmən,
Onlar çox yerlərdə olacaq pərən.
Çünki, orada vardır çox Alp, ərən,
Gəlirik görüşünə azad Quycaq.

Biz bir öldük, sonraysa min dirildik,
Dayandıq, dayanacağıq biz dimdik.
Səni çox görmək istəyir Sevindik,
Gəlirik görüşünə, azad Quycaq.

Yağ atəşim, düşmənin başına yağ,
Düşmənlərə dağ çəkdik biz, böyük dağ.
Qarabağ işğaldan azad olacaq,
Onda olacaqsan daha şad, Quycaq,
Gəlirik görüşünə, azad Quycaq.

*03.10.2020*





## CƏBRAYIL

Neçə ildir qaranlıqda qalmışdın,
İndi açılıbdır səhər, Cəbrayıl.
Gözləyib ürəyinə xal salmışdın,
Sənindir, sənindir zəfər, Cəbrayıl.

Hayqırtımız bir zaman dolaşmışdı,
Gəzmişdi görmədiyim xan Arazı.
Göstərdik düşmənə öz gücümüzü,
İşğal ilə heç vaxt olmadıq razı.

İşgəncələrdən qurtardıq biz səni,
İndi abadlığım gözləyirik.
Sözümüzlə bəzəyirik biz səni,
Sözümüz var, biz hələ söz deyirik.

Nər əsgərim sıxar öz tətiyini,
Hər dəfə düşmənin ləsin sezər.
Arzumdur, Cəbrayıl, oğlun Sevindik,
Xudafərinində şən-şaqraq gəzər.

Bir zamanlar ağlardıq bu körpüyə,
Cənublardan baxardıq bu körpüyə.
Zəfəri gözləsin şən Xudafərin,
Doymayacaq buralarda səs-küyə.

Araz qırağında qan yuyulanda,
Bilirdik ki, sənə qovuşacağıq.
Bir azdan onun nuruna qərq olub,
Yuyunub biz çox rahatlaşacağıq.

Çox gözləyirdim, Cəbrayıl, bu günü,
Yuxumu bəzəmişdi gözəl soraq.
Sənlə gözləyirik zəfər ününü,
Qarabağım tapdaqdan qurtulacaq!

Sözümü hələ mən bitirməmişəm,
Xələfliyə də sorağım çatacaq.
Bu sözü deməyi çox gözləmişəm:
"Cəbrayılla hürr olacaq Qarabağ!"

Neçə ildir əsirlikdə qalmışdın,
Xiffətindən ürəyə xal salmışdın,
Qaranlıqda xəyallara dalmışdın,
Açılıb səhərin, yuxudan ayıl,
Sən azadsan, sən azadsan, Cəbrayıl.

*08.10.2020*

## HOROVLU

Düşmən həmişə olacaqdır xoflu,
Bizimsən artıq əziz yurd Horovlu.
Ah çəkməkdən olacaqdır o oflu,
İzimsən artıq əziz yurd-Horovlu.

Könlümdən səni də çox keçirtmişəm,
Səni öz dünyama mən gətirmişəm,
Lakin, heç səni görə bilməmişəm,
Sözümsən artıq əziz yurd-Horovlu.

Mən çox hayqırdım, səsim hey dolaşdı,
Dərələri keçdi, dağları aşdı.
Bayrağım sənə nə gözəl yaraşdı,
Səsimsən artıq əziz yurd-Horovlu.

Heç zaman endirmədim öz səsimi,
Sənsiz almayacağam nəfəsimi.
Səndə vardır günün o xoş nəsimi,
Nəsimsən artıq əziz yurd-Horovlu.

Bir qızsan vurulduq sənə hamımız,
Sənə şeirlər qoşduq ey gözəl qız,
Sən mənim ən gözəl, ən qarayanız –
Kəsimsən artıq əziz yurd-Horovlu.





Şəhidlərimiz ölməyib, bilirsən,
Mənimlə hər an bu sözü deyirsən:
"Yurdum olmalı Polad Həşimovlu,
Qəhrəman Mübariz İbrahimovlu!"
Bu sözü deyirsən, əziz Horovlu!

Düşmənin olacaq həmişə xoflu,
Azad etdik səni əziz Horovlu.
Ah çəkməkdən olacaqdır o oflu,
Göz yaşı olacaq dəniz, Horovlu.

*08.10.2020*

## MƏZRƏYƏ

Açılıb gözümdə xoş bir mənzərə,
Mənzərə aiddir gözəl Məzrəyə.
Şeirim dönəcəkdir xoş əsərə,
Çünki, həsr etmişəm özəl Məzrəyə.

Vətənimə mən şeirlər yazmışam,
Elə olub söz içində azmışam,
Bu şeiri də Məzrəyə yazmışam,
Yaxşı olar Məzrəmizə bənzəyə.

Azad kəndlərimizdən oldun sən də,
Hələ də xoşbəxtliyin içindəsən.
O qədər incitmişdilər ki səni,
Sən idin incə bir sözdən də küsən.

İndi isə qurtuldun əsirlikdən,
Sən çox darıxmışdın bilirəm bizdən.
Düşmənin başını sən çox əzdin ki,
Olmasın bir daha səni incidən.

İlhamımız oldun İlhamla bizim,
İnamımız oldun inamla bizim,
Səhər açıldı intiqamla bizim,
Daha düşməyəcək saçlarına dən.

Dildə "Zəfər!", əldə üçrəngli bayraq,
Çatdırıram indi gözəl bir soraq,
"Qarabağ yad əldən azad olacaq",
Bunu tam əminliklə deyirəm mən.

Yaranıb bu yerdə gözəl mənzərə,
Açılıbdır Qarabağa pəncərə.
Eşidən heyran qalıb bu zəfərə,
Düşmənlər düşəcək hələ lərzəyə.
Bu yazım bənzəyir yaxşı əsərə,
Çünki, həsr edilib azad Məzrəyə.

*08.10.2020*

## NƏBİNİN, HƏCƏRİN, XALQIN MOLLUSU

İki kənd də azad edildi daha,
Nəbinin, Həcərin, Xalqın Mollusu.
Nəbinin ruhu şad edildi daha,
Nəbinin, Həcərin, Xalqın Mollusu.

Nəbinin sevinci-xalqın sevinci,
Həcərin göz yaşı-xalqın yaşıdır.
Bizdə vicdan vardır, ədalət vardır,
Dünya ədalətdən xeyli naşıdır.

"Diriliş" Nəbisi dildə deyildi,
Ucalan bayraqla təsdiq edildi.
Yurdumun xilaskarı çatdı, gəldi,
Nəbinin, Həcərin, Xalqın Mollusu.

Qurtuluşun, dirilişin gəlibdir,
Artıq vətənə dönüşün gəlibdir.
Həsrətə son qoyulacaq biləsən,
İndi bərpan, quruluşun gəlibdir.

Bir vaxt deyirdik ki, "biz yaxılmışıq,
Biz də sənin üçün çox darıxmışıq,





Bir də görəcəksən ki, qayıtmışıq",
Nəbinin, Həcərin, Xalqın Mollusu!

Qarabağda yay günü yağırdı qar,
Qarabağda çox olurdu ahu-zar,
Bizləri üzürdü uzun intizar,
Bilirdim rəhbərim buna son qoyar.

Azadlığın, azad günün mübarək,
Biz qoynuna xeyir işlərə gələk.
Ey bu yurdun alovlusu, odlusu,
Nəbinin, Həcərin, Xalqın Mollusu!

*09.11.2020*

## LAÇININ ZƏFƏRİNƏ

3 kəndin azad olundu, sən sevin,
Azad olunacaq hər oban, elin.
Düşmənlərə deyirik: "Burdan qaçın!",
Laçın, Laçın, mən sənə qurban, Laçın.

Oğulların bir vaxtlar əsir oldu,
Anaların ala gözləri doldu,
Qız-gəlinlərin al yanağı soldu,
Laçın, Laçın, mən sənə qurban, Laçın.

Çərənləsin düşmənlər neçə saat,
Başını yorma, bunu başından at,
Ordun sayəsində olarsan azad,
Laçın, Laçın, mən sənə qurban, Laçın.

Zəfər dastanını yazırıq artıq,
Düşmənə quyunu qazırıq artıq,
Yolunda ölümə hazırıq artıq,
Laçın, Laçın, mən sənə qurban, Laçın.

Yağılara güclü zərbə vururuq,
Düşmən qarşısında nərtək dururuq,

Onları "itiqovan"la qovuruq,
Laçın, Laçın, mən sənə qurban, Laçın.

Qoynunda həmişə türklər olublar,
Bu yerdə qədimdən məskən salıblar.
Qisasını düşmənindən alıblar,
Laçın, Laçın, mən sənə qurban, Laçın.

Sənin üçün artıq tökülür son qan,
Sənin üçün qurban gedir neçə can,
Çünki, axı, Sənsən bir Azərbaycan!
Laçın, Laçın, mən sənə qurban, Laçın!

Güləbirddə qanların izi vardır,
Mərd şəhid oğlanların izi vardır,
Burada düşmənə gen dünya dardır,
Laçın, Laçın, mən sənə qurban, Laçın.

Soltan bəyin qəhrəmanlıq simvolun,
Şücaət göstərib hər qızın-oğlun.
Düzlük, haqq-ədalət, mərdlikdir yolun,
Laçın, Laçın, mən sənə qurban, Laçın.

*09.11-01.12.2020*

## ŞƏYBƏY

Bizə dönməyin üçün göstərdik səy,
Sonunda bizə döndün, gözəl Şəybəy.
Deyirik biz: "Ey düşmən, başını əy",
Bizim gur səsimiz ol, gözəl Şəybəy.

Doğrular qaldı düz doğruluğunda,
Yalanlar 30 il "həqiqət" oldu.
Doğrandı doğru sənin torpağında,
Doğranan səndəki bir hikmət oldu.

Görürəm üzünü, qəlbim acıyır,
Çox solğunlaşmısan, incidilmisən.





Düşmən hələ də dişini qıcayır,
Sən isə onun adını silmisən.

Neçə Şəhidləri böyütmüşdün sən,
İndi də o Şəhidlərim anılır.
Bir vaxt burda "əski parçası" varkən,
İndi Üçrəngli Bayraq dalğalanır!

İlk dəfə görürəm solğun üzünü,
Üzün gizli həqiqət sandığıymış.
Uçulub-dağılan "ev sayılan şey",
Müasir ermoni memarlığıymış.

Təsəllidir qətliamlardan sonra,
Torpağını basan əsgər ayağı.
Sənsən yurdun əziz torpaqlarından,
Bu yurdun qanadı, elin dayağı.

Zəfərin bayramın edin, igidlər,
Bu an nə sevimli, nə gözəl andır!
Ölmədin, nənəm, sən bu günü gördün,
İndi de sən: "Şəybəy Azərbaycandır"!

Azadlığın üçün biz göstərdik səy,
Sonunda bizə döndün, gözəl Şəybəy.
Bizim idin, bizim də olacaqsan,
Əzəldən bizimsən sən, əzəl Şəybəy.

*08.10.2020*

## SUQOVUŞAN

*(Azadlığı uğruna neçə-neçə Azərbaycan igidləri öz canlarını fəda etməklə şəhidlik zirvəsinə ucalmış Tərtər rayonunun Suqovuşan yaşayış məntəqəsinin azad olunması münasibətilə)*

Səni azad etdik, dedik: "Düşmən, yan!",
Alındı qisasın, düşmənə qadan.
Yansın səni edən viran, həm talan,
Biz sənə qovuşduq, ay Suqovuşan.

Dözüm verdi bu qisas amalımız,
Bilirdik, olmazdıq biz Qarabağsız.
Yazlara bələndi bu payızımız,
Biz sənə qovuşduq, ay Suqovuşan.

Hazır olub sənin üçün səfərdə,
Sənliliyi öyrətdik hər bir fərdə,
İnnən belə batma kədərə, dərdə,
Biz sənə qovuşduq, ay Suqovuşan.

Xoş günlərin olacaq irəlidə,
Pis günlərin artıq qalıb geridə.
Qucaqlaş Vətənlə, şənlən bəridə,
Biz sənə qovuşduq, ay Suqovuşan.

Mənfurlar adını "madagiz" qoydu,
Elə bil sinəmdə köksümü oydu.
Onların zatı nə, soyu nə soydu?
"Yan"ları sən soysuz say, Suqovuşan.

Poladımın hər yerdə qalıb izi,
Həmişə anırıq biz Mübarizi.
Şəhidlər ucaltdı Vətənimizi,
Biz sənə qovuşduq, ay Suqovuşan.

Artıq sən azadsan, gəl buna sevin,
Artıq susma, gülə-gülə danış, din.





Qəlbin ovlamısan bu Sevindiyin,
Səni təbrik edir bir Azərbaycan,
Azadsan, sevinir bütün Türküstan,
Biz sənə qovuşduq, ay Suqovuşan.

*03.10.2020*

## YENİ İL

*(Müqəddəs Zəfərimizdən sonra gələn ilk yeni ilə həsr edilmişdir.)*

Dünyanı nurla mümkün qılacağıq,
Bəhərli il olacaqdır Yeni İl.
Zəfərdən zəfərə atılacağıq,
Zəfərli il olacaqdır Yeni İl.

Keçən il qazandıq bir Zəfəri biz,
Bunun üçün Şəhidlər qoydular iz,
Analar ağlayan günlərdə şəksiz,
Yeni İlin ilk günü keçdi səssiz.

Lakin Yeni İlə Zəfərli gəldik,
Böyük Qayıdışı bayram eylədik.
Şəhidləri də hər an xatırladıq,
Qəhrəmanlıq dastanları söylədik.

Şahlanışı, Zəfəri daim etmək,
Bu Xalqın, bu Yurdun öz əlindədir.
Olmaz Şəhidləri yaddaşdan silmək,
Bu xalqın başının üzərindədir.

Kəlbəcər, İstisu dolub-daşacaq,
Qarlara isti su çilənəcəkdir.
Üçrəngli Bayraq çox dalğalanacaq,
O bez parçaları çox enəcəkdir.

Tağlarda Mübariz məskən salacaq,
Bizim reallıq min illər qalacaq

Ərənim çox qisasları alacaq,
Xankəndimizdə himn səslənəcəkdir.

Qarabağın torpağına, daşına,
Havasına, qurusuna, yaşına,
Od ələyərək düşmənin başma,
Məkanın sahibləri gələcəkdir.

Qanadlandıq Xocalıya uçmağa,
Xocalının torpağını qucmağa,
Ürəyimiz çox dönəcəkdir dağa,
"Qarabağ Azərbaycandır!" deyəcəkdir!

Dünyanı nurla mümkün qılacağıq,
Bəhərli il olacaqdır Yeni İl.
Zəfərdən zəfərə atılacağıq,
Zəfərli il olacaqdır Yeni İl.

*01.01.2021*





# *Müəllif tərəfindən Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olmuş vətən oğulları barədə vikipediyada açılmış səhifələr.*

***Qeyd: Şəhidlərin təltifi ilə əlaqədar tam mətn məlumatları Azərbaycan Respublikası Prezidentinin rəsmi saytından, şəhidlər barədə digər məlumatlar isə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi saytında olduğu qaydada əldə edilməklə vikipediyada səhifə açılmışdır.***

***Kitabda şəhidlər barədə vikipediya səhifələri vikipediyada səhifənin açılma tarixi ardıcıllığı ilə verilmişdir.***

**1)Cavid Səfərli**



Cavid Xaliq oğlu Səfərli (31 may 1993; İmişli rayonu, Azərbaycan — 21 oktyabr 2020; Xocavənd rayonu, Azərbaycan) — Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Cavid Səfərli 1993-cü il mayın 31-də İmişli rayonunun Əliqulular kəndində anadan olub. 1999-2001-ci illərdə R.Məmmədov adına Əliqulular kənd tam orta məktəbində, 2001-2007-ci illərdə İmişli şəhərində N.Şirinov adına 5 nömrəli tam orta məktəbdə, 2007-2008-ci illərdə isə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. 2010-2014-cü illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil alıb.

*Hərbi xidməti*

Cavid Səfərli 2014-cü ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmət edirdi. 2016-2018-ci illərdə Abşeron rayonunda yerləşən 4-cü Ordu Korpusunda Moto-atıcı Briqadanın Bölüyünün Komandiri, 2018-2020-ci illərdə Qusar rayonunda yerləşən "N" saylı hərbi hissədə Bölüyün Komandiri, 2020-ci ildən isə Qusar rayonunda yerləşən "N" saylı hərbi hissədə Taborun Komandiri vəzifələrində xidmət edib.

*İkinci Qarabağ müharibəsində iştirakı*

Azərbaycan Ordusunun baş leytenantı olan Cavid Səfərli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılm, Hadrut qəsəbəsinin, Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Cavid Səfərli oktyabrın 21-də Xocavənd döyüşləri zamanı Düdükçü kəndi istiqamətində gedən döyüşlərdə şəhid olub. Uzun müddət nəşi tapılmayıb. Nəşi tapıldıqdan sonra 2020-ci ilin noyabrın 17-də İmişli rayonunun Əliqulular kəndində dəfn olunub.

Azərbaycamn ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Cavid Səfərli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamma əsasən Cavid Səfərli ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Cavid Səfərli ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Cavid Səfərli ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Cavid Səfərli ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

**2) Elsevər Paxırov**



Elsevər Eyvaz oğlu Paxırov (19 iyul 1997; Balakən, Azərbaycan–09 oktyabr 2020; Hadrut, Xocavənd rayonu, Azərbaycan) – Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının kiçik giziri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Elsevər Paxırov 1997-ci il iyulun 19-da Balakən şəhərində anadan olub. 2004-2015-ci illərdə Hənifə kənd tam orta məktəbində təhsil alıb. Subay idi.

*Hərbi xidməti*

Elsevər Paxırov 2015-2017-ci illərdə Dövlət Sərhəd Xidmətinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2017-ci ildən isə "kiçik gizir" hərbi rütbəsində xidmət edirdi.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının kiçik giziri olan Elsevər Paxırov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elsevər Paxırov oktyabrın 10-da Füzuli döyüşləri zamanı şəhid olub. Balakən şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elsevər Paxırov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman cəsarət göstərdiyinə, habelə qətiyyətli addımlar nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Elsevər Paxırov ölümündən sonra "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Elsevər Paxırov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.





**3) Azər Şəmilov**



Azər Elyas oğlu Şəmilov (13 avqust 1971, Qapanlı, Mirbəşir rayonu – 14 oktyabr 2020, Tərtər rayonu) — Azərbaycan Silahlı Qüvvələrinin leytenantı və hərbi tibb qulluqçusu, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Azər Şəmilov 1971-ci il avqustun 13-də Tərtər rayonunun Qapanlı kəndində anadan olub. 1978-1986-cı illərdə Soyulan kənd tam orta məktəbində, 1986-1988-ci illərdə isə Kimya-Biologiya Təmayüllü Liseydə təhsil alıb. 1994-2000-ci illərdə Azərbaycan Tibb Universitetində (ATU) ali təhsil alıb. Ailəli idi. 2 övladı yadigar qaldı.

*Hərbi xidməti*

1988-1990-cı illərdə Sovet Ordusunun sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 1991-1994-cü illərdə Birinci Qarabağ müharibəsində savaşıb.

Azərbaycan Ordusunun tibb xidməti leytenantı olan Azər Şəmilov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın və Talışın azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbçiləri döyüş meydanından çıxarıb.

Azər Şəmilov oktyabrın 14-də Talış döyüşləri zamanı şəhid olub. Bərdə rayonunun Kələntərli kəndində dəfn olunub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Azər Şəmilov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Azər Şəmilov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını və xidməti vəzifələrini yerinə yetirən zaman fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 30.12.2020-ci il tarixli Sərəncamına əsasən Azər Şəmilov ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edildi.

**4)Naim Ağayev**



Naim Süleyman oğlu Ağayev (29 avqust 1998; Saratov vilayəti, Rusiya Federasiyası – 30 oktyabr 2020– dəfn tarixi; Füzuli, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən Müharibəsinin şəhidi.

*Həyatı*

Naim Süleyman oğlu Ağayev 29 avqust 1998-ci ildə Rusiya Federasiyasının Saratov vilayətində dünyaya göz açmışdır. Əslən Ağcabədi rayonunun Muğanlı kəndindən

idi. 2004-cü ildə Azərbaycana köçən Naim elə həmin il Ağcabədi rayon Muğanlı kənd Sarvan Quliyev adına tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur.

*Hərbi xidməti*

Naim 2015-ci ildə orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanır. 2018-ci ilə qədər etdiyi hərbi xidmət müddətində təlimlərdə iştirak etmişdir.

Ordudan tərxis olunandan sonra O, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi 2020-ci ilin 7 iyununda yenidən ordu sıralarına çağırılır.

Azərbaycan Ordusunun əsgəri olan Naim Ağayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Naim Ağayev 30 oktyabr 2020-ci ildə Füzuli istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Naim Ağayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Naim Ağayev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Naim Ağayev ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

**5)Səid Cəfərov**



Səid Zəfər oğlu Cəfərov (4 fevral 1993; Xol Qarabucaq, Neftçala rayonu, Azərbaycan–9 noyabr 2020; Şuşa rayonu, Azərbaycan) –Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının baş çavuşu, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Səid Cəfərov 1993-cü il fevralın 4-də Neftçala rayonunun Xol Qarabucaq kəndində anadan olub. 1999-2010-cu illərdə İ. Səfərov adına Mürsəqulu kənd tam orta məktəbində təhsil alıb.

*Hərbi xidməti*

Səid Cəfərov 2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2013-cü ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi. 2013-2014-cü illərdə Daxili Qoşunların Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəsində, 2014-2017-ci illərdə Qazax rayonunda yerləşən "N" saylı hərbi hissəsində, 2017-ci ildən isə Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmət edirdi.





Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının baş çavuşu olan Səid Cəfərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə, həmçinin Füzulinin, Hadrut qəsəbəsinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Səid Cəfərov noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Səid Cəfərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi. Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Səid Cəfərov ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yerinə yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Səid Cəfərov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Səid Cəfərov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Səid Cəfərov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Səid Cəfərov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**6)Sahil Məmmədov**



Sahil Ədalət oğlu Məmmədov (12 iyul 1996; Ağcabədi rayonu, Azərbaycan – 25 oktyabr 2020; Qubadlı rayonu, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin giziri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Sahil Məmmədov 1996-cı il iyulun 12-də Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində anadan olub.

*Hərbi xidməti*

Azərbaycan Ordusunun giziri olan Sahil Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri

tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sahil Məmmədov oktyabrın 25-də Qubadlı döyüşləri zamanı şəhid olub. Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Sahil Məmmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Sahil Məmmədov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Sahil Məmmədov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Sahil Məmmədov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

**7)Saatmirzə Əzimov**



Saatmirzə Feyruz oğlu Əzimov (16 oktyabr 1997; Siyəzən, Azərbaycan – 17 dekabr 2020; Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Saatmirzə Əzimov 16 oktyabr 1997-ci ildə Siyəzən şəhərində anadan olmuşdur. 2003-2014-cü illərdə Siyəzən şəhər 6 saylı orta məktəbdə təhsil almışdır. Orta təhsil aldığı zaman 2006-2010-cu illərdə Siyəzən şəhər musiqi məktəbində qarmon üzrə kurs keçmişdir.

*Hərbi xidməti*

Saatmirzə Əzimov 2015-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət etmişdir. Döyüşlər zamanı 2016-cı ilin aprelin 2-dən 5-nə qədər davam edən Aprel döyüşlərində yaxından vuruşmuş, fərqlənmişdir.

2020-ci ilin iyul-sentyabr aylarında səfərbər olunan Saatmirzə Əzimov, sentyabr ayında hərbi xidmətə çağırılmışdır.





Azərbaycan Ordusunun əsgəri olan Saatmirzə Əzimov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Füzulinin, Cəbrayılın və Xocavəndin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 17 oktyabr 2020-ci ildə Xocavənd rayonunun Tuğ kəndində döyüş tapşırığının yerinə yetirilməsi zamanı beyni zədələnərək ağır yaralanmış və xəstəxanaya yerləşdirilmişdir. Saatmirzə Əzimov 17 dekabr 2020-ci ildə müalicə aldığı xəstəxanada şəhid olmuşdur. Saatmirzə Əzimovun nəşi Siyəzən şəhər qəbiristanlığında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Saatmirzə Əzimov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Saatmirzə Əzimov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Saatmirzə Əzimov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Saatmirzə Əzimov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

**8)Şirxan Quliyev**



Şirxan İsmixan oğlu Quliyev (2 sentyabr 1995; Xocavənd rayonu, Azərbaycan – 6 noyabr 2020; Şuşa rayonu, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin kiçik çavuşu, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Şirxan Quliyev 1995-ci il sentyabrın 2-də Xocavənd rayonunda anadan olub.

*Hərbi xidməti*

Şirxan Quliyev 2013-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Şirxan Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad

edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şirxan Quliyev noyabrın 6-da Şuşa döyüşləri zamanı şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Şirxan Quliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Şirxan Quliyev ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Şirxan Quliyev ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Şirxan Quliyev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Şirxan Quliyev ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**9) İsrayıl Cəfərzadə**



İsrayıl Namiq oğlu Cəfərzadə (30 sentyabr 2000; Sabunçu rayonu, Bakı, Azərbaycan – 16 oktyabr 2020; Suqovuşan, Tərtər, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

İsrayıl Cəfərzadə 30 sentyabr 2000-ci ildə Bakı şəhəri Sabunçu rayonunda anadan olmuşdur. Əslən Ağsu rayonundan idi. 2007-ci ildə Akif Qambayzadə adına Sabunçu rayon 148 nömrəli məktəbdə 1-ci sinfə daxil olmuşdur. O, 2016-cı ildə məktəbi bitirdikdən sonra Bakı Dövlət Peşə Təhsil Mərkəzində texnoloji qurğuların operatorluğu ixtisası üzrə təhsil almışdır. İsrayıl Cəfərzadə həm də sərbəst güləş idman növü ilə də məşğul olmuşdur. Rayonlararası keçirilən yarışlarda 1-ci, 2-ci və 3-cü yerləri tutaraq, müxtəlif diplomlar və medallarla təltif olunmuşdur.





*Hərbi xidməti*

O, təhsilini bitirdikdən sonra 2019-cu ilin 2 iyul tarixində hərbi xidmətə yollanmışdır. Hərbi xidmət zamanı da fəallığına görə müxtəlif məzmunlu fəxri fərmanlar və təşəkkürnamələrlə təltif olunan İsrayıl 2020-ci ilin 28 may tarixində çavuş rütbəsi almışdır.

***İkinci Qarabağ müharibəsində iştirakı***

Azərbaycan Ordusunun əsgəri olan İsrayıl Cəfərzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 16 oktyabr 2020-ci ildə Tərtər rayonunun Suqovuşan qəsəbəsi istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Bakıxanov qəsəbəsində yerləşən Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən İsrayıl Cəfərzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən İsrayıl Cəfərzadə ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən İsrayıl Cəfərzadə ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**10) Ruslan Nəbiyev**



Ruslan Muhuma oğlu Nəbiyev (16 iyul 1996; Danaçı, Zaqatala rayonu – 8 dekabr 2020; Tərtər rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Ruslan Nəbiyev 1996-cı il iyulun 16-da Zaqatala rayonunun Danaçı kəndində dünyaya göz açıb. 2002-2013-cü illərdə 1 nömrəli Danaçı kənd tam orta məktəbində təhsil alıb.

*Hərbi xidməti*

Ruslan Nəbiyev 2014-cü ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb.

2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət edib.

***İkinci Qarabağ müharibəsindəki iştirakı***

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Ruslan Nəbiyev 2020-ci il sentyabrın

27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşan və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq iştirak edib.

Ruslan Nəbiyevlə Suqovuşan döyüşlərindən sonra əlaqə saxlamaq mümkün olmayıb. Dekabrın 8-də şəhid olduğu müəyyənləşib. Zaqatala rayonunun Danaçı kəndində torpağa tapşırılıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etdiyi və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli sərəncamına əsasən Əsgər Ruslan Nəbiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Ruslan Nəbiyev ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**11) Hüseyn İsmayılov**



Hüseyn Fərman oğlu İsmayılov (26 iyun 1996; Qayabaşı, Şəki rayonu, Azərbaycan –5 noyabr 2020; Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Hüseyn İsmayılov 26 iyun 1996-cı ildə Şəki rayonunun Qayabaşı kəndində anadan olmuşdur. İlk təhsilini doğulduğu kənddə alıb. Ailəli idi, 2 övladı yadigar qaldı.

*Hərbi xidməti*

2008-ci ildə hərbi xidmətə yollanan Hüseyn hərbi xidmət müddətində Aprel döyüşlərində də iştirak etmişdir. O, 21 yaşında, 2017-ci ildə MAHHXHQ əsgər olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Hüseyn İsmayılov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Cəbrayılın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Döyüşlərdə ağır yara aldığına görə xəstəxanaya yerləşdirilsə də, 4 noyabr tarixində yenidən döyüş meydanına qayıtmışdır. 1 gün sonra 5 noyabr 2020-ci ildə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etdiyi və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli sərəncamına əsasən əsgər Hüseyn İsmayılov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş





əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Hüseyn İsmayılov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Hüseyn İsmayılov ölümündən sonra "Xocavəndin azad olunmasma görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarma qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Hüseyn İsmayılov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Hüseyn İsmayılov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

**12) Şöhrət Qasımov**



Şöhrət Şakir oğlu Qasımov (16 avqust 1992; Gədəbəy rayonu, Azərbaycan – 29 sentyabr 2020; Suqovuşan, Tərtər rayonu, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı, Tibb xidməti rəisi, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Şöhrət Qasımov 16 avqust 1992-ci ildə Gədəbəy rayonunda anadan olmuşdur. İlk təhsilini 1998-ci ildə Sumqayıt şəhəri 18 saylı tam orta məktəbdə alan Şöhrət 2009-cu ildə Sumqayıt şəhərində yerləşən Cəbrayıl rayonu 5 saylı orta məktəbi bitirmişdir. Həmin il Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinə daxil olmuşdur.

*Ailəsi*

2016-cı ildə Türkan Qasımzadə ilə ailə həyatı qurub. Murad və İlayda adlı 2 övladı yadigar qalıb.

*Hərbi xidməti*

Universiteti müvəffəqiyyətlə bitirdikdən sonra Müdafiə Nazirliyinin Yevlax rayonunda yerləşən N saylı hərbi hissəsində xidmətə başlamışdır. 3 ay sonra Tərtər rayonunun ön xətdə yerləşən hərbi hissəsində xidmətini davam etdirmişdir. Hərbi tibb qulluqçusu olmuş və qısa zamanda tibb xidməti baş leytenantı rütbəsinə yüksəlmişdir.

2018-ci ildə Şöhrət Qasımova baş leytenant rütbəsi verilmişdir. Qısa zamanda tibb xidməti rəisi vəzifəsinə təyin olunub. Xidməti dövründə nümunəvi zabit və savadlı həkim kimi hər kəsin rəğbətini qazanmışdır. Hərbi xidməti dövründə bir çox fəxri fərmanlar və təşəkkürnamələr ilə təltif edilmişdir.

*Aprel döyüşlərində iştirakı*

2016-cı ilin 2-5 aprelində baş verən Aprel döyüşlərinin iştirakçısı olmuşdur.

***İkinci Qarabağ müharibəsində iştirakı***

Azərbaycan Ordusunun baş leytenantı olan Şöhrət Qasımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində gedən döyüşlərdə iştirak edərək şücaət göstərmişdir. 29 sentyabrda hərbi həkim baş leytenant Şöhrət Qasımov şəhid olmuşdur.

9 oktyabr 2020-ci ildə Sumqayıt Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Şöhrət Qasımov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarının rəhbəri olan, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində rəşadət göstərən, vəzifə borcunu ləqayətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Şöhrət Qasımov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Şöhrət Qasımov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**13) Nəcməddin Bədirov**



Nəcməddin Nurəddin oğlu Bədirov (8 noyabr 2001; Düz Qırıqlı, Tovuz rayonu, Azərbaycan –10 oktyabr 2020; Füzuli rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Nəcməddin Bədirov 2001-ci il noyabrın 8-də Tovuz rayonunun Düz Qırıqlı kəndində anadan olub. 2007–2018-ci illərdə Düz Qırıqlı kənd tam orta məktəbində təhsil alıb. Subay idi. Nəcməddin Bədirovun əmisi Polad Bədirov Birinci Qarabağ müharibəsi zamanı Füzuli rayonu istiqamətində gedən döyüşlərdə şəhid olmuşdu.

*Hərbi xidməti*

Nəcməddin Bədirov 2019-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu idi. Hərbi xidmət müddətində nümunəvi əsgər olduğuna görə üç tərifnamə alıb.





***İkinci Qarabağ müharibəsindəki iştirakı***

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Nəcməddin Bədirov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nəcməddin Bədirov 10 oktyabr 2020-ci ildə Füzuli rayonunun Qaraxanbəyli kəndi istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirən zaman şəhid olub. Nəcməddin Bədirov bir müddət itkin kimi axtarılıb. Noyabrın 23-də şəhid olduğu təsdiqlənib. Tovuz rayonunun Düz Qırıqlı kəndində dəfn edilib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Nəcməddin Bədirov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Nəcməddin Bədirov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman mərdlik və igidlik göstərdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Nəcməddin Bədirov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

**14) Akif Bəşirov**



Akif Vahid oğlu Bəşirov (8 noyabr 1988; Soyuqbulaq, Ağstafa rayonu – 3 oktyabr 2020; Tərtər rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Akif Bəşirov 1988-ci il noyabrın 8-də Ağstafa rayonunun Soyuqbulaq qəsəbəsində dünyaya göz açıb. 1995–2006-cı illərdə M. Omarov adına Soyuqbulaq qəsəbə tam orta məktəbində təhsil alıb.

*Hərbi xidməti*

Akif Bəşirov 2007–2008-ci illərdə Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətdə olub.

***İkinci Qarabağ müharibəsində iştirakı***

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Akif Bəşirov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq savaşıb. Akif Bəşirov oktyabrın 3-də Suqovuşan döyüşləri zamanı snay-

per gülləsinə tuş gələrək şəhid olub. Ağstafa rayonunun Soyuqbulaq qəsəbəsində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Akif Bəşirov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Akif Bəşirov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Akif Bəşirov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

**15) Sakit Allahverdiyev**



Sakit Şahin oğlu Allahverdiyev (24 dekabr 2001; Tatlı, Ağstafa rayonu, Azərbaycan – 09 noyabr 2020; Şuşa, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Sakit Allahverdiyev 24 dekabr 2001-ci ildə Ağstafa rayonunun Tatlı kəndində dünyaya göz açmışdır. 2007-2018-ci illərdə Qazax rayon Elşən Cəfərov adına Çaylı kənd 2 nömrəli tam orta məktəbdə təhsil almışdır.

*Hərbi xidməti*

2020-ci ilin yanvar ayında Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırılmışdır. Hərbi xidmət müddətində Sakit təlim tapşırıqlarını yerinə yetirmiş, hərbi təlim toplantılarına qatılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Sakit Allahverdiyev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Cəbrayılın və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Sakit Allahverdiyev Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşur. 09 noyabr 2020-ci ildə Çaylı kəndinin qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına





qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Sakit Allahverdiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını və xidməti vəzifələrini yerinə yetirən zaman fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 30.12.2020-ci il tarixli Sərəncamına əsasən Sakit Allahverdiyev ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Sakit Allahverdiyev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Sakit Allahverdiyev ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.

**16) Əbil Cəbizadə**



Əbil Qadir oğlu Cəbizadə (26 fevral 1993; Sumqayıt, Azərbaycan – 14 oktyabr 2020; Zoğalbulaq, Xocavənd rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Əbil Cəbizadə 26 fevral 1993-cü ildə Sumqayıt şəhərində dünyaya göz açmışdır. 2000-ci ildə Sumqayıt şəhərinin Corat qəsəbəsində yerləşən 7 nömrəli tam orta məktəbin birinci sinfinə daxil olmuşdur. 2011-ci ildə əla qiymətlərlə məktəbi bitirən Əbil həmin ildə də Azərbaycan Dövlət İqtisad Universitetinin Texnologiya və Dizayn fakültəsinə daxil olmuşdur. 2015-ci ilə qədər burada çox işlənən malların texnologiyası və dizaynı ixtisasında təhsil almışdır.

*Hərbi xidməti*

Universiteti bitirdikdən sonra Əbil Cəbizadə hərbi xidmətə yollanmışdır. Silahla mükəmməl davranışına görə baş atıcı vəzifəsinə təyin olunmuşdur. Bir əsgər olaraq Əbil Aprel döyüşlərində də iştirak etmiş, döyüş tapşırıqlarını böyük uğurla yerinə yetirmişdir. Bu döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə O, dəfələrlə fəxri fərmanlarla və təşəkkürnamələrlə təltif edilmişdir. 2016-cı ilin oktyabr ayında hərbi xidmətini başa vurmuşdur.

Əbil Cəbizadə 2020-ci ilin 21 sentyabrında "Hərbi vəzifə və hərbi xidmət haqqında" və "Səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq təlim və məşq toplantısına çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Əbil Cəbizadə 2020-ci il sentyabrın 27-dən Azər-

baycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Xudafərin körpüsünün azad olunmasında böyük şücaət göstərmişdir. Ailəsi ilə sonuncu dəfə 12 oktyabrda əlaqə saxlayan Əbil Cəbizadə 14 oktyabr 2020-ci ildə Xocavənd rayonunun Zoğalbulaq kəndi istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Əbil Cəbizadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Əbil Cəbizadə ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Əbil Cəbizadə ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

**17) Abbas Əliyev**



Abbas Salam oğlu Əliyev (9 yanvar 1988; Sabunçu rayonu, Azərbaycan SSR – 2 noyabr 2020; Xocavənd rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Abbas Əliyev 1988-ci il yanvarın 9-da Sabunçu rayonunun Ramana qəsəbəsində anadan olub. 1992-2003-cü illərdə R. Zorge adına 90 nömrəli tam orta məktəbdə təhsil alıb.

*Hərbi xidməti*

Azərbaycan Ordusunun əsgəri olan Abbas Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Abbas Əliyev noyabrın 2-də Xocavənd döyüşləri zamanı şəhid olub. Ramana qəsəbəsində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Abbas Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Abbas Əliyev ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Abbas Əliyev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

**18) Əkbər Mustafayev**



Əkbər Natiq oğlu Mustafayev (2 iyul 2000; Bərdə rayonu, Azərbaycan –10 oktyabr 2020; Hadrut, Xocavənd rayonu, Azərbaycan) –Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının kiçik giziri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Əkbər Mustafayev 2000-ci il iyulun 2-də Bərdə rayonunun Mirzəxan Qaraqoyunlu kəndində anadan olub. Subay idi.

*Hərbi xidməti*

Əkbər Mustafayev 2018-2020-ci illərdə Dövlət Sərhəd Xidmətinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci ildən isə "gizir" hərbi rütbəsində xidmət edirdi.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının kiçik giziri olan Əkbər Mustafayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Əkbər Mustafayev oktyabrın 10-da Hadrut döyüşləri zamanı şəhid olub. Bərdə rayonunda dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Əkbər Mustafayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman cəsarət göstərdiyinə, habelə qətiyyətli addımlar nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Əkbər Mustafayev ölümündən sonra "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Əkbər Mustafayev ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

**19) Sərxan Muxtarov**



Sərxan İlqar oğlu Muxtarov (26 iyun 1988; Sarıqamış, Xanlar rayonu, Azərbaycan SSR–12 yanvar 2021; Qubadlı, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin mayoru, Vətən müharibəsi iştirakçısı.

*Həyatı*

Sərxan Muxtarov 26 iyun 1988-ci ildə Xanlar rayonunun (indi Samux rayonuna aiddir) Sarıqamış kəndində anadan olmuşdur. 2005-ci ildə Gəncə şəhər 36 nömrəli tam orta məktəbi bitirmişdir. 2005-2009-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil almışdır.

*Hərbi xidməti*

Sərxan Muxtarov 2009-cu ildə "Motoatıcı" ixtisası üzrə ali hərbi təhsilini aldıqdan sonra leytenant ilkin hərbi zabit rütbəsi almışdır.

Vətən müharibəsi dövründə mayor Sərxan Muxtarov Müdafiə Nazirliyinin müxtəlif hərbi hissələrinin tərkibində Ağcabədi, Ağdam, Qazax, Qubadlı və Sərhəd Qoşunlarında hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun mayoru olan Sərxan Muxtarov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Cəbrayılın, Qubadlının, Laçının və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur.

Vətən müharibəsi bitdikdən sonra Qubadlı rayonunda xidmətini davam etdirən tabor komandiri Sərxan Muxtarov 12 yanvar 2021-ci ildə həmin yerdə vəzifə başında minaya düşərək şəhid olmuşdur. Sürücüsü əsgər Məcid Səfərov isə həmin hadisədə ağır yaralanmış və xəstəxanaya yerləşdirilmişdir.

Sərxan Muxtarov Gəncə Şəhidlər Xiyabanında dəfn edilmişdir. Dəfn mərasimində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş konsulu Zeki Öztürk, hüquq-mühafizə orqanlarının rəhbərləri, digər rəsmilər və şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər. N.Bayramov şəhid Sərxan Muxtarovun atasına üçrəngli dövlət bayrağını təqdim edib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Sərxan Muxtarov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Sərxan Muxtarov ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.





**20) Süleyman Bağırov**



Süleyman Kamil oğlu Bağırov (20 yanvar 1995; Qubalıbalaoğlan, Hacıqabul rayonu, Azərbaycan –8 noyabr 2020; Şuşa, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı və hərbi xidməti*

Əsgər Süleyman Bağırov 20 yanvar 1995-ci ildə Hacıqabul rayonunun Qubalıbalaoğlan kəndində dünyaya göz açmışdır. İlk təhsilini doğulduğu kəndin məktəbində alan Süleyman məktəbi bitirdikən sonra 2013-cü ildə hərbi xidmətə yollanmışdır. Hərbi xidmət müddətini bitirdikdən sonra evə qayıtmış, burada ailə həyatı qurmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Süleyman Bağırov 27 sentyabr 2020-ci ildən başlayan Vətən Müharibəsində iştirak etmişdir. Füzulinin, Cəbrayılın, Hadrutun, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 8 noyabr 2020-ci ildə Şuşa istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Süleyman Bağırov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Süleyman Bağırov ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Süleyman Bağırov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Süleyman Bağırov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**21) Qara Balakişiyev**



Qara Əmirxan oğlu Balakişiyev (11 iyul 1994, Əmiralılar, Xocavənd rayonu – 27 sentyabr 2020, Füzuli rayonu) – Azərbaycan Silahlı Qüvvələrinin kiçik çavuşu, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Qara Balakişiyev 1994-cü il iyulun 11-də Xocavənd rayonunda anadan olub. Ailəli idi. 2 qızı yadigar qaldı.

*Hərbi xidməti*

Qara Balakişiyev 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2014-cü ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət edirdi.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Qara Balakişiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Qara Balakişiyev sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Xocavənd qəsəbəsində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Qara Balakişiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Qara Balakişiyev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Qara Balakişiyev ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamma əsasən Qara Balakişiyev ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.





**22) Zülfüqar Fərəcov**



Zülfüqar Müseyib oğlu Fərəcov (27 aprel 1977; Xocavənd, Azərbaycan SSR – 28 sentyabr 2020; Füzuli rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin kiçik çavuşu, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Zülfüqar Fərəcov 1977-ci il aprelin 27-də Xocavənd rayonunun Əmiranlar kəndində anadan olub. Ailəli idi. Bir övladı yadigar qaldı.

*Hərbi xidməti*

Zülfüqar Fərəcov 1996-1998-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2014-cü ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət edirdi.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Zülfüqar Fərəcov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Zülfüqar Fərəcov sentyabrın 28-də Füzuli döyüşləri zamanı Yuxarı Əbdürrəhmanlı istiqamətində şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Zülfüqar Fərəcov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Zülfüqar Fərəcov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Zülfüqar Fərəcov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

**23) Elmin Mirzəyev**



Elmin Əvəz oğlu Mirzəyev (20 fevral 1995; Xocavənd rayonu, Azərbaycan – 2 oktyabr 2020; Füzuli rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin çavuşu, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Elmin Mirzəyev 1995-ci il fevralın 20-də Xocavənd rayonunda anadan olub. Əslən Xocavənd rayonunun Əmiranlar kəndindən idi. Ailəli idi. 2 övladı yadigar qaldı.

*Hərbi xidməti*

Elmin Mirzəyev 2013-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2015-ci ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycan Ordusunun çavuşu olan Elmin Mirzəyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elmin Mirzəyev oktyabrın 2-də Füzuli döyüşləri zamanı şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elmin Mirzəyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Elmin Mirzəyev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yerinə yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elmin Mirzəyev ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elmin Mirzəyev ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elmin Mirzəyev ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.





**24) Xəyal Namazov**



Xəyal Xudaverdi oğlu Namazov (23 may 1986; Füzuli, Azərbaycan SSR –3 oktyabr 2020; Füzuli rayonu, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin çavuşu, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Xəyal Namazov 1986-cı il mayın 23-də Füzuli şəhərində anadan olub. Əslən Xocavənd rayonundan idi. Ailəli idi. 2 övladı yadigar qaldı.

*Hərbi xidməti*

Xəyal Namazov 2006-2008-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2014-cü ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət edirdi.

Azərbaycan Ordusunun çavuşu olan Xəyal Namazov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xəyal Namazov oktyabrın 3-də Füzuli döyüşləri zamanı şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Xəyal Namazov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Xəyal Namazov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamma əsasən Xəyal Namazov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

**25) Tural Abdullayev**



Tural Bəylər oğlu Abdullayev (2 fevral 1993; Xocavənd rayonu, Azərbaycan – 24 oktyabr 2020; Füzuli rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin kiçik giziri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Tural Abdullayev 2 fevral 1993-cü ildə Xocavənd rayonunda anadan olub. Əslən Xocavənd rayonunun Tuğ kəndindən idi.

*Hərbi xidməti*

Tural Abdullayev 2010-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2012-ci ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycan Ordusunun kiçik giziri olan Tural Abdullayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tural Abdullayev oktyabrın 24-də Füzuli döyüşləri zamanı şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Tural Abdullayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Tural Abdullayev ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Tural Abdullayev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Tural Abdullayev "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

**26) Sahil Hüseynov**



Sahil Habil oğlu Hüseynov (12 iyun 2001; Xocavənd, Ağcabədi rayonu, Azərbaycan – 9 noyabr 2020; Aşağı Seyidəhmədli, Füzuli rayonu, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Əsgər Sahil Hüseynov 12 iyun 2001-ci ildə Ağcabədi rayonunun Xocavənd kəndində dünyaya göz açmışdır. Əslən Xocavənd rayonundandır. İlk təhsilini kəndin 1 saylı tam orta məktəbində almışdır. Ailəli idi.

*Hərbi xidməti*

Sahil Hüseynov 2019-cu ildə həmin məktəbi bitirmiş və hərbi xidmətə yollanmışdır. 2020-ci ilin 12 iyulundan





başlayan Tovuz döyüşlərində Sahil də iştirak etmiş, döyüş tapşırığını yerinə yetirmişdir.

27 sentyabr 2020-ci ildən başlayan Vətən Müharibəsində də iştirak edən əsgər Sahil Hüseynov xüsusilə, Füzuli döyüşlərində iştirak edərək döyüş tapşırığını yerinə yetirmişdir. O, 11 oktyabr 2020-ci ildə Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndində düşmənin minaatandan açdığı güllə nəticəsində şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Sahil Hüseynov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyi, sona qədər döyüşdüyü və tapşırıqların yerinə yetirilməsində fərqləndiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli sərəncamına əsasən Sahil Hüseynov ölümündən sonra "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilmişdir.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Sahil Hüseynov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

**27) Elzamin Tağıyev**



Elzamin Eyvaz oğlu Tağıyev (11 avqust 1992; Qaradağlı, Xocavənd rayonu, Azərbaycan – 9 noyabr 2020; Şuşa, Şuşa rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Elzamin Tağıyev 11 avqust 1992-ci ildə Xocavənd rayonunun Qaradağlı kəndində dünyaya göz açmışdır. Elzamin ilk təhsilini Xocavənd rayon Salakətin kənd tam orta məktəbində almışdır.

*Hərbi xidməti*

Elzamin Tağıyev 2010-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli, 2020-ci ildən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycan Ordusunun əsgəri olan Elzamin Tağıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Cəbrayılın, Hadrutun, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Elzamin Tağıyev 9 noyabr 2020-ci ildə Şuşada döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il ta-

rixli Sərəncamma əsasən Elzamin Tağıyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Qubadlı şəhərinin işğaldan azad olunmasına görə gedən döyüşlərdə xüsusi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Elzamin Tağıyev ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elzamin Tağıyev "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elzamin Tağıyev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elzamin Tağıyev ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

*Ailəsi*

Atası Eyvaz Həsrət oğlu Tağıyev Qarabağ müharibəsində iştirak etmiş, Xocavənd rayonunun Qaradağlı kəndinin müdafiəsində döyüş tapşırığını yerinə yetirmişdir. Həmin kəndin müdafiəsi uğrunda onun babası, dayısı və qohumları döyüşmüş və şəhid olmuşlar.

**28) Ramazan Göydağlı**



Ramazan Əbülfət oğlu Göydağlı (4 fevral 1997; Kırna, Culfa rayonu, Azərbaycan – 28 oktyabr 2020; Yuxarı Yağlıvənd, Füzuli rayonu, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin MAHHXHQ əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı və hərbi xidməti*

Ramazan Göydağlı 4 fevral 1997-ci ildə Culfa rayonunun Kırna kəndində dünyaya göz açmışdır. "Göydağlı" soyadı ona Ordubad rayonunun Nürgüt kəndindəki Göydağın şərəfinə verilmişdir.

İlk təhsilini 2003-cü ildə Culfa rayon Kırna kənd tam orta məktəbində alan Ramazan 2014-cü ildə həmin məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanmışdır. 2016-cı ildə hərbi xidməti bitirmiş və bir sıra fərqli sahələrdə işləməyə başlamışdı. O, bu müddət ərzində Azərbaycanda, həmçinin Türkiyə və Qazaxıstanda da müxtəlif işlər üzrə təcrübə qazanmışdır.

Neçə illik iş təcrübəsindən sonra 2020-ci ilin 5 sentyabrında Ramazan Göydağlı





MAHHXHQ əsgər olmuş, bununla da hərbi fəaliyyətinə yenidən başlamışdır. 27 sentyabr 2020-ci ildən başlayan Vətən Müharibəsi vaxtı hərbi kursu təzəcə bitirən MAHHXHQ əsgər Ramazan Göydağlı 15 oktyabrdan döyüşlərə və hərbi əməliyyatlara başlamışdır. Füzuli, Cəbrayıl, Hadrut və Qubadlı uğrunda döyüşlərdə döyüş tapşırığını yerinə yetirmişdir. MAHHXHQ əsgər Ramazan Göydağlı 28 oktyabr 2020-ci ildə Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndi uğrunda gedən döyüşlərdə Şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Ramazan Göydağlı ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Ramazan Göydağlı ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Ramazan Göydağlı ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

**29) Ağababa Abasov**



Ağababa Səfər oğlu Abasov (14 mart 2002; Uzunboyad, Şabran rayonu, Azərbaycan – 29 sentyabr 2020; Füzuli rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı və hərbi xidməti*

Ağababa Abasov 14 mart 2002-ci ildə Şabran rayonunun Uzunboyad kəndində dünyaya göz açmışdır. Uzunboyad kənd məktəbində orta təhsil almışdır. Sabirabad Dövlət Sosial-İqtisadi Kollecində təhsilini davam etdirmişdir.

*Hərbi xidməti*

Ağababa Abasov kolleci bitirdikdən sonra hərbi xidmətə yollanmışdır. Hərbi xidmət müddətinin ilk beş ayını Ağcabədidə N saylı hərbi hissədə davam etdirdikdən sonra sentyabr ayında təlimlərə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Ağababa Abasov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində kəşfiyyat qrupunun manqa komandiri olaraq iştirak etmişdir. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Ağababa Abasov 29 sentyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən yanında mərmi partlaması nəticəsində şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Ağababa Abasov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Ağababa Abasov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarım yerinə yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Ağababa Abasov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamma əsasən Ağababa Abasov ölümündən sonra "Xocavəndin azad olunmasma görə" medalı ilə təltif edildi.

### 30) Əzizağa Hüseynov



Əzizağa Nizami oğlu Hüseynov (1 fevral 1999, Bozavand, Ağsu rayonu – 16 oktyabr 2020, Ağdərə, Tərtər rayonu) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Əzizağa Hüseynov 1 fevral 1999-cu ildə Ağsu rayonunun Bozavand kəndində dünyaya göz açmışdır. İlk təhsilini 2005-ci ildən Ağsu rayon Natiq Mirzəliyev adına Ağarx kənd tam orta məktəbində alan Əzizağa 2016-cı ildə həmin məktəbin 11-ci sinfini bitirmişdir.

*Hərbi xidməti*

Əzizağa Hüseynov 2017-ci ildə hərbi xidmətə yollanmış, Şəmkirdəki hərbi xidmət müddətini 2018-ci ildə başa vurmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Əzizağa Hüseynov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Əzizağa Hüseynov 16 oktyabr 2020-ci ildə Ağdərə istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Əzizağa Hüseynov ölümündən sonra "Vətən uğrunda" medalı





ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Əzizağa Hüseynov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Əzizağa Hüseynov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

### 31) Kənan İsrafilov



Kənan Faiq oğlu İsrafilov (8 noyabr 1990; Şirinbulaq, Şəki rayonu, Azərbaycan –5 oktyabr 2020; Suqovuşan, Tərtər rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin kapitanı, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Kənan İsrafilov 8 noyabr 1990-cı ildə Şəki rayonunun Şirinbulaq kəndində dünyaya göz açmışdır.

*Hərbi xidməti*

Cəmşid Naxçıvanski adına hərbi liseydən məzun olan Kənan 2008-2012-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirmişdir. 2013-2018-ci illərdə Murovdağda komandir vəzifəsini icra etmişdir. Sonra isə 2018-ci ildən qərargah rəisi kimi fəaliyyətini davam etdirmişdir. 2018-ci ildə Müdafiə Nazirliyinin Hərbi Akademiyasında təhsilini davam etdirən Kənan 2020-ci ilin iyun ayından Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində tabor komandiri kimi fəaliyyətini davam etdirmişdir.

27 sentyabr 2020-ci ildən başlayan Vətən Müharibəsində kapitan Kənan İsrafilov tabor komandiri olaraq iştirak etmişdir. Füzulinin, Cəbrayılın və Suqovuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirən kapitan Kənan İsrafilov 5 oktyabr 2020-ci ildə Suqovuşan istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Kənan İsrafilov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını və xidməti vəzifələrini yerinə yetirən zaman fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 30.12.2020-ci il tarixli Sərəncamına əsasən Kənan İsrafilov ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan dö-

yüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Kənan İsrafilov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**32) Rövşən Pənahov**



Rövşən Mahmud oğlu Pənahov (2 oktyabr 1989; Birinci Şıxlı, Qazax rayonu – 2 oktyabr 2020; Kəlbəcər rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin kapitanı, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Rövşən Pənahov 1989-cu il oktyabrın 2-də Qazax rayonunun Birinci Şıxlı kəndində dünyaya göz açıb.

1995-2006-cı illərdə M.Həsənov adına Birinci Şıxlı kənd tam orta məktəbində, 2006-2010-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) təhsil alıb.

Ailəli idi. Bir qızı, bir oğlu yadigar qaldı.

*Hərbi xidməti*

Rövşən Pənahov xidmət illəri ərzində "Qüsursuz xidmətə görə", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" və "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" medalları ilə təltif edilib.

2016-cı ilin aprel ayının 1-də başlayan və 5-də bitən Dördgünlük müharibədə iştirak edib. Aprel döyüşlərindəki xidmətinə görə "kapitan" hərbi rütbəsi alıb.

Azərbaycan Silahlı Qüvvələrinin kapitanı olan Rövşən Pənahov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Rövşən Pənahov oktyabrın 2-də Murovdağ döyüşləri zamanı şəhid olub. Qazax rayonunun Birinci Şıxlı kəndində torpağa tapşırılıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Rövşən Pənahov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən şəxsi mərdlik və igidlik göstərdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Rövşən Pənahov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Rövşən Pənahov ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.





**33) Roman Pənahov**



Roman Sərkər oğlu Pənahov (30 avqust 1995, Yenilik, Ağsu rayonu – 4 noyabr 2020, Daşaltı, Şuşa rayonu) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Roman Pənahov 30 avqust 1995-ci ildə Ağsu rayonunun Yenilik kəndində dünyaya göz açmışdır. Milliyyətcə ləzgi idi. İlk təhsilini 2001-ci ildə C.Xıdırov adına Ağsu rayonu Yenilik kənd tam orta məktəbində alan Roman 2011-ci ildə həmin məktəbin 9-cu sinfini bitirmişdir. Həmin il sənədlərini Şamaxı Sənaye-İqtisad kollecinə verərək ora daxil olmuşdur. Təhsil müddətini bitirdikdən sonra hərbi xidmətə yollanmışdır. Hərbi xidməti başa vurduqdan sonra doğulduğu kəndə qayıdıb burada təsərrüfat işləri ilə məşğul olmuşdur.

*Hərbi xidməti*

Azərbaycan Ordusunun əsgəri olan Roman Pənahov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Cəbrayılın, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Roman Pənahov 4 noyabr 2020-ci ildə Şuşa rayonunun Daşaltı kəndi istiqamətində şəhid olmuşdur. 10 noyabr 2020-ci ildə Ağsu rayonu Yenilik kənd qəbiristanlığında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Roman Pənahov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Roman Pənahov ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Roman Pənahov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Roman Pənahov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əmə-

liyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Roman Pənahov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**34) Vaqif İsmayılzadə**



Vaqif Vüqar oğlu İsmayılzadə (6 noyabr 1996; Şahsevən, Beyləqan rayonu – 21 oktyabr 2020; Füzuli rayonu, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri (müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu), Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Vaqif İsmayılzadə 1996-cı il noyabrın 6-da Beyləqan rayonunun Şahsevən kəndində anadan olub. Əslən Cəbrayıl rayonundan idi.

*Hərbi xidməti*

Vaqif İsmayılzadə 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2017-ci ildən isə Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsində çalışırdı.

Azərbaycan Ordusunun əsgəri olan Vaqif İsmayılzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vaqif İsmayılzadə oktyabrın 21-də Füzuli döyüşləri zamanı şəhid olub. Beyləqan rayonunda dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Vaqif İsmayılzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Vaqif İsmayılzadə ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Vaqif İsmayılzadə ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.





**35) Tural Bayramlı**



Tural Ədil oğlu Bayramlı (10 fevral 1996; Beyləqan rayonu, Azərbaycan – 4 noyabr 2020; Şuşa rayonu, Azərbaycan) –Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Tural Bayramlı 1996-cı il fevralın 10-da Beyləqan rayonunun Şərq qəsəbəsində anadan olub. Əslən Cəbrayıl rayonunun Daş Veysəlli qəsəbəsindən idi. Subay idi.

*Hərbi xidməti*

Tural Bayramlı 2014-2016-cı illərdə müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı ildən Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının əsgəri olan Tural Bayramlı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin, Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tural Bayramlı noyabrın 4-də Şuşa döyüşləri zamanı şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Tural Bayramlı ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Tural Bayramlı ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**36) Rafiq İbadov**



Rafiq Baloğlan oğlu İbadov (14 avqust 1965; Zəngilan, Azərbaycan SSR –29 sentyabr 2020; Tərtər rayonu, Azərbaycan) – tank mexaniki vəzifəsində çalışan Azərbaycan Silahlı Qüvvələrinin ehtiyatda olan əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Rafiq İbadov 1965-ci il avqustun 14-də Zəngilan şəhərində anadan olub. Ailəli idi. Üç övladı yadigar qaldı.

*Hərbi xidməti*

Rafiq İbadov uzun illər Azərbaycan Silahlı Qüvvələrinin Tank və Artilleriya bölmələrinin heyətində tank mexaniki vəzifəsində çalışırdı.

Azərbaycan Ordusunun ehtiyatda olan əsgəri Rafiq İbadov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər-Suqovuşan-Talış istiqamətlərində gedən döyüşlər zamanı Azərbaycan Silahlı Qüvvələrinin tanklarınm saz vəziyyətə gətirilməsində xidməti olan bölmələrin heyətində yer alıb. Rafiq İbadov sentyabrın 29-da Tərtər rayonu ərazisində şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Rafiq İbadov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**37) Elşən Quluzadə**



Elşən Qulu oğlu Quluzadə (20 oktyabr 1998; Füzuli rayonu, Azərbaycan – 21 yanvar 2021; Bakı, Azərbaycan) – Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşu, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Elşən Quluzadə 1998-ci il oktyabrın 20-də Füzuli rayonunun İkinci Mahmudlu kəndində anadan olub.

*Hərbi xidməti*

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşu olan Elşən Quluzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elşən Quluzadə oktyabrın 13-də Füzuli döyüşləri zamanı ağır yaralanıb və tibb müəssisəsinə yerləşdirilib.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Elşən Quluzadə "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Elşən Quluzadə "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Elşən Quluzadə 2021-ci il yanvarın 21-də müalicə aldığı tibb müəssisəsində Koma vəziyyətinin 100-cü günündə şəhid olub. Onunla vida mərasimi Təzəpir məscidində baş tutub. Vida mərasiminə Daxili İşlər Naziri Vilayət Eyvazov və birinci müavini ge-

qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Əli Məmmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Əli Məmmədov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını və xidməti vəzifələrini yerinə yetirən zaman fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 30.12.2020-ci il tarixli Sərəncamına əsasən Əli Məmmədov ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edildi.

**39) Ümman Əmiraslanov**



Ümman Namiq oğlu Əmiraslanov (21 dekabr 1996; Qəbələ rayonu, Azərbaycan –2 oktyabr 2020; Tərtər rayonu, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Ümman Əmiraslanov 1996-cı il dekabrın 21-də Qəbələ rayonunun Mıxlıqovaq kəndində anadan olub. 2016-cı ildən "OBA" mağazasında çalışırdı.

*Hərbi xidməti*

Ümman Əmiraslanov 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin Sumqayıt şəhərində yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub.

Azərbaycan Ordusunun əsgəri olan Ümman Əmiraslanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ümman Əmiraslanov oktyabrın 2-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Qəbələ rayonunda dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Ümman Əmiraslanov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Laçın rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Ümman Əmiraslanov ölümündən sonra "Laçının azad olunmasına görə" medalı ilə təltif edildi.





**40) İskəndər Dövlətli**



İskəndər Vüqar oğlu Dövlətli (24 sentyabr 1992; Soru, Lerik rayonu, Azərbaycan – 30 oktyabr 2020; Hadrut, Xocavənd rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin giziri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

İskəndər Dövlətli 24 sentyabr 1992-ci ildə Lerik rayonunun Soru kəndində anadan olub. Hərbi xidmətdən sonra isə ailəsi ilə birgə Sulutəpədə məskunlaşmışdı.

*Ailəsi*

Əmisi Aqşin Dövlətli 1992-ci ildə Birinci Qarabağ müharibəsində döyüşmüş və şəhid olmuşdur.

İskəndər Dövlətli şəhid olduğu gündən 33 gün sonra atası Vüqar Dövlətli vəfat etmişdir.

*Hərbi xidməti*

Orta təhsilini aldıqdan sonra hərbi xidmətə yollanan İskəndər hərbi xidmət müddəti bitəndə yenidən orduda qalıb və hərbi xidmət müddətini davam etdirib. Kəşfiyyatçı İskəndər xidmətinə görə gizir rütbəsi almışdır.

Azərbaycan Ordusunun giziri olan İskəndər Dövlətli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Cəbrayılın və Hadrutun azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 30 oktyabr 2020-ci ildə Hadrut istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən İskəndər Dövlətli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən İskəndər Dövlətli ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən İskəndər Dövlətli ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən İskəndər Dövlətli "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

**41) Nərman Rəsulov**



Nərman Fəzaim oğlu Rəsulov (23 oktyabr 1993; Aşağı Bucaq, Yevlax rayonu, Azərbaycan – 16 oktyabr 2020; Ağdərə, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Nərman Rəsulov 23 oktyabr 1993-cü ildə Yevlax rayonunun Aşağı Bucaq kəndində dünyaya göz açmışdır. Orta təhsilini 2010-cu ildə bitirən Nərman 2011-ci ildə hərbi xidmətə yollanmışdır. Hərbi xidməti bitirdikdən sonra 2013-cü ildə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində olan Hərbiləşdirilmiş Mühafizə İdarəsində mühafizəçi kimi işə başlamışdır. 2016-cı ilə qədər həmin vəzifədə çalışmışdır.

*Hərbi xidməti*

Nərman Rəsulov 2011-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Nərman Rəsulov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Nərman Rəsulov 16 oktyabr 2020-ci ildə Ağdərə istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Nərman Rəsulov ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Nərman Rəsulov “Cəsur döyüşçü” medalı ilə təltif edildi.

**42) Mirağa Əliyev**



Mirağa Musa oğlu Əliyev; (29 avqust 2000; Xocavənd, Ağcabədi rayonu, Azərbaycan –29 sentyabr 2020; Cəbrayıl rayonu, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Mirağa Əliyev 29 avqust 2000-ci ildə Ağcabədi rayonunun Xocavənd kəndində anadan olmuşdur. Orta təhsilini Ağcabədi rayonu Mirzə Fətəli Axundov adına 3 nömrəli liseydə





almışdır. Sonra Bakı şəhərində 5 nömrəli peşə liseyində şirniyyatçı, qənnadçı ixtisası üzrə təhsil almışdır.

*Hərbi xidməti*

Mirağa Əliyev 2018-ci ilin 25 oktyabrında Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrinə hərbi xidmətə yollanmışdır. Burada Mirağa quruda xidmət edirdi, yer məxfi idi və o, hərbi silah-sursatı mühafizə edərək xidmət edirdi. Mirağa Əliyev hərbi xidmət müddətini 2020-ci ilin 20 aprelində fərqlənmə ilə bitirmişdir.

2020-ci ilin iyul ayında başlayan Tovuz döyüşlərindən sonra Mirağa da səfərbər olunmuş, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon üzrə ünvanına yaxınlaşmış, adını könüllü olaraq müharibəyə getmək üçün yazdırmışdır. 21 sentyabr 2020-ci ildə bir neçə günlük hərbi təlim toplantısına çağırılan Mirağa Əliyev 27 sentyabr 2020-ci ildən başlayan Vətən Müharibəsində ilk gündən baş kəşfiyyatçı olaraq ön cəbhədə kəşfiyyatçı taqımında vuruşmuşdur. Füzulinin və Cəbrayılın alınmasında böyük şücaətləri olub. Füzulinin və Cəbrayılın keçilməz yollarını, ermənininin keçilməz postlarını qəhrəmanlıqla keçiblər. Düşmənin arxa cəbhəsinə dəfələrlə keçərək mühüm məlumatlar əldə etmişdir. Döyüş yoldaşlarını mühasirədən xilas etmişdir. Füzuli və Cəbrayıl uğrunda gedən döyüşlərdə hər iki ayağından qəlpə yarası alsa da, döyüşə davam etmişdir. Çoxlu canlı erməni qüvvələrini məhv etmişdir. Füzulinin və Cəbrayılın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. O, 29 sentyabr 2020-ci ildə Cəbrayılın azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən snayperlə açılan atəş nəticəsində ürəyindən vurularaq şəhid olmuşdur. 30 sentyabr 2020-ci ildə doğulduğu Ağcabədi rayonunun Xocavənd kəndində torpağa tapşırılmışdır.

Evin tək oğlu idi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Mirağa Əliyev ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Mirağa Əliyev ölümündən sonra “Füzulinin azad olunmasına görə” medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Mirağa Əliyev ölümündən sonra “İgidliyə görə” medalı ilə təltif edildi.

Şəhid Ailələri, Əlilləri və Müharibə Veteranlarının Müdafiəsi İctimai Birliyi tərəfindən Mirağa Əliyev “Qarabağ uğrunda” medalı ilə təltif edildi.

*Ailəsi*

Atası Musa Sətdar oğlu Əliyev Birinci Qarabağ müharibəsində könüllü olaraq kəşfiyyat taqımında döyüşmüş və Şəhid Ailələri, Əlilləri və Müharibə Veteranlarının Müdafiəsi İctimai Birliyi tərəfindən “Qarabağ veteranı” medalı ilə təltif edilmişdir.

**43) Məzdək Eyvazlı**



Məzdək Əli oğlu Eyvazlı; (26 fevral 1996; Bakı, Azərbaycan – 29 oktyabr 2020; Füzuli rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı və hərbi xidməti*

Məzdək Eyvazlı 26 fevral 1996-cı ildə Bakı şəhərində anadan olmuşdur. 2002-ci ildə Lökbatan qəsəbəsində yerləşən 288 saylı məktəbin 1-ci sinfinə daxil olan Məzdək 2013-cü ildə həmin məktəbi bitirmiş və həmin il Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olmuşdur. 2017-ci ildə universiteti bitirmiş və Gədəbəyə hərbi xidmətə yollanmışdır. 2018-ci ildə hərbi xidmət müddətini bitirmişdir. Məzdək 2019-cu ildə "Azərsu" Açıq Səhmdar Cəmiyyətində işləməyə başlamışdır.

Məzdək Eyvazlı 2020-ci ilin iyul ayında baş verən Tovuz döyüşlərindən sonra elan edilən səfərbərlikdən sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon üzrə ünvanına yaxınlaşmış, adını könüllü olaraq müharibəyə getmək üçün yazdırmışdır. 21 sentyabr 2020-ci ildə səfərbər olunan Məzdək bir neçə günlük hərbi təlim toplantısından sonra 27 sentyabrda başlayan Vətən Müharibəsinə ilk gündən yollanmışdır. Füzuli uğrunda döyüşlərdə vuruşmuşdur. O, 29 oktyabr 2020-ci ildə Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Məzdək Eyvazlı ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Məzdək Eyvazlı ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Məzdək Eyvazlı ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.





**44) Murad İbrahimov**



Murad Valeh oğlu İbrahimov (6 sentyabr 1993; Gəncə, Azərbaycan – 03 oktyabr 2020; Ağdərə, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Murad İbrahimov 6 sentyabr 1993-cü ildə Gəncədə anadan olmuşdur. 1999-cu ildə Gəncə şəhər 12 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. 2008-2009-cu illərdə 1 nömrəli Gəncə Peşə liseyində (indiki Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzi) təhsil almışdır.

Ailəli idi, Əli adlı bir oğlu var idi. Murad İbrahimovun qardaşı da hərbçidir.

*Hərbi xidməti*

2011-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhər Kəpəz Rayon Şöbəsindən həqiqi hərbi xidmətə çağırılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Murad İbrahimov 2014-cü ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu idi. Hərbi xidmət müddətində Qurban bayramı və 15 iyun Milli Qurtuluş Günü ərəfəsində xidmətinə görə fəxri fərmanla təltif edilmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Murad İbrahimov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Murad İbrahimov 2020-ci il oktyabrın 3-də Murov dağından Ağdərə istiqamətinə yollanmış, həmin istiqamətdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Uzun müddət nəşi tapıla bilməmişdir. Nəşi şəhid olmasından 111 gün sonra aşkar edilmiş və 23 yanvar 2021-ci ildə Gəncə Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Murad İbrahimov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi

**46) Sevindik İsmayılzadə**



Sevindik Ramil oğlu İsmayılzadə (30 noyabr 1998, Qara Nuru, Saatlı rayonu – 20 oktyabr 2020, Füzuli rayonu) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı və hərbi xidməti*

Sevindik İsmayılzadə 30 noyabr 1998-ci ildə Saatlı rayon məcburi köçkünlər üçün salınmış Qaranuru kəndi 2 nömrəli çadır şəhərciyində dünyaya gəlmişdir. Əslən Cəbrayıl rayonunun Soltanlı kəndindəndir. 2005-ci ildə Bakı şəhəri, Qaradağ rayon Əliheydər Kazımov adına 228 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. Burada 3 il təhsil aldıqdan sonra Füzuli rayon 49 nömrəli tam orta məktəbində təhsilini davam etdirərək, 9 illik orta təhsilini başa vurmuşdur. 2014-cü ildə ailə vəziyyəti ilə bağlı Biləsuvar rayon məcburi köçkünlər üçün salınmış Cəbrayıl şəhərciyinə köçmüşdür. O, burada təhsilini Çərəkən kənd Vahid İsmayılov adına tam orta məktəbində davam etdirmiş, daha sonra əvvəlki təhsil aldığı məktəbə qayıdaraq tam orta təhsilini tamamlamışdır. 24 iyul 2017-ci ildə Sumqayıt şəhərində yerləşən N saylı hərbi hissədə xidmətini başlamışdır. Daha sonra Bakı şəhəri, Pirəkəşkül qəsəbəsində yerləşən N sayılı hərbi hissədə Daxili Sərhəd Qoşunlarında kəşfiyyatçı vəzifəsini icra edərək xidmətinə davam etdirmişdir. O, burada olduğu müddətdə etdiyi xidmətinə görə fəxri fərmanla təltif edilmişdir. Hərbi xidmət müddətində Xüsusi Təyinat kursunda snayper təlimi alaraq kursu başa vurmuşdur. 27 yanvar 2019-cu ildə hərbi xidmətini bitirərək, Biləsuvar rayonu Cəbrayıl şəhərciyinə geri qayıtmışdır. Azərsun Qida Sənayesinin əvvəlcə əkin sahəsində, daha sonra paketləmə sahəsində işləmişdir. Sonra Biləsuvarda yerləşən xalçaçılıq fabrikində işləmək üçün 16 sentyabr 2019-cu ildə Cəbrayıl peşə məktəbinə daxil olmuş və 18 iyun 2020-ci il tarixində məzun olmuşdur. Məzun olduqdan sonra Bakı şəhərinə gedərək əvvəlcə restoran olmaqla daha sonra bir neçə işdə (tikinti, daş karxanası və s.) işləmişdir. Son olaraq FAB Boya kimya sənaye şirkətində işə başlamış, burada müəyyən müddət işləmişdir. İşlədiyi müddət ərzində 27 sentyabr tarixində Vətən Müharibəsi başlamış, qismən səfərbərlik elan olunmuşdur. 9 oktyabr 2020-ci ildə Sevindik Binəqədi rayonunda yerləşən çağırış məntəqəsinə yollanmışdır. Əvvəl çağırılmasa da, sonra könüllü əsgər olaraq çağırılmış, Ağcabədi rayonuna göndərilmişdir. Sevindik bir müddət burada xidmətini davam etdirdikdən sonra özünün təkidi ilə ön cəbhəyə, Füzuli rayonuna xidmətini davam etdirmək üçün göndərilmişdir. Könüllü əsgər Sevindik İsmayılzadə Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmiş və 20 oktyabr 2020-ci ildə həmin döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur.

Biləsuvar rayon Cəbrayıl şəhərciyindəki 3 saylı qəsəbə mazarlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısmda qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il

tarixli Sərəncamma əsasən Sevindik İsmayılzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Sevindik İsmayılzadə ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Sevindik İsmayılzadə ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

**47) İsmət İmanov**



İsmət Qismət oğlu İmanov (2 aprel 1998, Ərəbmehdibəy, Ağsu rayonu – 8 noyabr 2020, Şuşa) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı və hərbi xidməti*

İsmət İmanov 2 aprel 1998-ci ildə Ağsu rayonunun Ərəbmehdibəy kəndində dünyaya göz açmışdır. Orta təhsilini 2004-2015-ci illərdə almışdır. İsmət orta məktəbi bitirdikdən sonra 2016-cı ilin 4 aprelində hərbi xidmətə yollanmışdır. Bu müddətdə Qazax rayonunda ön cəbhədə xidmət etmişdir. 2017-ci ilin oktyabr ayında hərbi xidmət müddəti bitdikdən sonra mülki şəxs olaraq fəaliyyət göstərmişdir.

27 sentyabr 2020-ci ildən başlayan Vətən Müharibəsindən sonra ölkədə qismən səfərbərlik elan olundu. İsmət İmanov da səfərbər olunmuş, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon üzrə ünvanına müraciət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan İsmət İmanov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində 29 sentyabr 2020-ci ildən etibarən könüllü əsgər kimi iştirak etmişdir. Füzulinin, Cəbrayılın, Hadrutun, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. İsmət İmanov 8 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən İsmət İmanov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarınm məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamma əsasən İsmət İmanov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamma əsasən İsmət İmanov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**48) Azər Əliyev**



Azər Dilafət oğlu Əliyev və ya Azər Dilafər oğlu Əliyev (6 yanvar 1999, Yuxarı Qiyaməddinli, Ağcabədi rayonu – 28 yanvar 2021, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Azər Əliyev 6 yanvar 1999-cu ildə Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində anadan olmuşdur. Ailəli idi, Nəzrin adlı qızı və şəhid olmasından sonra doğulan 29.04.2021-ci ildə Əli adlı oğlu yadigar qaldı.

*Hərbi xidməti*

Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanan Azər Əliyev hərbi xidmət müddəti bitdikdən sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Azər Əliyev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Cəbrayılın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 15 oktyabr 2020-ci ildə Xocavənd istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən ağır yaralanmış və xəstəxanaya yerləşdirilmişdir.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Azər Əliyev "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Uzun müddət koma vəziyyətində olan Azər Əliyev 28 yanvar 2021-ci ildə müalicə aldığı xəstəxanada şəhid olmuşdur. 29 yanvar 2021-ci ildə doğulduğu Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Azər Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Azər Əliyev ölü-

mündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Ağdam rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Azər Əliyev ölümündən sonra "Ağdamın azad olunmasına görə" medalı ilə təltif edildi.

**49) Tural Şıxızadə**



Tural Ətraf oğlu Şıxızadə (30 may 2002; Diyallı, İsmayıllı rayonu, Azərbaycan –30 sentyabr 2020; Tərtər rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Tural Şıxızadə 2002-ci il mayın 30-da İsmayıllı rayonunun Diyallı kəndində anadan olub. Subay idi.

*Hərbi xidməti*

Tural Şıxızadə 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə idi.

Azərbaycan Ordusunun əsgəri olan Tural Şıxızadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tural Şıxızadə sentyabrın 30-da Suqovuşan döyüşləri zamanı şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Tural Şıxızadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Tural Şıxızadə "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

**50) Fuad Nəsirov**



Fuad Məhərrəm oğlu Nəsirov; (29 mart 1971 – 21 aprel 1994) – Qarabağ müharibəsi şəhidi.

*Həyatı*

Fuad Nəsirov 29 mart 1971-ci ildə Xocavənd rayonunun Muğanlı kəndində anadan olmuşdur. Muğanlı kənd səkkizillik məktəbini bitirən Fuad orta təhsilini Kuropatkin kənd orta məktəbində başa vurmuşdur. 1988-ci ildə Fuad Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna daxil olur. 1993-cü ildə institutu bitirib həmin ilin 1 iyulunda könüllü olaraq Milli Ordu sıralarına ya-





zılmışdır. 30 yanvar 1994-cü ildə Fuad Ağdərə istiqamətində gedən döyüşlərdə "PK" markalı pulemyotla silahlanaraq vuruşmuşdur. "Qlobus" deyilən ərazidə bir neçə gün davam edən döyüşlərdə düşmənin xeyli hərbi texnikası, yetmişdən çox əsgər və zabiti məhv edilmişdir. Fevral ayında gedən döyüşlərdə Fuadın xidmət etdiyi rota fərqlənmişdir.

1994-cü ilin 21 aprelində səhər saatlarında düşmən qoşununun ehtiyat qüvvəsini öyrənmək tapşırığını yerinə yetirib geriyə qayıdarkən pusquda dayanmış ermənilərlə səkkiz nəfər arasında qeyri-bərabər döyüş başlandı. Bu döyüşdə kəşfiyyat dəstəsinin yeddi üzvü, o cümlədən, Fuad Nəsirov şəhid oldu.

Subay idi. Göyçay Şəhidlər Xiyabanında dəfn edilmişdir.

**51) Səxavət Quliyev**



Səxavət Bostan oğlu Quliyev (17 noyabr 1963 - 16 avqust 1992) – Qarabağ müharibəsi şəhidi.

*Həyatı*

Səxavət Quliyev 17 noyabr 1963-cü ildə Xocavənd rayonunun Muğanlı kəndində anadan olmuşdur. 1979-cu ildə Muğanlı kənd səkkizillik məktəbini bitirən Səxavət elə həmin ilin sentyabrında Martuni rayon 125 saylı Orta Texniki Peşə Məktəbinə daxil olmuşdur. 1982-ci ildə geniş profilli traktorçu - maşinist peşəsi üzrə bu məktəbin tam kursunu bitirərək ümumi orta təhsil almışdır. Elə həmin il O, hərbi xidmətə yollanmışdır. Hərbi xidmət müddəti bitdikdən sonra Səxavət "Kalinin" adına kolxozda işləməyə başlamışdır.

Qarabağ müharibəsi başlanan vaxtlarda Xocavənd rayonunun Muğanlı kəndində özünümüdafiə dəstəsi yaradılmışdı. Səxavət də bu dəstənin fəal üzvlərindən biri idi. 1991-ci ildə Səxavət yeni yaradılmış Muğanlı kənd Milis Bölməsi sıralarına yazılmışdır. Onun son döyüşü 16 avqust 1992-ci ildə olmuşdur. Həmin gün kəşfiyyatçılar "Gülmətəpə" deyilən ərazidə yerləşən erməni postunu ələ keçirmək üçün əməliyyatlara başladılar. Əməliyyatın planına əsasən, topçular düşmənin həmin mövqeyini atəşə tutmalı, sonra 15 nəfərdən ibarət dəstə üzvləri çaşdırılmış düşmənin üzərinə hücum etməli və oranı ələ keçirməli idilər. Səxavət digərlərindən 10 metr qabaqda erməni səngərinə doğru irəliləyirdi. Səxavət Quliyev düşmənin hücumunu dəf edən zaman minanın partlaması nəticəsində 16 avqust 1992-ci ildə şəhid olmuşdur.

Ailəli idi, 2 övladı yadigar qaldı.

**52) Yaqub Xoşdari**



Yaqub Abdulla oğlu Xoşdari; (23 oktyabr 1968 –16 avqust 1992) –Qarabağ müharibəsi şəhidi.

*Həyatı*

Yaqub Xoşdari 23 oktyabr 1968-ci ildə Xocavənd rayonunun Muğanlı kəndində anadan olmuşdur.

1976-cı ildə Muğanlı kənd səkkizillik məktəbinin birinci sinfinə daxil olan Yaqub 1986-cı ildə Kuropatkin kənd orta məktəbinin onuncu sinfini bitirmişdir. Həmin il O, Mingəçevir Politexnik Texnikumunun qiyabi şöbəsinə daxil olmuşdur. Lakin təhsilini hərbi xidməti başa vurduqdan sonra davam etdirmişdir. O, eyni zamanda, Ağdam rayon rabitə qovşağının Muğanlı kəndində yerləşən ATS-də mexanik işləməyə başlamışdır. 1991-ci ildə "Avtomobillərin təmiri və onlara texniki qulluq" ixtisası üzrə Texnikumun tam kursunu bitirmişdir. Yaqub dəfələrlə həyatını təhlükəyə ataraq ermənilərin kəsdiyi rabitə xəttini birləşdirmək məqsədi ilə təhlükəli ərazilərə keçmişdir.

Muğanlı kəndi Gülmətəpə yüksəkliyində yerləşən erməni mövqelərindən tez-tez atəşə məruz qalırdı. Oradan atılan mərmilər kənddə böyük dağıntılar törədirdi. Kəndin özünümüdafiə dəstəsi yüksəklikdəki ermənilərin sayının dəqiqləşdirilməsi barədə əmr alır. 1992-ci il avqustun 14-də axşam saatlarında dəstə həmin yüksəkliyə doğru istiqamət alır. Yaqub Xoşdari də vuruşanlar arasında idi, lakin evin tək oğlu olduğu üçün dəstə rəhbəri ona döyüşməyə icazə verməmişdi. Yaqub həm də özü üçün ratsiya götürmüşdü. Kəşfiyyatçılar düşmən postunun 30-40 metrliyinə çatanda onlardan biri minaya düşdü. Bu vaxt baş verən partlayış nəticəsində bir nəfər həlak oldu, Yaqub və daha iki nəfər isə yaralandı. Düşmənlə xeyli atışmadan sonra kəşfiyyatçılar geri çəkildilər. Ağır yaralanan Yaqubu Ağdam rayonunun Qaradağlı kəndində yerləşən Hərbi Hospitala yerləşdirdilər. Vəziyyəti daha da ağırlaşdığından onu oradan Bakı şəhərindəki Mərkəzi Hərbi Hospitala köçürdülər. Buna baxmayaraq, Yaqubu xilas etmək mümkün olmadı. Yaqub Xoşdari 16 avqust 1992-ci ildə müalicə aldığı xəstəxanada dünyasını dəyişdi.

Muğanlı kənd qəbiristanlığında dəfn edilmişdir.

Ailəli idi, Murad adlı bir oğlu yadigar qaldı.

**53) Elşən Hüseynov**



Elşən Əvəz oğlu Hüseynov (12 sentyabr 1973 - 26 yanvar 1994) – Qarabağ müharibəsi şəhidi.

*Həyatı*

Elşən Hüseynov 12 sentyabr 1973-cü ildə Xocavənd rayonunun Muğanlı kəndində anadan olmuşdur. Orta təhsilini 1980-1988-ci illərdə Muğanlı kənd məktəbində almışdır.

*Hərbi xidməti*

1990-cı ildən etibarən Elşən də atası Əvəz, qardaşı





Müşviq ilə birlikdə Qarabağ müharibəsində iştirak etmişdir. Yaşının az olmasına baxmayaraq, ən təhlükəli döyüşlərdə vuruşmuşdur. 18 yaşında Milli Ordu sıralarına yazılmışdır. O, "N" saylı hərbi hissədə qulluq edirdi. Elşən Hüseynov 26 yanvar 1994-cü ildə Xocavənd rayonunun Nərgiztəpə adlanan ərazisi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

Ağcabədi Şəhidlər Xiyabanında dəfn edilmişdir.

**54) Rövşən Balakişiyev**



Rövşən Misir oğlu Balakişiyev; (15 dekabr 1967, Muğanlı, Xocavənd rayonu, Azərbaycan SSR - 30 dekabr 1992, Qarabağ, Azərbaycan) – Qarabağ müharibəsi şəhidi.

*Həyatı*

Rövşən Balakişiyev 15 dekabr 1967-ci ildə Xocavənd rayonunun Muğanlı kəndində anadan olmuşdur. 1973-cü ildə Muğanlı kənd səkkizillik məktəbinin birinci sinfinə daxil olmuşdur. Məktəbi bitirdikdən sonra 1985-ci ildə hərbi xidmətə yollanmışdır. Leninqrad (indiki Sankt-Peterburq) şəhərində xidmət edən Rövşən hərbi xidmət müddətində dəfələrlə fəxri fərmanlarla təltif edilmişdir.

1988-ci ildə başlanan Qarabağ müharibəsinə qədər Rövşən xidmət etdiyi şəhərdə yaşamış, burada ailə həyatı qurmuşdu. Müharibə başlayanda Rövşən ölkəsinə qayıdır, müharibədə iştirak edir. O, Muğanlı kənd özünümüdafiə dəstəsinin üzvü olaraq Şişqaya, Gülmətəpə, Çirişli dağı istiqamətində gedən döyüşlərdə, Xocavəndin müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

2 oktyabr 1992-ci ildə Muğanlı, Kuropatkino, Əmiranlar kəndinə düşmən hücum edir və müqavimətlərə baxmayaraq üç kəndi işğal edir. Azərbaycan Milli Ordusu yarandıqdan sonra kəndin özünümüdafiə dəstəsi Ağcabədi rayon 161 saylı hərbi hissənin batalyonlarından birinə çevrilir. Bundan sonra, döyüşçülər Nərgiztəpədə mövqe seçdilər. Onlar dəfələrlə işğal olunmuş kəndlərə hücum planları hazırlasalar da, təəssüf ki, döyüşlərin nəticəsi uğurlu olmamışdır.

Rövşən Balakişiyev 30 dekabr 1992-ci ildə Daşlıtəpə adlanan yerdə içində olduğu "UAZ" markalı avtomaşının minaya düşməsi nəticəsində şəhid olmuşdur.

Ağcabədi Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Ailəli idi, bir qız övladı yadigar qaldı.

**55) Cəsarət Abbasov**



Cəsarət Adil oğlu Abbasov; 4 aprel 1974, Muğanlı, Xocavənd rayonu, Azərbaycan SSR - 17 mart 1993, Qarabağ, Azərbaycan) – Qarabağ müharibəsi şəhidi.

*Həyatı*

Cəsarət Abbasov 4 aprel 1974-cü ildə Xocavənd rayonunun Muğanlı kəndində anadan olmuşdur. Orta təhsilini Muğanlı kəndindəki səkkizillik məktəbdə alan Cəsarət 1990-cı ildə Qarabağ müharibəsi zamanı Muğanlı kənd özünümüdafiə dəstəsinə qoşulmuşdur.

1992-ci ilin 2 oktyabrında Muğanlı kəndi düşmənlər tərəfindən işğal edildi. Həmin il Cəsarət Milli Ordu sıralarına yazıldı. Cəsarət Abbasov 17 mart 1993-cü ildə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Ağcabədi Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Subay idi.

**56) Fizuli Əliyev**



Fizuli Vidadi oğlu Əliyev (27 yanvar 1985; Bakı, Azərbaycan – 8 oktyabr 2020; Suqovuşan, Tərtər rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin kapitanı, Vətən müharibəsi şəhidi.

*Həyatı və hərbi xidməti*

Fizuli Əliyev 27 yanvar 1985-ci ildə Bakı şəhərində dünyaya göz açmışdır. Orta təhsilini səkkizinci sinfə qədər alan Fizuli sonra Cəmşid Naxçıvanski adına hərbi liseyə daxil olmuşdur.

*Hərbi xidməti*

2003-2007-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirmişdir. Ali hərbi təhsilini bitirdikdən sonra leytenant rütbəsi ilə hərbi fəaliyyətinə başlamışdır. Uzun müddət Murov dağında xidmət etmişdir. "N" saylı hərbi hissənin "Həmlə" Taborunun Qərargah Rəisi olaraq xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun kapitanı olan Fizuli Əliyev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Fizuli Əliyev 8 oktyabr 2020-ci ildə Suqovuşan istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. II Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən kapitan Fizuli Əliyev ölümündən sonra "Vətən uğrunda"





medalı ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarının rəhbəri olan, düşmənin canlı qüvvəsinin məhv edilməsində rəşadət göstərən Fizuli Əliyev vəzifə borcunu ləqayətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Fizuli Əliyev ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**57) Tural İsayev**



Tural Saləddin oğlu İsayev (11 aprel 1992, Yenikənd, Siyəzən rayonu – 27 sentyabr 2020, Füzuli rayonu) – Azərbaycan Silahlı Qüvvələrinin çavuşu, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Tural İsayev 1992-ci il aprelin 11-də Siyəzən rayonunun Yenikənd kəndində anadan olub.

*Hərbi xidməti*

Azərbaycan Ordusunun çavuşu olan Tural İsayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tural İsayev sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 2021-ci il yanvarın 31-də Siyəzən rayonunun Yenikənd kəndində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Tural İsayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Tural İsayev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Tural İsayev ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

### 58) Rəmzi Novruzov



Rəmzi Siyavuş oğlu Novruzov; (11 avqust 1971 – 2 sentyabr 1992) – Qarabağ müharibəsi şəhidi.

*Həyatı*

Rəmzi Novruzov 11 avqust 1971-ci ildə İsmayıllı rayonunun Basqal qəsəbəsində anadan olmuşdur. Orta təhsilini İsmayıl rayonu Basqal qəsəbə tam orta məktəbində almışdır. O, 1989-cu ildə ordu sıralarına çağırılmışdır. Hərbi xidmətini 1991-ci ildə Türkmənistanın Kuşka şəhərində başa vurmuşdur. Hərbi xidməti başa vurduğu il Qarabağ müharibəsi başladığına görə həmin müharibədə iştirak etməyə başladı. O, 1992-ci ilin may ayında Laçın batalyonunda hərbi xidmətini davam etdirdi. O, döyüşçü taqımın kiçik komandiri olaraq Laçın istiqamətində Pircahan, Hoçaz, Bozgüney, Sonasar, Soyuqbulaq və digər kəndlərin müdafiəsində iştirak etmişdir. Son döyüşü Ağdərə istiqamətində olan Rəmzi Novruzov 2 sentyabr 1992-ci ildə Vəngli kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

*Xatirəsi*

Hal-hazırda İsmayıllı rayonunun Basqal qəsəbəsinin tam orta məktəbi şəhid Rəmzi Novruzovun adını daşıyır.

### 59) Elnur Cabbarov



Elnur Şahmurad oğlu Cabbarov (15 sentyabr 1994; Ağcabədi, Azərbaycan – 12 noyabr 2020; Bakı, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Elnur Cabbarov 15 sentyabr 1994-cü ildə Ağcabədidə anadan olmuşdur. Əslən Laçın rayonunun Qarakeçdi kəndindəndir. Kürd əsillidir.

*Hərbi xidməti*

Hərbi xidmət müddəti bitdikdən sonra Elnur Laçın rayon polis orqanında işə düzəlir, daha sonra N saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirir.

27 sentyabr 2020-ci ildən başlayan Vətən Müharibəsinə Elnur könüllü olaraq Xüsusi Təyinatlı Qüvvələrə qoşulduqdan sonra yollanır. Döyüşlərdən birində ağır yaralansa da, yenidən döyüş meydanına qayıdır. O, Füzulinin, Cəbrayılın, Hadrutun, Zəngilanın, Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşur. Laçın dəhlizinin işğaldan azad edilməsi də Elnur və onun komandasına tapşırılmışdı.

Əsgər Elnur Cabbarov 5 noyabr 2020-ci ildə Şuşa döyüşlərində ağır yara almış, əvvəlcə Hadruta, oradan Bakıya aparılmışdır. 1 həftəlik komadan sonra 12 noyabr 2020-ci ildə Bakıda müalicə aldığı xəstəxanada dünyasını dəyişmişdir. Ağcabədi rayonunda





dəfn olunmuşdur. Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 09.12.2020-ci il tarixli Sərəncamına əsasən Elnur Cabbarov "Qarabağ" ordeni ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elnur Cabbarov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Elnur Cabbarov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Elnur Cabbarov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Elnur Cabbarov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

*Ailəsi*

Elnur Cabbarov ailəli idi. Döyüşdə olan zaman qızı dünyaya gəlmişdir. Lakin o, qızını görməmişdir.

### 60) İkram Səmidov



İkram Şirvan oğlu Səmidov (21 fevral 1991; Əlisoltanlı, Saatlı rayonu, Azərbaycan –12 noyabr 2020; Şuşa, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

İkram Səmidov 21 fevral 1991-ci ildə Saatlı rayonunun Əlisoltanlı kəndində dünyaya gəlmişdir. 1998-ci ildə Saatlı rayon M. Əliyev adına Əlisoltanlı kənd orta məktəbinin birinci sinfinə daxil olmuşdur. 2008-ci ildə həmin məktəbi bitirmiş və həmin ildə Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kollecinə daxil olmuşdur. 2014-cü ildə kolleci "Elektrik stansiyalarının elektrik avadanlıqlarının quraşdırılması" ixtisası üzrə bitirmişdir.

*Hərbi xidməti*

Kolleci bitirdikdən sonra İkram hərbi xidmətə yollanmışdır. Tərtər rayonunda hərbi xidmət müddətini davam etdirmişdir.

2020-ci ilin iyul ayında olan Tovuz döyüşlərindən sonra ölkədə səfərbərlik elan olundu və bu günə qədər mülki şəxs olaraq fəaliyyətini davam etdirən İkram Səmidov könüllü olaraq səfərbər olundu. 21 sentyabr 2020-ci ildə hərbi təlim toplantısına çağırılmış və 27 sentyabr 2020-ci ildən başlayan Vətən Müharibəsində ilk gündən iştirak etmişdir. O, Hadrutun, Füzulinin, Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Könüllü əsgər İkram Səmidov 12 noyabr 2020-ci ildə Şuşa döyüşlərində şəhid olmuş, doğulduğu Saatlı rayonunun Əlisoltanlı kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən İkram Səmidov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən İkram Səmidov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən İkram Səmidov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən İkram Səmidov ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

**61) Fətulla Siracov**



Fətulla Qasım oğlu Siracov (18 aprel 2001; Gəndov, Şabran rayonu, Azərbaycan– 30 yanvar 2021; Kəlbəcər rayonu, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi iştirakçısı.

*Həyatı və hərbi xidməti*

Fətulla Siracov 18 aprel 2001-ci ildə Şabran rayonunun Gəndov kəndində anadan olmuşdur. Fətulla Siracov ailədə 3 bacı və bir qardaş olmuşlar. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Fətulla Siracov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Murovdağ istiqamətində gedən döyüşlərdə vuruşmuşdur.





Müharibə bitdikdən sonra Kəlbəcərdə xidmət edən Fətullanın xidmətdə ikən çəkilən bir videosu sosial şəbəkələrdə paylaşılmışdı.

Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Fətulla Siracov "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.

Hərbi xidmət müddətində ağciyər iltihabından əziyyət çəkən Fətulla Siracov 30 yanvar 2021-ci ildə Kəlbəcərdə xidmət zamanı ürək tutmasından dünyasını dəyişmişdir. Nəşi doğulduğu Şabran rayonunun Gəndov kəndində dəfn edilmişdir.

**62) Nazim Zahirov**



Nazim Həmzə oğlu Zahirov (25 iyun 2001; Bakıxanov, Sabunçu rayonu, Bakı, Azərbaycan –1 oktyabr 2020; Suqovuşan, Tərtər rayonu, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı və hərbi xidməti*

Nazim Zahirov 25 iyun 2001-ci ildə Bakının Sabunçu rayonunun Bakıxanov qəsəbəsində anadan olmuşdur. Orta təhsilini 2007-2018-ci illərdə 310 saylı orta məktəbdə almışdır. 2018-ci ildə Azərbaycan Dövlət Dəmir Yolu Liseyinə daxil olmuşdur. 2019-cu ildə həmin liseyi bitirmiş, həmin ilin 2 iyulunda hərbi xidmətə yollanmışdır. Goranboyda xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Nazim Zahirov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 1 oktyabr 2020-ci ildə Talış-Suqovuşan istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Nazim Zahirov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarınm məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Nazim Zahirov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

**63) Toğrul Hacıyev**



Toğrul Siyavşah oğlu Hacıyev (4 fevral 1991, Çayarxı, Göyçay rayonu – 25 oktyabr 2020, Füzuli rayonu) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Toğrul Hacıyev 1991-ci il fevralın 4-də Göyçay rayonunun Çayarxı kəndində anadan olub.

*Hərbi xidməti*

Toğrul Hacıyev 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub.

Azərbaycan Ordusunun əsgəri olan Toğrul Hacıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Toğrul Hacıyev oktyabrın 25-də Füzuli döyüşləri zamanı şəhid olub. Göyçay rayonunda dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Toğrul Hacıyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Toğrul Hacıyev ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Toğrul Hacıyev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarınm məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamma əsasən Toğrul Hacıyev "Cəsur döyüşçü" medalı ilə təltif edildi.





**64) Rəcəb İsmayılov**



Rəcəb Nəcəf oğlu İsmayılov (17 sentyabr 2000, Əliqullar, İmişli rayonu – 30 oktyabr 2020, Güləbird, Laçın rayonu) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Rəcəb İsmayılov 2000-ci il sentyabrın 17-də İmişli rayonunun Əliqulular kəndində anadan olmuşdur.

*Hərbi xidməti*

Azərbaycan Ordusunun əsgəri olan Rəcəb İsmayılov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Cəbrayılın, Qubadlının və Laçının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Rəcəb İsmayılov 30 oktyabr 2020-ci ildə Laçın rayonunun Güləbird kəndi istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Rəcəb İsmayılov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Rəcəb İsmayılovun uzun müddət tapıla bilməyən nəşi 3 fevral 2021-ci ildə İmişli rayonunun Əliqulular kəndində torpağa tapşırılmışdır.

Azərbaycanm ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Rəcəb İsmayılov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Rəcəb İsmayılov ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

**65) Rameş Zəkiyev**



Rameş Gülverdi oğlu Zəkiyev (27 iyun 2001, Şahağac, Astara rayonu – 15 oktyabr 2020, Hacıməmmədli, Ağdam rayonu) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Rameş Zəkiyev 27 iyun 2001-ci ildə Astara rayonunun Şahağac kəndində anadan olmuşdur. 10 yaşı olanda atası Gülverdi Zəkiyev vəfat etmişdir.

*Hərbi xidməti*

Orta məktəbi bitirdikdən sonra 2019-cu ildə hərbi xidmətə yollanmışdır. Həqiqi hərbi xidmət müddətində Ağdam rayonunun Baharlı kəndində xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Rameş Zəkiyev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində minaatan olaraq iştirak etmişdir.Ağdam istiqamətində gedən döyüşlərdə vuruşmuşdur. 15 oktyabr 2020-ci ildə səhər saatlarında Ağdam rayonunun Hacıməmmədli kəndində minamyot mərmisinin düşməsi nəticəsində 2 döyüşçü yoldaşı ilə birgə şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Rameş Zəkiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Ağdam rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Rameş Zəkiyev ölümündən sonra "Ağdamın azad olunmasına görə" medalı ilə təltif edildi.

**66) Xalid Hassan**

Xalid Mahmud oğlu Hassan (26 oktyabr 1995; Sumqayıt, Azərbaycan – 4 noyabr 2020; Ağdərə, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.



*Həyatı*

Xalid Hassan 1995-ci il oktyabrın 26-da Sumqayıt şəhərində anadan olub. Atası Mahmud Hassan əslən Misirdən, anası Maya Quliyeva isə əslən Ağdam rayonunun Saybalı kəndindən idi. 1995-ci ilin iyul ayında – Xalid Hassan 6 aylıq olanda Hassan ailəsi Sumqayıt şəhərindən Qazaxıstanın Almatı şəhərinə gəlb burada yaşamağa başladı. Bir müddət sonra Hassan ailəsi yenidən Azərbaycana qayıtdı və Xalid Hassan birinci sinfə Bərdə rayonu ərazisində Ağdam şəhəri 2 nömrəli tam orta məktəbində getdi. Daha sonra ailəsinin işi ilə bağlı yenidən Qazaxıstanda yaşayan Xalid Hassan 10-cu sinfə qədər Almatı şəhərində təhsil aldı. Tam orta təhsilini Azərbaycanda bitirib. Ailəli idi. Məryəm adında bir qızı yadigar qaldı.

*Hərbi xidməti*

Xalid Hassan 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci ilin Tovuz döyüşləri zamanı general-mayor Polad Həşimovun şəhid olmasından sonra öz istəyi ilə Ağdam Rayon Hərbi Komissarlığına müraciət edib.

Azərbaycan Ordusunun əsgəri olan Xalid Hassan 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə, həmçinin Talış və Ağdərə istiqamətlərində gedən döyüşlərdə savaşıb. Xalid Hassan noyabrın 4-də Kəlbəcər-Şuşa yolunun Ağdərə sahəsində şəhid olub.





Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Xalid Hassan ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Xalid Hassan ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Xalid Hassan "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

**67) Busat Qurbanov**



Busat Əfsər oğlu Qurbanov (10 sentyabr 2000; Aşağı Kürdmahmudlu, Füzuli rayonu, Azərbaycan – 10 oktyabr 2020; Füzuli, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı və hərbi xidməti*

Busat Qurbanov 10 sentyabr 2000-ci ildə Füzuli rayonunun Aşağı Kürdmahmudlu kəndində dünyaya göz açmışdır. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanan Busat hərbi xidmət müddətini bitirdikdən sonra yenidən orduda qalmış, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Busat Qurbanov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində tuşlayıcı olaraq iştirak etmişdir. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuş, postların yarılmasında iştirak etmişdir. O, 10 oktyabr 2020-ci ildə Füzuli döyüşlərində döyüş tapşırığını yerinə yetirəkən şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il ta-

rixli Sərəncamma əsasən Busat Qurbanov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Busat Qurbanov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Busat Qurbanov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

**68) Musa Nuhiyev**



Musa Nüsrət oğlu Nuhiyev (2 oktyabr 1998; Qımır, Zaqatala rayonu, Azərbaycan – 16 oktyabr 2020; Ağdam, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Musa Nuhiyev 1998-ci il oktyabrın 2-də Zaqatala rayonunun Qımır kəndində dünyaya göz açıb. 2005-2016-cı illərdə İ.Məmmədov adına Qımır kənd tam orta məktəbində təhsil alıb. Subay idi.

*Hərbi xidməti*

Musa Nuhiyev 2016-cı ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2016-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət edib. 2018-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət edirdi.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Musa Nuhiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Ağdam istiqamətində gedən döyüşlərdə iştirak edib.

Musa Nuhiyev oktyabrın 16-da Ağdam istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Zaqatala rayonunun Qımır kəndində torpağa tapşırılıb.Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Musa Nuhiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





Azərbaycanın Ağdam rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Musa Nuhiyev ölümündən sonra "Ağdamın azad olunmasına görə" medalı ilə təltif edildi.

**69) Zaur Kərimov**



Zaur Saleh oğlu Kərimov (2 fevral 1996, Atakişili, Kürdəmir rayonu – 28 oktyabr 2020 (dəfn günü), Xocalı rayonu Çanaqçı kəndi) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Zaur Kərimov 2 fevral 1996-cı ildə Kürdəmir rayonunun Atakişili kəndində anadan olmuşdur. Orta təhsilini aldıqdan sonra hərbi xidmətə yollanmışdır.

*Hərbi xidməti*

Sərhəd Qoşunlarında xidmət edən Zaur hərbi xidmət müddətini bitirdikdən sonra Bərdədə hərbi kurs keçmişdir. Hərbi kursu bitirən Zaur yenidən orduya qayıdaraq müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olur və Xüsusi Təyinatlı Qüvvələrdə əsgər olaraq xidmətinə davam edir.

27 sentyabr 2020-ci ildən başlayan Vətən Müharibəsində MAHHXHQ əsgər Zaur Kərimov kəşfiyyatçı və snayper olaraq iştirak etmişdir. Cəbrayılın, Füzulinin, Zəngilanın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. O, Xocalı rayonunun Çanaqçı kəndinin azad edilməsi uğrunda gedən döyüşlərdə ağır döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. 28 oktyabrda Kürdəmir Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Zaur Kərimov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən şəxsi mərdlik və igidlik göstərdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Zaur Kərimov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Şuşa şəhərinin işğaldan azad olunmasına görə gedən döyüşlərdə xüsusi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Zaur Kərimov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan

Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Zaur Kərimov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Zaur Kərimov ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

**70) Vüsal Allahverdiyev**



Vüsal Novruz oğlu Allahverdiyev (25 iyul 2002, Qarayeri, Samux rayonu – 6 noyabr 2020, Xocavənd rayonu) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi. O, Vətən Müharibəsinin ən gənc şəhididir.

*Həyatı*

Vüsal Novruz oğlu Allahverdiyev 25 iyul 2002-ci ildə Samux rayonunun Qarayeri qəsəbəsində dünyaya göz açmışdır.

*Hərbi xidməti*

Orta məktəbi bitirdikdən sonra Vüsal Allahverdiyev 2020-ci ilin iyul ayının sonlarında hərbi xidmətə yollanmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Vüsal Allahverdiyev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Xocavəndin azad olunması uğrunda gedən döyüşlərdə vuruşmuşdur. O, 6 noyabr 2020-ci ildə Xocavənd istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. 18 yaşında (18 il 4 ay) şəhid olan əsgər Allahverdiyev Vətən Müharibəsinin ən gənc şəhidi oldu.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Vüsal Allahverdiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Vüsal Allahverdiyev "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.





**71) Afərin Qulamzadə**



Afərin Müqəddəs oğlu Qulamzadə (13 iyul 1999; Mamusta, Lənkəran rayonu, Azərbaycan – 3 noyabr 2020; Xocavənd, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Afərin Qulamzadə 13 iyul 1999-cu ildə Lənkəran rayonunun Mamusta kəndində anadan olub.

*Hərbi xidməti*

Azərbaycan Ordusunun əsgəri olan Afərin Qulamzadə 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. 3 noyabr 2020-ci ildə Xocavənd istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. 19 noyabr 2020-ci ildə torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Afərin Qulamzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Afərin Qulamzadə ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

**72) Romir Əliyev**



Romir Rəşadət oğlu Əliyev (14 may 1997; Aşağı Nüvədi, Lənkəran rayonu, Azərbaycan – 21 oktyabr 2020; Qubadlı, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Romir Əliyev 14 may 1997-ci ildə Lənkəran rayonunun Aşağı Nüvədi kəndində anadan olmuşdur. Ana tərəfdən moldovan idi. Orta məktəbi bitirdikdən sonra 2015-ci ildə hərbi xidmətə yollanmışdır. 2016-cı ildə hərbi xidmət müddətini bitirmiş və mülki şəxs olaraq fəaliyyətini davam etdirmişdir.

*Hərbi xidməti*

27 sentyabr 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən Müharibəsində Romir Əliyev könüllü əsgər olaraq iştirak

etmişdir. Cəbrayılın, Füzulinin, Zəngilanın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Romir Əliyev 21 oktyabr 2020-ci ildə Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Romir Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Romir Əliyev "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Romir Əliyev ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamma əsasən Romir Əliyev ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

**73) Elgün Muradov**



Elgün Etibar oğlu Muradov; (26 aprel 1998; Daşlıyataq, Şabran rayonu, Azərbaycan –28 oktyabr 2020; Pirmahmudlu, Füzuli rayonu, Azərbaycan)– Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı və hərbi xidməti*

Elgün Muradov 26 aprel 1998-ci ildə Şabran rayonunun Daşlıyataq kəndində anadan olmuşdur. 2004-cü ildə Şabran rayonu Ağalıq kəndində şəhid Elman Mütəllimov adına məktəbin birinci sinfinə daxil olmuşdur. Təhsilini Abşeron rayon Masazır kənd 3 saylı orta məktəbdə davam etdirmişdir. 2015-ci ildə həmin məktəbdən məzun olmuşdur. Həmin il Bakı Dövlət İqtisadiyyat və Humanitar Kollecinə qəbul olmuşdur. 2016-2017-ci illərdə "N" saylı hərbi hissədə həqiqi hərbi xidmət keçmişdir. Hərbi xidmətdə qumbaraatan köməkçisi vəzifəsində xidmət etmişdir. Həqiqi hərbi xidməti fəxri fərman və təşəkkürnamələrlə başa vurmuşdur. Hərbi xidmətdən qayıtdıqdan sonra 2019-cu ildə təhsil aldığı kolleci "maliyyə işi" ixtisası üzrə bitirmişdir.

*Vətən müharibəsi*

2020-ci ilin iyul ayında baş verən Tovuz döyüşlərindən sonra Elgün Muradov adını könüllülər sırasına yazdırmışdır. 29 sentyabr 2020-ci ildə Vətən Müharibəsinə çağırılmışdır. Könüllü əsgər Elgün Muradov Cəbrayılın, Füzulinin, Hadrutun azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuş və fəal iştirak etmişdir. 28 oktyabr 2020-ci ildə Füzuli rayonunun Pirmahmudlu kəndi istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. 30 oktyabr 2020-ci ildə Şabran rayonunun Daşlıyataq kəndində dəfn olunmuşdur.





Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elgün Muradov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Elgün Muradov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

**74) Əsgər Həsənov**

Əsgər İsmayıl oğlu Həsənov; (16 dekabr 1971 - 20 noyabr 1992) – Qarabağ müharibəsi şəhidi.



*Həyatı*

Əsgər İsmayıl oğlu Həsənov 16 dekabr 1971-ci ildə Yevlax rayonunun Malbinəsi kəndində anadan olmuşdur. Orta məktəbi həmin kəndin məktəbində bitirdikdən sonra o, hərbi xidmətə yollanmışdır. Xidməti başa vurduqdan sonra Əsgər doğulduğu kəndə qayıtmışdır. Bir müddət rabitə qovşağında işləyir. Bu zaman Birinci Qarabağ müharibəsi başlayır. 1992-ci ildə Əsgər könüllü cəbhəyə yollanır. Ağdərə rayonunun Canyataq, Gülyataq, Sırxavənd, Çıldıran və bir çox kəndlərinin müdafiəsində vuruşur. Əsgər Həsənov 20 noyabr 1992-ci ildə döyüş tapşırığını yerinə yetirdikdən sonra kəşfiyyatdan qayıdarkən minaya düşərək şəhid olmuşdur. O, doğulduğu Yevlax rayonunun Malbinəsi kəndində torpağa tapşırılmışdır.

**75) Bəybala Əliyev**



Bəybala Fazil oğlu Əliyev (22 oktyabr 1996; Səbətkeçməz, Gədəbəy rayonu, Azərbaycan– 2 oktyabr 2020; Kəlbəcər rayonu, Azərbaycan) – Azərbaycan Hərbi Dəniz Qüvvələrinin matrosu (dənizçi), Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Bəybala Əliyev 1996-cı il oktyabrın 22-də Gədəbəy rayonunun Səbətkeçməz kəndində anadan olub. 2002-2013-cü illərdə Səbətkeçməz kənd tam orta məktəbində təhsil

alıb. Subay idi.

*Hərbi xidməti*

Bəybala Əliyev 2013-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi hərbi xidmətdə olub. 2016-cı ildən isə Azərbaycan Hərbi Dəniz Qüvvələrinin sıralarında "matros" (dənizçi) hərbi rütbəsində müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət edirdi.

Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin matrosu olan Bəybala Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Bəybala Əliyev oktyabrın 2-də Murovdağ döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 08.12.2020-ci il tarixində Gədəbəy rayonunun Səbətkeçməz kəndində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Bəybala Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Bəybala Əliyev "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Bəybala Əliyev ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**76) Cavidan Məmmədli**



Cavidan Valeh oğlu Məmmədli (20 sentyabr 1997; İmişli, Azərbaycan – 7 oktyabr 2020; Qaraxanbəyli, Füzuli, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Cavidan Məmmədli 20 sentyabr 1997-ci ildə İmişli şəhərində anadan olmuşdur. Subay idi.

*Hərbi xidməti*

Azərbaycan Ordusunun əsgəri olan Cavidan Məmmədli 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 7 oktyabr 2020-ci ildə





sonuncu dəfə ailəsi ilə əlaqə saxlayan Cavidan Məmmədli elə həmin gün Füzuli rayonunun Qaraxanbəyli kəndi istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Nəşi 13 fevral 2021-ci ildə İmişli rayonunun Şahverdili kənd qəbiristanlığında torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Cavidan Məmmədli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**77) Bəxtiyar Aslanov**



Bəxtiyar İlqar oğlu Aslanov (28 dekabr 1998; Naftalan, Azərbaycan – 30 sentyabr 2020; Murovdağ, Kəlbəcər rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Bəxtiyar Aslanov 28 dekabr 1998-ci ildə Naftalanda dünyaya göz açmışdır. Əslən Şuşa rayonundan idi. Qarabağ müharibəsində, 8 may 1992-ci ildə Şuşa işğal edildikdən sonra Bəxtiyarın ailəsi Naftalanda məskunlaşmışdır.

*Hərbi xidməti*

Bəxtiyar orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanmışdır. Hərbi xidmət müddəti bitən Bəxtiyar yenidən ordu sıralarına qayıdır və müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmətini davam etdirir. O, Daşkəsən rayonu ərazisində yerləşən "N" saylı hərbi hissədə qulluq etmişdir.

***Vətən müharibəsi***

Azərbaycan Ordusunun əsgəri olan Bəxtiyar Aslanov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Murovdağın azad olunması uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Əməliyyatlar nəticəsində onun da arasında olduğu zabit-əsgər heyəti Ağbaba yüksəkliyini azad edirlər. Bundan sonra Bəxtiyar Aslanov və təxminən 7 nəfər silahının bitdiyinə görə əlbəyaxa döyüşürlər. Ailəsi ilə sonuncu dəfə 27 sentyabr 2020-ci ildə əlaqə saxlayan Bəxtiyar Aslanov 30 sentyabr tarixində döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Uzun müddət itkin olaraq axtarılan Bəxtiyarın nəşi 137 gün sonra Murovdağın Ağbaba yüksəkliyində tapılmış və 13 fevral 2021-ci ildə ailəsinin istəyi ilə Goranboy rayonunun Balakürd kəndində torpağa tapşırılmışdır.

Azərbaycamn ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Bəxtiyar Aslanov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Bəxtiyar Aslanov ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.

**78) Elçin İsmayılov**



Elçin Mikayıl oğlu İsmayılov, (7 fevral 1991; İmişli, Azərbaycan SSR – 4 noyabr 2020; Şuşa, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı və hərbi xidməti*

Elçin İsmayılov 7 fevral 1991-ci ildə İmişli şəhərində anadan olmuşdur. 1997-ci ildə şəhərin 7 saylı məktəbinin 1-ci sinfinə daxil olmuşdur. 2008-ci ildə həmin məktəbin 11-ci sinfini bitirmişdir. 2009-cu ilin aprel ayında hərbi xidmətə yollanmışdır. Elçin Tovuz rayonunun Ağdam kəndində xidmət etmişdir. İxtisasca snayper olmuşdur. 2010-cu ilin oktyabr ayında tərxis olunmuşdur. 2018-ci ilin dekabr ayından yenidən orduya qayıtmış, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq hərbi xidmətini davam etdirmişdir.

***Vətən müharibəsi***

Azərbaycan Ordusunun MAHHXHQ əsgəri olan Elçin İsmayılov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Cəbrayılın, Zəngilanın, Xocavəndin, Laçının, Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Noyabr ayının əvvəllərindən başlayan Şuşa döyüşlərində də iştirak edən MAHHXHQ əsgər Elçin İsmayılov 4 noyabr 2020-ci ildə Şuşa istiqamətində şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elçin İsmayılov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Elçin İsmayılov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Elçin İsmayılov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan





Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Elçin İsmayılov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elçin İsmayılov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamma əsasən Elçin İsmayılov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**79) Sabir Əzizli**



Sabir Hikmət oğlu Əzizli (14 noyabr 1998; İmişli, Azərbaycan – 29 oktyabr 2020; Qubadlı, Azərbaycan)– Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı və hərbi xidməti*

Sabir Əzizli 14 noyabr 1998-ci ildə İmişli şəhərində anadan olmuşdur. 2016-cı ildə İmişli şəhər 1 saylı tam orta məktəbi bitirmişdir. 2017-ci ildə Naxçıvanda hərbi xidmət müddətini davam etdirmişdir.

***Vətən müharibəsi***

Azərbaycan Ordusunun əsgəri olan Sabir Əzizli 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən Müharibəsində iştirak etmişdir. Füzulinin və Cəbrayılın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Ailəsi ilə sonuncu dəfə 29 oktyabr tarixində əlaqə saxlamışdır. Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə ağır yaralansa da, döyüşlərə yenidən davam etmişdir və döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Uzun müddət itkin olaraq axtarılan Sabir Əzizlinin nəşi 10 yanvar 2021-ci ildə İmişli Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Sabir Əzizli "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Sabir Əzizli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş

əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Sabir Əzizli ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Sabir Əzizli ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

**80) Anar Atayev**



Anar Mamed oğlu Atayev (d. 11 mart 1996; Minaxorlu, Ağcabədi rayonu, Azərbaycan - ö. 11 mart 2015; Qiyaməddinli, Ağcabədi rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri. 2015-ci ildə Azərbaycan-Ermənistan təmas xəttində ermənilərin atəşkəs rejimini pozması nəticəsində şəhid olmuşdur.

*Həyatı*

Anar Atayev 11 mart 1996-cı ildə Ağcabədi rayonunun Minaxorlu kəndində anadan olmuşdur.

*Hərbi xidməti*

Əsgər Anar Atayev 11 mart 2015-ci ildə Ağcabədi rayonunun Qiyaməddinli kəndində Azərbaycan-Ermənistan təmas xəttində ermənilərin atəşkəs rejimini pozması nəticəsində şəhid olmuşdur. 12 mart 2015-ci ildə Anar Atayev doğulduğu Ağcabədi rayonunun Minaxorlu kəndində torpağa tapşırılmışdır.

**81) Rəşad Mikayılzadə**



Rəşad İlham oğlu Mikayılzadə; (30 sentyabr 1995; Camaşəir, Lerik rayonu, Azərbaycan – 9 noyabr 2020; Şuşa, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı və hərbi xidməti*

Rəşad Mikayılzadə 30 sentyabr 1995-ci ildə Lerik rayonunun Camaşəir kəndində anadan olmuşdur. Orta təhsilini Bakı şəhəri 240 nömrəli tam orta məktəbdə aldıqdan sonra Rəşad Sumqayıt Dövlət Universitetində ali təhsil almışdır. Ali təhsilini bitirdikdən sonra Qazaxda həqiqi hərbi xidmət etmişdir.

2015-ci ildə Azərbaycanda keçirilən I Avropa Oyunlarının könüllüsü olmuş, xidmətinə görə Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən mükafatlandırılmışdır.

2020-ci ildə Rəşad Mikayılzadə yenidən səfərbər olunmuş, həmin ilin sentyabrının 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilə-





rin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü əsgər kimi iştirak etmişdir. Füzulinin və Xocavəndin azad olunması uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Könüllü əsgər Rəşad Mikayılzadə 9 noyabr 2020-ci ildə Şuşanın azad olunması uğrunda gedən döyüşlərdə komandirini xilas edərkən snayperlə açılan atəş nəticəsində şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Rəşad Mikayılzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman cəsarət göstərdiyinə, habelə qətiyyətli addımlar nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Rəşad Mikayılzadə ölümündən sonra "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Rəşad Mikayılzadə ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

**82) Anar Nurullayev**



Anar Siyavuş oğlu Nurullayev (19 yanvar 2001; Sabirabad rayonu, Azərbaycan – 30 sentyabr 2020; Tərtər rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin kiçik çavuşu, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Anar Nurullayev 2001-ci il yanvarın 19-da Sabirabad rayonunun Osmanlı kəndində anadan olub. Subay idi.

*Hərbi xidməti*

Azərbaycan Ordusunun kiçik çavuşu olan Anar Nurullayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Anar Nurullayev sentyabrın 30-da Talış istiqamətində şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 2021-ci il fevralın 17-də Sabirabad rayonunun Osmanlı kəndində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Anar Nurullayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Anar Nurullayev

ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**83) Elşən Məmmədov**



Elşən Əli oğlu Məmmədov (18 aprel 1982, Qazıqulu, Tovuz rayonu, Azərbaycan – 21 sentyabr 2020, Tovuz rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin kiçik çavuşu. 2020-ci ildə Tovuz rayonu istiqamətində Azərbaycan-Ermənistan təmas xəttində ermənilərin atəşkəs rejimini pozması nəticəsində şəhid olub.

*Həyatı*

Elşən Məmmədov 18 aprel 1982-ci ildə Tovuz rayonunun Qazıqulu kəndində anadan olmuşdur. Ailəli idi, 3 övladı var.

*Hərbi xidməti*

MAHHXHQ kiçik çavuş olan Elşən Əli oğlu Məmmədov 21 sentyabr 2020-ci ildə Tovuz rayonu istiqamətində Azərbaycan-Ermənistan təmas xəttində ermənilərin atəşkəs rejimini pozması nəticəsində şəhid olub. Tovuz şəhər qəbiristanlığında torpağa tapşırılmışdır. Elşən Məmmədov Qarabağ müharibəsindən sonra elan olunan atəşkəs dönəminin son şəhidlərindən biridir.

**84) Elmar İbayev**



Elmar Hikmət oğlu İbayev (29 yanvar 1978; Lənkəran, Azərbaycan SSR – 12 oktyabr 2020; Füzuli rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Elmar İbayev 1978-ci il yanvarın 29-da Lənkəran şəhərində anadan olub. 1984-1994-cü illərdə V. Əliyev adına 4 nömrəli tam orta məktəbdə təhsil alıb. 1994-1998-ci illərdə Azərbaycan Dövlət Neft Akademiyasında (ADNA) ali təhsil alıb.

*Hərbi xidməti*

Azərbaycan Ordusunun baş leytenantı olan Elmar İbayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elmar İbayev oktyabrın 12-də Füzuli döyüşləri zamanı şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elmar İbayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə





yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elmar İbayev ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elmar İbayev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

**85) Qüdrət Adişov**



Qüdrət Rahim oğlu Adişov (26 iyul 1998, Ostayır, Yardımlı rayonu, Azərbaycan – 28 sentyabr 2020, Goranboy, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Qüdrət Adişov 26 iyul 1998-ci ildə Yardımlı rayonunun Ostayır kəndində anadan olmuşdur. Sonra ailəsi ilə birgə Bakı şəhərinin Zabrat qəsəbəsində məskunlaşmışdır. Orta məktəbi də yaşadığı qəsəbədə alan Qüdrət 2016-cı ildə Bakı Biznes Universitetinin iqtisadiyyat fakültəsinə daxil olmuşdur. O, həmçinin, ASAN xidmət könüllüsü olaraq çalışırdı. "FotoMən 2" və digər layihələrdə aktiv iştirak etmişdi. Qüdrət Adişov Cəfər Cabbarlının "Vəfalı Səriyyə" pyesində molla obrazını canlandırmışdır.

*Hərbi xidməti*

Universiteti başa vurduqdan sonra 7 iyul 2020-ci ildə həqiqi hərbi xidmətə yollanmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Qüdrət Adişov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Tərtər istiqamətində gedən döyüşlərdə vuruşmuşdur. 28 sentyabr 2020-ci ildə Goranboy istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. 2 oktyabr 2020-ci ildə Zabrat qəsəbəsində yerləşən Zabrat-1 qəbiristanlığında torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Qüdrət Adişov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən şəxsi mərdlik və igidlik göstərdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Qüdrət Adişov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş

əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Qüdrət Adişov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Qüdrət Adişov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Ağdam rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Qüdrət Adişov ölümündən sonra "Ağdamın azad olunmasına görə" medalı ilə təltif edildi.

**86) Elşən Məmmədov**



Elşən Dağıstan oğlu Məmmədov (6 fevral 1996, Hacıqərvənd, Tərtər rayonu, Azərbaycan - 19 oktyabr 2020, Ağdərə, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Elşən Məmmədov 6 fevral 1996-cı ildə Tərtər rayonunun Hacıqərvənd kəndində anadan olmuşdur.

*Hərbi xidməti*

Azərbaycan Ordusunun əsgəri olan Elşən Məmmədov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. 19 oktyabr 2020-ci ildə Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elşən Məmmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlamlmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elşən Məmmədov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.





**87) Elşən Məmmədov**



Elşən Əziz oğlu Məmmədov (21 aprel 1999, Danyeri, Şərur rayonu, Azərbaycan – 21 oktyabr 2020, Füzuli, Azərbaycan)– Azərbaycan Silahlı Qüvvələrinin leytenantı, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Elşən Məmmədov 21 aprel 1999-cu ildə Şərur rayonunun Danyeri kəndində anadan olmuşdur.

*Hərbi xidməti*

Azərbaycan Ordusunun leytenantı olan Elşən Məmmədov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. 21 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elşən Məmmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Elşən Məmmədov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Elşən Məmmədov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yerinə yetirən zaman mərdlik və igidlik göstərdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elşən Məmmədov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

**88) Əkram Abdullayev**



Əkram Azad oğlu Abdullayev; (21 fevral 1998, Qarakazımlı, Cəlilabad rayonu, Azərbaycan – 29 oktyabr 2020, Laçın, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı və hərbi xidməti*

Əkram Abdullayev 21 fevral 1998-ci ildə Cəlilabad rayonunun Qarakazımlı kəndində anadan olmuşdur. 2016-cıildə şəhid Murad Muradov adına Qarakazımlı kənd

tam orta məktəbini bitirmişdir.

2017-2019-cu illərdə N saylı hərbi hissədə xidmət etmişdir. 2019-cu ildə yenidən Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə MAHHXHQ əsgər kimi xidmət etməyə başlamışdır.

***Vətən müharibəsi***

Azərbaycan Ordusunun əsgəri olan Əkram Abdullayev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Cəbrayılın, Füzulinin, Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 29 oktyabr 2020-ci ildə Laçın uğrunda gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Əkram Abdullayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Əkram Abdullayev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Əkram Abdullayev ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

**89) Babək Namazov**



Babək Səhman oğlu Namazov (15 may 1994; Şəmkir rayonu, Azərbaycan – 5 oktyabr 2020; Cəbrayıl rayonu, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin kiçik çavuşu, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Babək Namazov 1994-cü il mayın 15-də Şəmkir rayonunun Əliyaqublu kəndində anadan olub.

*Hərbi xidməti*

Azərbaycan Ordusunun kiçik çavuşu olan Babək Namazov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Babək Namazov oktyabrın 5-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 2021-ci il fevralın 20-də dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına





qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Babək Namazov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Babək Namazov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Babək Namazov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Babək Namazov ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.

**90) Əkbər Quliyev**



Əkbər Güləhməd oğlu Quliyev (18 avqust 2000; Neftçala rayonu, Azərbaycan –27 sentyabr 2020; Kəlbəcər rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin kiçik çavuşu, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Əkbər Quliyev 2000-ci il avqustun 18-də Neftçala rayonunun Xıllı qəsəbəsində anadan olub.

*Hərbi xidməti*

Azərbaycan Ordusunun kiçik çavuşu olan Əkbər Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Əkbər Quliyev sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 2021-ci il fevralın 16-da II Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Əkbər Quliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan

Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Əkbər Quliyev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Əkbər Quliyev ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**91) Əmirağa Ağayev**



Əmirağa Mahir oğlu Ağayev (29 may 2002; Surra, Şabran rayonu, Azərbaycan –11 oktyabr 2020; Füzuli rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Əmirağa Ağayev 29 may 2002-ci ildə Şabran rayonunun Surra kəndində dünyaya göz açmışdır.

*Hərbi xidməti*

Orta məktəbi bitirdikdən sonra Əmirağa 2020-ci ilin iyul ayında hərbi xidmətə yollanmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Əmirağa Ağayev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Ailəsi ilə sonuncu dəfə 11 oktyabr tarixində əlaqə saxlayan Əmirağa Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Uzun müddət itkin olaraq axtarılan Əmirağa Ağayevin nəşi 10 fevral 2021-ci ildə tapılmış və 11 fevral tarixində Şabran Şəhidlər Xiyabanında dəfn edilmişdir. Onun dəfn mərasimində Şabran Rayon İcra Hakimiyyətinin rəhbərliyi, hüquq mühafizə orqanlarının əməkdaşları, hərbçilər və rayon ictimaiyyəti iştirak edib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Əmirağa Ağayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Əmirağa Ağayev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Əmirağa Ağayev ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.





**92) Ələkbər Ələkbərli**



Ələkbər Ramiz oğlu Ələkbərli (28 iyul 1991; Köçərli, Tərtər rayonu, Azərbaycan SSR– 29 sentyabr 2020; Ağdərə, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Ələkbər Ələkbərli 28 iyul 1991-ci ildə Tərtər rayonunun Köçərli kəndində dünyaya göz açmışdır.

*Hərbi xidməti*

Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanan Ələkbər Ələkbərli hərbi xidmət müddətini bitirdikdən sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq hərbi xidmətini davam etdirmişdir.

***Vətən müharibəsi***

Azərbaycan Ordusunun əsgəri olan Ələkbər Ələkbərli 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. 29 sentyabr 2020-ci ildə Ağdərə istiqamətində gedən döyüşlərdə itkin düşmüşdür. Uzun müddət axtarılan Ələkbər Ələkbərlinin nəşi tapıldıqdan sonra 7 fevral 2021-ci ildə Tərtər rayonunun Köçərli kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Ələkbər Ələkbərli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**93) Qubad Zeynalov**



Qubad İslam oğlu Zeynalov (15 fevral 2001; Hacıqabul, Azərbaycan – 4 fevral 2021; Ağdam, Azərbaycan) -Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi iştirakçısı.

*Həyatı*

Qubad Zeynalov 15 fevral 2001-ci ildə Hacıqabul rayonunda dünyaya göz açmışdır. Orta məktəbi 2019-cu ildə bitirdikdən sonra hərbi xidmətə yollanmışdır.

***İkinci Qarabağ müharibəsində iştirakı***

Azərbaycan Ordusunun əsgəri olan Qubad Zeynalov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən Müharibəsində iştirak etmişdir. Döyüşlər zamanı yaralansa da, sonradan yenidən cəbhəyə qayıtmışdır.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların dö-

yüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Qubad Zeynalov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

*Vəfatı*

Vətən Müharibəsi bitdikdən sonra Qarabağda xidmətini davam etdirən əsgər Qubad Zeynalov 4 fevral 2021-ci ildə Ağdam rayonu ərazisində baş verən partlayış nəticəsində həlak olmuşdur.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Qubad Zeynalov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

**94) Samir Qəfərli**



Samir Möhlət oğlu Qəfərli; (1 noyabr 1994, Bərgüşad, Ucar rayonu, Azərbaycan – 30 oktyabr 2020, Laçın, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Samir Qəfərli 1 noyabr 1994-cü ildə Ucar rayonunun Bərgüşad kəndində anadan olmuşdur. 2001-ci ildə Ucar rayon Bərgüşad kənd Şəhid Ağamusa Mustafayev adına 1 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. 2012-ci ildə həmin məktəbi bitirən Samir Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kulturologiya fakültəsinə qəbul olmuşdur. Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması ixtisası üzrə təhsilini davam etdirmişdir. Təhsilində bir müddət fasilə yaranan Samir 2016-cı ildə təhsilini yenidən davam etdirmiş və 2019-cu ildə həmin məktəbi bitirmişdir. Təhsil aldığı müddətdə Samir Qəfərli Xəzər TV-də yayımlanan "Ata ocağı" serialına çəkilmişdir.

*Hərbi xidməti*

2019-cu ilin oktyabr ayında Samir Qəfərli hərbi xidmətə yollanmışdır.

***Vətən müharibəsi***

Azərbaycan Ordusunun əsgəri olan Samir Qəfərli 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Sonuncu dəfə ailəsi ilə 15 oktyabrda əlaqə saxlamışdır. Cəbrayılın, Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Əsgər Samir Qəfərli 30 oktyabr 2020-ci ildə Laçın istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 31 oktyabr 2020-ci ildə Ucar rayonunun Bərgüşad kəndində anasının yanında torpağa tapşırılmışdır.





*Subay idi.*

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Samir Qəfərli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Samir Qəfərli ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Qubadlı şəhərinin işğaldan azad olunmasına görə gedən döyüşlərdə xüsusi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Samir Qəfərli "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Laçın rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Samir Qəfərli ölümündən sonra "Laçının azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını və xidməti vəzifələrini yerinə yetirən zaman fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 30.12.2020-ci il tarixli Sərəncamına əsasən Samir Qəfərli ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edildi.

**95) Ruzi İbrahimov**



Ruzi Əliağa oğlu İbrahimov (23 fevral 1983, Yengicə, Naxçıvan MSSR – 7 noyabr 2020, Şuşa) – Azərbaycan Silahlı Qüvvələrinin çavuşu, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Ruzi İbrahimov 1983-cü il fevralın 23-də Şərur rayonunun Yengicə kəndində anadan olub. 1989-2000-ci illərdə Yengicə kənd tam orta məktəbində təhsil alıb.

*Hərbi xidməti*

Azərbaycan Ordusunun çavuşu olan Ruzi İbrahimov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ruzi İbrahimov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. Şərur şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu

şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Ruzi İbrahimov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarının rəhbəri olan, düşmənin canlı qüvvəsinin məhv edilməsində rəşadət göstərən, vəzifə borcunu ləqayətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Ruzi İbrahimov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Ruzi İbrahimov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Ruzi İbrahimov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

**96) Elməddin Mustafayev**



Elməddin Məhəmməd oğlu Mustafayev (1 may 2001, Qəbələ rayonu – 10 oktyabr 2020, Füzuli rayonu) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı və hərbi xidməti*

Elməddin Mustafayev 1 may 2001-ci ildə Qəbələ rayonunda dünyaya göz açmışdır. 2007-ci ildə Qəbələ şəhər 4 saylı tam orta məktəbə daxil olmuşdur. Orta təhsilini bu məktəbdə bitirdikdən sonra 2017-ci ildə Qəbələ rayonunda yerləşən Peşə Məktəbinə qəbul olmuşdur. Peşə məktəbini aşpazlıq ixtisası üzrə bitirmişdir. Elməddin Mustafayev 5 iyul 2019-cu ildə hərbi xidmətə yollanmışdır. Xidmətini Füzuli rayonunda davam etdirmişdir.

***Vətən müharibəsi***

Azərbaycan Ordusunun əsgəri olan Elməddin Mustafayev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 10 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Qəbələ şəhər qəbiristanlığında torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il





tarixli Sərəncamına əsasən Elməddin Mustafayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Elməddin Mustafayev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Elməddin Mustafayev ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Elməddin Mustafayev ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elməddin Mustafayev "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

**97) Mirnağı Şərifov**



Mirnağı Qasım oğlu Şərifov (20 avqust 1995; Bacirəvan, Cəlilabad rayonu, Azərbaycan – 21 oktyabr 2020; Füzuli rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin giziri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Mirnağı Şərifov 20 avqust 1995-ci ildə Cəlilabad rayonunun Bacirəvan kəndində dünyaya göz açmışdır.

*Hərbi xidməti*

Azərbaycan Silahlı Qüvvələrinin giziri olan Mirnağı Şərifov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə vuruşmuşdur. 21 oktyabr 2020-ci ildə Füzuli rayonunda döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Mirnağı Şərifov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Mirnağı Şərifov ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Mirnağı Şərifov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını və xidməti vəzifələrini yerinə yetirən zaman fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 30.12.2020-ci il tarixli Sərəncamına əsasən Mirnağı Şərifov ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edildi.

**98) Sirus Şirbəyli**



Sirus Hamil oğlu Şirbəyli (20 fevral 1996; Zevin, Yardımlı rayonu, Azərbaycan –7 noyabr 2020; Şuşa, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Sirus Şirbəyli 20 fevral 1996-cı ildə Yardımlı rayonunun Zevin kəndində dünyaya göz açmışdır. 2002-2013-cü illərdə Zevin kənd orta məktəbində təhsil almışdır.

*Hərbi xidməti*

Sirus Şirbəyli 2013-2014-cü illər ərzində "N" saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. Xidmətini Sərhəd Qoşunlarında keçmişdir. 2018-ci ilin iyul ayından müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi hərbi xidmət müddətini davam etdirmişdir. Naxçıvan Muxtar Respublikasında kəşfiyyatçı xüsusi təyinatlı kimi xidmət etmişdir.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin əsgəri olan Sirus Şirbəyli 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 7 noyabr 2020-ci ildə Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. 11 noyabr 2020-ci ildə Yardımlı rayon Zevin kənd qəbiristanlığında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Sirus Şirbəyli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Sirus Şirbəyli ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş





əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Sirus Şirbəyli ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

**99) Elvin Babayev**

Elvin Əkbər oğlu Babayev (28 fevral 2001; Gəncə, Azərbaycan – 2 oktyabr 2020; Xocavənd rayonu, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.



*Həyatı və hərbi xidməti*

Elvin Babayev 28 fevral 2001-ci ildə Gəncə şəhərində anadan olmuşdur. 2007-ci ildə Bakı şəhərində yerləşən leytenant Kərim Kərimov adına 8 nömrəli orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. 9-cu sinifdə məktəbdə gənclər arasında komandir olmuş, Nəsimi rayonunun hərbi tədbirlərində iştirak etmiş və gənclər arasında keçirilən "Şahinlər" yarışına qatılmışdır. 2019-cu ildə orta məktəbi bitirir. 2019-cu ilin iyul ayında hərbi xidmətə yollanmışdır.

***Vətən müharibəsi***

Azərbaycan Ordusunun əsgəri olan Elvin Babayev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Döyüşlərdə iştirak edəndə onun tərxis olunmasına 3 ay qalırdı. Elvin Babayev 2 oktyabr 2020-ci ildə Xocavənd istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. II Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elvin Babayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**100) Elşən Səmədli**



Elşən Bayram oğlu Səmədli (19 fevral 1993; Yurdçu, Şərur rayonu, Azərbaycan – 1 dekabr 2020; Qubadlı, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi iştirakçısı.

*Həyatı və hərbi xidməti*

Elşən Səmədli 19 fevral 1993-cü ildə Şərur rayonunun Yurdçu kəndində dünyaya göz açmışdır. Orta təhsilini bitirdikdən sonra hərbi xidmətə yollanan Elşən 2011-ci ildə müddətli həqiqi hərbi xidmətini başa vurmuşdur. 2016-cı ilin aprel ayının əvvəlində Dördgünlük müharibədə iştirak etmişdir.

***Vətən müharibəsi***

27 sentyabr 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Elşən Səmədli könüllü əsgər olaraq iştirak etmişdir. 42 gün ərzində müharibənin bir çox döyüşlərində vuruşmuşdur. Vətən Müharibəsi bitdikdən sonra Elşən Səmədli Qubadlıda xidmətini davam etdirmiş və 1 dekabr 2020-ci ildə xidmət zamanı minaya düşərək şəhid olmuşdur. 2 dekabr tarixində Suraxanıda torpağa tapşırılmışdır.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elşən Səmədli ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

**101) Vasif Həmidov**



Vasif Natiq oğlu Həmidov (4 iyun 1987, Şəki – 27 oktyabr 2020, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Vasif Həmidov 4 iyun 1987-ci ildə Şəki şəhərində dünyaya göz açmışdır. Orta təhsilini Şəki şəhər 19 saylı tam orta məktəbdə almışdır. Ailəli idi, 4 yaşında və 7 aylıq iki övladı yadigar qaldı.

*Hərbi xidməti*

***Vətən müharibəsi***

Azərbaycan Ordusunun əsgəri olan Vasif Həmidov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Tərtər istiqamətində gedən döyüşlərdə vuruşmuşdur. Tərtər-Ağdərə döyüşlərində döyüş tapşırığını yerinə yetirərkən ağır yaralanmış və xəstəxanaya yerləşdirilmişdir. 7 gün komada qaldıqdan sonra dünyasını dəyişən Vasif Həmidovun nəşi 27 oktyabr 2020-ci ildə torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Vasif Həmidov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Vasif Həmidov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.





Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Vasif Həmidov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**102) Şükür Hacıyev**



Şükür Aslan oğlu Hacıyev (8 mart 2000, Yevlax – 5 noyabr 2020, Şuşa) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı və hərbi xidməti*

Şükür Hacıyev 8 mart 2000-ci ildə Yevlax şəhərində anadan olmuşdur. Əslən Laçın rayonunun Budaqdərə kəndindəndir. Orta məktəbi bitirdikdən sonra 2018-ci ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə yollanmışdır.

***Vətən müharibəsi***

Azərbaycan Ordusunun əsgəri olan Şükür Hacıyev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Qubadlı döyüşlərində vuruşmuşdur. 5 noyabr 2020-ci ildə Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Şükür Hacıyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Qubadlı şəhərinin işğaldan azad olunmasına görə gedən döyüşlərdə xüsusi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Şükür Hacıyev ölümündən sonra "Qubadhnın azad olunmasına görə" medalı ilə təltif edildi.

**103) Aqil Salyayev**



Aqil Anar oğlu Salyayev (23 oktyabr 1996; Qarayazı, Ağstafa rayonu, – 26 oktyabr 2020; Qubadlı rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Aqil Salyayev 1996-cı il oktyabrın 23-də Ağstafa rayonunun Qarayazı qəsəbəsində dünyaya göz açıb. 2003–2014-cü illərdə F. Piriyev adına 18 nömrəli Sumqayıt şəhər tam orta məktəbində təhsil alıb. Subay idi.

*Hərbi xidməti*

Aqil Salyayev 2014–2016-cı illərdə Sərhəd Qoşunla-

rının sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2018-ci ildən Lələtəpədə post komandiri olaraq müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb.

***İkinci Qarabağ müharibəsində iştirakı***

Azərbaycan Ordusunun əsgəri olan Aqil Salyayev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd və Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə savaşıb. Aqil Salyayev oktyabrın 26-da Qubadlı döyüşləri zamanı şəhid olub. Ağstafa rayonunun Köçvəlili kəndində dəfn edilib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Aqil Salyayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Aqil Salyayev "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Aqil Salyayev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

**104) Seymur Abasov**



Seymur Adil oğlu Abasov (10 avqust 1999, Buravar, Cəlilabad rayonu – 29 oktyabr 2020, Qubadlı) – Azərbaycan Silahlı Qüvvələrinin kiçik çavuşu, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Seymur Abasov 1999-cu il avqustun 10-da Cəlilabad rayonunun Buravar kəndində anadan olub. Subay idi.

*Hərbi xidməti*

Seymur Abasov 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Seymur Abasov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Seymur Abasov oktyabrın 29-da Qubadlı döyüşləri zamanı şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Seymur Abasov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Seymur Abasov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Seymur Abasov ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Seymur Abasov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

**105) Fərhad Məlikzadə**



Fərhad Nadir oğlu Məlikzadə (20 avqust 1997, Şıx Salahlı, Sabirabad rayonu – 5 noyabr 2020, Şuşa) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Fərhad Məlikzadə 20 avqust 1997-ci ildə Sabirabad rayonunun Şıx Salahlı kəndində dünyaya göz açmışdır. Orta təhsilini 2004-2014-cü illərdə almışdır. Cüdo, güləş, qaydasız döyüş kimi idman növləri ilə məşğul olmuş, bir çox yarışmalarda qalib olmuşdur.

*Hərbi xidməti*

Fərhad Məlikzadə 2015-ci ildə müddətli həqiqi hərbi xidmət qulluqçusu olaraq hərbi xidmətə yollanmışdır. 2018-ci ildə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq hərbi xidmətini davam etdirmiş, kurslardan keçdikdən sonra kəşfiyyatçı kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Fərhad Məlikzadə 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Cəbrayılın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Füzuli döyüşlərində düşmən hücumunun qarşısını alarkən ağır yaralanmış və xəstəxanaya yerləşdirilmişdir. Bir neçə günlük müalicədən sonra yenidən döyüş meydanına qayıtmışdır. Fərhad Məlikzadə 5 noyabr 2020-ci ildə Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. 12 noyabr tarixində torpağa tapşırılmışdır. Fərhad Məlikzadə bir müddət itkin olaraq axtarılan, sonra isə torpağa tapşırılan şəhid Anar

Nurullayevin dostu idi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqlarm icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Fərhad Məlikzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarının rəhbəri olan, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində rəşadət göstərdiyinə, vəzifə borcunu ləqayətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Fərhad Məlikzadə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Fərhad Məlikzadə ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Fərhad Məlikzadə ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Fərhad Məlikzadə ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

**106) İlkin Muradlı**



İlkin İlyas oğlu Muradlı (27 sentyabr 1995, Şahbuz, Naxçıvan Muxtar Respublikası – 9 noyabr 2020, Şuşa) –Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı, Vətən müharibəsi şəhidi.

*Həyatı və hərbi xidməti*

İlkin Muradlı 27 sentyabr 1995-ci ildə Şahbuz şəhərində dünyaya göz açmışdır. Orta təhsil aldıqdan sonra 2011-ci ildə Naxçıvan Muxtar Respublikasında yerləşən Heydər Əliyev adına Hərbi Liseydə təhsilini davam etdirmişdir. 2014-cü ildə hərbi liseyi bitirərək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdur. 2017-ci ildə təhsilini başa vuraraq leytenant rütbəsi ilə hərbi xidmətinə başlamışdır. 29 iyun 2020-ci ildə baş leytenant rütbəsi alaraq hərbi xidmətini davam etdirmişdir.

***Vətən müharibəsi***

Azərbaycan Ordusunun baş leytenantı olan İlkin Muradlı 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin





azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Kəlbəcər istiqamətində gedən döyüşlərdə vuruşmuşdur. 9 noyabr 2020-ci ildə Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə Şuşa-Kəlbəcər istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən İlkin Muradlı ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman cəsarət və fədakarlıq göstərdiyinə, habelə təşəbbüskar və qətiyyətli addımlar nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamma əsasən İlkin Muradlı ölümündən sonra "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən İlkin Muradlı ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən İlkin Muradlı ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**107) Əli Mehdizadə**



Əli Məcid oğlu Mehdizadə (15 avqust 2001, Lənkəran – 1 noyabr 2020, Şuşa) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Əli Mehdizadə 15 avqust 2001-ci ildə Lənkəranda dünyaya göz açmışdır.

*Hərbi xidməti*

Əli Mehdizadə orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanmışdır.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin əsgəri olan Əli Mehdizadə 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Murovdağın, Cəbrayılın, Füzulinin, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Cəbrayıl istiqamətində çiynindən qəlpə yarası almış və hospitala yerləşdirilmişdir. Müalicəsi bitdikdən sonra yenidən döyüşə yollanmışdır. Əli Mehdizadə 1 noyabr 2020-ci ildə axşam saatlarında Şuşa döyüşləri gedişatında Şuşa rayonunun Daşaltı kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycan Müdafiə Naziri Zakir Həsənovun 03.11.2020-ci il tarixli Sərəncamına əsasən Əli Mehdizadə ölümündən sonra "Şücaətə görə" medalı ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Əli Mehdizadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Əli Mehdizadə ölümündən sonra "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Əli Mehdizadə ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Əli Mehdizadə ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Əli Mehdizadə ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Əli Mehdizadə ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.

**108) Şəmsəddin Vəliyev**



Şəmsəddin Aqil oğlu Vəliyev (22 yanvar 2001, Dadaşbəyli, Sabirabad rayonu – 24 oktyabr 2020, Tuğ, Xocavənd rayonu) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı və hərbi xidməti*

Şəmsəddin Vəliyev 22 yanvar 2001-ci ildə Sabirabad rayonunun Dadaşbəyli kəndində dünyaya göz açmışdır. Orta məktəbi bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətə yollanmışdır. Hərbi xidmət müddətini bitirdikdən sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq hərbi xidmət müddətini davam etdirmişdir.





***Vətən müharibəsi***

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin əsgəri olan Şəmsəddin Vəliyev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Xocavəndin azad olunması uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 24 oktyabr 2020-ci ildə Xocavənd rayonunun Tuğ kəndi istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Şəmsəddin Vəliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Şəmsəddin Vəliyev ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını və xidməti vəzifələrini yerinə yetirən zaman fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 30.12.2020-ci il tarixli Sərəncamına əsasən Şəmsəddin Vəliyev ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Şəmsəddin Vəliyev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Şəmsəddin Vəliyev ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

**109) Məhəmməd Talıbov**



Məhəmməd Aydın oğlu Talıbov (10 mart 1996, Böyük Bəhmənli, Füzuli rayonu – 3 noyabr 2020, Qarabağ) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı və hərbi xidməti*

Məhəmməd Talıbov 10 mart 1996-cı ildə Füzuli rayonunun Böyük Bəhmənli kəndində dünyaya göz açmışdır. Orta məktəbi bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətə yollanmışdır. Hərbi xidmət müddətini bitirdikdən sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq hərbi xidmət müddətini davam etdirmişdir.

*Vətən müharibəsi*

Azərbaycan Ordusunun əsgəri olan Məhəmməd Talıbov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. 3 noyabr 2020-ci ildə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Məhəmməd Talıbov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Məhəmməd Talıbov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Məhəmməd Talıbov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

**110) Əlisa Əliyev**



Əlisa Arif oğlu Əliyev (8 yanvar 2000, Qızılağac, Masallı rayonu – 6 noyabr 2020, Şuşakənd, Xocalı rayonu) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Əlisa Əliyev 8 yanvar 2000-ci ildə Masallı rayonunun Qızılağac kəndində dünyaya göz açmışdır. 2006-2017-ci illərdə Qızılağac kənd 2 nömrəli tam orta məktəbində təhsil almışdır. Hərbi xidmətini bitirdikdən sonra Masallıda yerləşən "Dostluq" MMC-də çalışmışdır.

*Hərbi xidməti*

Əlisa Əliyev 2018-ci ildə həqiqi hərbi xidmətə yollanmış, «N» saylı hərbi hissədə həqiqi hərbi xidmətini başa vurmuşdur.Azərbaycan Ordusunun əsgəri olan Əlisa Əliyev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Bir çox hərbi əməliyyatlarda və döyüşlərdə vuruşmuşdur. Əlisa Əliyev noyabr ayının əvvəllərindən başlayan Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərin gedişatında 6 noyabr 2020-ci ildə Xocalı rayonunun Şuşakənd kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən minaatan mərmisinin dəyməsi nəticəsində şəhid olmuşdur. Əlisa Əliyev Qızılağac kənd qəbiristanlığında torpağa tapşırılmışdır.





Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Əlisa Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Əlisa Əliyev ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman mərdlik və igidlik göstərdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Əlisa Əliyev ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamma əsasən Əlisa Əliyev ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamma əsasən Əlisa Əliyev ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

**111) Rasif Məmmədov**



Rasif Salman oğlu Məmmədov (30 noyabr 1967; Xocalı, Azərbaycan – 26 fevral 1992; Xocalı, Azərbaycan) – I Qarabağ müharibəsinin şəhidi.

*Həyatı və hərbi xidməti*

Rasif Məmmədov 30 noyabr 1967-ci ildə Xocalıda dünyaya göz açmışdır. Qarabağ müharibəsi illərində könüllü olaraq Milli Ordu sıralarına yazılmışdır. 26 fevral 1992-ci ildə Xocalı soyqırımı zamanı ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir. Ağdam rayonunun Uzundərə kəndində torpağa tapşırılmışdır.

İgidlik və şücaətlərinə görə Azərbaycan Prezidentinin Sərəncamma əsasən Rasif Məmmədov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilmişdir.

**112) Həndi Əliyev**



Həndi Elbrus oğlu Əliyev (19 iyun 1992; Gəncə, Azərbaycan – 13 oktyabr 2020; Suqovuşan, Tərtər rayonu, Azərbaycan)– Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Həndi Əliyev 19 iyun 1992-ci ildə Gəncə şəhərində dünyaya göz açmışdır. 1999-cu ildə Gəncə şəhər 31 nömrəli tam orta məktəbin birinci sinfinə daxil olmuş, 2011-ci ildə orta təhsilini başa vurmuşdur.

*Hərbi xidməti*

2011-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhər Nizami Rayon Şöbəsindən hərbi xidmətə çağırılmış, Naxçıvan Muxtar Respublikasındakı "N" saylı hərbi hissədə xidmət etmişdir.

5 sentyabr 2020-ci ildə Müdafiə Nazirliyinin «N» saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmətə başlamışdır.

*Vətən müharibəsi*

Azərbaycan Ordusunun əsgəri olan Həndi Əliyev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Suqovuşanın azad olunması uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 13 oktyabr 2020-ci ildə Suqovuşanda döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Həndi Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Həndi Əliyev ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamma əsasən Həndi Əliyev "Cəsur döyüşçü" medalı ilə təltif edildi.





**113) Müslüm Vəliyev**



Müslüm Vəliağa oğlu Vəliyev (3 iyul 2001; Şüvəlan, Bakı, Azərbaycan – 28 sentyabr 2020; Suqovuşan, Tərtər, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı və hərbi xidməti*

Müslüm Vəliyev 3 iyul 2001-ci ildə Bakı şəhərinin Şüvəlan qəsəbəsində dünyaya göz açmışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

***İkinci Qarabağ müharibəsində iştirakı***

Azərbaycan Ordusunun əsgəri olan Müslüm Vəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. 28 sentyabr 2020-ci ildə Suqovuşan, Tərtər rayonunda döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Qala qəbiristanlığında torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Müslüm Vəliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Müslüm Vəliyev ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Müslüm Vəliyev "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

**114) Nurhan Abbasov**



Nurhan Əlastan oğlu Abbasov (17 iyun 1991, Gəncə – 8 noyabr 2020, Xankəndi) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı və hərbi xidməti*

Nurhan Abbasov 17 iyun 1991-ci ildə Gəncə şəhərində dünyaya göz açmışdır. Orta təhsilini Konstantin Uşinski adına 9 nömrəli tam orta məktəbdə almış, 77 nömrəli peşə məktəbində davam etdirmişdir. Sonra müddətli həqiqi hərbi xidmətə yollanmışdır. Hərbi xidmət müddəti bitdikdən sonra mülki şəxs olaraq fəaliyyətini davam etdirmişdir.

2020-ci ilin iyul ayında baş verən Tovuz döyüşlərindən sonra Nurhan da səfərbər olunur. Sonra hərbi təlim toplantılarına çağırılır.

***Vətən müharibəsi***

Azərbaycan Ordusunun əsgəri olan Nurhan Abbasov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Könüllü əsgər olaraq bir çox hərbi əməliyyatlarda vuruşmuşdur. Noyabr ayının əvvəllərindən başlayan Şuşa döyüşləri gedişatında Nurhan Abbasov 8 noyabr 2020-ci ildə Xankəndidə yaralı döyüşçüləri döyüş meydanından çıxararkən şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Nurhan Abbasov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Nurhan Abbasov ölümündən sonra "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Nurhan Abbasov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**115) İlkin Əsgərov**



İlkin Rauf oğlu Əsgərov (9 sentyabr 2000, Gəncə – 9 noyabr 2020, Şuşa) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı və hərbi xidməti*

İlkin Əsgərov 9 sentyabr 2000-ci ildə Gəncə şəhərində dünyaya göz açmışdır. Orta təhsilini Gəncə şəhər Nizami Gəncəvi adına 11 nömrəli tam orta məktəbində aldıqdan sonra həqiqi hərbi xidmətə yollanmışdır.

***Vətən müharibəsi***

Azərbaycan Ordusunun əsgəri olan İlkin Əsgərov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Müharibənin bir çox hərbi əməliyyatlarında vuruşmuşdur. 9 noyabr 2020-ci ildə Şuşanın azad olunması uğrunda gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən İlkin Əsgərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən İlkin Əsgərov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**116) Təbriz Əsgərov**



Təbriz Çapay oğlu Əsgərov (18 iyul 1997, Xok, Naxçıvan Muxtar Respublikası – 8 noyabr 2020, Şuşa) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı və hərbi xidməti*

Təbriz Əsgərov 18 iyul 1997-ci ildə Kəngərli rayonunun Xok kəndində dünyaya göz açmışdır. Orta təhsilini aldıqdan sonra müddətli həqiqi hərbi xidmətə yollanmışdır. Hərbi xidmət müddəti bitdikdən sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Təbriz Əsgərov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Hadrutun, Qubadlının, Zəngilanın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsi uğrunda gedən döyüşlərdə fərqlənmişdir. 8 noyabr 2020-ci ildə Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. 13 noyabr tarixində Naxçıvanda torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Təbriz Əsgərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən şəxsi mərdlik və igidlik göstərdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Təbriz Əsgərov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Təbriz Əsgərov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Təbriz Əsgərov ölümündən sonra "Füzulinin azad olunmasma görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Təbriz Əsgərov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

**117) İman Alməmmədov**



İman Tarverdi oğlu Alməmmədov (17 may 1999, Kolanı, Naxçıvan Muxtar Respublikası – 9 noyabr 2020, Şuşa) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı və hərbi xidməti*

İman Alməmmədov 17 may 1999-cu ildə Şahbuz rayonunun Kolanı kəndində dünyaya göz açmışdır. Orta təhsilini əvvəlcə Şahbuz rayon Kolanı kənd orta məktəbində, sonra isə Babək rayon Vayxır kənd məktəbində almışdır. Orta məktəbdən məzun olduqdan sonra müddətli həqiqi hərbi xidmətə yollanmışdır. Hərbi xidmət müddətini bitirdikdən sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq hərbi xidmət müddətini davam etdirmişdir.

***Vətən müharibəsi***

Azərbaycan Ordusunun əsgəri olan İman Alməmmədov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Hadrutun, həmçinin, Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinin və Xocalı rayonunun Çanaqçı kəndinin azad olunması uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Noyabr ayının əvvəllərindən başlayan Şuşanın azad olunması uğrunda gedən döyüşlərdə vuruşmuş, Şuşa rayonunun Daşaltı kəndində mühasirədə qalsa da, mühasirədən çıxmağı bacarmışdır. İman Alməmmədov 9 noyabr 2020-ci ildə Şuşada döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Şahbuz rayonunun Kolanı kənd qəbiristanlığında torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən İman Alməmmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən İman Alməmmədov





ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən İman Alməmmədov ölümündən sonra "Füzulinin azad olunmasma görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən İman Alməmmədov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

**118) Miryasin Seyidov**



Miryasin Mirqafar oğlu Seyidov (23 dekabr 1998, Əbrəqunus, Naxçıvan Muxtar Respublikası – 21 oktyabr 2020, Qarabağ) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı və hərbi xidməti*

Miryasin Seyidov 23 dekabr 1998-ci ildə Culfa rayonunun Əbrəqunus kəndində dünyaya göz açmışdır. 2005–2016-cı illərdə Culfa rayon Əbrəqunus kənd tam orta məktəbində orta təhsil almışdır. Sonra müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. 2020-ci ildə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq hərbi xidmətini davam etdirmişdir.

***Vətən müharibəsi***

Azərbaycan Ordusunun əsgəri olan Miryasin Seyidov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Xocavənd döyüşləri gedişatında Qırmızı Bazar qəsəbəsinin azad olunması uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 21 oktyabr 2020-ci ildə hərbi əməliyyatlarda döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin əsgəri olan İmaməddin Hümbətov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Döyüşlərdə kəşfiyyatçı-tuşlayıcı olaraq fərqlənmişdir. İmaməddin Hümbətov 20 oktyabr 2020-ci ildə içində Azıx mağarasının da yerləşdiyi Xocavənd rayonunun Azıx kəndində əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən İmaməddin Hümbətov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən İmaməddin Hümbətov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarım və xidməti vəzifələrini yerinə yetirən zaman fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 30.12.2020-ci il tarixli Sərəncamına əsasən İmaməddin Hümbətov ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən İmaməddin Hümbətov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

**190) Rəşad Məmmədov**



Rəşad Fərəməz oğlu Məmmədov (4 sentyabr 1989; Gəncə, Azərbaycan – 8 noyabr 2020; Şuşa, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Rəşad Məmmədov 4 sentyabr 1989-cu ildə Gəncə şəhərində anadan olmuşdur. 2006-cı ildə Gəncə şəhər 34 nömrəli tam orta məktəbdən məzun olmuşdur. 2006-cı ildə Gəncə Dövlət Universitetinə daxil olmuşdur. 2010-cu ildə universiteti "tarix" ixtisası üzrə bitirmişdir. 2013-cü ildə Gədəbəy rayon Qoşabulaq kənd 1 saylı tam orta məktəbində tarix müəllimi kimi əmək fəaliyyətinə başlamışdır. 2018-ci ildə Gəncə şəhər M.Ş.Vazeh adına 16 saylı tam orta məktəbdə pedaqoji fəaliyyətini davam etdirmişdir. 2020-ci ildə Gəncə Dövlət Universitetinin "Azərbaycanın yeni və ən yeni tarixi" ixtisası üzrə magistr pilləsində təhsil almağa başlamışdır.

*Hərbi xidməti*

Rəşad Məmmədov 2010-cu ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhər Kəpəz Rayon Şöbəsindən həqiqi hərbi xidmətə çağırılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

27 sentyabr 2020-ci il tarixdə Vətən müharibəsinin başlaması ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə qismən səfərbərlik elan edilməsi haqqında 28 sentyabr 2020-ci il tarxli Sərəncamına uyğun olaraq Rəşad Məmmədov 29 sentyabr 2020-ci ildə yenidən hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Rəşad Məmmədov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Hadrutun, Xocavəndin, Füzulinin, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Rəşad Məmmədov 8 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. 17 noyabr 2020-ci ildə Gəncə Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu





şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Rəşad Məmmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Rəşad Məmmədov ölümündən sonra "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Rəşad Məmmədov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**191) Ramil Yusifzadə**



Ramil Adəm oğlu Yusifzadə və ya rəsmi sənədlərdə Yusif-zadə (22 may 1998; Bakı, Azərbaycan – 13 oktyabr 2020; Füzuli rayonu, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Ramil Yusifzadə 22 may 1998-ci ildə Bakı şəhərində anadan olmuşdur. 2004-cü ildə Mərdəkanda Süleyman Rüstəmov adına 3 saylı gimnaziyada 1-ci sinifə daxil olmuşdur. 2015-ci ildə gimnaziyanı bitirərək, həmin il Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında futbol müəllimliyi fakültəsinə qəbul olmuşdur.

*Hərbi xidməti*

2019-cu ildə akademiyadan məzun olan Ramil həmin il Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olaraq müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. Qazax rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun baş giziri olan Ramil Yusifzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Ramil Yusifzadə 13 oktyabr 2020-ci ildə Füzuli istiqamətində döyüş sahəsinə daxil olub qarşı tərəfin müdafiəsini yarmış, lakin yaralanmışdır. Sonra ilkin tibbi yardımdan imtina edərək döyüşə davam etmişdir. İkinci dəfə ayağından yara aldıqdan sonra ona ilkin tibbi yardım edilmişdir. Lakin sonda qarşı tərəfin atdığı artilleriya mərmisinin dəyməsi nəticəsində Ramil Yusifzadə həmin gün şəhid olmuşdur. Nəşindən qalan bir ayaq ailəsinə təhvil verilmiş və torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il ta-

rixli Sərəncamına əsasən Ramil Yusifzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Ramil Yusifzadə "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Ramil Yusifzadə ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

**192) Əziz Əzizov**



Əziz Məmmədvəli oğlu Əzizov (1 mart 2000; Qayabaşı, Şəki rayonu, Azərbaycan – 5 noyabr 2020; Şuşa, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Əziz Əzizov 1 mart 2000-ci ildə Şəki rayonunun Qayabaşı kəndində anadan olub. Orta təhsilini Qayabaşı kəndindəki orta məktəbdə alıb.

*Hərbi xidməti*

Orta məktəbi bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətə yollanan Əziz 2019-cu ilin oktyabrınadək xidmət etmişdir. Hərbi xidmət müddəti bitdikdən sonra mülki fəaliyyət göstərmişdir.

27 sentyabr 2020-ci il tarixdə Vətən müharibəsinin başlaması ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə qismən səfərbərlik elan edilməsi haqqında 28 sentyabr 2020-ci il tarxli Sərəncamına uyğun olaraq Əziz Əzizov 29 sentyabr 2020-ci ildə yenidən hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Əziz Əzizov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Cəbrayılın, Qubadlının, Laçının və Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuş və fərqlənmişdir. Əziz Əzizov 5 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Əziz Əzizov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan





Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Əziz Əzizov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Əziz Əzizov ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Laçın rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Əziz Əzizov ölümündən sonra "Laçının azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını və xidməti vəzifələrini yerinə yetirən zaman fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 30.12.2020-ci il tarixli Sərəncamına əsasən Əziz Əzizov ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edildi.

**193) Ceyhun Şalıyev**



Ceyhun Nüsrət oğlu Şalıyev (20 may 1994; Gəncə, Azərbaycan – 1 oktyabr 2020; Füzuli rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Ceyhun Şalıyev 20 may 1994-cü ildə Gəncə şəhərində anadan olmuşdur. Orta təhsilini Rusiya Federasiyasının Voronej şəhərində almağa başlamışdır və 7-ci sinfə qədər bu şəhərdə təhsil almışdır. 2008-ci ildə təhsilini Bakı şəhərində yerləşən 94 nömrəli tam orta məktəbdə davam etdirmişdir. 2011-ci ildə Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (hazırda Dövlət İmtahan Mərkəzi) tərəfindən ali təhsil müəssisələrinə qəbulla əlaqədar keçirilmiş imtahanda 600 bal toplayaraq Bakı Dövlət Universitetinin Hüquq fakültəsinə daxil olmuşdur.

*Hərbi xidməti*

2015-ci ildə universiteti bitirən Şalıyev həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. 2016-cı ilin aprelin 2-dən 5-nə qədər davam edən Aprel döyüşlərində vuruşmuşdur. Hərbi xidməti başa vurduqdan sonra "Azercell"də çalışmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Ceyhun Şalıyev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 1 oktyabr 2020-ci ildə Füzuli istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Ceyhun Şalıyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Ceyhun Şalıyev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

**194) Nicat Səfərov**



Nicat Vaqib oğlu Səfərov (4 may 1992; Yevlax rayonu, Azərbaycan – 9 oktyabr 2020; Goranboy rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin giziri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Nicat Səfərov 1992-ci il mayın 4-də Yevlax rayonunun Əxşam kəndində anadan olub.

*Hərbi xidməti*

Azərbaycan Ordusunun giziri olan Nicat Səfərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nicat Səfərov oktyabrın 9-da Goranboy rayonu, Tap Qaraqoyunlu döyüşləri zamanı şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Nicat Səfərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Nicat Səfərov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Nicat Səfərov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.





**195) Afiq Qulamlı**



Afiq Fərhad oğlu Qulamlı (24 dekabr 1996; Xırdalan, Azərbaycan –19 oktyabr 2020; Gecəgözlü, Füzuli rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Afiq Qulamlı 24 dekabr 1996-cı ildə Xırdalan şəhərində anadan olmuşdur. Orta təhsilini 2003-2014-cü illərdə Xırdalan şəhər 9 nömrəli tam orta məktəbdə aldıqdan sonra hərbi xidmətə yollanmışdır. Hərbi xidməti başa vuran Afiq müxtəlif işlərdə çalışmış, mülki fəaliyyət göstərmişdir.

*Hərbi xidməti*

Orta məktəbi bitirdikdən sonra 2015-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Afiq Qulamlı 2016-cı ilin aprelin 2-dən 5-nə qədər davam edən Aprel döyüşlərində yaxından vuruşmuş, fərqlənmişdir.

2020-ci ilin 14 iyul tarixində Tovuz döyüşləri zamanı general-mayor Polad Həşimovun şəhid olmasından sonra səfərbərlik başlamış, Afiq Qulamlı səfərbər olunmuşdur. 21 sentyabr 2020-ci ildə hərbi təlim toplantılarına çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Afiq Qulamlı 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Cəbrayılın, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 19 oktyabr 2020-ci ildə Füzuli rayonunun Gecəgözlü kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Afiq Qulamlı ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Afiq Qulamlı ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Afiq Qulamlı ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

**196) Ədalət Hüseynli**



Ədalət Səadət oğlu Hüseynli (8 may 1992; Fərəcullalı, Cəlilabad rayonu, Azərbaycan – 21 dekabr 2020; Bakı, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Ədalət Hüseynli 8 may 1992-ci ildə Cəlilabad rayonunun Fərəcullalı kəndində anadan olmuşdur. Orta təhsilini Cəlilabad rayon Cəngan kənd tam orta məktəbində almışdır.

*Hərbi xidməti*

2020-ci ilin iyul-sentyabr aylarında səfərbər olunan Ədalət Hüseynli sentyabr ayında hərbi təlim toplantılarına çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Ədalət Hüseynli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Cəbrayılın, Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Döyüşlər zamanı 2 dəfə yaralanmış və xəstəxanaya yerləşdirilmiş, sağaldıqdan sonra yenidən döyüşə qayıtmışdır. 8 noyabr 2020-ci ildə Qubadlı istiqamətində döyüş yoldaşını xilas edərkən ağır yaralanmışdır və xəstəxanaya yerləşdirilmişdir.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Ədalət Hüseynli "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Ədalət Hüseynli 21 dekabr 2020-ci ildə müalicə aldığı xəstəxanada komadan ayıla bilməmiş və şəhid olmuşdur.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Ədalət Hüseynli ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Ədalət Hüseynli ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Ədalət Hüseynli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**197) Sənan Səmədli**



Sənan Fikrət oğlu Səmədli (27 dekabr 1997; Kolanı kəndi Yevlax rayonu, Azərbaycan – 30 sentyabr 2020; Dəmirli, Tərtər rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin giziri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Sənan Səmədli 27 dekabr 1997-ci ildə Yevlax rayonu Kolanı kəndində anadan olmuşdur.

*Hərbi xidməti*

Azərbaycan Ordusunun giziri Sənan Səmədli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Özüyeriyən Artilleriya Taqımının Top Komandiri kimi iştirak etmişdir. Tərtər döyüşlərində vuruşmuşdur. Sənan Səmədli 30 sentyabr 2020-ci ildə Tərtər rayonunun Dəmirli kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Sənan Səmədli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamam döyüş tapşırıqlarını yerinə yetirən zaman mərdlik və igidlik göstərdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Sənan Səmədli ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Sənan Səmədli ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**198) Azad Abbasov**



Azad Novruz oğlu Abbasov (6 iyul 1977; Göygöl rayonu, Azərbaycan – 29 sentyabr 2020; Murovdağ, Kəlbəcər rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Azad Abbasov 6 iyul 1977-ci ildə Göygöl rayonunda anadan olmuşdur. 1992-ci ildə Gəncə şəhər 7 nömrəli tam orta məktəbi bitirmiş, 1992-1995-ci illərdə təhsilini 2 saylı Peşə liseyində (indiki Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzi) davam etdirmişdir.

*Hərbi xidməti*

1995-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhər Kəpəz Rayon Şöbəsindən həqiqi hərbi xidmətə çağırılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir. Hərbi xidməti başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq hərbi xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Azad Abbasov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 29 sentyabr 2020-ci ildə Murovdağ istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Uzun müddət nəşi tapıla bilməyib. 19 dekabr 2020-ci ildə tapılan nəşi Gəncə Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Azad Abbasov ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Azad Abbasov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**199) Sadiq Baxışov**



Sadiq Bəkir oğlu Baxışov (2 dekabr 2001; Çarxı, Xaçmaz rayonu, Azərbaycan – 28 oktyabr 2020; Ağdərə, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Sadiq Baxışov 2 dekabr 2001-ci ildə Xaçmaz rayonunun Çarxı kəndində anadan olmuşdur.

*Hərbi xidməti*

Sadiq Baxışov 2020-ci ilin yanvarından Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə idi.

Azərbaycan Ordusunun əsgəri olan Sadiq Baxışov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Sadiq Baxışov 28 oktyabr 2020-ci ildə Ağdərə istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu





şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Sadiq Baxışov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamma əsasən Sadiq Baxışov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Sadiq Baxışov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**200) Teymur Əliyev**



Teymur İman oğlu Əliyev (26 mart 1991; Göyçəkənd, Göygöl rayonu, Azərbaycan – 7 oktyabr 2020; Hadrut, Xocavənd rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Teymur Əliyev 26 mart 1991-ci ildə Göygöl rayonunun Göyçəkənd kəndində anadan olub. Əslən Göyçə mahalının Basarkeçər rayonunun Qoşabulaq kəndindəndir.

*Hərbi xidməti*

2020-ci ilin Tovuz döyüşlərindən sonra iyul-sentyabr aylarında səfərbər olunan Teymur Əliyev sentyabr ayında çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Teymur Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Ailəsi ilə sonuncu dəfə 7 oktyabr tarixində əlaqə saxlayan Teymur Əliyev Hadrut istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Uzun müddət nəşi tapıla bilməmişdir. Nəşi 14 dekabr 2020-ci ildə Göygöl Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamma əsasən Teymur Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Teymur Əliyev

ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Teymur Əliyev "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Teymur Əliyev ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Teymur Əliyev ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

**201) Aqşin Ağayev**



Aqşin Şirvan oğlu Ağayev (1 iyun 1993; Ulacalı, Sabirabad rayonu, Azərbaycan – 27 oktyabr 2020; Füzuli rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Aqşin Ağayev 1 iyun 1993-cü ildə Sabirabad rayonunun Ulacalı kəndində anadan olmuşdur. 1999-2010-cu illərdə Ulacalı kənd tam orta məktəbdə təhsil almışdır. Ailəli idi. Zümrüd adlı qızı yadigar qaldı.

*Hərbi xidməti*

Aqşin Ağayev 2011-ci ildə həqiqi hərbi xidmətə yollanmışdır. Gəncədə yerləşən Piyada Qoşunlarının "N" saylı hərbi hissəsində xidmət etmişdir. Qüsursuz xidmətiylə komandanlığın diqqətini çəkdiyinə görə ona "kiçik çavuş" rütbəsi verilmiş, həmçinin, o, "manqa komandiri" vəzifəsinə təyin olunmuşdur. 2013-cü ilin yanvarında hərbi xidmət müddətini başa vurmuşdur.

2020-ci ilin Tovuz döyüşlərindən sonra iyul-sentyabr aylarında səfərbər olunan Aqşin Ağayev sentyabr ayında "əsgər" rütbəsi ilə çağırılmışdır.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin əsgəri, "Həmlə" Taborunun kəşfiyyatçısı olan Aqşin Ağayev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Cəbrayılın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 27 oktyabr 2020-ci ildə Füzuli istiqamətindəki döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu





şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Aqşin Ağayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Aqşin Ağayev ölümündən sonra "Cəbrayılım azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Aqşin Ağayev ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Aqşin Ağayev "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

**202) Əbdülrza Rəfibəyli**



Əbdülrza Şamməd oğlu Rəfibəyli (2 iyun 1998; Xətai rayonu, Bakı, Azərbaycan –23 oktyabr 2020; Xocavənd rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Əbdülrza Rəfibəyli 2 iyun 1998-ci ildə Xətai rayonunda anadan olmuşdur. Əslən Masallı rayonunun Boradigah qəsəbəsindəndir. 2004-2015-ci illərdə Nərimanov rayonunun Montin qəsəbəsində yerləşən Tahir Həsənov adına 57 saylı tam orta məktəbdə təhsil almışdır.

*Hərbi xidməti*

27 iyul 2016-cı ildə müddətli həqiqi hərbi xidmətə yollanan Əbdülrza Rəfibəyli Naxçıvan MR-də yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir. 4 yanvar 2018-ci ildə hərbi xidmət müddətini başa vurmuşdur. Topçu ixtisasıyla bağlı təcrübələr qazanmışdır.

2020-ci ilin Tovuz döyüşlərindən sonra iyul-sentyabr aylarında səfərbər olunan Əbdülrza Rəfibəyli sentyabr ayında çağırılmışdır. 21 sentyabr tarixindən başlayan hərbi təlim toplantılarında da iştirak etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Əbdülrza Rəfibəyli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Qubadlının və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 23 oktyabr 2020-ci ildə Xocavənd-Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı başından qəlpə yarası alaraq şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Əbdülrza Rəfibəyli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**203) İkram Məmmədov**



İkram Ehtiram oğlu Məmmədov (8 iyun 2002; Çiləgir, Xaçmaz rayonu, Azərbaycan – 13 oktyabr 2020; Aşağı Seyidəhmədli, Füzuli rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

İkram Məmmədov 8 iyun 2002-ci ildə Xaçmaz rayonunun Çiləgir kəndində anadan olmuşdur. 2008-2017-ci illərdə Əfqan Yəhyayev adına Çiləgir kənd tam orta məktəbində təhsil almışdır. 2017-2020-ci illərdə Xaçmaz rayonu 97 nömrəli peşə liseyində traktorçu-maşınist ixtisası üzrə təhsilini davam etdirmişdir.

*Hərbi xidməti*

İkram Məmmədov 17 iyun 2020-ci ildə həqiqi hərbi xidmətə yollanmış, Qazax rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan İkram Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Cəbrayılın və Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 13 oktyabr 2020-ci ildə Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Uzun müddət itkin olaraq axtarılan İkram Məmmədovun nəşi 12 yanvar 2021-ci ildə tapılmış və doğulduğu Xaçmaz rayonunun Çiləgir kəndində torpağa tapşırılmışdır. Onun dəfn mərasimində rayon İcra hakimiyyəti və hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət nümayəndələri və kənd sakinləri iştirak etmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən İkram Məmmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman mərdlik və igidlik göstərdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən İkram Məmmədov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən İkram Məmmədov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.





**204) Anar Mürsəliyev**



Anar Səfər oğlu Mürsəliyev (21 noyabr 2001; Xaçmaz, Azərbaycan – 22 oktyabr 2020; Ağdərə, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Anar Mürsəliyev 21 noyabr 2001-ci ildə Xaçmaz şəhərində anadan olmuşdur. 2009-2019-cu illərdə orta təhsil almışdır.

*Hərbi xidməti*

Anar Mürsəliyev 8 yanvar 2019-cu ildə müddətli həqiqi hərbi xidmətə yollanmışdır. Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etdikdən sonra Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Anar Mürsəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Cəbrayılın və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Anar Mürsəliyev 22 oktyabr 2020-ci ildə Ağdərə istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 25 oktyabrda torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Anar Mürsəliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Laçın rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Anar Mürsəliyev ölümündən sonra "Laçının azad olunmasına görə" medalı ilə təltif edildi.

**205) Zərimxan Həsənli**



Zərimxan Rafiq oğlu Həsənli (7 dekabr 2001; Bəyimsarov, Tərtər rayonu, Azərbaycan – 11 oktyabr 2020; Hadrut, Xocavənd rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Zərimxan Həsənli 7 dekabr 2001-ci ildə Tərtər rayonunun Bəyimsarov kəndində anadan olmuşdur.

*Hərbi xidməti*

Zərimxan Həsənli 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə idi. Əvvəlcə Ağcabədi rayonunda, sonra isə Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Zərimxan Həsənli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində artilleriya komandasında iştirak etmişdir. Füzulinin və Xocavəndin azad edilməsi uğrunda gedən döyüşlərdə qumbaraatan olaraq vuruşmuşdur. 11 oktyabr 2020-ci ildə Füzuli-Hadrut istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qarşı tərəfin atdığı minaatan nəticəsində beyin qanaxması keçirərək şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Zərimxan Həsənli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Zərimxan Həsənli ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman mərdlik və igidlik göstərdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Zərimxan Həsənli ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Zərimxan Həsənli ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Zərimxan Həsənli ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

**206) Rəşad Şiriyev**



Rəşad Rasim oğlu Şiriyev (5 dekabr 2001; Bürsülüm, Lerik rayonu, Azərbaycan – 7 oktyabr 2020; Suqovuşan, Tərtər rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Rəşad Şiriyev 5 dekabr 2001-ci ildə Lerik rayonunun Bürsülüm kəndində anadan olub.

*Hərbi xidməti*

Azərbaycan Ordusunun əsgəri olan Rəşad Şiriyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün





başlanan Vətən müharibəsində iştirak etmişdir. Talışın və Suqovuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 7 oktyabr 2020-ci ildə səhər saatlarında Talış-Suqovuşan istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Rəşad Şiriyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman mərdlik və igidlik göstərdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Rəşad Şiriyev ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Rəşad Şiriyev ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Laçın rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Rəşad Şiriyev ölümündən sonra "Laçının azad olunmasına görə" medalı ilə təltif edildi.

**207) Balaş Cəfərov**



Balaş Namiq oğlu Cəfərov (18 iyul 2002; Hökməli, Abşeron rayonu, Azərbaycan – 2020; Füzuli rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Balaş Cəfərov 18 iyul 2002-ci ildə Abşeron rayonunun Hökməli qəsəbəsində anadan olmuşdur.

*Hərbi xidməti*

Balaş Cəfərov 2020-ci ilin iyul ayından Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə idi.

Azərbaycan Ordusunun əsgəri olan Balaş Cəfərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Uzun müddət nəşi tapıla bilməmişdir. Balaş Cəfərovun nəşi 23 dekabr 2020-ci ildə Abşeron rayonunun Hökməli qəsəbəsində torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Balaş Cəfərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**208) Samir Ələkbərli**



Samir Şamil oğlu Ələkbərli (2 iyul 2002; Qaradəmirçi, Bərdə rayonu, Azərbaycan – 10 oktyabr 2020; Füzuli rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Samir Ələkbərli 2 iyul 2002-ci ildə Bərdə rayonunun Qaradəmirçi kəndində anadan olmuşdur. Əslən Şuşadan idi.

*Hərbi xidməti*

Samir Ələkbərli 2020-ci ilin avqust ayından Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə idi.

Azərbaycan Ordusunun əsgəri olan Samir Ələkbərli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 10 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqlarm icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Samir Ələkbərli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyi, sona qədər döyüşdüyü və tapşırıqların yerinə yetirilməsində fərqləndiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli sərəncamına əsasən Samir Ələkbərli ölümündən sonra "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilmişdir.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Samir Ələkbərli ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.





**209) Rəşad Eyvazov**



Rəşad Babək oğlu Eyvazov (20 iyul 2002; Pəlikəş, Astara rayonu, Azərbaycan – 19 oktyabr 2020; Füzuli rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Rəşad Eyvazov 20 iyul 2002-ci ildə Astara rayonunun Pəlikəş kəndində anadan olmuşdur.

*Hərbi xidməti*

Azərbaycan Ordusunun əsgəri olan Rəşad Eyvazov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Cəbrayılın və Xocavəndin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Rəşad Eyvazov 19 oktyabr 2020-ci ildə Füzuli istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Rəşad Eyvazov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Rəşad Eyvazov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Rəşad Eyvazov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Rəşad Eyvazov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Rəşad Eyvazov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

**210) Vüqar Çələbili**



Vüqar Fərəcullah oğlu Çələbili (30 aprel 1993; Nehrəxəlil, Ağdaş rayonu, Azərbaycan – 5 noyabr 2020; Şuşa, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Vüqar Çələbili 30 aprel 1993-cü ildə Ağdaş rayonunun Nehrəxəlil kəndində anadan olmuşdur. 1999-2008-ci illərdə Ləki qəsəbə tam orta məktəbində təhsil almışdır.

*Hərbi xidməti*

Vüqar Çələbili 2011-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin müddətli həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycan Ordusunun əsgəri olan Vüqar Çələbili 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Qubadlının və Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Vüqar Çələbili 5 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Uzun müddət nəşi tapıla bilməyib və tapıldıqdan sonra 14 dekabr 2020-ci ildə Ağdaş rayonunun Nehrəxəlil kənd qəbiristanlığında torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Vüqar Çələbili ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyi, sona qədər döyüşdüyü və tapşırıqların yerinə yetirilməsində fərqləndiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli sərəncamına əsasən Vüqar Çələbili ölümündən sonra "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilmişdir.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Vüqar Çələbili ölümündən sonra "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Vüqar Çələbili ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.





**211) Fərid Hüseynov**



Fərid Ehtibar oğlu Hüseynov (11 iyun 1994; Qayabaşı, Şəki rayonu, Azərbaycan – 29 sentyabr 2020; Murovdağ, Kəlbəcər rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Fərid Hüseynov 11 iyun 1994-cü ildə Şəki rayonunun Qayabaşı kəndində anadan olmuşdur.

*Hərbi xidməti*

Orta məktəbi bitirdikdən sonra Fərid Hüseynov 2020-ci ilə qədər Azərbaycan Silahlı Qüvvələrinin müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Fərid Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Murovdağın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Fərid Hüseynov 29 sentyabr 2020-ci ildə Kəlbəcər rayonunda yerləşən Murovdağ istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Fərid Hüseynov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Fərid Hüseynov ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını və xidməti vəzifələrini yerinə yetirən zaman fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 30.12.2020-ci il tarixli Sərəncamına əsasən Fərid Hüseynov ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edildi.

**212) Fərid Hüseynov**



Fərid Yaşar oğlu Hüseynov (17 iyun 1997; Məmişlər, Sabirabad rayonu, Azərbaycan –31 oktyabr 2020; Şuşa, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Fərid Hüseynov 17 iyun 1997-ci ildə Sabirabad rayonunun Məmişlər kəndində anadan olmuşdur. Fərid Hüseynovun ailəsində 3 uşaq olub – özü və bacıları Günay və Aytən. 2004-cü ildə orta məktəbin birinci sinfinə daxil olmuşdur.

*Hərbi xidməti*

Orta məktəbi bitirdikdən sonra 2015-ci ilin iyulunda müddətli həqiqi hərbi xidmətə çağırılmış və 2016-cı ilin yanvarında hərbi xidmət müddətini başa vurmuşdur.

Fərid Hüseynov 21 sentyabr 2020-ci ildə Sabirabad Rayonu Hərbi Komissarlığı tərəfindən səfərbərliyə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Fərid Hüseynov 2020-ci il sentyabrm 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Füzulinin və Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Fərid Hüseynov 31 oktyabr 2020-ci ildə Şuşa istiqamətində qarşı tərəfin artilleriyasından atılan atəş nəticəsində şəhid olmuşdur. Nəşi Sabirabad rayonunun Qaralar kəndində yerləşən qəbiristanlıqda torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Fərid Hüseynov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman mərdlik və igidlik göstərdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Fərid Hüseynov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Fərid Hüseynov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

**213) İsmayıl Mustafayev**



İsmayıl Elmar oğlu Mustafayev (22 sentyabr 1996; Gəncə, Azərbaycan – 8 noyabr 2020; Xankəndi, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

İsmayıl Mustafayev 22 sentyabr 1996-cı ildə Gəncə şəhərində anadan olmuşdur. 2012-ci ildə 43 nömrəli tam orta məktəbin 9-cu sinfini bitirmişdir. 2012-2015-ci illərdə 2 nömrəli Peşə liseyində (indiki Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində) təhsil almışdır.

*Hərbi xidməti*

İsmayıl Mustafayev 2015-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhər Kəpəz Rayon Şöbəsindən həqiqi hərbi xidmətə çağırılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.





27 sentyabr 2020-ci il tarixdə Vətən müharibəsinin başlaması ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə qismən səfərbərlik elan edilməsi haqqında 28 sentyabr 2020-ci il tarixli Sərəncamına uyğun olaraq İsmayıl Mustafayev yenidən hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan İsmayıl Mustafayev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində könüllü snayper olaraq iştirak etmişdir. Füzulinin, Cəbrayılın və Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. İsmayıl Mustafayev 8 noyabr 2020-ci ildə Şuşa döyüşləri gedişatında Xankəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamam şəhid olmuşdur. 17 noyabr 2020-ci ildə Gəncə Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən İsmayıl Mustafayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarmın məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən İsmayıl Mustafayev ölümündən sonra "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən İsmayıl Mustafayev ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**214) Şahin Fətaliyev**



Şahin Şamxal oğlu Fətaliyev (30 iyul 1999; Bolsulu, Beyləqan rayonu, Azərbaycan – 30 sentyabr 2020; Füzuli rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Şahin Fətaliyev 30 iyul 1999-cu ildə Beyləqan rayonunun Bolsulu qəsəbəsində anadan olmuşdur. Ailəli idi, 2020-ci il təvəllüdlü Zəhra adlı qızı var.

*Hərbi xidməti*

Orta təhsilini aldıqdan sonra müddətli həqiqi hərbi xidmətə yollanan Fətaliyev hərbi xidmət müddəti bitdikdən sonra 2-ci Ordu Korpusunun müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Şahin Fətaliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri

tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Şahin Fətaliyev 30 sentyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Şahin Fətaliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Şahin Fətaliyev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Şahin Fətaliyev "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

**215) Həsən Bayramov**



Həsən Bəhrəm oğlu Bayramov (17 iyun 1992; Sarısu, Göygöl rayonu, Azərbaycan – 5 noyabr 2020; Qarabağ, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Həsən Bayramov 17 iyun 1992-ci ildə Göygöl rayonunun Sarısu kəndində anadan olmuşdur. 2000-2009-cu illərdə Gəncə şəhər V.Əliyev adına 12 nömrəli tam orta məktəbdə orta təhsil almışdır. 2009-2011-ci illərdə Gəncə Humanitar Kollecində (indiki Gəncə Dövlət Regional Kolleci) təhsil almışdır. 2011-ci ildə kolleci "maliyyə işi" ixtisası üzrə bitirmişdir. Hərbi xidmət qulluqçusu olduqdan sonra bir müddət Gəncə Regional Reklam İdarəsində dizayner kimi çalışmışdır.

*Hərbi xidməti*

2011-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Göygöl Rayon Şöbəsindən həqiqi hərbi xidmətə çağırılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Həsən Bayramov 2020-ci ilin iyul ayından Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmət edirdi.

Azərbaycan Ordusunun əsgəri olan Həsən Bayramov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad





edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Cəbrayılın, Qubadlının və Laçının azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Həsən Bayramov 5 noyabr 2020-ci ildə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 27 noyabr 2020-ci ildə nəşi Gəncə Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Həsən Bayramov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman cəsarət və fədakarlıq göstərdiyinə, habelə təşəbbüskar və qətiyyətli addımlar nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Həsən Bayramov ölümündən sonra "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Həsən Bayramov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Həsən Bayramov ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Laçın rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Həsən Bayramov ölümündən sonra "Laçının azad olunmasına görə" medalı ilə təltif edildi.

**216) İsmayıl Hüseynov**



İsmayıl Şahvələd oğlu Hüseynov (18 iyun 1993, Bakı – 8 oktyabr 2020, Füzuli rayonu) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

İsmayıl Hüseynov 18 iyun 1993-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1999–2010-cu illərdə Bakı şəhər Səbail rayon şəhid Etibar Əliyev adına 162 nömrəli tam orta məktəbdə təhsil almışdır.

*Hərbi xidməti*

İsmayıl Hüseynov 2011-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olaraq Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

2020-ci ilin 14 iyul tarixində Tovuz döyüşləri zamanı general-mayor Polad Həşimovun şəhid olmasından sonra səfərbərlik başlamış, İsmayıl Hüseynov səfərbər olunmuş-

dur. 21 sentyabr 2020-ci ildə hərbi təlim toplantılarına çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan İsmayıl Hüseynov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. İsmayıl Hüseynov 8 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 9 oktyabr 2020-ci ildə Bakı şəhərinin Səbail rayonunun Badamdar qəsəbəsində torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən İsmayıl Hüseynov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən İsmayıl Hüseynov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən İsmayıl Hüseynov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən İsmayıl Hüseynov ölümündən sonra "Xocavəndin azad olunmasma görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən İsmayıl Hüseynov ölümündən sonra "Şuşanın azad olunmasma görə" medalı ilə təltif edildi.

**217) Bəhrəm İlyasov**



Bəhrəm Nizam oğlu İlyasov (30 noyabr 1998, Nəcəfqulubəyli, Bərdə rayonu, Azərbaycan – 4 oktyabr 2020, Suqovuşan, Tərtər rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Bəhrəm İlyasov 30 noyabr 1998-ci ildə Bərdə rayonunun Nəcəfqulubəyli kəndində anadan olmuşdur.

*Ailəsi*

Atası Nizam İlyasov Birinci Qarabağ müharibəsi zamanı Suqovuşan istiqamətində gedən döyüşlərdə vuruşmuşdur.

*Hərbi xidməti*

2020-ci ilin Tovuz döyüşlərindən sonra Bəhrəm İlyasov Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon şöbəsinə getmiş və hərbi xidmətə çağırılmışdır. Təlim mərkəzlərindən birində kurs keçdikdən sonra "N" saylı hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi hərbi xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Bəhrəm İlyasov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Bəhrəm İlyasov 4 oktyabr 2020-ci ildə Suqovuşan istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Bəhrəm İlyasov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Bəhrəm İlyasov ölümündən sonra "Suqovuşanın azad olunmasma görə" medalı ilə təltif edildi.

Azərbaycanın Ağdam rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Bəhrəm İlyasov ölümündən sonra "Ağdamın azad olunmasma görə" medalı ilə təltif edildi.

**218) Cavid Cəfərov**



Cavid Fərhad oğlu Cəfərov (1 dekabr 1993; Sumqayıt, Azərbaycan – 1 oktyabr 2020; Füzuli rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Cavid Cəfərov 1 dekabr 1993-cü ildə Sumqayıt şəhərində anadan olmuşdur. 2000-2009-cu illərdə Sumqayıt şəhər 33 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2009-2013-cü illərdə Sumqayıt Dövlət Texniki Kollecində təhsilini davam etdirmiş, 2013-cü ildə kolleci "nəqliyyatda daşımaların və idarəetmənin təşkili" ixtisası üzrə bitirmişdir.

*Hərbi xidməti*

2016-cı ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə yollanan Cavid Cəfərov 2018-ci ilin yanvarında hərbi xidmətini başa vurmuşdur. Həmin ilin 13 oktyabr tarixin-

dən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi "N" saylı hərbi hissədə xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Cavid Cəfərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Cavid Cəfərov 1 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində yaralı komandirini xilas edərkən şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Cavid Cəfərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Cavid Cəfərov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

**219) Rəşad Şəfiyev**



Rəşad Vaqif oğlu Şəfiyev (13 oktyabr 1991; Gəncə, Azərbaycan – 28 oktyabr 2020; Bərdə, Azərbaycan) –Azərbaycanın Fövqəladə Hallar Nazirliyinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Rəşad Şəfiyev 13 oktyabr 1991-ci ildə Gəncə şəhərində anadan olmuşdur. 1997-2010-cu illərdə Molla Pənah Vaqif adına 8 nömrəli orta məktəbdə orta təhsil almışdır. Ailəli idi. 2 övladı var.

*Hərbi xidməti*

Rəşad Şəfiyev 2010-cu ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhər Nizami Rayon Şöbəsindən hərbi xidmətə çağırılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir. 2019-cu ilin iyul ayından Fövqəladə Hallar Nazirliyinin «N» saylı hərbi hissəsində xidmətə başlamışdır.

Azərbaycanın Fövqəladə Hallar Nazirliyinin əsgəri olan Rəşad Şəfiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı axtarış-xilasetmə çalışmalarında iştirak etmişdir. 4, 5, 8, 11 və 17 oktyabr 2020-ci il tarixlərində Ermənistan Silahlı Qüvvələri tərəfindən Gəncənin raket atəşinə tutulması zamanı axtarış-xilasetmə əməliyyatlarında iştirak etmişdir. 27 oktyabr 2020-ci il tarixində Bərdənin raket atəşinə tutulmasından sonra oradakı axtarış-xilasetmə əməliyyatlarına qatılmışdır. Rəşad Şəfiyev 28 oktyabr 2020-ci il tarixində Bərdənin növbəti dəfə raket atəşinə tutulması nəticəsində aldığı yaralardan şəhid olmuşdur. 29 oktyabr 2020-ci ildə Gəncə Şəhidlər Xiyabanında dəfn olunmuşdur.





Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Rəşad Şəfiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**220) Sərvan Şahbazov**



Sərvan Əliməmməd oğlu Şahbazov (14 iyul 1993; Gündüzqala, Qusar rayonu, Azərbaycan – 1 noyabr 2020; Cütcü, Xocavənd rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Sərvan Şahbazov 14 iyul 1993-cü ildə Qusar rayonunun Gündüzqala kəndində anadan olmuşdur.

*Hərbi xidməti*

Sərvan Şahbazov müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Müdafiə Nazirliyinin Qusar rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət edirdi.

Azərbaycan Ordusunun əsgəri olan Sərvan Şahbazov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Cəbrayılın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Sərvan Şahbazov 1 noyabr 2020-ci ildə Xocavənd rayonunun Cütcü kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Uzun müddət nəşi tapıla bilməmişdir. 7 yanvar 2021-ci ildə Qusar rayonunun Gündüzqala kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Sərvan Şahbazov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Sərvan Şahbazov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Sərvan Şahbazov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Sərvan Şahbazov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

221) Şahin Tahirli



Şahin Afat oğlu Tahirli (20 sentyabr 2001; Lerik rayonu, Azərbaycan– 7 noyabr 2020; Daşaltı, Şuşa rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Şahin Tahirli 20 sentyabr 2001-ci ildə Lerik rayonunun Züvüc kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə Lerik rayon Züvüc kənd tam orta məktəbində təhsil almışdır. 2018-2019-cu illərdə Mingəçevir Turizm Kollecində təhsilini davam etdirmişdir. Subay idi.

*Hərbi xidməti*

Şahin Tahirli kollecin II kursunda oxuyarkən təhsilini dondurmuş və 2019-cu ilin oktyabrında müddətli həqiqi hərbi xidmətə yollanmışdır. Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Şahin Tahirli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Şahin Tahirli 7 noyabr 2020-ci ildə Şuşa döyüşləri gedişatında Şuşa rayonunun Daşaltı kəndində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Uzun müddət nəşi Füzuli xəstəxanasına yerləşdirilmişdir. 23 noyabr 2020-ci ildə Lerik rayonunun Züvüc kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Şahin Tahirli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Şahin Tahirli ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman cəsarət göstərdiyinə, habelə qətiyyətli addımlar nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Şahin Tahirli ölümündən sonra "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Şahin Tahirli ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.





222) Vüqar Səmədli



Vüqar Vaqif oğlu Səmədli (20 fevral 1992; Yengicə, Qəbələ rayonu, Azərbaycan – 3 noyabr 2020 (dəfn tarixi); Qubadlı-Şuşa istiqaməti, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Vüqar Səmədli 20 fevral 1992-ci ildə Qəbələ rayonunun Yengicə kəndində anadan olmuşdur. Qəbələ rayon Yengicə kənd orta məktəbini bitirmişdir. Hərbi xidmət müddəti bitdikdən sonra tikinti sahəsində işləməyə başlamışdır. 2018-2020-ci illərdə Çeçenistanda çalışmışdır.

*Hərbi xidməti*

Vüqar Səmədli 2010-2011-ci illərdə Azərbaycan Sülhməramlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu olmuşdur.

Vüqar Səmədli 2020-ci ilin sentyabrında Çeçenistandan Azərbaycana qayıtmış və Qəbələ Rayon Hərbi Komissarlığına gedərək könüllü yazılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Vüqar Səmədli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü kəşfiyyatçı olaraq iştirak etmişdir. Füzulinin, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Vüqar Səmədli Şuşa döyüşləri gedişatında Qubadlı-Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 3 noyabr 2020-ci ildə Qəbələ rayonunun Yengicə kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Vüqar Səmədli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamma əsasən Vüqar Səmədli ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Vüqar Səmədli ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**223) Coşqun Səfərov**



Coşqun Əhməd oğlu Səfərov (2 may 1997; Salyan rayonu, Azərbaycan – 25 noyabr 2020 (dəfn tarixi); Qarabağ, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Coşqun Səfərov 2 may 1997-ci ildə Salyan rayonunda anadan olmuşdur. 2003-2014-cü illərdə Salyan şəhər 2 nömrəli tam orta məktəbində təhsil almışdır. Həmçinin, musiqi təhsilini Salyan şəhər Qulu Əsgərov adına Uşaq İncəsənət Məktəbinin fortepiano şöbəsində almışdır. Coşqun Səfərov hərbi xidmətini başa vurduqdan sonra Salyan Qaz İstismarı İdarəsində nəzarətçi vəzifəsində çalışmışdır.

*Hərbi xidməti*

Coşqun Səfərov 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. Ağstafa rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

2016-cı ildə hərbi xidmətdə olarkən sintezatorda ifası ilə Gəncə şəhərində hərbi qulluqçular arasında keçirilən bədii özfəaliyyətə baxışda 2-ci yeri tutaraq fəxri fərman və TİSSOT saatı ilə mükafatlandırılmışdır.

Coşqun Səfərov 2020-ci il sentyabrın 21-də Hərbi Komissarlıq tərəfindən təlimlərə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Coşqun Səfərov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü manqa komandiri olaraq iştirak etmişdir. Döyüşlərdən birində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Uzun müddət nəşi tapıla bilməmişdir. 25 noyabr 2020-ci ildə dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Coşqun Səfərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Coşqun Səfərov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Coşqun Səfərov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan





Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Coşqun Səfərov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Coşqun Səfərov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Coşqun Səfərov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**224) Vüqar Mövlanov**



Vüqar Tumarxan oğlu Mövlanov (11 dekabr 1994; Günəşli, Lerik rayonu, Azərbaycan – 6 noyabr 2020; Şuşa, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Vüqar Mövlanov 11 dekabr 1994-cü ildə Lerik rayonunun Günəşli kəndində anadan olmuşdur. 2000-2011-ci illərdə Lerik rayon Günəşli kənd tam orta məktəbində təhsil almışdır. Hərbi xidmətini başa vurduqdan sonra 2 il mühafizə polisi olaraq çalışmışdır.

*Hərbi xidməti*

Vüqar Mövlanov 2013-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu olmuşdur.

Vüqar Mövlanov 27 sentyabr 2020-ci ildə Lerik Rayon Hərbi Komissarlığında qeydiyyatdan keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Vüqar Mövlanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Füzulinin, Hadrutun və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Vüqar Mövlanov 6 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Lerik rayonunun Günəşli kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Vüqar Mövlanov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Qubadlı şəhərinin işğaldan azad olunmasına görə gedən döyüşlərdə xüsusi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il

tarixli Sərəncamına əsasən Vüqar Mövlanov ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Vüqar Mövlanov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Vüqar Mövlanov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Vüqar Mövlanov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**225) Elşad Allahverdiyev**



Elşad Zaməddin oğlu Allahverdiyev (5 aprel 1997; Göygöl rayonu, Azərbaycan – 23 noyabr 2020; Şuşa, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Elşad Allahverdiyev 5 aprel 1997-ci ildə Göygöl rayonunda anadan olmuşdur. Cəmşid Naxçıvanski adına hərbi liseydə orta təhsilini başa vurduqdan sonra Rusiya Federasiyasının Omsk şəhərində Ali Hərbi Tank Akademiyasında ali təhsil almışdır.

*Hərbi xidməti*

Elşad Allahverdiyev 5 il sonra akademiyadan məzun olmuş və Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə hərbi vəzifəsinə başlamışdır.

Azərbaycan Ordusunun baş leytenantı olan Elşad Allahverdiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində vuruşmuşdur. Döyüşlər bitdikdən sonra tank əleyhinə minaların təmizlənməsi əməliyyatında iştirak etmişdir. Elşad Allahverdiyev 23 noyabr 2020-ci ildə Şuşa şəhərində minaya düşərək şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elşad Allahverdiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman mərdlik və igidlik göstərildiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elşad Allahverdiyev ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elşad Allahverdiyev ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**226) Mətləb Cəfərov**



Mətləb Məhəmməd oğlu Cəfərov (19 noyabr 1977; Nərimankənd, Sabirabad rayonu, Azərbaycan – 20 noyabr 2020; Bakı, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Mətləb Cəfərov 19 noyabr 1977-ci ildə Sabirabad rayonunun Nərimankənd kəndində anadan olmuşdur. 9-cu sinfə qədər Sabirabad rayon Nərimankənd kənd tam orta məktəbində təhsil almış, 2 il sonra təhsilini davam etdirdiyi Bakı şəhərindəki liseylərdən birində təhsilini bitirmişdir. Kənd Təsərrüfatı İnstitutunda (indiki Azərbaycan Dövlət Aqrar Universiteti) ali təhsil almışdır.

*Hərbi xidməti*

Mətləb Cəfərov ali məktəbdən məzun olduqdan sonra "leytenant" rütbəsi ilə hərbi xidmət qulluqçusu olmuşdur. Xidmətini ehtiyatda olan zabit kimi və "baş leytenant" rütbəsi ilə başa vurmuşdur.

Azərbaycan Ordusunun baş leytenantı olan Mətləb Cəfərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq həmin ilin 16 oktyabrından iştirak etmişdir. Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Mətləb Cəfərov 2 noyabr 2020-ci ildə Qubadlı istiqamətində ağır yaralanmışdır. 18 günlük koma vəziyyətindən sonra 20 noyabr 2020-ci ildə müalicə aldığı xəstəxanada şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Mətləb Cəfərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman mərdlik və igidlik göstərdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Mətləb Cəfərov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Mətləb Cəfərov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Mətləb Cəfərov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**227) Elgün Bəyişli**



Elgün Teyuf oğlu Bəyişli (6 mart 1996; Təzəkənd, Beyləqan rayonu, Azərbaycan –8 noyabr 2020; Şuşa, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Elgün Bəyişli 6 mart 1996-cı ildə Beyləqan rayonunun Təzəkənd kəndində anadan olmuşdur.

*Hərbi xidməti*

Elgün Bəyişli Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu idi.

Azərbaycan Ordusunun əsgəri olan Elgün Bəyişli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Elgün Bəyişli 8 noyabr 2020-ci ildə Şuşa şəhərində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elgün Bəyişli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Qubadlı şəhərinin işğaldan azad olunmasına görə gedən döyüşlərdə xüsusi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamma əsasən Elgün Bəyişli ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman mərdlik və igidlik göstərdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elgün Bəyişli ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş





əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elgün Bəyişli ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elgün Bəyişli ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**228) Elşad Həsənov**



Elşad Paşa oğlu Həsənov (13 iyun 1981; Göyçə mahalı, Ermənistan SSR – 2 oktyabr 2020; Kəlbəcər rayonu, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin mayoru, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Elşad Həsənov 13 iyun 1981-ci ildə Göyçə mahalında anadan olmuşdur. Aksana Həsənova ilə ailəli idi, 2 övladı var.

*Hərbi xidməti*

Azərbaycan Ordusunun mayoru olan Elşad Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Elşad Həsənov 2 oktyabr 2020-ci ildə Murovdağ istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Uzun müddət nəşi tapıla bilməmişdir. 16 dekabr 2020-ci ildə nəşi tapıldığı ərazidən gətirilmiş və II Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarının rəhbəri olan, düşmənin canlı qüvvəsinin məhv edilməsində rəşadət göstərən, vəzifə borcunu ləqayətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elşad Həsənov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elşad Həsənov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elşad Həsənov ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.

**229) Sahib Həsənov**



Sahib Azər oğlu Həsənov (19 oktyabr 1999; Gəncə, Azərbaycan – 17 oktyabr 2020; Kəlbəcər rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Sahib Həsənov 19 oktyabr 1999-cu ildə Gəncə şəhərində anadan olmuşdur. 2017-ci ildə Gəncə şəhər 7 nömrəli tam orta məktəbi bitirmişdir.

*Hərbi xidməti*

Sahib Həsənov 2017-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhər Kəpəz Rayon Şöbəsindən hərbi xidmətə çağırılmış, Müdafiə Nazirliyinin «N» saylı hərbi hissəsində xidmət etmişdir.

Sahib Həsənov 2019-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu idi.

Azərbaycan Ordusunun əsgəri olan Sahib Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Sahib Həsənov 17 oktyabr 2020-ci ildə Kəlbəcər rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 18 oktyabr 2020-ci ildə Gəncə Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Sahib Həsənov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Sahib Həsənov ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını və xidməti vəzifələrini yerinə yetirən zaman fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 30.12.2020-ci il tarixli Sərəncamına əsasən Sahib Həsənov ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edildi.





**230) Mirmuraz Cəfərov**



Mirmuraz Mirbaba oğlu Cəfərov (26 may 1997; Gəncə, Azərbaycan – 26 oktyabr 2020; Qubadlı, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Mirmuraz Cəfərov 26 may 1997-ci ildə Gəncə şəhərində anadan olmuşdur. 2003-2011-ci illərdə C.Cabbarlı adına 6 nömrəli tam orta məktəbdə təhsil almışdır.

*Hərbi xidməti*

Mirmuraz Cəfərov 2015-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhər Nizami Rayon Şöbəsindən hərbi xidmətə çağırılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Mirmuraz Cəfərov 2020-ci ilin sentyabr ayında Azərbaycan Ordusunda keçirilən hərbi təlim toplantılarına çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Mirmuraz Cəfərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Füzulinin, Qubadlının və Zəngilanın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Mirmuraz Cəfərov 26 oktyabr 2020-ci ildə Qubadlı istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 27 oktyabr 2020-ci ildə Gəncə Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Mirmuraz Cəfərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyi, sona qədər döyüşdüyü və tapşırıqların yerinə yetirilməsində fərqləndiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli sərəncamına əsasən Mirmuraz Cəfərov ölümündən sonra "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilmişdir.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Mirmuraz Cəfərov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

**231) Zərbəli Qafarov**



Zərbəli Vidadi oğlu Qafarov (13 iyun 1990; Gəncə, Azərbaycan SSR – 8 oktyabr 2020; Suqovuşan, Tərtər rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Zərbəli Qafarov 13 iyun 1990-cı ildə Gəncə şəhərində anadan olmuşdur. 2006-cı ildə Gəncə şəhər M.Əzizbəyov adına 15 nömrəli tam orta məktəbin 9-cu sinfini bitirmişdir.

*Hərbi xidməti*

Zərbəli Qafarov 2008-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhər Kəpəz Rayon Şöbəsindən hərbi xidmətə çağırılmış, 2008-2010-cu illərdə xidmətini Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində sıravi əsgər kimi etmişdir.

Zərbəli Qafarov 2019-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu idi.

Azərbaycan Ordusunun əsgəri olan Zərbəli Qafarov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə, Tərtər və Goranboy rayonları istiqamətində vuruşmuşdur. Zərbəli Qafarov 8 oktyabr 2020-ci ildə Suqovuşan qəsəbəsi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 9 oktyabr 2020-ci ildə Gəncə Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Zərbəli Qafarov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Zərbəli Qafarov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Zərbəli Qafarov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.





**232) Asim Süleymanov**



Asim Məhərrəm oğlu Süleymanov (18 fevral 2001; Xoşbulaq, Daşkəsən rayonu, Azərbaycan – 4 noyabr 2020; Xocavənd rayonu, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Asim Süleymanov 18 fevral 2001-ci ildə Daşkəsən rayonunun Xoşbulaq kəndində anadan olmuşdur. 2018-ci ildə Gəncə şəhər 21 nömrəli tam orta məktəbi bitirmişdir və Gəncə Dövlət Regional Kollecinə "Vaqon və refrijerator təsərrüfatı" ixtisası üzrə daxil olmuşdur.

*Hərbi xidməti*

Asim Süleymanov 2019-cu ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhər Kəpəz Rayon Şöbəsindən həqiqi hərbi xidmətə çağırılmışdır. O, təhsilini yarımçıq qoyaraq hərbi xidmətə yollanmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etməyə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Asim Süleymanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Suqovuşanın, Cəbrayılın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Asim Süleymanov 4 noyabr 2020-ci ildə Xocavənd rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 5 noyabr 2020-ci ildə Gəncə Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Asim Süleymanov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Asim Süleymanov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

**233) Elşad Mahmudov**



Elşad Suliddin oğlu Mahmudov (12 iyul 1997; Gəncə, Azərbaycan – 6 noyabr 2020; Laçın rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Elşad Mahmudov 12 iyul 1997-ci ildə Gəncə şəhərində anadan olmuşdur. 2014-cü ildə Gəncə şəhər 7 nömrəli tam orta məktəbi bitirmişdir. 2014-2018-ci illərdə Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU)-da "mühasibat uçotu və audit" ixtisası üzrə təhsil almışdır.

*Hərbi xidməti*

Elşad Mahmudov 2018-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhər Kəpəz Rayon Şöbəsindən hərbi xidmətə çağırılmış, Naxçıvan Muxtar Respublikasındakı "N" saylı hərbi hissədə xidmət etmişdir.

Elşad Mahmudov 27 sentyabr 2020-ci il tarixində Vətən müharibəsinin başlaması ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə qismən səfərbərlik elan edilməsi haqqında 28 sentyabr 2020-ci il tarixli Sərəncamına uyğun olaraq yenidən hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Elşad Mahmudov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Cəbrayılın, Füzulinin, Laçının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Elşad Mahmudov 6 noyabr 2020-ci ildə Laçın rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 7 noyabr 2020-ci ildə Gəncə Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elşad Mahmudov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Elşad Mahmudov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Elşad Mahmudov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Laçın rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamma əsasən Elşad Mahmudov ölümündən sonra "Laçının azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını və xidməti vəzifələrini yerinə yetirən zaman fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 30.12.2020-ci il tarixli Sərəncamına əsasən Elşad Mahmudov ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edildi.





**234) Mirhüseyn Seyid-Zadə**



Mirhüseyn Miryunis oğlu Seyid-Zadə (11 fevral 1991; Moskva, RSFSR, SSRİ – 9 oktyabr 2020; Füzuli rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Mirhüseyn Seyid-Zadə 11 fevral 1991-ci ildə Moskva şəhərində anadan olmuşdur. 1997-2006-cı illərdə M.Ə. Sabir adına 5 nömrəli məktəbdə təhsil almışdır. 2007-ci ildə Gəncə Humanitar Kollecinə (indiki Gəncə Dövlət Regional Kolleci) daxil olmuşdur. 2010-cu ildə kolleci "Gömrükxana işi" ixtisasıyla bitirmişdir. Hərbi xidmətini başa vurduqdan sonra 2016-2017-ci illərdə Türkiyə Respublikasının İstanbul şəhərində özəl şirkətdə çalışmışdır.

*Hərbi xidməti*

Mirhüseyn Seyid-Zadə 2010-cu ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhər Nizami Rayon Şöbəsindən hərbi xidmətə çağırılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

2018-ci ildə Azərbaycana geri dönmüş, Azərbaycan Sülhməramlı Qüvvələrinə qatılmışdır. 2020-ci il iyulun 7-dən etibarən Bakı şəhərində sülhməramlıların tərkibində təlimlərə başlamışdır.

Azərbaycan Ordusunun Sülhməramlı Qüvvələrinin əsgəri olan Mirhüseyn Seyid-Zadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Mirhüseyn Seyid-Zadə 9 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığınm yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 10 oktyabr 2020-ci ildə Gəncə Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqlarm icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamma əsasən Mirhüseyn Seyid-Zadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarının rəhbəri olan, düşmənin canlı qüvvəsinin məhv edilməsində rəşadət göstərən, vəzifə borcunu ləqayətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Mirhüseyn Seyid-Zadə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Mirhüseyn Seyid-Zadə ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş

əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Mirhüseyn Seyid-Zadə ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Laçın rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Mirhüseyn Seyid-Zadə ölümündən sonra "Laçının azad olunmasına görə" medalı ilə təltif edildi.

**235) Aysənan Abbasov**



Aysənan Əsgər oğlu Abbasov (29 iyun 1992; Tərtər rayonu, Azərbaycan – 30 sentyabr 2020; Goranboy rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Aysənan Abbasov 29 iyun 1992-ci ildə Tərtər rayonunda anadan olmuşdur.

*Hərbi xidməti*

Aysənan Abbasov 27 dekabr 2014-cü ildə hərbi xidmətə çağırılmışdır. Hərbi xidməti başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq hərbi xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Aysənan Abbasov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Aysənan Abbasov 30 sentyabr 2020-ci ildə Suqovuşan döyüşləri gedişatında Goranboy rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Aysənan Abbasov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Aysənan Abbasov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Aysənan Abbasov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.





**236) Ruslan Yunisli**



Ruslan Elçin oğlu Yunisli (10 oktyabr 1996; Təzəkənd, Beyləqan rayonu, Azərbaycan – 25 oktyabr 2020; Füzuli rayonu, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Ruslan Yunisli 10 oktyabr 1996-cı ildə Beyləqan rayonunun Təzəkənd kəndində anadan olmuşdur.

*Hərbi xidməti*

Ruslan Yunisli Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycan Ordusunun əsgəri olan Ruslan Yunisli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Ruslan Yunisli 25 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Ruslan Yunisli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Ruslan Yunisli ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Ruslan Yunisli "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

**237) Samir Abbasov**



Samir Azər oğlu Abbasov (10 iyul 1997; Xol Qaraqaşlı, Neftçala rayonu, Azərbaycan – 7 noyabr 2020; Şuşa, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Samir Abbasov 10 iyul 1997-ci ildə Neftçala rayonunun Xol Qaraqaşlı kəndində anadan olmuşdur.

*Hərbi xidməti*

Samir Abbasov 2015-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında Naxçıvan Muxtar Respublikasında yerləşən "N" saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Samir Abbasov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Füzulinin, Cəbrayılın, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Samir Abbasov 7 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Samir Abbasov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman mərdlik və igidlik göstərdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamma əsasən Samir Abbasov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Samir Abbasov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**238) İnam Baxşəliyev**



İnam Rasim oğlu Baxşəliyev (20 fevral 1993; Kövüzbulaq, Cəlilabad rayonu, Azərbaycan – 9 oktyabr 2020; Füzuli rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

İnam Baxşəliyev 20 fevral 1993-cü ildə Cəlilabad rayonunun Kövüzbulaq kəndində anadan olmuşdur.

*Hərbi xidməti*

Azərbaycan Ordusunun əsgəri olan İnam Baxşəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. İnam Baxşəliyev 9 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən İnam Baxşəliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə





yetirən zaman mərdlik və igidlik göstərdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən İnam Baxşəliyev ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən İnam Baxşəliyev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

**239) Vahid Baxşiyev**



Vahid Məclum oğlu Baxşiyev (17 may 1999; Xaçmaz rayonu, Azərbaycan – 30 oktyabr 2020; Tap Qaraqoyunlu, Goranboy rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Vahid Baxşiyev 17 may 1999-cu ildə Xaçmaz rayonunda anadan olmuşdur.

*Hərbi xidməti*

Vahid Baxşiyev 22 yanvar 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında hərbi xidmət edirdi.

Azərbaycan Ordusunun əsgəri olan Vahid Baxşiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Vahid Baxşiyev 30 oktyabr 2020-ci ildə Suqovuşan döyüşləri gedişatında Goranboy rayonunun Tap Qaraqoyunlu kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Vahid Baxşiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Vahid Baxşiyev "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Vahid Baxşiyev ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

### 240) Cəlal Bayramov



Cəlal Yaqub oğlu Bayramov (20 dekabr 1994; Saatlı rayonu, Azərbaycan –27 oktyabr 2020; Arpagədik, Laçın rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Cəlal Bayramov 20 dekabr 1994-cü ildə Saatlı rayonunun Çolpı kəndində anadan olmuşdur.

*Hərbi xidməti*

Cəlal Bayramov 29 sentyabr 2020-ci ildə Saatlı rayon Hərbi Komissarlığı tərəfindən təlimə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Cəlal Bayramov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Laçının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Cəlal Bayramov 27 oktyabr 2020-ci ildə Laçın rayonunun Arpagədik kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı itkin düşmüşdür. Uzun müddət nəşi tapıla bilməmişdir. Müdafiə Nazirliyi tərəfindən rəsmi olaraq itkin düşən hərbi qulluqçu hesab olunmuşdur. Onun tapılıb ailəsinə məlumat verilməsi üçün zəruri tədbirlər görülmüşdür. Cəlal Bayramovun nəşi 13 yanvar 2021-ci ildə tapılmış və ailəsinə təhvil verilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Cəlal Bayramov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

### 241) Elcan Bayramov



Elcan Qoşqar oğlu Bayramov (3 avqust 2001; Göygöl rayonu, Azərbaycan – 28 sentyabr 2020; Füzuli rayonu, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Elcan Bayramov 3 avqust 2001-ci ildə Göygöl rayonunda anadan olmuşdur.

*Hərbi xidməti*

Azərbaycan Ordusunun əsgəri olan Elcan Bayramov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Elcan Bayramov 28 sentyabr 2020-ci ildə Füzuli rayonu





istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elcan Bayramov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Elcan Bayramov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Elcan Bayramov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elcan Bayramov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elcan Bayramov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

### 242) Fərid Teymurov



Fərid Fizuli oğlu Teymurov (11 fevral 1999; Qarğılı, Cəlilabad rayonu, Azərbaycan – oktyabr 2020; Füzuli rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Fərid Teymurov 11 fevral 1999-cu ildə Cəlilabad rayonunun Qarğılı kəndində anadan olmuşdur.

*Hərbi xidməti*

Fərid Teymurov Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycan Ordusunun əsgəri olan Fərid Teymurov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 2020-ci ilin oktyabrın əvvəlində "457" və "951" yüksəkliyində vuruşduqdan sonra itkin düşmüşdür. Uzun müddət nəşi tapıla bilməmişdir. Müdafiə Nazirliyi tərəfindən rəsmi

olaraq itkin düşən hərbi qulluqçu hesab olunmuşdur. Onun tapılıb ailəsinə məlumat verilməsi üçün zəruri tədbirlər görülmüşdür. Fərid Teymurovun nəşi 2 yanvar 2021-ci ildə tapılmış və Cəlilabad rayonunun Qarğılı kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Fərid Teymurov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman mərdlik və igidlik göstərdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Fərid Teymurov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

**243) Kamil Qasımov**



Kamil Nüsrət oğlu Qasımov (5 fevral 1995, Səfikürd, Goranboy rayonu – 10 oktyabr 2020, Talış, Tərtər rayonu) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Kamil Qasımov 5 fevral 1995-ci ildə Goranboy rayonunun Səfikürd kəndində anadan olmuşdur.

*Hərbi xidməti*

Kamil Qasımov Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycan Ordusunun əsgəri olan Kamil Qasımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Talışın və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Kamil Qasımov 10 oktyabr 2020-ci ildə Talış kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Kamil Qasımov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.





**244) Məhəmmədəli İsmayıllı**



Məhəmmədəli Elxan oğlu İsmayıllı (6 may 1996; Kürdmahmudlu, Füzuli rayonu, Azərbaycan –26 oktyabr 2020; Füzuli, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Məhəmmədəli İsmayıllı 6 may 1996-cı ildə Füzuli rayonunun Kürdmahmudlu kəndində anadan olmuşdur. İdmançı olaraq bir çox çempionatlarda iştirak etmişdir. 2007-ci ildə Bakı şəhərində keçirilən Azərbaycan çempionatında 35 kq çəki dərəcəsində 3-cü yeri, 2007-ci ildə Füzuli rayonunda klublararası açıq çempionatda 40 kq çəki dərəcəsində 1-ci yeri, 2008-ci ildə Bakı şəhər açıq çempionatında 47 kq çəki dərəcəsində 1-ci yeri, 2009-cu ildə Bakı şəhər Səbail rayonunda keçirilən açıq çempionatda 50 kq çəki dərəcəsində 1-ci yeri, 2011-ci ildə Gürcüstan Respublikasının Poti şəhərində keçirilən beynəlxalq turnirdə 65 kq çəki dərəcəsində 1-ci yeri tutmuşdur. Məhəmmədəli İsmayıllı 2011-ci ildə Türkiyənin Antalya şəhərində karate üzrə keçirilən dünya çempionatında 70 kq çəki dərəcəsində 1-ci yerə çıxaraq dünya çempionu olmuşdur. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Karate Federasiyası tərəfindən fəxri fərmana layiq görülmüşdür. Qara kəmər, 1-ci və 2-ci danla təltif olunmuşdur. 2013-cü ildə Ramil Əkbərov adına Kürdmahmudlu kənd orta məktəbini bitirmişdir.Hərbi xidmətini başa vurduqdan sonra Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin mühafizəsində işə qəbul edilmişdir.

*Hərbi xidməti*

Məhəmmədəli İsmayıllı 2013-cü ildə Azərbaycan Hərbi Dəniz Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. Məhəmmədəli İsmayıllıya xidmət müddətində fərqləndiyinə görə "baş matros" rütbəsi verilmişdir. Bir müddət bu sahədə çalışdıqdan sonra hərbi xidmətini müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Məhəmmədəli İsmayıllı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində sürücü olaraq iştirak etmişdir. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Məhəmmədəli İsmayıllı 26 oktyabr 2020-ci ildə Füzuli şəhəri istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı minaya düşərək şəhid olmuşdur. 27 oktyabr 2020-ci ildə Füzuli rayonunun Kürdmahmudlu kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Məhəmmədəli İsmayıllı ölümündən sonra "Vətən uğrunda" medalı

ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Məhəmmədəli İsmayıllı ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Məhəmmədəli İsmayıllı ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Məhəmmədəli İsmayıllı "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

**245) Mürtaza Qasımov**



Mürtaza Elman oğlu Qasımov (2 oktyabr 2001; Gülməmmədli, Cəlilabad rayonu, Azərbaycan – 8 noyabr 2020; Zəngilan rayonu, Azərbaycan) – Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Mürtaza Qasımov 2 oktyabr 2001-ci ildə Cəlilabad rayonunun Gülməmmədli kəndində anadan olmuşdur. 2008-2019-cu illərdə Əli Kərimov adına Cəlilabad rayon Gülməmmədli kənd tam orta məktəbində təhsil almışdır.

*Hərbi xidməti*

Mürtaza Qasımov 2019-cu ilin oktyabr ayından Sərhəd Qoşunlarının müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu idi.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının əsgəri olan Mürtaza Qasımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Cəbrayılın və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Mürtaza Qasımov 8 noyabr 2020-ci ildə Zəngilan rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 9 noyabr 2020-ci il tarixdə Cəlilabad rayonunun Gülməmmədli kəndində dəfn edilmişdir.

Azərbaycanm ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Mürtaza Qasımov ölümündən sonra "Vətən uğrunda" medalı





ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən şəxsi mərdlik və igidlik göstərdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Mürtaza Qasımov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Zəngilan rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Mürtaza Qasımov ölümündən sonra "Zəngilanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**246) Samir Abasov**



Samir Adəm oğlu Abasov (24 avqust 2001; Uzunboyad, Şabran rayonu, Azərbaycan – 13 oktyabr 2020; Talış, Tərtər rayonu, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Samir Abasov 24 avqust 2001-ci ildə Şabran rayonunun Uzunboyad kəndində anadan olmuşdur. Orta təhsilini aldıqdan sonra hərbi xidmətə yollanmışdır.

*Hərbi xidməti*

Azərbaycan Ordusunun əsgəri olan Samir Abasov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Samir Abasov 13 oktyabr 2020-ci ildə Tərtər rayonunun Talış kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Samir Abasov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanm Laçın rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Samir Abasov ölümündən sonra "Laçının azad olunmasına görə" medalı ilə təltif edildi.

**247) Asim Mehdiyev**



Asim Yaqub oğlu Mehdiyev (1 yanvar 2001; Yuxarı Qiyaməddinli, Ağcabədi rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri.

*Həyatı*

Asim Mehdiyev 1 yanvar 2001-ci ildə Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə Ağcabədi rayon Yuxarı Qiyaməddinli kənd tam orta məktəbində təhsil almışdır.

*Hərbi xidməti*

Asim Mehdiyev 2020-ci ilə qədər Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının sıralarında müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu idi. 2020-ci ilin sentyabr ayından Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusudur.

Azərbaycan Ordusunun əsgəri olan Asim Mehdiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Asim Mehdiyev 7 noyabr 2020-ci ildə Xocavənd rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı itkin düşmüşdür. Müdafiə Nazirliyi tərəfindən rəsmi olaraq itkin düşən hərbi qulluqçu hesab olunur. Hal-hazırda onun tapılıb ailəsinə məlumat verilməsi üçün zəruri tədbirlər görülür.

**248) Azər Musazadə**



Azər Çingiz oğlu Musazadə (25 iyun 1998; Şəfili, Qəbələ rayonu, Azərbaycan – 13 oktyabr 2020; Tərtər rayonu, Suqovusan Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Azər Musazadə 25 iyun 1998-ci ildə Qəbələ rayonunun Şəfili kəndində anadan olmuşdur. 2004-cü ildə Qəbələ rayon Şəfili kənd tam orta məktəbinə daxil olmuşdur. 2009-2015-ci illərdə şəhid Elbrus Məmmədov adına Çarxana kənd tam orta məktəbində təhsilini davam etdirmişdir. 2015-2019-cu illərdə Azərbaycan Texniki Universitetində elektroenergetika mühəndisliyi ixtisası üzrə təhsil almışdır.

*Hərbi xidməti*

Azər Musazadə 2019-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. 29 sentyabr 2020-ci ildən könüllü olaraq hərbi xidmətini davam etdirmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Azər Musazadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Azər Musazadə 13 oktyabr 2020-ci ildə Suqovuşan istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Qəbələ rayonunun Şəfili kəndində torpağa tapşırılmışdır.





Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Azər Musazadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Azər Musazadə "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Azər Musazadə ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**249) Sübhan Həsənov**



Sübhan Rauf oğlu Həsənov (26 iyul 2001; Masallı, Azərbaycan – 7 dekabr 2020 (dəfn tarixi); Qarabağ, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Sübhan Həsənov 26 iyul 2001-ci ildə Masallı şəhərində anadan olmuşdur. 2007-ci ildə şəhid Masallı şəhər İ.Zülalov adına İsgəndərli kənd tam orta məktəbinin birinci sinfinə daxil olmuşdur. 2018-ci ildə həmin məktəbin onbirinci sinfini bitirmişdir.

*Hərbi xidməti*

Sübhan Həsənov 2019-cu ilin 30 iyul tarixində Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə yollanmışdır. Hərbi xidmətini Goranboy rayonunda yerləşən «N» saylı hərbi hissədə snayperçi olaraq yerinə yetirmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Sübhan Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur və döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Uzun müddət nəşi tapıla bilməmişdir. Sübhan Həsənov 7 dekabr 2020-ci ildə Masallı

şəhərinin qəbiristanlığında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Sübhan Həsənov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Sübhan Həsənov "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

**250) Mehdi Fərzulla-zadə**



Mehdi Zaman oğlu Fərzulla-zadə (27 iyul 1995; Bülbülə, Sabunçu rayonu, Azərbaycan – 7 noyabr 2020; Xocavənd rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Mehdi Fərzulla-zadə 27 iyul 1995-ci ildə Sabunçu rayonunun Bülbülə qəsəbəsində anadan olmuşdur. 2002-2012-ci illərdə Bakı şəhər 208 saylı tam orta məktəbdə orta təhsil almışdır. Hərbi xidmət qulluqçusu olduqdan sonra avtoservis sahəsində çalışmışdır.

*Hərbi xidməti*

Mehdi Fərzulla-zadə 2013-2015-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin 3-cü Ordu Korpusunun sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. 2020-ci ilin sentyabr ayında könüllü olaraq yenidən hərbi xidmətə yollanmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Mehdi Fərzulla-zadə 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Mehdi Fərzulla-zadə 7 noyabr 2020-ci ildə Xocavənd rayonunda yerləşən 612-ci yüksəklik istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Mehdi Fərzulla-zadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Mehdi Fərzulla-zadə ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.





Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Mehdi Fərzulla-zadə ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

**251) Samir Abdullayev**



Samir İlham oğlu Abdullayev (28 iyul 1998; Gəncə, Azərbaycan – 25 oktyabr 2020; Füzuli rayonu, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Samir Abdullayev 28 iyul 1998-ci ildə Gəncə şəhərində anadan olmuşdur. 2016-cı ildə Gəncə şəhər 37 nömrəli tam orta məktəbi bitirmişdir.

*Hərbi xidməti*

Samir Abdullayev 2016-cı ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhər Kəpəz Rayon Şöbəsindən hərbi xidmətə çağırılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidməti borcunu yerinə yetirmişdir.

2020-ci ilin sentyabr ayında Azərbaycan Ordusunda keçirilən hərbi təlimlərə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Samir Abdullayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Samir Abdullayev 25 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığımn yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 28 oktyabr 2020-ci ildə Gəncə Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Samir Abdullayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyi, sona qədər döyüşdüyü və tapşırıqların yerinə yetirilməsində fərqləndiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Samir Abdullayev ölümündən sonra "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilmişdir.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamma əsasən Samir Abdullayev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

**252) Qəhrəman Nəsirov**



Qəhrəman Fərman oğlu Nəsirov (28 noyabr 2000; Mingəçevir, Azərbaycan – 10 oktyabr 2020; Cəbrayıl rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Qəhrəman Nəsirov 28 noyabr 2000-ci ildə Mingəçevir şəhərində anadan olmuşdur.

*Hərbi xidməti*

Qəhrəman Nəsirov 2019-cu ildə Xüsusi Təyinatlı Qüvvələrin sıralarında müddətli həqiqi hərbi xidmət etmişdir. Hərbi xidmətini eyni hərbi birləşmədə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olaraq davam etmişdir.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin əsgəri olan Qəhrəman Nəsirov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Murovdağın, Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Qəhrəman Nəsirov 10 oktyabr 2020-ci ildə Cəbrayıl rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Qəhrəman Nəsirov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Qəhrəman Nəsirov ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.

**253) Pərviz Novruzlu**



Pərviz Qorxmaz oğlu Novruzlu (15 oktyabr 1997; Çərçiboğan, Şərur rayonu, Azərbaycan – 9 noyabr 2020; Şuşa, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Pərviz Novruzlu 15 oktyabr 1997-ci ildə Şərur rayonunun Çərçiboğan kəndində anadan olmuşdur. 2004-2015-ci illərdə Şərur rayon Çərçiboğan kənd tam orta məktəbində orta təhsil almışdır.

*Hərbi xidməti*

Pərviz Novruzlu 2015-ci ilin oktyabrından Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun xüsusi təyinatlı qrupunun üzvü





kimi müddətli həqiqi hərbi xidmət qulluqçusu idi. Naxçıvan Muxtar Respublikasında yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir. Hərbi xidməti dövründə 15-17 avqust 2016-cı il tarixində keçirilmiş "Ən yaxşı kəşfiyyat qrupu" yarışında 1-ci yeri tutduğuna görə Fəxri fərmanla təltif olunmuşdur. 23 mart 2017-ci ildə hərbi xidməti kəşfiyyatçı əsgər kimi başa vurmuş və sonra eyni hərbi birləşmədə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Pərviz Novruzlu 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Cəbrayılın, Xocavəndin, Laçının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə kəşfiyyatçı-qumbaraatan olaraq vuruşmuşdur. Pərviz Novruzlu 9 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Pərviz Novruzlu ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Pərviz Novruzlu ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Pərviz Novruzlu ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

**254) Rəcəb Qurbanov**



Rəcəb Elşən oğlu Qurbanov (1 yanvar 2001; Kələntərli, Bərdə rayonu, Azərbaycan – 6 oktyabr 2020; Cəbrayıl rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Rəcəb Qurbanov 1 yanvar 2001-ci ildə Bərdə rayonunun Kələntərli kəndində anadan olmuşdur.

*Hərbi xidməti*

Rəcəb Qurbanov 2019-cu ildə müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. Hərbi xidmətini Xüsusi Təyinatlı Qüvvələrin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Rəcəb Qurbanov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində kəşfiyyatçı olaraq iştirak etmişdir. Murov-

dağın, Füzulinin və Cəbrayılm azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Rəcəb Qurbanov 6 oktyabr 2020-ci ildə Cəbrayıl rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yerinə yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Murad Əliyev ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Murad Əliyev ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Murad Əliyev ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Murad Əliyev ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**327) Şamxal Əlizadə**



Şamxal Əvəz oğlu Əlizadə (1 yanvar 1998; Çobankənd, Gədəbəy rayonu, Azərbaycan – 8 noyabr 2020; Şuşa, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Şamxal Əlizadə 1 yanvar 1998-ci ildə Gədəbəy rayonunun Çobankənd kəndində anadan olmuşdur. 2004-2015-ci illərdə orta təhsil almışdır. 2015-ci ildə Qazax Dövlət Sosial İqtisad Kollecinin mühasibat uçotu fakültəsinə qəbul olmuşdur. Kolleci bitirdikdən sonra Bakı Avrasiya Universitetinin İqtisadiyyat fakültəsində təhsil almışdır.

*Hərbi xidməti*

Şamxal Əlizadə 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Şamxal Əlizadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Şamxal Əlizadə 8 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 1 ay 1 gün sonra tapılan nəşi 11 dekabr 2020-ci ildə Gədəbəy rayonunun Çobankənd kəndində torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Şamxal Əlizadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Şamxal Əlizadə ölümündən sonra "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Şamxal Əlizadə ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**328) Sadiq Ağabalayev**



Sadiq Nadir oğlu Ağabalayev (15 mart 1998; Privolnoye, Cəlilabad rayonu, Azərbaycan – 22 oktyabr 2020; Qubadlı rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Sadiq Ağabalayev 15 mart 1998-ci ildə Cəlilabad rayonunun Privolnoye kəndində anadan olmuşdur. Subay idi.

*Hərbi xidməti*

Sadiq Ağabalayev 2016-cı ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. Hərbi xidmət müddətində 2016-cı ilin aprelin 2-dən 5-nə qədər davam edən Aprel döyüşlərində yaxından vuruşmuş, fərqlənmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Sadiq Ağabalayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində sentyabrın 28-dən könüllü olaraq iştirak etmişdir. Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Sadiq Ağabalayev 22 oktyabr 2020-ci ildə Qubadlı rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.





Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Sadiq Ağabalayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Sadiq Ağabalayev ölümündən sonra "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Sadiq Ağabalayev ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Sadiq Ağabalayev ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

**329) Hacıəhməd Hacıəhmədli**



Hacıəhməd Həsən oğlu Hacıəhmədli (6 aprel 1998; Zərnə, Qax rayonu, Azərbaycan – 7 noyabr 2020; Şuşa, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Hacıəhməd Hacıəhmədli 6 aprel 1998-ci ildə Qax rayonunun Zərnə kəndində anadan olmuşdur. Doğulduğu kənddə orta təhsil almışdır. Ali təhsilini Azərbaycan Texniki Universitetində almışdır.

*Hərbi xidməti*

Hacıəhməd Hacıəhmədli Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycan Ordusunun əsgəri olan Hacıəhməd Hacıəhmədli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Zəngilanın, Qubadlının, Laçının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. İki dəfə yaralansa da, yenidən müharibədə vəzifəsinə davam etmişdir. Hacıəhməd Hacıəhmədli 7 noyabr 2020-ci ildə Şuşa döyüşləri

gedişatında Şuşa qalası istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Hacıəhməd Hacıəhmədli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Hacıəhməd Hacıəhmədli ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman cəsarət göstərdiyinə, habelə qətiyyətli addımlar nümayiş etdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Hacıəhməd Hacıəhmədli ölümündən sonra "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Hacıəhməd Hacıəhmədli ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**330) Səməndər İsgəndərov**



Səməndər Vahid oğlu İsgəndərov (23 fevral 1996; Sərçuvar, Masallı rayonu, Azərbaycan – 12 noyabr 2020 (dəfn tarixi); Şuşa, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Səməndər İsgəndərov 23 fevral 1996-cı ildə Masallı rayonunun Sərçuvar kəndində anadan olmuşdur. Şəhid Səfəralı Məmmədov adına Masallı rayon Sərçuvar kənd tam orta məktəbdə təhsil almışdır. Həmçinin, skripka üzrə musiqi təhsili də almışdır. Nişanlı idi.

*Hərbi xidməti*

Səməndər İsgəndərov 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. Hərbi ixtisası topçu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Səməndər İsgəndərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Cəbrayılın və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Səməndər İsgəndərov Şuşa istiqamətində döyüş





tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 12 noyabr 2020-ci ildə Masallı rayonunun Sərçuvar kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Səməndər İsgəndərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Səməndər İsgəndərov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Səməndər İsgəndərov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**331) Həsən Cəlilov**



Həsən Məhərrəm oğlu Cəlilov (30 mart 1995; Qarahəsənli, Şərur rayonu, Azərbaycan – 25 oktyabr 2020; Hadrut, Xocavənd rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Həsən Cəlilov 30 mart 1995-ci ildə Şərur rayonunun Qarahəsənli kəndində anadan olmuşdur.

*Hərbi xidməti*

Həsən Cəlilov Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun Xüsusi Təyinatlı Briqadasında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu idi.

Azərbaycan Ordusunun əsgəri olan Həsən Cəlilov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində kəşfiyyatçı-qumbaraatan olaraq iştirak etmişdir. Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Həsən Cəlilov 25 oktyabr 2020-ci ildə Şuşa istiqamətində yolların açılması üçün Xocavənd rayonunun Hadrut qəsəbəsində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Doğulduğu Şərur rayonunun Qarahəsənli kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Həsən Cəlilov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yerinə yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Həsən Cəlilov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Həsən Cəlilov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Həsən Cəlilov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

**332) Pərviz Gülmalıyev**



Pərviz Zaur oğlu Gülmalıyev (10 may 1997; Bala Bəhmənli, Füzuli rayonu, Azərbaycan – 6 noyabr 2020; Şuşa, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Pərviz Gülmalıyev 10 may 1997-ci ildə Füzuli rayonunun Bala Bəhmənli kəndində anadan olmuşdur. 2018-ci ildən Azpetrol MMC-də texniki inspektor vəzifəsində çalışırdı.

*Hərbi xidməti*

Azərbaycan Ordusunun əsgəri olan Pərviz Gülmalıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Füzulinin, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Pərviz Gülmalıyev 6 noyabr 2020-ci ildə Şuşa da döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Doğulduğu Füzuli rayonunun Bala Bəhmənli kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Pərviz Gülmalıyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Pərviz Gülmalıyev ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yerinə yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Pərviz Gülmalıyev ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Pərviz Gülmalıyev ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**333) Elməddin Nurzaliyev**



Elməddin Səfər oğlu Nurzaliyev (22 noyabr 1996; Hacıqabul rayonu, Azərbaycan –9 noyabr 2020; Şuşa, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Elməddin Nurzaliyev 22 noyabr 1996-cı ildə Hacıqabul rayonunda anadan olmuşdur. Subay idi.

*Hərbi xidməti*

Elməddin Nurzaliyev 2019-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu idi. Cəlilabad rayonunun Göytəpə şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmət edirdi.

Azərbaycan Ordusunun əsgəri olan Elməddin Nurzaliyev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Cəbrayılın, Zəngilanın, Hadrutun və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Elməddin Nurzaliyev 9 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elməddin Nurzaliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Elməddin Nurzaliyev ölümündən sonra "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Elməddin Nurzaliyev ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elməddin Nurzaliyev ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.

334) Sənan Hüseynov



Sənan Vidadi oğlu Hüseynov (1 aprel 1996; Qazaxıstan – 7 noyabr 2020; Şuşa, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Sənan Hüseynov 1 aprel 1996-cı ildə Qazaxıstanda anadan olmuşdur. Əslən Füzuli rayonunun Qacar kəndindəndir. 2008-ci ildə Azərbaycana köçmüşdür. Subay idi.

*Hərbi xidməti*

Sənan Hüseynov 2016-cı ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında hərbi xidmətdə olmuşdur. Hərbi xidmət zamanı 2016-cı ilin aprelin 2-dən 5-nə qədər davam edən Aprel döyüşlərində yaxından vuruşmuş, fərqlənmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Sənan Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq vuruşmuşdur. Füzulinin, Qubadlının, Cəbrayılın, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Sənan Hüseynov 7 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Binə Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Sənan Hüseynov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Sənan Hüseynov ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Sənan Hüseynov ölümündən sonra "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Sənan Hüseynov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Sənan Hüseynov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.





335) Elxan Hüseynli



Elxan İsrayıl oğlu Hüseynli (4 oktyabr 1999; Yuxarı Kəbirli, Beyləqan rayonu, Azərbaycan –9 noyabr 2020; Şuşa, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Elxan Hüseynli 4 oktyabr 1999-cu ildə Beyləqan rayonunun Yuxarı Kəbirli kəndində anadan olmuşdur. 2006-2017-ci illərdə Əli Əsgərov adına Beyləqan rayon Kəbirli kənd tam orta məktəbində təhsil almışdır. Subay idi.

*Hərbi xidməti*

Elxan Hüseynli 2017-2019-cu illərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "Həmlə" Taborunda müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Elxan Hüseynli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Cəbrayılın, Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Elxan Hüseynli 9 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Ertəsi gün doğulduğu Beyləqan rayonunun Yuxarı Kəbirli kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elxan Hüseynli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yerinə yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamma əsasən Elxan Hüseynli ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elxan Hüseynli ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elxan Hüseynli ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Elxan Hüseynli ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**336) Orxan Hüseynov**



Orxan Bəhmən oğlu Hüseynov (25 iyul 1991; Əmircan, Suraxanı rayonu, Bakı, Azərbaycan – 27 sentyabr 2020; Tərtər rayonu, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Orxan Hüseynov 25 iyul 1991-ci ildə Suraxanı rayonunun Əmircan qəsəbəsində anadan olmuşdur.

*Hərbi xidməti*

Azərbaycan Ordusunun baş leytenantı olan Orxan Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində bölük komandiri iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Orxan Hüseynov 27 sentyabr 2020-ci ildə Suqovuşan döyüşləri gedişatında Tərtər rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Orxan Hüseynov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarının rəhbəri olan, düşmənin canlı qüvvəsinin məhv edilməsində rəşadət göstərən, vəzifə borcunu ləqayətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Orxan Hüseynov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Orxan Hüseynov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**337) Vurğun Həsənov**



Vurğun Ağası oğlu Həsənov (6 avqust 1995; Siyəzən, Azərbaycan –21 oktyabr 2020; Xocavənd rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi.

*Həyatı*

Vurğun Həsənov 6 avqust 1995-ci ildə Siyəzən şəhərində anadan olmuşdur. Siyəzən şəhər C.Cabbarlı adına 1 nörməli orta məktəbin rus bölməsində, Siyəzən şəhər 6 nömrəli və 5 nömrəli tam orta məktəblərdə orta təhsil almışdır. Hərbi xidmətini bitirdikdən sonra Siyəzən Broyler Quşçuluq fabrikində fəhlə olaraq çalışmışdır.





*Hərbi xidməti*

Vurğun Həsənov Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. Tovuz rayonunda yerləşən "N" saylı hərbi hissədə hərbi xidmət edirdi.

Azərbaycan Ordusunun əsgəri olan Vurğun Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Füzulinin, Cəbrayılın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Vurğun Həsənov 21 oktyabr 2020-ci ildə Xocavənd rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Vurğun Həsənov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Vurğun Həsənov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Vurğun Həsənov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Vurğun Həsənov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

**338) Əli Ələkbərov**



Əli Ələkbər oğlu Ələkbərov (12 oktyabr 1985; Bozalqanlı, Tovuz rayonu, Azərbaycan – 15 oktyabr 2020; Ağdam rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Əli Ələkbərov 12 oktyabr 1985-ci ildə Tovuz rayonunun Bozalqanlı kəndində anadan olmuşdur. Sonra Xırdalan şəhərinə köçmüş və orada yaşamışdır. Bakı şəhər 157 nömrəli tam orta məktəbdə orta təhsilini, Azərbaycan Dövlət İqtisad Universitetində isə ali təhsilini almışdır.

2020-ci ilin 14 iyul tarixində Tovuz döyüşləri zamanı general-mayor Polad Həşimovun şəhid olmasından sonra səfərbərlik başlamış, Əli Ələkbərov səfərbər olunmuşdur. 21 sentyabr 2020-ci ildə hərbi təlim toplantılarına çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Əli Ələkbərov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Suqovuşanın və Ağdamın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Əli Ələkbərov 15 oktyabr 2020-ci ildə Ağdam rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 1 ay sonra tapılan nəşi üzərində uzun müddət DNK analizi getdiyindən 21 noyabr 2020-ci ildə təhvil verilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Əli Ələkbərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Əli Ələkbərov ölümündən sonra "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Əli Ələkbərov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**339) Rasim Əmrahov**



Rasim İmran oğlu Əmrahov (12 oktyabr 1988; Ərəbbəsrə, Bərdə rayonu, Azərbaycan – 8 oktyabr 2020; Suqovuşan, Tərtər rayonu, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Rasim Əmrahov 12 oktyabr 1988-ci ildə Bərdə rayonunun Ərəbbəsrə kəndində anadan olmuşdur.

*Hərbi xidməti*

Rasim Əmrahov 2006–2008-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. 2014-cü ildən eyni hərbi birləşmədə xidmətini müddətdən artıq xidmət edən qulluqçu kimi davam etmişdir. 2018-ci ildə general-polkovnik Zakir Həsənovun əmri ilə xidmətdə fərqləndiyinə görə "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə təltif edilmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Rasim Əmrahov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad





edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Rasim Əmrahov 8 oktyabr 2020-ci ildə Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Rasim Əmrahov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Rasim Əmrahov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarınım məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Rasim Əmrahov ölümündən sonra "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

**340) Emin İsmayılov**



Emin Tahir oğlu İsmayılov (21 may 2001; Nəsimi rayonu, Bakı, Azərbaycan –6 oktyabr 2020; Kəlbəcər rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Emin İsmayılov 21 may 2001-ci ildə Nəsimi rayonunda anadan olmuşdur. Əslən Cəbrayıl rayonundan idi. Nəsimi rayon 54 nömrəli tam orta məktəbdə təhsil almışdır. Subay idi.

*Hərbi xidməti*

Emin İsmayılov 2019-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu idi. Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət edirdi.

Azərbaycan Ordusunun əsgəri olan Emin İsmayılov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Suqovuşanın və Kəlbəcərin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Emin İsmayılov 6 oktyabr 2020-ci ildə Kəlbəcər rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. II Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu

şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Emin İsmayılov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Emin İsmayılov ölümündən sonra "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Emin İsmayılov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**341) Ceyhun Adgözəlov**



Ceyhun Çoban oğlu Adgözəlov (12 oktyabr 1994; Azadkənd, Saatlı rayonu, Azərbaycan – 6 noyabr 2020; Qarabağ, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Ceyhun Adgözəlov 12 oktyabr 1994-cü ildə Saatlı rayonunun Azadkənd kəndində anadan olmuşdur. Əslən Şamaxı rayonundan idi. Sərbəst güləş üzrə bir sıra rayon, məktəb turnirlərində dərəcə tutmuşdur. Nişanlı idi.

*Hərbi xidməti*

Ceyhun Adgözəlov Azərbaycan Silahlı Qüvvələrinin sıralarında bir müddət xidmət etmişdir. Xidmətini başa vurduqdan sonra mülki şəxs olaraq çalışmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Ceyhun Adgözəlov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Cəbrayılın, Füzulinin, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Ceyhun Adgözəlov 6 noyabr 2020-ci ildə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 7 noyabr tarixində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Ceyhun Adgözəlov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Ceyhun Adgözəlov





ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Ceyhun Adgözəlov ölümündən sonra "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Ceyhun Adgözəlov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Ceyhun Adgözəlov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

**342) Rafiz Hüseynov**



Rafiz Afiq oğlu Hüseynov (12 oktyabr 2000; Şahdağ, Gədəbəy rayonu, Azərbaycan – 28 oktyabr 2020; Şuşa rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Rafiz Hüseynov 12 oktyabr 2000-ci ildə Gədəbəy rayonunun Şahdağ kəndində anadan olmuşdur. Subay idi.

*Hərbi xidməti*

Rafiz Hüseynov 2019-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu idi.

Azərbaycan Ordusunun əsgəri olan Rafiz Hüseynov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Murovdağın, Cəbrayılın, Füzulinin, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Rafiz Hüseynov 28 oktyabr 2020-ci ildə Şuşa rayonu istiqamətinə yolların açılması üçün döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Rafiz Hüseynov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İl-

ham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Rafiz Hüseynov ölümündən sonra "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Rafiz Hüseynov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Rafiz Hüseynov ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.

**343) Elşən Əlizadə**



Elşən Faiq oğlu Əlizadə (10 avqust 1995; İsmayılbəyli, Tərtər rayonu, Azərbaycan – 14 oktyabr 2020; Suqovuşan, Tərtər rayonu, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Elşən Əlizadə 10 avqust 1995-ci ildə Tərtər rayonunun İsmayılbəyli kəndində anadan olmuşdur. Subay idi.

*Hərbi xidməti*

Elşən Əlizadə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında bir müddət hərbi xidmət etmişdi. Hərbi xidməti bitirdikdən sonra maşın təmiri və kənd təsərrüfatı ilə məşğul olmuşdu.

Azərbaycan Ordusunun əsgəri olan Elşən Əlizadə 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Elşən Əlizadə 14 oktyabr 2020-ci ildə Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elşən Əlizadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Elşən Əlizadə ölümündən sonra "Cəsur döyüşçü" medalı ilə təltif edildi.





Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Elşən Əlizadə ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**344) Baloğlan Əhədli**



Baloğlan Şakir oğlu Əhədli (10 yanvar 2002; Gəgiran, Lənkəran rayonu, Azərbaycan – 6 noyabr 2020; Daşaltı, Şuşa rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Baloğlan Əhədli 10 yanvar 2002-ci ildə Lənkəran rayonunun Gəgiran kəndində anadan olmuşdur. 2020-ci ilə qədər Lənkəran rayon Gəgiran kənd tam orta məktəbində təhsil almışdır. Subay idi.

*Hərbi xidməti*

Baloğlan Əhədli 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycan Ordusunun əsgəri olan Baloğlan Əhədli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Suqovuşanın, Füzulinin, Cəbrayılın, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Baloğlan Əhədli 6 noyabr 2020-ci ildə Şuşa döyüşləri gedişatında Şuşa rayonunun Daşaltı kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Doğulduğu Lənkəran rayonunun Gəgiran kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Baloğlan Əhədli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Baloğlan Əhədli ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Baloğlan Əhədli ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə

yerinə yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Baloğlan Əhədli ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Baloğlan Əhədli ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**345) Səid Bayramov**



Səid Eldəniz oğlu Bayramov (20 noyabr 1999; Çöl Ərəb, Kürdəmir rayonu, Azərbaycan – 1 noyabr 2020; Şuşa rayonu, Azərbaycan) –Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

Səid Bayramov 20 noyabr 1999-cu ildə Kürdəmir rayonunun Çöl Ərəb kəndində anadan olmuşdur. 2006-2017-ci illərdə şəhid Əkbər Şəmiyev adına Kürdəmir rayon Çöl Ərəb kənd tam orta məktəbində təhsil almışdır. Bir müddət kikboksinq ilə məşğul olan Səid Bayramov hərbi xidməti bitirdikdən sonra Bakı şəhərində "Araz" Supermarketdə çalışmışdır. Subay idi.

*Hərbi xidməti*

Səid Bayramov 2018-2019-cu illərdə Hava Hücumundan Müdafiə Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. Gəncə şəhərində andiçmə etdikdən sonra Qazax rayonunun Dəmirçilər kəndində yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Səid Bayramov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü kəşfiyyatçı olaraq Xüsusi Təyinatlı Qüvvələrin tərkibində iştirak etmişdir. Füzulinin, Cəbrayılın, Zəngilanın, Xocavəndin, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Səid Bayramov 1 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 5 noyabr 2020-ci ildə dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Səid Bayramov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan





Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Səid Bayramov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Səid Bayramov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarınm məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılnasmda fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Səid Bayramov ölümündən sonra "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Səid Bayramov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

**346) Hikmət Abbaslı**



Hikmət Zahir oğlu Abbaslı (18 yanvar 1999; Beyləqan rayonu, Azərbaycan – 9 noyabr 2020; Muxtar-Şuşakənd istiqaməti, Xocalı rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

*Həyatı*

